# HEYDƏR ƏLİYEV

## MÜSTƏQİLLİYİMİZ ƏBƏDİDİR

*dördüncü kitab*

*iyun, 1995 - noyabr, 1995*

*çıxışlar*
*nitqlər*
*bəyanatlar*
*məktublar*
*müsahibələr*

**AZƏRNƏŞR**
**BAKI-1997**

**BBK 66.3(5Aze)8**
**Ə - 65**

Buraxılışına məsul

**RAMİZ MEHDİYEV**
**HİDAYƏT ORUCOV**

**ƏLİYEV HEYDƏR**
**Ə 65 Müstəqilliyimiz əbədidir.** B., Azərnəşr, 1997, 528 səh.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əlirza oğlu Əliyevin çıxış, nitq, müraciət, bəyanat, müsahibə və məktublarından ibarət dördüncü cild 1995-ci il iyunun əvvəllərindən 1995-ci il noyabrın ortalarına qədərki dövrü əhatə edir. Kitaba zəmanəmizin görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin Azərbaycan xalqının müstəqil dövlət quruculuğu yolunda ardıcıl və əzmkar mübarizəsini, gərgin və mürəkkəb siyasi hadisələrlə zəngin çağdaş tariximizin obyektiv mənzərəsini əks etdirən böyük ictimai-siyasi əhəmiyyətə malik əsərləri daxil edilmişdir.

**BBK – 66.3(5Aze)8**

Ə $\frac{\textbf{0801000–000}}{\textbf{M - 651(07) - 97}}$

**© Azərnəşr, 1997**

## KİTABIN İÇİNDƏKİLƏR

BÖYÜK AZƏRBAYCAN ŞAİRİ VƏ DRAMATURQU HÜSEYN CAVİDİN MƏQBƏRƏSİNİN VƏ EV-MUZEYİNİN YARADILMASI İLƏ BAĞLI MÜŞAVİRƏDƏ ÇIXIŞ
*10 iyun 1995-ci il*........ 10

RUSİYA FEDERASİYASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ BORİS NİKOLAYEVİÇ YELTSİN CƏNABLARINA
*12 iyun 1995-ci il*........ 15

"AZƏRBAYCAN RESPUBLİKASINDA İNSAN İNKİŞAFI HAQQINDA HESABAT" KİTABININ TƏQDİMAT MƏRASİMİNDƏ ÇIXIŞ
*15 iyun 1995-ci*........ 16

"15-17 MART HADİSƏLƏRİ VƏ AZƏRBAYCANDA İCTİMAİ-SİYASİ VƏZİYYƏT" MÖVZUSUNA HƏSR OLUNMUŞ ÜMUMXALQ NÜMAYƏNDƏLƏRİ TOPLANTISINDA GİRİŞ NİTQİ
*23-24 iyun 1995-ci il*........ 19
YEKUN NİTQİ
*23-24 iyun 1995-ci il*........ 21

BOLQARISTAN RESPUBLİKASININ PREZİDENTİ JELYU JELEVİN AZƏRBAYCAN PREZİDENTİNİN ŞƏRƏFİNƏ TƏŞKİL ETDİYİ RƏSMİ QƏBULDA NİTQ
*29 iyun 1995-ci il*........ 29

BOLQARISTAN XALQ MƏCLİSİNDƏ ÇIXIŞ
*29 iyun 1995-ci il*........ 31

BOLQARISTAN RESPUBLİKASININ PREZİDENTİ JELYU JELEVLƏ BİRGƏ MƏTBUAT KONFRANSINDA ÇIXIŞ
*29 iyun 1995-ci il*........ 33

AZƏRBAYCAN RESPUBLİKASININ MİLLİ MƏCLİSİNƏ
*30 iyun 1995-ci il*........ 37

QARA DƏNİZ HÖVZƏSİ ÖLKƏLƏRİ İQTİSADİ ƏMƏKDAŞLIQ TƏŞKİLATI ÜZVLƏRİNİN DÖVLƏT VƏ HÖKUMƏT BAŞÇILARININ ZİRVƏ TOPLANTISINDA ÇIXIŞ
*30 iyun 1995-ci il*........ 38

RUMINİYA PREZİDENTİ İON İLİYESKUNUN AZƏRBAYCAN PREZİDENTİNİN ŞƏRƏFİNƏ TƏŞKİL ETDİYİ RƏSMİ QƏBULDA NİTQ
*1 iyul 1995-ci il*........ 40

RUMINİYA PREZİDENTİ İON İLİYESKU İLƏ BİRGƏ MƏTBUAT KONFRANSINDA BƏYANAT
*2 iyul 1995-ci il*........ 43

AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ İSTİQLALİYYƏT GÜNÜNÜN 219-cu İLDÖNÜMÜ MÜNASİBƏTİLƏ TƏŞKİL EDİLMİŞ BAYRAM MƏRASİMİNDƏ NİTQ
*4 iyul 1995-ci il*........ 45

AZƏRBAYCANIN XALQ ARTİSTİ AMALYA. PƏNAHOVANIN 50 İLLİK YUBİLEYİ GECƏSİNDƏ ÇIXIŞ
*8 iyul 1995-ci il*........ 47

TÜRKİYƏ RESPUBLİKASININ BAŞ NAZİRİ XANIM TANSU ÇİLLƏRİN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ İLƏ ƏLAQƏDAR BİNƏ HAVA LİMANINDA BƏYANAT
*10 iyul 1995-ci il*.................................................................................................... 48

TÜRKİYƏ RESPUBLİKASININ BAŞ NAZİRİ XANIM TANSU ÇİLLƏRİN ŞƏRƏFİNƏ RƏSMİ ZİYAFƏTDƏ NİTQ
*10 iyul 1995-ci il*.................................................................................................... 49

TÜRKİYƏ RESPUBLİKASININ BAŞ NAZİRİ XANIM TANSU ÇİLLƏRLƏ BİRGƏ MƏTBUAT KONFRANSI
*11 iyul 1995-ci il*.................................................................................................... 51

TÜRKİYƏ RESPUBLİKASININ BAŞ NAZİRİ XANIM TANSU ÇİLLƏRLƏ AZƏRBAYCAN İCTİMAİYYƏTİ NÜMAYƏNDƏLƏRİNİN GÖRÜŞÜNDƏ NİTQ
*11 iyul 1995-ci il*.................................................................................................... 54

FRANSANIN MİLLİ BAYRAMI – FRANSA İNQİLABININ 206-cı İLDÖNÜMÜ MÜNASİBƏTİLƏ FRANSANIN AZƏRBAYCANDAKI SƏFİRLİYİNİN TƏŞKİL ETDİYİ RƏSMİ QƏBULDA ÇIXIŞ
*14 iyul 1995-ci il*.................................................................................................... 58

AZƏRBAYCANDA RƏSMİ SƏFƏRDƏ OLAN RUSİYA FEDERAL MƏCLİSİ FEDERASİYA ŞURASININ SƏDRİ VLADİMİR ŞUMEYKONUN ŞƏRƏFİNƏ TƏŞKİL EDİLƏN QƏBULDA NİTQ
*14 iyul 1995-ci il*.................................................................................................... 60

RUSİYA FEDERAL MƏCLİSİ FEDERASİYA ŞURASININ SƏDRİ VLADİMİR ŞUMEYKONUN BAKININ NƏRİMANOV RAYONUNDA MƏSKUNLAŞMIŞ QAÇQINLARLA GÖRÜŞÜNDƏ ÇIXIŞ
*15 iyul 1995-ci il*.................................................................................................... 63

RUSİYA FEDERAL MƏCLİSİ FEDERASİYA ŞURASININ SƏDRİ VLADİMİR ŞUMEYKONUN ADINDAN AZƏRBAYCAN RƏHBƏRLİYİNİN ŞƏRƏFİNƏ TƏŞKİL EDİLƏN QƏBULDA NİTQ
*15 iyul 1995-ci il*.................................................................................................... 65

MİSİR İNQİLABININ 43-cü İLDÖNÜMÜ MÜNASİBƏTİLƏ MİSİR ƏRƏB RESPUBLİKASININ AZƏRBAYCANDAKI SƏFİRLİYİNİN TƏŞKİL ETDİYİ RƏSMİ QƏBULDA ÇIXIŞ
*21 iyul 1995-ci il*.................................................................................................... 66

22 İYUL – MİLLİ MƏTBUAT GÜNÜ MÜNASİBƏTİLƏ TƏBRİK
*21 iyul 1995-ci il*.................................................................................................... 67

AZƏRBAYCAN RESPUBLİKASININ YENİ KONSTİTUSİYA LAYİHƏSİNİ HAZIRLAYAN KOMİSSİYANIN İCLASINDA ÇIXIŞ
*26 iyul 1995-ci il*.................................................................................................... 68

UKRAYNA PREZİDENTİ LEONİD KUÇMANIN BAKININ NƏSİMİ RAYONU ƏRAZİSİNDƏ MÜVƏQQƏTİ MƏSKUNLAŞMIŞ ZƏNGİLAN, QUBADLI VƏ CƏBRAYIL QAÇQINLARI İLƏ GÖRÜŞÜNDƏ ÇIXIŞ
*27 iyul 1995-ci il*.................................................................................................... 70

UKRAYNA PREZİDENTİ LEONİD KUÇMANIN ŞƏRƏFİNƏ TƏŞKİL EDİLƏN QƏBULDA NİTQ
*27 iyul 1995-ci il*.................................................................................................... 71

UKRAYNA PREZİDENTİ LEONİD KUÇMA İLƏ AZƏRBAYCANIN SƏNAYE

**MÜƏSSİSƏLƏRİNİN RƏHBƏRLƏRİ VƏ İŞGÜZAR DAİRƏLƏRİNİN NÜMAYƏNDƏLƏRİNİN GÖRÜŞÜNDƏ GİRİŞ SÖZÜ**
***28 iyul 1995-ci il*.......... 73**
**YEKUN SÖZÜ**
***28 iyul 1995-ci il*.......... 74**

**UKRAYNA PREZİDENTİ LEONİD KUÇMA İLƏ BİRGƏ MƏTBUAT KONFRANSI**
***28 iyul 1995-ci il*.......... 75**

**UKRAYNA PREZİDENTİ LEONİD KUÇMA İLƏ BAKKONDİSİONER İSTEHSALAT BİRLİYİ ƏMƏKÇİLƏRİNİN GÖRÜŞÜNDƏ ÇIXIŞ**
***28 iyul 1995-ci il*.......... 79**

**BOLQARISTANA VƏ RUMINİYAYA RƏSMİ SƏFƏRƏ YOLA DÜŞMƏZDƏN ƏVVƏL BİNƏ HAVA LİMANINDA MƏTBUAT ÜÇÜN BƏYANAT**
***29 iyul 1995-ci il*.......... 81**

**RESPUBLİKA HÜQUQ-MÜHAFİZƏ ORQANLARI RƏHBƏRLƏRİNİN İŞTİRAKI İLƏ KEÇİRİLMİŞ MÜŞAVİRƏDƏ GİRİŞ SÖZÜ**
***4 avqust 1995-ci il*.......... 82**
**YEKUN SÖZÜ**
***4 avqust 1995-ci il*.......... 83**

**BÖYÜK QAZAX ŞAİRİ ABAY KUNANBAYEVIN ANADAN OLMASININ 150 İLLİYİNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ YIĞINCAQDA ÇIXIŞ**
***9 avqust 1995-ci il*.......... 85**

**BÖYÜK QAZAX ŞAİRİ ABAY KUNANBAYEVİN 150 İLLİK YUBİLEYİNDƏ İŞTİRAK EDƏN DÖVLƏT BAŞÇILARININ VƏ NÜMAYƏNDƏ HEYƏTLƏRİ RƏHBƏRLƏRİNİN ŞƏRƏFİNƏ RƏSMİ QƏBULDA NİTQ**
***9 avqust 1995-ci il*.......... 86**

**AZƏRBAYCAN RESPUBLİKASININ YENİ KONSTİTUSİYA LAYİHƏSİNİ HAZIRLAYAN KOMİSSİYANIN GENİŞ İCLASINDA NİTQ**
**16 *avqust 1995-ci il*.......... 87**

**DİNDARLARLA GÖRÜŞDƏ ÇIXIŞ**
***18 avqust 1995-ci il*.......... 99**

**BÖYÜK BRİTANİYANIN BAKIDAKI SƏFİRLİYİNİN YENİ BİNASININ AÇILIŞI MƏRASİMİNDƏ ÇIXIŞ**
***24 avqust 1995-ci il*.......... 102**

**RESPUBLİKADA KƏND TƏSƏRRÜFATI İŞLƏRİNİN GEDİŞİ VƏ AQRAR İSLAHATLARIN HƏYATA KEÇİRİLMƏSİ VƏZİYYƏTİNƏ HƏSR OLUNMUŞ MÜŞAVİRƏDƏ GİRİŞ SÖZÜ**
***25 avqust 1995-ci il*.......... 104**
**YEKUN NİTQİ**
***25 avqust 1995-ci il*.......... 104**

**TÜRKDİLLİ DÖVLƏTLƏR BAŞÇILARININ 3-cü ZİRVƏ TOPLANTISINDA ÇIXIŞ**
***28 avqust 1995-ci il*.......... 112**

**TÜRKDİLLİ DÖVLƏTLƏR BAŞÇILARININ ZİRVƏ TOPLANTISINDA MƏTBUAT KONFRANSINDA BƏYANAT**
***28 avqust 1995-ci il*.......... 115**

"MANAS" DASTANININ 1000 İLLİYİNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ YIĞINCAQDA ÇIXIŞ
*28 avqust 1995-ci il*........................................ 116

"MANAS" MUZEYİNİN TƏNTƏNƏLİ AÇILIŞI MƏRASİMİNDƏ ÇIXIŞ
*29 avqust 1995-ci il*........................................ 118

BİŞKEKDƏN ZİRVƏ TOPLANTISINDAN BAKIYA QAYIDARKƏN TƏYYARƏDƏ JURNALİSTLƏRƏ MÜSAHİBƏ
*29 avqust 1995-ci il*........................................ 119

QADINLARIN VƏZİYYƏTİNƏ DAİR DÖRDÜNCÜ ÜMUMDÜNYA KONFRANSININ İŞTİRAKÇILARINA
*4 sentyabr 1995-ci il*........................................ 120

İSLAM KONFRANSI TƏŞKİLATININ BAŞ KATİBİ ZATİ-ALİLƏRİ HƏMİD ƏL-QABİD CƏNABLARINA
*7 sentyabr 1995-ci il*........................................ 121

1992-ci İLDƏ NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİNİN SƏDRİ İŞLƏYƏRKƏN HEYDƏR ƏLİYEVƏ "SƏS" QƏZETİ VASİTƏSİLƏ MÜRACİƏT ETMİŞ AZƏRBAYCAN ZİYALILARI İLƏ GÖRÜŞDƏ ÇIXIŞ
*9 sentyabr 1995-ci il*........................................ 122
YEKUN NİTQİ
*9 sentyabr 1995-ci il*........................................ 130

BAKIDA İKİNCİ PROTEZ-ORTOPEDİK MƏRKƏZİN AÇILIŞI MƏRASİMİNDƏ ÇIXIŞ
*18 sentyabr 1995-ci il*........................................ 134

DAHİ AZƏRBAYCAN BƏSTƏKARI ÜZEYİR HACIBƏYOVUN ANADAN OLMASININ 110 İLLİYİNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ YUBİLEY GECƏSİNDƏ NİTQ
*18 sentyabr 1995-ci il*........................................ 136

"HƏR ŞEY İNSAN ÜÇÜN" BİRİNCİ AZƏRBAYCAN BEYNƏLXALQ TİCARƏT SƏRGİSİNİN RƏSMİ AÇILIŞI MƏRASİMİNDƏ ÇIXIŞ
*20 sentyabr 1995-ci il*........................................ 141

AZƏRBAYCAN NEFT-QAZ SƏNAYESİ KOLLEKTİVLƏRİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞDƏ GİRİŞ SÖZÜ
*20 sentyabr 1995-ci il*........................................ 143
YEKUN SÖZÜ
*20 sentyabr 1995-ci il*........................................ 143

AZƏRBAYCAN YƏHUDİ İCMASINA
*25 sentyabr 1995-ci il*........................................ 151

ÇİN XALQ RESPUBLİKASI YARANMASININ 46-cı İLDÖNÜMÜ MÜNASİBƏTİLƏ RƏSMİ QƏBULDA NİTQ
*29 sentyabr 1995-ci il*........................................ 152

TÜRK XALQLARININ III DOSTLUQ, QARDAŞLIQ VƏ ƏMƏKDAŞLIQ QURULTAYININ İŞTİRAKÇILARINA
*30 sentyabr 1995-ci il*........................................ 153

AZƏRBAYCAN RESPUBLİKASININ YENİ KONSTİTUSİYA LAYİHƏSİNİ HAZIRLAYAN KOMİSSİYANIN İCLASINDA ÇIXIŞ
*3 oktyabr 1995-ci il*........................................ 154

ALMANİYANIN YENİDƏN BİRLƏŞMƏSİ GÜNÜ MÜNASİBƏTİLƏ AFR-in AZƏRBAYCANDAKI SƏFİRLİYİNİN TƏŞKİL ETDİYİ RƏSMİ QƏBULDA NİTQ
*3 oktyabr 1995-ci il*.......................................................................................................... 159

AVROPA BİRLİYİ KOMİSSİYASININ KOMİSSARI HANS VAN DEN BURUKLA BİRGƏ MƏTBUAT KONFRANSINDA BƏYANAT
*4 oktyabr 1995-ci il*.......................................................................................................... 161

BMT-nin 50 İLLİYİNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ GECƏDƏ NİTQ
*6 oktyabr 1995-ci il*.......................................................................................................... 162

AZƏRBAYCAN İLƏ RUSİYA ARASINDA ƏMƏKDAŞLIQ HAQQINDA SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİNDƏ ÇIXIŞ
*7 oktyabr 1995-ci il*.......................................................................................................... 165

PAKİSTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ FƏRRUX ƏHMƏD XAN LEQARİNİN BİNƏ HAVA LİMANINDA QARŞILANMA MƏRASİMİNDƏ BƏYANAT
*9 oktyabr 1995-ci il*.......................................................................................................... 166

AZƏRBAYCAN RESPUBLİKASI İLƏ PAKİSTAN İSLAM RESPUBLİKASI ARASINDA ƏMƏKDAŞLIQ HAQQINDA SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİNDƏ MƏTBUAT ÜÇÜN BƏYANAT
*9 oktyabr 1995-ci il*.......................................................................................................... 167

PAKİSTAN PREZİDENTİ FƏRRUX ƏHMƏD XAN LEQARİ İLƏ AZƏRBAYCAN MİLLİ MƏCLİSİ ÜZVLƏRİNİN GÖRÜŞÜNDƏ NİTQ
*10 oktyabr 1995-ci il*........................................................................................................ 168

PAKİSTAN PREZİDENTİ FƏRRUX ƏHMƏD XAN LEQARİHİN ŞƏRƏFİNƏ RƏSMİ QƏBULDA NİTQ
*10 oktyabr 1995-ci il*........................................................................................................ 170

PAKİSTAN PREZİDENTİ FƏRRUX ƏHMƏD XAN LEQARİNİN AZƏRBAYCAN DÖVLƏT İNŞAAT MÜHƏNDİSLƏRİ UNİVERSİTETİNİN YATAQXANASINDA MÜVƏQQƏTİ MƏSKUNLAŞMIŞ FÜZULİ, KƏLBƏCƏR, ZƏNGİLAN, QAÇQINLARI İLƏ GÖRÜŞÜNDƏ ÇIXIŞ
*11 oktyabr 1995-ci il*........................................................................................................ 172

AZƏRBAYCANIN XALQ ŞAİRİ BƏXTİYAR VAHABZADƏYƏ
*12 oktyabr 1995-ci il*........................................................................................................ 174

AZƏRBAYCAN RESPUBLİKASININ YENİ KONSTİTUSİYA LAYİHƏSİNİ HAZIRLAYAN KOMİSSİYANIN İCLASINDA GİRİŞ SÖZÜ
*12 oktyabr 1995-ci il*........................................................................................................ 175
YEKUN SÖZÜ
*14 oktyabr 1995-ci il*........................................................................................................ 175

GÖRKƏMLİ ALİM VƏ CƏRRAH MUSTAFA BƏY TOPÇUBAŞOVUN ANADAN OLMASININ 100 İLLİYİ YUBİLEYİNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ GECƏDƏ ÇIXIŞ
*14 oktyabr 1995-ci il*........................................................................................................ 177

AZƏRBAYCANDA PARLAMENT SEÇKİLƏRİ İLƏ ƏLAQƏDAR BAKIYA GƏLMİŞ BEYNƏLXALQ MÜŞAHİDƏÇİLƏR QRUPU İLƏ GÖRÜŞDƏ ÇIXIŞ
*17 oktyabr 1995-ci il*........................................................................................................ 180

HƏRBİ XİDMƏTDƏN YAYINMIŞ, FƏRARİLİK ETMİŞ VƏ DİGƏR HƏRBİ CİNAYƏTLƏR TÖRƏTMİŞ ŞƏXSLƏRİN VALİDEYNLƏRİ İLƏ KEÇİRİLƏN

**GÖRÜŞDƏ ÇIXIŞ**
*18 oktyabr 1995-ci il*............................................................................................................ 182
**YEKUN SÖZÜ**
*18 oktyabr 1995-ci il*............................................................................................................ 186

**BMT-nin 50 İLLİYİ YUBİLEYİ İLƏ ƏLAQƏDAR BMT BAŞ MƏCLİSİNİN XÜSUSİ TƏNTƏNƏLİ İCLASINDA İŞTİRAK ETMƏK ÜÇÜN ABŞ-a YOLA DÜŞƏRKƏN İSTANBULUN ATATÜRK HAVA LİMANINDA MƏTBUAT KONFRANSINDA BƏYANAT**
*20 oktyabr 1995-ci il*............................................................................................................ 187

**ABŞ-da YAŞAYAN AZƏRBAYCANLI İCMASININ NÜMAYƏNDƏLƏRİ İLƏ TÜRK EVİNDƏ GÖRÜŞDƏ ÇIXIŞ**
*20 oktyabr 1995-ci il*............................................................................................................ 190

**BMT-nin 50 İLLİYİ YUBİLEYİ İLƏ ƏLAQƏDAR BMT BAŞ MƏCLİSİNİN XÜSUSİ TƏNTƏNƏLİ İCLASINDA ÇIXIŞ**
*22 oktyabr 1995-ci il*............................................................................................................ 194

**BMT-nin 50 İLLİYİ İLƏ ƏLAQƏDAR YUBİLEY TƏNTƏNƏLƏRİ ZAMANI ABŞ-ın NÜFUZLU MƏTBUAT ORQANLARI VƏ İNFORMASİYA AGENTLİKLƏRİNİN MÜXBİRLƏRİNƏ MÜSAHİBƏ**
*24 oktyabr 1995-ci il*............................................................................................................ 195

**NEFT KONSORSİUMUNA DAXİL OLAN ABŞ ŞİRKƏTLƏRİNİN AZƏRBAYCAN DÖVLƏT BAŞÇISININ ŞƏRƏFİNƏ TƏŞKİL ETDİKLƏRİ RƏSMİ QƏBULDA NİTQ**
*24 oktyabr 1995-ci il*............................................................................................................ 199

**Sİ-EN-EN TELEŞİRKƏTİNİN MÜXBİRİNƏ MÜSAHİBƏ**
*25 oktyabr 1995-ci il*............................................................................................................ 201

**TÜRKİYƏ RESPUBLİKASININ 72-ci İLDÖNÜMÜ MÜNASİBƏTİLƏ BAKIDAKI TÜRKİYƏ SƏFİRLİYİNİN TƏŞKİL ETDİYİ RƏSMİ QƏBULDA NİTQ**
*28 oktyabr 1995-ci il*............................................................................................................ 203

**BAKI ŞƏHƏR METROPOLİTENİNDƏ BAŞ VERMİŞ FACİƏ İLƏ ƏLAQƏDAR MİLLİ TELEVİZİYA VƏ RADİO İLƏ XALQA MÜRACİƏT**
*29 oktyabr 1995-ci il*............................................................................................................ 205

**AZƏRBAYCAN RESPUBLİKASININ YENİ KONSTİTUSİYA LAYİHƏSİNDƏ DÖVLƏT DİLİ HAQQINDA MADDƏNİN GENİŞ MÜZAKİRƏSİNDƏ NİTQ**
*31 oktyabr 1995-ci il*............................................................................................................ 207

**QAZAXISTAN RESPUBLİKASININ MÜSTƏQİLLİK GÜNÜ MÜNASİBƏTİLƏ BAKIDAKI QAZAXISTAN SƏFİRLİYİNİN TƏŞKİL ETDİYİ RƏSMİ QƏBULDA NİTQ**
*31 oktyabr 1995-ci il*............................................................................................................ 214

**AZƏRBAYCAN RESPUBLİKASININ YENİ KONSTİTUSİYA LAYİHƏSİNİ HAZIRLAYAN KOMİSSİYANIN İCLASINDA GİRİŞ SÖZÜ**
*2 noyabr 1995-ci il*............................................................................................................ 216
**YEKUN SÖZÜ**
*2 noyabr 1995-ci il*............................................................................................................ 219

**AZƏRBAYCANIN XALQ ARTİSTİ VASİF ADIGÖZƏLOVA**
*3 noyabr 1995-ci il*............................................................................................................ 222

**AZƏRBAYCAN RESPUBLİKASININ YENİ KONSTİTUSİYA LAYİHƏSİNİ**

**HAZIRLAYAN KOMİSSİYANIN İCLASINDA GİRİŞ SÖZÜ**
***5 noyabr 1995-ci il*... 223**
**YEKUN SÖZÜ**
***5 noyabr 1995-ci il*... 223**

**GÜRCÜSTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ EDUARD ŞEVARDNADZE CƏNABLARINA**
***8 noyabr 1995-ci il*... 227**

**MİLLİ MƏCLİSƏ SEÇKİLƏR ÜZRƏ MƏRKƏZİ SEÇKİ KOMİSSİYASININ ÜZVLƏRİ İLƏ GÖRÜŞDƏ GİRİŞ SÖZÜ**
***9 noyabr 1995-ci il*... 228**
**YEKUN SÖZÜ**
***9 noyabr 1995-ci il*... 228**

**AZƏRBAYCAN RESPUBLİKASININ YENİ KONSTİTUSİYA LAYİHƏSİNİ HAZIRLAYAN KOMİSSİYANIN İCLASINDA ÇIXIŞI**
***10 noyabr 1995-ci il*... 231**

**"QARABAĞ" NEFT STRUKTURUNDA ARDNŞ İLƏ BİR QRUP XARİCİ NEFT ŞİRKƏTİ – "LUKOYL" (RUSİYA), ACİP (İTALİYA), "PENNZOYL KƏSPİƏN DEVELOPMENT KORPOREYŞN" (ABŞ), LUKACİP (RUSİYA-İTALİYA) ARASINDA BİRGƏ İŞ HAQQINDA SAZİŞİN TƏNTƏNƏLİ İMZALANMA MƏRASİMİNDƏ ÇIXIŞ**
***10 noyabr 1995-ci il*... 243**

**28 saylı SƏBAİL SEÇKİ DAİRƏSİNİN 17 saylı SEÇKİ MƏNTƏQƏSİNDƏ SƏS VERDİKDƏN SONRA JURNALİSTLƏRLƏ GÖRÜŞDƏ BƏYANAT**
***12 noyabr 1995-ci il*... 246**

**ÜÇ QİTƏ BEYNƏLXALQ KİNOFESTİVALININ TƏŞKİLATÇILARI VƏ İŞTİRAKÇILARINA**
***21 noyabr 1995-ci il*... 250**

## BÖYÜK AZƏRBAYCAN ŞAİRİ VƏ DRAMATURQU HÜSEYN CAVİDİN MƏQBƏRƏSİNİN VƏ EV-MUZEYİNİN YARADILMASI İLƏ BAĞLI MÜŞAVİRƏDƏ ÇIXIŞ

*Prezident Sarayı*

*10 iyun 1995-ci il*

Bu gün mən sizi mədəniyyətimizlə, ədəbiyyatımızla bağlı olan bir məsələ üçün – Azərbaycan xalqının böyük şairi, yazıçısı, dramaturqu, filosofu Hüseyn Cavidin xatirəsi ilə əlaqədar buraya dəvət etmişəm. Bilirsiniz ki, Hüseyn Cavidin həyatı, yaradıcılığı Azərbaycan üçün nə qədər dəyərli, əhəmiyyətli olub, onun qoyduğu ədəbi, mənəvi irs bizim üçün nə qədər əhəmiyyətli və gərəklidir. Eyni zamanda onun həyatı faciəli olubdur. Ancaq bu faciəli dövrlər onun yaratdıqlarını Azərbaycan xalqının qəlbindən çıxara bilməyib, yaşadıbdır.

Biz 1981-ci ildə Hüseyn Cavidin anadan olmasının 100 illiyi haqqında qərar qəbul etdik. Bundan sonra bir çox işlər görüldü. Ancaq təəssüf ki, o vaxt qəbul olunan qərarlarda nəzərdə tutulmuş tədbirlərin bəziləri indiyədək həyata keçirilməyib. O dövrdən isə artıq 15 il keçir.

1981-ci ildə biz Hüseyn Cavidin cənazəsini Sibirdən gətirərkən geniş müzakirələr oldu və nəhayət, bu müzakirələr belə nəticə verdi ki, o, Naxçıvanda – anadan olduğu yerdə dəfn olunsun. Biz belə də etdik. Hüseyn Cavidin cənazəsinin Naxçıvanda torpağa tapşırılması haqqında qəbul etdiyimiz qərarın əsas səbəblərindən biri də o idi ki, onun qəbri adi bir qəbir olmasın, böyük bir məqbərə olsun. Ona görə də Hüseyn Cavidin cənazəsi Naxçıvana aparıldı və orada şəhərin mərkəzində dəfn edildi. Ancaq təəssüf ki, sonrakı illərdə məqbərə də tikilməyib, hətta qəbrin üstü də götürülməyibdir. Təəssüfedici haldır, ancaq bu, gözümüzün qabağında olan faktdır. Keçmişimizdə günahlar, səhvlər çox olub. Bunu kim edib, nə üçün belə olub, – artıq bunu təhlil etməyə ehtiyac yoxdur. Güman edirəm ki, indi biz o qərarı həyata keçirməliyik.

Mən böyük bir fasilədən sonra – 1990-cı ildə Moskvadan [5-6] Azərbaycana döndüm, Naxçıvana getdim və elə həmin gün Hüseyn Cavidin qəbrini ziyarət etdim. Doğrusu, mən belə təsəvvür etmirdim. Fikirləşirdim ki, məqbərə yoxdursa da, heç olmasa sənətkarın qəbrinin üstü götürülüb. Ancaq gedib oradakı vəziyyəti gördüm, təəssüfləndim, çox narahat oldum. Gördüm ki, qəbrin üstünə sadəcə olaraq daşlar qoyulub, məqbərə də tikilməyib.

O vaxt mən bu məsələnin həllinə can atdım. Həmin dövrdə Kommunist Partiyası hakimiyyətdə idi. Mən bir neçə dəfə Naxçıvan Vilayət Partiya Komitəsinin rəhbərlərinə müraciət etdim ki, bu məsələ həll olunmayıb, mən də gəlmişəm, bu işi öz üzərimə götürürəm, gəlin onu həll edək. Ancaq bu, bir nəticə vermədi. Düzdür, mənim təzyiqimin nəticəsində vilayət partiya komitəsinə bir layihə gətirdilər, rəhmətlik Afiyəddin Cəlilov o layihəni bir gün mənə göstərdi və dedi ki, sizin təklifinizlə belə bir layihə hazırlanıb. Layihə xoşuma gəlmədi. Mən hesab etdim ki, bu layihə "məqbərə" məfhumunu əks etdirmir. Ona görə də dedim ki, bunun üzərində yenə də işləmək lazımdır. Bundan sonra dəyişikliklər oldu. Naxçıvana bir-iki il də mən rəhbərlik etdim. İndi siz deyə bilərsiniz ki, kim isə edə bilməyib, bəs siz niyə bu işi etmədiniz? Mənim buna sadəcə imkanım olmadı.

Turan xanım yəqin ki, xatırlamalıdır. Mən Naxçıvanın mədəniyyət naziri Fəttahova bir-iki dəfə göstəriş verdim ki, Turan xanımı Naxçıvana dəvət edin, oturaq fikirləşək, görək nə edək. Ancaq Turan xanım xəstə olduğu üçün Naxçıvana gələ bilmədi. Açıq deyim ki, Turan xanım o vaxt gəlsəydi də biz bir şey edə bilməyəcəkdik. Şübhəsiz ki, gəlsəydi məsləhətləşəcəkdik, ancaq mənim 1981-ci ildə nəzərdə tutduğum planı həyata keçirmək mümkün olmayacaqdı. Çünki bilirsiniz ki, o vaxt Azərbaycanın hakimiyyəti ilə Naxçıvanın əlaqələri çox gərgin idi. Bir vaxtlar Naxçıvana bir cür təzyiq edirdilər, sıxırdılar. Naxçıvanın Ermənistan tərəfindən blokadada olması ilə yanaşı, Azərbaycanın rəhbərliyi də Naxçıvanı blokadaya salırdı.

Təxminən 1991-ci ildən 1992-ci ilin yayınadək bir hakimiyyət dövrü idi. 1992-ci ilin yayından sonra başqa bir hakimiyyət gəldi, hesab etdim ki, bəlkə bu hakimiyyət Naxçıvanın dərdlərinə qayğı göstərər. Ancaq onlar Naxçıvana münasibəti daha da gərginləşdirdilər, blokada şəraitini daha da artırdılar. Artıq orada elektrik, su yox idi. İnsanlara çörək tapmaq, elektrik [6-7] xətti çəkmək, camaatı saxlamaq lazım idi, amma bizim nə vəsaitimiz var idi, nə də blokadada olduğumuza görə, vəsait tapsaydıq da həmin məqbərəni inşa etməyə imkan yox idi. Çünki bütün inşaat idarələrinin hamısı dayanmışdı.

Düzünü deyim ki, mən buraya gələndən bu planın həyata keçirilməsi fikri daim qəlbimdədir. Bu müddətdə də göstərişlər vermişəm, xahişlər etmişəm ki, layihələr hazırlasınlar. Ancaq bir çox ciddi problemlər buna imkan verməyib. Nəhayət, hesab edirəm ki, indi bu məsələ ilə ciddi məşğul olmalıyıq. Oktyabr ayında Hüseyn Cavidin anadan olmasının ildönümüdür. O vaxtadək bu məqbərəni tikib başa çatdırmalıyıq. Yəni 1981-ci ildə qəbul etdiyimiz qərarı heç olmasa 1995-ci ildə həyata keçirməliyik.

Birincisi, bu məsələyə görə sizi buraya dəvət etmişəm. Mənə dedilər ki, burada bir neçə layihə var. Elçin Əfəndiyevə də, Fatma Abdullazadəyə də tapşırmışdım ki, həmin layihələrə baxsınlar, sonra oturub

fikirləşək, məsləhətləşək. Ancaq eyni zamanda, bir halda ki, buraya yığışmışıq, əslində qabaqcadan başqa məsələlər də nəzərdə tuturdum. Biz o vaxtlar Hüseyn Cavidin ev-muzeyi haqqında da qərar qəbul etmişdik. Həmin ev-muzeyinin təşkili də böyük bir çətinlik yaratdı.

Mən keçmiş təcrübədən bilirəm ki, hakimiyyətdə olan şəxslər, orqanlar bir məsələni həll etmək istəsələr onu edə bilərlər. Vaxtilə, 1976-cı ildə biz böyük şairimiz Səməd Vurğunun 70 illik yubileyinə hazırlaşanda onun ev-muzeyini bir neçə ay müddətində təşkil etdik və bu muzey indi də fəaliyyət göstərir. Ondan əvvəl, 1975-ci ildə böyük bəstəkarımız Üzeyir Hacıbəyovun ev-muzeyini yaratdıq. Sonra Cəfər Cabbarlının 80 illik yubileyi ərəfəsində onun həm böyük abidəsini, heykəlini qoyduq, həm də ev-muzeyini yaratdıq. Böyük sənətkarımız, müğənnimiz Bülbülün də ev-muzeyini yaratdıq.

Demirəm ki, bunlar asan işdir. Amma respublika miqyasında bunlar o qədər də böyük iş deyil ki, onu etmək mümkün olmasın. Buna sadəcə münasibət, istək lazımdır. Məsələn, biz 70-ci illərdə Cəlil Məmmədquluzadənin ev-muzeyinin yaradılması haqqında da qərar qəbul etmişdik. Amma bu, o vaxtdan qaldı. Xatirinizdədir ki, həmin ev-muzeyi açılanda mən oraya getdim, onun açılışında iştirak etdim. Xatırladım ki, biz Cəlil Məmmədquluzadənin yaşamış olduğu evdəki vətəndaşlara, onların qohumlarına hələ 1981-1982-ci illərdə başqa yerlərdə mənzillər verdik. Yəni Cəlil Məmmədquluzadənin yaşadığı ev [7-8] hələ o vaxt boşaldılmışdı, ancaq bu muzey yaranmamışdı. Həmin muzeyi biz keçən il yaratdıq. O, Azərbaycanın mədəniyyəti, tarixi üçün yeni bir səhifə oldu və yeni bir abidədir. Böyük bəstəkarımız, dirijorumuz Niyazi 1983-cü ildə vəfat edib, ancaq onun ev-muzeyini bir il bundan əvvəl yaratdıq. Yəni istəyəndə eləmək mümkün olur. Bu işə münasibətdən asılıdır.

Hüseyn Cavidin həyatı da çox çətin, faciəli olub. Ancaq biz Hüseyn Cavidin tariximizdə, mədəniyyətimizdə, ədəbiyyatımızda tutduğu yeri müəyyən etdik və o vaxt qərar qəbul etdik. Cəmiyyət bildi, ictimaiyyət bunu qəbul etdi, alqışladı, bəyəndi. Bundan sonra Hüseyn Cavidin ev-muzeyinin yaradılması da problemə dönüb. Mənə dedilər ki, bu muzey üçün iki-üç otaq ayırıblar, ancaq bu, ev-muzeyi səviyyəsində deyil. Ev-muzeyi yoxdur. İndi bununla razılaşmaq olmaz. Ona görə mən dedim ki, bu gün lazım olsa bir neçə saat vaxt sərf edək, bu məsələlərin hamısını həll edək. Mən Akademiyanın, Əlyazmalar İnstitutunun rəhbərlərini də buraya dəvət etmişəm. Bilirsiniz, elə məsələlər var ki, onları siz özünüz həll edə bilərsiniz. Mən belə hesab edirəm. Gəlin açıq danışaq, lazım deyil ki, mən bu işə qarışım. Əgər mənə qalsa, vəzifə borcumla əlaqədar 1981-ci ildə bütün qərarlar qəbul olunmuşdu və bu qərarları yerinə yetirmək lazımdır. Hüseyn Cavid bizim üçün doğrudan da əzizdir. O, tariximizdə böyük bir şəxsiyyətdir və böyük bir irs qoyub. Xalqımız, tariximiz nə qədər yaşayacaqsa, Hüseyn Cavidin irsi də o qədər yaşayacaq və xalqımız ondan istifadə edəcək. İndi onun ev-muzeyini yaratmaq üçün bu, onun üstünə, o, bunun üstünə atır. İki-üç otağın verilməsini həll etmək böyük bir məsələ deyil ki? Ona görə də mən bir çox adamları da buraya dəvət etmişəm ki, bütün bunları həll edək.

1981-ci ildə qərar qəbul etmişdik ki, Bakıda Hüseyn Cavidin abidəsi qoyulsun. Heykəltəraş Ömər Eldarov bu işə başlamışdı və o vaxt onun emalatxanasında eskizlərlə tanış olmuşdum. Heykəlin yeri barədə də müxtəlif fikirlər oldu. Nəhayət, heykəlin yeri müəyyən olunub və uzun müddətdən sonra abidə də qoyulub. Ancaq mən Ömər Eldarovla görüşdüm, danışdım. Mənə deyilənə görə, həmin abidə kompleksi hələ tamamlanmayıb. Hər halda, bu da şəhərin sərəncamında olan işdir. İndi görürəm ki, bu məsələyə də mən qarışmasam həll olunmur. İstəyirəm ki, bu gün həmin məsələni də həll edək.[8-9]

Bax, mən bütün bu məsələləri həll etmək üçün sizi buraya dəvət etmişəm. Yəni mənim qəti fikrimdir ki, bu ilin oktyabr ayınadək Naxçıvanda Hüseyn Cavidin qəbri üzərində möhtəşəm bir abidə, məqbərə qurulmalıdır. Ona görə də biz bu gün burada olan layihələrə baxaq, onların hansı birini seçə biləriksə seçək. Mən belə qərara gəlmişəm ki, hökumətin, dövlətin ehtiyat fondundan vəsait ayrılsın, lazım olan materiallar qısa müddətdə tapılsın, inşaat işləri aparılsın və məqbərə qurulsun. Mən bu gün buraya heykəltəraşları, memarları, rəssamları da dəvət etmişəm ki, bu layihələrə hamımız birlikdə baxaq. Ancaq məqbərənin bu ilin oktyabr ayınadək yaranması təmin olunmalıdır. Fikrim qətidir, mən bu barədə sərəncam verəcəyəm və bunun üçün lazım olan vəsaiti dövlətdən ayıracağam. Biz bu gün layihəni müəyyənləşdirməliyik və mən bundan sonra inşaat işlərinə başlamaq üçün müəyyən orqanlara lazımi tapşırıqlar verəcəyəm.

Mən burada hiss etdim ki, ev-muzeyinin təşkilində də müəyyən çətinlik var. Deyilənə görə, Əlyazmalar İnstitutundakı həmin otaqların boşaldılması üçün Dövlət İqtisad İnstitutunun onun yaxınlığında yerləşən binadakı fakültəsi oradan çıxarılmalıdır. İndi bu barədə də kim lazımdırsa sözünü desin. Ancaq mənim fikrim qətidir ki, layiqli ev-muzeyi yaradılmalıdır. Çünki yarımçıq iş yaramaz. Biz ev-muzeyləri yaratmışıq və xalqımızın görkəmli nümayəndələrinin ev-muzeylərini bundan sonra da yaradacağıq. Bu, yaxşı ənənədir və onu davam etdirmək lazımdır. Mən yenə də deyirəm ki, Cavidin yaşadığı yerdə ev-muzeyi yaradılmalıdır. Hüseyn Cavidin abidəsinin ətrafında da lazımi işlər görülməlidir. Bu barədə Ömər Eldarov məlumat verə bilər və biz də müvafiq qərar qəbul edərik ki, o işlər qısa müddətdə görülsün.

* * *

Biz indi bu layihələrə baxacağıq, ancaq mən ümumi fikrimi demək istəyirəm. Əslində bu fikir 1981-ci ildə də var idi və həmin vaxtdan məndə yaşayır. Nizami Gəncəvinin qəbri üzərində vaxtilə bir məqbərə düzəldilmişdi. Dahi şairin 850 illik yubileyi münasibətilə həmin məqbərə yenidən quruldu. Mən Gəncəyə

gedəndə ona baxdım. O vaxt Gəncədəki alüminium zavodunda istehsal prosesi elə idi ki, onun tozu Nizaminin məqbərəsini bərbad hala qoyurdu. Xatirimdədir ki, Azərbaycanın görkəmli yazıçıları, mədəniyyət xadimləri həmin məqbə[9-10]rənin yerinin dəyişdirilməsi barədə mənə bir neçə dəfə müraciət etmişdilər. Mən bu barədə məktub da almışdım. O məktubu mərhum Rəsul Rza, Qara Qarayev, İmran Qasımov, Süleyman Rüstəm və bir çox başqaları imzalamışdılar. Doğrudan da, belə bir narahatçılıq var idi. O vaxt mən özüm də bir dəfə Gəncədə olanda gedib baxdım. Texnologiyanın aşağı səviyyədə olması üzündən alüminium zavodundan çıxan tozlar həqiqətən, o vaxt Gəncənin bu ərazisini bütünlüklə bürüyürdü. Hətta oradakı ağaclar, güllər də çox pis vəziyyətə düşürdü.

Bu məsələ bir neçə il müzakirə olundu. Mən 70-ci illəri deyirəm. Ancaq mən düşünürdüm ki, əgər bu qəbir buradadırsa, bütün müharibələrə, hücumlara, qalibiyyətlərə, məğlubiyyətlərə, dəyişikliklərə baxmayaraq, 800 il burada qalıbsa, indi onun yerini dəyişdirmək olmaz. Ona görə də mən o vaxt bu fikrə razı olmadım.

Nizami Gəncəvinin 840 illik yubileyini keçirəndə həmin məqbərənin yenidən qurulması haqqında qərar qəbul etdik. Bundan sonra Gəncə alüminium zavodunun istehsal texnologiyasında da bir çox dəyişikliklər əmələ gəldi, müəssisədən çıxan tozun qarşısı müəyyən miqdarda alındı. İndi o, modernləşib. Mən Gəncədə olanda gedib baxdım, məqbərə yaxşı vəziyyətdədir.

Biz Şuşada Molla Pənah Vaqifin qəbri üzərində gözəl bir məqbərə yaratdıq. Çox cəsarətlə deyirəm ki, bu məqbərə Molla Pənah Vaqifə layiq idi, gözəl idi. Biz o vaxt gedib onun açılışını böyük bir təntənə ilə keçirdik. Orada respublika ictimaiyyətinin nümayəndələri, ədəbiyyat, incəsənət, mədəniyyət xadimləri iştirak edirdilər. Təəssüf ki, indi Şuşa işğal altındadır. Ancaq mən əminəm ki, Şuşa işğaldan azad olunacaq və Molla Pənah Vaqifin məqbərəsi də öz xalqımıza qayıdacaq. Ümumiyyətlə, Şuşada olan tarixi abidələrimizin hamısı özümüzə qayıdacaq.

Əgər keçmişi götürsək, Naxçıvanda çox böyük bir tarixi məqbərə vardır – dahi memar Əcəmi Naxçıvaninin əsəri. O, 800 ildir yaşayır. Bu, Möminə Xatun məqbərəsidir. Bilirsiniz ki, onun altı qəbirdir. Naxçıvanda belə bir möhtəşəm məqbərəni bizim əcdadlarımız yaradıblar. Bu, Azərbaycanın memarlıq tarixində, sənətində ən görkəmli yerlərdən birini tutur. Bəs indiki nəsillər nə üçün belə abidələr yaratmasın? Ona görə də Hüseyn Cavidin cənazəsi Sibirdən gətiriləndə mən məhz bu fikrin tərəfdarı oldum ki, onun qəbri Naxçıvanda olsun, bir tə[10-11]rəfdə Əcəmi Naxçıvaninin yaratdığı Möminə Xatun məqbərəsi, o biri tərəfdə isə XX əsrdə bizim nəslin yaratdığı Hüseyn Cavid məqbərəsi olsun. Bax, mən o vaxt həmin qərarın qəbul olunmasına bu məqsədlə imza atmışam və o fikirlə yaşayıram. Ona görə də istəyirəm ki, indi bizim üçün çətin olsa da, belə bir möhtəşəm məqbərə yaradaq. Bu, həm böyük memarlıq abidəsi, həm də Hüseyn Cavidin xatirəsinə layiq məqbərə olsun. Hesab edirəm ki, hazırlanmış layihələrə də bu nöqteyi-nəzərdən baxmaq lazımdır. İndi isə həmin layihələrə baxaq.

* * *

... Düşünürəm ki, belə etmək lazımdır. İndi mən bunların hamısına baxıram, fikrim bir az dağılır. Yəqin siz də elə bu fikirdəsiniz, ona görə də qəti bir qərar qəbul etmək mümkün deyil. Belə fikirdəyəm ki, bu layihələri yandakı salona qoysunlar, iki-üç gün ərzində hərə fərdi qaydada gəlib bu layihələrə baxsın. Turan xanım özü də bu layihələrə bir daha diqqətlə baxsın. Mən özüm də vaxt taparam, heç kəs olmayanda bir saat oturub bu layihələrə bir də baxaram. Üç-dörd gündən sonra bir daha yığışarıq və konkret qərar qəbul edərik.

Ancaq mən ümumi fikirləri demək istəyirəm. Həmin fikirlər bundan ibarətdir ki, nəhənglikdən uzaq olmaq, oradakı yeri mütləq nəzərə almaq lazımdır. Elə olmalıdır ki, məqbərə nə çox böyük, nə də çox kiçik olmasın. Əsas fikrim belədir: qəbir məqbərənin içində olsun və orada elə bir şərait yaradılsın ki, insan girib orada ziyarət edə bilsin, qəbirin yanında dursun, düşünsün. Məqbərənin o tərəfdən, bu tərəfdən açıq olmasının tərəfdarı deyiləm. Tarixən yaradılan məqbərələrin də hamısı tamam örtülü olmayıb. Məsələn, Möminə Xatun məqbərəsi tam qapalıdır, ancaq haradansa yuxarıdan bir balaca işıq düşür. Belə də olmalıdır. Bayaq Molla Pənah Vaqifin məqbərəsini ona görə yada saldım ki, o həm qapalı idi, həm də hər yerdən içəri işıq düşürdü. Elə etmək lazımdır ki, bu məqbərənin içində sakit bir mühit olsun.

Məqbərə gərək çox böyük olmasın. Hüseyn Cavidin əsərlərindən obrazların təsviri də səmimi olsa yaxşıdır. Mən belə fikirdəyəm ki, bu məqbərəni xaricdən görəndə də gərək fikir cəmlənsin və onun içərisində olanda da fikir dağılmasın. Məqbərənin miqyası da buna uyğun olmalıdır. Gərək bu layihələrin müəllifləri də ciddi fikirləşsinlər və biz də bir az fikirlə[11-12]şək. Ancaq yaddan çıxarmaq olmaz ki, bu məsələ üç-dörd günün içərisində həll edilməlidir.

Şübhəsiz ki, biz bu layihələrdə müasirliyi nəzərə almalıyıq. Həm də burada Azərbaycanın milli memarlıq ənənələri nəzərə alınmalı və orada bunun nişanələri olmalıdır. Bu mütləq lazımdır. Bax, bu binanı tikəndə də belə oldu. Binanın layihəsinin müəllifləri, xüsusən Tahir Abdullayev tez-tez mənim yanıma gəlirdi. Mən dəfələrlə ona demişdim ki, bu binanın tamamilə milli xarici görkəmi olmalıdır. İndi bu binada gördüyünüz milli elementlər barədə biz o vaxt dəfələrlə fikir mübadiləsi aparmışdıq. O zaman mən onu məcbur etdim ki, binanın heç olmasa iki mərtəbəsinin pəncərələri milli üslubda olsun. Məndən olsaydı, o vaxt bu binanı daha da milli görkəmli edərdik. Hər halda hesab edirəm ki, bu bina yaxşıdır, xarici görünüşü gözəldir.

Vaxtilə biz iqamətgah binasını tikərkən (həmin binanın layihəsinin müəllifi Rasim Əliyevdir) Mikayıl Hüseynovu bir neçə dəfə oraya dəvət etmişdim. Mən onlara dedim ki, binanın daxilində milli ornamentlər lazımdır. Bir dəfə rəhmətlik Mikayıl Hüseynova dedim ki, (mən arxitektura fakültəsində oxuyarkən o mənim müəllimim olmuşdur), vaxtilə sizin kitablarda milli ornamentlər var idi. Gətirin baxaq. Sonra Mikayıl Hüseynov və Rasim Əliyev gəldilər, mən kitabdakı həmin ornamentləri onlara göstərdim və xahiş etdim ki, bax, bunları divara salın. İqamətgahın divarlarında mərmərin üzərində ornamentlər oymaq çətin idi. Bilirsiniz ki, bu ornamentləri gipsdən və başqa materialdan düzəldirlər. Lakin Şirvanşahlar sarayı kompleksində ornamentlərin hamısı daşın üzərində yonulub və çox gözəldir. İqamətgahın divarları mərmərdən olduğu üçün bu, çox çətin idi. Lakin onlar bu işi gördülər. İndi iqamətgahın salonlarının divarındakı mərmər lövhələrin üzərindəki ornamentlər bax, belə hazırlandı.

Demək istəyirəm ki, memarlarımızda mühafizəkarlıq var. Bir tərəfdən Azərbaycanın milli ornamentlərini təbliğ edirlər, digər tərəfdən isə bunu öz işlərində tətbiq edəndə nədənsə çətinlik çəkirlər. Bu baxımdan arzu edirəm ki, bu layihələrin hansınısa seçək, birləşdirək, sintez edək, bir də baxaq. Amma bu amili də nəzərdə tutaq ki, müasirlik də olsun, ancaq milli memarlıq ənənələri də unudulmasın. Həm gözəl, həm də sadə olsun. Gözəllik eyni zamanda sadə olanda daha gözəl görünür.[12-13]

Ona görə də mən Ramiz Mehdiyevə, Elçin Əfəndiyevə, Fatma Abdullazadəyə tapşırıram ki, müzakirələr aparsınlar, bu layihələr qonşu salona qoyulsun, gəlib-gedənlər də baxsın. Mən özüm də sakit bir vaxtda axşam gəlib baxacağam. Bir sözlə, biz qısa müddətdə layihəni seçməli, müəyyənləşdirməli və Naxçıvanda bu məqbərənin inşasına başlamalıyıq. Bu məqbərə Hüseyn Cavidin anadan olması günündən də bir xeyli qabaq, sentyabrın axırında hazır olmalıdır.

Qəbir məqbərənin içində olmalıdır. İndi Ömər Eldarov burada bir heykəltəraşlıq nümunəsi göstərdi. Ona da baxmaq olar, yaxud başqa bir nümunə də hazırlamaq olar. Hər halda məqbərənin içində heykəl, yaxud büst olsun. Hüseyn Cavidin surəti məqbərənin içində mütləq olmalıdır. Xahiş edirəm bunu da nəzərə alasınız. Elə olmasın ki, məqbərənin içində tək qəbir daşı olsun. Xatirimdədir, Molla Pənah Vaqifin Şuşadakı məqbərəsində də Vaqifin büstü var idi...

Bu barədə fikirlərimizi dedik. Bəs ev-muzeyi barədə nə çətinlik var. Bu barədə kim nə deyə bilər?

* * *

Şübhəsiz ki, mən sizin bu çıxışlarınızı və verdiyiniz hədiyyələri gözləmirdim. Ancaq fürsətdən istifadə edib deyə bilərəm ki, mənim mədəniyyətə münasibətim məlumdur. Bu, sadəcə söz deyil. Mən mədəniyyətə öz münasibətimi əməlimlə, işimlə həmişə bildirmişəm. Vaxtilə memarlarla da dəfələrlə görüşmüşəm və memarlığa xüsusi hörmətim var. Burada işlədiyim dövrdə tikilən binalarda, yaranan şəhərlərdə Azərbaycan memarlığının inkişaf etdirilməsinə çalışmışam. Bakının və ayrı-ayrı digər şəhərlərimizin tikilməsi, inkişaf etdirilməsi ilə əlaqədar layihələrə memarlarla birlikdə baxıb öz mülahizələrimi bildirmişəm. Hətta zavod tikiləndə, məsələn, Bakı kondisionerlər zavodu tikiləndə də mən onun memarlıq cəhətdən gözəl olmasına çalışırdım. Həmin zavodda olanlar da görüblər ki, onun xarici görünüşü memarlıq cəhətdən dəyərlidir. Ona görə mən mütləq vaxt tapıb memarlarla görüşəcəyəm.

* * *

Vaxt var idi, Hüseyn Cavidi həbs etdilər və onun bütün əsərlərini qadağan etdilər. Hüseyn Cavid həbs olunandan, hətta dünyasını dəyişəndən sonra onu millətçi, pantürkist, antiso[13-14]vet adam adlandırırdılar. Amma Hüseyn Cavidin əsərləri yaşadı. Zaman keçdi və biz Hüseyn Cavidin xatirəsinin əbədiləşdirilməsi, onun irsinin təbliğ olunması üçün bu gün buraya toplaşmışıq. Güman edirəm ki, Azərbaycan üçün də bu ağır günlər keçib gedəcəkdir. Necə ki, repressiya olunmuş adamlar, onların ailələri üçün repressiya illəri nə qədər uzun olsa da keçib getdi, o ailələr, o insanlar tamamilə bəraət qazandılar, hətta tarixi şəxsiyyət kimi tanınırlar və təbliğ olunurlar, hörmət və ehtiramla yad edilirlər.

Güman edirəm, müstəqil Azərbaycanın həyatındakı bu ağır dövr də keçib gedəcək və biz şəhərlərimizi, qəsəbələrimizi, hər yeri abadlaşdırıb tikəcəyik. Mən vaxt tapıb memarlarla görüşəcəyəm, indi isə sizin vasitənizlə Azərbaycanın bütün memarlarına öz hörmət və ehtiramımı, salamlarımı çatdırıram.

Mənə bağışlanan miniatür kitabdan çox razı qaldığımı bildirirəm. 1981-ci ildə SSRİ Rəssamlıq Akademiyasının Azərbaycanda keçirilmiş tarixi sessiyası yadıma düşdü. Oradakı çıxışımı xatırlayıram. Bu çıxış çox geniş yayılmışdı. Hətta bundan sonra Moskvaya səfər edərkən SSRİ Memarlar İttifaqının sədri məndən çox xahiş etdi və mən orada da çıxış etdim. O zaman mən Azərbaycan miniatür rəssamlıq sənətinin çox dəyərli olduğunu və onun inkişaf etdirilməsi məsələsini ortaya atdım. Doğrudan da belədir. Əgər keçmişi götürsək, rəngkarlıq Azərbaycanda XX əsrdə yaranıb. Ancaq Azərbaycan rəssamlıq məktəbi çox zəngin, böyük bir məktəbdir və o da miniatür rəsmlər məktəbi, Sultan Məhəmməd məktəbidir. Sultan Məhəmmədin 500 illiyinin qeyd edilməsi haqqında qərar var. Vaxtilə onun haqqında Azərbaycanda Kərim Kərimovun monoqrafiyası nəşr

olunub. Ona görə də miniatür məktəbinin Azərbaycanda yenidən inkişaf etməsi məni sevindirir. Arzu edirəm ki, bu, daha da inkişaf etsin.

Gələcəkdə bizim mədəniyyət sahəsində görəcəyimiz işlər çoxdur. Fürsətdən istifadə edib xatırlatmaq istəyirəm ki, Füzulinin 500 illik yubileyi mərasimlərinin bəziləri keçirilib, amma bəziləri qalır. Gərək ki, Elçin Əfəndiyev həmin komissiyanın sədr müavinidir. Ona görə sən də bu barədə düşün və proqram ver ki, qalan tədbirləri necə keçirəcəyik. Gərək həmin tədbirləri də bu il başa çatdıraq. Digər tədbirlər də keçirəcəyik. Sağ olun. [14-15]

**RUSİYA FEDERASİYASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ BORİS NİKOLAYEVİÇ**
**YELTSİN CƏNABLARINA**

Möhtərəm Boris Nikolayeviç!

Rusiya Federasiyasının milli bayramı – Dövlət suverenliyi haqqında Bəyannamənin qəbul edilməsi günü münasibətilə Sizi və Sizin simanızda bütün rusiyalıları şəxsən öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Sizə möhkəm cansağlığı və xoşbəxtlik, qardaş Rusiya xalqına isə keçid dövrünün bütün çətinliklərini tezliklə aradan qaldırmağı, firavanlıq və tərəqqi arzulayıram.

Əminəm ki, Azərbaycan ilə Rusiya arasındakı çoxəsrlik əlaqələr, dostluq və əməkdaşlıq xalqlarımızın mənafeyi naminə, regionda sülh və sabitlik naminə bundan sonra da möhkəmlənəcək və inkişaf edəcəkdir.

Hörmətlə,

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*12 iyun 1995-ci il* [15-16]

## "AZƏRBAYCAN RESPUBLİKASINDA İNSAN İNKİŞAFI HAQQINDA HESABAT" KİTABININ TƏQDİMAT MƏRASİMİNDƏ ÇIXIŞ

*"Hyatt Recensi – Naxçıvan" mehmanxanası*

*15 iyun 1995-ci il*

Hörmətli cənab Mahmud əl-Səid!
Hörmətli cənab Paolo Lembo!
Hörmətli xanımlar və cənablar!

Bu gün həyatımızda əlamətdar hadisə baş verir. BMT-nin ölkəmizdəki nümayəndəliyi Azərbaycan Respublikasında insan inkişafı haqqında ilk hesabat hazırlayıb, onu kitab şəklində ictimaiyyətə və bütün dünyaya təqdim edir. Mən buna görə BMT-nin Azərbaycandakı nümayəndələrinə təşəkkürümü bildirirəm, onları, bütün ictimaiyyətimizi və buraya toplaşanların hamısını bu əlamətdar hadisə münasibətilə təbrik edirəm.

Bu il dünya ictimaiyyəti planetimizin bütün xalqları və dövlətləri üçün yüksək beynəlxalq təşkilat olan BMT-nin 50 illik yubileyini qeyd edir. Biz çox məmnunluq və xoşbəxtlik hissi duyuruq ki, Azərbaycan Respublikası artıq müstəqil dövlət kimi yaşayaraq bu nüfuzlu beynəlxalq təşkilatın bərabərhüquqlu üzvüdür və ölkəmizin çoxəsrlik tarixində, suveren Azərbaycanın həyatında ilk dəfə olaraq mühüm sahəyə – insan inkişafına aid məsələlər Birləşmiş Millətlər Təşkilatı tərəfindən təhlil olunub və bu barədə hesabat kitabı hazırlanıbdır. Bunu biz Azərbaycanın keçmişini və bu gününü dünyada tanıtmaq üçün mühüm vasitə kimi qəbul edirik.

Azərbaycan gənc müstəqil dövlətdir. İndiki müstəqillik dövründə respublikamız çox çətin proseslərlə qarşılaşıbdır. Ona görə də Azərbaycanın həm tarixi keçmişinin, həm də bu gününün olduğu kimi bütün dünyada tanınması gənc müstəqil dövlətimizin qarşısında duran vəzifələrin həyata keçirilməsi üçün mühüm vasitə olacaqdır.

Cənab Mahmud əl-Səid və cənab Paolo Lembo burada Azərbaycanın böyük keçmişi, zəngin mədəniyyəti və bu günü haqqında əldə etdikləri məlumatlar əsasında dəyərli fikirlər[16-17]söylədilər. Biz arzu edirik ki, Azərbaycan haqqında həqiqətlər bütün dünyaya çatdırılsın.

Birləşmiş Millətlər Təşkilatının fəaliyyəti çoxşaxəli və çoxistiqamətlidir. Onun əsas sahələrindən biri insan inkişafına aid problemlərin təhlili və həlli ilə bağlıdır. Azərbaycan Respublikası öz indiki həyat şəraitində məhz bu sahəyə ciddi maraq göstərir. Biz dərk edirik ki, planetimizin ən dəyərli sərvəti insanlardır. Yer kürəsində hər şey insanların yaşaması, dünya nemətlərindən faydalanması və həm maddi, həm də mənəvi cəhətdən yüksək səviyyədə inkişafı üçündür. Təbiət də, yerin təki də, onun üstündə olan sərvətlər də, dövlət də insan və xalq üçündür. Bütün təşkilatlar da insanın bu günü və gələcəyi üçündür. Ona görə də insan inkişafı ilə bağlı problem dünyada ən vacib məsələdir. Azərbaycan Respublikası buna çox böyük diqqət göstərir.

Biz Birləşmiş Millətlər Təşkilatının insana, əhaliyə və inkişafa aid son vaxtlar təşkil etdiyi böyük beynəlxalq toplantıların – 1994-cü ilin sentyabrında Qahirədə və bu ilin martında Kopenhagendə keçirilmiş görüşlərin iştirakçısı olduq. Bunu özümüz üçün böyük bir vəzifə hesab edirik. Bizim bu istiqamətdə bütün fəaliyyətimiz Azərbaycanda yaşayan hər bir insanın, hər bir vətəndaşın inkişaf problemləri ilə əlaqədardır.

Bu gün təqdim olunan kitabda Azərbaycanın çoxminillik tarixinin, zəngin mədəniyyətinin, milli ənənələrinin və nailiyyətlərinin əks olunması böyük məmnunluq doğurur. Xalqımızın keçdiyi tarixi yol, əldə etdiyi mədəni, intellektual potensial, inkişaf səviyyəsi böyük mədəni sərvətimizdir. Biz öz tariximizlə fəxr edirik. Biz Azərbaycan xalqının əsrlər boyu dünya sivilizasiyasına verdiyi töhfələrlə fəxr edirik. Bunların hamısı bu günümüz və gələcəyimiz üçün gözəl təməldir.

Bu gün bizim həyatımızda çox böyük və əzab-əziyyətli proseslər gedir. Doğrudur, xalqımız milli azadlığını əldə edib, Azərbaycan Respublikası müstəqillik qazanıbdır. Ancaq bu tarixi nailiyyətlər çox çətin proseslərlə üzləşmişdir. Biz böyük keçid dövrünü yaşayırıq. Bu mərhələnin çoxlu çətinlikləri var. Onların aradan qaldırılması, Azərbaycanın müstəqil dövlət kimi yaşaması və inkişaf etməsi bizim əsas vəzifəmizdir. Bu dövrü müvəffəqiyyətlə yaşamaq və xalqımızı xoşbəxt gələcəyə çıxarmaq üçün biz demokratiya yolu ilə gedirik, ölkəmizdə demokratik, hüquqi dövlət qururuq. Respublikamızın iqtisadiyyatında [17-18] ciddi dəyişikliklər, islahatlar aparırıq, bazar iqtisadiyyatına keçirik, özəlləşdirmə proqramını müzakirə edirik.

Dövlətimizin, ölkəmizin, cəmiyyətimizin demokratiya və bazar iqtisadiyyatı yolu ilə getməsi bizim strateji məqsədlərimizdir. İndiyədək bu sahədə xeyli işlər görülüb. Ancaq hələ qarşımızda çox böyük vəzifələr vardır. Onların layiqincə yerinə yetirilməsi ölkəmizin və xalqımızın xoşbəxt gələcəyini təmin edəcəkdir.

1995-ci il BMT-nin 50 illik yubileyi ilidir. O, Azərbaycan üçün də çox əlamətdardır. Bu il müstəqil Azərbaycanın parlamentinə ilk demokratik seçkilər keçiriləcək və respublikamızın ilk demokratik konstitusiyası qəbul ediləcəkdir. Bilirsiniz ki, parlament seçkiləri noyabrın 12-nə təyin olunubdur. Həmin gün respublikamızın

ilk demokratik konstitusiyasının qəbul olunması üçün referendum keçiriləcəkdir. Bu barədə lazımi fərmanlar və qərarlar qəbul edilib və elan olunubdur. Bunlar bizdən gərgin işləməyi tələb edir. Əminəm ki, biz bu işlərin öhdəsindən gələcəyik.

Ancaq bu keçid dövründə həyatımızı çətinləşdirən, ağırlaşdıran və bu mərhələdə tədbirlərin müvəffəqiyyətlə keçirilməsinə mane olan ən böyük problem Ermənistanın Azərbaycana qarşı təcavüzü nəticəsində respublikamızın düşdüyü vəziyyətdir.

Azərbaycanın ərazisinin bir qismini ələ keçirmək üçün Ermənistan Respublikası yeddi il öncə ölkəmizə qarşı təcavüzə başlayıbdır. Bu hərbi münaqişə və Ermənistanın Azərbaycana qarşı təcavüzü yeddi ildir ki, davam edir. Azərbaycan xalqı böyük itkilər veribdir. İnsanlar həlak olub, şəhərlər, qəsəbələr, kəndlər, evlər, abidələr, xalqımızın əsrlər boyu yaratdığı dəyərli mədəniyyət nümunələri dağıdılıb, məhv edilibdir.

Azərbaycan ərazisinin 20 faizi Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilibdir. Bu ərazilərdən bir milyondan artıq vətəndaşımız qovulub, qaçqın düşüb və çox ağır şəraitdə yaşayır. Ermənistanın Azərbaycana qarşı təcavüzü respublikamızda əhalinin sosial-iqtisadi vəziyyətini həddindən artıq kəskinləşdirib, insanların yaşayışını çətinləşdiribdir. Qaçqınlarımızın əksəriyyəti çadırlarda yaşayır, ağır şəraitdədir. Bütün bunlar insan inkişafına aid çox ciddi, mühüm problemlərdir. Birləşmiş Millətlər Təşkilatının humanitar sahələrdə Azərbaycana göstərdiyi yardıma, xüsusən də qaçqınlarımıza etdiyi maddi və mənəvi köməyə görə təşəkkürümü bildirirəm. Eyni zamanda [18-19] onu da qeyd etməyi lazım hesab edirəm ki, ayrı-ayrı respublikalarda və regionlarda insan inkişafına dair məsələlər təhlil olunarkən və bu barədə nəticələr çıxarılarkən Azərbaycanın belə bir ekstremal, fövqəladə şəraitdə olması mütləq nəzərə alınmalıdır.

Dünyanın hər bir ölkəsində insan inkişafına dair özünə-məxsus problemlər mövcuddur. Şübhəsiz ki, iqtisadi cəhətdən tərəqqi etmiş ölkələrdə əhalinin sosial vəziyyəti yüksəkdir və insanın inkişafı da beynəlxalq səviyyədədir və ya ona yaxındır. İqtisadi cəhətdən zəif olan ölkələrdə isə insanlara aid problemlər də çoxdur və şübhəsiz ki, onların həyat səviyyəsi də aşağıdır.

Bildiyiniz kimi, Azərbaycan Respublikası böyük iqtisadi potensiala malik bir ölkədir. Burada qeyd olunduğu kimi, ölkəmizin zəngin mədəni irsi vardır. Əgər müharibə, Ermənistanın təcavüzü olmasaydı, Azərbaycan insanın inkişafı üçün lazım olan vəzifələrin əksəriyyətini qısa müddətdə yerinə yetirməyə qadirdir. Ona görə də Azərbaycanda insan inkişafı haqqında hesabatlar, məlumatlar – elə bu kitabın hazırlanması zamanı bu məsələlər xüsusi yer tutmalıdır. Çünki Azərbaycan Respublikasında insan inkişafına aid problemlərə qiymət verərkən, bu məsələləri dünya standartları ilə müqayisə edərkən və gələcək haqqında mülahizələr söyləyərkən bunlar nəzərə alınmasa, şübhəsiz ki, gələcək üçün hazırlanan proqram o qədər də əsaslı ola bilməz.

Mən təqdim olunan bu kitabı yüksək dəyərləndirirəm, beynəlxalq təşkilatın Azərbaycan üçün hazırladığı ilk hesabat olduğuna görə onu xüsusi qiymətləndirirəm. Ancaq təəssüf hissi ilə qeyd etmək istəyirəm ki, Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü bu kitabda geniş şəkildə öz əksini tapmayıb, bu hərbi təcavüz ilə əlaqədar respublikamızda sosial-iqtisadi vəziyyətin ağırlaşması, adamların yaşayışının kəskinləşməsi, insan inkişafına dair problemlərin həllinin çətinləşməsi məsələsi bu kitabda lazımi qədər göstərilməyibdir.

Bu kitab ilk addım olduğuna görə, şübhəsiz ki, çatışmazlıqları bağışlamaq olar. Ancaq arzu edirəm ki, Azərbaycana məxsus olan bu amil gələcək tədqiqatlarda, sənədlərdə mütləq və mütləq öz əksini tapsın. O, BMT-nin bütün sənədlərinə, xüsusən də Azərbaycanın sosial-iqtisadi vəziyyətinə, insan inkişafına aid olan sənədlərində mütləq göstərilməlidir. Əgər bunlar əks olunmasa həqiqi mənzərə müəyyənləşdirilə bilməz və [19-20] Azərbaycan Respublikasının düşdüyü vəziyyətlə əlaqədar olan münasibət də şübhəsiz ki, mükəmməl ola bilməz.

Mənə belə gəlir ki, kitabda göstərilən bəzi statistik məlumatların da dövlət statistika orqanlarının məlumatları ilə uyğunlaşdırılması onu daha da zənginləşdirərdi.

Dünya təcrübəsində bəzi şeyləri qiymətləndirərkən adətən müqayisədən istifadə olunur.

Azərbaycanın vəziyyətini dəyərləndirmək və onun barəsində lazımi nəticələr çıxarmaq üçün başqa bir ölkə ilə müqayisə aparılarkən Ermənistanın təcavüzü nəticəsində respublikamızın düşdüyü vəziyyət mütləq nəzərə alınmalıdır. Mən bu tövsiyələri nəinki bu kitabı hazırlayanlara, eləcə də bütün digər tədqiqatçılara verirəm. Bu məsələlərdə kimin tərəfindən olursa-olsun subyektivliyə yol vermək olmaz. Bununla yanaşı, bir daha qeyd etmək istəyirəm ki, indi təqdim olunan kitab Azərbaycan Respublikasının həyatında böyük hadisədir, BMT-nin Azərbaycandakı nümayəndəliyinin fəaliyyətini mən yüksək qiymətləndirirəm. Ümidvar olduğumu bildirmək istəyirəm ki, bu nüfuzlu beynəlxalq təşkilatın, habelə iri maliyyə təsisatlarının, digər beynəlxalq qurumların respublikamıza yardımı bundan sonra da artacaqdır.

Mayın 29-da Birləşmiş Millətlər Təşkilatının himayəsi altında Paris şəhərində keçirilən toplantıda Azərbaycan haqqında qəbul olunmuş qərarlar da vaxtında yerinə yetiriləcəkdir. Bunların hamısı respublikamızın ağır vəziyyətdən çıxmasına kömək edəcəkdir.

Mən Ermənistanın Azərbaycana qarşı təcavüzü barədə danışdım. Eyni zamanda məmnuniyyət hissi ilə qeyd etmək istəyirəm ki, atəşkəs haqqında əldə olunmuş razılığa on üç aydır əməl edilir. İndi biz atəşkəs rejimi şəraitində yaşayırıq. Ağır müharibə vəziyyətində ölkəmizin, vətəndaşlarımızın on üç aydan bəri davam edən atəşkəs rejimində yaşaması mənə belə gəlir ki, təqdirəlayiqdir. Bu dövrdən müharibəyə son qoymaq üçün

istifadə olunmalıdır. Biz buna çalışırıq. Bu dövrdə Böyük Sülh Sazişi əldə edilməlidir. Biz məhz bu istiqamətdə fəaliyyət göstəririk. Mən bir daha bəyan edirəm ki, biz atəşkəs rejiminin saxlanılmasına həmişə sadiq olacağıq. Eyni zamanda ATƏT-in Minsk konfransı çərçivəsində sülh danışıqlarının sürətlə aparılmasını istəyirik.

Bu gün – iyunun 15-də Helsinki şəhərində Minsk qrupunun növbəti iclası, Ermənistan-Azərbaycan hərbi münaqişəsinin [20-21] sülh yolu ilə aradan qaldırılması üçün danışıqlar başlanıbdır. Biz həmin danışıqlara öz nümayəndəmizi əməli prinsiplər əsasında hərəkət etmək tapşırığı ilə göndərmişik, sülh danışıqlarında müəyyən irəliləyişə nail olunmasına çalışırıq və bundan sonra da çalışacağıq.

Yenə də qeyd edirəm, ola bilsin ki, 1995-ci il bizim üçün tarixi il olsun. Bizim istəyimiz və arzumuz ondan ibarətdir ki, bu il Böyük Sülh Sazişi əldə edilsin, müharibəyə son qoyulsun, respublikamızın ilk demokratik parlamenti seçilsin və yeni Konstitusiyası qəbul edilsin, iqtisadi islahatlar aparılsın və özəlləşdirmə proqramının həyata keçirilməsinə başlansın, ölkəmizin bütün dünya dövlətləri ilə, beynəlxalq təşkilatlarla əlaqələri daha da sıx olsun və inkişaf etdirilsin. Bunlar yalnız arzular deyil, Azərbaycanın qarşısında duran vəzifələrdir. Mən sizi əmin etmək istəyirəm ki, bu vəzifələrin həyata keçirilməsi üçün biz əlimizdən gələni əsirgəməyəcəyik.

Hazırlanmış bu kitabın təqdimatı münasibətilə sizin hamınızı bir daha təbrik edirəm. Birləşmiş Millətlər Təşkilatına öz yüksək fəaliyyətində uğurlar arzulayıram və onun Azərbaycandakı nümayəndəliyinə müvəffəqiyyətlər diləyirəm. Sağ olun![21-22]

## "15-17 MART HADİSƏLƏRİ VƏ AZƏRBAYCANDA İCTİMAİ-SİYASİ VƏZİYYƏT" MÖVZUSUNA HƏSR OLUNMUŞ ÜMUMXALQ NÜMAYƏNDƏLƏRİ TOPLANTISINDA GİRİŞ NİTQİ

*Respublika Sarayı*

*23-24 iyun 1995-ci il*

Əziz həmvətənlər!
Əziz bacılar, qardaşlar!
Hörmətli xanımlar, cənablar, xarici ölkələrin Azərbaycandakı səfirləri, beynəlxalq təşkilatların respublikamızdakı nümayəndələri!

Bu gün biz buraya – Respublika Sarayına ümumxalq nümayəndələri toplantısına yığışmışıq. Məqsədimiz son illərdə Azərbaycanda gedən ictimai-siyasi proseslərə, respublikamızın daxili və xarici vəziyyətinə aid olan məsələlərə nəzər salmaq, onları təhlil etmək, xalqın fikirlərini nəzərə alaraq ölkəmizin bu günü və gələcəyi üçün lazımi tədbirlərin hazırlanması və həyata keçirilməsi yollarını müəyyənləşdirməkdən ibarətdir.

Bu il – 1995-ci il müstəqil Azərbaycan Respublikasının həyatında dövlətçilik prosesləri ilə əlaqədar böyük ictimai-siyasi tədbirlər ili olacaqdır. Respublikamızda bu proseslər artıq gedir. Müstəqil Azərbaycanda demokratik hüquqi dövlət quruculuğu prosesi davam edir. İqtisadi islahatların, aqrar islahatlar barədə qəbul olunmuş qanunların əməli surətdə həyata keçirilməsinə başlanmışdır. İqtisadiyyatda inkişaf əldə etmək üçün özəlləşdirməyə dair proqram hazırlanıb və bu günlərdə qəbul olunub Milli Məclisin müzakirəsinə veriləcəkdir.

Respublikamızda ilk dəfə müstəqil Azərbaycanın demokratik parlamentini yaratmaq üçün bu il noyabrın 12-də parlament seçkiləri təyin olunub. Müstəqil Azərbaycan Respublikası demokratik dövlətinin konstitusiyasının hazırlanması prosesi gedir. Nəzərdə tutulur ki, parlament seçkiləri günü konstitusiya ümumxalq referendumu yolu ilə qəbul olunsun.

Şübhəsiz ki, bunlar hamısı respublikamızda daxili ictimai-siyasi vəziyyətin sabitliyini, bir müstəqil dövlət kimi Azərbayca[22-23]nın beynəlxalq aləmdə mövqelərinin daha da möhkəmləndirilməsini tələb edir. Bu proseslər gedir, dövlət orqanları tərəfindən lazımi işlər aparılır. Ancaq bu işləri daha müvəffəqiyyətlə həyata keçirmək, daha doğru-düzgün yolla getmək üçün və bütün bu tədbirlərin hamısının yerinə yetirilməsində xalqın, ictimaiyyətin, respublikamızda cəmiyyətin bütün təbəqələrinin fikrini nəzərə almaq üçün ümumxalq nümayəndələrinin belə bir toplantısının keçirilməsi zərurəti meydana çıxıbdır.

Bugünkü ümumxalq nümayəndələri toplantısında, eyni zamanda, gələcək üçün dəyərli proqramlar yaratmaqdan ötrü yaxın keçmişimizə nəzər salmalıyıq, onu təhlil etməliyik, əvvəlki dövrdən indiyədək və bu gün də gedən proseslərə doğru-düzgün qiymət verməliyik. Üç il yarımdır ki, xalqımız dövlət müstəqilliyini əldə edib, Azərbaycan Respublikası müstəqil dövlətdir. Tarixi nöqteyi-nəzərdən bu, böyük bir zaman deyil. Lakin həmin müddətdə respublikanın həyatında o qədər ağır, çətin proseslər gedib ki, bu üç il yarım demək olar ki, böyük bir dövrü əhatə edir. Birinci növbədə ona görə ki, Azərbaycan xalqı müstəqilliyini bərpa edəndən, tam müstəqilliyini qazanandan sonra müstəqil dövlət qurmaq, müstəqil yaşamaq üçün lazımi şərait əldə etməli idi. Ancaq ötən dövr xalqımız üçün o qədər də əlverişli olmayıb. Buna ən çox mane olan səbəb Azərbaycan Respublikasına qarşı Ermənistan tərəfindən edilən təcavüz və yeddi ildən bəri gedən müharibədir. Xalqımız məhz belə bir şəraitdə, yəni Ermənistanın Azərbaycana hərbi təcavüzü artıq mövcud olduğu, torpaqlarımızın bir qisminin əldən getdiyi zamanda öz dövlət müstəqilliyini qazanıb.

Müharibə davam edib, bunun nəticəsində də Azərbaycan itkilər verib, böyük çətinliklərlə rastlaşıb. Aydındır ki, bunlar hamısı müstəqil Azərbaycan Respublikasının öz qarşısında qoyduğu vəzifələrin həyata keçirilməsinə çox böyük çətinliklər yaradıb. Ermənistanın Azərbaycana təcavüzü daxili vəziyyətimizdən asılı olan bir şey deyil. Bu, sadəcə olaraq, təkcə Ermənistanın yox, həm də onunla bağlı olan başqa qüvvələrin Azərbaycan xalqını azadlıqdan məhrum etmək, respublikamızı parçalamaq, dağıtmaq və onun ərazisinin bir hissəsini ələ keçirmək üçün hazırlanmış və davamlı surətdə həyata keçirilən bir planıdır.

Belə bir şəraitdə, belə bir dövrdə xalqımız, Azərbaycan və[23-24]təndaşları bütün qüvvələrini, güclərini bu müharibənin qarşısının alınmasına yönəltməli idi və yönəltməlidir, təcavüzün qarşısını birlikdə alıb Azərbaycanı qorumalı idi və bu gün də qorumalıdır. Təəssüf ki, ötən illər onu göstərir ki, belə olmayıbdır. Azərbaycan Respublikasının bir müstəqil dövlət kimi yaşamasına, inkişaf etməsinə mane olan daxili amillər olub və ola bilər ki, bunlar Ermənistanın təcavüzündən də çox çətinliklər yaradıb. Bunların nəticəsində ötən üç il yarım müddətində Azərbaycan Respublikası bir müstəqil dövlət kimi özünün iqtisadi, elmi, intellektual potensialından lazımi səviyyədə istifadə etməkdə və özünə layiq dövlət qurmaqda çox çətinliklərə rast gəlib. Biz bu həqiqəti bu gün etiraf etməliyik, deməliyik və bunlara düzgün qiymət verərək gələcək planlarımızı, görülən işlərimizi daha da etibarlı qurmalıyıq.

Bu dövrdə, xüsusən son iki ildə ölkəmizdə baş vermiş hadisələr, gedən ictimai-siyasi proseslər respublikamızın tarixində mühüm yer tutur. Həmin proseslər bir tərəfdən dağıdıcı qüvvələrin respublikaya vurduğu zərərlərdən, ikinci tərəfdən də xalqın, ictimaiyyətin, Azərbaycan vətəndaşlarının və dövlətin, dövlət orqanlarının bu dövrdə meydana gəlmiş təhlükəli hadisələrin qarşısını almasından ibarətdir.

1993-cü ilin may-iyun aylarında Azərbaycanda dövlət böhranı baş verdi. Bu böhran respublikanı vətəndaş müharibəsinə gətirib çıxardı. Vətəndaş müharibəsi ölkəmiz üçün çox böyük təhlükəli şərait yaratdı. O, nəinki xalqımıza zərərlər, zərbələr vuracaqdı, eyni zamanda, respublikamızın parçalanması, dağıdılması prosesi mövcud idi. Bunların qarşısı alındı. Həyata keçirilən tədbirlər respublikada əmələ gəlmiş dövlət böhranını və qarşıdurmanı aradan götürdü, müəyyən sabitlik yarandı. Lakin təəssüf ki, belə faciəli vəziyyətə gəlib çıxmış respublikamızda bu vəziyyəti yaradan qüvvələr öz əməllərindən əl çəkmədilər.

Respublikamızda ictimai-siyasi sabitlik təmin edilərək dövlət quruculuğu, ordu quruculuğu prosesi apardığı, müstəqilliyimizin möhkəmləndirildiyi, ölkəmizin beynəlxalq aləmdə nüfuzunun qaldırılması sahəsində lazımi tədbirlər görüldüyü bir vaxtda ayrı-ayrı qüvvələr yenə də Azərbaycanda sabitliyi pozmağa, qarşıdurma yaratmağa və respublikamızı içəridən dağıtmağa çalışdılar. Şübhəsiz ki, onların bu hərəkətlərinin qarşısı alınırdı. Ancaq bu qüvvələr lazımi nəticə çıxarmadılar və öz [24-25] dağıdıcı, pozucu, xalqımıza qarşı xəyanətkar hərəkətlərini davam etdirdilər.

Azərbaycan dövləti bu müddətdə respublikamızın dünya ictimaiyyəti arasında, beynəlxalq aləmdə, beynəlxalq təşkilatlarda nüfuzunun qaldırılması üçün, ölkəmizin dünya birliyində layiqli yer tutması üçün lazımi tədbirlər gördü və bunlar öz nəticələrini verdi. Müharibəyə son qoymaq, respublikamızın ərazi bütövlüyünü təmin etmək üçün sülh danışıqlarına başlandı. 1994-cü ilin mayında ilk dəfə atəşkəs haqqında etibarlı saziş əldə olundu. 13 aydır ki, biz atəşkəs rejimində yaşayırıq və respublikamızı müharibə şəraitindən çıxarmaq, müharibəyə son qoymaq, Azərbaycanın ərazi bütövlüyünü, müstəqilliyini, suverenliyini tam təmin etmək üçün lazımi tədbirlər görürük.

Bunlar əldə etdiyimiz böyük nailiyyətlərdir. Çünki atəşkəsin əldə olunması, hərbi əməliyyatların dayandırılması ölkəmizin daxilində nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsi üçün əlverişli şərait yaradılıb. Eyni zamanda bu, Azərbaycan Respublikasının sülhsevər bir dövlət olduğunu bütün dünyaya nümayiş etdirib. Şübhəsiz ki, bunlar hamısı uzunmüddətli etibarlı sülh yaratmaq, Azərbaycan Respublikasının ərazi bütövlüyünü, işğal olunmuş torpaqların azad edilməsini təmin etməklə bağlıdır. Ona görə də biz həmin dövrdən səmərəli istifadə etməyə və bu dövrdə respublikamızın həyatında zəruri olan tədbirlərin həyata keçirilməsinə çalışmışıq, bir çox işlər də görülüb.

Ancaq tam qətiyyətlə demək olar ki, belə bir şərait ölkəmizin müstəqilliyinə, respublika daxilindəki xalqın əmin-amanlıqda yaşamasına zidd olan ayrı-ayrı qüvvələr üçün əlverişli olmayıbdır. Ona görə də onlar həm respublikamızda daxili vəziyyəti pozmağa çalışır, həm də atəşkəsin pozulmasına cəhdlər göstəriblər.

Bu müddətdə Azərbaycanın əldə etdiyi böyük nailiyyətlərdən biri 1994-cü il sentyabrın 20-də Böyük Neft Müqaviləsinin imzalanmasıdır. Artıq buna "Əsrin müqaviləsi" adı veriblər. Ancaq bu müqavilə Azərbaycanın xarici düşmənlərini çox narahat edib. Onun əleyhinə təbliğatlar gedir, respublikamıza təzyiq göstərmək istəyən xarici qüvvələr var, bu müqavilənin həyata keçirilməsinə mane olanlar var. Təəssüf hissi ilə qeyd etmək lazımdır ki, onların hərəkətləri respublikamızın daxilində xalqımıza, ölkəmizə, dövlətimizə düşmən mövqelərlə üst-üstə düşmüşdür.[25-26]

Məhz bundan sonra Azərbaycanda ictimai-siyasi sabitliyi pozmaq istəyən qüvvələr hərəkətə gəldilər və 1994-cü il oktyabrın əvvəllərində ölkəmizdə dövlət çevrilişinə cəhd oldu. Xalqın gücü, iradəsi, respublikanın bütün vətəndaşlarının həmrəyliyi ilə bu cəhdin qarşısı alındı. Respublikamız, onun müstəqilliyi, dövlətçiliyimiz böyük bir sınaqdan keçdi. Düşünmək olar ki, bu, artıq hamıya ibrət dərsi olmalı, hər kəs özü üçün nəticə çıxarmalı idi. Təəssüflər olsun ki, belə olmadı. Həmin qüvvələr – adını müxalifət qoyan, ancaq əslində qanuni, sivilizasiyalı müxalifət yox, xalqına, dövlətinə zidd mövqedə duran qüvvələr bundan sonrakı dövrdə birləşib bu ilin mart ayında yenidən dövlət çevrilişinə, Azərbaycanda vətəndaş müharibəsi salmağa, ölkəmizi parçalamağa cəhd etdilər. Bunun da qarşısı alındı. Xalqımız öz həmrəyliyini, müdrikliyini göstərdi, müstəqil Azərbaycan dövlətinin qüdrəti nümayiş etdirildi, bu cəhdlərin qarşısı alındı.

Ancaq təəssüflər olsun ki, bundan sonrakı dövrdə həm xaricdə, həm də daxildə respublikamıza düşmən olan qüvvələr öz çirkin niyyətlərindən əl çəkməyiblər. Nəzər salın, son iki ildə respublikamızda nələr baş verib. Bir tərəfdən 1993-cü ilin iyun ayından Azərbaycanda dövlətçilik ardıcıl, davamlı olaraq möhkəmlənib, dövlət strukturları respublikanı idarə etmək qüdrəti qazanıb. İndi müstəqil Azərbaycan Respublikasının demokratik prinsiplər əsasında fəaliyyət göstərən dövlət qurumları, dövləti var, dövlətçiliyi müdafiə etməyə qüdrəti var. Amma eyni zamanda respublikamızda ictimai-siyasi sabitliyi pozmaq istəyən qüvvələr də var.

1994-cü ilin oktyabr, 1995-ci ilin mart hadisələrində dövlət çevrilişinə cəhd etmiş şəxslərin, adamların bir qismi cəmiyyətdən təcrid olunub, onların haqqında istintaq aparılır. Bir qismi qaçıb respublikadan, Azərbaycandan kənarda gizlənib. Onların əsas rəhbərləri isə Moskvaya toplaşıblar, orda özlərinə sığınacaq tapıblar. Azərbaycanda sabitliyi pozmaq, dövlətçiliyimizə qarşı yeni qəsd etmək üçün tədbirlər görürlər və bu fikirlərlə yaşayırlar.

Şübhəsiz ki, bunlar hamısı onlar üçün heç bir nəticə verə bilməz. Artıq iki il müddətində Azərbaycan xalqı, vətəndaşları ağı qaradan seçməyə nail olublar. Vətəndaşlarımızın tam əksəriyyətində müstəqil dövlətimizi və ictimai-siyasi sabitliyi qoruyub saxlamaq əhval-ruhiyyəsi üstünlük təşkil edir. Ancaq bunlarla yanaşı, yenə də respublikamıza xəyanət etmək məq[26-27]sədi ilə yaşayan qüvvələr var. Onlar təkcə xaricdə deyil, respublikanın daxilində də mövcuddur.

Bunları nəzərə alaraq bu gün biz açıq-aşkar söhbət aparmalıyıq. Yəni yaxın keçmişdə baş verən hadisələri, gedən prosesləri təhlil etməli, onlara düzgün, obyektiv qiymət verməliyik. Həmin hadisələrdən çıxan nəticələri bu gün təhlil etməliyik və bu il gələcəkdə müstəqil Azərbaycan Respublikasının demokratiya yolu ilə inkişaf etməsi üçün lazımi tədbirlərin hazırlanmasına aid fikirləri, mülahizələri, təklifləri dinləyib, ümumiləşdirib qarşıdakı dövrdə onlardan istifadə etməliyik.

Bu gün ümumxalq nümayəndələri toplantısına dövlət strukturunun, ictimai, elm, mədəniyyət təşkilatlarının, ziyalıların, gənclərin, veteranların, siyasi partiyaların, mətbuatın, Azərbaycan Ordusunun nümayəndələri, bir sözlə, Azərbaycan cəmiyyətinin bütün təbəqələrinin nümayəndələri dəvət olunublar – şübhəsiz ki, salonumuzun tutduğu qədər. Əgər salonda bundan da çox yer olsaydı, ola bilər, daha çox adam dəvət edilərdi. Ancaq güman edirəm ki, bu gün bu salonda toplaşanlar respublikamızın cəmiyyətinin bütün təbəqələrini təmsil edirlər.

Minnətdarlıq hissi ilə qeyd edirəm ki, xarici ölkələrin respublikamızdakı səfirləri, beynəlxalq təşkilatların nümayəndələri də dəvətimizi qəbul edib bu toplantıya gəliblər.

1994-cü ilin oktyabr, 1995-ci ilin mart hadisələrində Azərbaycan Respublikasının dövlətçiliyinin qorunmasında rəşadət göstərmiş ordumuzun döyüşçüləri, zabitləri bu salona dəvət olunublar. Həmin hadisələr zamanı dövlətçiliyimizin qorunmasında qəhrəmanlıq göstərərək həlak olmuş övladlarımızın valideynləri də bu toplantıya dəvət ediliblər, burada bizimlə birlikdədirlər.

1994-cü ilin oktyabr, 1995-ci ilin mart hadisələri zamanı respublikamızda dövlət çevrilişinə göstərilən cəhdlərin qarşısının alınmasında fərqlənən Azərbaycan övladlarının hamısı böyük hörmət və ehtirama layiqdir. Böyük kədər hissi ilə qeyd edirəm ki, o günlər Azərbaycan xalqına qarşı cinayət edənlərin atəşindən, gülləsindən xalqımızın mərd, igid, cəsur övladları həlak oldular. Azərbaycan dövlətçiliyinin qorunması yolunda həlak, şəhid olan övladlarımızın xatirəsini bu gün həmin hadisələrlə əlaqədar keçirilən ümumxalq nümayəndələri toplantısında bir dəqiqəlik sükutla yad etməyi rica edirəm.[27-28]

## YEKUN NİTQİ

Hörmətli toplantı iştirakçıları!

İkinci gündür ki, biz respublikamızın həyatı üçün çox zəruri, vacib olan mühüm məsələləri burada müzakirə edirik. Bu müzakirədə iştirak etmək üçün çox adamlar yazılıb. Bizə verilən müraciətlərin sayı 100-dən artıqdır. Yerdən də səslənib söz demək, çıxış etmək üçün müraciət edənlər var. Ancaq əgər danışmaq istəyənlərin hamısına burada söz versək, gərək işimizi üç-dörd gün də davam etdirək. Güman edirəm ki, iki gün bizim üçün yetərlidir. Etiraz etməsəniz mən bu toplantının işinə yekun vurmaq mərhələsinə keçərəm.

Ancaq burada söz demək istəyən hər bir adam şübhəsiz ki, ürəyində, qəlbində olan hissləri bildirmək, fikirlərini, mülahizələrini çatdırmaq, təkliflərini vermək arzusundadır. Bunlar hamısı dəyərlidir. Belə düşünürəm və güman edirəm ki, siz də bununla razı olarsınız ki, biz bu toplantının davamını televiziyada aparaq. Dünən və bu gün çıxış etmək üçün yazılı surətdə müraciət edənlərin siyahısını Prezident Aparatına və Dövlət Teleradio Verilişləri Şirkətinə verəcəyəm. Xahiş edəcəyəm ki, onlar bu toplantının davamı kimi bir rubrika açsınlar. Hökm deyil ki, bu adamlar gəlib orada çıxış etsinlər. Kimin harada imkanı varsa, bu toplantının, müzakirənin davamı olaraq öz sözlərini televiziya vasitəsilə xalqımıza çatdırsınlar.

İki gün müddətində gedən müzakirə, çıxışlar bir həqiqəti tam bəyan, təsdiq etdi ki, respublikamızda əmin-amanlıq, sabitlik, sülh şəraiti hər bir vətəndaş, dövlətimiz üçün, xalqımızın bu ağır mərhələdən müvəffəqiyyətlə keçməsi üçün lazımdır. Çıxışların hamısının ümumi məzmunu ondan ibarətdir ki, xalqımız, ictimaiyyətin tam əksəriyyəti Azərbaycanın müstəqilliyinin qorunub saxlanmasının tərəfdarıdır və nəinki tərəfdarıdır, bu arzularla, istəklərlə yaşayır və Azərbaycanın müstəqilliyinin qorunması üçün hərə öz payını verməyə, öz səyini göstərməyə hazırdır.

Müzakirənin məzmunu onu göstərdi ki, ictimaiyyətimiz, xalqımız dövlətçiliyə, müstəqil Azərbaycanın dövlətinə zidd olan bütün hərəkətlərin qarşısını almağa qadirdir və dövlətçiliyimizi sarsıtmaq, ona zərbə vurmaq istəyən qüvvələri pisləyirlər, lənətləyirlər və onların qarşısına çıxmağa hazırdırlar, bundan sonra belə halların yolverilməzliyini tam dərk edirlər.

Bütün çıxışlarda respublikanın dövlətinin, Prezidentin apar[28-29]dığı siyasət müdafiə olundu, dəstəkləndi. Burada çox xoş arzular, istəklər bildirildi. Mən bunları bu gün və gələcək işimiz üçün əhəmiyyətli bir hal hesab edirəm. Çünki müstəqil respublikamızın dövləti və Prezidenti yalnız və yalnız xalqa, Azərbaycanın vətəndaşlarına güvənirlər. Sizin, xalqımızın dəstəyi, sizin, xalqın dayağı şübhəsiz ki, dövlət üçün və bir

Prezident kimi mənim üçün çox böyük köməkdir. Buna görə mən sizə və bütün Azərbaycan xalqına, bütün vətəndaşlarımıza hörmətimi, ehtiramımı və təşəkkürümü bildirirəm.

Mənim haqqımda burada xoş sözlər deyildi. Sağ olun. Güman edirəm ki, bunların əksəriyyəti səmimi sözlər, içdən, qəlbdən gələn sözlərdir. Ancaq eyni zamanda bildirmək istəyirəm ki, mənim həyatım da, fəaliyyətim də yalnız və yalnız Azərbaycanın müstəqilliyinin qorunub saxlanmasına, ölkəmizin bu ağır vəziyyətdən çıxmasına həsr olunacaqdır. Mənim başqa məqsədim, amalım yoxdur. Bunu isə mən xalqla birlikdə, xalqın dəyərli insanları, hörmətli adamları ilə, xalqın irəli çəkdiyi nümayəndələri ilə birlikdə edə bilərəm. Güman edirəm ki, dünənki və bugünkü müzakirələr gələcəkdə də bizim həmrəy olmağımız üçün əsas yaradır və qarşımızda duran vəzifələrin öhdəsindən bərabər gəlmək üçün imkan verir. Ancaq bir şeyi bilməlisiniz ki, mən Azərbaycanda bütün məsələlərin demokratiya yolu ilə həll olunmasının tərəfdarıyam. Demokratiya dövlətçiliyimizin əsasını təşkil edəcəkdir. Demokratik prinsiplər bu günümüzün, gələcəyimizin əsasını təşkil edəcəkdir. Sizin bu təklifləriniz, arzularınız mənim üçün çox xoşdur ki, Heydər Əliyev daimi, yaxud ömürlük prezident olsun. Ancaq bilin ki, mən nə ömürlük prezident, nə də daimi prezident olmaq arzusundayam. Mən ancaq və ancaq xalqın etimadını doğruldan günə qədər bu vəzifəni tutmalıyam.

Demokratik prinsiplər həyatımın, fəaliyyətimin əsasını təşkil edir. Allah imkan versin ki, mən bu prezidentlik səlahiyyəti dövrünü başa çatdıra bilim. Gələcəkdə isə, şübhəsiz ki, demokratik şəraitdə yeni prezident seçkiləri təyin olunacaqdır. O vaxt xalq kimə etimad göstərsə, o da prezident ola bilər. Şübhəsiz ki, əgər sağlıq olsa, mən də yenidən prezident seçilmək haqqında düşünə bilərəm.

Ancaq bunlar hamısı bizim üçün uzaq gələcəkdir. İndi biz bu günlər haqqında və qarşımızda duran vəzifələr barədə düşünməliyik. Əgər bu gün qarşımızda duran vəzifələri layiqincə yerinə yetirə bilsək, Azərbaycan xalqı, respublikası, müstəqil [29-30] dövlətimiz üçün gələcəkdə daha gözəl şərait yarada bilərik. Həmin şəraitdə hər şey çox asanlıqla həll olunacaq – nə zor olacaq, nə çevriliş olacaq, nə də ki ayrı-ayrı insanların siyasi ambisiyaları, iddiaları olacaq. Həqiqət, ədalət, demokratiya, düzlük, əmin-amanlıq olacaq. Mən buna əminəm.

Biz son illər ərzində Azərbaycanda gedən prosesləri təhlil etdik. Burada dövlət nümayəndələrinin çıxışlarında verilən məlumatlarda və müzakirə iştirakçılarının, natiqlərin çıxışlarında bu illərdə gedən proseslər və baş vermiş hadisələr həm yada salındı, həm təhlil edildi, həm də onlara siyasi qiymət verildi.

Azərbaycan xalqı, respublikamız 1988-ci ildən ağır, faciəli bir həyat keçirir. Bunun əsas səbəbi Ermənistan tərəfindən Azərbaycana qarşı edilən hərbi təcavüz, respublikanın bu təcavüzün qarşısını ala bilməməsi nəticəsində baş vermiş faciələr, hadisələr – torpaqlarımızın bir qisminin işğal olunması, bir milyondan çox vətəndaşımızın öz yerindən-yurdundan, elindən-obasından didərgin düşməsi və qəhrəman insanlarımızın Vətən, torpaq yolunda həlak olması, itməsidir.

Bu gün mən Vətənimizin, torpaqlarımızın müdafiəsi yolunda, Azərbaycanın müstəqilliyi uğrunda qurban getmiş şəhidləri bir daha böyük ehtiram hissi ilə yad edirəm, onların ruhu qarşısında baş əyirəm. Bəyan edirəm ki, mənim həyatda ən böyük və şərəfli vəzifəm xalqı bu ağır vəziyyətdən çıxarmaqdan, bu əvəzsiz itkilərin və yaraların sağalmasını təmin etməkdən ibarət olacaqdır. Əminəm ki, biz buna nail ola biləcəyik.

Ancaq Ermənistanın təcavüzü ilə əlaqədar ölkəmizin başına gələn bəlalarla yanaşı, respublikamızın daxilində gedən ictimai-siyasi proseslər və dağıdıcı hərəkətlər də Azərbaycana çox ağır zərbələr vurmuşdur. Bu barədə geniş danışıldı – dünən də, bu gün də. Mən onu qeyd etmək istəyirəm ki, üç il yarımdır biz müstəqil yaşayırıq; bu müstəqilliyin ilk addımlarını atırıq. Üç il yarımdır Azərbaycanın daxili vəziyyətini, sabitliyi pozmağa cəhdlər göstərilir. Düşünmək lazımdır, məgər Ermənistanın təcavüzü, Azərbaycanın dəyərli övladlarının həlak olması, torpaqlarımızın itirilməsi bəs deyilmi? Məgər 1990-cı ilin 20 Yanvar faciəsi – Azərbaycana qarşı edilən hərbi təcavüz və ölkəmizin müstəqillik yolunda atdığı addımların qarşısının alınması, verdiyimiz itkilər bəs deyilmi? Başımıza gələn bəlalar bəs deyilmi? Nə üçün biz bunlardan [30-31] nəticə çıxarmırıq? Nəticə çıxarmaq, düşünmək lazımdır. Düşünmək lazımdır ki, daim belə vəziyyətdə yaşamaq olmaz. Düşünmək lazımdır ki, gərək hər kəs öz gücünü, biliyini, zəkasını, bacarığını, təcrübəsini yalnız və yalnız Azərbaycanı bu ağır vəziyyətdən çıxarmağa, ancaq buna sərf etsin. O insanlar, o qüvvələr, o qurumlar, təşkilatlar ki, Azərbaycanın bu qarmaqarışıq dövründə özləri üçün mövqe tutmaq, varlanmaq, cürbəcür yollarla vəzifə əldə etmək istəyirlər, onlar xalqa xəyanət edirlər və bunu düşünməlidirlər.

Son iki ildə Azərbaycan bir neçə dəfə vətəndaş müharibəsinin astanasında durub. 1993-cü ilin iyun ayında Azərbaycanda hakimiyyət böhranı, siyasi, hərbi böhran başlayıb. Nə üçün başlayıb? O vaxt Ermənistan silahlı qüvvələri Azərbaycana ardıcıl hücum edib, torpaqlarımız dalbadal işğal olunub. Bu nə üçün baş verib? Bunun kökləri var. Bunun kökləri ondan əvvəlki illərə gedib çıxır. Səbəbi də ondan ibarətdir ki, ayrı-ayrı yollarla hakimiyyətə gəlib, vəzifə əldə edib, onu apara bilməyən adamlar mütləq və mütləq belə bir vəziyyətə gəlib düşməlidirlər.

20 Yanvar faciəsindən sonra Azərbaycanın rəhbərliyində qətiyyət olmadı ki, ondan nəticə çıxarsın və ölkəmizin müstəqilliyi haqqında düşünsün. Bunlar hamısı 1992-ci ildə baş vermiş hadisələrə gətirib çıxardı. 20 Yanvar ərəfəsində xalq ayağa qalxdı. Yəni, 1989-cu ilin sonunda, 1990-cı ilin əvvəlində xalq ədalətsizliyə,

diktaturaya qarşı etirazını bildirdi. Xalqın bu etirazını boğmaq istədilər – boğdular. Sındırmaq istədilər – sındırdılar. Qan üstündə hakimiyyət əldə etdilər.

Belə bir hakimiyyət çox yaşaya bilməzdi. Bu hakimiyyət 1992-ci ildə devrildi, hakimiyyətə yeni qüvvələr gəldi. İnsanların bir çoxu onlara inandı.

Bu, Xalq Cəbhəsidir. Mənim özüm də o vaxt Xalq Cəbhəsinin sağlam qüvvələrinə dəstək verirdim, onları müdafiə edirdim. Çünki mən onların müstəqillik yolunda hərəkətləri, diktatura əleyhinə fəaliyyəti ilə həmrəy idim. Ancaq onlar hələ hakimiyyəti saxlamaq iqtidarında deyildilər. Ona görə bir il müddətində Azərbaycanın başına böyük bəlalar gəldi. Bunu dərk etməli idilər. Onların içərisində sağlam qüvvələr var idi, çox idi. Onların bir çoxu ayrıldı. Çünki hakimiyyətə gələn həmin insanlar düz yol ilə getmədilər. Ona görə də sağlam qüvvələr çəkildi və onlar qüvvədən düşdülər, xalqın etimadını [31-32] itirdilər. Bütün bunlar da 1993-cü ilin iyununda olan hakimiyyət, dövlət böhranına, hərbi, siyasi böhrana gətirib çıxardı.

1992-ci ildə də, 1990-cı ilin yanvarında da, 1993-cü ilin iyun ayında da Azərbaycanda siyasi böhran oldu. Vəzifədə, hakimiyyətdə olan adamların üç dəfə hakimiyyətdən uzaqlaşdırılması yalnız və yalnız xalqın onlara etimadının itməsi və xalqın əksəriyyətinin onlara nifrət bəsləməsi ilə əlaqədar idi. Başqa səbəb yox idi. Burada doğru deyildi, – 1993-cü ildə Surət Hüseynov öz hərbi dəstəsi, ətrafına topladığı quldur dəstələri ilə Azərbaycanda sabitliyi pozdu. Əgər dövlət başçıları Azərbaycanda hakimiyyəti doğrudan da idarə etməyə qadir, xalqın dəstəyinə malik ola bilsəydilər, dövləti müdafiə edə bilsəydilər, Surət Hüseynovun quldur dəstəsinin gəlib Azərbaycanı dağıtmağa, vətəndaş müharibəsi salmağa imkanı olmazdı. Bu hadisə məhz ona görə baş verdi ki, hakimiyyətdə olan şəxslər bir tərəfdən idarə etməyə qadir deyildilər, digər tərəfdən xalqın etimadını itirmişdilər, xalqın nifrətini qazanmışdılar.

Biz belə bir şəraitdə sizinlə bərabər işə başladıq, Azərbaycanı vətəndaş müharibəsindən xilas etdik. Bu, həqiqətən belə idi, 1993-cü ilin iyun ayında Azərbaycan dəhşətli bir fəlakət qarşısında idi. Bəlkə də kənarda olan adamlar bunun dərinliyini, təhlükəsini o qədər də bilmirdilər. Ancaq mən Bakıya gələndən, bu məsələləri bir neçə gün təhlil edəndən sonra respublikamızın, xalqımızın nə qədər böyük uçurum, fəlakət qarşısında olduğunu dərk etdim Yalnız və yalnız buna görə mən respublika Ali Sovetinin sədri vəzifəsinə seçilməyə razılıq verdim. Bir daha demək istəyirəm ki, mən buraya öz istəyimlə gəlmədim, mübarizə edərək, kimisə yıxmaq üçün gəlmədim. Məni bura dəvət etdilər, xalq dəvət etdi. Xalq nümayəndələri dəstə-dəstə mənim yanıma gəldilər, dəvət etdilər. Ancaq bura gələndən sonra da mən bir həftə fikirləşdim, düşündüm, yalnız ondan sonra razılıq verdim.

Amma sonra nə oldu? İki gün sonra respublikanın prezidenti Əbülfəz Elçibəy, əgər hərbi dildə desək, səngəri, öz iş yerini atdı, gizli olaraq Bakıdan qaçdı, Kələki kəndində yerləşdi. İndi təsəvvür edin, mən burada tək qaldım. Prezident yox, baş nazir yox. Ali Sovetin sədri kimi belə bir ağır vəziyyətdə qaldım. Əgər Əbülfəz Elçibəy prezident kimi öz vəzifəsini doğrudan da müdafiə edə bilsəydi və burada qalsaydı, şübhəsiz ki, mən onunla əməkdaşlıq edə bilərdim. Ancaq təəs[32-33]süf ki, o, xalqı da aldatdı, məni də aldatdı. Ona görə də gedib iki il müddətində Kələkidə oturub, həftədə bir bəyanat, müsahibə verməyə, ayrı-ayrı mülahizələr söyləməyə onun mənəvi haqqı yoxdur. Xalq ona düz-əyri, etimad göstərmişdi. Prezident seçilmişdi, hakimiyyət, dövlət onun əlində idi. Dövləti başsız qoyub qaçan adamın indi yenə də siyasi fəaliyyət göstərməyə hüququ, mənəvi haqqı varmı? Yoxdur.

Eləcə də ondan əvvəlki prezident Mütəllibovu götürək. Böyük günahlarına görə, xalqın təzyiqi altında, xalqın nifrətinə görə, xalqın etimadını tamamilə itirdiyinə görə o, 1992-ci ilin mart ayında istefa verib. Ancaq sonra bir neçə quldur dəstəsinin, qrupunun iradəsi ilə yenidən vəzifəyə qayıtmaq eşqinə düşdü. Həm də bu, təkcə onun fikri deyildi. Bu, çox böyük siyasi bir oyun idi. O siyasi oyunun da qurbanı – bəli, burada doğru dedilər – Şuşa, Laçın oldu. Bəli, Rəhim Qazıyev xaricdə Azərbaycana qarşı düşmən olan ayrı-ayrı qüvvələrlə, Mütəllibovla birlikdə Şuşanı və Laçını qurban verdilər ki, guya belə bir şəraitdə Mütəllibov yenidən hakimiyyətə gələcək və xarici qüvvələrdən kimsə bunların qaytarılmasına kömək edəcək, onun hakimiyyətini möhkəmləndirəcəkdir.

Mütəllibov da qaçıb. O da Rusiyanın hərbi təyyarəsinə minib üç il bundan əvvəl buradan gizli qaçıb. Əgər sən öz Vətənini, torpağını, vətəndaşlarını, ətrafında olan adamları qoyub qaçmısansa, indi Azərbaycan haqqında söz deməyə hansı haqqın var? İndi ona buradan vəsait, pul göndərənlər, onunla əlaqə saxlayanlar düşünürlərmi ki, bunların axırı yoxdur? Ona görə yox ki, ya Mütəllibov, ya da Əbülfəz Elçibəy mənim üçün pis adamlardır. Ona görə ki, onlar artıq xalqın etimadını itirmiş adamlardır. Bunu anlamalıdırlar və siyasətdən geri çəkilməlidirlər.

O ki qaldı 1993-cü ilin iyun ayından bu tərəfə gedən hadisələr, bəli, iyunda vətəndaş müharibəsinin qarşısı alındı. Biz respublikada sabitlik yaratmaq istədik. Ancaq ayrı-ayrı qüvvələr buna imkan vermədilər. Azərbaycanın cənub bölgəsində Əlikram Hümbətov kimi yaramaz bir insan respublikanı parçalamağa cəhd göstərdi. Bilirsiniz, respublikamızda gedən proseslərin qəribə cəhətləri var. Belə bir yaramaz insan respublikanın bir neçə rayonunu silah gücü ilə ələ keçirmişdi. Şübhəsiz ki, bunlar – Surət Hüseynov, Rəhim Qazıyev, Moskvadan Mütəllibov və xaricdən ayrı-ayrı qüvvələr bir-biri ilə bağlı idi.[33-34]

Vətəndaş müharibəsi baş verdi. Ancaq xalq bizim iradəmizlə ayağa qalxdı, Əlikram Hümbətov təcrid olundu, qaçdı, sonra tutuldu. Biz orada da qurbanlar verdik, – bilirsiniz belə insanlar hər dəfə xalqımızı böyük tələfatlara gətirib çıxartmışdır. Onun da qarşısını aldıq. Amma buna baxmayaraq respublikanın daxilində olan bəzi qüvvələr yenidən hakimiyyət iddiasına düşdülər. Oktyabr hadisələri baş verdi.

Oktyabr hadisələri təkcə Surət Hüseynovun işi deyildi. Onun ətrafında toplaşmış qruplar – o vaxt Cavadov qardaşları, xaricdən onları dəstəkləyənlər hamısı birlikdə dövləti devirmək istədilər. İndi təsəvvür edin, 1992-ci ildə də, 1993-cü ildə də hakimiyyətdə olan şəxslər kənarlaşdırıldılar. Nəyə görə? Xalqın onlara qarşı üsyanına, xalqın onlara etimadsızlığına görə. Ancaq 1994-cü ilin oktyabr ayında Surət Hüseynov bu işə bir neçə ay hazırlaşmışdı. Burada belə məlumat verildi ki, o elə Bakıya gələndən buna hazırlaşırdı. Ancaq 1994-cü ilin mayından o, artıq gizli silahlı quldur dəstələri hazırlayırdı və biz bunu müşahidə edirdik. Bunun qarşısını almaq üçün lazımi tədbirlər görürdük. Ancaq bu qədər silahlı quldur dəstələri hakimiyyətə bir şey edə bilmədilər. Nəyə görə? Xalq hakimiyyəti, iqtidarı müdafiə etdi və xalqın dəstəyinə, iradəsinə görə, xalqla dövlətin birliyinə görə biz oktyabrın əvvəlində dövlət çevrilişinin qarşısını ala bildik.

Bu da dərs olmadı. Cavadov qardaşları bundan da ibrət götürmədilər. Bilirsiniz, biz çox təhqirli bir vəziyyətdəyik. Görün, Azərbaycan kimi böyük bir dövlətin, tarix boyu böyük insanlar, zəkalar, şəxsiyyətlər yetişdirmiş xalqın içərisindən çıxan bu quldurlar gəlib bu xalqın başına nə işlər gətirə bilirlər! Azərbaycan gör nə vəziyyətə düşüb. Təəccüb doğuran, çox təəssüf doğuran cəhət də ondan ibarətdir ki, bəziləri Cavadov qardaşları kimi quldur adamların ətrafına toplaşmışdı. Hətta bəzi ziyalılar, alimlər, yazıçılar, şairlər gedib onlara səcdə edirdilər, onlarla hesablaşırdılar: bəli, bunlar gücdür, onların əlində silah, pul var. Bir dəqiqəlik təsəvvür edin ki, əgər belə quldurlar gəlib Azərbaycan dövlətini əllərinə keçirə bilsəydilər, bəs Azərbaycanın adlı-sanlı, zəkalı, ağıllı insanları, ziyalıları, mötəbər adamları belə quldurların əlinin altında yaşamalı idilərmi? Bəs onların ətrafında fırlanan adamlar bunu düşünmürdülərmi? Onlar öz şəxsiyyətləri haqqında düşünmürdülərmi ki, Mahir Cavadov, Rövşən Cavadov kimi quldurlar, [34-35] narkomanlar, canilər, cinayətkarlar əgər bir mövqe tutarlarsa, Azərbaycan tamamilə dağılıb gedə bilər. Bunu düşünmürdülərmi?

Açıq demək lazımdır ki, mart hadisələri və o ərəfədə olan vəziyyət çox təhlükəli idi. Çünki onların ətrafında bir çox qüvvələr toplaşmışdı. Burada çıxış edən daxili işlər naziri, milli təhlükəsizlik naziri, respublikanın baş prokuroru bu barədə dedilər. Amma bəziləri çox səthi dedilər, o cümlədən baş prokuror. Məlumdur ki, Azərbaycanda mövcud olan bütün siyasi qüvvələrin əksəriyyəti, bir-birinə zidd olan qüvvələr mart hadisələri ərəfəsində artıq həmin quldur dəstəsinin ətrafında toplaşmışdılar – bir tərəfdən Azərbaycandan qaçaraq Moskvada oturan cinayətkarlar, digər tərəfdən respublikanın daxilində olan və guya siyasi fəaliyyət göstərən qüvvələr. Məlumdur ki, həmin çevrilişə hazırlaşan zaman Rövşən Cavadovun özü də bəyan etmişdi və bu, televiziya vasitəsilə verilmişdi ki, dövlət şurası yaradılmalı və buraya hamı dəvət olunmalıdır Mütəllibov da, Əbülfəz Elçibəy də, Vəzirov da və başqaları da. Bu, təsadüfi bəyanatlar deyildi. Bəyan edirdilər ki, Heydər Əliyev ya istefa verməlidir, ya da öldürülməlidir. Bəziləri demişdilər ki, gülləni onun başına özümüz vuracağıq. Burada birlikdə dövlət şurası yaranacaqdı. Axı onlar dövlət şurasının yaranmasına razılıq vermişdilər. Rövşən Cavadovun yanına, hüzuruna Moskvadan da, Kələkidən də emissarlar gəlmişdi. Burada olan ayrı-ayrı guya siyasi partiyaların, qüvvələrin nümayəndələri də oraya gəlmişdilər.

Bəli, bu adamın özü cinayətkar idi, ətrafında da cinayətkar adamları toplamışdı. Ancaq ona dəstək, rəvac verən, onu təlimatlandıran adamlar həmin bu siyasi qüvvələr idilər. Bu, məlumdur və Azərbaycandan xaricdə də məlum idi. Rusiyanın da, Türkiyənin də müvafiq orqanlarından mənə məlumatlar gəlmişdi ki, belə bir dövlət çevrilişi hazırlanır. Özümüzün də məlumatlarımız var idi. Məsələ təkcə o deyildi ki, guya Rövşən Cavadovun quldur dəstəsi burada dövlət çevrilişi etmək istəyir. Bəli, o quldur dəstəsi idi, təəssüflər olsun. O quldur dəstəsini yetişdirənlər də vaxtilə həmin adamlar idi. Amma iş orasındadır ki, onların hamısı əlaqədə idi. "Boz Qurd" partiyası da, o biri partiyalar da orada idi. Dediyim kimi, həmin o nöqtələrdən də oraya emissarlar gəlmişdi, əlaqələr qurmuşdular, telefon danışıqları da olmuşdu. Bəli, plan da qurulmuşdu ki, Heydər Əliyev Kopenhagendən dönərkən [35-36] hava limanında öldürülməlidir və hər şey bundan sonra başlanmalıdır.

Sonra mən Türkiyənin bəzi müvafiq orqanlarının nümayəndələri ilə görüşərkən mənə dedilər ki, bu məlumatları onlar burada olan nümayəndələrinə də çatdırmışdılar. Mən onsuz da bunu bilirdim. Amma onlar da çatdırmışdılar. Təəssüflər olsun ki, buradakı bəzi müvafiq orqanlar bu məlumatları mənə verməmişdilər, çünki onlar ikibaşlı siyasət aparırdılar. Bu da həqiqətdir. Ancaq mən bunları bilirdim, görürdüm, müşahidə edirdim. Bilirdim ki, dövlətimiz böyük təhlükə qarşısındadır. Amma eyni zamanda əmin idim, arxayın idim, inanırdım ki, dövlətimizi, hökumətimizi heç kəs sarsıda bilməz.

Ona görə də mən bu məlumatları soyuqqanlılıqla qarşılayırdım. Ancaq hadisə baş verən zaman, şübhəsiz ki, biz qətiyyətli hərəkət etdik. Burada deyildi, – mən nə qədər addımlar atdım ki, bu silahlı quldur dəstəsi, cinayətkar dəstə düz yola gəlsin. Bunları təkrar etmək istəmirəm, bunlar məlumdur. Ancaq bütün bu addımlar nəticə vermədi. Nə üçün? Çünki onlar ayrı-ayrı yerlərdən dəstəklər almışdılar. Onlar tam inanırdılar ki, doğrudan da, zorakılıqla gəlib konstitusiyalı hakimiyyəti devirəcək, hakimiyyəti ələ alacaqlar. Ona görə də onlar mənim atdığım addımların heç birinə cavab vermədilər.

Ancaq onlar da, onları dəstəkləyənlər də Azərbaycan dövlətinin artıq nəyə qadir olduğunu gördülər və bildilər. Bu gün mən çox böyük təəssüf hissi ilə demək istəyirəm ki, son illər respublikamızda belə adamlar meydana çıxıblar, qeyri-qanuni hərəkətləri ilə, cinayətkarlıqları ilə var-dövlət yığıblar, silah əldə ediblər və zorakılıq yolu ilə hakimiyyətə gəlmək, vəzifə almaq Azərbaycanda bir adət-ənənəyə çevrilib.

Bugünkü müzakirəmiz məhz bu nəticəyə gəlməlidir ki, bundan sonra Azərbaycanda silahla, zorakılıqla heç bir iş görmək olmaz. Mən buna tam qətiyyətlə zəmanət verirəm. Ancaq bu, tək mənim zəmanətimdən asılı deyil. Buna hər bir vətəndaş zəmanət verməlidir.

Hər bir vətəndaş bilməlidir ki, silahla, zorla hakimiyyətə gəlmək, hakimiyyət, vəzifə əldə etmək olmaz. Surət Hüseynovun, Rəhim Qazıyevin, Rövşən Cavadovun, Mahir Cavadovun və başqalarının aqibəti budur. Bunlardan ibrət dərsi götürmək lazımdır.

Bütün bunların mövcud olmasının səbəbi də ondan ibarətdir ki, son illərdə cəmiyyətimizdə, insanlarda biganəlik ya[36-37]ranıb: "məndən ötsün, mənə dəyməsin, nə olur-olsun". Belə olmaz. Hər bir vətəndaş Vətənimizin, xalqımızın taleyi ilə yaşamalıdır. Xalqımızın, Vətənimizin, respublikamızın taleyi hər bir insanın taleyinə çevrilməlidir. Əgər belə olardısa, Cavadovlar kimi adamlar bir belə var-dövlət, silah toplayıb, cəbbəxanalar yaradıb bu işləri görə bilməzdilər.

Xüsusi Təyinatlı Polis Dəstəsinin keçmiş qərargah rəisi Nizami Məmmədov burada çıxış etdi. Onun çıxışı açıq göstərir ki, onların hamısı cinayətkar deyildi, hamısı o yola gedən adamlar deyildi. Onların tam əksəriyyəti xalqına, Vətəninə sədaqətlə xidmət etmək istəyən gənclər idi. Ancaq onların əxlaqını pozdular, şüurunu zəhərlədilər. Nə ilə? İdeologiya iləmi? Xeyr. Şəxsi hörmət iləmi? Xeyr. Pulla, var-dövlətlə, silahla. Bəli, həmin o cinayətkar dəstələrə həddindən artıq vəsait verilirdi. Haradan verilirdi? Bu dollarlar göydənmi tökülürdü, yerin altındanmı çıxırdı? Xeyr. Bax, həmin bu cinayətkarlar ayrı-ayrı insanları qarət edərək, raketçiliklə məşğul olaraq və bəzi pullu adamların yardımından istifadə edərək belə var-dövlət yığmışdılar. Ona görə də sağa-sola paylayırdılar. Bir sıra adamları da bu pulla özlərinə bağlamışdılar. Onlara kömək edənlər, onlarla bərabər olanlar, onlara ümid bəsləyən adamlar artıq haqq-hesablarını aparmalıdırlar, özləri üçün nəticə çıxarmalıdırlar.

Burada Bərdədən, Ağdamdan çıxış edənlər danışdılar. Necə olur ki, Bəxtiyar Cavadov neçə-neçə "Mersedeslərin müşayiəti ilə Ağdama, Bərdəyə, ora-bura gedir? Mən vaxtilə Bəxtiyar Cavadova hörmət etmişəm. Oktyabr hadisələrində də ona hörmətlə, ehtiramla müraciət etdim ki, gəlib bu məsələlərin həll olunmasında öz səyini göstərsin. Onunla görüşdüm. Mən onunla mart hadisələrindən sonra da görüşmüşəm. Onun öz oğluna bu işlərdən əl çəkmək barədə məlum məktubu da var. Ancaq mən hesab edirəm ki, o öz atalıq borcunu yerinə yetirməyibdir. Heç bir şey ona bəraət qazandıra bilməz. İndi o Cavadovlar ailəsinin zənginliklərinə, var-dövlətinə və başqa şeylərə görə yığışıb orda-burda danışması, – bunların hamısı cəmiyyətimizə böyük bir ləkədir.

Mart hadisələrində dövlətçiliyimizi qoruyarkən həlak olmuş milli qəhrəmanların valideynləri ilə iki gün bundan əvvəl görüşdüm. Onlar burada iştirak edirlər. Şəhid anası Səltənət Səfərova orada çıxış etdi. Çox dəyərli, vətənpərvər sözlər dedi. [37-38] Dedi ki, oğlum həlak olub, ancaq Azərbaycanın dövlətçiliyi yolunda həlak olubdur. Bax, bu qadının, sadə insanın mənəviyyatı belədir. O, Qaradağda, Sahil qəsəbəsində yaşayır. O bildirdi ki, əgər mənim yaşadığım yerə gəlib baxsanız, görərsiniz ki, orada it də yaşamaz. Səltənət Səfərova Qaradağ rayonu icra hakimiyyəti başçısının ona soyuq münasibətindən danışdı. Mən Qaradağ rayonu icra hakimiyyətinin başçısını həmin gün işdən çıxartdım. Nə üçün? Çünki biz şəhid ailələrinə, şəhid analarına qayğı, diqqət göstərməliyik. Qaradağ rayonunda yüz şəhid yoxdur ki, Səltənət Səfərovanın oğlu üç ay bundan əvvəl şəhid olub. Amma icra hakimiyyətinin başçısı bir dəfə də vaxt tapmayıb ki, gedib ona başsağlığı versin. Ona görə də mən həmin dəqiqə onu işdən azad etdim. Gələcəkdə də belə qəti qərarlar çıxaracağam. Çünki hər bir dövlət adamı xalqa, vətəndaşlara xidmət etməlidir. O, dövlət vəzifəsini ona görə tutur. Bu vəzifə dövlət, xalq, vətəndaşlar üçündür. Dövlət idarələri xalqın qayğısına qalmalıdırlar.

Ancaq mən məsələnin digər tərəfini də demək istəyirəm. Necə olur ki, Səltənət Səfərovanın oğlu Azərbaycanın dövlətçiliyini qorumaq uğrunda həlak olub, amma o belə ağır vəziyyətdə yaşayır? Onun yaşamağa mənzili yoxdur. Amma Cavadovların var-dövlətlərini qoymağa yerləri yoxdur. Bəs Bəxtiyar Cavadov bunu başa düşmürdümü və görmürdümü ki, onun oğlanları bir belə var-dövlətə malikdirlər, bir belə silah oynadırlar? Bəs bu haradan gəlir, göydənmi düşür? Nə üçün o, buna görə ölçü götürmürdü, bunun qarşısını almırdı? Bəs nə üçün onların ətrafında fırlanan qohum-əqrəbalarının bəziləri böyük-böyük vəzifələr tutublar, amma narazılıq edirlər? Onlar nə üçün anlamırdılar ki, bu cinayətlərə son qoymaq lazımdır, bunun axırı yoxdur?

Bu Səltənət Səfərovanın mənəviyyatı, o da Cavadovlar ailəsinin mənəviyyatı. Mən Səltənət Səfərova kimi insanları Azərbaycanın həqiqi, sədaqətli vətəndaşları hesab edirəm və belə adamların qarşısında baş əyməyə hazıram.

Oktyabr, mart hadisələrinin kökləri böyükdür və hərə özü üçün nəticə çıxarmalıdır. XTPD-nin başçılarının ətrafında toplaşan dəstələr uduzdular. Amma onlar da gərək özlərində cürət tapsınlar və həqiqəti desinlər. Əgər onlar dövlətə qarşı müxalifətdədirlərsə, Vətənə, xalqa, torpağa qarşı müxalifətdə ola bilməzlər. Ola bilər ki, onlar dövlət başçısına qarşı müxalifətdə olsunlar. Amma necə oldu ki, bütün bu partiyalar yığış[38-39]dılar, bir alyans

düzəltdilər ki, gəlin biz vasitəçilik edək? Siz burada nə vasitəçilik edəcəksiniz? Gedib onlarla birləşdiyiniz halda vasitəçilik etməyə sizin nə haqqınız var?!

Bilirsiniz ki, biz iki dəfə dövlət çevrilişinin qarşısını aldıq – oktyabrda da, martda da. Siyasi partiyaların heç biri bu barədə doğru-düzgün, ədalətli bəyanat vermədi. Hətta əksəriyyəti çalışdı göstərsinlər ki, burada heç bir şey yoxdur. Dünən Namiq Abbasov bu barədə söylədi, – bəziləri dedilər ki, guya bunlar Milli Təhlükəsizlik Nazirliyi agentlərinin pozuculuq hərəkətləridir. Bu qədər də ədalətsizlik olarmı? Bəs nə üçün 1993-cü ilin iyun hadisələrini dövlət çevrilişi hesab edirdiniz və bu barədə indiyədək də yazırsınız? Əgər siz ədalət tərəfdarısınızsa, bəs nə üçün sizin hakimiyyətinizi devirən həmin Surət Hüseynov ikinci dəfə dövlət çevrilişi edərkən, onun qarşısı alınarkən səsinizi qaldırmadınız? Niyə öz fikrinizi demədiniz? Həmin Surət Hüseynov idi ki, gəlib sizi boğurdu. Həmin Surət Hüseynovdur ki, onun qorxusundan Əbülfəz Elçibəy buradan Kələkiyə qaçdı. Həmin Surət Hüseynovdur ki, onun qorxusundan Pənah Hüseynov, İsa Qəmbərov istefa verdilər. Həmin Surət Hüseynovdur. İndi bu Surət Hüseynov öz cinayətkar hərəkətlərini davam etdirdiyi, dövləti devirmək istədiyi halda onun qarşısı alınıb, amma siz niyə susursunuz? Yəqin ki, siz də bunu istəyirdiniz. Surət Hüseynov sizin üçün nə qədər pis olsa da, əgər o indi Əliyev hakimiyyətinin əleyhinə çıxırsa, demək, siz bunun tərəfdarısınız. Əgər Rövşən Cavadov öz quldur dəstəsi ilə Heydər Əliyevi – Prezidenti öldürüb hakimiyyəti ələ almaq istəyirsə, siz buna tərəfdar çıxırsınız. Bilirsiniz, bu, sadəcə siyasət deyil. Bu, terrorçuluq siyasətidir.

Son illər Azərbaycanda baş vermiş ən dəhşətli iki amil var: birincisi, zorla, silahla vəzifə əldə etmək, hakimiyyətə gəlmək, zorakılıq yolu ilə hərəkət etmək; ikincisi, terror yolu ilə öz məqsədlərinə nail olmaq. Bax, həmin qüvvələr bu amillərin ikisinin də əsasını təşkil edirlər. Əgər Xalq Cəbhəsi vaxtilə silahlı dəstələr yaratmasaydı, bu cinayətlərin bir çoxu da olmazdı. Xalq Cəbhəsi hakimiyyətə gəldi, ölkənin dövlət strukturları – polisi, ordusu, daxili qoşunları var idi. Amma eyni zamanda Xalq Cəbhəsinin silahlı dəstələri yaşamağa başladı, indiyədək də yaşayır. Bunu görən Mütəllibov da özünə "Qardaşlıq" adlı bir silahlı dəstə yaratdı. Azərbaycanı bəlalı vəziyyətə salan bunlardır. Demək, bunlar qardaş qanı tökülməsinə, qardaş qır[39-40]ğınına, vətəndaş müharibəsinə gedirdilər. Bəs bunun nəticəsini görmürdülərmi?

Elə ona görə də həmin Xüsusi Təyinatlı Polis Dəstəsi dövlət strukturundan silahlı quldur dəstəsinə çevrildi. O quldur dəstəsinin üzvləri böyük cinayətlər, reketçilik etdilər, insanları öldürdülər, sui-qəsdlər etdilər, adamları oğurladılar. Hansı cinayətlər etmədilər! Bilirsiniz bunlar hamısı o dövrün məhsuludur. İndi görün bizə nə gəlib çatıb, biz dövlətin işlərinə hansı şəraitdə başlamışıq.

Ona görə də bugünkü müzakirədən çıxan əsas nəticə ondan ibarət olmalıdır ki, istənilən məqsədlərə zorakılıqla nail olmaq hallarına son qoyulmalıdır. Cəmiyyətimiz, ictimaiyyətimiz buna qarşı çıxmalıdır. Terrorizmə son qoyulmalıdır. Afiyəddin Cəlilov, Şəmsi Rəhimov terrorizmin qurbanları oldular. Qətlə yetirilmiş bir neçə başqa adam da terrorizmin qurbanlarıdır. Həmin bu qüvvələr artıq başqa bir yolla öz məqsədlərinə nail ola bilmədiklərinə görə terrorizmə əl atıblar.

Burada deyildi, – ilk terror aktı 1993-cü ildə Xalq Cəbhəsi tərəfindən mənim əleyhimə hazırlanmışdı. Axı bu qədər də vicdansızlıq olmaz, bu qədər də şərəfsizlik olmaz! Onlar Türkiyədən, Ərzrum Universitetindən Həsən Toku adlı bir nəfər gənc türkü Naxçıvanda bir ay hazırlıqdan sonra buraya gətirmişdilər ki, o məni öldürsün. O tutuldu, indi həbsxanada yatır. Onu da bədbəxt etdilər. Ondan savayı, daha iki nəfər adam həbsxanada yatır, bədbəxt olmuşlar. Amma həmin terroru hazırlayan üç nəfər qaçıb Kələkidə gizlənir.

Bu, necə ola bilər? Əgər bu, siyasi təşkilatdırsa, axı terrorizmlə məşğul olmamalıdır. Demək, bu, terrorçu təşkilatdır. Terrorçu təşkilata isə cəmiyyətimizdə yer ola bilməz.

İndi Moskvada yerləşən həmin o adamlar cürbəcür terror aktlarına əl atmaq istəyirlər. Onların birinci hədəfi də Heydər Əliyevdir, onun ailəsinin üzvləridir və Heydər Əliyevin yaxın silahdaşlarıdır. Mən bunları sizi sadəcə məlumatlandırmaq üçün deyirəm. Ancaq onlar da – terrorçular da, hamı da bilsin, məni heç bir şey qorxutmur, o cümlədən terror aktı. Mən Azərbaycan Respublikasının bu ağır dövründə bu yükü öz üzərimə götürmüşəm. Ona görə yox ki, bu vəzifə mənə lazımdır. Bəziləri buna can atırlar. Ona görə götürmüşəm ki, öz bacı-qardaşlarıma, doğma Vətənimə, doğma vətəndaşlarıma, torpağıma xidmət edim.[40-41]

Dəfələrlə demişəm, həyatımın son dəqiqəsinədək mən bu xidməti edəcəyəm. Məni heç nə qorxutmur, heç bir şey çəkindirmir. Mən bütün bu təxribatların, terrorun qabağında durmuşam və duracağam. Azərbaycanın müstəqilliyini qorumuşam, qoruyacağam.

Əgər hansı bir namərd gülləsi, hansı bir terrorçu gülləsi məni həyatdan götürərsə, özüm də, övladlarım da müstəqil Azərbaycanın yaşaması yolunda qurban olmağa hazırıq.

Mən bütün bu məlumatları sizə verərək, eyni zamanda sizdə böyük ümid hissi yaratmaq istəyirəm. Çünki mən böyük ümidlərlə, arzularla, böyük nikbinliklə yaşayıram. Bizim müstəqilliyimizi heç kəs sarsıda bilməz.

Azərbaycan müstəqil dövlət kimi müstəqil siyasət aparır. Biz bütün dövlətlərlə qarşılıqlı, faydalı əlaqə qururuq və quracağıq. Siz şahidsiniz ki, son iki il müddətində Azərbaycanın dünya miqyasında hörməti nə qədər qalxıb. Ən böyük dünya dövlətlərinin başçıları ilə mənim şəxsi görüşlərim olub. Rəsmi səfərlərim olub. Müqavilələr imzalamışıq. Qısa bir müddətdə dünyanın ən böyük, mötəbər beynəlxalq təşkilatlarının toplantılarında iştirak etmişəm, Azərbaycanın sözünü demişəm, Azərbaycanın problemlərini çatdırmışam. BMT-nin, ATƏT-in

üzvü olan ölkələrin dövlət başçılarının yığıncağında, İslam Konfransı Təşkilatının üzvü olan ölkələrin dövlət başçılarının yığıncağında, beynəlxalq təşkilatların Qahirədə, Kopenhagendə keçirilən tədbirlərində – hamısında Azərbaycanın səsi ucalıbdır. Artıq Azərbaycan hər yerdə tanınır. ABŞ-a və Çin Xalq Respublikasına, başqa ölkələrə səfərə getmişik, Moskvada da, Tehranda da, Ankarada da, Fransada da, İngiltərədə də Azərbaycanı layiqli təmsil etmişik. Azərbaycanın beynəlxalq miqyasda nüfuzu qalxıb və qalxacaqdır. Neft müqaviləsini bağlamışıq və bütün təxribatlara baxmayaraq, bu müqavilə əməli surətdə həyata keçirilir. Azərbaycan müstəqil siyasət aparır. Amma Azərbaycan eyni zamanda bütün dövlətlərlə dostluq və qardaşlıq əlaqələri yaradır və yaradacaqdır.

Bəzi adamlar bizim Rusiya ilə əlaqələrimizi ləkələmək istəyirlər. Onlar buna nail ola bilməyəcəklər. Bizim Rusiya ilə əlaqələrimiz bundan sonra da gündən-günə inkişaf edəcək və ayrı-ayrı quldurların, cinayətkarların orada yerləşməsi bizim siyasətimizə heç bir təsir edə bilməz. Buna arxayın ola bilərsiniz.

Türkiyə ilə çox dost və qardaşlıq münasibətlərimiz var. [41-42] İran ilə münasibətlərimiz yaxşıdır. Kimsə buna mane olmaq istəyir, amma mane ola bilməz. İran bizə qonşu, dost dövlətdir. Amerika Birləşmiş Ştatları ilə əlaqələrimiz gündən-günə inkişaf edir, Avropa ölkələri ilə də, Asiya ölkələri ilə də, Ərəbistan aləmi ilə də əlaqələrimiz inkişaf edir və inkişaf edəcəkdir.

Ona görə də Azərbaycan indi keçmiş Azərbaycan deyil. Azərbaycan dünya birliyində öz yerini tapıb və hər yerdə nəinki tanınır, hər yerdə öz sözünü deyir, öz siyasətini həyata keçirir. Xarici siyasətimiz dünya miqyasında rəğbətlə qarşılanıb və biz bu siyasətimizi davam etdirəcəyik.

Mən belə hesab edirəm ki, bütün bu təxribatlara, cürbəcür silahlı dəstələrin mövcud olmasına baxmayaraq, biz respublikanın daxilində ictimai-siyasi vəziyyəti sabitləşdirmişik və bundan sonra da sabit saxlayacağıq. Heç kəs bizim tədbirlərimizə, işlərimizə mane ola bilməz. Çünki biz xalqla birik, xalq da bizimlə birdir. Mən dəfələrlə demişəm, biz demokratik, hüquqi dövlət qururuq və bunun üçün çox ciddi addımlar atmışıq. Noyabrın 12-nə parlament seçkiləri təyin edilmişdir. Bu il ilk dəfə müstəqil Azərbaycan dövlətinin Konstitusiyasının qəbul edilməsi böyük tarixi hadisə olacaqdır. Mən əminəm ki, biz bunları yüksək səviyyədə, demokratik şəraitdə hazırlayıb keçirəcəyik və Azərbaycanın demokratik bir dövlət olduğunu bütün dünyaya yenidən nümayiş etdirəcəyik.

İqtisadi islahatlar gedir. Bu sahədə Azərbaycanın yolu sərbəst iqtisadiyyat, bazar iqtisadiyyatı yoludur. Biz bu yol ilə gedirik. Hesab etməyin ki, bu, asan işdir. Xeyr, çətindir, ağırdır. Keçmiş Sovetlər İttifaqına daxil olan respublikaların hamısı bu çətin yolu keçir. Hərəsinin özünə görə problemi var. Amma bizim problemimiz hamısından çox, hamısından ağırdır. Çünki torpaqlarımızın 20 faizi işğal altındadır, bir milyon nəfər qaçqınımız var, işsizimiz var. Sərhədlərimiz bağlanıbdır, blokada vəziyyətinə düşmüşük. Amma bunların hamısına baxmayaraq, biz iqtisadi islahatları keçiririk. Bilin, bu gün toplantıdan sonra mən böyük müşavirə keçirəcəyəm. Nəhayət, özəlləşdirmə proqramı hazır olub, mən bir neçə dəfə ona baxmışam. Bu gün bir də baxıb Milli Məclisə təqdim edəcəyəm.

Beynəlxalq maliyyə dairələrində, banklarda Azərbaycana müsbət münasibət, müsbət əlaqələr yaranıbdır. Baş nazir Fuad Quliyevin rəhbərlik etdiyi nümayəndə heyəti mayın 29-da Parisdə Azərbaycan haqqında məlumat verdi və bu məlumat [42-43] qəbul olundu. Özəlləşdirmə proqramı Dünya Bankına təqdim ediləcək. Bu yaxın günlərdə bizim nümayəndə heyəti Vaşinqtona gedəcəkdir. Yəni, biz sərbəst iqtisadiyyat, bazar iqtisadiyyatı yolu ilə, ümumiyyətlə, həyatımızı demokratikləşdirmək yolu ilə gedirik və bunu həm ictimai-siyasi, həm də iqtisadi sahədə həyata keçiririk. Ona görə də mən nikbinəm, arxayınam.

Düzdür, iqtisadi vəziyyətdə çətinliklər var, xalqımızın çox hissəsi ağır vəziyyətdə yaşayır, kasıbçılıq var. Mən demişəm, bu gün bir də deyirəm ki, qaçqınlara, məcburi köçkünlərə, şəhid ailələrinə, müharibə əlillərinə kömək etmək lazımdır. Bu, bizim ən ümdə vəzifəmizdir. Bütün insanlara kömək etmək lazımdır. Biz bu çətinliklərdən də keçib gedəcəyik.

Belə hesab edirəm ki, görülən bütün bu tədbirlər iqtisadiyyatda vəziyyətimizi dəyişdirəcək və iqtisadiyyatın günü-gündən inkişafına nail ola biləcəyik. Bunların hamısı məndə böyük ümid, nikbinlik yaradır. Ona görə də narahat olmayın, darıxmayın və mənim verdiyim bu məlumatlardan da heç kəs qorxub çəkinməsin. Siz də varsınız, mən də varam, hamımız birlikdə Azərbaycanı bu vəziyyətdən çıxaracağıq. Bu işlərimizin bəhrəsini biz də görəcəyik, bizdən sonra gələn nəsillər də.

Toplantının adından xalqa müraciət qəbul etmək lazımdır. Onun layihəsi burada var. Belə hesab edirəm ki, bunu oxumağa ehtiyac yoxdur. Etiraz etmirsinizsə, bütün bu çıxışların və danışıqların əsasında layihənin üzərində bir də işləyib hesab edək ki, müraciət burada qəbul olunub və mətbuatda dərc edək.

Mən dünən və bu gün məsələləri bir yerdə müzakirə etməyimizdən həddən ziyadə məmnunam. Bu müzakirələr, iki gün çəkən birgə işimiz bir də göstərdi ki, xalqla dövlət ahəngdar hərəkət edir və xalqla dövlət birdir. Bu birlik, vətəndaş həmrəyliyi bizim üçün bu gün də, sabah da, gələcək üçün də lazımdır. Biz sizinlə birlikdə müstəqil Azərbaycan kimi əzəmətli bir abidənin təməlini qoyuruq, onu qururuq, yaradırıq. Onu indiki nəsillər üçün yaradırıq, gələcək nəsillər üçün yaradırıq. Bizim üzərimizə şərəfli vəzifə düşübdür və bunu layiqincə yerinə yetirməliyik. Güman edirəm ki, hər bir vətəndaş bu vəzifənin yerinə yetirilməsində öz yerini tapacaqdır.

Əminəm ki, dünənki və bugünkü söhbətlərimiz Azərbaycanda vətəndaş həmrəyliyi yaranmasına, xalqın birliyinə [43-44] böyük təkan verəcəkdir və hamımız birləşib ağır sınaqlardan məharətlə, şücaətlə çıxacağıq.

Sizə və sizin simanızda bütün Azərbaycan vətəndaşlarına, Azərbaycan xalqına bir daha hörmət və ehtiramımı, məhəbbətimi, sevgimi bildirirəm. Sizi bir daha əmin etmək istəyirəm ki, mən daim xalqlayam, xalqla olacağam. Mənim nəbzim xalqın nəbzi ilə vurur və həyatının son dəqiqəsinə qədər xalqa xidmət etməyi özümə ən yüksək, şərəfli vəzifə hesab edirəm. Sağ olun.[44-45]

## BOLQARISTAN RESPUBLİKASININ PREZİDENTİ JELYU JELEVİN AZƏRBAYCAN PREZİDENTİNİN ŞƏRƏFİNƏ TƏŞKİL ETDİYİ RƏSMİ QƏBULDA NİTQ

*Sofiya*

*29 iyun 1995-ci il*

Hörmətli prezident Jelyu Jelev!
Hörmətli xanımlar və cənablar!

Mən Bolqarıstan prezidenti cənab Jelevin lütfkar dəvəti ilə buraya, Bolqarıstan torpağına böyük məmnunluq hissi ilə gəlmişəm və bu gün biz birgə işimizə yekun vururuq. Biz qardaş Bolqarıstanda olduğumuz ilk dəqiqələrdən səmimiyyət, mehribanlıq, qonaqpərvərlik və dostluq mühiti ilə qarşılaşdıq. Bu mühit bizə yaxşı işləməyə və çox mühüm sənəd imzalamağa imkan verdi. Bolqarıstana mən və məni müşayiət edən şəxslər bolqar xalqına, bolqar torpağına, bolqar xalqının özünün çoxəsrlik tarixi ərzində qazandığı görkəmli nailiyyətlərinə böyük hörmət hissi ilə, son illərdə Bolqarıstanda baş verən mühüm demokratik dəyişikliklərə ehtiram hissi ilə gəlmişik.

Bütün bu işlərdə cənab prezidentin – böyük sınaqlar yolu, demokratiya uğrunda, xalqın demokratik əqidələri və iradəsi uğrunda sınaqlar yolu keçmiş, Bolqarıstan prezidenti kimi respublikaya başçılıq edən insanın böyük rolunu ayrıca qeyd etmək istəyirəm. Mən ötən vaxtlarda da Bolqarıstan rəhbəri ilə görüşüb söhbət etmişəm, Bolqarıstanda olmuşam, lakin indi tamam başqa şərait, başqa mühit və başqa həyatdır.

Bolqarıstan demokratik inkişaf, demokratik cəmiyyət yolu ilə gedir, demokratik dəyişikliklər həyata keçirir, xalqın seçdiyi və xalqın mənafe və istəklərinə uyğun olan yol ilə gedir. Bolqarıstanda baş verən bütün proseslər mürəkkəb proseslərdir. Bolqarıstanın hazırda keçid dövründə qarşılaşdığı çətinliklər aldığımız informasiyadan və malik olduğumuz təcrübəmizdən yaxşı məlumdur. Buna görə də biz gələcəyə, xüsusən də Bolqarıstanda baş verən dəyişikliklərin nəticələrinə böyük ehtiram hissilə, böyük nikbinliklə baxırıq. Biz Bolqarıstan dövlətinin simasında Avropa ölkəsini – sivilizasiya yolu ilə, demokratiya [45-46] yolu ilə, milli istiqlaliyyət yolu ilə gedən bir ölkə görürük.

Azərbaycan xalqı üç il yarım əvvəl əldə etdiyi öz milli azadlığını, dövlət müstəqilliyini əziz tutur, onların qədrini bilir.

Ölkələrimiz, demək olar, eyni proseslərlə qarşılaşmışlar. Mən əminəm ki, biz bu ağır sınaqlar yolunu qət edəcək və sivilizasiya səviyyəsinə, demokratiya səviyyəsinə çıxacağıq. Bu baxımdan Bolqarıstanın böyük təcrübəsi və geniş imkanları var. Buna görə də biz bu qiymətli təcrübəyə öz əməli fəaliyyətimizdə də, öz praktiki işimizdə də hörmətlə yanaşırıq. Bolqarıstan və Azərbaycan uzun müddətə xoş münasibətlər, tərəfdaşlıq, dostluq münasibətləri yaratmaq niyyətindədirlər. Buna dostluq və əməkdaşlıq haqqında bu gün imzaladığımız müqavilə və həmçinin imzalanmış olan digər mühüm sazişlər də sübutdur.

Belə düşünürəm ki, gələcək əməkdaşlığımız üçün yaxşı bünövrə qoyulmuşdur, ən başlıcası isə, bu əməkdaşlığın səmərəli olması üçün qarşılıqlı arzu, niyyət var.

Biz buna çox ciddi yanaşır və ümid edirik ki, bu əməkdaşlıq həqiqətən səmərəli və faydalı olacaqdır. Fürsətdən istifadə edərək, Azərbaycan Respublikasının dövlət müstəqilliyinə göstərilmiş diqqətə görə Bolqarıstan dövlətinə bir daha minnətdarlığımı bildirmək istəyirəm. 1992-ci ilin yayında Bolqarıstan Azərbaycanın dövlət müstəqilliyini və Azərbaycan Respublikasının ərazi bütövlüyünü tanıdı. Bu, bizim üçün – müstəqil inkişaf, müstəqillik yoluna qədəm qoyan ölkə üçün çox böyük nailiyyətdir. Çətin şəraitdə Bolqarıstan tərəfindən göstərilmiş həyanlıq böyük rol oynadı. Biz bunu xüsusilə qiymətləndiririk ki, bizə bu həyanlıq elə bir vaxtda göstərilir ki, Azərbaycan Ermənistan tərəfindən təcavüzə məruz qalır və çox böyük itkilər vermişdir. Odur ki, Azərbaycanın milli dövlət müstəqilliyinin və ərazi bütövlüyünün Bolqarıstan dövləti tərəfindən dəstəklənməsi bizə böyük köməkdir. Bu köməyə görə mən Bolqarıstan dövlətinə, Bolqarıstan hökumətinə və Bolqarıstan prezidentinə minnətdarlığımı bildirirəm.

Bizim gələcək əməkdaşlıq üçün böyük imkanlarımız, ən başlıcası isə xoş münasibətlər, dostluq münasibətləri olması üçün böyük arzumuz var. Son illər Azərbaycan böyük sınaqlardan çıxmışdır. Yeddi il əvvəl başlanmış hərbi təcavüz Azərbaycan iqtisadiyyatına və təbii olaraq, respublikamızın ictimai-siyasi [46-47] vəziyyətinə çox böyük ziyan vurmuşdur. Belə şəraitdə Azərbaycan da konstitusiyaya zidd hallar baş vermişdir. Bu hallar respublikanın sosial-iqtisadi inkişafı üçün və təbii olaraq, respublikanın böhran vəziyyətindən çıxması üçün çətinliklər və əngəllər yaratmışdır. Mən razılıq hissilə deyə bilərəm ki, son iki ildə konstitusiyaya zidd, qanunlara zidd olan bu hallar aradan qaldırılmışdır və indi respublikamızda ictimai-siyasi vəziyyət sabitləşmiş, sosial-iqtisadi inkişafla bağlı bir çox məsələləri həll etmək, Ermənistan ilə Azərbaycan arasında münaqişənin dincliklə aradan qaldırılmasına nail olmaq imkanı yaranmışdır.

Ötən ilin may ayında biz Ermənistan ilə Azərbaycan arasında sazişə nail ola bildik, 13 aydır ki, atəşkəs rejiminə əməl edilir. Mən bu gün bir daha bildirirəm ki, regionumuzda tam sülhə və sabitliyə, respublikamızı əhatə edən bütün ölkələrlə mehriban qonşuluğa nail olmaq üçün atəşkəs rejimini bundan sonra da gözləyəcəyik. Biz ATƏT-in, onun Minsk qrupunun fəaliyyətinə böyük əhəmiyyət verir və ATƏT-in fəaliyyətinə böyük ümidlər bəsləyirik. ATƏT-in iştirakçısı olan ölkələrin keçən il dekabrda Budapeşt Zirvə toplantısında qəbul edilmiş qətnamə mühüm hadisədir. Biz Budapeşt Zirvə toplantısının fəaliyyətinə, xüsusən bizim üçün bu mühüm qətnamənin qəbul edilməsinə Bolqarıstanın töhfəsini qiymətləndiririk.

Mən cənab prezident Jelevin belə bir bəyanatım dərin məmnunluq hissilə qəbul etdim ki, Ermənistan-Azərbaycan münaqişəsinin dincliklə aradan qaldırılması üçün Bolqarıstan ATƏT-də tədbirlər görəcəkdir. Mən əminəm ki, Bolqarıstan sülh əldə edilməsinə, bu sülhün təmin olunması sahəsində tədbirlər görülməsinə öz töhfəsini verəcəkdir.

Mən belə düşünürəm ki, razılığa gəldiyimiz nə varsa, hamısı gələcək əməkdaşlığımız üçün yaxşı bünövrədir. Bu gün, birgə iş günümüzə yekun vuraraq, mən cənab prezident Jelevə, parlamentin sədrinə, baş nazirə, bu gün bizimlə görüşənlərin, ikitərəfli münasibətlərimizlə bağlı məsələləri müzakirə edənlərin və bizə səmimi münasibət, qayğı və qonaqpərvərlik göstərənlərin hamısına təşəkkürümü bildirmək istəyirəm. Bolqarıstanda, bu gözəl, füsunkar torpaqda qonaqların qəbul edilməsi [47-48] Bolqarıstan xalqına, bu ölkəyə və xüsusən son vaxtlar baş vermiş dəyişikliklərə dönə-dönə böyük ehtiram hissi doğurur. Biz etibarlı müttəfiqlər olacağıq, dostluq və əməkdaşlıq haqqında imzalanmış müqaviləyə sadiq qalacağıq və əməkdaşlığınızın səmərəli və faydalı olması üçün öz tərəfimizdən hər şeyi edəcəyik. Mən Bolqarıstan xalqına xoşbəxtlik və əmin-amanlıq arzulayıram. Mən bütün bolqar dostlarımıza nəzərdə tutulmuş planların həyata keçirilməsində uğurlar arzulayıram.

Təklif edirəm, Bolqarıstan prezidenti cənab Jelyu Jelevin sağlığına, Bolqarıstan Respublikası şərəfinə, bolqar xalqının sağlığına, Bolqarıstanın və Azərbaycanın möhkəm dostluğu şərəfinə badə qaldırılsın.

Sizin sağlığınıza, sağ olun! [48]

## BOLQARISTAN XALQ MƏCLİSİNDƏ ÇIXIŞ

*Sofiya*

*29 iyun 1995-ci il*

Hörmətli Bolqarıstan parlamentinin sədri cənab Sendov, hörmətli parlament üzvləri, hörmətli xanımlar və cənablar!

Azərbaycan Respublikası adından, Azərbaycan xalqı adından sizi və sizin simanızda bütün Bolqarıstan xalqını səmimi qəlbdən salamlayıram, sizin ölkənizə və xalqınıza Azərbaycan xalqının hörmət və ehtiramını bildirirəm.

Bolqarıstan Respublikasının prezidenti hörmətli cənab Jelyu Jelevin dəvətini böyük məmnuniyyətlə qəbul edib, mən sizin ölkənizə rəsmi səfərə gəlmişəm və artıq bir neçə saatdır ki, biz burada çox səmərəli əməkdaşlıq edirik. Bolqarıstan prezidenti hörmətli cənab Jelyu Jelev və mən Bolqarıstanla Azərbaycan arasında dostluq və əməkdaşlıq haqqında çox əhəmiyyətli saziş imzaladıq. Bundan başqa, iqtisadiyyatımızın, iqtisadi əlaqələrin inkişafı üçün və onların inkişafına şərait yaratmaq üçün bir neçə saziş də imzalandı. Mən bu sazişlərin imzalanmasını Bolqarıstan ilə Azərbaycan arasındakı əlaqələrin inkişafı üçün yeni bir mərhələ hesab edirəm.

Azərbaycan Respublikası üç il yarımdır müstəqil dövlət kimi yaşayır, Azərbaycan Respublikası 1918-ci ildə əldə etdiyi müstəqilliyi keçmiş Sovetlər İttifaqı dağıldıqdan sonra bir daha bərpa etməyə nail oldu. Xalqımız dövlət müstəqilliyini və milli azadlığı tarixi bir nailiyyət hesab edir və müstəqilliyi daimi etmək əzmi ilə yaşayır. Ona görə də sizə bəyan etmək istəyirəm ki, bu müstəqillik Azərbaycan üçün daimi olacaqdır. Bir müstəqil dövlət kimi, Azərbaycanda ümumdemokratik, sivilizasiyalı dövlət yaranır. Biz hüquqi cəmiyyət yaradırıq, insan hüquqlarının və bütün insan azadlıqlarının qorunması bizim həm dövlət siyasətimizin, həm də cəmiyyətimizdə gedən proseslərin əsasını təşkil edir. İqtisadiyyat sahəsində Azərbaycan bazar iqtisadiyyatı, azad iqtisadiyyat yolu ilə gedir və bu sahədə iqtisadi islahatlar keçirilməsi ilə məşğuldur. Biz aqrar sektorda islahatların keçirilməsinə başlamışıq, özəlləşdirmə [49-50] proqramı qəbul etmişik və yaxın vaxtlarda bu proqramın geniş surətdə həyata keçirilməsinə başlayacağıq. Cəmiyyətimizdə siyasi plüralizm, bütün azadlıqlar bərqərar edilib, hökm sürür. Bizdə çoxpartiyalı cəmiyyət yaranıbdır. İndi Azərbaycanda qırxdan artıq partiya var və siyasi plüralizmi təmin etmək üçün yüzlərlə qəzet də çıxır.

İqtisadi sahədə gördüyümüz tədbirlər respublikamızı dünya iqtisadiyyatı üçün açır və dünya iqtisadiyyatının Azərbaycana investisiya qoyması üçün hər cür şərait yaradılır. Bu baxımdan ötən ilin sentyabrında Azərbaycan Respublikası ilə Qərbin aparıcı neft şirkətləri arasında bağlanmış böyük müqavilədən sizə danışmaq istəyirəm. Həmin müqavilədə Xəzərin Azərbaycan Respublikasına aid sektorundakı neft yataqlarının Qərb şirkətləri ilə birlikdə işlənməsi və bundan ölkəmizin faydalanması, xarici ölkə şirkətləri tərəfindən Azərbaycan iqtisadiyyatına investisiya qoyulması nəzərdə tutulubdur.

Demək istəyirəm ki, respublikamızda xarici investisiyalar üçün bütün şərait yaradılıb, o cümlədən qanunlar qəbul olunubdur. Odur ki, biz bütün xarici ölkələri Azərbaycana investisiya qoymağa dəvət edirik.

Ölkəmizdə demokratik prinsiplərin inkişaf etməsi üçün bu il, 1995-ci il xüsusi əhəmiyyətə malikdir. Noyabrın 12-də müstəqil Azərbaycan Respublikasının ilk demokratik parlamentinə seçkilər olacaq və bu seçkilər tam demokratik prinsiplər əsasında, çoxpartiyalı sistem əsasında keçiriləcəkdir. Həmin vaxt Azərbaycanın yeni demokratik konstitusiyası da qəbul olunacaqdır. İndi biz bu konstitusiyanın üzərində işləyirik. Konstitusiyada Azərbaycanın gələcəkdə də demokratik və hüquqi dövlət kimi inkişaf etdirilməsi üçün əsas yaradılır.

Azərbaycan Respublikası çoxmillətli respublikadır. Azərbaycanda yaşayan bütün xalqlar milli mənsubiyyətindən, dinindən, dilindən, siyasi dünyabaxışından asılı olmayaraq, hamısı eyni hüquqa malikdir və Azərbaycanın dövlət strukturlarında, ictimai təşkilatlarında bərabər hüquqla iştirak edir.

Ola bilər, mətbuatdan sizə məlumdur ki, son illər Azərbaycanda ictimai-siyasi proseslər çox kəskin gedib, hakimiyyət uğrunda mübarizə olub, üç dəfə hakimiyyət dəyişikliyi baş veribdir və son bir il ərzində iki dəfə silah vasitəsilə dövlət çevrilişinə cəhd göstərilibdir. Lakin Azərbaycanın indiki dövləti bütün bunların qarşısını ala bilir və bundan sonra da almağa qadirdir. Azərbaycanda ictimai-siyasi vəziyyət sabitdir. [50-51]

Azərbaycanın indiki sosial-iqtisadi vəziyyətini böhran vəziyyəti kimi səciyyələndirmək olar. Bu sahədə Azərbaycanın vəziyyəti sizin ölkənizin, habelə sizin kimi keçmiş sosialist iqtisadiyyatına mənsub olmuş ölkələrin vəziyyətinə oxşayır. Sosialist iqtisadi, ictimai-siyasi sistemindən yeni sistemə keçmək prosesi çox ağır və çətindir. Bu, bizim respublikamızda da böyük və ciddi problemlər yaradıbdır.

Azərbaycanda keçid dövrü daha da ağırlaşıb. Ona görə ki, Azərbaycan yeddi ildir Ermənistan Respublikası tərəfindən hərbi təcavüzə məruz qalıbdır. Ermənistan Respublikası 1988-ci ildən Azərbaycan ərazisinin bir hissəsini, Dağlıq Qarabağı ələ keçirmək üçün hərbi təcavüzə başlayıbdır. Bu təcavüz nəticəsində böyük itkilər olub, çox qanlar tökülübdür, Azərbaycan Respublikası ərazisinin 20 faizi erməni silahlı qüvvələri tərəfindən

işğal edilibdir. İşğal olunmuş torpaqlardan bir milyon nəfərdən artıq Azərbaycan vətəndaşı qovulub və indi Azərbaycanın başqa regionlarında qaçqın vəziyyətində, çox ağır vəziyyətdə yaşayır.

Azərbaycan sülhsevər dövlətdir, biz Ermənistanın və digər qonşu ölkələrin torpaqlarına göz dikməmişik. Ancaq öz torpaqlarımızı da başqa ölkəyə verə bilmərik. Buna görə də biz öz ərazi bütövlüyümüzü qoruyur, torpaqlarımızı müdafiə edirik və bu müharibəni ancaq və ancaq özümüzü müdafiə etmək üçün aparırıq. Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuş ərazilərdə 700-dən artıq şəhər, qəsəbə və kənd viran edilib, tarixi abidələr, fabrik və zavodlar, yaşayış evləri dağıdılıbdır. Azərbaycana böyük maddi zərər və mənəvi zərbə vurulubdur.

Bütün bu itkilərə, bütün bu zərərlərə baxmayaraq, Azərbaycan Ermənistanla münaqişəni sülh yolu ilə həll etmək istəyir. Buna görə də sülh danışıqları aparırıq. Sizə məmnuniyyət hissi ilə bildirmək istəyirəm ki, keçən ilin may ayında Ermənistanla Azərbaycan arasında atəşkəs haqqında saziş bağlanıbdır. On üç aydır ki, atəşkəs rejimi davam edir, biz bu atəşkəs rejiminə sadiqik və böyük sülh əldə etmək üçün gələcəkdə də sadiq qalacağıq. Etibarlı, uzunmüddətli sülh əldə etmək üçün biz ATƏT-in Minsk qrupu çərçivəsində Ermənistanla danışıqlar aparırıq və əmin olduğumuzu bildirmək istəyirik ki, bu danışıqlar müsbət nəticə verəcək, biz nəhayət, sülhə nail olacağıq.

Lakin bu sülhü əldə etmək üçün bizim əsas şərtlərimiz var. [51-52] Bunlar ədalətli şərtlərdir: Azərbaycanın ərazi bütövlüyü, Azərbaycan sərhədlərinin toxunulmazlığı təmin olunmalıdır və Azərbaycan torpağının işğal edilmiş hissələrindən erməni silahlı qüvvələri çıxmalıdır, bir milyondan artıq qaçqın öz ev-eşiyinə, yurd-yuvasına qayıtmalıdır. Bununla yanaşı biz etibarlı sülhün şərti kimi, Azərbaycanın Dağlıq Qarabağ regionunda yaşayan erməni əhalinin təhlükəsizliyinin təmin edilməsinə təminat veririk. Biz onlara müəyyən status verilməsi barədə də öz bəyanatlarımızı bildirmişik. Yəni Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz bir hissəsi olaraq qalmalıdır, orada yaşayan erməni millətinə mənsub adamlar, əhali də Azərbaycan vətəndaşları kimi müəyyən status, azadlıq statusu alıb yaşamaq imkanına malik olacaqlar.

Bizim təkliflərimiz ədalətli təkliflərdir və ümidvar olduğumu bildirmək istəyirəm ki, dünya dövlətləri, dünya ictimaiyyəti, o cümlədən Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatına daxil olan ölkə kimi Bolqarıstan da bu məsələlərin həllində Azərbaycana, bizim regionumuzda sülh yaranmasına kömək edəcəkdir.

Azərbaycan Respublikası dünya birliyində artıq özünə layiq yer tutubdur, beynəlxalq təşkilatların əksəriyyətinin üzvüdür və bu təşkilatlarda öz sülhsevər, eyni zamanda mütərəqqi xarici siyasətini həyata keçirir.

Mən sizi əmin etmək istəyirəm ki, Azərbaycan Respublikası öz dövlət müstəqilliyini bundan sonra da qoruyacaq və bir müstəqil dövlət kimi bütün ölkələrlə qarşılıqlı surətdə faydalı əlaqələr yaradılması yolu ilə gedəcəkdir.

Hörmətli parlament üzvləri, tərcüməçimiz böyük təcrübəyə malik olmadığına və çətinlik çəkdiyinə görə mən çıxışımın yekun hissəsini rus dilində ifadə edəcəyəm. Bizim xüsusi tərcüməçimiz yoxdur.

Siyavuş Məmmədzadə Azərbaycanın görkəmli şairlərindən biridir, bolqar şairlərinin şerlərini Azərbaycan dilinə tərcümə edir. Onun tərcüməçilik fəaliyyəti diqqətəlayiqdir. Elə düşünürəm ki, məni başa düşəcəksiniz.

Mən burada olmağımla əlaqədar, Avropa dövlətinin – Bolqarıstan Respublikasının parlamenti kimi nüfuzlu parlamentdə çıxış etməyimə görə böyük məmnunluq hissi keçirdiyimi bir daha bildirmək istəyirəm. Biz sizin ölkənizdə baş verən prosesləri – demokratikləşdirmə proseslərini, insan hüquqlarının bərqərar edilməsi proseslərini, keçmişdə buraxılmış səhvlərin [52-53] düzəldilməsi proseslərini böyük ehtiramla izləyirik və dərin xeyirxahlıq hissi ilə sizə getdiyiniz yolda böyük uğurlar arzulayırıq.

Azərbaycan ilə Bolqarıstan arasında çox sıx əlaqələr mövcuddur. Bu əlaqələr son onilliklər ərzində təşəkkül tapmışdır. Söhbət iqtisadi, elmi, texniki və mədəni əlaqələrdən gedir. Biz bu əlaqələrə böyük əhəmiyyət veririk, onları əziz tuturuq. İndi də – Azərbaycanın müstəqil dövlət olduğu, Bolqarıstanda çox mühüm ictimai-siyasi proseslərin getdiyi yeni şəraitdə biz hesab edirik ki, əlaqələrimiz keyfiyyətcə yeni səviyyədə ola bilər. Mənim buraya, Bolqarıstana səfərim məhz bununla bağlıdır ki, bu münasibətləri daha yüksək keyfiyyət səviyyəsinə qaldıraq.

Sizi əmin etmək istəyirəm ki, Azərbaycanda Bolqarıstanı çox yaxşı tanıyırlar, onun qədim tarixinə, Bolqarıstan oğullarının azadlıq və istiqlaliyyət uğrunda hünərlərinə bələddirlər. Son illər Bolqarıstan torpağında gedən proseslərdən Azərbaycanda yaxşı xəbərdardırlar.

Mən xalqımızın ən səmimi duyğularını və ən xoş arzularını sizə çatdırıram. Getdiyiniz yolda sizə uğurlar arzulayıram!

Ölkələrimiz arasında əlaqələrin daha uğurlu inkişafını təmin etmək üçün biz bu gün hörmətli prezident cənab Jelyu Jelev və parlamentin sədri hörmətli cənab Blaqovest Sendov ilə ətraflı söhbət apardıq. Mən sizin qarşınızda açıq bildirirəm ki, münasibətlərimizin daha da inkişaf etdirilməsi üçün daha böyük ehtiyat mənbələri var və bunlardan istifadə olunması, ölkələrimiz və xalqlarımız arasında dostluq və qardaşlıq əlaqələri yaradılması üçün biz öz tərəfimizdən hər şeyi edəcəyik.

Yaşasın müstəqil, gözəl Bolqarıstan!

Qəhrəman bolqar xalqına, onun tarixi nailiyyətlərinə eşq olsun!

Yaşasın sarsılmaz Bolqarıstan-Azərbaycan dostluğu! [53-54]

## BOLQARISTAN RESPUBLİKASININ PREZİDENTİ JELYU JELEVLƏ BİRGƏ MƏTBUAT KONFRANSINDA ÇIXIŞ

*Sofiya*

*29 iyun 1995-ci il*

Hörmətli prezident, hörmətli xanımlar və cənablar.
Hörmətli mətbuat, informasiya orqanlarının nümayəndələri.

Təəssüf ki, mən sizin qarşınızda Azərbaycanın dövlət dilində çıxış etmək imkanına malik deyiləm. Ona görə ki, bizim kifayət qədər hazırlıqlı, peşəkar tərcüməçimiz yoxdur. Doğrudur, aramızda, bizim nümayəndə heyətində bir şair var. O, artıq uzun illərdən bəri bolqar şairlərin şerlərini Azərbaycan dilinə çevirir və bolqar ədəbiyyatı ilə müvəffəqiyyətlə əməkdaşlıq edir. O, indi tərcümə edə bilərdi. Lakin mən parlamentdə çıxışım zamanı onun çətinlik çəkdiyini duydum, buna görə də öz fikirlərimi daha aydın və anlaşıqlı şəkildə çatdırmaq üçün rusca danışacağam. Üstəlik, sizin yaxşı tərcüməçiniz var. Bu xanım rus dilindən bolqar dilinə, bolqar dilindən rus dilinə tərcümə edir.

Yəqin ki, siz məni başa düşərsiniz, axı Azərbaycan öz dövlət müstəqilliyinə üç il yarım əvvəl nail olmuşdur. Biz başqa ölkələrlə ünsiyyət zamanı əsasən rus dilindən istifadə edirdik. Lakin indi müstəqil respublikamız öz ana dilini, dövlət dili olan Azərbaycan dilini işlədir. Biz bütün dillərdə kifayət qədər tərcüməçilər hələ hazırlaya bilməmişik. Əlbəttə, ingilis, fransız, alman dillərini bilən çoxlu tərcüməçimiz var. İnanıram ki, gələn dəfəyədək bolqar – Azərbaycan mətnləri üzrə də yaxşı tərcüməçi olacaqdır.

Mən ən əvvəl Bolqarıstan Respublikasının prezidenti, hörmətli cənab Jelyu Jelevə dəvətə görə və Azərbaycan Respublikası prezidentinin Bolqarıstana səfəri kimi hazırda başa çatmaqda olan rəsmi səfərə görə təşəkkürümü bildirmək istəyirəm. Mən bizim bugünkü günümüzdən, birgə işimizdən, söhbət və danışıqlarımızdan, ən əvvəl, cənab prezident Jelyu Jelevlə [54-55] danışıqlarımızdan, mənə Bolqarıstan parlamenti qarşısında çıxış etmək imkanı verilməsindən məmnunam. Mən Bolqarıstanın baş naziri ilə görüşdüm. Başlıcası isə, cənab Jelevin dediyi kimi, bu gün biz çox mühüm sənəd imzaladıq, ən əvvəl, iki prezident Bolqarıstan ilə Azərbaycan arasında dostluq və əməkdaşlıq haqqında sənədlər imzaladıq. Bu, əsas sənəddir və gələcək əməkdaşlığımız üçün yaxşı bünövrə qoyur. Mən cənab prezident Jelevin belə bir rəyi ilə tamam razıyam ki, Bolqarıstan tərəfindən Azərbaycan tərəfə ilk addım 1992-ci ildə, yəni Bolqarıstan Azərbaycanın dövlət müstəqilliyini və Azərbaycan Respublikasının ərazi bütövlüyünü tanıyan vaxt atılmışdır. Bilirsiniz ki, keçmiş Sovet İttifaqı respublikaları kimi, Azərbaycan da öz dövlət müstəqilliyini Sovet İttifaqının süqutu nəticəsində əldə etmişdir, hərçənd Azərbaycan hələ 1918-ci ildə öz dövlət müstəqilliyinə malik idi, Şərqdə ilk Azərbaycan Demokratik Respublikası idi, 23 ay mövcud olmuşdur. Lakin sonra bu respublika ölkəmizdə, Azərbaycanda Sovet hakimiyyəti qurulması ilə əlaqədar devrildi. Budur, 77 ildən sonra biz öz müstəqilliyimizi bərpa etmişik və təbii idi ki, digər ölkələr tərəfindən tanınmağa ehtiyac duyurduq. Bolqarıstan Azərbaycanın dövlət müstəqilliyini birincilər sırasında tanımışdır ki, bu da xüsusilə vacibdir. Biz öz dövlət müstəqilliyimizi əldə etdiyimiz dövrdə, təəssüflər olsun, Ermənistan Respublikası ilə müharibə vəziyyətində idik və bu gün də müharibə vəziyyətindəyik. Azərbaycanın ərazi bütövlüyü pozulmuşdur. Odur ki, Azərbaycan Respublikasının milli istiqlaliyyətinin, dövlət müstəqilliyinin, suverenliyinin, Azərbaycan Respublikasının ərazi bütövlüyünün respublikamız üçün məhz belə mürəkkəb dövrdə Bolqarıstan tərəfindən tanınması bizə şübhəsiz, böyük kömək idi.

Budur, indi biz həmin əsasda işi davam etdiririk və imzaladığımız müqavilə, zənnimcə, gələcək əməkdaşlıq üçün etibarlı zəmindir. İmzalanmış digər sənədlər barəsində cənab Jelev danışdı və mən onun dediklərini təkrarlayaraq vaxtınızı almayacağam. Yalnız onu deyəcəyəm ki, bu sənədlər də çox böyük əhəmiyyətə malikdir, əməkdaşlığımıza konkret istiqamətlər verir. Buna görə də əminəm ki, onların əməli surətdə həyata keçirilməsi ölkələrimiz və xalqlarımız arasında əməkdaşlığın inkişaf etdirilməsi və dostluğun möhkəmləndirilməsi üçün konkret nəticələr gətirəcəkdir. [55-56]

Əməkdaşlıq haqqında artıq razılığa gəldiyimiz və ya razılıq əldə edilməkdə olan bəzi sahələr barəsində cənab Jelevin söylədiyi fikirlərlə razıyam. Həqiqətən, bu sahələr olduqca vacibdir, onlar istər Bolqarıstan üçün, istərsə də Azərbaycan üçün böyük iqtisadi əhəmiyyətə malikdir. Cənab Jelevin göstərdiyi konkret məsələlər üzrə aramızda əməli əməkdaşlıq olması üçün biz hər şey edəcəyik.

Azərbaycan demokratik hüquqi dövlət qurur, iqtisadiyyat sahəsində islahatlar həyata keçirir, bazar iqtisadiyyatı yolu ilə gedir. Bu il noyabrın 12-də biz müstəqil respublikanın parlamentinə tam demokratik əsasda ilk seçkilər keçirəcəyik. Biz ümumxalq referendumu vasitəsilə müstəqil Azərbaycan Respublikasının ilk

konstitusiyasını qəbul edəcəyik. Cari il bizim üçün çox mühüm ildir və şübhəsiz ki, respublikamızın demokratik prinsiplərinin daha da möhkəmlənməsi və inkişaf etməsi ilə əlamətdar olacaqdır.

Respublikamızda siyasi plüralizm mühiti hökm sürür. Biz insan hüquqlarının qorunmasını təmin etmək məsələlərinə böyük əhəmiyyət veririk. Respublikamız çoxmillətli respublikadır. Milliyyətindən, dilindən, dini etiqadından, siyasi əqidələrindən asılı olmayaraq, bütün Azərbaycan vətəndaşları bərabər hüquqlara malikdir, ölkəmizin dövlət və ictimai həyatında fəal iştirak edirlər.

Ermənistan ilə Azərbaycan arasında münaqişəli vəziyyət bizim üçün çox ağır problemdir. Bu münaqişə – Azərbaycan ərazisinin tərkib hissəsi olan Dağlıq Qarabağı ilhaq etmək məqsədi ilə Ermənistan Respublikasının Azərbaycana qarşı təcavüzü 1988-ci ildə başlanmışdır. Yeddi ildir ki, müharibə gedir, qan tökülür, torpaqlarımızın təxminən 20 faizi Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir. Bu işğal olunmuş torpaqlardan bir milyon nəfərdən çox Azərbaycan vətəndaşı didərgin salınmışdır. Onlar çadır düşərgələrində yaşayırlar, olduqca ağır vəziyyətdədirlər. Təbii ki, bunların hamısı Azərbaycanda sosial-iqtisadi və siyasi vəziyyəti çətinləşdirir.

Ötən ilin may ayında biz Ermənistan ilə Azərbaycan arasında atəşkəs haqqında saziş əldə etdik ki, bu da çox əhəmiyyətlidir. Bütün bunlar ATƏT çərçivəsində, ATƏT-in Minsk qrupu çərçivəsində, dünyanın iri dövlətlərinin vasitəçiliyi ilə baş verir. Bu danışıqlar nəticəsində keçən il mayın 12-də biz atəşkəs haqqında saziş imzaladıq. On üç aydır ki, biz atəşkəs [56-57] rejimini gözləyirik və bu rejimin pozulmaması üçün bundan sonra da öz tərəfimizdən hər şeyi edəcəyik. Onu nəzərdə tuturuq ki, həmin dövrdə biz Ermənistan ilə Azərbaycan arasında möhkəm, uzunmüddətli sülhə nail olmağa çalışmalıyıq. Biz qonşuların hamısı ilə, o cümlədən də qonşu Ermənistanla sülh şəraitində yaşamaq istəyirik. Qonşularımıza qarşı heç bir iddia-tələbimiz yoxdur, hansısa qonşu respublikanın torpaqlarının bir hissəsini qəsb etməyi qarşımıza məqsəd qoymuruq. Bununla yanaşı, biz, şübhəsiz, razılaşa bilmərik ki, ərazimizin bir hissəsi ilhaq edilsin.

Buna görə də biz ATƏT-in Minsk qrupunun köməyi ilə sülhə, lakin ədalətli sülhə nail olmağa çalışırıq. Elə sülhə ki, Azərbaycanın ərazi bütövlüyünü, respublikamızın sərhədlərinin toxunulmazlığını tamamilə təmin etsin. Biz, əlbəttə, onu əsas tuturuq ki, Dağlıq Qarabağın erməni əhalisi Azərbaycanın tərkibində tam təhlükəsizliyə, muxtariyyətə, müvafiq statusa malik olacaqdır. Həm də bu status həmin regionun əvvəllər aldığı statusdan, şübhəsiz, daha böyük olacaqdır. Lakin bütün bunlar Azərbaycan Respublikasının tərkibində olmalıdır. Bu, həm ədalətlidir, həm də beynəlxalq hüquq normalarına uyğundur. Separatçılığa heç cür haqq qazandırmaq olmaz. Biz separatçılığa qarşı, müharibələrə və təcavüzə qarşı həmişə çıxış edəcəyik.

Biz sülhsevər ölkəyik və öz qonşularımızla aramızda sülh olmasını istəyirik, bizim Qafqaz bölgəsində sülh olmasını istəyirik, Balkanlarda sülh olmasını istəyirik, hazırda hərbi münaqişələr gedən Yer kürəsinin hər yerində sülh olmasını istəyirik. Bununla əlaqədar mən cənab Jelevin dediyi bu sözlərə görə ona minnətdaram ki, ATƏT-in üzvü kimi Bolqarıstan bölgəmizdə sülhün bərqərar olması məsələsinin və sülhün qorunmasını və təbii olaraq, Azərbaycan Respublikasının ərazi bütövlüyünü təmin etmək üçün sülhyaratma qüvvələrinin təşkili məsələsinin müzakirəsində fəal iştirak edəcəkdir. Bu, bizim üçün çox mühüm məsələdir və buna görə də biz bütün dünya birliyinə, bütün xoş məramlı adamlara bu vəziyyətdən çıxmaq üçün bizə kömək göstərmək, bizi dəstəkləmək xahişi ilə müraciət edirik.

Təkrar edirəm, biz hərbi əməliyyatların davam etməsini istəmirik, biz bu məsələnin sülh yolu ilə həll olunmasını istəyirik. Mən şadam ki, ATƏT-in fəal üzvü olan Bolqarıstan tərəfindən biz bu məsələlərdə dəstəklənirik. [57-58]

Mən səhərdən bəri gün ərzində birlikdə gördüyümüz işlərdən və xüsusən imzalanmış sənədlərdən və fikir mübadiləsindən, əldə edilmiş razılaşmalardan son dərəcə məmnunam və əmin edirəm ki, əməkdaşlığımızın inkişafı üçün bizim tərəfimizdən, Azərbaycan tərəfindən hər şey ediləcəkdir. Mən konkretləşdirmək istəmirəm, çünki cənab Jelev konkret məsələlərdən danışdı. Bütün bu konkret problemlərlə mən də razıyam, çünki o, məhz bizim birgə mövqeyimizi şərh etdi.

Diqqətinizə görə təşəkkür edirəm.

Mən suallar üçün sözü sizə verirəm.

**Sual: Birincisi – siz 77 il Sovet Rusiyasının hakimiyyəti altında yaşamısınız. Siz ölkənizlə əlaqədar bu dövrü necə qiymətləndirirsiniz və belə bir fikri qəbul edirsinizmi ki, şər imperiyasında yaşamısınız ? İkincisi – bütün postsosialist ölkələrin demokratikləşdirilməsinin təminatçısı kimi NATO-nun strukturlarına münasibətiniz necədir ?**

**Heydər Əliyev:** Bəli, biz 77 il Sovet İttifaqının tərkibində yaşamışıq, daha sizin dediyiniz kimi, Rusiyanın hakimiyyəti altında yox, çünki Sovet İttifaqı var idi və bu Sovet İttifaqına bərabər hüquq əsasında 15 respublika daxil idi. Təbii ki, bu İttifaqda üstün rol Rusiyaya məxsus idi. Bu, hamıya məlumdur. Lakin biz məhz Sovet İttifaqının tərkibində yaşayırdıq, bəli, yaşayırdıq. Nə etmək olar, biz xalqımızın tarixinin, həyatımızın həmin mərhələsinin üstündən heç cür qələm çəkə bilmərik. Həmin illər ərzində xalqımız iqtisadiyyatın, elmin, mədəniyyətin inkişafında böyük müvəffəqiyyətlər qazanmış, bir çox məsələlərdə irəliləmişdir. Amma bununla bərabər, biz ən başlıca hüquqa – müstəqillik hüququna malik deyildik, milli azadlığımız yox idi. Təbii ki, bu, potensial imkanlarımızdan istifadəni məhdudlaşdırırdı. Azərbaycanın malik olduğu öz daxili potensialı

tamamilə üzə çıxarmağa, öz təbii vasitələrindən, öz təbii ehtiyatlarından, öz intellektual potensialından və bütün digər imkanlarından istifadə etməyə qoymurdu.

Biz son dərəcə məmnunuq ki, Sovet İttifaqı dağıldı və müstəqil dövlətlər meydana gəldi. Mən o kəslərdən biriyəm ki, 91-ci ildə Sovet İttifaqının dağılmasına tərəfdar çıxdım. Onda Sovet İttifaqını hələ saxlamağa cəhd göstərildi və Sovet İttifaqının saxlanması xeyrinə ölkədə referendum keçirilmişdi. Lakın bu referendum Sovet İttifaqının saxlanmasının mümkünlüyü [58-59] barədə qərar çıxarsa da, ictimai-tarixi inkişafın gedişi sübuta yetirdi ki, Sovet İttifaqı öz imkanlarını tükəndirmişdir. Buna görə də o, süquta uğradı.

Mən hesab edirəm ki, belə də olmalı idi və bu, Azərbaycan xalqına öz milli azadlığını və dövlət müstəqilliyini əldə etməyə imkan verdi. Dövlət müstəqilliyinin əldə olunması Azərbaycan üçün, Azərbaycan xalqı üçün çox böyük tarixi nailiyyətdir. Mən əminəm, biz bir daha yol verməyəcəyik ki, müstəqilliyimiz itirilsin. Hər halda 20-ci ildə ilk demokratik müstəqil dövlətimizin başına gələnlər daha bu Azərbaycanın başına gəlməyəcəkdir. Hərçənd müstəqilliyi qoruyub saxlamaq o qədər də asan deyildir, xüsusən də Azərbaycan üçün. Dediyim kimi, Azərbaycan yeddi ildir Ermənistan tərəfindən təcavüzə məruz qalır. Bir çox digər çətinliklər də var. Lakin biz öz müstəqilliyimizin qədrini bilirik və onu göz bəbəyi kimi qoruyacağıq.

O ki qaldı NATO-ya münasibətimizə, Azərbaycan "Sülh naminə tərəfdaşlıq" haqqında NATO proqramını keçmiş Sovet İttifaqı respublikaları – indiki müstəqil dövlətlər arasında birincilər sırasında imzalamışdır. Mən bu məsələ ilə əlaqədar xüsusi olaraq Brüsselə getdim, NATO-nun iqamətgahında oldum və Azərbaycan Respublikası adından həmin proqramı imzaladım. Biz bunu Avropada sabitlik üçün, bütün dünyada təhlükəsizlik üçün mühüm amil sayırıq.

**Sual: Cənab prezident, öyrənmək çox maraqlı olardı, siz Bolqarıstan kommunistlərinin Bolqarıstanı 16-cı respublikaya çevirmək arzusuna necə baxırdınız ? Bu, çox maraqlıdır.**

**Heydər Əliyev:** Mən indi görürəm ki, sualları təkcə müxbirlərdən deyil, prezidentdən, dostumdan da alıram. Mən çox şadam.

Sovet İttifaqında əyintilər çox olmuşdur. Yəqin ki, bioqrafiyamdan bilirsiniz, mən keçmiş Sovet İttifaqının rəhbərlərindən biriyəm. Lakin bununla bərabər sizə yəqin bu da məlumdur ki, 87-ci ildə, daha doğrusu, ilin axırlarında istefa verdim və bundan sonra bir çox təqiblərə və demək olar, repressiyalara və digər belə hallara məruz qaldım. Amma 93-cü ildə Azərbaycan xalqı uzun sürən sürgündən sonra mənim Azərbaycana qayıtmağımı yenidən tələb etdi. Odur ki, mən 1993-cü ilin oktyabrından bəri Azərbaycan Respublikasının bütün xalq tərəfindən seçilmiş prezidentiyəm. Sovet İttifaqının siyasətində, [59-60] xüsusən də o vaxtlar sosializm düşərgəsi ölkələri adlandığımız sosialist düşərgəsi barəsində siyasətində əyintilər, təhriflər çox olmuşdur. Bunları sadalamaq çox vaxt aparardı. Sağlıq olsun, nə vaxtsa əlimə öz xatirələrimi yazmaq imkanı düşər, onda çox şey barəsində yazacağam. Çünki milli məsələlərə, milli qarşılıqlı münasibətlərə, Sovet İttifaqının rəhbər dairələrinin siyasətinə mən, bəlkə də, başqalarına nisbətən daha həssas idim. Odur ki, bunu Sovet İttifaqının məhz rəhbər dairələrində, bəlkə də, başqalarına nisbətən daha həssas duyurdum. Lakin mən, əlbəttə, bolqar xalqının və ya Bolqarıstanın hər hansı rəhbərlərinin iradəsinə qarşı çıxa bilməzdim. Amma keçmiş Bolqarıstanın bəzi rəhbərləri Sovet İttifaqının 16-cı respublikası olmaq istədiklərini dəfələrlə bildirdikdə, mən onlara açıqca heç nə demirdim, yalnız qulaqlarına sakitcə deyirdim ki, lazım deyildir, yaxşısı budur, müstəqil, azad olun. Mən Bolqarıstandan olan adamlara ancaq bu məsələdə kömək edə bildim. Lakin zənnimcə, yaxşı ki, onların dediyi kimi olmadı. Bəlkə də, bunlar konyunktura xarakterli şüarlar idi. Mən bunu bilmirəm. Lakin hər halda belə bəyanatlar dəfələrlə verilmişdi.

Mən xalqların müstəqil, respublikaların müstəqil olmasını istəyən bir şəxs kimi və bu prosesin içində olan bir şəxs kimi, əlbəttə, açıqca deyə bilərdim ki, bu, səhvdir və bolqar xalqına baha başa gələ bilər. Yaxşı ki, Bolqarıstan Sovet İttifaqının 16-cı respublikası olmadı, yaxşı ki, nəinki Sovet İttifaqı, həm də Varşava Müqaviləsi dağıldı və beləliklə, Şərqi Avropa ölkələri də azadlığa çıxdılar. Çünki digər Şərqi Avropa, ölkələri kimi, Bolqarıstan da müstəqil dövlət idi, onlar Sovet İttifaqına daxil olmasalar da, sosialist düşərgəsinə, Qarşılıqlı İqtisadi Yardım Şurasına, Varşava Müqaviləsinə daxil idilər. Mənə məlumdur ki, bu, həmin ölkələri müstəqillikdən məhrum edir, buxovlayırdı. Odur ki, siz də indi müəyyən dərəcədə müstəqilliyə nail olmusunuz. Mən sizi də təbrik edirəm.

**Sual: Cənab prezident Jelyu Jelev, siz dediniz ki, Bolqarıstan bölgəyə müşahidəçilər göndərməyə hazırdır. Lakin Budapeşt Zirvə toplantısında ATƏT-in sülhyaratma qüvvələrinin təşkili haqqında qərar qəbul edilmişdir. Belə isə Bolqarıstan bölgəyə müşahidəçilər deyil, hərbi kontingent göndərməyə hazırdırmı ? İkinci sual: xalqların öz müqəddəratını təyin etmək prinsipi dövlətin ərazi bütövlüyü prinsipi ilə, sizcə, necə əlaqələndirilməlidir?**[60-61]

**Jelyu Jelev:** Bolqarıstan Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının üzvü kimi iştirak etməyə hazır olduğunu, Dağlıq Qarabağda sülhyaratma prosesində öz imkanları daxilində iştirak etməyə hazır olduğunu bildirmişdir. Biz bunu bildirmişik və adətən söhbət həmin təşkilat adından mülki müşahidəçilər göndərilməsindən getmişdir. Lakin biz məsələnin ədalətli həllinə kömək göstərmək üçün bu səylərdə başqa formalarda da iştirak etməyə hazırıq. Əlbəttə, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının himayəsi altında.

Dövlətin, xalqın öz müqəddəratım təyin etməsi ilə dövlət müstəqilliyi necə əlaqələndirilir ? Şəxsən mən bu anlayışlar arasında ziddiyyət görmürəm.

**Sual: Xalqların öz müqəddəratını təyin etmək hüququ və ərazi bütövlüyü prinsipi... Erməni tərəfi həmişə deyir: onlar bunu əsas tuturlar ki, xalqlar öz müqəddəratını təyin etməlidirlər. Bu, ali prinsipdir, yoxsa ərazi bütövlüyü prinsipi başlıca prinsipdir ?**

**Jelyu Jelev:** Bu, postkommunist dövrdə qarşılaşdığımız ən mürəkkəb məsələlərdən biridir. Sualınızın birinci hissəsi ilə ikinci hissəsi arasındakı ziddiyyəti biz müəyyən dərəcədə keçmiş Yuqoslaviyada müşahidə edirik. Əlbəttə, xalqın öz müqəddəratını təyin etməsi prinsipi həmişə ali prinsipdir. Lakin məsələ bundadır ki, Yuqoslaviya kimi bir federasiyada xalq bir və eyni ərazidə yaşamır. Sərhədləri müəyyənləşdirmək məqamı çatdıqda isə xalqın öz müqəddəratını təyin etməsi ilə dövlətin ərazi bütövlüyü arasında real ziddiyyətlər meydana çıxdı. Prinsipcə elə bir dövlət yoxdur ki, orada ancaq bir millət yaşasın. Məsələn, mən Balkan bölgəsini nəzərdə tuturam. Bütün Balkan ölkələrində müxtəlif millətlər, digər xalqların nümayəndələri yaşayırlar. Mən bunu normal hal sayıram. Buna görə də insan hüquqlarına hörmət, bu hüquqlara əməl edilməsi məsələsi ortaya çıxmışdır. Bu isə Avropa Şurasının məşğul olduğu ən ağır problemlərdən biridir.

Şəxsən mən də belə bir fikrə şərik deyiləm ki, xalq, dövlət öz problemlərini həll edərkən məsələni belə qoymalıdırlar: zorakılıq yolu ilə etnik təmizlik uğrunda, milli təmizlik uğrunda, [61-62] azlıqları qovub dağıtmalı, onlara divan tutmalı. Biz, məsələn, Bosniyada məhz bunları müşahidə edirik. Halbuki Bosniyada əhali qarışıqdır, şəhərlərdə nikahların təxminən 60 faizi qarışıq nikahlardır. Özü də bu məsələ heç də həmin ölkənin ərazisinə aid deyildir, bu məsələ ailələrdən keçir. Bax, buna görə də bu, çox ağır məsələdir. Buna görə də məsələnin demokratik həlli yollarını axtarıb tapmaq lazımdır. Bu barədə qərarlarda həmin ölkədə yaşayan azlıqların hüquqlarına hörmət bəslənməsi, insan hüquqlarına hörmət edilməsi hökmən nəzərdə tutulmalıdır. [62-63]

## AZƏRBAYCAN RESPUBLİKASININ
## MİLLİ MƏCLİSİNƏ

Azərbaycan öz müstəqilliyinin və suverenliyinin təminatlarını tam şəkildə ancaq iqtisadi böhran aradan qaldırıldıqdan sonra əldə edə biləcək. Möhkəm və inkişaf etmiş iqtisadiyyata əsaslanmayan siyasi müstəqillik heç də real suverenliyin yeganə göstəricisi deyil. Buna baxmayaraq, Azərbaycanın müstəqil bir dövlət kimi bərqərar olunmasından sonra hakimiyyətə gələn müxtəlif qüvvələr tərəfindən iqtisadiyyatda köklü dəyişikliklər aparılması üçün heç bir şey edilməmişdir və nəticədə. əhalinin həyat səviyyəsi olduqca aşağı səviyyəyə düşmüşdür. İqtisadi böhrandan əsas çıxış yolu dövlət mülkiyyətinin özəlləşdirilməsindədir, ona görə ki, dövlətin iqtisadi sahədə yeganə inhisarçı olduğu şəraitdə heç bir islahatların aparılması mümkün deyildir. "Azərbaycan Respublikasında dövlət mülkiyyətinin özəlləşdirilməsi haqqında" Azərbaycan Respublikasının qanununun 1993-cü il yanvarın 7-də qəbul edilməsinə və bu qanunun qüvvəyə minməsi haqqında qərarla Dövlət Əmlak Komitəsinin rəhbərliyinə dövlət mülkiyyətinin özəlləşdirilməsi haqqında proqramın təqdim edilməsi üçün 1993-cü il martın 1-dək vaxt verildiyinə baxmayaraq, nə göstərilən müddətdə, nə də sonra bu tapşırıqların öhdəsindən gələ bilmədilər.

1995-ci ilin yanvarında Dövlət Əmlak Komitəsinin rəhbərliyində dəyişikliklər aparılmış və 1995-ci ilin martın 3-də Azərbaycan Respublikası prezidenti tərəfindən dövlət özəlləşdirilməsi haqqında proqramın hazırlanması üçün xüsusi komissiya yaradılmışdır. 1995-ci il iyunun 24-də həmin komissiya öz işini yekunlaşdırmışdır. Dövlət mülkiyyətinin özəlləşdirilməsi haqqında proqram hazırlanarkən əsas amil kimi əhalinin həyat səviyyəsinin qaldırılması götürülmüşdür. 1995-1998-ci illəri əhatə edən proqramın əsas mahiyyətini xüsusi mülkiyyətçilər təbəqəsinin formalaşdırılmasına və nəticədə səmərəli fəaliyyət göstərən bazarın yaradılmasına, xalq təsərrüfatının inhisarlaşdırılmasına və onun strukturunun yenidən qurulmasına, ölkənin iqtisadi dövriyyəsinə kapitalın cəlb olunmasına və kapitallaşma mexanizminin yaradılmasına, iqtisadi prosesə bütün [63-64] növ istifadə olunmamış resurslarının cəlb edilməsinə, vətəndaşların sahibkarlıq və işgüzarlıq fəallığının artırılmasına, işgüzarlıq fəaliyyəti üçün münbit şəraitin yaradılmasına, inflyasiyanın qarşısının alınmasına və manatın alıcılıq qabiliyyətinin artırılmasına yönəldilmiş əməli tədbirlər təşkil edir.

Bu tədbirlərin nəticəsində maliyyə stabilliyinə, əhalinin əmanətlərinin artırılmasına və bu əmanətlərin investisiyalara çevrilməsinə, istehsalatın canlandırılmasına və iş yerlərinin artırılmasına, nəhayət, vətəndaşların həyat səviyyələrinin keyfiyyətcə yaxşılaşdırılmasına nail olmaq olacaq.

Yuxarıda göstərilənləri və Azərbaycan Respublikası Konstitusiyasının 110-cu maddəsini rəhbər tutaraq, Azərbaycan Respublikasında 1995-1998-ci illərdə dövlət mülkiyyətinin özəlləşdirilməsi haqqında Dövlət proqramı təsdiq olunmaq üçün təqdim edilir. Eyni zamanda, qüvvədə olan qanunvericiliyə müəyyən dəyişikliklər edilməsi zəruriyyətini nəzərə alaraq, "Azərbaycan Respublikasında dövlət mülkiyyətinin özəlləşdirilməsi haqqında" Azərbaycan Respublikasının qanununa əlavələr və dəyişikliklər haqqında Azərbaycan Respublikasının qanun layihəsi müzakirə üçün təqdim edilir.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*30 iyun 1995-ci il* [64-65]

## QARA DƏNİZ HÖVZƏSİ ÖLKƏLƏRİ İQTİSADİ ƏMƏKDAŞLIQ TƏŞKİLATI ÜZVLƏRİNİN DÖVLƏT VƏ HÖKUMƏT BAŞÇILARININ ZİRVƏ TOPLANTISINDA ÇIXIŞ

*Buxarest*

*30 iyun 1995-ci il*

Hörmətli cənab sədr, möhtərəm dövlət və hökumət başçıları, xanımlar və cənablar!

İcazə verin, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının yüksək səviyyədə ikinci görüşünün keçirilməsi ilə əlaqədar məmnunluğumu bildirim və görüşün işində iştirak edən hörmətli dövlət başçılarını, iştirakçı ölkələrin nümayəndə heyətlərinin rəhbərlərini və üzvlərini, nüfuzlu beynəlxalq təşkilatların nümayəndələrini salamlayım. Cənab İliyesku, mən sizi görüşümüzün sədri seçilməyiniz münasibətilə təbrik edirəm və nümayəndə heyətimizin mehriban qarşılandığına və ona qonaqpərvərlik göstərildiyinə görə, Zirvə toplantımızın işi üçün Buxarestdə yaradılmış gözəl şəraitə görə sizə, Rumıniya hökumətinə və xalqına səmimi təşəkkürümü bildirirəm. Əminəm ki, indiki yüksək səviyyədə ikinci görüş Qara dəniz bölgəsində sülh, sabitlik və tərəqqi naminə ölkələrimizin sıx və səmərəli əməkdaşlıq yolunda mühüm mərhələ olacaqdır.

Hörmətli xanımlar və cənablar! Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının üzvü olan bir çox ölkələr kimi, Azərbaycan da çətin keçid dövrünü yaşayır. Sovet İttifaqı dağıldıqdan və ölkəmiz müstəqillik əldə etdikdən sonra biz demokratik hüquqi dövlət quruculuğu, əsaslı bazar islahatları keçirilməsi yolu seçmişik.

Belə tarixi dəyişikliklər üçün səciyyəvi olan obyektiv çətinliklərə baxmayaraq, biz bu yolda müəyyən nailiyyətlər qazanmışıq. Vətəndaşların milliyyətindən, dilindən, dini mənsubiyyətindən, siyasi əqidələrindən asılı olmayaraq, Azərbaycanda onların insan hüquqları etibarlı surətdə təmin edilmişdir. Onlarca siyasi partiya, yüzlərlə müstəqil qəzet, informasiya agentliyi və teleşirkət tam azadlıq və plüralizm şəraitində fəaliyyət [65-66] göstərir. Biz baş vermiş antikonstitusiya hallarını aradan qaldırmağa və respublikada daxili siyasi sabitliyi təmin etməyə müvəffəq olmuşuq. Gördüyümüz tədbirlər, dərin demokratik islahatlar aparılması əhalinin mütləq əksəriyyəti tərəfindən dəstəklənir.

Biz bu il noyabrın 12-də çoxpartiyalı əsasda ilk azad parlament seçkiləri keçirilməsi haqqında qərar qəbul etmişik və əminik ki, seçkilər Azərbaycanda demokratik ənənələrin möhkəmlənməsində mühüm addım olacaqdır. Elə həmin gün biz müstəqil Azərbaycanın ilk demokratik konstitusiyasını ümumxalq referendumuna verəcəyik.

Biz sərbəst bazar münasibətləri yaradılmasına və bərabərhüquqlu tərəfdaş kimi Dünya birliyi ilə iqtisadi inteqrasiyaya yönəldilmiş iqtisadi islahatları da fəal surətdə aparırıq. Biz inflyasiyanın sürətini kəskin şəkildə azaltmağa müvəffəq olmuşuq. Aqrar bölmədə islahat uğurla gedir. Dövlət mülkiyyətinin özəlləşdirilməsinə dair genişmiqyaslı proqram təsdiq edilmiş və yaxın vaxtlarda həyata keçirilməyə başlanacaqdır.

Dünyanın ən iri neft şirkətlərinin konsorsiumu ilə "Əsrin müqaviləsi" imzalandıqdan sonra Xəzər dənizinin Azərbaycan sektorunda enerji ehtiyatlarının hasilatı sahəsində uzunmüddətli beynəlxalq əməkdaşlığa başlanmışdır. Məmnunluqla bildirmək istəyirəm ki, bu müqavilədə Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının üzvü olan ölkələri – Rusiyanı, Türkiyəni təmsil edən şirkətlər də fəal iştirak edirlər. Bır sıra digər üzv ölkələr Xəzər şelfinin enerji ehtiyatlarının nəql edilməsində potensial tərəfdaşlarımızdır. Əminəm ki, bu böyük layihənin həyata keçirilməsi Xəzər dənizi və Qara dəniz hövzələri ölkələrinin əsl və qarşılıqlı surətdə faydalı iqtisadi inteqrasiyası üçün etibarlı bünövrə yaradacaq, bizə XXI əsrin astanasında dünya iqtisadiyyatında mühüm amil olmağa imkan verəcəkdir.

Bununla yanaşı, biz həmin demokratik islahatların keçirilməsi, Azərbaycanın siyasi və iqtisadi müstəqilliyinin möhkəmləndirilməsi yolunda xeyli maneələrlə də qarşılaşırıq. Bizə zorla qəbul etdirilmiş başlıca maneə müharibədir. Bildiyiniz kimi, Ermənistan Respublikasının Azərbaycana qarşı təcavüzü yeddinci ildir davam edir. Bu təcavüz Azərbaycan ərazisinin 20 faizinin işğalına gətirib çıxarmış, bir milyon nəfərdən çox vətəndaşımız Ermənistan silahlı qüvvələri tərəfindən qəsb edilmiş [66-67] torpaqlardan qovulmuşdur və indi onlar çadır şəhərciklərində çox ağır şəraitdə yaşayırlar.

Bütün bunlara, böyük itkilərə və qurbanlara baxmayaraq, biz münaqişənin siyasi vasitələrlə aradan qaldırılmasına, bölgəmizdə sülhün və mehriban qonşuluğun bərqərar edilməsinə çalışırıq. Əlbəttə ki, Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin tamamilə təmin olunması şərtilə. Münaqişə ilə əlaqədar BMT Təhlükəsizlik Şurası dörd qətnamə qəbul etmişdir. Bu qətnamələrdə təcavüz pislənilir və işğal edilmiş ərazilərdən Ermənistan silahlı qüvvələrinin tamamilə və qeyd-şərtsiz çıxarılması tələb olunur. Lakin Ermənistan tərəfi həmin qətnamələri yerinə yetirməkdən indiyədək imtina edir.

Biz məmnunuq ki, son vaxtlar ATƏT münaqişənin aradan qaldırılması məsələsi ilə fəal məşğul olmağa başlamışdır. Ötən ilin dekabrında ATƏT-in Budapeşt Zirvə toplantısı münaqişənin dincliklə aradan qaldırılması, bu məqsədlə çoxmillətli sülhyaratma qüvvələri təşkil olunması üçün mühüm qərarlar qəbul etmişdir. Bundan sonra ATƏT-in Minsk qrupu çərçivəsində danışıqların Moskvada və Helsinkidə iki dövrəsi keçirilmişdir. Biz ümidvarıq ki, danışıqlar davam etdiriləcək və səbirsizliklə gözlənilən sülh ilə başa çatdırılacaqdır. Bundan ötrü əlverişli şərait var və bu şəraitdən səmərəli istifadə etmək lazımdır.

Keçən ilin may ayında münaqişə zonasında atəşkəs haqqında saziş əldə edilmişdir. Bu saziş hər hansı xüsusi ayırıcı qüvvələrin iştirakı olmadan on üç aydan çoxdur ki, gözlənilir. Biz bildiririk ki, möhkəm və ədalətli sülhə nail olmaq naminə atəşkəs rejiminə bundan sonra da əməl edəcəyik. Bununla bərabər hesab edirik ki, danışıqlar prosesinin uzadılması yolverilməzdir. "Nə sülh, nə də müharibə" vəziyyəti əbədi olaraq davam edə bilməz. Biz Ermənistan tərəfinin danışıqlar prosesindən vəziyyətin həmişəlik belə qalması və Azərbaycanın işğal olunmuş torpaqları ilə bağlı mövcud vəziyyətin saxlanması üçün istifadə etmək cəhdləri ilə razılaşa bilmərik.

Buna görə də mən nümayəndə heyətlərinin başçılarına münaqişənin tezliklə aradan qaldırılması üçün, habelə Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması və bir milyon azərbaycanlı qaçqının öz doğma ocaqlarına qayıtması haqqında BMT Təhlükəsizlik Şurasının və ATƏT-in Budapeşt Zirvə toplantısının qərarlarının təxirə salınmadan yerinə yetirilməsi [67-68] üçün bütün öz imkan və nüfuzlarından istifadə etmələri xahişi ilə üz tuturam.

Hörmətli görüş iştirakçıları! Dünyada getdikcə artan qarşılıqlı asılılıq, dünya iqtisadiyyatının birləşməsi və regionlaşması XX əsrin son mərhələsinin fərqləndirici xüsusiyyətləridir. Bu meylin obyektiv səciyyə daşıdığı göz qabağındadır. O, dövlətlərin beynəlxalq əmək bölgüsünün üstünlüklərindən maksimum fayda ilə bəhrələnmək marağını, istehsalda qarşılıqlı surətdə təkmilləşmə və kooperasiya meylini, irimiqyaslı iqtisadi layihələrin həyata keçirilməsi üçün maliyyə ehtiyatlarının və maddi ehtiyatların birləşdirildiyini əks etdirir.

Azərbaycan Respublikası bir neçə regional iqtisadi qurumun üzvü kimi regional iqtisadi əməkdaşlığın inkişafında yaxından iştirak edir, Azərbaycan Qara Dəniz İqtisadi Əməkdaşlığına xarici iqtisadi siyasətdə xüsusi əhəmiyyət verir. Razılıq hissi ilə qeyd etmək istəyirəm ki, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının təşəkkül tapmaqda olduğu bu üç il hədər getməmiş və nəticəsiz qalmamışdır. Qara dəniz bölgəsi qarşılıqlı surətdə faydalı əməkdaşlıq, ölkələr arasında mehriban qonşulara xas tərəfdaşlıq münasibətləri yaranan əraziyə çevrilir, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının ölkələri arasında ticarət dövriyyəsi daim artır, bölgə ölkələrindən olan kapitalın iştirakı ilə müştərək müəssisələrin sayı çoxalır.

İqtisadi əməkdaşlığı daha da genişləndirmək üçün bu təşkilat ölkələrinin ən əvvəl regional ticarətə dair qanunvericilik bazasını inkişaf etdirmək və təkmilləşdirmək lazımdır, o cümlədən də işgüzar əməkdaşlığı təmin edən ikitərəfli və çoxtərəfli müqavilə və sazişlər bağlanması yolu ilə.

Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı çərçivəsində əməkdaşlığın bütün mexanizminin həyati əhəmiyyətli arteriyaları olan nəqliyyat kommunikasiyalarının və rabitənin inkişafı xüsusi diqqət tələb edir. Biz məmnunuq ki, ölkələrimizin nümayəndələri Qara Dəniz Ticarət və İnkişaf Bankının təsis olunması üçün təşkilat işini başa çatdırmışlar. Bu bankın fəaliyyəti istər Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı daxilində, istərsə də digər tərəfdaş ölkələrlə münasibətdə maliyyə-bank hesablaşmaları sisteminin əsaslarından biri olmalıdır. Bu, artıq yaxın gələcəkdə bankın maliyyə yardımı ilə iri regional layihələrin həyata keçirilməsinə başlamağa imkan verəcəkdir.

Bölgənin kəskin problemlərindən biri Qara dənizin və ətraf mühitin ekologiyası problemidir. Bununla yanaşı, hesab [68-69] edirəm ki, bu məsələlərə daha geniş səpkidə, Xəzər dənizi ilə Qara dəniz arasında yerləşən nadir ərazidə ətraf mühitin mühafizəsi ilə bağlı şəkildə baxmaq lazımdır. Çünki bu iki hövzə təbiətin özü ilə çox sıx şəkildə bağlıdır.

Xanımlar və cənablar! Buxarest görüşü Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı tarixində növbəti mərhələ olaraq, birgə işə yekun vurur və gələcək inkişaf yollarını müəyyənləşdirir. Biz görüşün əməli ruhunu məmnunluqla qeyd edir və bölgənin əmin-amanlığı, tərəqqisi və inkişafı naminə əməkdaşlıq prosesinin inkişafında çox yaxından iştirak etmək niyyətindəyik. Bu işdə Azərbaycan sizin həmişə etibarlı və layiqli tərəfdaşınız olacaqdır.

Diqqətinizə görə təşəkkür edirəm. [69-70]

**RUMINİYA PREZİDENTİ**
**İON İLİYESKUNUN**
**AZƏRBAYCAN PREZİDENTİNİN**
**ŞƏRƏFİNƏ TƏŞKİL ETDİYİ**
**RƏSMİ QƏBULDA NİTQ**

*Buxarest*

*1 iyul 1995-ci il*

Hörmətli Rumıniya prezidenti, hörmətli Rumıniya senatının sədri, hörmətli nazirlər, Rumıniya dövlətinin rəhbərləri, ictimaiyyət və mətbuat nümayəndələri, möhtərəm xanımlar və cənablar!

Mən Rumıniya prezidenti cənab İliyeskunun təklifini məmnunluqla qəbul etdim və ölkənizə rəsmi səfərə gəldim. Bu dəvətin özü Rumıniya ilə Azərbaycan Respublikası arasında dostluq münasibətlərinin daha da inkişaf etdirilməsi üçün çox mühüm addımdır. Mən bu addımı yüksək qiymətləndirərək, rumın xalqına dostluq və hörmət hissləri ilə, son illər ölkənizdə baş verən dəyişikliklərə ehtiram hissi ilə sizə gəldim, öz həmkarlarımla birlikdə gəldim.

Rumın xalqı öz gözəl işləri, qəhrəmanlıq tarixi, istiqlaliyyət uğrunda mübarizəsi ilə dünyada məşhurdur. Azərbaycanda Rumıniyanı, rumın xalqını yaxşı tanıyır, onun tarixinə, qədim mədəniyyətinə, ədəbiyyat və incəsənətinə yaxşı bələddirlər. Rumıniya öz neft ilə xüsusən daha yaxşı tanınmışdır. Qədim neft ölkəsi kimi Azərbaycan dünyanın neft istehsal edilmiş bölgələri ilə həmişə bağlı olmuşdur. Elə bunun özü də bizi Rumıniya ilə bağlayır. Bir çox Azərbaycan neftçiləri, alimləri, mühəndisləri, texnikləri, mütəxəssisləri 50-60-cı illərdə Piteşti rayonunda Rumıniyanın neft yataqlarının işlənməsində iştirak edərək, rumın xalqına öz ölkəsinin inkişafında dostluq köməyi göstərmişlər.

Azərbaycan neftçiləri, eləcə də Azərbaycan mədəniyyətinin, elm və incəsənətinin nümayəndələri rumıniyalı həmkarları ilə sıx əlaqə saxlamışlar. Rumıniyada onlar həmişə qonaqpərvərlik görmüş, qardaşcasına dostluq hissləri, qarşılıqlı yardım hissləri duymuşlar. Buna görə də bu gün tam əsasla qeyd [70-71] edə bilərik ki, Rumıniya və Azərbaycan xalqları arasında dostluq, əməkdaşlıq münasibətlərinin öz tarixi var. Bu gün biz sizinlə birlikdə çalışır, birlikdə işləyirik ki, əməkdaşlığımıza yeni təkan verək və xalqlarımız arasında dostluğun daha da inkişaf etməsinə yeni təkan verək.

1989-cu ilin dekabr inqilabından bəri Rumıniyada baş verən bütün prosesləri Azərbaycanda diqqətlə izləyirlər. Rumıniya tarixində həmin dövr onunla bağlıdır ki, rumın xalqının potensial imkanlarını üzə çıxarmaq üçün, ölkənin demokratikləşdirilməsi üçün, insan hüquqlarının, Rumıniyanın azadlıq və müstəqillik prinsiplərinin bərqərar edilməsi üçün bu illər ərzində böyük ictimai-siyasi dəyişikliklər baş vermişdir və baş verir.

Biz mətbuatdan, aldığımız informasiyalardan, şəxsi əlaqə-görüşlərimizdən bilirik ki, bu illər xalqınız üçün çətin, məşəqqətli, bir sıra hallarda isə faciəli olmuşdur, lakin bununla yanaşı bu illər şanlı illərdir. O mənada ki, ötən bu illər ərzində Rumıniyanın, rumın xalqının həyatında köklü dönüş yaranmışdır. Son illər ölkənizdə baş verən demokratik dəyişikliklər, ictimai-siyasi həyatın demokratikləşdirilməsi ilə bağlı proseslər, bazar münasibətlərinin bərqərar edilməsi və siyasi plüralizm, söz azadlığı, mətbuat azadlığı, vicdan azadlığı – bütün bu yeniliklər Azərbaycan cəmiyyətində, xalqımızda dərin məmnunluq hissləri doğurur.

Biz yaxşı bilirik ki, bu illər ərzində nə edilirsə hamısı, sözün əsl mənasında xalqın hökmü ilə və xalq üçün edilir. Bununla əlaqədar Rumıniya prezidenti, dostumuz, hörmətli İon İliyeskunun xüsusi rolunu vurğulamaq istərdim. Bu illər ərzində o, bütün proseslərə qətiyyətlə başçılıq edir və öz xalqının mənafeyinə tam uyğun olan siyasət yeridir.

Müstəqil dövlət kimi Azərbaycan öz istiqlaliyyətini 91-ci ilin dekabrında əldə etmişdir. Bunu xalqımız böyük tarixi nailiyyət bilir. Əsrimizin əvvəllərində, 1918-ci ildə Azərbaycan xalqı öz dövlət müstəqilliyinə nail olmuş, ilk Azərbaycan demokratik hökuməti yaradılmışdır. Lakin o, cəmi iyirmi üç ay mövcud olmuş və qızıl ordunun Azərbaycana gəlməsi nəticəsində Azərbaycanda Sovet Hakimiyyətinin qurulması ilə əlaqədar devrilmişdir. 77 il Azərbaycan Sovet İttifaqının tərkibində olmuş, nəhayət, 91-ci ilin dekabrında istiqlaliyyət əldə etmişdir. Azərbaycanın müstəqilliyinin bu üç il yarım [71-72] müddəti xalqımız üçün, ölkəmiz üçün çox çətin və mürəkkəb illər olmuşdur. Həyatımızı ən əvvəl çətinləşdirən budur ki, 1988-ci ildən bəri Azərbaycan qonşu Ermənistan Respublikası tərəfindən hərbi təcavüzə məruz qalır. Təəssüf ki, Sovet İttifaqının kommunist rəhbərliyi vaxtında bu təcavüzün qarşısını almamışdır. Azərbaycan və Ermənistan müttəfiq respublikalar kimi ümumi bir dövlətin – Sovet İttifaqının tərkibinə daxil idi.

Bütün bunlar bütövlükdə Qafqaz bölgəsinə böyük siyasi ziyan vurmuşdur. Əlbəttə, Ermənistanın təcavüzü ilə əlaqədar Azərbaycan çox böyük itkilər vermişdir. Azərbaycan ərazisinin 20 faizi Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir. Bir milyon nəfərdən çox Azərbaycan vətəndaşı – Ermənistan silahlı qüvvələrinin

işğal etdikləri torpaqların sakinləri öz yaşayış yerlərindən qovulmuş, ağır vəziyyətdədir, çadır şəhərciklərində yaşayırlar.

Bu gün çox böyük təəssüflə qeyd etmək lazım gəlir ki, Ermənistan ilə Azərbaycan arasında münaqişə, Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsi ilə bağlı münaqişə çox sirayətedici olmuşdur. İndi bütün Qafqaz və keçmiş Sovet İttifaqının bir çox bölgələri, eləcə də dünyanın digər bölgələri münaqişə alovlarına bürünmüşdür. Bu təcavüz nəticəsində biz çox şey itirmişik, on minlərlə insan həlak olmuş, işğal edilmiş ərazilərdə 700-dən çox şəhər, kənd və qəsəbə dağıdılmışdır. Dediyim kimi, Azərbaycan ərazisinin bir hissəsi Ermənistan silahlı birləşmələrinin işğalı altındadır.

Bütün bunlara baxmayaraq, sülhsevər ölkə olan Azərbaycan münaqişənin dinckliklə və siyasi yollarla aradan qaldırılması mövqeyində durmuşdur. Bu istiqamətdə müəyyən nəticələr əldə edilmişdir. Ötən ilin may ayında atəşkəs haqqında saziş əldə olunmuşdur və atəşkəs rejimi on üç aydan çoxdur ki, gözlənilir. Bu, uzunmüddətli, əsl sülhə nail olmaq üçün yalnız bir şərtdir. Bu baxımdan biz beynəlxalq təşkilatlara – Birləşmiş Millətlər Təşkilatına, xüsusən ATƏT-ə və Ermənistan-Azərbaycan münaqişəsini aradan qaldırmaq üçün xüsusi olaraq yaradılmış ATƏT-in Minsk qrupuna böyük ümidlər bəsləyirik.

Ötən ilin dekabrında ATƏT ölkələri dövlət başçılarının Budapeşt görüşündə Ermənistan-Azərbaycan münaqişəsinin dincliklə aradan qaldırılmasına dair mühüm qətnamə qəbul edilmişdir. Odur ki, biz bu qətnamənin həyata keçirilməsinə böyük ümidlər bəsləyirik. [72-73]

ATƏT-in üzvü kimi Rumıniya bu məsələnin dincliklə həllinə öz töhfəsini verir. Buna görə də mən Rumıniya prezidenti cənab İliyeskunun belə bir bəyanatını böyük razılıq hissi ilə qarşıladım ki, Ermənistan ilə Azərbaycan arasında münaqişənin dincliklə aradan qaldırılmasında Azərbaycanın tutduğu mövqe tamamilə dəstəklənir.

Biz Rumıniya ilə ATƏT çərçivəsində gələcək əməkdaşlığa ümid edirik və inanırıq ki, Rumıniya bundan sonra da səy göstərəcəkdir ki, bu gün ATƏT Ermənistan ilə Azərbaycan arasında münaqişə məsələləri ilə, o cümlədən də bölgədə sülhün təmin edilməsi üçün çoxmillətli sülhyaratma qüvvələrinin təşkili işi ilə fəal məşğul olsun.

Müstəqil Azərbaycanın həyatını hərbi təcavüzdən başqa, bəzi daxili mürəkkəb siyasi proseslər də çətinləşdirir. Məsələn, bu dövrdə konstitusiyaya zidd bəzi çıxışlar olmuşdur. Sizə məmnunluqla deyə bilərəm ki, biz bütün bu çətinlikləri, xoşagəlməz halları dəf etmişik və hazırda Azərbaycanda ictimai-siyasi vəziyyət sabitdir.

Müstəqil dövlət olan Azərbaycan hüquqi demokratik dövlət quruculuğu yolu ilə, iqtisadiyyat sahəsində islahatlar aparılması, bazar iqtisadiyyatının bərqərar edilməsi və dünya iqtisadi sistemi ilə, inteqrasiya yolu ilə gedir. Azərbaycanda siyasi plüralizm təmin olunmuşdur, onlarca siyasi partiya fəaliyyət göstərir, yüzlərlə qəzet çıxır, digər azadlıqlar mövcuddur.

İnsan hüquqlarının, şəxsiyyət azadlığının təmin edilməsi məsələsi və milliyyətindən, dilindən, dini etiqadından asılı olmayaraq, bütün Azərbaycan vətəndaşlarının öz hüquqlarından istifadə etmək imkanı bizim üçün əsas prinsipdir.

Noyabrın 12-də biz parlament seçkiləri, müstəqil Azərbaycanın parlamentinə ilk seçkilər keçirəcəyik. Həmin gün ümumxalq referendumu ilə müstəqil Azərbaycan Respublikasının ilk konstitusiyası qəbul ediləcəkdir.

Öz xarici siyasətində Azərbaycan dünyanın bütün ölkələri ilə bərabərhüquqlu münasibətlər yaratmağa çalışır. Azərbaycan bir çox beynəlxalq təşkilatların üzvüdür, Birləşmiş Millətlər Təşkilatının fəaliyyətində iştirak edir. Biz bunu yüksək qiymətləndiririk ki, 1991-ci ilin dekabrında Rumıniya Azərbaycanın dövlət müstəqilliyini ilk dövlətlər sırasında tanımışdır. Fürsətdən istifadə edərək, Azərbaycan xalqı adından mən Rumıniya dövlətinə, onun prezidenti cənab İon İliyeskuya təşəkkürümü bildirmək istəyirəm. [73-74]

Biz ümidvarıq ki, bütün dünya iqtisadi birlikləri ilə münasibətlər yaradacağıq. Bizə xarici investisiyalar ayrılmış, bizdə dövlət mülkiyyətinin özəlləşdirilməsinə dair geniş proqram qəbul edilmişdir.

Ötən il Azərbaycan Xəzər dənizindəki neft yataqlarının birgə işlənməsi haqqında bir çox xarici neft şirkətləri ilə müqavilə imzalamışdır. Biz bu işi həyata keçiririk.

Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı ölkələrinin dünən keçirilən və çox mühüm bəyannamə qəbul edən yüksək səviyyədə görüşünün böyük əhəmiyyəti var. Mən Qara dəniz hövzəsi ölkələri dövlət və hökumət başçılarının görüşünün təşkili üçün gördükləri böyük səmərəli işə görə rumın xalqına, Rumıniya hökumətinə, Rumıniya prezidenti cənab İon İliyeskuya təşəkkürümü bildirirəm.

Biz Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının işində yaxından iştirak edəcək, nəzərdə tutulanları həyata keçirmək üçün bütün tədbirləri görəcəyik. Biz Rumıniya ilə Azərbaycan arasında ikitərəfli münasibətlərin daha da inkişafı üçün hər şey edəcəyik. Biz iqtisadiyyat sahəsində, ictimai-siyasi həyatın bütün sahələrində əməkdaşlıq etmək istəyirik.

Azərbaycan Avropa Birliyi ilə, o cümlədən Avropa İttifaqı ilə əməkdaşlıq edəcəkdir. Keçən il biz Brüsseldə NATO-nun "Sülh naminə tərəfdaşlıq" proqramını imzaladıq.

Uzun illər ərzində Azərbaycan xalqı azadlığa çıxmağa və müstəqillik əldə etməyə çalışmış və nəhayət bu müstəqilliyə nail olmuşdur, hərçənd bu yolda çox çətinliklərlə, çox məşəqqətlərlə qarşılaşmış, ona hər cür təzyiqlər göstərilmişdir. Ümidvaram ki, biz Dünya birliyi tərəfindən, o cümlədən də Rumıniya dövləti tərəfindən dəstəklənəcəyik.

Rumın xalqına xoşbəxtlik və əmin-amanlıq, müəyyənləşdirdiyiniz niyyətlərin və planların həyata keçirilməsində uğurlar arzulamaq istəyirəm. [74-75]

## RUMİNİYA PREZİDENTİ İON İLİYESKU İLƏ BİRGƏ MƏTBUAT KONFRANSINDA BƏYANAT

*Buxarest*

*2 iyul 1995-ci il*

Hörmətli xanımlar və cənablar!

Mən Rumıniya prezidenti cənab İliyeskuya Rumıniyaya rəsmi görüşə gəlmək dəvətinə görə ürəkdən minnətdaram. Çox məmnunam ki, bu səfər baş tutmuşdur və bu gün müvəffəqiyyətlə başa çatır. Bizə səmimi qonaqpərvərlik .göstərmiş və dostluq, hörmət hissləri ilə yanaşmış olan cənab İliyeskuya və bütün dostlarımıza, rumıniyalı həmkarlarımıza təşəkkürümü bildirirəm. Biz Rumıniyada olduğumuz dövrdə - istər Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı ölkələrinin yüksək səviyyədə görüşündə, istərsə də mənim dünən və bu gün rəsmi səfərim zamanı böyük qayğı ilə əhatə edilmişik. Bütün bunlar işgüzar görüşlərimiz üçün və qarşıya qoyulmuş məqsədə çatmaq üçün olduqca əlverişli şərait yaradırdı.

Rumıniya Avropa ölkəsidir, çoxəsrlik, qədim tarixə, gözəl ənənələrə malikdir. Lakin son illər Rumıniyada böyük siyasi dəyişikliklər baş verir. Bütün bunlar bizim üçün böyük maraq doğurur. Buna görə də gələcək əməkdaşlıq üçün daha sıx münasibətlər yaradılmasının müstəqil Azərbaycandan ötrü xüsusi əhəmiyyəti var.

Öz müstəqilliyini üç il yarım bundan əvvəl əldə edən Azərbaycan Respublikası Avropa ilə Asiyanın qovuşuğunda yerləşir və Avropa ölkələri ilə sıx münasibətlər yaratmağa meyl göstərir. O öz coğrafi mövqeyinə və bir çox digər amillərə görə gələcək əməkdaşlıq baxımından Rumıniya üçün yaxşı tərəfdaş ola bilər. Yüksək səviyyədə görüşümüzü səciyyələndirən cəhət də məhz budur.

Mən məmnunam ki, rəsmi səfər baş tutmuşdur. Mən keçirdiyimiz görüşlərdən və söhbətlərdən, cənab prezident İliyesku ilə, Rumıniyanın dövlət orqanlarının digər rəhbərləri ilə çox səmərəli söhbətlərdən də məmnunam. Mən bundan xüsu[75-76]silə məmnunam ki, biz gələcək əməkdaşlığımız üçün bünövrə qoyan mühüm sənədlər imzaladıq.

Rumıniya ilə Azərbaycan arasında dostluq və gələcək əməkdaşlıq haqqında hər iki prezident tərəfindən imzalanmış bəyannamə xüsusi əhəmiyyətə malikdir. Zənnimcə, bu bəyannamə əsas sənəddir və ona uyğun olaraq biz gələcək əməkdaşlığımızın konkret istiqamətlərini müəyyənləşdirən konkret sənədlər hazırlamalı və imzalamalıyıq.

Azərbaycan öz tarixinin mürəkkəb və ağır dövrünü yaşayır. Bununla bərabər bu, çox şanlı dövrdür və onunla bağlıdır ki, Azərbaycan dövlət müstəqilliyinə nail olmuşdur və öz məsələlərini özü müstəqil həll edir, hərçənd bu yolda daxili və xarici xarakterli olduqca çox çətinliklər var. Azərbaycan üçün ən ağır problem respublikamıza, xalqımıza yeddi il bundan əvvəl Ermənistan tərəfindən zorla qəbul etdirilmiş müharibədir. Bu müharibədən məqsəd Azərbaycan ərazisinin bir hissəsini ilhaq etməkdir. Bu müharibə olduqca ağır nəticələrə, konkret desək, Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycan ərazisinin 20 faizinin işğalına gətirib çıxarmışdır. Həmin ərazidən bir milyon nəfərdən çox Azərbaycan vətəndaşı qovulmuşdur. İndi onlar Azərbaycanın digər bölgələrində olduqca ağır şəraitdədir və çadır şəhərciklərində yaşayırlar.

Biz Ermənistan ilə Azərbaycan arasında bu münaqişənin dincliklə aradan qaldırılmasına çalışırıq, bundan ötrü tədbirlər görürük. Biz ATƏT-ə və onun tərkibindəki Minsk qrupuna xüsusi ümidlər bəsləyirik. Minsk qrupu bu məsələ ilə məşğul olmaq üçün xüsusi olaraq yaradılmışdır. Təbii ki, ATƏT-in tərkibinə daxil olan hər bir ölkəyə, o cümlədən də Rumıniyaya müraciət edirik ki, bu ağır vəziyyətdən çıxmaq üçün bizə kömək göstərsinlər, dəstək versinlər.

Biz özgələrin ərazisinə göz dikməmişik, lakin bölgəmizdə sülh və sakitlik olmasına, Azərbaycan xalqının taleyinə dünya birliyinin ədalətli münasibət göstərməsinə çalışırıq. Azərbaycanın ərazi bütövlüyünün, onun sərhədlərinin toxunulmazlığının, müstəqil Azərbaycan Respublikasının suverenliyinin tamamilə təmin olunması bölgədə möhkəm və uzunmüddətli sülhü təmin edə biləcək mühüm şərtdir.

Yeddi ildir ara verməyən Ermənistan-Azərbaycan münaqişəsi və bu münaqişənin əsasını təşkil edən separatçılıq inandırıcı surətdə təsdiqləyir ki, harada olmasından, kim tərəfindən törədilməsindən asılı olmayaraq, separatçılığın hər hansı [76-77] forması pislənilir, belə ki, indi ayrı-ayrı qrupların, ayrı-ayrı etnik qrupların, ayrı-ayrı qüvvələrin məhz separatçılıq niyyətləri nəticəsində Yer kürəsinin müxtəlif bölgələrində saysız-hesabsız münaqişələr, qaynar nöqtələr meydana gəlmişdir. Təbiidir ki, bunlar bütün dünyanı narahat edir və böyük təşviş doğurur.

Azərbaycan hər hansı formada separatçılığın, hər hansı formada terrorçuluğun əleyhinədir və hesab edir ki, dünya birliyi indi Yer kürəsinin bir çox bölgələrində yaranmış bu ağır vəziyyəti aradan qaldırmaq üçün öz səylərini səfərbərliyə almalıdır. Bu məsələlər Buxarestdə dünən və bu gün söhbətlərdə və danışıqlarda mühüm yer tutmuşdur. Mən şadam ki, baxışlarımız tamamilə üst-üstə düşür.

Artıq sona yetməkdə olan bu səfər sübut edir ki, Rumıniya ilə Azərbaycan arasında əməkdaşlığın inkişafı üçün böyük imkanlar var. Buna görə də Azərbaycanda biz bu əməkdaşlığın uğurlu olması üçün hər şeyi edəcəyik.

Biz dostluq və əməkdaşlıq haqqında bəyannamə imzaladıq və arxayın ola bilərsiniz, sizi və bütün Rumıniya ictimaiyyətini əmin edirəm ki, Azərbaycan, müstəqil Azərbaycan Respublikası Rumıniya və Azərbaycan xalqları arasında dostluğun möhkəmlənməsinə və inkişafına çalışacaq, hər şeyi edəcəkdir ki, Rumıniya ilə Azərbaycan Respublikası arasında sıx qarşılıqlı münasibətlər, dostluq münasibətləri olsun.

Mən burada keçirilmiş görüşlərə böyük əhəmiyyət verirəm və onları Rumıniya ilə Azərbaycan arasında yaradılmalı olan dialoqun başlanğıcı sayıram. Belə düşünürəm ki, bu, bütün səviyyələrdə, xüsusən, Azərbaycanda bundan sonra davam etdiriləcəkdir. Ona görə ki, mən Rumıniya prezidenti cənab İliyeskunu Azərbaycana rəsmi səfərə gəlməyə rəsmən dəvət etdim və mənim dəvətim qəbul olundu.

Bu fürsətdən istifadə edərək, Azərbaycan xalqının Rumıniya xalqına dərin ehtiram və qardaşlıq münasibətləri hisslərini və ən xoş arzularını bir daha çatdırır, müstəqil Rumıniyaya, Rumıniya xalqına xoşbəxtlik, uğurlar, tərəqqi arzulayıram.

Diqqətinizə görə təşəkkür edirəm.

**Sual: Rumıniya prezidentinə verilir: Siz Azərbaycan nümayəndə heyəti ilə danışıqlar zamanı hər hansı konkret iqtisadi layihələr üzərində işə başlamaq barədə razılığa gəldinizmi? Əgər gəldinizsə, bunlar nə kimi layihələrdir?**

**İkinci sual: Rumıniya Ermənistan-Azərbaycan münaqişəsi bölgəsinə göndərilmək üçün ATƏT-in** [77-78] **sülhyaratma qüvvələrindən ibarət beynəlxalq kontingentin təşkilinə əməli kömək etməyə hazırdırmı?**

**İon İliyesku:** İqtisadi münasibətlərə gəldikdə, bu, söhbətlərimizin mühüm mövzularından biridir, Qara Dəniz İqtisadi Əməkdaşlığında iştirak edən ölkələrin yüksək səviyyədə görüşündə əsas mövzudur. Bir tərəfdən, biz ənənəvi iqtisadi münasibətlərin bərpa edilməsinin mümkün yollarını tapmağın zəruriliyini nəzərə çarpdırdıq. Lakin bu dəfə yeni şəraitdə, müstəqil Azərbaycanın mövcudluğu şəraitində. Bilavasitə əlaqə ənənələri var. Bu, ən əvvəl, neft sənayesi, neft-kimya sənayesi, neft avadanlığı istehsalı kimi sahələrinə, bundan başqa digər sənaye sahələrinə, sənaye sektorlarına aiddir.

Söhbətlərimiz əsasında biz yeni şəraitdə ölkələrimizin iqtisadiyyatlarında struktur dəyişikliklərinə bilavasitə başlamağın zəruriliyini nəzərə çarpdırdıq. Biz zonalarla, regionlarla bağlı məsələləri də müzakirə etdik. İndiki halda gələcəkdə kooperativləşdirmənin, Xəzər dənizi ilə Qara dəniz arasında birbaşa xətlər, Azərbaycandan Rumıniyaya birbaşa xətlər yaradılmasının mümkünlüyündən, Rusiya və Ukrayna ərazilərindən keçən marşrutları qısaltmaq üçün qaz və neft kəmərləri çəkilməsindən danışdıq. Bütün bunlar yüksək səviyyədə görüş çərçivəsində müzakirə edildi.

O ki qaldı sülhün qorunması üçün kontingent yaradılmasına, belə birləşmələrlə qonşu ölkələrdə, habelə keçmiş Sovet İttifaqı məkanında iştirak etməmək barədə siyasi qərar qəbul olunmuşdur və bu qərar BMT-nin qətnamə və qərarlarına uyğun gəlir.

**Sual Heydər Əliyevə verilir: Cənab prezident, Azərbaycan Respublikasının Müstəqil Dövlətlər Birliyinə mənsubiyyəti respublikanızın müdafiə etdiyiniz müstəqilliyinə nə dərəcədə toxuna bilər?**

**Heydər Əliyev:** Müstəqil Dövlətlər Birliyinə mənsubiyyətimiz məhz ona əsaslanır ki, Azərbaycan Respublikasının müstəqilliyinə heç bir ziyan dəyməsin, Müstəqil Dövlətlər Birliyini Azərbaycan ən əvvəl iqtisadi inteqrasiya baxımından zəruri hesab edir və bunu əsas tutur ki, keçmişdə Sovet İttifaqı tərkibində olarkən ölkəmizin iqtisadiyyatı hazırda Müstəqil Dövlətlər Birliyinə daxil olan digər respublikaların iqtisadiyyatı ilə çox sıx şəkildə inteqrasiya edilmişdi. Biz Müstəqil Dövlətlər Birliyində iştirakımıza Azərbaycanın məhz tam müstəqilliyi mövqeyindən yanaşırıq. [78-79]

## AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ İSTİQLALİYYƏT GÜNÜNÜN 219-cu İLDÖNÜMÜ MÜNASİBƏTİLƏ TƏŞKİL EDİLMİŞ BAYRAM MƏRASİMİNDƏ NİTQ

*Bakı, ABŞ səfirliyi*

*4 iyul 1995-ci il*

Cənab səfir, hörmətli xanımlar və cənablar!

Sizi ABŞ-ın istiqlaliyyət qazanmasının 219-cu ildönümü münasibətilə təbrik edirəm, Amerika xalqına səadət, xoşbəxtlik və əmin-amanlıq arzulayıram. Amerika xalqı öz dövlət müstəqilliyini əldə edəndən sonra iki əsrdən artıq müddətdə böyük bir yol keçib və çoxlu nailiyyətlər əldə edibdir. Bu dövrdə əzəmətli bir dövlət yaradılmış, demokratik prinsiplərlə yaşayan bir cəmiyyət qurulmuşdur. ABŞ-ın iqtisadiyyatı çox sürətlə inkişaf etmişdir. İndi bu ölkə dünyanın ən inkişaf etmiş, qabaqcıl dövlətidir. Ən böyük nailiyyət ondan ibarətdir ki, amerikalılar özlərinə sərbəst, rifah içərisində yaşamaq üçün şərait yarada bilmişlər və öz daxili imkanlarından, ölkənin potensialından hər bir vətəndaşın rifahı naminə istifadə etməyi bacarıblar.

ABŞ-ın keçdiyi böyük yol Amerikada bərqərar olmuş demokratik dövlət və cəmiyyət, insan hüquqları bütün dünya ölkələri üçün zəngin təcrübə mənbəyinə çevrilibdir. ABŞ dünyanın böyük və əzəmətli dövlətidir. Onun beynəlxalq aləmdə tutduğu yer və yeritdiyi siyasət dünyada gedən ictimai-siyasi proseslərə müsbət təsir göstərir. Bunların hamısı dünyanın hər bir yerində, o cümlədən də Azərbaycanda ABŞ-a, onun dövlət quruluşuna, demokratik cəmiyyətinə yüksək hörmət və ehtiram hissi oyadır.

Biz 219 il müddətində Amerika xalqının müstəqillik şəraitində yaşadığını görüb sevinirik və şübhəsiz ki, onu özümüz üçün örnək hesab edirik. Gənc müstəqil dövlət kimi Azərbaycan Respublikası Amerika Birləşmiş Ştatlarının keçdiyi yoldan və onun bugünkü həyatından, təcrübəsindən istifadə edir və bundan sonra da istifadə edəcəkdir. Hesab edirik ki, bunlar respublikamızın öz müstəqilliyini möhkəmləndirməsi [79-80] və daim azad şəraitdə yaşaması üçün çox faydalı olacaqdır.

Biz azərbaycanlılar üçün, müstəqil respublikamız üçün ABŞ dost ölkədir. Biz bu dostluq əlaqələrini yüksək qiymətləndiririk və dostluq münasibətlərimizə daim sadiq qalacağımızı bildiririk. ABŞ dövlətinin, xüsusən hörmətli cənab prezident Bill Klintonun Azərbaycanın müstəqilliyinə və ölkəmizin bugünkü həyatına göstərdiyi diqqət bizim üçün çox əhəmiyyətlidir. Cənab Bill Klintonun məktublarında Azərbaycanın müstəqilliyinin və ərazi bütövlüyünün tərəfdarı olduğunu və onu dəstəklədiyini bəyan etməsini mən yüksək qiymətləndirirəm və buna görə təşəkkürümü və minnətdarlığımı bildirirəm.

Biz gənc müstəqil dövlətik. Ancaq müstəqilliyimizin möhkəmlənməsi və inkişaf etməsi üçün çox böyük dəstək və köməyə ehtiyacımız var. Respublikamızın ərazi bütövlüyü pozulub. Azərbaycan Ermənistan tərəfindən hərbi təcavüzə məruz qalıbdır. Bunun nəticəsində torpaqlarımızın 20 faizindən çoxu erməni silahlı qüvvələri tərəfindən işğal olunubdur. Bir milyondan artıq vətəndaşımız öz evindən, yurdundan qaçqın düşübdür. Belə bir zamanda Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsi və bu məsələlərin sülh yolu ilə həll olunması üçün bizim hər bir ölkədən yardıma ehtiyacımız var. Amerika Birləşmiş Ştatlarının, onun prezidentinin bu məsələlərə münasibəti və prinsipial mövqeyi bizdə böyük hüsn-rəğbət oyadır.

ABŞ ilə Azərbaycan arasında əməkdaşlığın, dostluq əlaqələrinin inkişafı üçün çox böyük imkanlar var. Biz bu imkanlardan səmərəli istifadə etməyə çalışırıq. Azərbaycan Respublikasının neft sərvətlərindən müştərək istifadə olunması barədə keçən ilin sentyabrında imzalanmış müqavilədə və həmin layihənin həyata keçirilməsi üçün yaradılmış neft konsorsiumunda ABŞ-ın beş neft şirkəti iştirak edir.

Bu, əməkdaşlıq yolunda atdığımız ilk addımdır. Ancaq bizim imkanlarımız böyükdür. Güman edirəm ki, biz gələcəkdə yeni-yeni addımlar atacaq və əməkdaşlığımızı bütün sahələrdə inkişaf etdirəcəyik. Hər halda Azərbaycanda qısa zaman ərzində bir çox Amerika şirkətlərinin nümayəndəlikləri vardır. ABŞ vətəndaşları daim burada olur və respublikamıza tez-tez gəlirlər. Bunların hamısı bizim üçün sevindirici hallardır. Eyni zamanda qeyd etmək istəyirəm ki, Azərbaycan vətəndaşları da ABŞ-a yol aça biliblər. Respublikamızdan orada [80-81] təhsil alanlar, təcrübəyə gedənlər, iş öyrənmək üçün bu ölkədə yaşayanlar da var. Bunlar da çox müsbət haldır. Güman edirəm ki, belə işlər gələcəkdə bizi daha da sevindirəcəkdir.

Azərbaycanın paytaxtı Bakı şəhərində Amerika Birləşmiş Ştatlarının belə bır gözəl bağçası, səfirlik binası, ən başlıcası isə burada hörmətli səfir və gözəl işçilər vardır. Fikrimcə, Bakının bu gözəl guşəsinə heç vaxt Azərbaycanın bu qədər vətəndaşı, möhtərəm adamları toplaşmamışdı. Bu toplantının səbəbi 4 iyul bayramıdır. Azərbaycan Respublikasının buraya toplaşmış rəsmi nümayəndələri, ziyalıları ABŞ-a, onun böyük tarixinə və bayramına öz hörmət və ehtiramını bildirmək üçün gəliblər.

Hörmətli cənab səfir Kozlariç bayaq saata baxıb dedi ki, ABŞ-ın bir hissəsində indi bayram başlayıb, digər hissəsinə isə hələ gəlib çatmayıbdır. Ancaq mən cənab səfirə demək istəyirəm ki, müstəqil Azərbaycaınn

hər guşəsində – şərqində, qərbində, şimalında, cənubunda 4 iyul bayramı bu gün qeyd olunur. Mən bu bayram münasibətilə sizi bir daha təbrik edirəm. Hamınıza, Amerikanın bütün vətəndaşlarına cansağlığı və xoşbəxtlik arzu edirəm.

Bayramınız mübarək olsun! [81-82]

## AZƏRBAYCANIN XALQ ARTİSTİ AMALYA PƏNAHOVANIN 50 İLLİK YUBİLEYİ GECƏSİNDƏ ÇIXIŞ

*Respublika Sarayı*

*8 iyul 1995-ci il*

Sizinlə görüşməyimə çox şadam. Bugünkü tədbir çox gözəl idi. Biz mədəniyyətimizi heç vaxt unutmamışıq və unutmayacağıq. Sənətdə hər kəsin öz yeri var. Heç kəs kiminsə yerini almır. Xalq, ictimaiyyət, eləcə də dövlət sənət adamlarına mədəniyyətimizdə tutduqları yerə görə qiymət verir. Mən istəyirəm ki, mədəniyyətimizdə birlik olsun və bu da xalqımızı birləşdirsin.

Son illərdə xalqımızın içərisində parçalanma olmuşdur. Bu da böyük faciələrə gətirib çıxarmışdır. Ona görə də keçmişdəkinə nisbətən indi xalqımızın birliyinə daha çox ehtiyac vardır. Xalqı isə həmişə mənəviyyat birləşdirmişdir. Çünki başqa əsaslara nisbətən mənəvi əsaslar daha güclüdür. Bunlar xalqa daim sənət və xüsusən incəsənət vasitəsilə aşılanmışdır. Ədəbiyyatın insanlara böyük təsiri vardır. Ancaq bir var ki, insan hər hansı bir əsəri özü oxusun, bir də var ki, onu canlı olaraq səhnədə görsün. Ona görə də teatrın həyatımızda rolu böyükdür. Mən həmişə teatrı sevmişəm, ondan çox faydalanmışam. Həyatımın ağır dövrlərində də mən həmişə teatrımıza hörmət və ehtiramımı saxlamışam, heç vaxt ondan ayrılmamışam.

Bizim teatr xadimlərimiz, səhnə ustalarımız böyük işlər görürlər. Mən əvvəllər də sizinlə görüşümdə bunları demişəm. Ancaq bu sözlər indi daha aktualdır. Teatr xadimlərimiz, ümumiyyətlə orada işləyən hər bir adam böyük fədakarlıq edir. Fikrimcə, müharibə dövründə cəbhədə olan adamların birini üç nəfər hesab etdikləri və onlara üçqat artıq məvacib verdikləri kimi, teatrda da belədir. Çünki teatrda işləmək asan məsələ deyildir. Mən bunu yaxşı bilirəm.

Bayaq biz salonda oturduğumuz zaman üç saat elə bil bir dəqiqə kimi keçdi. Ancaq mən təsəvvür edirəm ki, – yəqin bunu bütün tamaşaçılar da bilir – hər bir teatr işçisi öz rolunu [82-83] oynayarkən nə qədər həyəcan keçirir, enerji sərf edir, öz daxili imkanlarını toplayır. Bunlar səhnəyə çıxan aktyorun, rəqqasın, müğənninin hər birinə aiddir. Ona görə də mən bir daha deyirəm: teatr və incəsənət sahəsində çalışanlar çox fədakar insanlardır. Səhnədə onlara baxdıqda çox vaxt hər biri qayğısız, xoşbəxt insan kimi görünür, həmişə şəndirlər. Ancaq onların həyatının səhnə arxasında necə olmasını çoxları bilmir, heç təsəvvürlərinə də gətirmir. Mən bunları bilirəm. Ona görə də incəsənət adamlarını cəmiyyətimizdə çox yüksəkdə tuturam. Mədəniyyətimizin, incəsənətimizin xalqa verdiyi töhfələr, göstərdiyi xidmətlər bəlkə o qədər də gözə çarpmır, ancaq onun qiyməti çox böyükdür. Ona görə də mən sizin hər birinizin xidmətini bir vətəndaş, tamaşaçı, eyni zamanda prezident kimi yüksək qiymətləndirirəm və hər birinizə gərəkli fəaliyyətinizə görə təşəkkür edirəm.

Bu gün Amalya xanımın yubileyidir. Bir müddətdən sonra başqa bir incəsənət xadimimizin yubileyi olacaqdır. Birləşmək lazımdır. Sıx olun, bir-birinizə gömək edin, arxa olun. Birləşmək lazımdır. Əl-ələ verib birlikdə işləməliyik. Mən bunu istəyirəm.

Xırdaçı adamlar həmişə olur. Əlbəttə, hər bir insan ədalətsizliyə dözə bilmir. Həyat mürəkkəbdir. Dövrümüzün özü də mürəkkəbdir. Mən belə hesab edirəm ki, tarix hər şeyi öz yerinə qoyacaqdır. Bu gün əgər birisi o birisinə nə isə acı bir söz deyibsə, güman edirəm ki, bu unudulacaqdır. Mən şəxsən hamının barışmasını istəyirəm. Xalqımızda böyük barışıq olmasını istəyirəm. Xüsusən, yaradıcı adamların arasında barışıq, mehribanlıq və dostluq olmasını istəyirəm.

Bizim ən böyük dərdimiz Ermənistanın torpaqlarımıza təcavüzüdür. Yeddi ildir ki, müharibə başlayıb, ərazimizin bir qismi işğal olunubdur, bir milyondan artıq qaçqınımız var, onlar ağır şəraitdə yaşayırlar. Bizim ən böyük dərdimiz budur. Belə bir şəraitdə öz aramızda inciklik yaratmaq, əlavə problemlər meydana çıxarmaq heç cür yolverilməzdir. Ona görə də hesab edirəm ki, hər bir şəxs özünü bütün xırdaçılıqlardan yüksəkdə saxlamağı bacarmalıdır. Mən yenə deyirəm, sənətdə [83-84] hər kəsin öz yeri var. Heç kəs başqasının yerini tuta bilməz.

Mən Azərbaycan teatrını gənc yaşlarımdan sevmişəm, Abbas Mirzə Şərifzadəni, Ülvi Rəcəbi, Mərziyə Davudovanı, Fatma Qədrini, Ələsgər Ələkbərovu, Mirzağa Əliyevi, Sidqi Ruhullanı, Sona Hacıyevanı və bir çox başqalarını səhnədə görmüşəm. Onların yaratdığı obrazları sevmişəm. Səhnəmizdə böyük adsan qazanmış sənətkarlarımızın da yaratdığı rollara tamaşa etmişəm. Onların hamısı ilə yaxından tanış olmuşam. Məsələn, mən Sidqi Ruhulla ilə çox yaxından tanış idim. Bütün bunlar mənim xatirimdədir.

Bizim tariximizi, mədəniyyətimizi yaşadanlar bu sənətkarlardır, sizsiniz. Sizin hamınızı qucaqlayıram, hamınıza yeni-yeni yaradıcılıq uğurları arzulayıram. Ümidvaram ki, siz və sonrakı nəsil bizim mədəniyyətimizi daha da irəliyə aparacaqsınız. Sağ olun! [84-85]

## TÜRKİYƏ RESPUBLİKASININ BAŞ NAZİRİ XANIM TANSU ÇİLLƏRİN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ İLƏ ƏLAQƏDAR BİNƏ HAVA LİMANINDA BƏYANAT

*10 iyul 1995-ci il*

Bu gün Türkiyə Cümhuriyyətinin baş naziri, hörmətli və əziz bacımız, dostumuz Tansu Çillər Azərbaycana, Bakıya gəlibdir. Bu, xanım Tansu Çillərin baş nazir kimi Azərbaycana rəsmi səfəridir. Çox məmnunam ki, Türkiyənin baş naziri mənim dəvətimi qəbul edib və Azərbaycana rəsmi səfərə gəlibdir.

Hörmətli baş nazir, bizim əziz bacımız, xanım Tansu Çillər, Azərbaycana xoş gəlmisiniz!

Öz evinizə, öz məmləkətinizə, öz torpağınıza xoş gəlmisiniz!

Azərbaycan xalqı və respublika ictimaiyyəti sizin bu səfərinizi çox böyük həsrətlə gözləyirdi və şükürlər olsun ki, artıq siz Azərbaycan torpağına ayaq basmısınız. Sizi burada çox maraqlı görüşlər gözləyir. İctimaiyyətimiz sizi böyük həvəslə, maraqla gözləyir. Ümidvaram ki, sizin burada olduğunuz günlər Türkiyə Cümhuriyyəti ilə Azərbaycan Respublikası arasında dostluq və qardaşlıq əlaqələrinin inkişaf etməsi üçün yeni bir mərhələ olacaqdır.

Mən sizi Azərbaycan torpağında bir daha səmimi-qəlbdən salamlayıram. Sizə deyirəm ki, xoş gəlmisiniz, əziz dostumuz, əziz qonağımız! Sizinlə birlikdə Türkiyə Cümhuriyyətindən gələn qonaqların hamısını salamlayıram və hamıya xoş gəlməsiniz deyirəm.

Siz bizim əziz qonağımızsınız və biz sizi böyük, yüksək, əziz qonaq kimi də qəbul edirik. Sağ olun. [85-86]

## TÜRKİYƏ RESPUBLİKASININ BAŞ NAZİRİ XANIM TANSU ÇİLLƏRİN ŞƏRƏFİNƏ RƏSMİ ZİYAFƏTDƏ NİTQ

*"Gülüstan" Sarayı*

*10 iyul 1995-ci il*

Hörmətli baş nazir, əziz bacımız xanım Tansu Çillər!

Türkiyə Cümhuriyyətindən gəlmiş hörmətli qonaqlar, hörmətli xanımlar və cənablar!

Bu gün Türkiyə Cümhuriyyətinin baş naziri, əziz bacımız Tansu Çillər Azərbaycana rəsmi səfərə gəlib. Gələn dəqiqədən biz işə başlamışıq və buraya, "Gülüstan" sarayına hörmətli Tansu Çillərin və onu müşayiət edən türkiyəli qonaqlarımızın şərəfinə ziyafət məclisinə toplaşmışıq. Bu, Azərbaycanın həyatında əlamətdar hadisədir.

Türkiyə Cümhuriyyəti, Türkiyə xalqı ilə Azərbaycan Respublikasını, Azərbaycan xalqını bağlayan qırılmaz tellər var. Bizim bu dostluq, qardaşlıq əlaqələrimizin qədim tarixi var. Ulu babalarımız, keçmiş nəsillər əsrlərdən əsrlərə bu dostluğu yaradıblar, qoruyub saxlayıblar və bugünkü günə gətirib çıxarıblar. Bir kökdən olan xalqlarımız öz tarixi dostluğuna, ənənələrinə həmişə sadiq olmuş və bu ənənələr xalqlarımızın dilini, dinini, mənəviyyatını yaşatmışdır. Məhz bunlara görə Türkiyə Cümhuriyyəti ilə Azərbaycan arasında olan dostluq əlaqələri xüsusi xarakter daşıyır. Məhz buna görə də Azərbaycanın hər bir guşəsində Türkiyə Cümhuriyyətinə, Türkiyə xalqına xüsusi hörmət və məhəbbət hissləri yaşayır. Biz bu gün Türkiyədən gələn əziz bacımızı, qonaqlarımızı bu hisslərlə qarşılamışıq, bu hisslərlə də bu saraya toplaşmışıq.

Türkiyənin böyük tarixi var. Türkiyə Cümhuriyyəti Böyük Millət Məclisinin 75 illik yubileyini keçirdi. Son 75 ildə Türkiyə xalqı hürriyyət, azadlıq içində demokratiya şəraitində yaşayır, dünyəvi, sivilizasiyalı dövlət kimi dünya birliyinə daxil olmuşdur. Dünya birliyində Türkiyə Cümhuriyyətinin layiqli yeri var. Demokratiya tarixi, 75 illik azadlıq, hürriyyət tarixi, 75 illik insan haqlarına 75 illik hörmət və ehtiram dövrü, 75 illik inkişaf dövrü Türkiyə Cümhuriyyətini dünya birliyində [86-87] layiqli dövlətlər sırasına çıxarmışdır. Dost ölkə, dost xalq kimi biz Türkiyə Cümhuriyyətinin bu nailiyyətlərinə sevinirik və onu ürəkdən alqışlayırıq.

Türkiyə xalqı keçdiyi bütün mərhələlərdə (qəhrəmanlıq, rəşadət nümunələri göstəribdir, özünün mənliyini, dilini, tarixi ənənələrini qoruyubdur. Böyük məmnuniyyət hissi ilə qeyd etmək olar ki, Türkiyə Cümhuriyyəti, onun dövləti, hökuməti bu gün də həmin ənənələrin keşiyində durub, bunları inkişaf etdirir. Türkiyə bütün sahələrdə inkişaf etmiş dövlətlər sırasındadır. Bu bizi sevindirir və bizdən ötrü böyük örnəkdir.

Son illər Türkiyənin həyatında mürəkkəb proseslər gedir, mürəkkəb hadisələr baş veribdir. Türkiyə cəmiyyəti, Türkiyə dövləti, hökuməti, türk xalqı bunların öhdəsindən gəlmişdir. Ona görə ki, türk xalqı azadlıq, hürriyyət içində, demokratiya şəraitində yaşayır. Məhz demokratik prinsiplər əsasında yaşayan dünyəvi, sivilizasiyalı dövlət bütün bu çətinliklərin öhdəsindən gələ bilir.

Bunların hamısında Türkiyənin dövlət başçılarının, Türkiyə hökumətinin, xüsusən baş nazir, hörmətli xanım Tansu Çillərin böyük rolu var. Biz bu gün Türkiyənin baş nazirini dost, qardaş ölkənin hökumət başçısı kimi qarşılayırıq. Eyni zamanda onu Türkiyənin həyatında böyük bir yol keçmiş, böyük rol oynayan ictimai-siyasi, dövlət xadimi kimi, böyük alim, iqtisadçı kimi qarşılayırıq. Məhz bunlara görə də Tansu Çillər Türkiyə hökumətinə çox ləyaqətlə başçılıq edir və qarşıda duran bütün problemlərin müvəffəqiyyətlə həllinə nail olur.

Türkiyə ilə Azərbaycan arasındakı əlaqələr son dövrdə daha yüksək səviyyəyə qalxmışdır. Bu gün dərin minnətdarlıq hissi ilə qeyd edə bilərik ki, tarixin bütün mərhələlərində Türkiyə Azərbaycana böyük diqqət göstərib, kömək edibdir. 1918-ci ildə Azərbaycanda ilk demokratik hökumət yarananda onu birinci tanıyan Türkiyə olmuşdur. 1991-ci ildə Azərbaycan Respublikası dövlət müstəqilliyini əldə edəndə də dünya dövlətləri içərisində ilk dəfə olaraq Türkiyə Azərbaycanın müstəqilliyini tanımış, ona böyük dəstək vermiş, kömək etmiş, Azərbaycanın dünya miqyasında tanınması üçün öz xidmətlərini göstərmişdir.

1988-ci ildən başlayaraq Azərbaycan Ermənistan tərəfindən hərbi təcavüzə məruz qalmışdır. O zaman Azərbaycan müstəqil dövlət deyildi, Sovetlər İttifaqının tərkibində idi. Şübhəsiz [87-88] ki, Türkiyə böyük bir dövlətin işinə müdaxilə edə bilməzdi. Buna baxmayaraq, Türkiyənin ictimaiyyəti, vətəndaşları, siyasi xadimləri elm, mədəniyyət xadimləri Azərbaycanın bu vəziyyətinə biganə qalmamışlar, onun müdafiəsi üçün öz səslərini dünya miqyasında ucaltmışlar, Azərbaycana mənəvi yardım göstərmişlər.

Azərbaycan müstəqillik əldə edəndən sonra Türkiyə Cümhuriyyəti ilə bərabərhüquqlu, qarşılıqlı surətdə faydalı əlaqələr qurmuşdur və bunlar dostluq, qardaşlıq prinsiplərinə, bizim tarixi köklərimizə əsaslanır. Müstəqillik yolu ilə getdiyi bir dövrdə bu əlaqələr Azərbaycan xalqına çox kömək edir və bizim üçün çox əhəmiyyətlidir.

Azərbaycanın problemləri çoxdur, ölkəmiz ağır iqtisadi, sosial böhran içindədir. Ermənistanın hərbi təcavüzü nəticəsində Azərbaycan torpaqlarının iyirmi faizi işğal olunubdur. Oradan qovulmuş vətəndaşlar

qaçqın vəziyyətində, ağır şəraitdə yaşayırlar. Azərbaycan bu vəziyyətdən sülh yolu ilə çıxmaq istəyir. Atəşkəs haqqında saziş əldə olunmuşdur. On üç aydan çoxdur ki, biz bu sazişə riayət edirik. Yaranmış vəziyyətdən sülh yolu ilə, beynəlxalq təşkilatların vasitəçiliyi ilə çıxmaq istəyirik. Bütün bu dövrdə Türkiyə Cümhuriyyəti, onun dövləti, hökuməti bizim yanımızda olub, bizə əlindən gələn yardımı edib, mənəvi dayaq olubdur. Qaçqınlarımıza edilən yardımlar da əvəzsizdir. Ancaq ən ümdəsi, ən yüksək qiymətə layiq olan Türkiyənin beynəlxalq aləmdə Azərbaycanı bir müstəqil dövlət kimi müdafiə etməsi, Ermənistan-Azərbaycan münaqişəsi haqqında beynəlxalq təşkilatların ədalətli qərarlar çıxarması sahəsində fəaliyyət göstərməsidir. Azərbaycan ictimaiyyəti bütün bunları yüksək qiymətləndirir.

Təkcə bunlar yox, ümumiyyətlə Türkiyə ilə Azərbaycan arasında olan tarixi əlaqələr, bugünkü əlaqələr, bizim qardaşlıq münasibətlərimiz Azərbaycanda Türkiyə xalqına, Türkiyə Cümhuriyyətinə, bu ölkənin hər bir vətəndaşına böyük hörmət və ehtiram hissi oyadıbdır. Bu hissləri biz bu gün Türkiyənin baş naziri hörmətli xanım Tansu Çillərə bildiririk. Hörmətli bacımız, əziz bacımız! Sizin bütün fəaliyyətinizi yüksək qiymətləndiririk və sizin rəsmi səfərinizi böyük hadisə hesab edirik, Azərbaycana olan diqqətinizə və qardaşlıq münasibətinizə görə sizə təşəkkür edirik. [88-89]

## TÜRKİYƏ RESPUBLİKASININ BAŞ NAZİRİ XANIM TANSU ÇİLLƏRLƏ BİRGƏ MƏTBUAT KONFRANSI

*Prezident Sarayı*

*11 iyul 1995-ci il*

Hörmətli xanımlar və cənablar!

Türkiyənin baş naziri, hörmətli xanım Tansu Çillər Azərbaycana rəsmi səfərə gəlib. İki gündür ki, Azərbaycan Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında çox səmərəli, məzmunlu, əhəmiyyətli danışıqlar gedir. Biz Türkiyənin baş naziri hörmətli xanım Tansu Çillərin Azərbaycana gəlməsini əlamətdar hadisə hesab edirik və dünən, bu gün apardığımız danışıqlar, görüşlər Türkiyə ilə Azərbaycan arasında dostluq və qardaşlıq əlaqələrinin daha da möhkəmləndirilməsi üçün böyük bir mərhələdir.

Biz Azərbaycan ilə Türkiyə arasında iqtisadi əlaqələrin genişlənməsi, inkişaf etməsi ilə bağlı bir çox məsələlər barəsində fikir mübadiləsi apardıq. Eyni zamanda Türkiyənin, Azərbaycanın dünya miqyasında siyasəti, o cümlədən xüsusən Azərbaycan üçün ən ağır problem olan Dağlıq Qarabağ məsələsi, yəni Ermənistanın Azərbaycana təcavüzü, Azərbaycan ilə Ermənistan arasında olan münaqişə haqqında da çox geniş fikir mübadiləsi apardıq və eyni fikirdə olduğumuzu bildirdik. Fikir ondan ibarətdir ki, Ermənistan Azərbaycana hərbi təcavüz edibdir. Bu təcavüz nəticəsində Azərbaycan torpaqlarının 20 faizi işğal olunub, işğal edilmiş ərazimizdən bir milyondan artıq Azərbaycan vətəndaşı qaçqın düşüb və onlar ağır vəziyyətdə yaşayırlar.

13 aydır ki, atəşkəs rejimi əldə olunub və davam edir. Bu müddətdə biz çalışmışıq və indən sonra da çalışırıq ki, bu problem sülh yolu ilə həll olunsun. Münaqişənin sülh yolu ilə həlli üçün də yeni, əlavə tədbirlər görülməlidir. Beynəlxalq təşkilatlar, dünyanın nüfuzlu ölkələri – dünya siyasətində mühüm rol oynayan ölkələr, o cümlədən Türkiyə Cümhuriyyəti yeni-yeni tədbirlər görməlidir ki, bu məsələlər sülh yolu ilə həll olunsun. Münaqişənin həlli üçün ATƏT-in Minsk qrupu [89-90] çərçivəsində danışıqlar aparılır. Lakin bu danışıqlar hələlik istənilən nəticəni vermir.

Azərbaycanın ərazi bütövlüyünün təmin olunması, Ermənistan silahlı qüvvələrinin işğal edilmiş torpaqlardan çıxması şərti ilə biz Böyük Sülh Müqaviləsi bağlamaq istəyirik. Biz Ermənistan silahlı qüvvələrinin işğal edilmiş Azərbaycan torpaqlarının hamısından, o cümlədən Laçın və Şuşa rayonlarından çıxması, ölkəmizin ərazi bütövlüyünün təmin olunması şərtini irəli sürürük. Biz bu məsələlər barəsində hörmətli baş nazir xanım Tansu Çillərlə geniş fikir mübadiləsi apardıq. Mən bu fikir mübadiləsindən çox razıyam. Türkiyə Cümhuriyyəti bu məsələlər barəsində Azərbaycanın haqq və ədalət naminə apardığı işi indiyədək müdafiə etmişdir, hesab edirəm ki, ölkəmizin mövqeyini bundan sonra da dəstəkləyəcəkdir. Mən danışıqlardan bu nəticəni çıxardım.

Bu gün hörmətli baş nazir xanım Tansu Çillərlə biz Ermənistan işğalçıları tərəfindən Zəngilan rayonundan qovulmuş qaçqınlarla görüşdük. Görüş çox həyəcanlı, çox təsirli idi. Qaçqın vəziyyətində, ağır şəraitdə yaşayan insanlar Türkiyənin baş naziri xanım Tansu Çilləri böyük hörmət, sevgi ilə qarşıladılar, qucaqladılar, öpdülər. Bunlar hamısı onu göstərir ki, Azərbaycan xalqının ürəyi genişdir, bu ağır vəziyyətdə də hörmətli qonağını gözünün üstündə qarşılayır.

Xanım Tansu Çillər qaçqınların ağır vəziyyətini, eyni zamanda onların Türkiyə Cümhuriyyətinə, xalqına və Türkiyənin baş nazirinə olan hörmət və ehtiramını da gördü. Bunlar hamısı bizi bir daha eyni fikrə gətirir ki, biz mütləq və mütləq, tezliklə Ermənistan işğalçılarının Azərbaycan torpaqlarından çıxarılmasına nail olmalıyıq, qaçqınları öz yerlərinə qaytarmalıyıq.

Azərbaycanın iqtisadi vəziyyəti çox ağırdır. Bu ağır vəziyyətdən çıxmaq üçün biz şübhəsiz ki, bütün ölkələrlə, xüsusən Türkiyə ilə iqtisadi əlaqələrimizi genişləndirmək və inkişaf etdirmək məqsədi daşıyırıq. İndiyədək bu sahədə bir çox işlər görülübdür, ancaq bir çox işlər də görüləcəkdir. Bizim bu barədə də fikir mübadiləmiz olub və bir çox məsələlərin həll edilməsi üçün razılığa gəlmişik.

Bilirsiniz ki, 1992-ci ildə Türkiyə Cümhuriyyəti Azərbaycanın iqtisadiyyatını canlandırmaq üçün 250 milyon dollar məbləğində kredit ayırıb. Həmin məbləğin cəmi 60 milyon dollarlıq bir hissəsindən istifadə olunub. Kreditin şərtlərinə [90-91] görə vaxtı çatsa da, biz indiyədək onu geri qaytara bilməmişik. Onun bir hissəsini 1994-cü ildə, bir hissəsini isə 1995-ci ildə geri qaytarmaq lazım idi. Lakin bizim buna imkanımız yoxdur. Ona görə də biz Türkiyənin baş naziri hörmətli xanım Tansu Çillərə müraciət etdik. O, qərar qəbul etdi və kreditin ödəniş vaxtının iki il uzadılması haqqında razılığa gəldik. Bu barədə sənəd də hazırlanıb və burada imzalanacaqdır. Şübhəsiz ki, biz bunu Türkiyə Cümhuriyyəti, baş nazir xanım Tansu Çillər tərəfindən Azərbaycana olan diqqət və mərhəmət kimi qəbul edirik. Çalışmalıyıq ki, bu kreditin geri qaytarılması üçün lazımi tədbirlər görək. Türkiyənin baş naziri və onunla gələn şəxslər dünən də və bu gün də bu barədə danışıqlar aparıblar, müəyyən anlaşmalar əldə ediblər. Güman edirəm ki, biz onları həyata keçirdiyimiz halda 1992-ci ildə

ayrılmış kreditin bir hissəsindən bu il də, gələn il də istifadə edə bilərik. Bu barədə də müəyyən razılıq əldə olunub və protokollar imzalanacaqdır.

Azərbaycanın sənaye potensialı çox böyükdür. Respublikamızda çox iri sənaye müəssisələri – fabriklər, zavodlar var. İndi onlar çox çətin bir şəraitdədir. Yəni onların çoxu əvvəllər keçmiş Sovetlər İttifaqının ayrı-ayrı respublikaları ilə iqtisadi inteqrasiya şəraitində işləyib. Bizim əlaqələr qırıldığına görə, ümumiyyətlə respublikamızın şimal tərəfdən sərhədləri bağlandığına görə bu sənaye müəssisələrinin işləməsi çox çətinləşibdir. Biz bu məsələni də müzakirə etdik və belə razılıq əldə olundu ki, baş nazir xanım Tansu Çillər Azərbaycandakı bu müəssisələrin bəzilərinin müştərək işləməsi üçün buraya müəyyən nümayəndə heyəti göndərəcəkdir. Onlar burada bəzi müəssisələrin vəziyyətini öyrənib proqramlar hazırlayacaqlar və həmin müəssisələrin müştərək işləməsi üçün lazımi tədbirlər görüləcəkdir. Biz buna böyük ümid bəsləyirik və güman edirəm ki, bu sahədə də lazımi nəticələr əldə edə bilərik.

Vaxtınızı çox almaq istəmirəm. Güman edirəm ki, hörmətli qonağımız görüşlərimiz və xüsusən öz təəssüratları barəsində məndən də çox şey deyə bilər. Ona görə də mən bununla kifayətlənirəm. Xahiş edək hörmətli xanım Tansu Çillərə söz verilsin.

Mən çıxışımda bəzi məsələlərə toxunmadım. İstəyirdim bunları hörmətli qonağımız söyləsin. Ancaq bir mühüm məsələni qeyd etmək istəyirəm. Danışıqlarımız zamanı [91-92] Türkiyənin Naxçıvana xüsusi yardımı haqqında çox əhəmiyyətli nəticələr əldə olundu. Bilirsiniz ki, Naxçıvan blokada şəraitindədir. Türkiyə bu bölgəyə daim kömək etmişdir. 1992-ci ildə "Ümid körpüsü", "Həsrət körpüsü" adlandırılan körpü tikilib qurtardı. O vaxtdan Azərbaycan Naxçıvan vasitəsilə Türkiyə ilə birbaşa əlaqə saxlayır. Amma Naxçıvan blokada vəziyyətində olduğuna və biz oranın bəzi problemlərini həll edə bilmədiyimizə görə bu məsələni hörmətli baş nazirlə ayrıca müzakirə etdik, Türkiyənin Naxçıvana hər dürlü kömək etməsi barədə razılıq əldə olundu.

**Sual: Hazırda Türkiyədə xarici iş adamlarının fəaliyyəti sərt qanunlarla tənzimlənir. Belə bir halda Türkiyə dövləti Azərbaycanın iş adamları üçün güzəştli bir vəziyyət yaratmaq istəmirmi?**

**Tansu Çillər:** Azərbaycanın iş adamları qardaş iş adamları kimi Türkiyəyə daim dəvət edilir. Əgər onların Türkiyədə bir iş görmələrində çətinlik varsa, bunu bilməyimiz gərəkdir. Onların kredit almalarında, öz vətəndaşlarımızdan heç ayırd etmədən yatırım qoymalarında maneə yoxdur. Biz qardaş Azərbaycandan Türkiyəyə gələnlərin hamısını məmnuniyyətlə qarşılayırıq və dövlət də onları dəstəkləyir.

**Sual: Möhtərəm prezident, Azərbaycanda özəl bölmənin inkişafı üçün əlinizdən gələni etdiyinizin, çox işlər gördüyünüzün şahidiyik. Özəl bölmənin gələcək inkişafı üçün və yaranmaqda olan milli burjuaziyanın fəaliyyətini tənzimləmək üçün hansı qanunlar qəbul olunacaq və daha səmərəli işləmək üçün onlara hansı güzəştlər ediləcəkdir ?**

**Heydər Əliyev:** Bu barədə bizim bir çox qanunlarımız var. Ancaq sizə məlumdur ki, biz özəlləşdirmə proqramı hazırlamışıq. Bu iş bir neçə ay vaxt tələb etdi. Proqramın bir az gecikməsinin səbəbləri də məlumdur. Çünki bir tərəfdən Azərbaycan müharibə şəraitində idi, digər tərəfdən də 1992-1993-cü illərdən indiyədək Azərbaycanın daxilində ictimai-siyasi vəziyyətin nə qədər gərgin olduğu bəllidir. Bunların hamısı iqtisadi sahədə bəzi islahatlarımızın keçirilməsini gecikdirmişdir. Yaxın vaxtlarda özəlləşdirmə proqramının həyata keçirilməsinə başlanacaqdır. Həmin proqram üç il üçün nəzərdə tutulmuşdur. Şübhəsiz ki, özəlləşdirmə proqramı həyata keçirilərkən iş adamlarının fəaliyyətinin səmərəli olması üçün əlavə qanunlar da qəbul olunacaqdır. İndi vaxtınızı alıb [92-93] hansı qanunların qəbul ediləcəyini demək istəmirəm. Bilirsiniz ki, bunlar çoxdur və qəbul olunacaqdır. Ancaq onu da bilməlisiniz ki, indiyədək mövcud olan qanunlarımız da Azərbaycanda özəl bölmənin fəaliyyət göstərməsi üçün çox yaxşı şərait yaratmışdır.

**Sual: Mənim sualım cənab prezidentədir. Son vaxtlarda Türkiyənin Ermənistan barəsində siyasətində bir dəyişiklik görürsünüzmü ?**

**Heydər Əliyev:** Ermənistanın Azərbaycana təcavüzü ilə bağlı məsələdə Türkiyənin mövqeyində heç bir dəyişiklik yoxdur. Bu məsələ bu gün bir daha geniş müzakirə olundu, bizim fikirlərimiz eynidir. Türkiyənin baş naziri hörmətli xanım Tansu Çillər Ermənistanın Azərbaycana təcavüz etdiyini çıxışlarında bir daha bəyan etdi və bu təcavüzün qarşısının alınması üçün lazımi tədbirlərin görülməsində Azərbaycanı dəstəkləyir, yəni Türkiyənin siyasətində heç bir dəyişiklik yoxdur.

**Sual: Hörmətli baş nazir, sizə iki sualım var. Birincisi, aprel ayında Bakıya gələrkən demişdiniz ki, buraya böyük bir proqramla dönəcəksiniz. Bu proqramın böyüklüyünü rəqəmlərin dili ilə izah edə bilərsinizmi ? İkincisi, bugünkü görüşdə neft kəmərinin Türkiyədən keçməsi məsələsi danışıqların mövzusu olmuşdurmu ?**

**Tansu Çillər:** Aprel ayında Azərbaycana yenidən, özü də iş adamlarımızla birlikdə gələcəyimə söz vermişdim. Bu səfərim zamanı nəzərdə tutduğumuz məsələlərin, demək olar, hamısını müzakirə edə bildik. Azərbaycanın ödənilməmiş kreditləri vardır. Bunu həll etmək lazımdır. Bizim tələblərimiz vardı, bu gündən etibarən bunları əfv etdik və sənəd imzalayacağıq. Yeni kredit açılması üçün tələb var idi. Bunu da bu gün sənəd şəklində imzalanacaq vəziyyətə çatdırırıq. Banklarımızın burada iş anmaları məsələsi də nəzərdə tutulmuşdur. Bu da həll olundu, "Ziraət bankası" fəaliyyətə başlayır, yaxın vaxtlarda isə "Vakfbank" işə başlayacaqdır.

Universitetlərimiz arasında əməkdaşlığın genişləndirilməsi məsələsi var idi. Bakı Dövlət Universitetində ilahiyyat fakültəsi artıq fəaliyyət göstərir.

Neft kəmərinin çəkilməsi ilə bağlı Azərbaycanla əvvəllər də danışıqlarımız olmuşdur. Biz bu kəmərin Türkiyə ərazisindən keçməsini istəyirik. Mən Özbəkistanda səfərdə olarkən [93-94] Avrasiya avtomobil yolunun Özbəkistana qədər gələrək Azərbaycan ərazisi ilə Türkiyəyə keçməsi fikrini razılaşdırdıq. Bu məqsədlə Amerikanın bizə verəcəyi kreditdən istifadə edilə biləcəyini düşünürük. Neft kəmərinin Türkiyədən keçməsini Amerika özünün xarici siyasəti kimi qəbul etmişdir. Azərbaycan da bunu bütünlüklə dəstəkləmişdir. Bunun həyata keçirilməsi üçün digər ölkələrlə də bu cür danışıqlar aparmaq lazımdır. Özbəkistana və Azərbaycana səfərlərim zamanı hər iki dövlətin dəstəyini almışıq. Yaxın vaxtlarda başqa ölkələrə də səfər etməyi düşünürəm.

Daha sonra bu səfərlərin zirvəsini bəlkə də Türkiyədə təşkil etmək mümkün olacaqdır.

**Sual: Hörmətli prezident Heydər Əliyev, Türkiyə vətəndaşlarının Azərbaycana vizasız gəliş-gedişinə icazə veriləcəkmi ? Azərbaycanda fəaliyyət göstərən Türkiyə iş adamlarına bu məsələdə şərait yaradılması barədə düşünürsünüzmü ?**

**Heydər Əliyev:** Bizim ən böyük arzumuz ondan ibarətdir ki, Azərbaycana daha çox iş adamı gəlsin, buraya sərmayə qoysunlar. Bu arzunu həyata keçirmək üçün lazımi tədbirlər görmüşük və bundan sonra da görəcəyik. Ola bilər, bəzi bürokratlar ayrı-ayrı yerlərdə bu işin həyata keçirilməsinə mane olurlar. Bu, təbiidir, mən belə halları istisna etmirəm. Ancaq bizim siyasətimiz bundan ibarətdir ki, Azərbaycan dünya birliyinə açıqdır. Türkiyə isə bu sırada bizim üçün ən önəmli ölkədir. Mən bunu bir daha bəyan edirəm və bu sahədə gələcəkdə də lazımi tədbirləri görəcəyik. Türkiyə ilə Azərbaycan arasında iqtisadi əlaqələri inkişaf etdirmək üçün hörmətli baş nazirlə razılığa gəldik ki, müştərək iş birliyi komissiyası yaradaq. Azərbaycan tərəfi böyük bir komissiya yaradır. Türkiyə də belə bir komissiya yaradacaqdır. Bu komissiyalar iqtisadi əməkdaşlığa dair məsələlərin dəqiqləşdirilməsi ilə məşğul olacaqlar.

**Sual: Birinci sualım xanım Tansu Çillərədir. Siz beynəlxalq konsorsiumun üzvləri ilə qarşıdakı görüş zamanı hansı məsələləri müzakirə edəcəksiniz ? İkinci** [94-95] **sualım həm cənab prezidentə, həm də xanım baş nazirədir. Azərbaycan neftinin Türkiyə ərazisi vasitəsilə ixrac olunmasının perspektivi barədə nə deyərdiniz ?**

**Tansu Çillər:** Bu suala bir az öncə cavab vermişdim. Neft kəmərinin Türkiyə ərazisindən keçməsi barədə Azərbaycanla baxış birliyimiz vardır.

**Heydər Əliyev:** Mən xanım Tansu Çillərin dedikləri ilə razıyam. [95-96]

## TÜRKİYƏ RESPUBLİKASININ BAŞ NAZİRİ XANIM TANSU ÇİLLƏRLƏ AZƏRBAYCAN İCTİMAİYYƏTİ NÜMAYƏNDƏLƏRİNİN GÖRÜŞÜNDƏ NİTQ

*Respublika Sarayı*

*11 iyul 1995-ci il*

Hörmətli baş nazir, əziz bacımız xanım Tansu Çillər!
Hörmətli qonaqlar, xanımlar və cənablar!

Bu gün Azərbaycan ictimaiyyətinin nümayəndələri buraya, Respublika sarayına əziz qonağımız, bacımız, hörmətli xanım Tansu Çillər ilə görüşmək üçün toplaşmışlar. Sizin hamınızın adından, Azərbaycan xalqı adından, respublikamızın bütün vətəndaşları adından Türkiyə Cümhuriyyətinin baş naziri, xalqımızın dostu, əziz bacısı hörmətli xanım Tansu Çilləri səmimi-qəlbdən salamlayıram, ona Azərbaycan xalqının hörmət və ehtiramını bildirirəm.

Baş nazir xanım Tansu Çillərlə birlikdə ölkəmizə qardaş Türkiyədən hörmətli qonaqlar gəlib. Onların hamısını salamlayıram. Xanım Tansu Çillərin və digər qonaqlarımızın şəxsində Türkiyənin bütün ictimaiyyətini salamlayıram. Türkiyə Cümhuriyyətinə və xalqına Azərbaycan xalqının qardaşlıq hörmətini və ehtiramını bildirirəm.

Mən bu salondan Azərbaycan xalqının böyük dostu, əziz qardaşımız Süleyman Dəmirələ səmimi salamlarımızı və ən xoş arzularımızı göndərirəm.

Türkiyənin baş naziri, hörmətli xanım Tansu Çillər mənim dəvətimi qəbul edib iki gündür ki, Azərbaycana rəsmi səfərə gəlibdir. İki gündür ki, biz bir yerdəyik və bu qısa müddətdə Türkiyə ilə Azərbaycan arasında əlaqələrin daha da möhkəmlənməsi, inkişaf etməsi üçün çox səmərəli danışıqlar aparılmış, fikir mübadiləsi edilmiş və çox dəyərli sazişlər əldə olunmuşdur.

Hörmətli xanım Tansu Çillərin respublikamıza gəlməsi, Azərbaycan ictimaiyyəti ilə görüşməsi və səfər zamanı bəzi gərəkli işlər görməsi ölkəmizin həyatında əlamətdar hadisədir. Biz bunu yüksək qiymətləndiririk. Eyni zamanda bu, Türkiyənin Azərbaycana nəzər-diqqətinin, hörmətinin və məhəbbəti[96-97]nin parlaq təzahürüdür. Bütün bunlara görə mən sizin adınızdan və öz adımdan hörmətli qonağımız xanım Tansu Çillərə təşəkkürümü bildirirəm, ona cansağlığı, səadət və böyük işlərində uğurlar arzulayıram.

Türkiyə və Azərbaycan xalqları arasındakı dostluq əlaqələri çox böyük tarixə malikdir. Bir kökdən olan xalqlarımız əsrlər boyu bərabər yaşamışlar, böyük sınaqlardan birlikdə keçmişlər, əl-ələ verərək qarşılarına çıxan çətinliklərin öhdəsindən gəlmişlər. Onlar bu gün də bir yerdədirlər.

Bizim xalqları birləşdirən eyni kökdən olmağımız, eyni dinə mənsubluğumuz, dilimizin və adət-ənənələrimizin, mədəniyyətimizin bir-birinə bənzərliyi, birliyi və tarixən keçdiyimiz yolların oxşarlığıdır. Bunların hamısı böyük diqqətə layiq tarixi keçmişimizdir. Biz bunları bu gün bir daha yad edir, böyük hörmət və ehtiramla keçmişimizə minnətdarlığımızı bildiririk. Çünki Türkiyə ilə Azərbaycanın bugünkü dostluğu keçmiş əlaqələrimizin gözəl təməli üzərində qurulmuşdur. Türkiyə tarix boyu bizə kömək etmiş, arxa olmuşdur. Azərbaycan xalqı bunu heç vaxt unutmayacaq, həyatımızın çətin dövründə Türkiyənin bizə göstərdiyi dəstəyə, mənəvi dayağa görə minnətdar olacaqdır.

Biz Türkiyə Cümhuriyyətinin keçdiyi böyük tarixi və şərəfli yolu bilirik və yüksək qiymətləndiririk. 1918-22-ci illərdə türk xalqı ağır savaş içərisində olmuşdur. Yadelli qüvvələr o zaman Türkiyəni tamamilə dağıtmaq, türk xalqını məhv etmək qərarına gəlmişdilər. Ancaq türk xalqının qüdrəti, onun qəhrəmanlığı, qabaqcıl adamlarının səriştəsi xalqı birləşdirdi və türk xalqına qəsd edən qüvvələr məhv oldu, qurtuluş savaşı müvəffəqiyyətlə başa çatdı və 1922-23-cü illər Türkiyə Cümhuriyyətinin yaranması üçün böyük dönüş dövrü oldu. O zaman böyük. Mustafa Kamal Atatürkün rəhbərliyi altında Türkiyə Cümhuriyyəti yarandı. Türk xalqı həmin vaxtdan bəri böyük Atatürkün qoyduğu yolu cəsarətlə gedir və bu gün Türkiyə Cümhuriyyəti dünyanın 60 milyonluq əzəmətli bir dövləti kimi beynəlxalq birlikdə özünə layiq yer tutmuşdur.

Biz bu gün dost və qardaş kimi böyük məmnuniyyət hissi ilə deyə bilərik ki, Türkiyə Cümhuriyyətinin yaranması, türk xalqına və onun siyasi xadimlərinin böyük Atatürkün vəsiyyətlərinə, qoyduğu yola sadiq olması indi Türkiyənin zirvələrə qalxmasının əsas səbəbidir.

Son illərdə Türkiyə Cümhuriyyətinin həyatında böyük dəyi[97-98]şikliklər əmələ gəlmişdir. Cümhuriyyətin yarandığı dövrdən indiyə qədər türk xalqı dünyəvi dövlət, cəmiyyət qurmaq, sivilizasiyalı ölkələr səviyyəsinə qalxmaq uğrunda çalışmış və bu yolda böyük nailiyyətlər əldə etmişdir. Türk xalqı azadlıq, hürriyyət və demokratiya içərisində yaşamış və yaşayır. Məhz bu prinsiplərə görə türk xalqı, Türkiyə Cümhuriyyəti böyük nailiyyətlər əldə etmiş və dünyanın hörmətli ölkələrindən, dövlətlərindən biri olmuşdur. Bunların əsasında son illərdə Türkiyənin həyatında böyük dəyişikliklər əmələ gəlmişdir. Ölkənin iqtisadiyyatı böyük sıçrayış yolu keçərək, inkişaf etmiş ölkələrin iqtisadiyyatlarının səviyyəsinə gəlib çatmış və türk xalqının

rifahı yüksəlmişdir. Bu, şübhəsiz ki, türk xalqının zəkası, ağlı və əməksevərliyi nəticəsində olmuş, eyni zamanda Türkiyədə demokratik prinsiplərin daim həyata keçirilməsi və ölkənin görkəmli siyasi xadimlərinin, dövlət adamlarının uğurlu fəaliyyəti nəticəsində əldə edilmişdir.

Biz bu gün Türkiyənin həyatına baxarkən çox maraqlı bir mənzərə ilə rastlaşırıq. Bu mənzərəni türk xalqının özü yaratmışdır. Bu gün bu barədə danışarkən Türkiyənin mərhum prezidenti Turqut Özalı yada salırıq. Onun atdığı addımlar sayəsində Türkiyə Cümhuriyyətində iqtisadiyyat böyük sıçrayış yolu keçmişdir. Türkiyə Cümhuriyyətinin görkəmli siyasi xadimi, əziz dostumuz hörmətli Süleyman Dəmirəlin böyük fəaliyyəti nəticəsində ölkədə mühüm dəyişikliklər olmuşdur. Bu gün Türkiyə hökumətinə başçılıq edən əziz qonağımız, bacımız hörmətli xanım Tansu Çillərin dövlət və siyasi fəaliyyəti nəticəsində, hökumətin rəhbəri kimi apardığı böyük siyasətin və iqtisadi islahatların sayəsində Türkiyə Cümhuriyyəti mühüm nailiyyətlər əldə etmişdir. Bu gün burada biz və bütün azərbaycanlılar türk xalqının, Türkiyə Cümhuriyyətinin əldə etdiyi nailiyyətləri öz uğurlarımız kimi qəbul edir, sevinirik və bu nailiyyətlər münasibətilə öz qardaşlarımızı, Türkiyənin dövlət və hökumət başçılarını ürəkdən təbrik edirik.

Türkiyə ilə Azərbaycan arasında əlaqələr XX əsrin əvvəllərindən başlayaraq daha da inkişaf etmişdir. 1918-ci ildə Azərbaycanda ilk demokratik respublika yaranan zaman onun əsas dayaqlarından biri olan ilk demokratik cümhuriyyətimizi tanıyan və ona yardım edən ölkə olmuşdur. Sonrakı dövrlərdə ölkələrimiz arasındakı bu əlaqələrin bəzi səbəblərdən – Azərbaycanın Sovetlər Birliyinin tərkibində olması səbəbindən çətinləşməsinə baxmayaraq, xalqlarımızın bir-birinə olan hüsn-[98-99]rəğbəti, münasibəti heç vaxt kəsilməyibdir. Bu illərdə biz Türkiyəyə böyük həsrətlə baxmışıq. Daim Türkiyə ilə maraqlanmışıq, qardaş ölkədə baş verən hadisələri qəlbimizdə hiss etmişik. Onun nailiyyətlərinə sevinmişik, həyatında baş verən faciələrə ağrımışıq, incimişik. Mən bunu deyərkən böyük Mustafa Kamal Atatürkün sözləri yadıma düşür. O deyirdi: "Azərbaycan gülərsə biz də gülərik, Azərbaycan üzülərsə biz də üzülərik". Bu sözlər Türkiyə Cümhuriyyətinin Azərbaycana olan münasibətinin ən parlaq ifadəsidir.

Bu gün burada mən Azərbaycan xalqının iradəsini ifadə edərək deyirəm ki, Türkiyə gülərsə Azərbaycan da güləcək, Türkiyə inciyərsə, sıxılarsa, ağlayarsa Azərbaycan da inciyəcək, sıxılacaq, ağlayacaqdır. Bu sözlər son illərin sınağından keçib gəlmişdir. Azərbaycan Respublikasının başına böyük bəlalar gələn zaman, 1988-ci ildən Ermənistanın torpaqlarımıza təcavüzü başlayan gündən Türkiyə ictimaiyyətində, qardaş ölkənin hər yerində Azərbaycana olan münasibətlər coşmuş, artmış, Türkiyənin ürəyi Azərbaycanla bir döyünmüş, dost ölkədə respublikamızın həyatı ilə daim maraqlanmışlar. O illərdə Türkiyədə keçirilən mitinqlər, toplantılar yaxşı yadımızdadır. Türkiyəli gənclərin küçələrə, meydanlara çıxması, həyəcanlarının coşması, xalqımızla həmrəy olması, Azərbaycan xalqına qarşı edilən hərbi təcavüzə etiraz etmələri – bunların hamısı xalqımızın yaddaşına həkk olubdur. Biz bunları heç vaxt unutmayacağıq.

1990-cı ilin 20 Yanvar faciəsi – Azərbaycan xalqı öz suverenliyi uğrunda mübarizə apararkən, milli azadlığı uğrunda ayağa qalxarkən, müstəqillik qazanmaq üçün çalışdığı zaman Azərbaycana Sovet imperiyasının ordusu tərəfindən hərbi təcavüz oldu. Xalqımıza çox böyük zərbələr vuruldu. Azərbaycan kimi Türkiyə də bu faciəli hadisəyə görə ağladı, sızladı. Eyni zamanda, Azərbaycana edilmiş bu hərbi təcavüzə qarşı Türkiyənin hər bir guşəsində etiraz çıxışları oldu, qəzetlər bu barədə yazdı, televiziya və radioda bu haqda verilişlər getdi. Yəni Azərbaycan xalqının azadlıq uğrunda mübarizəsinə Türkiyə dəstək verdi.

Ona görə də biz hər bir türk vətəndaşının Azərbaycana olan münasibətini yüksək qiymətləndiririk. Hər bir vətəndaşın münasibətindən Türkiyədəki siyasi partiyaların, dövlət və hökumət başçılarının münasibətləri yaranır. Biz bunları yüksək [99-100] qiymətləndiririk. Ən başlıcası isə 1991-ci ilin sonunda Azərbaycan dövlət müstəqilliyini əldə edən kimi dünya dövlətləri içərisində birinci olaraq Türkiyə respublikamızın müstəqilliyini tanıdı və həmin dövrdən hər bir addımı atarkən ölkəmizə kömək etdi, yardımçı oldu. Bütün ölkələrin yanında, beynəlxalq aləmdə Azərbaycana əl tutan, kömək duran Türkiyə Cümhuriyyəti, onun səlahiyyətli nümayəndələri oldu. Bunu biz heç vaxt unutmayacağıq.

Yeddi ildən bəri davam edən müharibə zamanı Türkiyə bizimlə bir mövqedə durmuşdur. Ermənistanın bu təcavüzkarlığını pisləmişdir. Türkiyənin bu ölkəyə münasibəti Ermənistanın Azərbaycana olan münasibəti əsasında müəyyənləşdirilmişdir. Xatirimdədir, Parisdə beynəlxalq toplantı olarkən keçirilmiş mətbuat konfransında bir erməni müxbiri Türkiyə prezidenti hörmətli Süleyman Dəmirələ sual verdi: "Siz nə üçün Ermənistanla münasibətləri yaxşılaşdırmırsınız, axı biz qonşu ölkələrik". Süleyman Dəmirəl ona çox dəyərli cavab verərək dedi ki, "Siz nə vaxt Azərbaycan ilə münasibətləri normallaşdıracaqsınızsa, Türkiyə də o vaxt Ermənistan ilə öz münasibətlərini normallaşdıracaqdır".

Biz bunları yüksək qiymətləndiririk. Bu fikirlər bizim dünən və bu gün apardığımız danışıqların əsas mərkəzində dururdu. Türkiyə və Azərbaycan arasında dostluq və qardaşlıq əlaqələri, onların gələcək inkişaf yolları və istiqamətləri, respublikamızın ağır vəziyyətdən çıxması üçün görüləcək tədbirlər, münaqişənin sülh yolu ilə həll olunması barədə əziz qonağımız xanım Tansu Çillər öz mövqeyini bir daha qəti bildirdi – bu gün bunu mətbuat konfransında da ifadə etdi və əminəm ki, onun mövqeyi Türkiyə xalqının, Türkiyə hökumətinin mövqeyi kimi daim belə olacaqdır.

Respublikamızın ən böyük problemi Ermənistanın ölkəmizə hərbi təcavüzüdür. Biz təcavüzdən xilas olmaq istəyirik. Azərbaycan üç il yarımdır ki, müstəqil dövlət kimi yaşayır və azadlığı yüksək nailiyyət və mənəvi sərvət kimi qiymətləndirir. Xalqımız, bütün ictimaiyyətimiz və mən bir prezident kimi Azərbaycanın müstəqilliyinin əbədi olması uğrunda çalışırıq və çalışacağıq. Biz öz müstəqilliyimizi və azadlığımızı heç vaxt əldən verməyəcəyik.

Bunun üçün Azərbaycan Respublikasının ərazi bütövlüyü bərpa olunmalıdır. Ermənistanın respublikamıza qarşı hərbi [100-101] təcavüzü nəticəsində torpaqlarımızın 20 faizindən çoxu Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilib, Azərbaycanın ərazi bütövlüyü pozulubdur. Azərbaycan xalqının həyatında böyük itkilər olubdur. İşğal olunmuş ərazilərdən bir milyondan artıq vətəndaşımız didərgin düşüb, qaçqın vəziyyətindədir. İşğal altında qalan 700-dən artıq şəhər, qəsəbə, kənd, sənaye, kənd təsərrüfatı müəssisələri, xəstəxanalar, məktəblər, kitabxanalar, mədəniyyət obyektləri, insanların qurub-yaratdığı evlər, tarixi abidələr Ermənistan silahlı qüvvələri tərəfindən dağıdılıbdır. Azərbaycan xalqına böyük zərbələr vurulubdur. Biz bu çətinliklərə dözürük.

Qaçqın düşmüş vətəndaşlarımız ağır vəziyyətdə yaşayırlar. Bu gün biz hörmətli qonağımız xanım Tansu Çillərlə birlikdə onlarla görüşərkən həmin adamların hörmətli qonağa sevgisinin, məhəbbətinin şahidi olduq. Eyni zamanda onların nə qədər ağır vəziyyətdə yaşadığını gördük.

Biz bu ağır günlərdən çıxmaq istəyirik. Ona görə də biz keçən ilin mayında atəşkəs barədə saziş əldə etmişik. On üç aydan artıqdır ki, atəşkəs dövründə yaşayırıq. Biz bu müddətdən böyük sülhün əldə olunması üçün istifadə edirik. Etibarlı sülh əldə edilməsinə çalışırıq. Biz müharibəyə son qoyulmasına çalışırıq. Müharibə istəmirik, biz sülh istəyirik və bu münaqişəni sülh yolu ilə sona çatdırmaq istəyirik. Ona görə bir çox addımlar atmışıq və bundan sonra da atacağıq.

Bu məsələlər beynəlxalq təşkilatlar çərçivəsində, Minsk qrupu çərçivəsində həll olunur. Bu məsələlərin həlli üçün Türkiyə Cümhuriyyəti daim bizə dayaq olur, kömək edir. Ancaq bu gün mən bir daha demək istəyirəm ki, biz müharibə istəmirik. Bunu Azərbaycan xalqı bilir. Qoy dünya da bilsin. Biz heç bir ölkənin torpağına göz dikməmişik. Ancaq öz torpağımızın bir qarışını da başqasına verməyəcəyik. Torpaqlarımızın işğal olunmasına dözə bilmərik. Bu məsələnin sülh yolu ilə həll olunmasını, Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsini, respublikamızın sərhədlərinin toxunulmazlığının qorunmasını istəyirik. Biz çalışırıq ki, qaçqın düşmüş vətəndaşlarımız öz yurduna, elinə, obasına qayıtsınlar.

Azərbaycan sülhsevər dövlətdir. Biz sülh yolu ilə gedirik. Xalqımız sülhsevər xalqdır. Ancaq bütün dünya da bilsin ki, biz torpaqlarımızın bir qarışını da heç kəsə verməyəcəyik və ərazilərimizin azad olunması üçün son damla qanımıza qədər çalışacaq və vuruşacağıq. [101-102]

Əminəm ki, bizim bu ədalətli və haqq işimizdə türk xalqı, Türkiyə Cümhuriyyəti və ictimaiyyəti indiyə qədər olduğu kimi, bundan sonra da bizimlə olacaq, bizə dayaq duracaq və bu ağır şəraitdən çıxmağımız üçün əlindən gələni əsirgəməyəcəkdir.

Müstəqil dövlət olaraq biz Azərbaycan torpağında demokratik quruculuq yolu ilə gedirik. Respublikamızda sivilizasiyalı cəmiyyət qururuq. Azərbaycanın müstəqilliyini bu yolla inkişaf etdiririk.

Azərbaycanın iqtisadiyyatında böyük dəyişikliklər əmələ gəlibdir. Bu, respublikamızın bazar iqtisadiyyatı yoluna keçməsi ilə əlaqədardır. Bir çox addımlar atmışıq. Ən böyük addım özəlləşdirmə barədə proqramın tamamlanmasıdır. Əminəm ki, bu proqramı yaxın vaxtlarda əməli olaraq həyata keçirməyə başlayacağıq. İqtisadiyyatın bütün sahələrində, o cümlədən aqrar bölmədə də islahatlar aparırıq. Bunların hamısı Azərbaycanın iqtisadiyyatını böyük yola çıxaracaq, dünya iqtisadiyyatına bağlayacaqdır. Biz bütün sahələrdə – həm dövlət quruculuğunda, həm də iqtisadi həyatda demokratik dəyişikliklər edirik. Bu yol sınaqdan çıxmış yoldur. Bu yolu Türkiyə Cümhuriyyəti, demokratiya və iqtisadiyyat sahəsində inkişaf etmiş ölkələr keçmişlər. Biz də həmin yolu gedirik. Bu yolda biz inkişaf etmiş ölkələrin, Türkiyənin təcrübəsindən istifadə edirik. Türkiyənin təcrübəsi bizim üçün çox əhəmiyyətli mənbədir.

Respublikamızın hər yerində demokratik prinsipləri bərqərar edirik və bundan sonra da edəcəyik. Bu il noyabrın 12-nə Azərbaycanda parlament seçkiləri təyin olunub. Həmin seçkilər tam demokratik şəraitdə hazırlanır və keçiriləcəkdir. Azərbaycanda çoxlu partiya fəaliyyət göstərir. Mətbuat azadlığı vardır. İnsan azadlığı tamamilə bərqərar olmuşdur. Bütün azadlıqlar təmin olunmuşdur. Siyasi plüralizm ictimai həyatımızın əsasını təşkil edir. Bu prinsiplər əsasında parlament seçkilərinə gedirik və müstəqil Azərbaycanın yeni, demokratik parlamentini yaradacağıq. Həmin gün həm də ümumxalq səsverməsi yolu ilə müstəqil Azərbaycanın yeni, demokratik konstitusiyası qəbul olunacaqdır.

Şübhəsiz ki, bu addımlar Azərbaycan Respublikasını daha da irəliyə aparacaq və dünya miqyasında dövlətimizi demokratik, azad bir ölkə kimi daha yüksək səviyyəyə qaldıracaqdır. Əminəm ki, qarşımızda duran bu vəzifələri layiqincə yerinə [102-103] yetirəcəyik və 1995-ci il bizim üçün böyük dəyişikliklər ili olacaqdır. Bu tədbirləri həyata keçirmək üçün dost ölkələrin, o cümlədən də Türkiyənin köməyinə ehtiyacımız vardır. Ümidvaram ki, biz həmişə bu köməkdən faydalanacağıq.

Bu gün mən bir daha qeyd etmək istəyirəm ki, hörmətli xanım Tansu Çillərin Azərbaycana etdiyi rəsmi səfər zamanı biz mühüm məsələləri müzakirə etmişik və əhəmiyyətli razılığa gəlmişik. Bunların əsasında güman edirəm ki, ölkələrimiz arasında olan əlaqələr daha da inkişaf edəcəkdir. Biz Türkiyə Cümhuriyyəti üçün iqtisadi,

eləcə də digər sahələrdə həm dost, həm də etibarlı tərəfdaş olmaq istəyirik. Güman edirəm ki, biz buna da nail olacağıq. Bunların hamısını bu gün burada bütün Azərbaycan ictimaiyyətinə çatdırarkən bir daha Türkiyə Cümhuriyyətinə və xalqına, onun çox görkəmli nümayəndəsi, əziz bacımız xanım Tansu Çillərə də bildirirəm. Bu gün şəhərimizin küçələrində sakinlər əziz qonağımızı böyük məhəbbətlə və sevgi ilə qarşılayırdılar. Mümkün qədər onu yaxından görməyə və salamlamağa çalışırdılar. Ona öz xoş münasibətini bildirmək istəyirdilər. Həmin bu baxışlar, görüşlər, insanların marağı Azərbaycanın Türkiyəyə, türk xalqına hörməti, məhəbbəti, sevgisi və istəyidir. Bu hörmətlə, bu məhəbbətlə və bu istəklə biz Türkiyədən gələn əziz qonaqlarımızı qəbul edir və eyni istəklə də əziz bacımız Tansu Çillərlə görüşürük. Bununla da bütün türk xalqına qarşısında duran vəzifələrin həyata keçirilməsində uğurlar arzulayırıq.

Hörmətli bacımız, Azərbaycana etdiyiniz bu səfərə görə mən sizə bir daha təşəkkürümü bildirirəm. Sizə cansağlığı, xoşbəxtlik, səadət və böyük işinizdə uğurlar arzulayıram. Sağ olun! [103-104]

## FRANSANIN MİLLİ BAYRAMI – FRANSA İNQİLABININ 206-cı İLDÖNÜMÜ MÜNASİBƏTİLƏ FRANSANIN AZƏRBAYCANDAKI SƏFİRLİYİNİN TƏŞKİL ETDİYİ RƏSMİ QƏBULDA ÇIXIŞ

*"Gülüstan" Sarayı*

*14 iyul 1995-ci il*

Hörmətli cənab səfir!
Hörmətli xanımlar, cənablar!

Mən sizi Fransa inqilabının 206-cı ildönümü, 14 iyul günü, Bastiliya günü münasibətilə ürəkdən təbrik edirəm. Sizə, Fransa xalqına, hökumətinə səadət, xoşbəxtlik arzulayıram və bütün işlərində uğurlar diləyirəm.

Dünya tarixində 14 iyul Fransa inqilabının çox görkəmli yeri var. 14 iyul inqilabı və fransızların bu inqilabından sonra həyata keçirdikləri dəyişikliklər bütün dünyada demokratiya, insan hüquqlarının qorunması, vətəndaşların azadlığı üçün böyük yol açmışdır. Ona görə də bütün dünyada Fransa inqilabına böyük hörmət və ehtiram vardır.

Böyük ənənələrə malik olan Fransa Respublikası 206 il ərzində dünya sivilizasiyasına mühüm töhfələr vermiş, Fransa xalqı bu müddətdə şərəfli yol keçmiş, öz torpağında, ölkəsində qüdrətli, demokratik, insan hüquqlarını qoruyan bir dövlət, cəmiyyət yaratmış və bütün xalqlar, dünya ölkələri üçün örnək olmuşdur. Fransızların, Fransa xalqının dünya tarixində böyük yeri var. Dünya elminin, mədəniyyətinin, ümumdünya cəmiyyətinin yaranmasında Fransa xalqının çox böyük xidmətləri var. Buna görə də fransızlar, Fransa xalqı, böyük Fransa həmişə hörmət və ehtiramla qarşılanır.

Bu bayram günü mən Azərbaycan xalqı, ölkəmizin bütün vətəndaşları, müstəqil dövlətimiz adından Fransa xalqının tarixi xidmətlərinə hörmət və ehtiramımı bildirirəm və fransızlara səmimi salamlarımı, xoş arzularımı göndərirəm.

Azərbaycan Respublikası demokratik prinsiplər əsasında müstəqil dövlətini quraraq, dünyəvi, hüquqi cəmiyyət yaradaraq Fransa xalqının keçdiyi yoldan, onun təcrübəsindən daim istifadə etməyə çalışır. Məmnuniyyət hissi ilə qeyd edirəm ki, [104-105] Fransa Respublikası ilə müstəqil Azərbaycan Respublikası arasında sıx əlaqələr yaranıb və bu əlaqələr gündən-günə möhkəmlənir, inkişaf edir.

Respublikamız müstəqillik qazandıqdan sonra ölkəmizdə yaranan ilk xarici səfirliklərdən biri də Fransanın Azərbaycandakı səfirliyidir. Cənab Jan Perrənin qeyd etdiyi kimi, artıq dörd ilə yaxındır ki, o, burada səfirlik fəaliyyətini davam etdirir, Fransa ilə Azərbaycan arasında əlaqələrin inkişaf etdirilməsinə xidmət göstərir. Azərbaycan ilə Fransa arasında əlaqələr, dövlət başçılarının görüşləri, imzalanan sənədlər ilə nəticələnmişdir.

1993-cü ilin dekabrında Fransanın prezidenti cənab Fransua Mitteranın dəvəti ilə mən Azərbaycan prezidenti kimi Parisdə oldum və yüksək səviyyədə çox səmərəli görüşlər keçirdim. Fransua Mitteran ilə mənim çox səmimi söhbətlərim oldu və bunun nəticəsində biz dostluq, əməkdaşlıq haqqında, habelə digər məsələlər barədə bir neçə sənəd imzaladıq. Mən bunları Fransa ilə Azərbaycan arasındakı əlaqələrdə böyük bir mərhələ hesab edirəm.

Mən Fransa dövlətinin dəvəti ilə bu il mayın 8-də Parisdə oldum, faşizm üzərində qələbənin 50 illiyi ilə əlaqədar keçirilən bayram mərasimlərində iştirak etdim, Fransa dövlətinin başçıları ilə bir daha görüşdüm, söhbətlər apardım, bu ölkənin əldə etdiyi nailiyyətlərin şahidi oldum.

Fransa dövləti, hökuməti, cəmiyyəti həqiqətən demokratiyanın böyük nümunəsidir. Biz bunu bilirik və Fransada olarkən bunun dəfələrlə şahidi olmuşuq. Mən bu il mayın 7-də axşam Parisə gəldim. Fransada seçkilər təzəcə başa çatmışdı və Jak Şirak yeni prezident seçilmişdi. Biz həmin axşam fransız xalqının və yeni prezident seçilmiş Jak Şirakın tərəfdarlarının bu bayramı necə böyük təntənə ilə qeyd etdiklərinin şahidi olduq və gördük ki, orada həqiqətən insanlar azaddır, demokratiya şəraitində yaşayırlar, Fransa doğrudan da azad bir ölkədir.

Təsadüf elə gətirdi ki, mən Fransada 14 il prezidentlik etmiş, dünya miqyasında çox hörmətli siyasi xadim cənab Fransua Mitteranla söhbət etdim, həm də Fransanın yeni seçilmiş prezidenti cənab Jak Şirakla görüşmək imkanı qazandım və onu prezident seçilməsi münasibətilə təbrik etdim.

Fransızların adət-ənənələri, o cümlədən dövlət quruculuğu sahəsindəki ənənələri çox yüksək qiymətə layiqdir. Mən [105-106] Fransada insana nə qədər böyük hörmət olduğunu gördüm: ölkəyə 14 il prezidentlik etmiş Fransua Mitteran və yeni prezident seçilən Jak Şirak bir yerdə idilər, bayram mərasimini bir yerdə keçirirdilər. Fransız xalqı həm cənab Fransua Mitteranı, həm də cənab Jak Şirakı ürəkdən təbrik edirdi, onlara hörmət və ehtiramını bildirirdi. Bunlar doğrudan da demokratiyanın ən parlaq təzahürüdür. Bunlar bizim üçün örnək olmalıdır. Biz bunları görüb öz ölkəmizdə tətbiq etməliyik. Azərbaycanda dövlət quruculuğunda,

cəmiyyətin formalaşmasında, demokratik prinsiplərin yaranmasında, inkişaf etməsində Fransa inqilabının, fransız xalqının keçdiyi yolun və Fransa cəmiyyətinin bugünkü təcrübəsindən səmərəli istifadə etməliyik.

Mən məmnuniyyət hissi ilə qeyd edirəm ki, Fransa dövlətinin başçıları ölkəmizin ən ağır problemi olan Ermənistan-Azərbaycan münaqişəsinin aradan qaldırılması üçün səylər göstərir və cənab səfirin bu gün bir daha bəyan etdiyi kimi bu məsələnin siyasi yolla, sülh yolu ilə həll olunması üçün öz tərəfindən ATƏT-in Minsk qrupunda lazımi fəaliyyət göstərirlər.

Bu bayram günündə ümidvar olduğumu bildirmək istəyirəm ki, Fransa dövləti, yeni prezident Jak Şirak və digər yüksək vəzifəli şəxslər bu barədə öz səylərini gələcəkdə də əsirgəməyəcəklər.

14 iyul tarixi, yaxşı bir gündür. 1789-cu ildə Fransa inqilabı olmuş və bu inqilab 206 ildir ki, öz gözəl bəhrələrini verir. 14 iyul doğrudan da xoşbəxt bir gündür. Ona görə də mən bu gün münasibətilə sizin hamınızı, Fransa xalqını, bütün fransızları və bura toplaşanları təbrik edirəm və sizin hamınıza cansağlığı arzulayıram, fransız xalqına gələcək işlərində uğurlar diləyirəm.

Sizi təbrik edirəm və fransız xalqının, dövlətinin, hökumətinin şərəfinə badə qaldırıram. Sağ olun. [106-107]

## AZƏRBAYCANDA RƏSMİ SƏFƏRDƏ OLAN RUSİYA FEDERAL MƏCLİSİ FEDERASİYA ŞURASININ SƏDRİ VLADİMİR ŞUMEYKONUN ŞƏRƏFİNƏ TƏŞKİL EDİLƏN QƏBULDA NİTQ

*"Gülüstan" Sarayı*
*14 iyul 1995-ci il*

Hörmətli cənab Şumeyko!
Hörmətli qonaqlar!
Hörmətli xanımlar və cənablar!

Rusiya Federasiya Şurasının sədri möhtərəm Vladimir Filippoviç Şumeyko başda olmaqla Rusiya Federasiyasının parlament nümayəndə heyəti ikinci gündür ki, Azərbaycandadır. Rusiya ilə Azərbaycan arasında dostcasına qarşılıqlı münasibətlər mühüm və sanballı amildir. Mən Rusiya Federasiyasının parlament nümayəndə heyətini Azərbaycanda ürəkdən salamlayıram, onların gəlişi və artıq görə bildiyimiz işlə əlaqədar dərindən məmnun olduğumu bildirirəm. Ümidvaram ki, bu səfər Rusiya ilə Azərbaycan arasında dostluq münasibətlərinin daha da möhkəmlənməsinə xidmət edəcəkdir.

Son illər, Azərbaycan dövlət müstəqilliyi əldə etdiyi vaxtdan bəri bu heyətin, Rusiya Federasiyasının Azərbaycana gələn yüksək səviyyədə ilk parlament nümayəndə heyəti olduğunu söyləsəm, məncə, yanılmaram. Hətta deyərdim ki, bu, ümumiyyətlə, belə yüksək səviyyədə ilk dövlət nümayəndə heyətidir. Biz bunu yüksək qiymətləndirir və hesab edirik ki, bu səfər Rusiya ilə Azərbaycan arasında dostluq münasibətlərində məhz mərhələdir. Bir daha ümidvar olduğumu bildirirəm ki, bu səfər, bu görüşlər, bu danışıqlar ölkələrimiz arasında, dövlətlərimiz və xalqlarımız arasında dostluğun və əməkdaşlığın daha da möhkəmlənməsinə xidmət edəcəkdir.

Rusiya zəngin çoxəsrlik tarixə malikdir. Rus xalqı, Rusiya dünya sivilizasiyasına görkəmli töhfə vermişlər. Odur ki, özünün çoxəsrlik tarixi ərzində Rusiya dövləti dünya birliyində layiqli yer tutmuşdur. Sovet İttifaqı parçalandıqdan sonra Rusiya öz dövlətçiliyini bərpa etmişdir. Rusiyada dövlətçiliyi daha da möhkəmlətmək, hüquqi demokratik dövlət qurmaq üçün, əha[107-108]linin həyat səviyyəsinin yüksəlməsinə və təbii olaraq, Rusiyanın dünyada iqtisadi cəhətdən inkişaf etmiş dövlətə çevrilməsinə yönəldilmiş azad bazar iqtisadiyyatını inkişaf etdirmək üçün əsaslı tədbirlər görülür.

Biz Rusiyada ictimai-siyasi həyatın demokratikləşdirilməsi, demokratik hüquqi dövlət qurulması sahəsində görülən bütün tədbir və işləri, azad bazar iqtisadiyyatının Rusiyada möhkəm bərqərar olması üçün edilən hər şeyi ürəkdən alqışlayır və dəstəkləyirik. Biz özümüz, müstəqil Azərbaycan Respublikası da bu yol ilə gedir və Rusiyada həyata keçirilən bütün tədbirlərə, bir tərəfdən, böyük təcrübə kimi baxır və bu təcrübədən faydalanırıq, digər tərəfdən isə, bu tədbirləri istər iqtisadiyyat sahəsində, istərsə də dövlətlərarası münasibətlərimizin digər bütün sahələrində gələcək inteqrasiya üçün imkan kimi qiymətləndiririk.

Azərbaycanı və Rusiyam zəngin tarixi olan dostluq telləri bağlayır. Bu tarix illərlə deyil, on illərlə, əsrlərlə hesablanır. Həmin dövr ərzində xalqlarımız arasında sıx qarşılıqlı münasibətlər, xalqlarımızın həyatının bütün sahələrində möhkəm dostluq əlaqələri yaranmışdır. Biz mədəniyyət, elm, təhsil sahəsində, sənayenin yaradılması, aqrar bölmədə quruculuq sahəsində, bütün sahələrdə Azərbaycana Rusiya vasitəsilə gətirilmiş nə varsa, hamısını yüksək qiymətləndiririk. Biz bunu xüsusilə qiymətləndiririk ki, xalqımız məhz Rusiyanın köməyi ilə, rus xalqının köməyi ilə dünya, Qərb sivilizasiyasına qovuşmuş və təhsil, elm və mədəniyyət sahəsində, zənnimcə, yüksək səviyyəyə qalxmışdır.

Birgə yaşadığımız bir çox onilliklər ərzində xalqlarımız arasında, təkrar edirəm, sıx dostluq münasibətləri yaranmışdır. Bu münasibətlər möhkəm əsasa malikdir və xalqımızın, respublikamızın əhalisinin böyük əksəriyyətinin qəlbinə, ürəyinə daxil olmuşdur. Biz bunu böyük sərvət, böyük nailiyyət hesab edirik. Odur ki, keçmişdə xalqlarımız arasında qarşılıqlı münasibətlərdə əldə edilmiş nə varsa, hamısını və qazanılmış bütün nailiyyətləri yüksək qiymətləndiririk. Biz bu dostluq münasibətlərini möhkəmlətməyi və inkişaf etdirməyi zəruri sayırıq. Təbiidir ki, indi yeni şəraitdə, həm müstəqil suveren Rusiya şəraitində, həm də müstəqil suveren Azərbaycan şəraitində.

Demək olar ki, bu illər ərzində də, – mən Azərbaycanın müstəqil dövlət olduğu vaxtdan bəri keçən dövrü nəzərdə tuturam, – qarşılıqlı münasibətlərimiz, bəlkə də, həmişə səlis, [108-109] həmişə rəvan olmamışdır. Görünür, buna səbəb keçmişdə buraxılmış bu və ya digər səhvlərdir. Buna baxmayaraq, xalqların bir-birinə, adamların bir-birinə münasibətləri dəyişməmişdir. Adamlar səmimi duyğularını itirməmiş, əlaqələri kəsməmiş və onilliklər ərzində münasibətlərimizi səciyyələndirmiş olan cəhətləri itirməmişlər. Buna görə də deyə bilərik ki, çətinliklərə baxmayaraq, o illər də dövlətlərarası münasibətlərimizin inkişafı ilə, iqtisadiyyat, elm, mədəniyyət, texnika sahəsində də münasibətlərimizin inkişafı ilə səciyyələnmişdir.

Bütün bunlar daha sıx münasibətlərə malik olmaq üçün yaxşı əsas, yaxşı zəmindir. Biz Azərbaycanda bunu istəyirik. Təkrar edirəm, Azərbaycan Rusiya ilə bir çox on illərdən, əsrlərdən bəri bağlıdır. Biz istəyirik ki, bu əlaqələr olsun, inkişaf etsin və möhkəmlənsin. Rusiya bizim üçün həm böyük şimal qonşudur, həm dost ölkədir, həm də Rusiya xalqı bizim üçün dost xalqdır.

Odur ki, bunu nəzərə alaraq, münasibətlərimiz – indi dostluq xarakteri daşıyan münasibətlərimiz daha da möhkəmlənməli və daha da inkişaf etdirilməlidir. Məmnunluqla demək olar ki, son illər az iş görülməmişdir, Moskvada Rusiya Federasiyasının prezidenti hörmətli cənab Boris Nikolayeviç Yeltsinlə, baş nazir hörmətli cənab Viktor Stepanoviç Çernomırdinlə, Rusiya parlamenti palatalarının sədrləri, o cümlədən Federasiya Şurasının sədri, bizim möhtərəm qonağımız cənab Vladimir Filippoviç Şumeyko ilə, Rusiyanın nazirləri, dövlət orqanlarının rəhbərləri ilə bir çox görüşlər keçirilmişdir. Biz minnətdarlıq hissi ilə qeyd edirik ki, Rusiya Federasiyasının nazirləri dövlət orqanlarının rəhbərləri son vaxtlar bizdə olmuşlar. İstər Azərbaycanda, istər Moskvada, istərsə də digər ölkələrdə görüşlər zamanı, xüsusən mənim Boris Nikolayeviç Yeltsinlə görüşlərim zamanı biz münasibətlərimizin daha da inkişaf tapması ilə bağlı məsələləri müzakirə etmək imkanına malik olmuşuq və belə bir yekdil rəyə gəlmişik ki, bu münasibətlər əvvəlki nəsillərin yaratdıqları nə varsa, bunların əsasında, indi nəyimiz varsa, bunların əsasında inkişaf etdirilməli və möhkəmləndirilməlidir. Biz buna çalışırıq. Biz bunu istəyirik.

Ona görə də biz Rusiya Federasiyasının parlament nümayəndə heyətini böyük dostluq və dərin məhəbbət hissi ilə qarşılayırıq. Biz belə hesab edirik ki, Azərbaycanda da, Rusiyada da başqa ölkələrdə də əlaqələr daha tez-tez, daha nəticəli olmalıdır. Biz buna çalışırıq və çalışacağıq, çünki Azərbaycan ilə [109-110] Rusiya arasındakı münasibətlər dostluq xarakteri daşıyır. Biz istəyirik ki, bu münasibətlər həmişə qardaşlıq münasibətləri olsun. Digər tərəfdən isə bu münasibətlərin bizdən ötrü, zənnimcə, Rusiyadan da ötrü strateji əhəmiyyəti var.

Ona görə də dünən axşam və bu gün Vladimir Filippoviç Şumeyko ilə, nümayəndə heyətinin başqa üzvləri ilə görüşlər zamanı – bu görüşlər isə həm mənimlə, həm parlamentdə, həm bizim parlamentin sədri Rəsul Quliyevlə, baş nazirlə, nazirlərlə olmuşdur və sabah da davam etdiriləcəkdir – müzakirə etdiyimiz məsələlər, zənnimcə, münasibətlərimizi uğurla inkişaf etdirməyə kömək göstərəcəkdir. Biz bir çox məsələdə razılığa gəlmişik. Ümidvaram ki, bu görüşlər, söhbətlər, danışıqlar əməli nəticələrini verəcəkdir.

Bir daha deyirəm, Azərbaycan rəhbərliyinin vahid rəyi belədir: bizə dost ölkə olan Rusiya ilə bu dostluq münasibətlərini dərinləşdirmək və inkişaf etdirmək lazımdır. Həm bu əsrdə, həm də ötən əsrdə bizi bir çox tellərlə bağlayan əlaqələrimiz yaxşı bünövrə, yaxşı bazadır və bundan istifadə etməyimizi tələb edir.

Məsələlər, problemlər çoxdur. Lakin bizdən ötrü ən mühüm problem müharibə vəziyyətindən çıxmaq, Ermənistan ilə Azərbaycan arasında yeddi ildən bəri davam edən münaqişəni dayandırmaq və əlbəttə, Ermənistan Respublikasının Azərbaycana qarşı təcavüzünün nəticələrini ləğv etməkdir. Bu təcavüz nəticəsində Ermənistan silahlı birləşmələri Azərbaycan ərazisinin 20 faizini işğal etmiş, həmin torpaqlardan Azərbaycanın bir milyon vətəndaşı qovulmuşdur və onlar indi çox ağır şəraitdə, qaçqın vəziyyətində yaşayırlar. Biz Ermənistanla tarixən qonşuyuq. Münasibətlərimizin tarixində münaqişələr olmuşdur. Lakin tarix Azərbaycan və Ermənistan arasındakı münasibətləri daha çox dostluq münasibətləri kimi səciyyələndirir. İndiki münaqişə Azərbaycan üçün ən ağır, ən dəhşətli münaqişə olmuş, Azərbaycan Respublikasına, Azərbaycan xalqına çox böyük zərər vurmuşdur. Biz çoxlu insan itirmişik, vətəndaşlarımızın on illərlə çətin şəraitdə, gərgin əmək hesabına qurub-yaratdıqlarının hamısı işğal olunmuş ərazilərdə dağıdılmış, talan edilmişdir.

Təbii ki, bütün bunlar bizdən ötrü böyük itkidir, Azərbaycan xalqının qəlbinə vurulan ağır yaradır. Bununla belə biz yaranmış vəziyyəti realistcəsinə qiymətləndirir və belə hesab edirik ki, münaqişəyə yalnız sülh yolu ilə son qoymaq olar. [110-111] Ona görə də biz ötən ilin mayında atəşkəs haqqında sazişi imzaladıq. On dörd aydır ki, atəşkəs rejimi davam edir. Biz dəfələrlə demişik və bu gün mən bir daha bəyan edirəm ki, Ermənistan ilə Azərbaycan arasında uzunmüddətli möhkəm sülhü təmin edən Böyük Sülh Sazişi imzalananadək biz bu öhdəliyə əməl edəcəyik. Sülh sazişi isə təbii ki, Azərbaycanın ərazi bütövlüyünü, sərhədlərinin toxunulmazlığını, müstəqil Azərbaycan Respublikasının suverenliyini təmin etməlidir. Başqa sözlə, Ermənistan silahlı birləşmələrinin işğal olunmuş bütün ərazilərdən çıxarılmasından, Azərbaycan vətəndaşlarının öz doğma yerlərinə qaytarılmasından, onların normal yaşayışı üçün şərait yaradılmasından və bir daha deyirəm, Azərbaycanın beynəlxalq miqyasda tanınmış sərhədlərinin toxunulmazlığının təmin edilməsindən söhbət gedir.

Biz sülhsevər ölkəyik, Azərbaycan xalqı sülhsevər xalqdır. Biz bütün xalqlarla, xüsusən həmsərhəd, qonşu olduğumuz, tarixən ənənəvi əlaqələr saxladığımız ölkələrlə, xalqlarla dostluq və qarşılıqlı anlaşma şəraitində yaşamaq istəyirik. Bununla yanaşı, hamı bilməlidir ki, biz heç kimə bir qarış da olsun torpağımızı güzəştə gedə bilmərik. Əgər dünya həqiqətən beynəlxalq hüquq normalarını tanıyırsa, əgər dünyada insan hüquqları real şəkildə qorunursa, onda heç kim Azərbaycanın bu gün düşdüyü vəziyyətlə razılaşmamalıdır. Bütün dünya birliyinin gözü qarşısında bir milyondan çox azərbaycanlının hüquqları tapdalanmış, insanlar həlak olmuş, biz böyük itkilər vermişik. Buradan bir qədər aralıda cəmi bir neçə il ərzində Şəhidlər xiyabanı yaranmışdır, orada dəfn olunanlar əsasən 20-25 yaşlı, yəni həyatdan nakam getmiş cavanlardır. Onlar Azərbaycanın ərazi bütövlüyü, Azərbaycanın suverenliyi uğrunda həlak olmuş, canlarından keçmişlər.

Lakin belə vəziyyət uzun sürə bilməz və xüsusən də həmişəlik davam edə bilməz. Ona görə də biz belə hesab edirik ki, Azərbaycanın həyatının müxtəlif mərhələlərində mühüm rol oynamış Rusiya bu gün də həmin münaqişənin aradan qaldırılmasına, regionumuzda sülhün bərqərar olunmasına öz töhfəsini verməlidir. Yeri gəlmişkən, deməliyəm ki, münaqişənin lap əvvəlindən Rusiya sülh yaratmaq vəzifəsini həyata keçirir. Lakin təəssüf ki, istər bu səylər, istərsə də beynəlxalq təşkilatların səyləri, digər ölkələrin səyləri hələ indiyədək öz nəticələrini verməmişdir. Zənnimcə, artıq on dörd ay davam edən barışıq imkan və əsas verir ki, həm beynəlxalq [111-112] təşkilatlar, xüsusən də məhz Ermənistan-Azərbaycan münaqişəsinin aradan qaldırılması üçün ATƏT-in tərkibində yaradılmış Minsk qrupunun həmsədrlərindən biri olan Rusiya bu məsələnin qəti həllinə mühüm töhfəsini verə biləcəkdir.

Bir şey aydındır, Azərbaycan qonşu Ermənistan Respublikası tərəfindən təcavüzə məruz qalmışdır. Bir şey aydındır, Azərbaycan Respublikasına böyük zərər vurulmuşdur, biz çox şey itirmişik. Lakin münaqişənin aradan qaldırılması və möhkəm, uzunsürən sülhün yaranması yəqin ki, zaman keçdikcə bugünkü yaraları sağalda bilər. Bu məsələdə də Rusiyanın rolu şübhəsiz ki, əvəzsizdir. Mən bu fikri bu gün hörmətli Vladimir Filippoviç Şumeyko ilə söhbətimdə demişəm. Məsələnin son dərəcə vacib olduğunu nəzərə alaraq, indi burada, Rusiyanın parlament nümayəndə heyətinin şərəfinə təşkil olunmuş qəbulda da bir daha təkrar edirəm.

Bir daha deyirəm, Rusiya ilə Azərbaycan arasında, rus xalqı ilə Azərbaycan xalqı arasında dostluğun zəngin tarixi var. Belə nailiyyətlərimizin olmasından biz sevinə bilərik. Biz ürəkdən arzulayırıq ki, əldə etdiklərimizə əsaslanaraq bu münasibətləri davam və inkişaf etdirək. İndi Azərbaycanda da böyük dəyişikliklər baş verir. Rusiyada olduğu kimi, bizdə də demokratik hüquqi dövlət qurulur. Biz bütün adamlar üçün azad cəmiyyət, siyasi plüralizm cəmiyyəti yaratmaq istəyirik. Elə bir cəmiyyət ki, orada hər bir adam özünü azad hiss edə, öz həyatı üçün və təbii ki, cəmiyyət, dövlət üçün bütün imkanlarını reallaşdıra bilsin.

Noyabrda müstəqil Azərbaycan dövlətində ilk parlament seçkiləri keçiriləcəkdir. Hörmətli qonaqlarımız, sizi əmin edirəm ki, bu seçkilərin demokratik prinsiplər əsasında, tam azad keçirilməsi üçün hər şey ediləcəkdir. Bu seçkilərdə bütün partiyalar və hər bir vətəndaş tam demokratik əsasda iştirak edə biləcəkdir. Bu il biz Azərbaycanın Konstitusiyasını, müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyasını qəbul edəcəyik. Bir sözlə, biz böyük dəyişikliklərə doğru gedirik, özü də inamla gedirik. Baxmayaraq ki, son üç ildə Azərbaycanda vəziyyətin sabitliyini pozmağa, konstitusiyaya zidd əməllər törətməyə, dövlət çevrilişi etməyə dəfələrlə cəhd göstərilmişdir.

Lakin biz bütün bunları aradan qaldıra bildik. Hələ 1993-cü ildə yaranmış vətəndaş müharibəsi təhlükəsini aradan qaldıra bildik. Konstitusiyaya, dövlətə zidd yol tutmuş ayrı-ayrı qrupların törətdikləri başqa çətinlikləri də aradan qaldıra [112-113] bildik. Bizim bu gün də çətinliklərimiz, iqtisadi çətinliklərimiz, bazar iqtisadiyyatına keçidlə bağlı çətinliklərimiz, Çeçenistandakı hadisələr nəticəsində Şimal sərhədimizin altı aydan artıq bağlanması ilə əlaqədar çətinliklərimiz, bir çox başqa çətinliklərimiz var. Lakin bütün bunlara baxmayaraq, biz demokratiya prinsiplərindən, şəxsiyyətin azadlığı prinsiplərindən geri çəkilməyəcəyik və Azərbaycanın bundan sonra da bu yolla inamla getməsi üçün hər şeyi edəcəyik. Təbii ki, biz bu sahədə Rusiyanın təcrübəsindən çox şey götürürük və gələcəkdə də bu istiqamətdə təcrübə mübadiləsinə ehtiyacımız var. Belə hesab edirik ki, Rusiya kimi böyük ölkədə toplanmış təcrübəni, bilikləri vermək üçün bizə məhz yardım və kömək çox lazımdır. Dövlətlərarası əlaqələrimizdə, Rusiya parlamenti ilə Azərbaycan parlamenti arasında yaxşı münasibətlər yaranmışdır. Bilirsiniz ki, ötən il Moskvada Rusiya parlamenti ilə Azərbaycan parlamenti arasında saziş imzalanmışdır. Rusiya parlamenti Federasiya Şurasının sədri başda olmaqla. belə yüksək səviyyədə məhz parlament nümayəndə heyətinin Azərbaycana səfəri də onu göstərir ki, dövlətlərarası münasibətlərimizin inkişaf etdirilməsi, xalqlarımız arasında dostluq və qardaşlığın möhkəmləndirilməsi üçün parlamentlər daha mühüm rol oynayırlar və oynaya bilərlər.

Bir daha bildirmək istəyirəm ki, biz Rusiyada görülən bütün işlərə dərin hörmətlə yanaşırıq. Orada çətin problemlər həll olunur, lakin biz hesab edirik ki, bunlar uğurla həll edilir. Ümidvarıq ki, bu problemlər həll ediləcək və Rusiya həqiqətən yeni Rusiyaya, demokratik Rusiyaya, bütün ölkələrə, xüsusən bir çox onilliklər ərzində onunla dostluq və yaxın münasibətlər şəraitində yaşayan xalqlara xeyirxahlıqla yanaşan Rusiyaya çevriləcəkdir. Rusiya sülhsevər ölkə olmuşdur və belə hesab edirəm ki, həmişə sülhsevər olacaq, bu sülhsevərliyi ilə yaxın qonşuluq münasibətləri olan bütün başqa xalqlara, o cümlədən Azərbaycana və Azərbaycan xalqına kömək və yardım göstərəcəkdir.

Rus xalqına, Rusiya dövlətinə bir daha hörmət və ehtiramımı [113-114] bildirir və Rusiyanın, azad demokratik Rusiyanın, rus xalqının, Rusiya dövlətinin, Rusiya Federasiyasının prezidenti, bizim böyük dostumuz hörmətli Boris Nikolayeviç Yeltsinin, indi bizim aramızda olan Rusiya Federasiyası parlament nümayəndə heyətinin, Rusiya Federal Məclisi Federasiya Şurasının sədri, böyük dostumuz, Rusiyanın qarşısında duran nəhəng vəzifələrin həyata keçirilməsi üçün çox iş görən, Rusiya ilə Azərbaycan arasında dostluq münasibətlərinin möhkəmləndirilməsi üçün çox iş görən insanın, hörmətli Vladimir Filippoviç Şumeykonun şərəfinə badə qaldırıram. Sizin sağlığınıza! [114-115]

## RUSİYA FEDERAL MƏCLİSİ FEDERASİYA ŞURASININ SƏDRİ VLADİMİR ŞUMEYKONUN BAKININ NƏRİMANOV RAYONUNDA MƏSKUNLAŞMIŞ QAÇQINLARLA GÖRÜŞÜNDƏ ÇIXIŞ

*15 iyul 1995-ci il*

Hörmətli bacılar, qardaşlar!
Hörmətli həmvətənlər!

Hamınızı ürəkdən salamlayıram. Mən sizin simanızda bütün Azərbaycan, öz elindən, obasından, yerindən-yurdundan didərgin düşmüş vətəndaşlarımızı salamlayıram və sizi əmin etmək istəyirəm ki, respublikamızın Ermənistan tərəfindən işğal olunmuş ərazilərinin azad olunması üçün, Ermənistan silahlı qüvvələrinin torpaqlarımızı tərk etməsi, ərazilərimizdən çıxarılması, qaçqınlarımızın öz yerinə, yurduna qayıtması üçün əlimizdən gələni edirik və edəcəyik. Buna əmin ola bilərsiniz.

Mən bilirəm ki, siz ağır vəziyyətdəsiniz. Burada sizin vəziyyətiniz o çadırlarda yaşayanların şəraitindən bəlkə də üstündür. Necə də olsa, siz Bakıdasınız, buranın şəraitindəsiniz. Mən çadırlarda olmuşam. Həmin çadırlarda qışda şaxta, yayda isə bundan da isti hava insanları sıxır, onlar xəstələnirlər, həyatdan gedirlər. Bu, bizim xalqımızın faciəsidir. Xalqımız bu faciəyə yeddi il öncə düçar olub və ayrı-ayrı siyasətbazların günahı nəticəsində, dünyada haqq-ədalətin pozulması nəticəsində Azərbaycan xalqının başına bu işlər gəlibdir. Ancaq bilin, Allah heç vaxt imkan verməyəcəkdir ki, bu ədalətsizlik davam etsin. Biz öz xalqımızın qüdrətinə, cəsarətinə inanırıq. Biz ədalətə, insan hüquqlarının və beynəlxalq normaların qorunmasına inanırıq. Güman edirəm ki, o gün gələcək və o vaxt çox uzaq deyil. Biz haqq-ədalət yolu ilə öz torpaqlarımıza qayıdacağıq və hər biriniz doğma yurdunuzda yaşayacaqsınız.

Mən buna tam əminəm. Ona görə də sizdən tam dözümlülük diləyirəm. Mən bilirəm ki, siz dözümlüsünüz. Burada 1992-ci ilin mayında Laçından qaçmış qaçqınlar var. Onlar artıq üç ildir ki, qaçqın vəziyyətindədir. Şuşadan, Dağlıq Qarabağdan qaçqın düşmüş adamlar üç ildən artıqdır ki, bu şəraitdə yaşayırlar. Kəlbəcərdən, Zəngilandan, Qubadlıdan, Füzulidən, [115-116] Cəbrayıldan, Ağdamdan olan qaçqınların vəziyyətini mən şəxsən bilirəm. Biz bunu bilirik. Siz bilin ki, işimizin tam əksəriyyəti yalnız və yalnız bir məsələyə – müharibəyə son qoymağa, sülh yolu ilə və bütün başqa yollardan istifadə etməklə torpaqlarımızı azad etməyə və qaçqınlarımızı yerlərinə qaytarmağa, ölkəmizdə, cəmiyyətimizdə, müstəqil Azərbaycan dövlətində əmin-amanlıq yaratmağa həsr olunubdur.

Hər birinizin vəziyyəti mənim qəlbimi incidir, sıxır. Mən sizinləyəm. Hesab edin ki, o çadırlarda olan qaçqınlarla da bir yerdə yaşayıram. Bu ağır vəziyyətdə yaşayan hər birinizlə mən bir yerdəyəm. Xalqımız da sizinlə birlikdədir. Ona görə də qəhrəmanlığınıza, şücaətinizə, dözümlülüyünüzə görə sizə təşəkkür edirəm. Bilin ki, sizin bu ağır günlərinizi tarix heç vaxt unutmayacaq və bu çətin günləriniz uzun çəkməyəcək, siz öz yerinizə, yurdunuza, vətəninizə qayıdacaqsınız.

Bu gün Rusiya parlamentinin sədri cənab Şumeyko sizinlə görüşə gəlibdir. Bundan qabaq biz başqa yerdə də olmuşuq. Sizin vəziyyətinizi o da öz gözləri ilə görür. Bütün dünyadan buraya gələn ayrı-ayrı nümayəndələr də görürlər ki, XX əsrin sonunda insanlar belə ağır vəziyyətdə yaşaya bilməzlər.

Cənab Şumeyko da görür və güman edirəm ki, özü üçün nəticə çıxarır ki, bu qədər haqsızlığa, bu qədər ədalətsizliyə, insanların hüquqlarının bu qədər tapdalanmasına yol vermək olmaz.

Cənab Şumeyko dedi ki, biz Müstəqil Dövlətlər Birliyindəyik. Azərbaycanın Müstəqil Dövlətlər Birliyinə daxil olmasına mən təşəbbüs göstərmişəm. Ancaq biz Müstəqil Dövlətlər Birliyinə ona görə girmişik ki, hər bir dövlət bu birlikdən istifadə edib öz istəyinə nail olsun. Yəni öz arzularını yerinə yetirə bilsin. Bizim Azərbaycanın ən böyük arzusu odur ki, Ermənistanın respublikamıza qarşı təcavüzünə son qoyulsun. Ermənistan silahlı qüvvələri işğal etdikləri torpaqlarımızdan geri çəkilsinlər. Biz buna görə MDB-yə girmişik. Əgər biz Müstəqil Dövlətlər Birliyində Ermənistanla bir yerdə olacağıqsa və bu birlik Azərbaycanın bu vəziyyətinə yardım etməyəcəksə, onda bu birlik nəyə lazımdır ? Cənab Şumeyko bunların hamısını öz gözləri ilə görür. Mən dünən və srağagün onunla ətraflı söhbətlər etmişəm. O, bu məsələlərin hamısına tamamilə düzgün siyasi qiymət verir. Mənimlə danışıqlarında və sizin qarşınızdakı çıxışında da dedi ki, belə vəziyyətə dözmək olmaz. [116-117]

Biz dəfələrlə demişik ki, – siz də burada dediniz – Azərbaycan xalqı rus xalqına dost və qardaş ölkə kimi, xalq kimi baxır. Azərbaycan xalqı on illərlə, yüz illərlə rus xalqı ilə dostluq edibdir. Bu dostluq və qardaşlıq hissləri bu gün də davam edir. Bu, azərbaycanlıların qəlbindədir. Bunu heç vaxt silmək olmaz. Eyni zamanda dost dosta gərək kömək əlini uzatsın. Biz hamımız rus xalqından, Rusiyadan umuruq ki, onlar bizə kömək etsinlər. Güman edirəm ki, sizin səsləriniz Moskvada eşidiləcək, cənab Şumeykonun qəlbində öz izini

salacaq, onun bu barədə fikirlərinin daha da formalaşmasına kömək edəcək və əminəm ki, Azərbaycan xalqının bu ağır vəziyyətdən çıxmasına yardım edəcəkdir.

Hamı bilir ki, biz sülhsevər xalqıq. Biz istəyirik ki, məsələlərimiz sülh yolu ilə həll olunsun. Daha qan tökülməsini istəmirik. Biz bunu istəmirik. Ona görə də biz sülh yolu ilə gedirik və dünya ictimaiyyətinə, Rusiyaya, rus xalqına, dünyanın bütün böyük dövlətlərinə müraciət edirik. Ancaq bu müraciətlər nəticə verməsə, qoy dünyada heç kəs deməsin ki, biz aciz xalqıq. Biz aciz xalq deyilik. Nəyin bahasına olursa-olsun, öz torpaqlarımızı geri qaytaracağıq. Son damla qanımızadək mübarizə aparıb, bir qarış torpağımızı da yadlara verməyəcəyik. Bunu bilin. Axıradək bilin. Bütün qaçqınlar, bütün xalqımız da bilsin ki, Azərbaycan xalqının iradəsi də var, Azərbaycan xalqının cəsarəti də var, Azərbaycan xalqı öz torpağını güc yolu ilə də qaytara bilər. Ancaq biz bu yolla getmirik. Biz sülhsevərik. İstəyirik ki, xalqımızın sülhsevərliyini dünya ictimaiyyəti də dərk etsin. Rusiyada da dərk etsinlər, Rusiyanın dövlət başçıları da dərk etsinlər.

Bunu bilin və mən əminəm ki, bizim hörmətli qonağımız cənab Şumeykonun buraya bugünkü səfəri, sizinlə görüşü bu məsələlərin həll olunması üçün şübhəsiz ki, yeni şərait yaradacaqdır. Mən burada sizin cənab Şumeykoya verdiyiniz müraciətlə tamamilə həmfikirəm. Güman edirəm ki, sizin müraciətiniz [117-118] Rusiyanın prezidenti cənab Yeltsinə çatdırılacaq, lazımi qaydada diqqətlə baxılacaq və Azərbaycana kömək ediləcəkdir.

Sizin hər birinizə mən bir daha hörmət və ehtiramımı, sevgi-məhəbbətimi bildirirəm. Sizin hər birinizlə mən daim bir yerdəyəm, hamınıza cansağlığı arzulayıram və əmin edirəm ki, biz torpaqlarımızı azad edəcəyik. Müstəqil Azərbaycan Respublikası yaşayacaq, öz ərazi bütövlüyünü təmin edəcək, sərhədlərini bərpa edəcək və gələcəyimiz xoşbəxtdir. Sağ olun! [118-119]

## RUSİYA FEDERAL MƏCLİSİ FEDERASİYA ŞURASININ SƏDRİ VLADİMİR ŞUMEYKONUN ADINDAN AZƏRBAYCAN RƏHBƏRLİYİNİN ŞƏRƏFİNƏ TƏŞKİL EDİLƏN QƏBULDA NİTQ

*"Gülüstan" sarayı*
*15 iyul 1995-ci il*

Hörmətli Vladimir Filippoviç!
Hörmətli qonaqlar, xanımlar və cənablar!

Biz Rusiya Federasiyasının parlament nümayəndə heyətini dostluq hissləri ilə qarşıladıq. Bu qısa vaxt ərzində, zənnimcə, səmərəli iş gördük. Elə bir iş ki, Rusiya ilə Azərbaycan arasında dostluq münasibətlərinin gələcək inkişafında öz rolunu oynayacaqdır. Bu gün qonaqlarımızı daha böyük dostluq və hörmət hissləri ilə yola salırıq.

Biz şadıq ki, belə yüksək nümayəndə heyəti gəlmişdir. Şadıq ki, Rusiya Federasiya Şurasının sədri hörmətli Vladimir Filippoviç Şumeyko bu qısa vaxt ərzində bugünkü real həyatımızın bəzi cəhətləri ilə şəxsən tanış ola bilmişdir. Biz şadıq ki, onların burada gördükləri, çox ətraflı söhbətlərimiz zamanı haqqında danışdığımız məsələlər dostlarımızın, Vladimir Filippoviçin və nümayəndə heyətinin başqa üzvlərinin Azərbaycan haqqındakı, onun real vəziyyəti, xüsusən Azərbaycanın artıq yeddi il ərzində məruz qaldığı təcavüzün ağır nəticələri haqqındakı təsəvvürlərini genişləndirir.

Nümayəndə heyəti bu gün yola düşür. Ümidvaram ki, belə yüksək səviyyəli ilk səfər gələcəkdə daha tez-tez görüşməyimizin başlanğıcı olacaqdır. Yeri gəlmişkən deyim ki, biz bu barədə Vladimir Filippoviçlə şərtləşmişik. Yəqin ki, o yenə gələcək, [119-120] Rusiyanın digər dövlət xadimləri də respublikamıza səfər edəcəklər. Biz açığıq, Azərbaycan xalqının ürəyi genişdir. Biz bütün dünyaya açığıq, bizə dost olan ölkəyə – Rusiyaya açığıq. Biz dostluq, sülh istəyirik, ədalət istəyirik, səmimidostluq münasibətləri istəyirik. Elə bu hisslərlə də Vladimir Filippoviçə, nümayəndə heyətinin bütün üzvlərinə müraciət edirəm. Bu hisslərlə də deyirik: Sizə yaxşı yol, rus xalqına, Rusiyaya çoxlu salamlar, sizin ölkənizdəki çoxsaylı dostlarımıza çoxlu salamlar yollayırıq. Təşəkkür edirəm. [120-121]

# MİSİR İNQİLABININ 43-cü İLDÖNÜMÜ MÜNASİBƏTİLƏ MİSİR ƏRƏB RESPUBLİKASININ AZƏRBAYCANDAKI SƏFİRLİYİNİN TƏŞKİL ETDİYİ RƏSMİ QƏBULDA ÇIXIŞ

*"Hyatt Recensi – Naxçıvan" oteli*

*21 iyul 1995-ci il*

Hörmətli cənab səfir!
Hörmətli xanımlar, cənablar!

Misir inqilabının 43-cü ildönümü münasibətilə mən sizin hamınızı təbrik edirəm və Azərbaycan Respublikası, dövləti, xalqı adından Misir xalqına hörmət və ehtiramımızı bildirirəm.

43 il bundan əvvəl qədim Misir torpağında baş vermiş inqilab Misir ərəb xalqının min illərlə ölçülən tarixində böyük və əlamətdar bir hadisədir. Misir torpağında məhz bu inqilabdan sonra böyük demokratik dəyişikliklər meydana gəlmiş, Misir ərəb xalqı mühüm nailiyyətlər əldə etmişdir. 43 il ərzində Misir Ərəb Respublikasında gedən proseslər dünya ictimaiyyəti tərəfindən çox diqqətlə izlənilmiş və böyük hörmətlə qarşılanmışdır.

Hörmətli cənab səfir xatırlatdı, 1952-ci ildə Misir inqilabı baş verən zaman və ondan sonrakı illərdə bu ölkədə gedən siyasi proseslər dünya ictimaiyyətinin diqqət mərkəzində idi. O cümlədən bu gün mən o dövrü xatirəmə salaraq demək istəyirəm ki, bu inqilab, orada gedən proseslər Azərbaycan Respublikasının ictimaiyyətində də çox böyük maraq və hüsn-rəğbət hissi doğurmuşdur.

Misir ərəb xalqı ilə Azərbaycan xalqının tarixi əlaqələrinin çox zəngin ənənələri var. Ona görə də Azərbaycanda Misir Ərəb Respublikasına daim çox böyük maraq olmuşdur. İnqilabdan sonra, xüsusilə 50-ci, 60-cı, 70-ci illərdə Azərbaycan ilə Misir Ərəb Respublikası arasında həm iqtisadi, həm də mədəni əlaqələr geniş olmuş, ölkəmizin bir çox nümayəndələri Misir Ərəb Respublikasında müxtəlif sahələrdə fəaliyyət göstərmişlər. Bunlar hamısı ölkələrimizi, xalqlarımızı bir-birinə daha da yaxınlaşdırmışdır. Misir Ərəb Respublikasının ilk prezidenti [121-122] mərhum Camal Əbdül Nasirin respublikamıza ziyarəti və Azərbaycan xalqının ona və onun simasında Misir ərəb xalqına böyük hörmət və ehtiram nümayiş etdirməsi şəxsən mənim xatirimdədir.

Azərbaycan Respublikası müstəqillik əldə edəndən sonra Misir Ərəb Respublikası ilə ölkəmiz arasında əlaqələr yüksək səviyyəyə qalxmışdır. Çox məmnuniyyət hissi ilə qeyd edirəm ki, artıq ölkəmizdə Misir Ərəb Respublikasının, eləcə də Misir Ərəb Respublikasında müstəqil Azərbaycanın səfirlikləri fəaliyyət göstərir.

Ermənistanın Azərbaycan Respublikasına hərbi təcavüzü ilə əlaqədar baş vermiş hadisələrin BMT-də, İslam Konfransı Təşkilatında və digər beynəlxalq təşkilatlarda müzakirəsində Misir Ərəb Respublikası daim ədalətli, çox prinsipial mövqe tutmuş, Azərbaycanın ərazi bütövlüyünü, ölkəmizin ədalətli mövqeyini müdafiə etmişdir. Ona görə də biz Misir Ərəb Respublikasına və onun dövlət başçılarına hörmət və ehtiramımızı, minnətdarlığımızı həmişə bildirmişik və bu gün də bildiririk.

Bu məsələlər keçən il mənim Qahirəyə səfərim və ondan sonra Mərakeşdə, Kasablankada İslam Konfransı Təşkilatının toplantısı zamanı Misir Ərəb Respublikasının prezidenti, hörmətli dostumuz cənab Hüsni Mübarəklə keçirdiyimiz görüşlərdə ətraflı müzakirə olundu və çox yaxşı nəticələr verdi. Kasablankada İslam Konfransı Təşkilatının toplantısında Azərbaycanın vəziyyəti haqqında, Ermənistanın Azərbaycana hərbi təcavüzü ilə əlaqədar xüsusi qərar qəbul edildi. Həmin təşkilatın üzvü olan digər ölkələrlə yanaşı, Misir Ərəb Respublikasının prezidenti Hüsni Mübarək və bu dövlətin nümayəndə heyəti də prinsipial mövqedən çıxış edərək həmin qərarın qəbul olunmasına səs verdilər.

Bu bayram günü qeyd etmək istəyirəm ki, son illər Misir Ərəb Respublikası ilə Azərbaycan Respublikası arasında bütün sahələrdə əlaqələr çox müvəffəqiyyətlə inkişaf edir və ümidvar olduğumu bildirirəm ki, həmin əlaqələr hər iki tərəfin istəyi ilə bundan sonra daha da sürətlə inkişaf edəcəkdir. [122-123]

Biz Misir Ərəb Respublikasını, xalqını Azərbaycan dövləti, xalqı üçün dost, qardaş ölkə hesab edirik və bu dostluq, qardaşlıq əlaqələrini bundan sonra da davam etdirəcəyik. Misir inqilabının 43-cü ildönümü münasibəti ilə mən sizin hamınızı bir daha təbrik edirəm. Misir xalqına səadət, xoşbəxtlik arzu edirəm və Misir ölkəsinə, dövlətinə qarşıda duran vəzifələrin, problemlərin hamısının uğurla həll edilməsi üçün müvəffəqiyyətlər arzulayıram. Təbrik edirəm. [123-124]

## 22 İYUL – MİLLİ MƏTBUAT GÜNÜ MÜNASİBƏTİLƏ TƏBRİK

Əsası 120 il bundan öncə böyük alim, pedaqoq, jurnalist, ictimai xadim Həsən bəy Zərdabinin "Əkinçi" qəzeti ilə qoyulmuş, milli mətbuatımız Azərbaycan xalqının mənəvi mədəniyyəti tarixinə şərəfli səhifələr yazmış, milli mənliyimizin formalaşmasında, mənəvi dəyərlərin qorunub saxlanmasında misilsiz rol oynamışdır.

Milli mətbuatımızın inkişaf mərhələləri Azərbaycan xalqının azadlıq, müstəqillik uğrunda mübarizə tarixinin tərkib hissəsidir. "Əkinçi"dən üzü bəri azadlıq, demokratiya, müstəqillik uğrunda mücadilə dərslərini biz milli mətbuatımızın səhifələrindən öyrənmişik.

Özünün azad, müstəqil, demokratik dövlətini qurmuş Azərbaycan xalqı bu yolda olmazın məşəqqətlərlə üzləşmiş və üzləşməkdədir. Daxili və xarici düşmənlərin hördüyü hiylə torları, hətta dövlət çevrilişləri həddinə gəlib çıxmış məkrli niyyətlər xalqımızın və dövlətimizin iradəsini dönə-dönə sınağa çəkmişdir. Bu problemlərin həll edilməsində, baş verən hadisələrə obyektiv qiymət verilməsində mətbuat və söz azadlığı şəraitində fəaliyyət göstərən, demokratik dəyərlərlə bəhrələnən Azərbaycan jurnalistlərinin böyük xidməti vardır.

Jurnalistləri, nəşriyyat-poliqrafiya işçilərini, ümumiyyətlə, bu sahədə çalışanların hamısını Milli Mətbuat Günü münasibətilə təbrik edir, Vətənimizin daha işıqlı gələcəyi, sülh, azadlıq ideallarının, demokratik prinsiplərin bərqərar edilməsi naminə uğurlar arzulayıram.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*21 iyul 1995-ci il* [124-125]

## AZƏRBAYCAN RESPUBLİKASININ YENİ KONSTİTUSİYA LAYİHƏSİNİ HAZIRLAYAN KOMİSSİYANIN İCLASINDA ÇIXIŞ

*Prezident Sarayı*

*26 iyul 1995-ci il*

İyulun 5-də biz yeni Konstitusiya layihəsini hazırlayan komissiyanın iclasını keçirdik, yeni Konstitusiyanın layihəsinin hazırlanmasına, o cümlədən yeni parlamentə seçkilər keçirilməsi ilə əlaqədar qanun layihəsinin hazırlanmasına dair qərar qəbul etdik. O vaxt bu işləri görmək üçün Konstitusiya komissiyasının qərarı ilə işçi qrupu yaradıldı. İşçi qrupu həm Konstitusiya layihəsini, həm də parlament seçkiləri keçirmək üçün seçki qanunu layihəsini hazırlamaqla məşğuldur. Bu qrup indiyədək işləyib. Onların bir neçə dəfə görüşləri olub, qrupun üzvləri öz təkliflərini veriblər, mülahizələrini söyləyiblər. Keçən həftənin altıncı günü mən işçi qrupu ilə görüşdüm və seçki qanununun layihəsi barədə onlarla söhbət apardım, yəni onların gördükləri işlər haqqında müəyyən məlumat aldım.

Qeyd etdiyim kimi, komissiya həm Konstitusiyanın, həm də seçki qanununun layihələrini hazırlamalıdır. Seçki günü artıq noyabrın 12-nə təyin olunub. Vaxta çox az qalıb. Ona görə də belə hesab etdik ki, ilk növbədə seçki qanunu layihəsinə baxaq, onu tezliklə qəbul edib, seçkilərə hazırlıq işləri ilə məşğul olaq. Bundan sonra qısa vaxtda Konstitusiya layihəsinə baxıb onu da müzakirə edək. Buna görə də altıncı gün mən işçi qrupu ilə görüşərkən yalnız seçki qanununun layihəsi ilə maraqlandım. Bizim təxminən 5 saatdan artıq söhbətimiz oldu. İşçi qrupu üzvlərinin, demək olar ki, hamısı çıxış etdi, hərə öz fikrini dedi. Mən hər kəsin öz fikrini deməsi üçün imkan yaranmasına çalışdım. Güman edirəm ki, həmin iclasda belə bir şərait yarandı və qrupun üzvləri sərbəst olaraq öz fikirlərini dedilər.

Qrupun iclasında bir neçə məsələ haqqında – müstəqil Azərbaycan Respublikasının ilk parlamentinin birpalatalı, yaxud ikipalatalı olması barədə fikir müxtəlifliyi meydana çıxdı. Sonra bu seçkilərin hansı qayda ilə – majoritar sistem, proporsional [125-126] sistem, yaxud qarışıq sistem üzrə keçirilməsi barədə və digər məsələlər, o cümlədən parlament üzvlərinin sayı haqqında da müxtəlif fikirlər söylənildi.

İşçi qrupunun iclasında biz belə qərara gəldik ki, bu fikir mübadiləsi ilə əlaqədar olaraq layihələrin üzərində bir də iş aparılsın və biz onu Konstitusiya komissiyasında müzakirə edək. Bilirsiniz ki, əvvəldən də bir neçə layihə var idi. Birpalatalı parlamentin yalnız majoritar sistem üzrə seçilməsi, birpalatalı parlamentin qarışıq, yəni majoritar və proporsional sistem üzrə seçilməsi, ikipalatalı parlamentin yuxarı palatasının majoritar, aşağı palatasının qarışıq – majoritar və proporsional sistem üzrə seçilməsi, birpalatalı parlamentə yalnız proporsional sistem əsasında seçkilər keçirilməsi haqqında layihələr vardır.

İşçi qrupunda apardığımız müzakirələr nəticəsində mən Konstitusiya komissiyasının müzakirəsinə bu gün iki layihə təqdim etmişəm. Layihələrdən birincisi birpalatalı parlamentin qarışıq – majoritar və proporsional, ikincisi ikipalatalı parlamentin yuxarı palatasının majoritar, aşağı palatasının qarışıq – majoritar və proporsional sistem üzrə seçilməsindən bəhs edir.

İki layihəni isə mən Konstitusiya komissiyasına təqdim etmirəm, çünki aparılan müzakirələrdə biz belə fikrə gəldik ki, təqdim olunan layihələr respublikamızda parlament seçkilərini demokratik şəraitdə keçirmək üçün daha əsaslı, daha əlverişlidir. Birpalatalı parlamentin yalnız majoritar sistem əsasında keçirilməsi barədə layihəyə şübhəsiz ki, etiraz etmək mümkün deyil. Çünki dünyanın ən demokratik dövlətlərinin çoxunda, dünya təcrübəsində ən demokratik seçki sistemi majoritar sistem hesab olunur. Doğrudur, bəzi ölkələrdə parlamentə seçkilər proporsional sistem, bəzilərində isə qarışıq sistem üzrə keçirilir.

Məsələn, demokratiyanın ən geniş inkişaf etdiyi Qərb ölkələrində, o cümlədən bütün sahələrdə təcrübəsinə istinad etdiyimiz ABŞ-da seçkilər ancaq majoritar sistem əsasında keçirilir. Fransada da belədir.

Bu məsələ ilə əlaqədar biz respublikadan kənarda olan mütəxəssisləri də bu işə cəlb etmişdik. Mən onların bəziləri ilə söhbət aparmışam. Onlar məsləhət görürlər ki, respublikamızın şəraitini – keçid dövrünü, müharibəni, ərazimizin 20 faizindən çoxunun Ermənistan silahlı qüvvələrinin işğalı altında olmasını, ölkəmizdə bir milyondan artıq qaçqının olmasını nəzərə [126-127] alaraq yalnız majoritar sistem tətbiq edilsin. Bizə belə təkliflər, tövsiyələr çox verilib. Fikirləşdik, müzakirə etdik, işçi qrupunun iclasında da belə qərara gəldik ki, bu fikirlərin hamısı doğrudur, majoritar sistem həqiqətən demokratik bir seçki sistemidir, respublikamızın indiki dövrü üçün çox uyğundur. Lakin Azərbaycanda bir çox partiyalar olduğuna, onlar seçkilərdə iştirak etməyə böyük həvəs göstərdiklərinə görə və respublikamızda parlament seçkilərində bir yenilik yaratmaq üçün biz belə fikrə gəldik ki, seçkilər qarışıq sistem əsasında keçirilsin. Ona görə də həm tam majoritar sistem əsasında, həm də tam proporsional sistem üzərində qurulmuş layihələri sizin müzakirənizə çıxarmışam.

Mən tam proporsional sistem üzrə hazırlanmış layihə haqqında da öz fikrimi deyə bilərəm. Bilirsiniz ki, bu seçkilər barədə müzakirələrimiz, söhbətlərimiz başlanandan indiyədək bir prezident kimi mən hələ heç bir sistem haqqında öz fikrimi deməmişəm ki, hansı sistem, hansı parlament quruluşu bizim üçün uyğundur. İşçi qrupunda apardığımız beş saatlıq müzakirədə də bunu demədim. Yəqin məlumdur, – mən istəmirəm ki, öz sözümlə kiməsə təsir edim, istəyirəm tam sərbəstlik olsun. Amma bir halda ki, indi mən sizin müzakirənizə iki layihə çıxarıram, müzakirəyə çıxarmadığım layihələr barədə öz fikrimi deyirəm.

Birpalatalı tam majoritar sistem barədə fikrimi dedim və bir də təkrar edirəm ki, bu, doğrudan da demokratik, bizim üçün ən uyğun bir sistemdir. Ancaq respublikamızda çoxlu siyasi partiyalar mövcud olduğuna və onlar seçkidə fəal iştirak etmək haqqında bəyanatlar verdiklərinə görə, həmin bəyanatları nəzərə alaraq mən tam majoritar sistemi bu gün müzakirəyə çıxarmıram. Əgər komissiya üzvləri təkid etsələr, həmin layihəni də müzakirə etmək olar. Tam proporsional sistem üzrə layihəni də müzakirəyə ona görə çıxarmıram ki, – bu barədə fikrimi indiyədək deməmişəm, lakin indi demək istəyirəm – bu layihə respublikamız üçün heç də uyğun deyildir.

Azərbaycanda siyasi partiyalar təzə yaranıb. Cəmiyyətimizdə partiyalaşma prosesi ilkin dövrünü yaşayır. Partiyaların əksəriyyəti kiçikdir. Özlərini çox böyük partiyalar hesab edən partiyalar da hələ respublikamızın əhalisinin bütün təbəqələrini və bütün bölgələrini təmsil etmirlər. Mərkəzi seçki komissiyasının sədri Cəfər Vəliyev işçi qrupunun iclasında belə məlumat verdi ki, respublikadakı bütün partiyaların hamısının[127-128]bir yerdə üzvlərinin sayı cəmi 450 minə yaxındır. Əgər belə isə, demək, onlar 7 milyon 500 min əhalinin hamısını şübhəsiz ki, təmsil edə bilməzlər. Ona görə də əgər biz tam proporsional sistem üzrə seçki aparsaq, onda parlament seçkilərində əhalinin hamısının rəyini ala bilməyəcəyik. Çünki partiyalar əhalinin hamısını təmsil etmirlər. Yenə də deyirəm, bir halda ki, respublikamızda cəmiyyətin partiyalaşma prosesi ilk addımlarını atır, partiyalar hələ tam formalaşmayıb, ən böyük partiyalar da – əgər onlar özlərini çox böyük hesab edirlərsə – hələ cəmiyyətdə lazımi nüfuz qazanmayıblar, ona görə də biz seçkiləri yalnız proporsional seçki sistemi üzrə keçirə bilmərik. Bax, buna görə mən bu layihəni də müzakirəyə çıxarmıram.

Beləliklə, müzakirəyə iki layihə çıxarılır: birincisi – birpalatalı parlament, qarışıq – majoritar və proporsional sistem üzrə; ikincisi – ikipalatalı parlament, yuxarı palata – majoritar, aşağı palata – qarışıq sistem üzrə. İşçi qrupunun iclasında fikir müxtəlifliyi olduğuna görə mən bu layihələrin ikisini də müzakirəyə çıxarıram.

Bu layihələr sizə paylanıb. Güman edirəm ki, siz bu layihələri artıq oxumusunuz, ola bilər, onların üzərində işləyib təhlil edə bilmisiniz. Əlbəttə, layihələr sizə paylandığına görə məruzəyə ehtiyac olmazdı. Ancaq yenə də qoy birpalatalı parlament layihəsi haqqında Şahin Əliyev, ikipalatalı parlament layihəsi barədə Səfa Mirzəyev qısa məlumat versin. [128-129]

## UKRAYNA PREZİDENTİ LEONİD KUÇMANIN BAKININ NƏSİMİ RAYONU ƏRAZİSİNDƏ MÜVƏQQƏTİ MƏSKUNLAŞMIŞ ZƏNGİLAN, QUBADLI VƏ CƏBRAYIL QAÇQINLARI İLƏ GÖRÜŞÜNDƏ ÇIXIŞ

*27 iyul 1995-ci il*

Əziz bacılar və qardaşlar! Əziz vətəndaşlar!

Bu gün Ukrayna Respublikasının prezidenti Leonid Kuçma respublikamıza rəsmi səfərə gəlib. Biz dövlətlərarası məsələləri müzakirə edirik. Çox mühüm məsələlərlə məşğuluq, ölkələrimiz arasında, müstəqil dövlətlər arasında, müstəqil Ukrayna Respublikası və müstəqil Azərbaycan Respublikası arasında əlaqələrin daha da möhkəmlənməsi və inkişaf etməsi haqqında söhbətlər aparırıq. Bizim hörmətli qonağımız bilir ki, Azərbaycana Ermənistanın təcavüzü nəticəsində ərazimizin 20 faizi erməni silahlı qüvvələri tərəfindən işğal olunubdur və həmin torpaqlardan bir milyona qədər vətəndaşımız qaçqın düşübdür. O cümlədən siz də Zəngilan, Qubadlı, Cəbrayıl rayonlarının qaçqınlarısınız, vətəndaşlarısınız, o rayonlardan zorla qovulmusunuz.

Torpaqlarımız müvəqqəti olaraq erməni silahlı qüvvələrinin işğalı altındadır. Dostumuz Leonid Kuçma bunu yaxşı bilir, mən dəfələrlə beynəlxalq təşkilatlarda onunla görüşərkən bizim məsələlərin müzakirə olunmasında o, həmişə Azərbaycanın mövqelərini müdafiə edibdir. Bu gün də o, Bakıya gələrkən mən sizin vəziyyətiniz haqqında ona məlumat verəndə özü maraq göstərdi ki, gedib bu adamlarla, yerindən-yurdundan, evindən-obasından qaçqın düşmüş insanlarla görüşmək istəyirəm, onları salamlamaq istəyirəm. Ona görə də biz hörmətli qonağımızla birlikdə sizin yanınıza gəlmişik.

Mən yaxşı bilirəm ki, sizin vəziyyətiniz çətindir, ağırdır. Şübhəsiz ki, evini-eşiyini, elini-obasını, varını-yoxunu itirmiş, belə bir ağır şəraitdə yaşayan adamların vəziyyəti heç vaxt yaxşı ola bilməz. Ancaq siz də bilirsiniz ki, biz, Azərbaycanın prezidenti kimi şəxsən mən bütün imkanlardan istifadə edirəm ki, işğal olunmuş torpaqlarımız azad olunsun, siz öz yurdunuza qayıdasınız. İkinci tərəfdən də sizin burada yaşayışınızı [129-130] heç olmasa müəyyən qədər yüngülləşdirək, şəraitinizi müəyyən qədər yaxşılaşdıraq.

Bunun üçün bütün imkanlarımızdan istifadə edirik və əmin s ola bilərsiniz ki, bundan sonra da istifadə edəcəyik. Ancaq ən əsas məqsədimiz işğal edilmiş torpaqların azad olunmasıdır. Biz bu məqsədlə sülh yolu ilə gedirik, danışıqlar yolu ilə gedirik. On dörd aydan artıqdır ki, atəşkəs haqqında saziş əldə edilibdir və Ermənistanla Azərbaycan arasında olan hərbi münaqişədə atəşkəs rejimi davam edir. Biz atəşkəs rejiminə bundan sonra da sadiq qalacağıq. Çünki bir daha müharibənin başlanmasını istəmirik. Eyni zamanda biz torpaqlarımızı işğal altında qoya bilmərik, buna razı ola bilmərik, buna dözə bilmərik. Hər bir Azərbaycan vətəndaşı öz doğma yerinə, yurduna, öz torpağına, öz evinə, öz obasına qayıtmalıdır.

Biz bu arzularla yaşayırıq və bu yolda da çalışırıq. Bugünkü görüşdən istifadə edərək sizə bir daha söz verirəm və sizi əmin edirəm ki, bütün imkanlardan istifadə edib torpaqlarımızın azad edilməsinə nail olacağıq. Sizi bu ağır, çətin şəraitdən Çıxarmaq üçün respublikanın bütün imkanlarından istifadə olunur və bundan sonra da istifadə olunacaqdır.

Mən sizə, sizin simanızda yerini-yurdunu, elini-obasını itirmiş, indi ağır şəraitdə yaşayan bütün Azərbaycan vətəndaşlarına öz hörmət və ehtiramını bildirirəm. Bildirmək istəyirəm ki, mən daim sizin dərdinizlə yaşayıram. Bu, Azərbaycan xalqının böyük dərdidir, bu, mənim dərdimdir, hər bir vətənpərvər azərbaycanlının dərdidir, mən də bu dərdlə yaşayıram. Amma ağır günün də ömrü çox olmaz. Biz bu ağır günləri keçib gedəcəyik, gələcək xoşbəxt günlərə çatacağıq, respublikamızın ərazi bütövlüyünü təmin edəcəyik və torpaqlarımızın azad olunmasına nail olacağıq, hər bir vətəndaş öz yerinə-yurduna qayıdacaqdır. Bu yolda sizə dözüm arzu edirəm və sizi əmin etmək istəyirəm ki, biz bu sahədə bütün imkanlardan istifadə edəcəyik. Sizə cansağlığı və dözümlülük arzu edirəm.

Sağ olun. [130-131]

## UKRAYNA PREZİDENTİ LEONİD KUÇMANIN ŞƏRƏFİNƏ TƏŞKİL EDİLƏN QƏBULDA NİTQ

*"Gülüstan" Sarayı*

*27 iyul 1995-ci il*

Cənab Ukrayna prezidenti, hörmətli Leonid Daniloviç Kuçma!
Hörmətli qonaqlar!
Hörmətli xanımlar və cənablar!

Ukrayna prezidentinin Azərbaycana bu gün başlanan rəsmi səfəri respublikamızın həyatında mühüm hadisədir və dövlətlərarası münasibətlərimizin daha da inkişaf etməsinə şübhəsiz təkan verəcəkdir. Ukrayna və Azərbaycan xalqları arasında əlaqələr zəngin çoxəsrlik tarixə malikdir. Bu əlaqələr yazıçıların, alimlərin, mütəfəkkirlərin, mədəniyyət və incəsənət xadimlərinin əsərlərində əksini tapmışdır. Bu əlaqələr Ukrayna və Azərbaycanın şəhərləri, rayonları arasında, sənaye müəssisələri və onların kollektivləri arasında iqtisadi, sosial və mədəni həyatın bütün sahələrində çoxillik əməkdaşlıqda əksini tapmışdır. Bu əlaqələr yazıçıların, şairlərin, bəstəkarların əsərlərində daha parlaq əks olunmuş və elə bir dostluq və əməkdaşlıq körpüsü yaratmışdır ki, bu körpü uzun illərdən, onilliklərdən və əsrlərdən bəri xalqlarımızı birləşdirir, bizi yaxınlaşdırır və dostluq münasibətləri üçün, səmərəli əməkdaşlıq üçün şərait yaradır.

Ukraynanın ədəbiyyat, incəsənət xadimlərinin əsərləri Azərbaycanda məşhurdur. Onların çoxu Azərbaycan dilinə tərcümə edilmiş və geniş şöhrət qazanmışdır. Taras Şevçenko, İvan Franko, Lesya Ukrainka, Maksim Rılski, Mikola Bajan, Aleksandr Korneyçuk, Oles Qonçar kimi görkəmli Ukrayna yazıçı və mütəfəkkirlərinin, digərlərinin əsərlərinin külliyyatı, seçilmiş əsərləri Azərbaycan dilinə tərcümə olunmuşdur və bir daha təkrar edirəm ki, bu əsərlər geniş şöhrətə malikdir və təbii olaraq, Ukrayna xalqının həyat və tarixini daha yaxşı başa düşməyə, dostluq münasibətlərimizin daha da möhkəmlənməsinə kömək edir. [131-132]

Hələ ötən əsrdə, XIX əsrdə görkəmli Ukrayna yazıçısı və mütəfəkkiri Nikolay İvanoviç Qulak məşhur Azərbaycan şairləri və mütəfəkkirləri Nizami Gəncəvinin "İsgəndərnamə", Füzulinin "Leyli və Məcnun" poemalarını, XIX əsrdə yaşayıb-yaratmış yazıçı, mütəfəkkir Mirzə Fətəli Axundovun əsərlərini Ukrayna, rus və alman dillərinə tərcümə etmişdir. Belə misallardan çox çəkmək olardı. Lakin elə deyilənlər də sübut edir ki, xalqlarımız bir-birindən uzaqda yaşasalar da, bir-biri ilə sıx bağlı olmuşlar. Bu gün xalqlarımız arasında mövcud olan münasibətləri də, əslində, məhz həmin əlaqələr yaratmışdır.

Bu gün hörmətli Leonid Daniloviç Kuçma Azərbaycan neft sənayesinin nümayəndələri ilə görüşdü. Qısa söhbət əsnasında məlum oldu ki, Azərbaycan neftçiləri ilə Ukraynanın sənaye mərkəzləri arasında geniş əlaqələr mövcuddur. Bu əlaqələr əslində bir çox onilliklər ərzində, əsrin əvvəlindən, Azərbaycanda, Bakıda neft sənayesi sürətlə inkişaf etməyə başladığı vaxtdan bəri mövcuddur. Bu əlaqələr Xarkovla da, Dnepropetrovsk ilə də, Nikolayevlə də, Odessa ilə də və bir çox digər şəhərlərlə də yaradılmışdır. Bu əlaqələr indiyədək mövcuddur.

60-cı, 70-ci və 80-ci illər Ukrayna və Azərbaycan arasında əlaqələrin gur inkişafı ilə səciyyəvidir. Hamımızın yadındadır, nə qədər festivallar, dostluq günləri, habelə Azərbaycanda Ukrayna ədəbiyyatı və incəsənəti günləri, Ukraynada Azərbaycan ədəbiyyatı və incəsənəti günləri keçirilmişdir. Hətta hesablamaq belə çətindir ki, Ukraynanın nə qədər mədəniyyət, incəsənət xadimi Azərbaycanda olmuş, Azərbaycanın nə qədər ədəbiyyat və incəsənət xadimi Ukraynada olmuşdur. Bir daha təkrar edirəm, bunların hamısı elə böyük sərvət, elə qiymətli dəyərdir ki, onlar xalqlarımız tərəfindən toplanmışdır, bu gün və gələcəkdə münasibətlərimiz üçün əsasdır.

Lakin bu gün münasibətlərimiz prinsipcə başqa xarakter daşıyır. Ukrayna müstəqil dövlətdir. Azərbaycan da müstəqil dövlətdir. Odur ki, biz öz dövlətlərarası münasibətlərimizi dünya praktikasında hamılıqla qəbul edilmiş prinsiplər əsasında qururuq. Özü də, zənnimcə, yaxşı qurur, müvəffəqiyyətlə qururuq. İri Avropa dövləti kimi, böyük iqtisadi potensiala, güclü elmi potensiala, intellektual potensiala və qarşılıqlı əməkdaşlıq üçün geniş imkanlara malik olan ölkə kimi Ukrayna bizdən ötrü böyük maraq doğurur. Belə düşünürəm ki, Azərbaycan da Ukrayna üçün heç də az maraq doğurmur. [132-133]

Bizim üçün çox mühümdür ki, müstəqil bir dövlət kimi Ukrayna müstəqillik mövqelərində möhkəm durur və öz dövlətçiliyinin, öz iqtisadiyyatının inkişafı üçün fəal tədbirlər görür. Biz Ukraynada baş verən bütün prosesləri izləyirik, həm də Ukrayna xalqına, müstəqil Ukrayna dövlətinə xoş duyğularla, böyük ehtiram hissi ilə izləyirik və əminik ki, hazırda müstəqil Ukrayna dövlətinin yolunda duran bütün çətinliklər, bütün problemlər uğurla aradan qaldırılacaqdır.

Biz istər Birləşmiş Millətlər Təşkilatında və ATƏT-də – Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatında, istər MDB-də, istərsə də digər beynəlxalq təşkilatlarda Ukrayna ilə fəal əməkdaşlıq edirik. Buna görə də bu gün qeyd etmək xoşdur ki, beynəlxalq sahədə, beynəlxalq təşkilatlarda əməkdaşlığımız əməli xarakter daşıyır, bir-birimizə xoş təsir bağışlayır və əsas yaradır ki, belə əməkdaşlıq gələcəkdə daha müvəffəqiyyətlə davam etdiriləcəkdir.

Mən dedim ki, Ukraynada iqtisadi sahədə, ictimai-siyasi həyatda bəzən mürəkkəb proseslər gedir. Lakin təkrar edirəm, biz əminik ki, müstəqil Ukrayna bu mərhələni uğurla keçəcək, müstəqil dövlətin inkişafı üçün lazım olan hər şeylə öz xalqını, öz cəmiyyətini tamamilə təmin edəcəkdir. Biz bunu yüksək qiymətləndiririk ki, Ukrayna müstəqillik prinsiplərində möhkəm durur, öz ölkəsinin ərazi bütövlüyünü, sərhədlərinin toxunulmazlığını qətiyyətlə qoruyur. Bu baxımdan Ukraynada və Azərbaycanda olan problemlər müəyyən dərəcədə oxşardır. Buna görə də biz Ukraynada görülən işlərə böyük hörmətlə yanaşırıq.

Müstəqil Azərbaycan dövləti qarşısında, respublikamızın qarşısında da çoxlu mürəkkəb problem durur. Təkrar edirəm, onlar Ukraynada gedən proseslərlə, Ukraynada qarşıya çıxan problemlərlə çox oxşardır. Ukrayna da demokratik dövlət, demokratik cəmiyyət qurur, bazar islahatları keçirilməsi yolu ilə gedir, öz dövlət müstəqilliyini möhkəmlətmək yolu ilə gedir. Bunlar Azərbaycanda da edilir. Biz demokratik hüquqi dövlət quruculuğu yolu ilə gedirik, demokratik cəmiyyət yaradırıq, bütün sahələrdə geniş iqtisadi islahatlar keçirilməsi yolu ilə gedirik. Dövlət mülkiyyətini özəlləşdirmək haqqında bu yaxınlarda proqram qəbul edilmişdir, aqrar sektorda islahat aparılır. Müstəqil Azərbaycan Respublikasının parlamentinə seçkilər, [133-134] ilk seçkilər noyabrın 12-nə təyin olunmuşdur, müstəqil Azərbaycan Respublikasının Konstitusiyası hazırlanır.

Bununla yanaşı, bizim böyük bir problemimiz, ağır problemimiz də yar. Bu da ondan ibarətdir ki, Azərbaycan yeddi ildir Ermənistan Respublikası tərəfindən təcavüzə məruz qalır. Bu hərbi təcavüz nəticəsində Azərbaycan ərazisinin bir hissəsi – təqribən 20 faizi Ermənistan silahlı birləşmələri tərəfindən işğal olunmuşdur. İşğal edilmiş torpaqlardan Azərbaycanın bir milyondan çox vətəndaşı qovulmuşdur və onlar çox ağır vəziyyətdədirlər, çadır şəhərciklərində yaşayırlar, məşəqqət içindədirlər.

Bu gün hörmətli qonağımız Leonid Daniloviç Kuçma Zəngilan, Qubadlı və Cəbrayıl rayonlarından olan qaçqınların yaşadıqları kiçik bir rayona getmiş, orada çox təsirli görüş olmuşdur. Qaçqınlar böyük ümidlə Leonid Daniloviçə müraciət edərək, onların doğma yerlərinə qayıtmalarına kömək göstərməsini xahiş etdilər. Adamlar daha heç nə istəmirlər, onlar haqq-ədalət istəyirlər, istəyirlər ki, işğal edilmiş torpaqlar azad olunsun, özü də bu məsələ sülh yolu ilə həll edilsin. Onlar istəyirlər ki, öz yerlərinə qayıda bilsinlər, baxmayaraq ki, bu yerlərdə çox şey dağıdılmış, talan olunmuşdur.

Ona görə də indi bu problem bizdən ötrü ən mühüm problemdir. Hamı bilir və mən bu gün Leonid Daniloviçə də danışdım ki, biz əməli yol tuturuq, həmin məsələnin sülh vasitəsilə həlli yolunu tuturuq. On dörd aydan artıqdır ki, atəşkəs rejimi mövcuddur. Biz bundan sonra da, Azərbaycanın tam ərazi bütövlüyünü və onun beynəlxalq miqyasda tanınmış sərhədlərinin toxunulmazlığını təmin edə biləcək sülh sazişi imzalanana qədər bu rejimə əməl edəcəyik.

Biz əminik ki, məsələnin bu cür həllinə nail olacağıq. Əminik, ona görə ki, beynəlxalq təşkilatlar, xüsusən ATƏT bununla fəal məşğul olur. Əminik, çünki beynəlxalq ictimaiyyət getdikcə daha çox etiraf edir ki, Azərbaycan təcavüzə məruz qalmışdır. Azərbaycana qarşı tarixi ədalətsizlik edilmişdir, separatçılığa yol vermək olmaz, bir dövlətin zor işlətməklə başqa dövlətin ərazi bütövlüyünü pozmasına yol vermək olmaz. Ona görə də biz əminik ki, bu məsələləri sülh yolu ilə həll edəcəyik.

Lakin bu, bizim problemimizdir, Ukraynanın problemi bir qədər başqadır. Hər halda bütün bunları əsas tutaraq, hamı tərəfindən tanınmış beynəlxalq normaları əsas tutaraq biz be[134-135]lə hesab edirik ki, hər bir dövlətin ərazi bütövlüyü onun dövlət müstəqilliyinin sarsılmaz bünövrəsidir və Azərbaycanın dövlət müstəqilliyinin möhkəmlənməsi, Azərbaycanın ərazi bütövlüyünün və sərhədlərinin toxunulmazlığının möhkəmlənməsi üçün əlimizdən gələni edəcəyik.

Çox hörmətli Leonid Daniloviç Kuçmanın Azərbaycana gəlməsi bir çox məsələlərə dair fikir mübadiləsi aparmağa, lakin ilk növbədə indi tamamilə başqa zəmində qurulan ikitərəfli münasibətlərimizlə bağlı məsələləri müzakirə etməyə imkan verir. Bizim dövlətlərarası münasibətlərimizin perspektivi böyükdür. İqtisadiyyatın bir çox sahələrində, elm, mədəniyyət, təhsil sahəsində, bütün digər sahələrdə əməkdaşlıq etmək üçün bizim böyük imkanlarımız var. Mən belə hesab edirəm ki, biz bu məsələlər barədə razılığa gələcək və bu münasibətlərin inkişafına güclü təkan verəcəyik.

Biz Ukrayna prezidentini xeyirxah dost, Ukraynanın hörmətli nümayəndəsi kimi qəbul edirik. Biz onu Ukrayna xalqına, müstəqil Ukrayna Respublikasına dərin hörmət hissi ilə qəbul edirik. Ukrayna xalqına bu gün bir daha ən xoş münasibətlər, dostluq münasibətləri bəslədiyimizi bildiririk.

Ukrayna xalqının şərəfinə, müstəqil Ukraynanın şərəfinə, Ukrayna və Azərbaycan xalqları arasındakı dostluğun şərəfinə, Ukraynanın prezidenti, hörmətli dostumuz Leonid Daniloviç Kuçmanın şərəfinə badə qaldırmağı təklif edirəm. [135-136]

## UKRAYNA PREZİDENTİ LEONİD KUÇMA İLƏ AZƏRBAYCANIN SƏNAYE MÜƏSSİSƏLƏRİNİN RƏHBƏRLƏRİ VƏ İŞGÜZAR DAİRƏLƏRİNİN NÜMAYƏNDƏLƏRİNİN GÖRÜŞÜNDƏ GİRİŞ SÖZÜ

*Prezident Sarayı*

*28 iyul 1995-ci il*

Hörmətli xanımlar və cənablar!

Bilirsiniz ki, Ukrayna prezidenti, hörmətli dostumuz Leonid Daniloviç Kuçma ikinci gündür Azərbaycanda rəsmi səfərdədir. Biz dünən və bu gün çox səmərəli işləmişik, danışıqlar, söhbətlər, fikir mübadiləsi olmuş, imzalanmaq üçün bir sıra sənədlər hazırlanmışdır. Leonid Daniloviçin səfər proqramında istehsal müəssisələrinin rəhbərləri və işgüzar adamlarla görüşü də nəzərdə tutulmuşdur. Bununla əlaqədar sizi bu görüşə dəvət etmişik.

Danışıqlar və görüşlər nəticəsində Leonid Daniloviç və mən, nümayəndə heyətlərimiz belə bir vahid fikrə gəlmişik ki, iqtisadi əlaqələrimizi daha da inkişaf etdirmək üçün böyük imkanlarımız var. Əlbəttə, bütün görüşlərimiz və danışıqlarımızda biz dövlətlərarası münasibətlərlə bağlı geniş məsələləri əhatə etmiş, bir çox beynəlxalq problemlərə dair fikir mübadiləsi etmişik. Lakin biz belə hesab edirik ki, bütün bunlar iqtisadi əlaqələrə əsaslanır. Bir çox onilliklər ərzində Azərbaycan ilə Ukrayna arasında bu əlaqələr olduqca sıx idi və müvəffəqiyyətlə həyata keçirilirdi. Azərbaycanın və Ukraynanın bir çox istehsal müəssisəsi bir-biri ilə iqtisadi inteqrasiyada idi və bu, iqtisadiyyatın, o cümlədən Azərbaycan sənayesinin və Ukraynanın bir çox regionunun sənayesinin uğurla işləməsini təmin edirdi.

Son illər baş vermiş hadisələr, Sovet İttifaqının dağılması, dövlətlərimizin müstəqillik qazanması və bəzi digər səbəblər nəticəsində, xüsusən Azərbaycanın nəqliyyat əlaqəsini, onun şimala, o cümlədən Ukraynaya çıxışını məhdudlaşdıran səbəblər nəticəsində bu inteqrasiya əlaqələri zəifləmiş, bir sıra hallarda isə tamamilə kəsilmişdir. Lakin bütün bu məsələləri müzakirə edərək biz belə bir qəti fikrə gəldik ki, müxtəlif sahə[136-137]lər, xüsusən Azərbaycan və Ukraynanın sənayeləri arasında inteqrasiya əlaqələrini bərpa etmək, habelə yeni münasibətlər və əlaqələr qurmaq üçün indinin özündə də böyük imkanlar var.

Hər halda həm Ukraynanın, həm də Azərbaycanın iqtisadi islahatlar aparmaq, bazar münasibətləri, sərbəst iqtisadiyyat, sərbəst sahibkarlıq yaratmaq yolu ilə getdiyini əsas tutaraq, hazırda ölkələrimizdə xüsusi bölmə mövcuddur, doğrudur, o ümumən iqtisadiyyatda hələlik əsas yer tutmur, lakin inkişaf perspektivi böyükdür, – bir tərəfdən sahələr, ayrı-ayrı sənaye müəssisələri arasında inteqrasiya əlaqələrini bərpa etmək, digər tərəfdən iqtisadi dəyişiklikləri həyata keçirməklə istər Azərbaycanda, istərsə də Ukraynada mövcud olan müvafiq şirkətlər, firmalar, assosiasiyalar, konsernlər arasında əlaqələr qurmaq lazımdır. Burada bəzi hallarda birgə müəssisələr yaratmaqdan, birgə fəaliyyətin başqa formalarından söhbət gedir ki, bütün bunlar ölkələrimizin iqtisadiyyatına fayda gətirsin.

Biz nəqliyyat əlaqələri məsələlərini də müzakirə etmişik, bəzi təkliflərimiz, variantlarımız var. Bunlar barədə razılığa gəlmişik və yəqin ki, həyata keçirəcəyik. Eyni zamanda onu da bilirik ki, birgə fəaliyyəti, yaxud mal mübadiləsini həyata keçirmək, qarşılıqlı surətdə faydalı ticarət aparmaq üçün nəqliyyat əlaqələrinin axtarılmasında xüsusi sahibkarlıq həmişə daha fəal olur. Əlbəttə, biz bunu əsas tuturuq ki, gələcəkdə bütün iqtisadi əlaqələr mövcud beynəlxalq prinsiplərə söykənməli, sərbəst surətdə dəyişdirilən valyuta ilə aparılmalıdır. Lakin məsələn, dünən Leonid Daniloviçin Azərbaycan neft sənayesinin rəhbərləri ilə görüşü zamanı biz belə bir fikrə gəldik ki, klirinqdən istifadə etməyə imkan var. Bu, çox yayılmış formadır. Keçmişdə Sovet İttifaqı da bir çox ölkələrlə qarşılıqlı əlaqələrdə, yəni ticarətdə, mal mübadiləsində ondan istifadə edirdi. Ona görə də keçid dövründə bu üsuldan Ukrayna ilə Azərbaycan arasında da istifadə oluna bilər. Lakin başqa yollar və vasitələr də var. Hər halda indiki mərhələdə heç nə qadağan deyil, heç nə məhdudlaşdırıla bilməz. Ölkələrimiz arasında iqtisadi münasibətləri inkişaf etdirmək üçün, o cümlədən Azərbaycan sənayesindən, onun iri müəssisələrindən danışarkən Ukrayna ilə olan əlaqələrdən, oradakı müəssisələrlə olan əlaqələrdən istifadə edərək Azərbaycanın iri müəssisələrinin istehsal gücü həddində fəaliyyət göstərməsini təmin etmək üçün bütün forma və imkanlardan istifadə etməliyik. [137-138] Əlbəttə, burada qarşılıqlı əlaqələrin müxtəlif formalarından, o cümlədən ölkələrimizin sənaye müəssisələri arasında bilavasitə əlaqələrdən söhbət gedir. Qarşılıqlı surətdə faydalı məhsul mübadiləsi etmək, ticarət aparmaq və iqtisadi əlaqələr saxlamaq üçün həmin müəssisələrə fəaliyyət sərbəstliyi verilə bilər.

Bax, biz bu qənaətə gəlmişik. Bunu sizə bildirmək istəyirdim. Zənnimcə, Leonid Daniloviç də öz çıxışında bütün bu məsələlərə və təbii ki, demək istədiyi başqa məsələlərə toxunacaqdır.

## YEKUN SÖZÜ

Burada olanların hamısının adından Leonid Daniloviç, sizə maraqlı çıxışınıza görə, iqtisadiyyatın yenidən qurulması sahəsində tədbirlər barədə icmala görə təşəkkür etmək istəyirəm. Sizin dediklərinizin hamısı bizim üçün çox qiymətli və faydalıdır.

Biz iqtisadi islahatlar aparılması yoluna qədəm qoymuşuq. Amma təəssüflər olsun, bizlərdən hər birimizin, o cümlədən də Azərbaycanın təcrübəsi çatışmır. Biz çətinliklərlə, mühafizəkar qüvvələr tərəfindən müqavimətlə qarşılaşırıq. Buna görə də sizin dediklərinizin hamısı maraqlı və faydalıdır. Özü də təkcə burada olanlar üçün yox. Görüşümüz bizim milli televiziya ilə bütün ictimaiyyətimiz üçün translyasiya ediləcəkdir.

Bizdən ötrü xüsusilə mühümdür ki, siz idxal-ixrac əməliyyatlarının sərbəstləşdirilməsindən danışdınız. Biz də eyni yolla gedirik, lakin hələlik bu sahədə hər şeyə nail ola bilməmişik. Çox vaxt sosial sahə ilə, respublikamızın vətəndaşlarının iqtisadi vəziyyəti ilə bağlı məsələlər, bəzi başqa məsələlər, şübhəsiz ki, bizi çəkindirir. Bəzən mane də olurlar. Məsələn, neft və neft məhsullarının qiymətləri hələlik sərbəstləşdirilməmişdir. Özümüz neft məhsulları istehsal etsək də, bunların qiymətlərini tənzimləməkdə davam edirik. Ümumən belə hesab edirəm ki, Leonid Danüoviçin çıxışı bizim üçün maraqlıdır. Bu, çox maraqlı təcrübədir və bundan öz işimizdə istifadə etməyə çalışacağıq. Əlaqələri daha da genişləndirmək və dərinləşdir[138-139]mək, mövcud iqtisadi sistemlə, qanunlarla işləyən sahələrdə istehsalı irəlilətmək bunu tələb edir.

Zənnimcə, burada iştirak edənlərdən kiminsə çıxış etməsinə ehtiyac yoxdur. Leonid Daniloviç özü-özünə həm maraqlı sual, həm də çox ətraflı cavab verdi. Bu da bizim üçün çox faydalıdır. Ona görə ki, bu məsələ MDB ölkələrinin gündəliyində durur. Bəziləri Gömrük İttifaqına tərəfdardır, başqaları yox. Biz öz mövqeyimizi müəyyən etməliyik. Ona görə də bu barədə sizin fikriniz, mövqeyiniz bizdən ötrü çox mühümdür. Əgər salonda əyləşənlərin sualları olarsa, bunları mətbuat konfransı zamanı verə bilərlər. [139-140]

## UKRAYNA PREZİDENTİ LEONİD KUÇMA İLƏ BİRGƏ MƏTBUAT KONFRANSI

*Prezident Sarayı*

*28 iyul 1995-ci il*

Mətbuat nümayəndələri üçün verilməli olan bəyanat, əslinə qalsa, bizim əvvəlki çıxışlarımızda səslənmişdir. Buna baxmayaraq, bir neçə kəlmə deyəcəyəm, sonra isə bizim hörmətli qonağımız Leonid Daniloviç Kuçmaya söz verəcəyəm.

Ukrayna prezidenti hörmətli Leonid Daniloviç Kuçmanın Azərbaycana rəsmi səfəri başa çatır. Doğrudur, biz hələ kondisioner zavoduna da gedəcəyik. Çox məmnun olduğumu bildirmək istəyirəm ki, Leonid Daniloviç bizim dəvətimizi qəbul etdi, Azərbaycana rəsmi səfərə gəldi. Biz çox səmərəli iş apardıq. Başlıcası budur ki, biz bir çox məsələlər barəsində, əlbəttə, ən əvvəl ikitərəfli münasibətlərimizlə bağlı məsələlər barəsində sərbəst şəraitdə fikir mübadiləsi etmək imkanına malik olduq. Ukraynanın və Azərbaycanın öz müstəqilliyini bərpa etməsindən sonra xeyli vaxt keçmişdir. Bu müddət ərzində istər Ukraynada, istərsə də Azərbaycanda çox ciddi ictimai-siyasi və sosial-iqtisadi proseslər baş vermişdir və baş verir. Bu proseslər sabiq Sovet İttifaqının bütün məkanında, bizim dövlətlərimizin də daxil olduğu MDB ölkələrində də gedir. Buna görə də Ukrayna müstəqil olduqdan sonra orada nə kimi işlər görüldüyü barədə, bu iri Avropa ölkəsinin hansı yolla getdiyi barədə fikir mübadiləsi etmək bizim üçün böyük maraq doğurur.

Bu da böyük maraq doğurur ki, Ukrayna kimi belə böyük Avropa dövlətinin, bizə dost dövlətin prezidenti respublikamızın, xalqımızın həyatı ilə tanış ola bilmişdir. Bir də ona görə ki, Leonid Kuçma Azərbaycana ilk dəfə gəlmişdir. Bu baxımdan onun respublikamıza səfəri mühüm hadisədir. Bu gün cəsarətlə demək olar ki, səfər uğurla, səmərəli nəticələrlə başa çatır.

Təbiidir ki, ikitərəfli münasibətlərimiz diqqət mərkəzində olmuşdur. Danışıqlarda Azərbaycanda və Ukraynada gedən proseslər barədə, xüsusən ölkələrimiz arasında bütün sahələrdə münasibətlərin daha da inkişaf etdirilməsi yollarının axtarışı barədə fikir mübadiləsinə böyük diqqət yetirilmişdir. Biz bir [140-141] çox müsbət nəticələrə nail olduq. Buna imzaladığımız sənədlər sübutdur. Bununla bərabər, görüşlərimiz və danışıqlarımız zamanı biz bir çox digər məsələlər barəsində də razılığa gəldik və müvafiq idarələrimizə bu barədə Kiyevdə, Ukraynada imzalamaq üçün sənədlər hazırlamağı tapşırdıq. Yeri gəlmişkən, Leonıd Daniloviç Kuçma məni Ukraynaya səfərə dəvət etmişdir. Belə düşünürəm ki, mən bu dəvətdən istifadə edəcəyəm. Ölkələrimiz arasında münasibətləri inkişaf etdirmək, genişləndirmək və dərinləşdirmək üçün bundan sonra hüquqi sənədlər hazırlanmasına imkan var. Bu münasibətlər gələcək görüşlərimiz zamanı da davam etdiriləcəkdir.

Bizim üçün çox əhəmiyyətlidir ki, biz Ukraynada həyata keçirilən dəyişikliklər təcrübəsi barədə məlumat aldıq. Leonid Daniloviç Kuçmanın söhbətlərimiz və danışıqlarımız zamanı söylədikləri də bizim üçün çox əhəmiyyətlidir. Belə düşünürəm ki, biz respublikamızın qarşısında duran problemlərin həlli üçün Ukraynanın təcrübəsindən istifadə etməyə çalışacağıq. Bu da əhəmiyyətlidir ki, biz dünyadakı vəziyyətlə, beynəlxalq münasibətlərdə, ölkələrimizin daxil olduğu beynəlxalq təşkilatların fəaliyyətində vəziyyətlə, habelə Azərbaycanın və Ukraynanın daxil olduqları MDB-nin fəaliyyəti ilə bağlı bir çox məsələlər barəsində baxışların tam uyğun gəldiyini aşkara çıxartdıq. Həm də çox mühümdür ki, Ukrayna qəti şəkildə bildirmişdir: müstəqillik onun dövlət quruluşunun və dövlət siyasətinin sarsılmaz prinsipidir.

Hər bir dövlətin ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığı beynəlxalq hüququn sarsılmaz prinsipləridir. Bizim ölkələrimiz bu prinsiplərə dönmədən əməl edirlər. Bu başlıca prinsiplərə münasibətdə baxışlarımızın tamamilə uyğun gəlməsi bizdən ötrü çox mühüm hadisədir.

Danışıqlar zamanı biz separatçılığın hər hansı formasını eyni şəkildə pislədik. O zaman ki, dövlətlərimiz öz ölkələrində və başqa ölkələrdə bunun təzahürləri ilə qarşılaşır, onda bu mövqenin bizim üçün əhəmiyyəti də eynidir. Biz separatçılığı pisləmişik və pisləyirik. Mən bu məsələ ilə əlaqədar Leonid Daniloviçin bəyanatını razılıqla qəbul etdim.

Biz yekdil fikrə gəldik ki, iqtisadi əlaqələrimizi daha da genişləndirmək, mövcud kommunikasiyaların bazasında yenilərini yaratmaq, habelə alternativ kommunikasiya əlaqələri yaratmaq üçün imkanlarımız böyükdür. Bundan ötrü imkan var. [141-142] Ümidvaram ki, bu problemə bizim prinsipial münasibətimiz ölkələrimizin müvafiq idarələrinin fəaliyyətində əksini tapacaq. Biz bu məsələlər barəsində razılığa gələ, birgə işi təşkil edə bilərik.

Elm, təhsil, mədəniyyət sahəsində əlaqələri daha da inkişaf etdirmək üçün böyük imkanlar var. Bu əlaqələr xalqlarımıza həmişə fayda gətirmişdir. Ayrıca qeyd etmək istəyirəm ki, Ukraynanın elmi idarələrindən və ali məktəblərindən Azərbaycan həmişə istifadə etmişdir. Azərbaycanda çoxlu alim, güclü mütəxəssislər var ki, onlar Ukraynada təhsil almışlar, onun elmi-tədqiqat institutlarında hazırlıq keçmişlər. Onlar öz həmkarları ilə əlaqə saxlayırlar. Bu əlaqələri yeni prinsiplər əsasında qaydaya salmağa, daha da inkişaf etməsinə təkan verməyə

imkanımız var. Bizim mədəniyyətlərimiz Ukrayna və Azərbaycan xalqları arasında dostluğu möhkəmləndirmək üçün həmişə körpü olmuşdur.

Biz ölkələrimizin mədəniyyətlərini birləşdirən konkret misalları, faktları bu günlər ərzində çox xatırlamışıq. Zənnimcə, indi bu məsələ barədə fikir mübadiləsi apararkən həmin münasibətləri inkişaf etdirmək əzmində olduğumuzu bir daha bildirdik. Bizim yaradıcılıq təşkilatlarımız, ədəbiyyat, mədəniyyət xadimlərimiz bu şəraitdən istifadə etmək imkanı qazandılar.

Avropanın böyük ölkələrindən biri kimi, Ukrayna bazar münasibətləri əsasında ciddi iqtisadi dəyişikliklər yolu ilə gedir, öz dövlətini, müstəqilliyini möhkəmləndirmək üçün çox mühüm tədbirlər görür. Ukrayna bizdən ötrü çox gərəkli tərəfdaşdır. Biz bunu qiymətləndiririk və münasibətlərimizin dərinləşməsi və inkişafı üçün hər şeyi edəcəyik.

Sözün qısası, Leonid Daniloviç Kuçmanın Azərbaycana ikigünlük səfəri mühüm hadisədir və səmərəli nəticələrlə başa çatır. Leonid Daniloviç, səfərinizə görə, birgə işimizə görə sizə təşəkkürümü bildirirəm və ümidvaram ki, müstəqil dövlətlərimiz, xalqlarımız arasında münasibətlərin daha da dərinləşməsi və inkişafı naminə bizim şəxsi əlaqələrimiz davam və inkişaf edəcəkdir. Diqqətinizə görə təşəkkür edirəm.

**Sual: Mənim iki sualım var. Birinci sual regional münaqişələrin aradan qaldırılmasında MDB-nin və ona daxil olan ölkələrin imkanları barədədir. İkinci sual: MDB ərazisində ən qanlı münaqişə olan Dağlıq** [142-143] **Qarabağ münaqişəsinin ləğv edilməsinə Ukrayna real kömək göstərməyə nə dərəcədə qadirdir?**

**L. Kuçma:** Mən bunu danışıqlarda da demişəm. Belə hesab edirəm ki, MDB-nin hər halda gələcəyi var. Amma bir labüd şərtlə ki, tərəflərdən hər birinin rəyi nəzərə alınsın. Əgər hər bir tərəfin rəyi nəzərə alınsaydı, onda belə münaqişələr də olmazdı. Təəssüf ki, bu münaqişə hələ Sovet İttifaqının dövründə yaranmışdı. Lakin mən birmənalı şəkildə deyirəm ki, münaqişənin səviyyəsi və bütün MDB üzvlərinin, o cümlədən də Rusiyanın fəaliyyət dərəcəsi yaranmış vəziyyətə uyğun deyildir. Buna görə də vəzifə, o cümlədən də Ukraynanın vəzifəsi bu mövqeyi MDB üzvlərinə çatdırmaqdır.

Bu münaqişənin həllində Ukraynanın roluna gəldikdə, o, imkanlarımıza müvafiq deyildir. Yaxın günlərdə biz Minsk qrupunun qərarları əsasında bu prosesi müsbət istiqamətə yönəltməyə təşəbbüs göstərmək təklifi ilə ATƏT-ə müraciət edəcəyik. Biz ATƏT-in himayəsi altında hərbi müşahidəçilər və sülhyaratma qüvvələrinə hərbi qüvvələr göndərilməsindən başlayaraq, daha fəal iştirak etməyə hazırıq.

**Sual: Mənim sualım hər iki prezidentədir. Bu danışıqlarda iqtisadi sahədə nə – neft, yoxsa başqa hansısa bir məsələ, hər halda başlıca məsələ olmuşdur?**

**L. Kuçma:** Əlbəttə, enerji daşıyıcıları problemi Ukrayna üçün bir nömrəli problemdir. Siz gözəl başa düşürsünüz ki, bu məsələ təkcə Ukraynanın deyil, istənilən ölkənin müstəqilliyi məsələsidir. Ukrayna və Azərbaycanın neft-qaz kompleksləri, xüsusən neft kompleksləri çox qədim tarixə malikdir və onlar istehsal əlaqələri ilə o dərəcədə bağlıdır ki, bu komplekslərin gələcək normal mövcudluğu, dünən neftçilərlə görüşdə başa düşdüyüm kimi, həm Ukraynanın, həm də Azərbaycanın xeyrinədir. Ukrayna bu problemin qarşılıqlı surətdə faydalı əsasda həllində özünün bütün imkanları ilə iştirak etməyə hazırdır.

**H. Əliyev**: Mən Leonid Daniloviçin dedikləri ilə tam razıyam. Lakin ən başlıca problem kimi, hansısa bir problemi seçib göstərmək çətindir. O qədər problem var ki, onların hamısı böyük əhəmiyyətə malikdir. Lakin Leonid Daniloviçin qeyd etdiyi problem, şübhəsiz, ən mühüm problemdir. Bundan başqa olduqca çox digər məsələlər var. Biz onları iqtisadi münasibətlərimizi genişləndirmək üçün müzakirə etdik. Artıq bu [143-144] barədə danışılmışdır. Əslinə qalsa, imzaladığımız sənədlər də bundan bəhs edir.

**L. Kuçma:** Mən yalnız onu əlavə edə bilərəm ki, neft və neft məhsulları Ukrayna üçün çörək, Ukrayna buğdası isə Azərbaycan üçün çörək deməkdir. Biz burada da qarşılıqlı anlaşmaya nail olduq.

**Sual: Mənim sualım cənab Kuçmayadır. Siz Bakıda tez-tez deyirdiniz ki, Ukrayna ilə Azərbaycan MDB üzrə tərəfdaşdır. Sizin danışıqlarınızdan sonra MDB-nin siyasəti barədə hansı məsələlərdə Azərbaycanın və Ukraynanın vahid mövqe tutduğunu gözləmək olar?**

**L. Kuçma:** Cavab çox sadədir. MDB-nin əslində bütün məsələlərində biz vahid mövqedən çıxış edirik.

**H. Əliyev:** Mən bu cavabla tam razıyam.

**Sual: Hörmətli prezidentlər, mən yenə də iqtisadi məsələlərə qayıtmaq istəyirəm. Siz mövcud problemlərin aradan qaldırılması üçün konkret olaraq hansı məsələləri qaldırdınız və onların həlli üçün nə qədər vaxt lazımdır?**

**H. Əliyev:** Biz problemlərlə bağlı bir çox təklifləri nəzərdən keçirdik. Lakin bizim üçün ən əvvəl vacib olan budur ki, Azərbaycan ilə Rusiyanın Dağıstan ərazisindən keçən sərhədi açılsın. Məlum olduğu kimi, bu sərhəd Çeçenistanda hadisələr başlandığı vaxtdan bağlanmışdır. Əslinə qalsa, sərhəd nəqliyyat kommunikasiyası kimi hələ xeyli əvvəl bağlanmışdı. Ona görə ki, Çeçenistanda vəziyyət orada hərbi əməliyyatlar başlanmazdan hələ xeyli əvvəl çox mürəkkəb idi. Dəmiryol qatarları ya keçmirdi, ya da böyük çətinliklə keçirdi. Bizim üçün, Azərbaycan ilə Ukrayna arasında əlaqələr üçün, ümumiyyətlə, qitəmizin Şimal hissəsi ilə əlaqələr üçün, o cümlədən də Avropaya çıxmaq üçün əsas nəqliyyat növü dəmiryol magistralıdır.

Buna görə də biz ən əvvəl sərhədin açılması və dəmiryol xəttinin normal işləməsi sahəsində tədbirlərə dair məsələləri nəzərdən keçirdik. Doğrudur, bu, ən çox Rusiyadan asılıdır. Sizə məlumdur ki, bu məsələ barəsində mən Rusiya rəhbərləri, o cümlədən prezident Boris Yeltsin, baş nazir Viktor Çernomırdin və Rusiyanın digər rəhbərləri ilə dəfələrlə danışıqlar aparmışam. Mənim axırıncı görüşlərim, söhbətlərim mayın 26-da Minskdə MDB-nin iclası zamanı olmuşdur. Lakin vədlər [144-145] hələlik həyata keçirilməmişdir. Biz dəmiryol magistralının sərbəst işləməsi üçün imkanlara malik deyilik.

Lakin biz digər variantları da nəzərdən keçirdik. Məsələn, yükləri Gürcüstan ərazisi ilə aparıb oradan Qara dənizə, sonra isə Ukraynaya çıxmaq üçün Azərbaycan, Ukrayna və Gürcüstanın müştərək Holdinq nəqliyyat şirkətini yaratmaq barədə təklif var. Bu xətti Xəzər dənizindən keçərək Şərqə tərəf – Türkmənistana və təbii olaraq, oradan da Özbəkistana, Qazaxıstana, digər Şərq ölkələrinə tərəf çəkməyə dair digər çox cəlbedici layihə də var. Doğrudur, başqa variantlar da mövcuddur. Lakin onların hamısı iqtisadi səmərəlilik, təhlükəsizlik, bütün ölkələrlə razılığın mümkünlüyü baxımımdan diqqətlə işlənməlidir. Təbiidir ki, həmin layihələrin həyata keçirilməsində iştirak edəcək hər bir ölkənin razılığı da gərəkdir. İndi biz onları öyrənir, hazırlayırıq. İnanıram ki, biz bu çətin nəqliyyat blokadasından çıxış yolları tapacağıq.

**L. Kuçma:** Mən Heydər Əliyeviçin rəyı ilə razıyam. Bəli, həqiqətən bugünkü, sabahkı strateji məsələlər var. Buna görə də biz uzaq perspektivləri, neft-qaz kəməri problemini də nəzərdən keçirdik. Bunlar strateji məsələlərdir və onları bu gün müzakirə etmək lazımdır.

**Sual: Leonid Daniloviç, siz dediniz ki, Bakıdan Ermənistana gedəcəksiniz. Siz onlarla da Azərbaycanla olduğu kimi eyni dərəcədə əməkdaşlıq etmək niyyətindəsinizmi?**

**L. K u ç m a:** Ukrayna bütün ölkələrlə ancaq bərabərhüquqlu əsasda və qarşılıqlı mənafelər baxımından əməkdaşlıq etməyə hazırdır.

**Sual: Leonid Daniloviç, siz Krım tatarlarının problemini necə həll edəcəksiniz?**

**L. Kuçma:** Biz bu problemi dünən Heydər Əliyeviçlə müzakirə etdik. Ukrayna MDB-yə müraciət etmişdir. Mən Boris Nikolayeviç Yeltsinə şəxsi məktubla müraciət etmişəm ki, bu məsələni MDB səviyyəsində nəzərdən keçirmək lazımdır. Çünki bu problem təkcə Ukraynanın problemi deyildir. Təəssüf ki, bir dövlət kimi Ukraynamın buna birbaşa dəxli yoxdur. Lakin bu gün Ukrayna 270 min Krım tatarı ilə təkbətək qalmışdır. Onlar Azərbaycan qaçqınlarına nisbətən bəlkə də bir qədər yaxşı vəziyyətdə yaşayırlar. Ukrayna əlindən gələn hər şeyi edir. Lakin mən birmənalı şəkildə bu fikirdəyəm ki, ən [145-146] əvvəl, özünü Sovet İttifaqının hüquqi varisi elan edən Rusiya, habelə Özbəkistan və Qazaxıstan da bu problemin həllinə sırf mənəvi baxımdan az-çox öz töhfəsini verməlidir.

**Sual: Leonid Daniloviç, Azərbaycanın yeni neft yataqlarının işlənməsində Ukrayna iştirak edəcəkmi?**

**L. Kuçma:** Biz bu problemi müzakirə etdik və Ukraynada olan bütün mümkün üsul və metodlarla bacardığımız qədər iştirak etməyə hazırıq. Digər tərəfdən, biz Azərbaycan tərəfinə təklif etdik ki, Ukraynanın neft yataqlarının, xüsusən Qara dəniz şelfindəki yataqların işlənməsində iştirak etsin.

**H. Əl iyev:** Bizim marağımız var ki, Ukrayna həm quruda, həm də dənizdə Azərbaycan yataqlarının, o cümlədən Xəzər dənizinin Azərbaycan sektorundakı yataqların işlənməsində iştirak etsin. Dünyanın bir çox neft şirkətləri bizə müraciət edirlər. Bizdə bir sıra olduqca perspektivli yataqlar var. Enerji daşıyıcılarına ehtiyac duyan Ukrayna, təbii olaraq, bu daşıyıcıları almaq üçün mənbələrə malik olmaq istəyir. Biz Ukraynaya belə imkan təklif etdik.

**L. Kuçma:** Sovet İttifaqının dövründə Ukraynada borulardan başlayaraq ən nadir avadanlıq – kompressor stansiyaları, nasoslar və digər qurğular buraxılmasınadək neft-qaz sənayesində çox böyük potensial yaradılmışdı.

**Sual: Hörmətli Heydər Əliyeviç, mən bu suala cavab eşitmək istərdim: məlum olduğu kimi, Rusiya Dağlıq Qarabağ münaqişəsinin həllində vasitəçidir. Siz bu məsələdə onun rolunu necə qiymətləndirirsiniz? Sual prezident Leonid Kuçmayadır: siz belə bir faktı necə qiymətləndirirsiniz ki, bu qədər vaxt itirilmiş, amma Ukrayna indiyədək Azərbaycanda səfirliyə malik deyildir?**

**H. Əliyev:** Rusiya artıq neçə illərdir ki, Ermənistan-Azərbaycan münaqişəsinin həllində vasitəçilik fəaliyyəti göstərir. Əgər bu münaqişənin tarixindən danışmalı olsaq, onda görərik ki, o, hələ Sovet İttifaqının dövründə, 1988-ci ildə yaranmışdır. Bu gün bunu bildirməyi bir daha lazım hesab edirəm ki, həmin dövrdə Sovet İttifaqının rəhbərliyi bu münaqişənin meydana çıxmasına, Ermənistan və Azərbaycan xalqları arasında qarşıdurmanın belə vəziyyətə gəlib çıxmasına yol verməmək üçün hər cür imkanlara malik idi. Xalqlarımız əsrlər boyu bir coğrafi məkanda, bir-biri ilə qonşuluqda yaşamışlar. Bütün tarix ərzində tamam əksər dövrlərdə xalqlarımız dostluq, [146-147] əmin-amanlıq, qarşılıqlı anlaşma şəraitində yaşamışlar. Doğrudur, keçmiş zamanlarda münaqişələr baş verirdi. Lakin onların bütün tarixi ərzində heç vaxt belə qanlı və uzunsürən münaqişə olmamışdır. Bu münaqişə Sovet İttifaqının dövründə baş vermişdir və bu gün mən demək istəyirəm ki, Sovet İttifaqının ərazisində yaranmış, digər ölkələrə də, habelə Yer kürəsinin başqa guşələrinə də yayılmış separatçılığın inkişafında məhz SSRİ rəhbərləri günahkardır.

Buna görə də, əgər vasitəçilikdən danışmalı olsaq, vasitəçilik onda da olmuşdur, lakin bu vasitəçilik son dərəcə uğursuz və birtərəfli idi. Son illər Rusiya vasitəçilik işi aparır. Biz bir sıra hallarda onun müsbət rol oynadığını hiss edirik. Biz Rusiyaya ümid bəsləyirik. Mən dəfələrlə bildirmişəm və bu gün də bildirirəm ki, bu məsələnin həllinin açarı əsasən Rusiyadadır. Onu həll etməyə Rusiya qadirdir. Rusiyanın Sovet İttifaqının hüquqi varisi olduğunu nəzərə alaraq, o, Qarabağ münaqişəsinin aradan qaldırılması üçün, bu qanlı müharibəyə son qoyulması üçün daha səmərəli tədbirlər görməyə borcludur. Buna görə də biz Rusiyanın rolunu qiymətləndiririk.

Son vaxtlar Rusiya ATƏT-in Minsk qrupu çərçivəsində vasitəçilik rolunda çıxış edir. Siz bilirsiniz ki, 1994-cü ilin dekabrında dövlət başçılarının Budapeşt Zirvə toplantısından sonra Minsk qrupu yenidən qurulmuşdur və indi iki həmsədrə malikdir. İndiki halda həmsədrlər Finlandiya və Rusiyadır. Onlar tədbirləri birlikdə görürlər. Ona baxmayaraq, mən belə hesab edirəm ki, Rusiya burada çox mühüm rol oynayır. Mən ümidvaram və ümid edəcəyəm ki, Rusiya bu münaqişənin həllində, bölgəmizdə sülhün bərqərar olmasında öz tarixi rolunu hər halda oynayacaqdır.

**L. Kuçma:** Nə üçün Ukrayna Bakıda səfirliyini açmamışdır? Bu, bir-sıfır Ukraynanın xeyrinə deyildir. Buna görə də bu gün biz bunu düzəltdik. Hesab bir-bir olacaq.

**H. Əliyev:** Xeyr, sıfır-sıfır olacaq. Çünki bu, Azərbaycana da aiddir. Görünür, biz eyni dərəcədə gecikmişik. Bu gün prezidentlər sənəd imzalamış və bununla da ölkələrimizdə səfirliklər açılması barədə öz üzərlərinə öhdəlik götürmüşlər.

Sağ olun. [147-148]

## UKRAYNA PREZİDENTİ LEONİD KUÇMA İLƏ BAKKONDİSİONER İSTEHSALAT BİRLİYİ ƏMƏKÇİLƏRİNİN GÖRÜŞÜNDƏ ÇIXIŞ

*28 iyul 1995-ci il*

Əziz və hörmətli bacılar, qardaşlar,
mənim həmvətənlərim!

Öncə sizi səmimi-qəlbdən salamlayıram, sizə hörmət və ehtiramımı bildirirəm. Sizinlə yenidən görüşmək fürsəti əldə etdiyimə görə məmnun olduğumu bildirirəm. Sizə öz məhəbbətimi, hörmətimi bildirirəm.

Bu gün siz bizim hörmətli qonağımızı, Ukraynanın prezidenti Leonid Daniloviç Kuçmanı qəbul edirsiniz. Mənə çox xoşdur ki, siz burada, zənnimcə, Bakının bütün normaları aşmış bu qızmar havasında Ukrayna prezidentinin gəlişini böyük səbirsizliklə gözləmisiniz və onu belə səmimi və sevinclə qarşılayırsınız. Bu məni təəccübləndirmir. Ona görə ki, bu Azərbaycan xalqının Ukrayna xalqına və onun rəhbərinə, prezident Leonid Daniloviç Kuçmaya olan hörmət hisslərinin, dərin dostluq hisslərinin ifadəsidir.

Mən təqribən iyirmi il bundan əvvəl bu zavodun işə salınmasını necə təntənə ilə qeyd etdiyimizi xatırlayıram. Ötən iyirmi il ərzində bu zavodun çoxmillətli kollektivi formalaşmışdır, respublikada, dünyada və keçmiş Sovet İttifaqında çoxlu dəyişikliklər, çoxlu proseslər olmuş, cürbəcür çoxlu millətlər-arası münaqişələr baş vermişdir, bizim Azərbaycan Respublikasında isə bütün millətlərdən olan xalqlar vahid ailədə, dostluq və həmrəylik şəraitində yaşayırlar. İstənilən millətdən olan, istənilən dildə danışan, istənilən dinə etiqad edən adamlar bərabər hüquqlardan istifadə edirlər və siz bunu bu gün burada nümayiş etdirirsiniz.

Bu, mənə çox xoşdur, bu, Azərbaycan Respublikasının böyük sərvətidir. Sevinirəm ki, bizim respublikamız çoxmillətlidir. Fəxr edirəm ki, respublikamızda bütün xalqlar vahid ailədə dostluq və həmrəylik şəraitində yaşayırlar. Burada sizinlə birlikdə bir çox millətlərin nümayəndələri iştirak edirlər. Burada ukraynalı qadın, – texnikumu yenicə bitirdikdən sonra gəlmiş Tatyana Sankova çıxış etdi. O buraya işləmək üçün gəlmişdir. [148-149] Görünür, Azərbaycan, Bakı, onu nəyə görə isə cəlb etmişdir. Lakin bu, mühüm cəhət deyildir. Mühüm olanı budur ki, o, iyirmi ildir burada işləyir və Azərbaycanı özünün ikinci vətəni sayır. Bu, məni sevindirir, sizi də sevindirir. Bu, Azərbaycan Respublikasının, çoxmillətli cəmiyyətimizin səciyyəvi xüsusiyyətidir.

Təbii ki, Azərbaycan kimi belə ölkədə, belə dövlətdə, belə cəmiyyətdə başqa ölkənin rəhbərinə ayrı cür münasibət ola bilməz, necə ki, siz göstərirsiniz. Xüsusən də Ukrayna kimi ölkənin rəhbərinə, Ukrayna xalqına. Bu, təbiidir.

Biz Ukrayna prezidenti, hörmətli dostumuz Leonid Daniloviç Kuçma ilə dünən və bu gün dövlətlərarası münasibətlərimizlə bağlı olan bir çox məsələni müzakirə etdik. Gəldiyimiz başlıca nəticə budur ki, Ukrayna və Azərbaycan xalqlarının qarşılıqlı münasibətlərinin tarixi zəngin, çoxəsrlikdir. Bu tarix dostluq, qardaşlıq və əməkdaşlığın bır çox parlaq səhifələrini özündə hifz edir. İki müstəqil dövlət, iki müstəqil respublika – Ukrayna və Azərbaycan bu zəmində münasibətlərimizi daha yüksək səviyyəyə qaldırmaq, Ukrayna xalqının və Azərbaycan xalqının rifahı naminə dostluğu və qarşılıqlı yardımı daha da möhkəmləndirmək imkanına malikdirlər.

Biz bütün bunlar barədə razılığa gəlmişik, bir sıra sənədlər imzalamışıq. Tapşırmışıq ki, ölkələrimizə – müstəqil Ukraynaya və müstəqil Azərbaycana həyatın bütün sahələrində qarşılıqlı əlaqəni, əməkdaşlığı daha çox inkişaf etdirməyə imkan verəcək yeni sənədlər işləyib hazırlasınlar. Ümidvaram ki, qarşılıqlı əlaqələrimiz və əməkdaşlığımız üçün yaxşı perspektiv açılır. Əminəm ki, Avropanın belə bir böyük ölkəsi böyük siyasi, iqtisadi, intellektual potensiala malik olan Ukrayna ilə dostluq Azərbaycana fayda gətirəcəkdir. Biz şadıq ki, belə dost ölkə, belə dost dövlət və Ukrayna prezidenti Leonid Daniloviç Kuçma kimi belə dostumuz var.

Leonid Daniloviç, səfərinizə görə, səfər proqramınızın gərginliyinə baxmayaraq, bu zavoda gəlmək, adamlarla, Azərbaycanın sadə vətəndaşları ilə, həyatın çox mürəkkəb dövrünü yaşayan insanlarla, çoxlu çətinliklər – maddi, məişət çətinlikləri çəkən insanlarla, Ermənistanın təcavüzündən zərər çəkmiş insanlarla, bu təcavüz nəticəsində bir çox yaxın və əziz adamlarını itirmiş insanlarla görüşmək üçün imkan tapdığınıza görə sizə ürəkdən təşəkkür edirəm. Siz burada bu müharibə zamanı [149-150] qurban vermiş ailələrdən olan insanları, yaxın adamları həlak olmuş insanları görə bilərsiniz. Buna baxmayaraq, bu xalq, bu insanlar, Azərbaycanın bu sadə vətəndaşları belə bir ümidlə yaşayırlar ki, bütün bunlara son qoyulacaq, çətinliklərin hamısı arxada qalacaq, Ermənistan ilə Azərbaycan arasındakı münaqişə qurtaracaq, Azərbaycanın ərazi bütövlüyü təmin olunacaq, Ermənistan silahlı birləşmələri tərəfindən işğal olunmuş Azərbaycan əraziləri azad ediləcək, qaçqınlar doğma yerlərinə qayıdacaqlar. Müstəqil suveren dövlət kimi Azərbaycan öz torpağının, öz ərazisinin, beynəlxalq miqyasda tanınmış sərhədlərinin sahibi olacaqdır.

Adamlar bu inamla bütün çətinliklərlə barışır, məşəqqətlərlə, itkilərlə barışırlar. Gələcəyə ümidlə yaşayaraq barışırlar.

Əziz həmvətənlərim, hörmətli qardaş və bacılarım. Sizi əmin edirəm ki, belə də olacaqdır. Biz bu vəziyyətdən çıxacağıq, yaxşı səviyyəyə, xoşbəxt həyata çıxacağıq. Sizin dözümünüz, qətiyyətiniz və əməksevərliyiniz, müstəqil Azərbaycan dövlətinin siyasi xətti ətrafında sıx birləşməyiniz bizim gələcək uğurlarımızın təminatıdır.

Leonid Daniloviç, Azərbaycan vətəndaşları, kondisionerlər zavodunun işçiləri buraya sizinlə görüşmək üçün, Ukrayna prezidentini görmək, ona öz hisslərini bildirmək üçün toplaşmışlar. Onlar bu ümidlə yaşayırlar və təbii ki, beynəlxalq miqyasda, dünya siyasətində və Müstəqil Dövlətlər Birliyində Ukraynanın böyük siyasi çəkisini nəzərə alaraq, həm Azərbaycanın bütün vətəndaşları, həm də mənim kimi Ukrayna ilə, Ukrayna xalqı, Ukrayna dövləti ilə dostluğun möhkəmlənəcəyinə böyük ümid bəsləyirlər. Əminəm ki, sizin həyatınızla şəxsən tanışlıqdan sonra Leonid Daniloviç Kuçma xalqlarımız və dövlətlərimiz arasında dostluğun möhkəmləndirilməsinə, təkcə Azərbaycan xalqının deyil, həm də bütün qitənin, bütün regionun faciəsi olan həmin çox mürəkkəb məsələnin həllinə daha fəal kömək göstərəcəkdir. Əminəm ki, Ukraynanın, onun prezidentinin simasında bizim etibarlı dostumuz, tərəfdaşımız və təbii ki, mənəvi və hər cür digər hayanımız olacaqdır.

Əziz qardaşlar və bacılar, sizin adınızdan, bütün Azərbaycan xalqının adından, Azərbaycan vətəndaşlarının adından Ukrayna xalqına, müstəqil Ukrayna Respublikasına və onun [150-151] layiqli prezidenti, çox hörmətli Leonid Daniloviç Kuçmaya hörmət hisslərimi bildirirəm.

Yaşasın Ukrayna-Azərbaycan dostluğu! Yaşasın müstəqil Ukrayna! Yaşasın müstəqil Azərbaycan!

Xay jive samostiyna Ukraina!

Sizin və Azərbaycanın bütün vətəndaşlarının hisslərini ifadə edərək mən Leonid Daniloviç Kuçmanı qucaqlayıram. Ona uğurlu uçuş, yaxşı yol arzulayır və Ukrayna xalqına səmimi salamımızı göndəririm. [151-152]

## BOLQARISTANA VƏ RUMINİYAYA RƏSMİ SƏFƏRƏ YOLA DÜŞMƏZDƏN ƏVVƏL BİNƏ HAVA LİMANINDA MƏTBUAT ÜÇÜN BƏYANAT

*29 iyul 1995-ci il*

Bolqarıstan və Rumıniya Şərqi Avropa, Balkan ölkələridir və dünyada gedən proseslərdə onların özünəməxsus yeri var. Həmin dövlətlərdə ictimai-siyasi proseslər, dəyişikliklər gedir. Keçmiş Varşava Müqaviləsinin üzvü olmuş bu ölkələrdə də indi sosialist quruluşundan və iqtisadi modelindən yeni formalara keçid dövrüdür. Ona görə də bu ölkələrdə gedən dəyişikliklər və onların təcrübəsi bizim üçün əhəmiyyətlidir.

Bolqarıstan prezidenti cənab Jelyu Jelev və Rumıniya prezidenti cənab İon İliyesku çoxdandır ki, məni öz ölkələrinə rəsmi səfərə dəvət ediblər. İndi imkan tapdığıma görə onların dəvətini yerinə yetirirəm, həm Bolqarıstana, həm də Rumıniyaya rəsmi səfərə gedirəm. Eyni zamanda Buxarestdə Qara Dəniz Hövzəsi Ölkələrinin İqtisadi Əməkdaşlıq Təşkilatının üzvü olan dövlətlərin rəhbərlərinin görüşü olacaqdır. Bu da çox əhəmiyyətli toplantıdır, həmin təşkilatın üzvü olan ölkələrin dövlət və hökumət başçılarının İkinci Zirvə toplantısıdır. Birinci Zirvə toplantısı iki il bundan əvvəl İstanbulda keçirilmişdir. Fikrimcə, Azərbaycanın iqtisadi problemlərini həll etmək üçün Qara dəniz hövzəsində olan ölkələrlə əməkdaşlıq böyük imkanlar verir.

Şübhəsiz ki, Azərbaycanın həm Bolqarıstan, həm də Rumıniya ilə keçmişdə geniş iqtisadi əlaqələri olubdur. Həmin əlaqələri bərpa etmək, inkişaf etdirmək, möhkəmləndirmək bizim üçün əlverişlidir. Hesab edirəm ki, bu səfərlər Azərbaycan üçün çox əhəmiyyətli olacaqdır.

Buxarest Zirvə toplantısında Qara dəniz hövzəsi ölkələrinin dövlət başçıları ilə ümumi görüşdən əlavə, ikitərəfli görüşlər də olacaqdır. Artıq bir neçə belə görüş planlaşdırılmışdır. Bunlardan Azərbaycanın həmin ölkələrlə əlaqələrinin gələcəkdə daha da inkişaf etdirilməsi üçün istifadə ediləcəkdir. Bir daha qeyd edirəm ki, bu səfər əhəmiyyətlidir və mən onu böyük məmnuniyyətlə həyata keçirirəm. [152-153]

**Sual:** Rumıniya ilə Azərbaycan arasında neft sahəsində əməkdaşlıq mümkündürmü ?

**Cavab:** Rumıniya və Azərbaycan neft ölkələridir. Vaxtilə 50-ci illərdə Azərbaycan neftçiləri Rumıniyanın neft sənayesinin inkişafına kömək etmişlər. Bu əlaqələri də bərpa etmək lazımdır. [153-154]

## RESPUBLİKA HÜQUQ-MÜHAFİZƏ ORQANLARI RƏHBƏRLƏRİNİN İŞTİRAKI İLƏ KEÇİRİLMİŞ MÜŞAVİRƏDƏ GİRİŞ SÖZÜ

*Prezident sarayı*

*4 avqust 1995-ci il*

İyulun 30-da Bakının Sabunçu rayonundakı körpünün altında tapılmış partlayıcı maddələr və bununla əlaqədar aparılan əməliyyat-istintaq işləri respublikada çox böyük əks-səda veribdir. Qeyd edə bilərəm ki, hüquq-mühafizə orqanlarımız – Daxili İşlər Nazirliyi, Respublika Prokurorluğu, başqa orqanlar bu qısa vaxtda gərgin iş aparıblar və törədilmiş cinayət demək olar ki, açılmaqdadır. Cinayətkarların bir qrupu artıq həbs olunubdur.

Bu hadisə barədə məlumat təkcə Azərbaycanda yox, respublikadan, ölkəmizdən kənarda da yayılıb və buna çox böyük maraq var. Başqa ölkələrdəki, respublikamızdakı bu cür cinayətkar, terrorçu dəstələr öz işlərini yenə də davam etdirirlər. Məmnuniyyətlə qeyd edək ki, bu cür hadisələrin qarşısı alınır və bunun üçün lazımi tədbirlər görülür.

Türkiyənin prezidenti cənab Süleyman Dəmirəl, Türkiyənin baş naziri xanım Tansu Çillər dünən mənə zəng etmişdilər. Onlar hadisəni biliblər, narahat olublar, vəziyyətlə maraqlanırlar. Bu hadisəyə başqa ölkələrdən də maraq göstərənlər var.

Mən bu iki gündə gələn məlumatlardan görürəm və televiziyanın dünənki verilişində ayrı-ayrı insanların bu işə münasibətindən hiss olunur ki, əhali belə hadisələrə öz münasibətini çox nifrətlə bildirir və bu cinayətkarların tezliklə aşkar olunması, ifşa edilməsi zərurəti haqqında öz fikirlərini deyir. Ümidvaram ki, biz bunların hamısını aşkar edəcəyik, ifşa edəcəyik.

Daxili İşlər Nazirliyi son vaxtlar işlərini gücləndirib, dünən axşam Lənkəran bölgəsində də böyük əməliyyat aparıblar. Çox qatı cinayətkarlardan bir neçəsi orada yaxalanıb, həbs olunub. Mən həm müəyyən informasiya verilməsi, eyni zamanda iyulun 30-da baş vermiş hadisə, yəni terror əməlinin qarşısının alınması ilə əlaqədar gedən istintaqın nəticələri barədə müəyyən məlumatlar almaq üçün sizi buraya dəvət etmişəm. [154-155] Əvvəlcə daxili işlər naziri Ramil Usubova söz verirəm. O, Lənkəran bölgəsində aparılan əməliyyat işləri haqqında məlumat versin, sonra respublika prokuroru Eldar Həsənov istintaqın gedişi haqqında məlumat versin.

* * *

Daxili İşlər Nazirliyi Lənkəran rayon şöbəsinin dünən axşam gördüyü tədbirlər sayəsində əldə olunan nəticə, hesab edirəm ki, çox böyük əhəmiyyətə malikdir. Respublikaya məlumdur ki, Azərbaycanın dövlətçiliyinə böyük xəyanət məhz 1994-cü il sentyabrın 21-də başlanıbdır. Sentyabrın 20-də böyük neft müqaviləsi imzalanandan sonra Milli Təhlükəsizlik Nazirliyinin təcridxanasından dövləti cinayət etmiş dörd nəfər məhbus – Rəhim Qazıyev, Əlikram Hümbətov, Baba Nəzərli və Arif Paşayev çıxarılmışdı və onlar həmin vaxtdan axtarışda idilər. Bir müddətdən sonra Arif Paşayev gəlib bəyanat verdi ki, o, üzə çıxmaq istəyir. O, üzə çıxdı, onun haqqında müəyyən istintaq gedib, məhkəmə olub, amma hələ bir nəticə verməyib. Güman edirəm ki, bunlar da öz nəticəsini verməlidir. Ancaq Rəhim Qazıyev və Əlikram Hümbətov bəyanatlar verirdilər, Azərbaycanın dövlətçiliyini, respublikanı hədələyirdilər, cürbəcür vərəqələr yayırdılar. Rəhim Qazıyev əhali arasında cürbəcür kasetlər yayır, camaatda müəyyən bir çaşqınlıq yaratmağa, yaxud da ki, sabitliyi pozmağa cəhd edirdi.

Təəssüf ki, hüquq-mühafizə orqanlarının – Daxili İşlər Nazirliyinin, Milli Təhlükəsizlik Nazirliyinin, başqa orqanların apardıqları tədbirlərdən bir nəticə əldə edilmirdi. Çoxlu məlumatlar daxil olurdu ki, məsələn, Əlikram Hümbətov Azərbaycandadır, Lənkəran bölgəsindədir. Ancaq bir nəticə əldə edilə bilmirdi. Dünən nəticə əldə olunub. Əlikram Hümbətov yaxalanıb, tutulubdur.

Demək lazımdır ki, o, gizli vəziyyətdə olduğu zaman da Rəhim Qazıyev ilə birlikdə, onlar isə Moskvada olan cinayətkarlarla – Ayaz Mütəllibovla, Surət Hüseynovla, başqaları ilə birlikdə Azərbaycanda yenə də dövlət çevrilişi etmək, ictimai-siyasi sabitliyi pozmaq üçün cəhdlər göstərirdilər, bəzi bəyanatlar verirdilər. Əlikram Hümbətovun çirkin əməlləri son zamanlar yenə də üzə çıxmağa başladı. Onlar dövlətçiliyimizin əleyhinə Lənkəranda bəzi vərəqələr yaymışdılar, rayon polis şöbəsi bunları tapmışdı. Bundan sonra biz hüquq-mühafizə orqanlarına bir daha ciddi göstərişlər verdik ki, axtarışlarla ciddi [155-156] məşğul olsunlar və nəhayət, cinayətkarlar tapılıbdır. Çox əhəmiyyətlidir ki, Əlikram Hümbətovla birlikdə, onların qaçmasında iştirak edən, Milli Təhlükəsizlik Nazirliyi təcridxanasının rəisi Faiq Mirzəyev də tapılıb. O da onlarla birlikdə qaçmışdı.

Yayılan vərəqələrdə onun bəyanatı da dərc olunmuşdu. Mən milli təhlükəsizlik nazirinə demişdim, siz o vərəqəni tapdınızmı ?

**Milli təhlükəsizlik naziri Namiq Abbasov:**

- Bəli, bizdədir.

**Azərbaycan Prezidenti Heydər Əliyev:**

- Həmin vərəqədə onun imzası ilə dövlətçiliyimizin əleyhinə bəyanat dərc olunmuşdur.

Mən Respublika Daxili İşlər Nazirliyinin fəaliyyətini bəyənirəm: nəinki bunları yaxalayıblar, artıq Bakıya gətiriblər. Eyni zamanda onlara orada havadarlıq edənlər, gizlədənlər həbs olunublar (daxili işlər naziri burada onların adlarını dedi). Şübhəsiz ki, onlar qanun qarşısında cavab verməlidirlər. Onların həbs olunması da tamamilə əsaslıdır.

Bu, böyük hadisədir. O mənada ki, bu hadisə dövlətçiliyimizin nə qədər möhkəm olduğunu bir daha sübut edir. İkinci tərəfdən, bu onu sübut edir ki, heç bir cinayətkar cəzasız qalmayacaq, qaçıb canını qurtara bilməyəcəkdir. Belə cinayətkarlar gec-tez yaxalanacaq və haqq-ədalət məhkəməsi qarşısında duracaqlar. Bu mənada mən bu vəziyyəti – cinayətkarların hüquq-mühafizə orqanları tərəfindən tapılmasını ictimai-siyasi həyatımızda böyük nailiyyət, hadisə kimi qiymətləndirirəm. Buna görə də mən birinci növbədə Lənkəran Rayon Polis Şöbəsinə, onun rəisinə və bu əməliyyatda iştirak edən işçilərə təşəkkürümü bildirirəm.

Milli təhlükəsizlik naziri Namiq Abbasov dedi ki, bu məlumatın alınmasında və əməliyyatın aparılmasında Milli Təhlükəsizlik Nazirliyinin işçiləri də iştirak ediblər. Əgər belə olubsa, onlara .da təşəkkürümü bildirirəm.

Daxili İşlər Nazirliyinə, nazirliyin rəhbərliyinə təşəkkürümü bildirirəm.

Görürsünüz ki, pis işləyəndə, yaxud da işləyə bilməyəndə, vəzifə borcunu yerinə yetirməyəndə biz tənqid də edirik, danlayırıq da, cəzalandırırıq da və lazım olanda işdən də azad edirik. Ancaq müvəffəqiyyət, nailiyyət əldə olunanda dərhal qiymətləndiririk. Bütün bu əməliyyatı aparıb, bu cinayətkarları yaxalayıb dövlətimizin sərəncamına vermiş adamların hamısına [156-157] mən bir prezident kimi təşəkkür edirəm. Güman edirəm ki, bu barədə sonra konkret sərəncamlar olacaqdır. Təşəkkür edirəm.

Bir də deyirəm, hesab edirəm ki, Əlikram Hümbətovun yaxalanması və onların qaçırılmasında iştirak edən Faiq Mirzəyevin yaxalanması həmin o cinayətin açılmasına çox kömək edəcəkdir. Çünki respublikamızda təəssüf ki, çox cinayətlər baş verib. Ancaq 1994-cü ilin sentyabrın 21-dən başlayan cinayətlər – o vaxt həmin bu cinayətkarların qaçması, sentyabrın sonunda terrorçular tərəfindən Azərbaycanın iki dövlət xadiminin qətlə yetirilməsi və bundan sonra dövlət çevrilişinə cəhd edilməsi ən ağır cinayətlərdir.

Ramil Usubov istintaq sirlərini hələ vermək istəmir və belə də lazımdır. Ancaq artıq ilkin məlumatlar da göstərir, bəli, belə də düşünürdük – bizim mülahizələrimiz, tədqiqatlarımız, təhqiqat nəticəsində əldə etdiyimiz nəticələr təsdiq olunur. Təsdiq olunur ki, keçən il oktyabrın əvvəlində başlanan dövlət çevrilişi cəhdinin əsası sentyabrın 21-də həmin o əməliyyatla qoyulmuşdu. Bu, verilən ilkin ifadələrdən də təsdiq olunur. Ona görə də bu, çox mühüm bir haldır. İctimaiyyətimiz də bunu bilməlidir. Bir daha deyirəm və cinayətkarlar bir daha bilməlidirlər ki, cinayət əməllərindən əl çəkmək lazımdır.

Azərbaycanın dövlətçiliyi günü-gündən möhkəmlənir, güclənir. Ona görə də heç bir cinayətkar burada öz istədiyinə nail ola bilməyəcəkdir. Düz yola gəlmək, cinayətlərdən geri çəkilmək, qanun-qaydalara riayət etmək hər bir vətəndaşın rahat yaşaması üçün şərtdir və bu şərtdən istifadə etmək lazımdır.

İndi respublikanın baş prokuroru Eldar Həsənov bu barədə də, istintaqla da əlaqədar, o cümlədən iyulun 30-da körpünün partladılması cəhdi ilə əlaqədar qaldırılmış işin istintaqı haqqında bu auditoriyada deyilə biləcək qədər məlumat versin.

## YEKUN SÖZÜ

Mən görüşümüzün əvvəlində dedim, indi də deyirəm: iyulun 30-da Sabunçu rayonunun ərazisində körpünü partlatmaq, terror əməliyyatı, terror aktı həyata keçirmək məqsədi ilə orada gizlədilmiş partlayıcı maddələrin tapılması, bundan sonra və ondan öncə aparılan əməliyyat-istintaq tədbirləri respublikada ağır cinayətin qarşısını ala bilmişdir. Bu, böyük əhəmiyyətli işdir. Respublika ictimaiyyəti körpünün altında gizlədilmiş [157-158] dəmir qutularda olan partlayıcı maddələri televiziya vasitəsilə görmüşdür. Biz hamımız da görmüşük və təsəvvür edə bilirik ki, əgər bu cinayətin qarşısı alınmasaydı və belə bir terror aktı həyata keçirilsəydi, Azərbaycan böyük faciə ilə üzləşə bilərdi.

Mən nəzarət edirəm, bu günlərdə əməliyyat-istintaq işləri çox sürətlə, deyə bilərəm ki, səmərəli gedir. Ümidvar olduğumu bildirmək istəyirəm ki, belə sürət, səmərəlilik, keyfiyyət bundan sonra da davam edəcəkdir ki, cinayətin üstü tamamilə açılsın və cinayətkarların hamısı qanun qarşısında cavab versin.

Bu fakt bir daha onu göstərir ki, respublikaya xəyanət edən qüvvələr Azərbaycana nə qədər böyük zərbə vurmaq istəyirlər. Dövlət çevrilişi cəhdləri, ayrı-ayrı adamlara qarşı terror niyyətləri baş tutmadı, indi əgər nail olsaydılar, böyük miqyaslı terror aktı həyata keçirməklə Azərbaycanı çox faciəli vəziyyətə sala bilərdilər. Onların hamısı, həmin bu cinayətkarlar, o cümlədən Mahir Cavadov, Elçin Əmiraslanov, onlarla əlbir olub

Moskvada oturan adamlar, Azərbaycandan qaçmış o cinayətkarlar və Azərbaycanın daxilində onlara havadarlıq edənlər ölkəni dağıtmaq məqsədi güdürlər. Başqa heç bir şey ola bilməz. Çünki bu, ayrı-ayrı adamlara qarşı olan cinayət deyil, bütün Azərbaycan dövlətçiliyinə, onun müstəqilliyinə qarşı cinayətdir.

Mən çox məmnunam ki, əməliyyat işçilərimiz bunun qarşısını ala bildilər. Ona görə də bu işlə əlaqədar bu gün bir daha Respublika Prokurorluğuna, Daxili İşlər Nazirliyinə, Milli Təhlükəsizlik Nazirliyinə, Xüsusi İdarəyə bilavasitə və ya dolayısı ilə aidiyyatı olan başqa orqanlara tapşırıram ki, əməliyyat-istintaq işlərinin aparılması üçün lazımi şərait yaradılsın və tezliklə cinayət açılsın, bütün cinayətkarlar tapılıb aşkara çıxarılaraq ifşa olunsunlar və məhkəmə qarşısında dayansınlar.

Dünən əməliyyat işçilərinin Lənkəranda gördükləri işi mən artıq qiymətləndirdim və təşəkkürümü də bildirdim. Bir daha qeyd etmək istəyirəm ki, bunun çox böyük əhəmiyyəti var. Güman edirəm ki, bu böyük cinayətlərin üstünü açacaqdır. Yaxalanmış həmin adamlarla aparılan istintaq işi keçən ilin nəinki sentyabr ayından, həm də 1994-cü ilin əvvəlindən, təxminən may ayından Azərbaycanda dövlət çevrilişi hazırlamağa cəhd göstərən qüvvələrin – həm daxildəki, həm də xaricdəki qüvvələrin cinayətlərinin bir qismini açacaqdır. Biz bir [158-159] daha bunun şahidi olacağıq ki, bəzi insanlar öz çirkin əməllərini həyata keçirmək üçün nəinki xalqın, dövlətin, millətin mənafeyini tapdalayırlar, eyni zamanda ölkəni dağıtmağa hazırdırlar, təki öz şəxsi məqsədlərinə nail olsunlar.

Təəssüf ki, son illər Azərbaycanda belə insanlar peyda olublar. Təəssüf ki, onların bəziləri yüksək vəzifələr tuta biliblər. Təəssüf ki, onların bu çirkin əməlləri nəticəsində xalqımız çox böyük əzab-əziyyət çəkmişdir. Eyni zamanda onu da qeyd etmək lazımdır ki, son dövrdə biz belə adamlardan təmizlənirik, respublikamızın ictimaiyyətini, respublikamızı belə adamlardan xilas edirik və güman edirəm ki, bundan sonra da xilas edəcəyik.

Mən əminəm ki, respublikamızın əhalisi, Azərbaycanın bütün vətəndaşları əmin-amanlıq, sabitlik istəyir, rahat yaşamaq və belə cinayətkarlardan yaxalarını qurtarmaq istəyirlər. Təsəvvür edin, əgər o cinayətkarlar bir belə zərbə aldıqdan, dağıdıldıqdan sonra qaçıb respublikanın hüdudlarından kənarda olduqları bir zamanda da Bakının ən böyük körpüsünü Bakıda demək olar, ondan böyük körpü yoxdur – partladıb Azərbaycana belə bir zərbə vurmaq istəyirlərsə, görün son illər burada yaşadıqları, fəaliyyət göstərdikləri zaman öz cinayət əməlləri ilə Azərbaycanın ictimaiyyətinə, cəmiyyətinə, ayrı-ayrı insanlara nə qədər əzab-əziyyət, işgəncə. veriblər, məhrumiyyətlərə məruz qoyublar, zərbə vurublar! Onların insanları soyması, raketlə, quldurluqla məşğul olması, qeyri-qanuni hərəkətlərlə dövlət əmlakını, xalqın əmlakını mənimsəməsi, insanlara qarşı vəhşi cinayətkarlıq etməsi – bunlar hamısı yaxın keçmişin həyatını xarakterizə edən hallardır, bunlar hamımızın xatirindədir, çoxlarımızın gözü qarşısında olubdur. Biz indi Azərbaycan xalqını bax belə cinayətkarlardan xilas edərkən nəinki xalqımızı, müstəqil dövlətimizi bu cinayətkarlardan təmizləyirik, həm də hər bir vətəndaşımızın rahat yaşaması üçün şərait yaradırıq.

Mən dəfələrlə demişəm, bu gün bir daha deyirəm: həmin o Xüsusi Təyinatlı Polis Dəstəsinin əlində nə qədər silah, sursat vardı, onun üzvləri azğınlıq edirdilər, qanunlara nəinki tabe olmur, əksinə, onların hamısını pozurdular, istədiklərini edirdilər, hansı mehmanxanada, hansı rayonda nə istəyirdilərsə onu edirdilər. İnsanlar onların qorxusundan nə qədər alçalırdılar, mənəviyyatları nə qədər tapdalanırdı. Bunlar hamısı yaxın keçmişdə olan vəziyyətdir. Biz xalqımızı bunlardan xilas etmişik [159-160] və xilas edirik. Doğrudur, indi bunlar bütün güclərini qoyublar ki, Azərbaycan prezidentini, Heydər Əliyevi məhv etsinlər ki, bəlkə ondan sonra yenə də öz keçmiş işlərinə qayıda bilələr. Ancaq xalq da, ədalət də, görünür ki, Allah da haqqın, ədalətin tərəfindədir. Ona görə bunların bütün bu çirkin əməlləri aşkar olunur və ifşa edilir. Güman edirəm ki, onlar ifşa olunacaqlar.

Ona görə də hüquq-mühafizə orqanlarından bir daha tələb edirəm ki, işlərini, bütün əməliyyatlarını daha da gücləndirsinlər. Son dövrdə əldə etdikləri müsbət nəticələr göstərir ki, onlar həm yaxşı əməliyyat işi, həm yaxşı istintaq işi apara bilərlər, həm də hüquq-mühafizə orqanları kimi daxili ictimai-siyasi asayişin qorunması, qanunlara riayət olunması işinin öhdəsindən gələ bilərlər. Əmin olduğumu bildirmək istəyirəm ki, onlar əldə etdikləri nailiyyətlərdən, bunlara verilən yüksək qiymətdən ruhlanaraq bundan sonra daha yaxşı işləyəcəklər. Əminəm ki, bütün cinayətkarlar aşkar olunacaq, heç bir cinayətkar öz istədiyinə nail ola bilməyəcəkdir. Onların hər biri qanun qarşısında cavab verəcəkdir.

Ona görə bu gün cinayətkarlara da, onların qohum-əqrəbalarına da müraciət edirəm ki, artıq bəsdir, bu cinayət əməllərindən əl çəkib dövlətin qanununa, qaydasına riayət edərək yaşamaq, işləmək lazımdır. Dövlətə sədaqətlə xidmət etmək lazımdır.

Sağ olun. [160-161]

## BÖYÜK QAZAX ŞAİRİ ABAY KUNANBAYEVIN ANADAN OLMASININ 150 İLLİYİNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ YIĞINCAQDA ÇIXIŞ

*Almatı*

*9 avqust 1995-ci il*

Möhtərəm Qazaxıstan prezidenti Nursultan Nazarbayev!
Hörmətli xanımlar və cənablar!
Hörmətli qazax qardaş və bacılar!

Mən buraya bizim böyük dostumuz Nursultan Nazarbayevin dəvəti ilə, Azərbaycan xalqının dostluq hisslərini qardaş qazax xalqına bildirmək, bu bayram gününün sevincinə şərik olmaq üçün gəlmişəm. Zənn edirdim ki, bugünkü təntənəli yığıncaqda prezident Nursultan Nazarbayevin və təbii ki, YUNESKO-nun baş katibi, hörmətli Federiko Mayorun çıxış etmələri nəzərdə tutulmuşdur. Sonra gördüm ki, bir ucdan çıxış edirlər. Öz-özümə fikirləşdim ki, görəsən, mənə niyə söz vermirlər. Fikirləşdim, fikirləşdim, nəhayət, Nursultan Abışeviçə müraciət etdim: necə yəni, hamı çıxış edir, hamı danışır, mən isə buraya susmaq üçün gəlmişəm? O dedi ki, biz başqa cür planlaşdırmışıq, lakin alınmadı. İndi ki belədir, onda mənə də söz verin.

Bu kürsüyə ona görə çıxdım ki, böyük Abaya, onun irsinə, dost qazax xalqına, müqəddəs Qazaxıstan torpağına Azərbaycan xalqının bəslədiyi dostluq hisslərini, hörmət və məhəbbəti ifadə edim. Əziz qardaş və bacılar, əziz dostlar, sizi bu bayram münasibətilə ürəkdən təbrik edir, Qazaxıstanın bütün vətəndaşlarına, qazax xalqına xoşbəxtlik və firavanlıq diləyir, bu çətin keçid dövründə bizim respublikamız kimi sizin respublikanızın da qarşısında duran bütün vəzifələrin, problemlərin müvəffəqiyyətlə həll olunmasında uğurlar arzulayıram.

Abay, onun yaradıcılığı bütün bəşəriyyətə, bütün xalqlara məxsusdur. Təbii ki, bu, qazax xalqının xoşbəxtliyidir. Çünki onun belə görkəmli övladı, alimi, maarifçisi var və o öz xalqını xoşbəxtliyə və firavanlığa aparan düzgün yol göstərmişdir. Bununla yanaşı, o, bütün bəşəriyyətə, eyni zamanda Azərbaycan xalqına məxsusdur. Biz Azərbaycanda Abayın yaradıcılığının əhəmiyyətini yüksək qiymətləndiririk. Abayın yaradıcılığı Azərbaycan xalqına, bütün Azərbaycan vətəndaşlarına yaxşı məlumdur. Şairlərimizin, yazıçılarımızın bir çoxu onun əsərlərini tərcümə etmişdir. Onun şerləri, [161-162] poemaları respublikamızda nəşr olunmuşdur. Sizin kimi, biz də bu bayramı mədəniyyət və dostluq bayramı kimi təntənəli şəkildə qeyd edirik.

Abayın yaratdıqlarının, bugünkü nəslə irs qoyduğunun hamısı indi həyata keçirilir. Ona görə də belə hesab edirəm ki, bugünkü bayram qazax xalqının milli dirçəliş bayramı, qazax xalqının milli istiqlaliyyət bayramı, qazax xalqının millilik bayramıdır. Abay məhz bu barədə düşünmüş, məhz bu barədə yazmışdır.

Həmin dövr, həmin gün gəlib çatmışdır. Qazax xalqı özünün milli istiqlaliyyətini, milli azadlığını əldə etmişdir. Qazax xalqı geniş torpaqlarının sahibidir, öz həyatını istədiyi kimi qurur. Belə hesab edirəm ki, Abayın bayramı onun məhz bu gün həyata keçən ideyalarının təntənəsinin bayramıdır. Bu bayram münasibətilə sizi ürəkdən təbrik edir, hamınıza xoşbəxtlik və firavanlıq arzulayıram. Qazax xalqı öz tarixinin mürəkkəb dövrünü yaşayır. Bu dövrü hamımız, o cümlədən də Azərbaycan xalqı, müstəqil Azərbaycan Respublikası da yaşayır. Lakin biz əminik ki, siz bu çətinlikləri aradan qaldıracaqsınız. Mən bu gün burada, bu yüksək kürsüdən çıxış etməyimdən şadam. Yeri gəlmişkən deyim ki, mən 25 il əvvəl də bax burada dayanmışdım. Xoşbəxtəm ki, 25 ildən sonra yenə bu zalda, bu kürsüdən sizi təbrik etmək imkanım var.

Biz inanırıq ki, qazax xalqı bu çətinlikləri aradan qaldıracaq. Qazax xalqı düz yolla, demokratiya, milli dövlət quruculuğu yolu, özünün milli ənənələrini inkişaf etdirmək yolu ilə gedir. Bu, bizim səylərimizə, planlarımıza, istəklərimizə də tamamilə uyğun gəlir. Biz də bu yolla gedirik. Ona görə də mən tamamilə əminəm ki, Azərbaycan xalqı kimi siz də bu yolu uğurla başa vuracaqsınız. Biz müstəqil, suveren dövlətlər kimi geniş inkişaf yoluna çıxacaq və bu yolla irəliləyəcəyik. Keçmişdən bizə irs qalan hər şeyin, böyük Abayın, xalqlarımızın böyük övladlarının qoyub getdikləri irs zəminində mədəniyyətimizi, elmimizi, iqtisadiyyatımızı inkişaf etdirmək və öz xalqımızı xoşbəxtliyə çıxarmaq üçün irəliləyəcəyik.

Bu bayram münasibətilə sizi bir daha təbrik edir və Azərbaycan xalqının dostluq, qardaşlıq hisslərini sizə yetirirəm.

Yaşasın Azərbaycan-Qazaxıstan dostluğu!
Yaşasın Qazaxıstan-Azərbaycan dostluğu!
Abaya eşq olsun!
Qazax xalqına eşq olsun!
Qazaxıstan torpağına eşq olsun! [162-163]

## BÖYÜK QAZAX ŞAİRİ ABAY KUNANBAYEVİN 150 İLLİK YUBİLEYİNDƏ İŞTİRAK EDƏN DÖVLƏT BAŞÇILARININ VƏ NÜMAYƏNDƏ HEYƏTLƏRİ RƏHBƏRLƏRİNİN ŞƏRƏFİNƏ RƏSMİ QƏBULDA NİTQ

*Almatı*

*9 avqust 1995-ci il*

Əziz dostlar!

Qazaxıstanın hər yerindən, dünyanın bir çox ölkəsindən biz hamımız, o cümlədən prezidentlər, hökumət başçıları, müxtəlif nümayəndə heyətlərinin rəhbərləri buraya qazax xalqının görkəmli oğlu Abay Kunanbayevin 150 illiyini qeyd etmək üçün toplaşmışıq. Bu, çox böyük əhəmiyyəti olan hadisədir. Biz buraya Abay yaradıcılığına, Abay şəxsiyyətinə, Abay irsinə rəğbət hisslərimizi, Abayın varislərinə, Qazaxıstan xalqına, qazax xalqına səmimi və dostluq hisslərimizi bildirmək üçün gəlmişik. Bugünkü şənliklər Abayın vəsiyyətlərinin, onun arzularının, yazdıqlarının, öz xalqına tövsiyələrinin, xalqın ondan öyrəndiyi ideალların necə uğurla həyata keçirilməkdə olduğunu parlaq şəkildə nümayiş etdirir. Bu, böyük səadətdir.

Mən bu gün, saraydakı çıxışımda dedim ki, 25 il bundan əvvəl ilk dəfə Qazaxıstanda olmuş və Azərbaycan xalqı adından Qazaxıstan xalqını təbrik etmişdim. Əsrin dörddə biri qədər vaxt keçmişdir. Qazaxıstan xalqı tərəqqi etmiş, qol-qanad açmış, özünün bütün ərazisinin, bütün çöllərinin, bütün torpaqlarının sahibi olmuşdur. İndi Qazaxıstan müstəqil dövlətdir. Qazax xalqı öz taleyinin sahibidir və öz məsələlərini istədiyi kimi həll edir. Böyük Abay bunu arzulayırdı. Böyük Abay öz xalqına bunu diləyirdi. Bu arzu, dilək həyata keçmişdir. Bu şənliklər də Abayın vəsiyyətlərinin təntənəsi, sonrakı nəsillərin inkişaf etdirdikləri, artırdıqları və bu gün belə geniş miqyasda intişar tapan fikirlərin təntənəsidir.

Qazaxıstan dünyanın böyük dövlətlərindəndir, dünya birliyində layiqli yer tutur və qazax xalqı, Qazaxıstanın müstəqil dövləti milli dövlət quruculuğu, xalqın taleyi, bu günü və gələcəyi ilə bağlı məsələləri uğurla həll edir. Bu isə Abayın ideya[163-164]larının həyata keçməsinin parlaq təcəssümüdür. Bu bayram Abay ideyalarının təntənəsi bayramı, milli bayram, qazax xalqının millilik bayramı, onun milli müstəqilliyinin, milli azadlığının bayramıdır. Bu bayram münasibətilə sizi bir daha təbrik edir, bir daha salamlayıram.

Bu gün qazax xalqına layiqli rəhbər, Qazaxıstanın rəhbəri, bizim əziz dostumuz Nursultan Nazarbayev başçılıq edir! Abay arzu edirdi ki, onun ardıcılları – həm mütəfəkkirlər, həm ideoloqlar, həm yazıçılar, həm bəstəkarlar, həm müğənnilər, həm də dövlət xadimləri olsun. İndi Qazaxıstan bütün bu imkanlara malikdir. Lakin ən başlıcası budur ki, ərazisinə, iqtisadiyyatına, bəzi başqa cəhətlərinə görə mürəkkəb olan bu ölkəyə bir çox illər ərzində uğurla rəhbərlik edən bir dövlət xadimi var.

İndi təkcə Qazaxıstan deyil, keçmiş Sovet İttifaqının bütün başqa respublikaları da keçid dövrünü yaşayırlar. Şübhə yoxdur ki, qazax xalqı bu dövrü uğurla keçib gedəcəkdir. Şübhə yoxdur ki, qazax xalqı qarşıdakı referendumda öz konstitusiyasını qəbul edəcəkdir. Əlbəttə, biz Qazaxıstanın daxili işlərinə qarışmırıq, lakin dost kimi arzu edirik ki, konstitusiya qəbul olunsun, xalq məhz getmək istədiyi yolu seçsin, özünün layiqli rəhbəri Nursultan Nazarbayev başda olmaqla istədiyi yolla getsin. Bu, zamanın tələbi, bütün xalqlar, o cümlədən də qazax xalqı üçün yaranmış imkandır. Heç şübhə yoxdur ki, qazax xalqı bütün bu imkanlardan istifadə edəcəkdir.

Qazaxıstanın şərəfinə, qazax xalqının şərəfinə, Qazaxıstanda yaşayan bütün xalqların şərəfinə, müstəqil Qazaxıstan Respublikasının şərəfinə, böyük Abayın varislərinin şərəfinə, Qazaxıstanın rəhbərinin, Qazaxıstanın ilk prezidentinin və layiqli prezidentinin, bizim dostumuz, möhtərəm Nursultan Nazarbayevin şərəfinə badə qaldırmağı təklif edirəm. [164-165]

## AZƏRBAYCAN RESPUBLİKASININ YENİ KONSTİTUSİYA LAYİHƏSİNİ HAZIRLAYAN KOMİSSİYANIN GENİŞ İCLASINDA NİTQ

*Prezident Sarayı*

*16 avqust 1995-ci il*

Hörmətli komissiya üzvləri, iclas iştirakçıları! Bu gün Azərbaycan Respublikasının Konstitusiyasını hazırlayan komissiyanın növbəti iclasıdır. Bu iclasda biz indiyədək gördüyümüz işlərin yekunu, eyni zamanda konstitusiya layihəsinin hazırlanması haqqında danışmaq məqsədindəyik.

Xatirinizdədir ki, bu il iyun ayının 3-də konstitusiya komissiyasının ilk iclası keçirildi. O vaxt biz konstitusiya komissiyasının qarşısında duran bu vəzifələri müəyyən etdik: birincisi – Azərbaycan Respublikası Konstitusiyasının layihəsini, ikincisi – Azərbaycan Respublikasının parlamentinə seçkilər üçün qanun layihəsini hazırlamaq.

Seçkilərin keçirilməsi vaxtını müəyyən etdiyimizə görə qanun layihəsinin konstitusiya layihəsindən öncə hazırlanmasını lazım bildik. Çünki biz bu il parlament seçkiləri keçirməliyik. Bildiyiniz kimi, parlamentə seçkilər noyabrın 12-nə təyin olunub.

Beləliklə, konstitusiya komissiyası birinci növbədə öz işini Milli Məclisə, yəni Azərbaycanın parlamentinə seçkilərin keçirilməsi ilə əlaqədar qanun layihəsinin hazırlanmasına həsr etdi. Biz konstitusiya komissiyasının bir neçə iclasını keçirdik və ilk iclasda bu layihələrin hazırlanması üçün işçi qrupu ayırdıq. İşçi qrupu xeyli müddət işlədi, seçki qanunu layihəsinin bir neçə variantını hazırladı. Onlara konstitusiya komissiyasında baxıldı və nəhayət, komissiyanın ümumi fikrini əks etdirən layihə meydana çıxdı. Seçkilərin keçirilməsi haqqında qanunun həmin layihəsi Milli Məclisə təqdim olundu. Milli Məclis bu layihəni müzakirə etdi.

Konstitusiya komissiyası tərəfindən, mənim tərəfimdən təqdim edilmiş bu layihə ilə yanaşı, Milli Məclisdə başqa layihələr də irəli sürüldü və Milli Məclis öz iclaslarında onları da nəzərdən keçirdi, bu layihələr də müəyyən qədər müzakirə [165-166] olundu. Bütün bunların nəticəsində avqustun 12-də Milli Məclis konstitusiya komissiyası tərəfindən təqdim olunmuş layihəni müzakirə edib seçkilər haqqında qanun qəbul etdi. Bu qanun artıq qəbul olunub və mən dünən bu qanunu imzalamışam.

Bu gün mən konstitusiya komissiyasının üzvlərinə, işçi qrupuna və buraya dəvət olunan şəxslərə bildirmək istəyirəm ki, bu qanun çox gərgin, səmərəli işin nəticəsində meydana çıxıbdır. Konstitusiya komissiyasında əvvəldən qarşımıza qoyduğumuz məqsəd bundan ibarət idi ki, seçkilər haqqında qanun konstitusiya qanunudur, qəbul edəcəyimiz konstitusiyanın bir bölməsi, bir hissəsidir. İstiqamət bundan ibarət olub ki, biz həm konstitusiyamızı, həm parlamentin təşkil olunmasını bu strateji yolumuz əsasında qurmalıyıq. Yəni konstitusiyamız da, yaradacağımız parlament də və parlamentin yaradılması üçün keçirilən seçkilər də respublikamızda seçilən həmin strateji məqsədə – Azərbaycanın müstəqilliyi, respublikamızda hüquqi, demokratik, sivilizasiyalı, dünyəvi dövlət qurulması, ölkəmizin həyatında – iqtisadiyyatda, sosial sahədə ciddi dəyişikliklər edilməsi və Azərbaycanın bir müstəqil dövlət kimi yaşaması məqsədinə uyğun olmalıdır: həm seçki qanunu, həm də konstitusiyamız, əsas qanunumuz. Bizim təqdim etdiyimiz layihə məhz bu tələbləri əks etdirən bir layihə idi. Milli Məclisdə də bütün müzakirə bu istiqamətdə getmişdir və müzakirə nəticəsində qanun qəbul olunmuşdur.

Mən Milli Məclisdə müzakirədən sonra təqdim olunmuş qanun sənədini imzalayarkən şübhəsiz ki, onu çox diqqətlə oxudum və verilmiş layihə ilə qəbul edilmiş qanun arasındakı fərqlərə xüsusi diqqət yetirdim. Bu baxımdan deyə bilərəm ki, birincisi, təqdim olunmuş layihə Milli Məclis tərəfindən prinsip etibarı ilə qəbul olunubdur və demək, konstitusiya komissiyasının hazırladığı layihəni Milli Məclis də bəyənib və qəbul edibdir. Onu da qeyd etmək lazımdır ki, prinsiplər qəbul olunaraq, eyni zamanda, verilmiş layihə üzərində çox iş gedibdir. Müzakirə zamanı verilən təkliflər, düzəlişlər, dəyişikliklər çox diqqətlə təhlil olunub, baxılıb və onların bir çoxu qəbul edilmiş qanunda öz əksini tapıbdır.

Mən hesab edirəm ki, təqdim olunmuş layihə üzərində Milli Məclis çox səmərəli iş aparıbdır. Biz bunu bilirik, televiziya vasitəsilə ictimaiyyətimiz də bununla tanış olubdur. Müzakirə çox demokratik, işgüzar şəraitdə keçibdir və bütün təkliflər, [166-167] mülahizələr nəzərə alınıb, müzakirə edilib, hansı qəbul edilə bilərsə – qəbul olunubdur. Ona görə də indi mənim imzaladığım bu qanun təqdim olunmuş, layihəyə nisbətən şübhəsiz ki, xeyli təkmilləşibdir, onun üzərində çox iş aparılıbdır. Mən bu qanunu çox məmnuniyyətlə imzalamışam.

Bu qanunu imzalayarkən onun hər sətrini, sözünü bir daha oxudum, nəzərdən keçirdim. Çünki bu, çox ciddi sənəddir və onu bu gün meydana çıxarırıq! Deyə bilərəm ki, burada az bir səhifə tapmaq olar ki, orada hansısa dəyişiklik, düzəliş edilməsin. Bir də qeyd edirəm, layihədə əksini tapmış prinsipial müddəaların hamısı

qəbul olunub və Milli Məclisin də rəyini alıbdır. Ancaq eyni zamanda layihədə çox dəyişikliklər, düzəlişlər edilibdir və bunlar hamısı da onun qanun səviyyəsinə gətirilib çıxarılmasını, təkmilləşdirilməsini təmin edibdir.

Bu baxımdan Milli Məclisin gördüyü işlər layihəni təkmilləşdirib və hesab edirəm ki, qanun demokratik prinsiplərə cavab verən, demokratik parlament yaratmaq üçün əsas olan və ümumiyyətlə, respublikamızda dövlət quruculuğu sahəsində apardığımız işlər sırasında çox görkəmli yer tutan bir sənəddir. Mən hesab edirəm ki, bu qanunun qəbul olunması respublikamızda dövlət quruculuğu sahəsində görülən işlərin bir mərhələsidir, addımıdır, bir irəliləyişdir. Bu da bir daha sübut edir ki, biz tutduğumuz yol ilə gedirik. Azərbaycanda demokratik hüquqi, dünyəvi dövlət qurmağı nəinki elan etmişik, biz onu həyata keçiririk və bu sahədə çox dəyərli addımlar atırıq.

Bütün bunlara görə mən sizin hamınızı təbrik edirəm. Konstitusiya komissiyasının, işçi qrupunun üzvlərini təbrik edirəm və gördüyünüz işə görə təşəkkür edirəm. Milli Məclisə təşəkkürümü bildirirəm və onun üzvlərini gördükləri iş münasibətilə təbrik edirəm. Bir daha deyirəm, hesab edirəm ki, biz hamımız bir yerdə böyük bir iş görmüşük və bu iş özünün çox gözəl nəticələrini verəcəkdir.

Bu gün mən tam qətiyyətlə deyirəm və bütün dünyaya həyan edirəm ki, Azərbaycanda demokratik, hüquqi, dünyəvi dövlət qurmaq üçün, Azərbaycan Respublikasını öz tutduğu yol ilə – demokratiya yolu ilə aparmaq üçün biz ciddi iş görmüşük, böyük addım atmışıq və bununla da müstəqil dövlətimizin hansı yolla getdiyini dünyaya bir daha sübut edirik.

Bu qanun qəbul olunarkən, yaxud qəbul olunandan sonra müxalifət dairələrində, qəzetlərdə bəyanatlar verilib ki, guya bu, antidemokratik bir qanundur, burada demokratiyadan heç [167-168] əsər yoxdur. Mən ilk məlumatı Moskva televiziyasından dinlədim, dedilər ki, Azərbaycan Milli Məclisi seçkilər haqqında qanun qəbul edib, ancaq Milli İstiqlal Partiyasının nümayəndəsi bəyan edir ki, müxalifətin verdiyi təkliflərin heç birisi orada qəbul olunmayıb, öz əksini tapmayıb. Sonra müxalifət qəzetlərində belə bəyanatlar verilib ki, guya bu, demokratiyaya uyğun deyil, yaxud antidemokratik qanundur və verilən təkliflər guya öz əksini tapmayıb.

Şübhəsiz, müxalifət həmişə çalışır ki, iqtidara qarşı bir irad tapsın, onu tənqid etsin. Ancaq hər şeyin bir dərəcəsi, həddi olmalıdır və əgər biz sivilizasiyalı dövlət qururuqsa, hər şey sivilizasiya çərçivəsində olmalıdır. Amma sivilizasiyadan kənara çıxıb cılız bəyanatlar vermək, ifadələr işlətmək nə bəyanat verənlərin özlərinə hörmət gətirir, nə də cəmiyyətimizin daha da birləşməsinə, möhkəmlənməsinə xidmət edir. Mən buna çox təəccüb edirəm. Çünki bu layihədə edilən bütün dəyişiklikləri, əlavələri mən sizə nümayiş etdirə bilərəm ki, hansı maddədir, hansı sətirdir, hansı sözdür, hansı ifadədir. Mənə məruzə etmək üçün bütün bunların altından qırmızı xətlər çəkilib. Baxın, məsələn, bir səhifənin üçdə bir hissəsində qırmızı xətlər çəkilib. Mən hər bir səhifəni sizə göstərə bilərəm. Bu nə deməkdir? Demək, bu ya tamam dəyişilib, yaxud burada ciddi dəyişikliklər olubdur. Məsələn, gördüyünüz bu böyük abzas, səhifənin üçdə bir hissəsi dəyişilib.

**Rəsul Quliyev:** Həmin səhifədə bir maddə də çıxarılıb.

**Heydər Əliyev:** Bəli, tamamilə düz deyirsən. Burada bir maddə də çıxarılıb.

Mən vaxt almaq istəmirəm və buna ehtiyac da yoxdur, heç sübut etməyə də lüzum yoxdur. Mən bunları sadəcə olaraq deyirəm. Ona görə yox ki, kiməsə nəyisə sübut etmək istəyirəm. Ona görə ki, bizim həmkarlarımız, o cümlədən müxalifətdə duran vətəndaşlarımız, bizimlə bərabər Azərbaycanın bu günü və gələcəyi haqqında düşünməli olan adamlar – əgər onlar həqiqətən də düşünürlərsə, onlar gərək ədalətli olsunlar. Deyə bilərəm ki, parlamentin sədri Rəsul Quliyev son iclasda rəqəmlər gətirdi: neçə nəfər çıxış edib, nə qədər təklif verilib, nə qədər təklif qəbul olunubdur – bunlar hamısı məlumdur. Ancaq eyni zamanda onu deyə bilərəm və bu məlumatları mənə veriblər ki, buradakı dəyişikliklərin, əlavələrin çox hissəsini Məclisin elə müxalifətdə olan üzvləri veriblər və bunlar [168-169] qəbul edilib, qanunda öz əksini tapıbdır. Belə olan halda gərək nə qədər ədalətsiz olasan və gedib deyəsən ki, müxalifətin verdiyi təkliflərin heç birisi qəbul olunmadı, yaxud bu qanun antidemokratikdir.

Bu qanuna antidemokratik deyən kimdir? Müxalifətdə olan adamlar. Nəyə görə deyirlər? Bu qanun parlament seçkilərinin hazırlanması, keçirilməsi üçün dünyanın bütün ölkələrində, inkişaf etmiş demokratik ölkələrdə qəbul olunan qanunların hamısına uyğundur. Mən tam qətiyyətlə deyə bilərəm ki, keçmiş Sovetlər İttifaqına mənsub olmuş, indi Müstəqil Dövlətlər Birliyində olan dövlətlərin parlament seçkiləri haqqında qəbul etdiyi qanunların heç birisindən bu qanun demokratiya nöqteyi-nəzərindən aşağı səviyyədə deyil, bəlkə də çoxundan yuxarı səviyyədədir.

Bu bir həqiqətdir. Belə olan halda, bunun neyinə antidemokratik deyirsiniz? Nə barədə müzakirələr gedirdi? Birincisi, seçkilər proporsional, yaxud majoritar sistem üzrə keçirilsin? Bu məsələlər Məclisdə müzakirə olunubdur, mən vaxt almaq istəmirəm. Sadəcə olaraq, mən bu qanuna imza atdığıma görə öz fikrimi demək istəyirəm. Bilirsiniz ki, konstitusiya komissiyasında bu məsələlər müzakirə olunarkən mən hamını dinləyirdim, heç vaxt öz fikrimi söyləmirdim. İstəyirdim ki, hər kəs öz sözünü, fikrini sərbəst desin. Çünki hər bir təklifdən, sərbəst deyilən hər bir fikirdən hansısa dəyərli, xeyirli bir şey götürmək olar.

Ancaq indi ki, hər şey qurtarıb – biz layihəni təqdim etmişik, Milli Məclis müzakirə edib, qanun artıq qəbul olunub, mən də onu imzalamışam, – ona görə də mən bu barədə bir neçə kəlmə öz fikrimi demək istəyirəm.

Müxalifətdə olan bəzi şəxslər nə iddia edirdilər? İddia edirdilər ki, bu qanunun demokratik olması üçün gərək deputatların 50 faizi proporsional, 50 faizi majoritar sistem üzrə seçilsin. Harada yazılıb ki, bu demokratikdir, o demokratik deyil? Allahın göndərdiyi hansı kitabda yazılıb? Axı, bizim Qurani-Şərifdən basqa bir müqəddəs kitabımız yoxdur. Hər bir xalq, hər bir dövlət, ölkə öz dövlətini, ölkəsini özünün daxili, tarixi ənənələrinə, dünya təcrübəsinə əsaslanaraq qurub. Biz də həm öz tarixi ənənələrimizi, həm daxili mənəviyyatımızı, həm xalqımızın mentalitetini nəzərə almışıq, eyni zamanda bütün dünya təcrübəsini təhlil etmişik, nəzərdən keçirmişik, onlardan bəhrələnmişik, istifadə etmişik və bu sənədi [169-170] təqdim etmişik. Amma harada yazılıb ki, 50 faiz proporsional, 50 faiz majoritar olsa bu, demokratikdir, ancaq 80 faiz majoritar, 20 faiz proporsional olsa bu, antidemokratikdir? Bu harada yazılıbdır? Bunu kim iddia edir? Buna görə deyə bilərsənmi ki, bu, antidemokratikdir?

Başqa elə bir məsələ yoxdur, mübahisə bunun üstündə gedir: nə qədər deputat olmalıdır? Məsələn, kimsə deyir ki, gərək deputatların sayı 160 olsun, biri deyir ki, 150 nəfər olsun. Harada yazılıb ki, 150, yaxud 160 olmalıdır? 1990-cı ildə, kommunist rejimi vaxtında Azərbaycanda parlament 360 deputatdan ibarət seçilibdir. Bu 360 deputatdan ibarət parlamenti indi müxalifətdə olan adamlar zorla gətirib 50 nəfərə çatdırıblar. 50 nəfərlik parlament 1992-ci ildən indiyədək fəaliyyət göstərir. Nöqsanları kənara qoysaq, elə bu parlament də çox iş görübdür. İndi necə ola bilər ki, 50 nəfərlik parlamentlə biz 1992-ci ildən 1995-ci ilin sonunadək işləyirik, amma deyirlər ki, 125 nəfərlik parlament azdır, gəlin bunu ya 150, 145, yaxud 160 nəfərə çatdıraq. Biri istəyir 160 olsun, biri istəyir 145, 140 olsun. Yaxşı, bunun fərqi nədir? Yaxud bunların hansı əsasdır ki, 160 nəfər 125-dən daha da demokratikdir?

Bir də, axı, respublikamız o qədər də böyük deyil, o qədər vəsaitimiz yoxdur ki, 160, ya 170, 190 deputat seçilsin. Parlamentdə kimsə deyib ki, Ermənistanda parlamentə 190 deputat seçilib, biz niyə seçə bilmirik? Əgər siz Ermənistandan özünüzə, necə deyərlər, təcrübə götürmək istəyirsinizsə, gedin götürün. Ancaq axı, heç bunun da bir əsası yoxdur. Biz demirik ki, onlar bunu niyə ediblər.

Başqa bir prinsipial şey yoxdur. Nəyə görə bəyanat verirlər ki, bu, antidemokratikdir, yaxud da başqa bir qəzetdə yazılıb ki, bu, müxalifətin boğulmasıdır, nəyə görə? Parlamentdə bunu dəfələrlə deyiblər, mən yenə də deyirəm.

Dünən Milli Məclis siyasi partiyalarla əlaqədar çox gərəkli, dəyərli bir müzakirə apardı. Mən televiziya ilə əvvəldən axıradək ona baxdım, onu dinlədim. Hesab edirəm ki, vətəndaşlarımız da, respublikada yaşayan insanlar da bunu gördülər. Əgər kimsə görmədisə, yəqin görə bilər ki, bu partiyalar nədən ibarətdir və kimdən ibarətdir.

Siyasi partiyalar belə bir vəziyyətdə olduğu halda indi nə cür iddia etmək olar ki, partiyalara şərait yaratmaq üçün deputatların 50 faizi proporsional sistem üzrə seçilsin? İkincisi, hər bir partiya majoritar sistem üzrə istədiyi dairədən öz namizədini [170-171] verib keçirə bilər. Əgər bu partiyanın doğrudan da nüfuzu varsa, həmin partiya hansı dairədən istəyir, getsin öz namizədini versin və oradan da keçirsin. Buna kim mane olur? Adi bir adam gedib bir dairədən majoritar sistem üzrə seçilmək istəyir, bu hüququ alıb və seçiləcəkdir. Bəs nə üçün partiyaya mənsub olan adam gedib oradan seçilə bilməz, nə üçün? Ona görə ki, o, partiyaya mənsubdur? Milli Məclisdə bu rəqəmləri gətirdilər ki, respublikamızda 4 milyon 300 minə yaxın seçici var, ancaq dedilər ki, partiyaların üzvlərinin sayı cəmi 410 min nəfərdir. Dünənki müzakirələrdən mən belə başa düşdüm ki, bu 410 minin özü də çox böyük şübhə altındadır. Əgər bir çox partiyalar min nəfər adamın siyahısını gətirib qeydiyyata verə bilməyiblərsə bu haradan 410 min ola bilər?

Məsələn, bu qanunun müzakirəsində çox fəal iştirak edən Etibar Məmmədovla – onun təkliflərinin bir qismi bu qanunda öz əksini tapıb və bu, çox yaxşıdır – bir-iki dəfə görüşmüşəm və mənimlə söhbət zamanı o deyib ki, gəlin, bütün partiyaları seçkilərə buraxmayaq, seçkilərə o partiyalar buraxılsın ki, onların respublika rayonlarının yarısından çoxunda nümayəndəlikləri var. Çünki onda onlar ümummilli partiya olacaqlar, əgər nümayəndəlikləri yoxdursa, ümummilli partiya olmayacaqlar. Mən bununla razı deyiləm. Etibar Məmmədov bunu nə əsasda irəli sürür, mən başa düşmürəm. Necə yəni yarısından çoxu, yarısından azı? Bəlkə başqası durub deyər ki, 40 faizindən çoxu, ya 40 faizindən azı; o birisi deyər ki, 60 faizindən çoxu, yaxud 60 faizindən azı; bir başqası da deyər ki, nə üçün, mən partiyanı yaratmışam, bəlkə də mənim partiyamın rayonların bir neçəsində təmsilçisi yoxdur, amma bu o demək deyil ki, mənim partiyam yoxdur.

Bu təklifin özü elə antidemokratik bir təklifdir. Tamamilə antidemokratik təklifdir. Bu, iradi bir təklifdir. "Belə istəyirəm, qoy belə olsun". Nəyə görə? Çünki Etibar Məmmədov belə hesab edir ki, respublikanın rayonlarının ya hamısında, ya da yarısından çoxunda onun partiyasının nümayəndələri var. Amma bəziləri deyir ki, respublikanın rayonlarının yarısından azında, yaxud da ki, çoxunda yoxdur. Ona görə də onun partiyası yaxşı şərait alacaq, o biri partiyalar isə yox. Onda axı, o biri partiyaların hüquqları tapdalanır. Bunu nə cür qəbul etmək olar? Yaxşı olar ki, hər bir partiya – rayonların hamısında, azında və yaxud çoxunda nümayəndəsi varsa, əgər bu qanun [171-172] çərçivəsində həqiqətən partiyadırsa, qoy seçkilərdə iştirak etsin.

Mən deyə bilərəm ki, bundan savayı başqa bir şey görmədim ki, müxalifət tərəfindən təklif edilsin və o, qəbul olunmasın. Hər halda Rəsul Quliyev də mənə məlumatlar verirdi, sonra mən çalışırdım ki, parlamentin bu sahədəki müzakirələrinə televiziya vasitəsilə baxam.

Əgər müxalifətin təklifləri məhz bundan ibarətdirsə ki, deputatların 50 faizi, ya 20 faizi, yaxud nə qədəri proporsional sistem üzrə seçilsin və başqa bir şey deyilsə, buna görə bütün qanunu – mən hesab edirəm ki, çox dəyərli bir qanunu, Azərbaycan Respublikasının tarixində ilk dəfə qəbul olunan demokratik bir sənədi bu cür hörmətdən salmaq, yaxud ona ləkə yaxmaq, onun haqqında belə sözlər demək ədalətsizlikdir. Ümumiyyətlə, belə ədalətsiz ifadələrdən əl çəkmək lazımdır.

Bir daha deyirəm, mən hesab edirəm ki, qəbul olunmuş qanun dünya demokratiyası prinsiplərinə uyğun bir qanundur, inkişaf etmiş demokratik dövlətlərin həyata keçirdikləri seçki sistemlərinə uyğun bir qanundur. Bu qanun Azərbaycanda demokratiyanın inkişaf etməsinə, irəliyə getməsinə çox kömək edəcəkdir və çox böyük yollar açacaqdır. Sadəcə, lazımdır ki, hər bir vətəndaş, hər bir kəs, hər bir partiya parlament seçkilərində iştirak etmək istəyirsə, bu qanuna riayət etsin və öz fəaliyyətini bu qanun çərçivəsində göstərsin. Biz demokratiyanı bu yolla daha da inkişaf etdirəcəyik.

İndi qanun qəbul olunubdur və qarşımızda duran vəzifə bu qanunun həyata keçirilməsidir. Qarşımızda çox böyük iş durur. Çünki bu qanunun qəbul edilməsi nə qədər ağır, çətin idisə, onun həyata keçirilməsi, yəni parlamentə seçkilərin keçirilməsi ondan qat-qat çətindir, ağırdır.

Noyabrın 12-də parlamentə seçkilər keçirilməlidir. Qanunda bütün tədbirlərin hər birinin vaxtı, müddəti, qaydası öz əksini tapıbdır. Hamı çalışmalıdır ki, bu qanunun bütün müddəaları vaxtlı-vaxtında yerinə yetirilsin. Qanunun həyata keçirilməsini Mərkəzi seçki komissiyası edəcəkdir. Mərkəzi seçki komissiyasının sədri Cəfər Vəliyev seçilibdir. Güman edirəm ki, Milli Məclisin qarşıdakı iclasında Mərkəzi seçki komissiyasının üzvləri də seçiləcəkdir. Mərkəzi seçki komissiyası artıq işə başlamalıdır və hesab edirəm ki, Cəfər Vəliyev işə başlayıbdır.

Eyni zamanda yerli icra hakimiyyəti orqanları, ümumiyyətlə icra orqanlarının hamısı bu işə qoşulmalıdır və Mərkəzi [172-173] seçki komissiyasına kömək etməlidirlər. Milli Məclis, Mərkəzi seçki komissiyası, icra orqanları birlikdə bu qanunun həyata keçirilməsini təmin etməlidirlər.

Biz istəyirik ki, müstəqil Azərbaycan dövlətinin demokratik parlamentini yaradaq. Hər bir yeni seçkiyə gedəndə, şübhəsiz ki, həm bu seçkidə iştirak etmək istəyən adam, partiya, həm də dövlət öz platformasını müəyyən edir. Biz seçkilərə nə ilə, hansı platforma ilə gedirik? Müstəqil Azərbaycan Respublikası dövlətinin bu barədə platforması aydındır. Biz dövlət quruculuğunda strateji yolumuzu, məqsədlərimizi dəfələrlə bəyan etmişik. Mən bu gün bir daha demək istəyirəm ki, bu seçkilərdə Azərbaycanın dövlətçiliyi mövqeyindən çıxış edən və seçkilərdə iştirak etmək istəyən partiyalar, ayrı-ayrı şəxslər dövlətimizin həyata keçirdiyi xətti əsas götürməlidirlər. Bu, nədən ibarətdir? Birinci növbədə, Azərbaycan Respublikasının dövlət müstəqilliyini qoruyub saxlamaq, xalqımızın milli azadlığın böyük bir sərvət kimi qəbul edib onu əbədi etməkdir. Bu, bizim məqsədimizdir, heç kəs bizi bu yoldan döndərə bilməz və bu yolla gedirik.

İndi müstəqil Azərbaycan dövlətinin qarşısında duran ən böyük vəzifələrdən biri respublikanın pozulmuş ərazi bütövlüyünü bərpa etməkdir. Ermənistanın hərbi təcavüzü nəticəsində respublikamızın ərazi bütövlüyü pozulub. Ərazimizin bir hissəsi Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunubdur və o silahlı qüvvələrin işğalı altındadır. Müstəqil Azərbaycan Respublikasının həyatında bu ən ağır, ən çətin və ən dözülməz bir haldır.

Hər bir dövlətin müstəqilliyini nümayiş. etdirən prinsiplərdən biri onun ərazi bütövlüyü, sərhədlərinin toxunulmazlığıdır. Respublikamızın ərazi bütövlüyü pozulub, ölkəmizin beynəlxalq hüquq normalarına uyğun olan, beynəlxalq təşkilatların tanıdıqları sərhədləri, hüdudları pozulubdur. Respublikanın ərazi bütövlüyü bərpa olunmalıdır. Bilirsiniz ki, biz bu sahədə ardıcıl fəaliyyətdəyik, bütün vasitələrdən istifadə edirik və bundan sonra da istifadə edəcəyik. On beş aydır ki, atəş dayandırılıb, atışma yoxdur, güllə səsi, şəhidlər gəlmir. Şübhəsiz ki, bu, məsələnin həll olunması üçün bir vasitədir, şəraitdir. Biz çalışırıq ki, bu vasitədən, şəraitdən istifadə edək və bundan sonra da istifadə edəcəyik. Kim, hansı partiya Azərbaycan Respublikasının müstəqilliyinin əbədi olmasının tərəfdarıdırsa, gərək o, bütün səylərini bu məsələnin həll olunmasına – yəni [173-174] Azərbaycan torpaqlarının işğaldan azad olunmasına, ölkəmizin ərazi bütövlüyünün tamamilə təmin edilməsinə, sərhədlərinin toxunulmazlığının təmin olunmasına və işğal edilmiş torpaqlardan zorla çıxarılmış, qovulmuş bir milyona yaxın vətəndaşımızın öz yerinə-yurduna qayıtmasına yönəltməlidir. Bu, bizim siyasətimizin, dövlət quruculuğunda apardığımız işin əsas sahələrindən biridir. Demək, parlamentə seçilmək istəyən hər bir şəxs, seçkilərdə iştirak etmək istəyən hər bir partiya bu prinsipləri əsas götürməlidir.

Biz dünyəvi, hüquqi dövlət qururuq. İnsan hüquqlarını, hər bir vətəndaşın hüququnu qorumaq, insanlar üçün azadlıq, sərbəstlik yaratmaq, cəmiyyətimizin bütün sahələrində siyasi plüralizmə, insan, söz, vicdan azadlığına, eyni zamanda iqtisadiyyatda sərbəstliyə, təşəbbüskarlığa şərait yaratmaq, sərbəst iqtisadiyyat yolu ilə getmək yeni dövlət quruculuğunda, iqtisadiyyat sahəsində, cəmiyyətimizin formalaşmasında əsas prinsiplərdir. Biz bu yolla gedirik və Azərbaycan dövlətçiliyinə sadiq olan hər bir şəxs öz platformasını bu istiqamətdə müəyyən etməlidir və bu yolla getməlidir.

Bilirsiniz ki, bu sahədə artıq bir çox ciddi tədbirlər görülübdür. Aqrar sahədə islahatlar aparmaq üçün qanunlar qəbul olunub və onlar əməli surətdə həyata keçirilir. Ümumiyyətlə, mülkiyyətin formasını dəyişdirmək, şəxsi mülkiyyətə geniş yer vermək üçün özəlləşdirmə proqramı müzakirə edilib, qəbul olunubdur və bu yaxınlarda onun həyata keçirilməsinə başlanacaqdır. Bunlar çox böyük və ağır proseslərdir, asan işlər

deyil. Bunlar Azərbaycanda, respublikamızda on illərlə yaranmış iqtisadiyyat formalarının, ümumiyyətlə insanların iqtisadiyyatla davranış formalarının tamamilə dəyişdirilməsidir, cəmiyyətimizdə yeni bir ab-havanın yaranmasıdır. Bu, böyük bir keçid dövrüdür. Bu dövrün böyük problemləri, çətinlikləri vardır. Keçid dövrünü biz hamımız bir yerdə keçməliyik. Dövlət tərəfindən bunun üçün lazımi tədbirlər görülübdür və bundan sonra da görüləcəkdir. Şübhəsiz ki, bu parlament seçkiləri ərəfəsində, seçki kampaniyası zamanı bizim bu prinsiplər insanlara çatdırılmalı, bildirilməlidir. Bildirilməlidir ki, biz bu prinsiplərdən dönməyəcəyik və öz həyatımızı bu prinsiplər əsasında quracağıq, iqtisadiyyatımızı bu prinsiplər əsasında inkişaf etdirəcəyik.

Bunların hamısını təmin etmək üçün respublikamızın daxilində ictimai-siyasi sabitlik lazımdır. Bilirsiniz ki, Azərbaycanda [174-175] son 5-6 ildə ictimai-siyasi sabitlik həddindən artıq pozulubdur. Deməк, kim Azərbaycanı dirçəlib, qalxıb, ayaq üstündə möhkəm duran müstəqil dövlət kimi görmək istəyirsə, o, seçkiqabağı kampaniyada, seçkilər zamanı bütün səylərini bu yola həsr etməlidir ki, sabitlik, insanlar arasında sağlam münasibət yaransın, ayrı-ayrı qrupların qarşıdurması aradan götürülsün, ümumi vətəndaş birliyi, həmrəyliyi yaransın.

Bizim xarici siyasətimiz məlumdur, görülən işlər də göz qabağındadır. Xarici siyasətimizin birinci, ən əsas, fundamental məqsədi Azərbaycanın müstəqilliyini hər yerdə təmin etmək və onun müstəqilliyinə toxunan heç; bir şeyə yol verməməkdir. Siz görürsünüz ki, bu iki il müddətində başqa dövlətlərlə saxladığımız bütün əlaqələr, imzalanan sazişlər, müqavilələr, protokollar, apardığımız müzakirələr, keçirdiyimiz görüşlər yalnız və yalnız Azərbaycanın bir müstəqil dövlət kimi tanınmasına və bu müstəqilliyin daimi olmasına yönəldilibdir.

Bunun üçün son iki il müddətində çox işlər görülübdür. Dünyanın bir çox dövlətləri ilə bilavasitə əlaqələr qurulubdur. Böyük dövlətlərin başçıları ilə şəxsi görüşlər keçirilibdir, danışıqlar aparılıbdır. Çox dəyərli sənədlər imzalanıbdır. Bunlar hamısı Azərbaycanın müstəqilliyini hər gün, hər saat, hər dəqiqə təsdiq edən faktlardır.

Azərbaycan dünyanın bütün beynəlxalq təşkilatlarında təmsil olunubdur. Nəinki təmsil olunub, həm də bu qısa müddətdə dünyanın ən böyük və ən mötəbər beynəlxalq təşkilatlarında öz sözünü deyibdir. Birləşmiş Millətlər təşkilatının Baş Məclisində Azərbaycanın dövlət başçısı Azərbaycanın sözünü deyibdir. ATƏT-in üzvü olan ölkələrin dövlət başçılarının görüşündə Azərbaycanın dövlət başçısı iştirak edib və Azərbaycanın sözlərini çatdırıbdır. İslam Konfransı Təşkilatında Azərbaycan öz sözünü deyibdir, həmin təşkilatın toplantısında, eləcə də bayaq dediyim təşkilatların toplantılarında lazımi bəyanatların, sənədlərin qəbul edilməsinə nail olubdur.

Azərbaycan Müstəqil Dövlətlər Birliyinə daxil olubdur və burada özünəməxsus yer tutur, bir tərəfdən öz müstəqilliyini qoruyub saxlayaraq, eyni zamanda MDB-nin bütün imkanlarından istifadə etməyə çalışır. Başqa beynəlxalq təşkilatlarda, məsələn, Qara dəniz hövzəsi ölkələrinin iqtisadi əməkdaşlıq təşkilatında, onun parlament assambleyasında, MDB-nin parlamentlərarası assambleyasında, ATƏT-in parlament assambleyasında [175-176] Azərbaycan iştirak. edib, yerini tutub və öz mövqelərini bildiribdir.

Biz çalışmışıq və çalışırıq ki, qonşu dövlətlərlə dostluq əlaqələri yaradaq, inkişaf etdirək, bu əlaqələr bütün sahələri əhatə etsin. Buna da nail ola bilmişik. Rusiya, Türkiyə, İran ilə, Gürcüstanla çox normal əlaqələrimiz var. Doğrudur, bəzi qüvvələr çalışırlar ki, ayrı-ayrı təxribatlarla bu əlaqələri müəyyən qədər ləkələsinlər. Amma bunlar əhəmiyyətsiz şeylərdir.

NATO-nun proqramına qoşulmuşuq və imza atmışıq, biz onun iştirakçısıyıq. Avropa Birliyinin iqtisadi komissiyası ilə sıx əlaqə qurmuşuq, əməkdaşlıq edirik və onların yardımından istifadə edirik. İqtisadiyyatımızda apardığımız böyük islahatlar nəticəsində, iqtisadiyyatın sərbəstləşdirilməsi nəticəsində Ümumdünya Bankı, Beynəlxalq Valyuta Fondu ilə, dünyanın başqa maliyyə mərkəzləri ilə əməkdaşlıq edirik. Artıq bu ölkələr, bu beynəlxalq təşkilatlar Azərbaycanda demokratiyanın inkişafına, dövlət quruculuğu prosesinə kömək etmək üçün lazımi tədbirlər görür, vəsait ayırır, kreditlər verirlər. Bunlar hamısı onu göstərir ki, respublikamız özü seçdiyi yolla gedərək, müstəqilliyini hər gün, hər dəqiqə möhkəmləndirərək, eyni zamanda dünya birliyində öz yerini tutubdur.

Biz respublikamızı dünya iqtisadiyyatına açmışıq. Məsələn, Xəzər dənizinin Azərbaycan sektorunda olan neft yataqlarının dünyanın iri şirkətləri ilə müştərək işlənməsi haqqında keçən il sentyabrın 20-də Bakıda imzalanmış böyük neft müqaviləsi artıq dünyada məşhur müqavilələrdən biridir. Bu, sadəcə kağız deyil. Biz 1995-ci ilin yarısını keçmişik və mən sizə deyə bilərəm ki, bu il üçün konsorsium tərəfindən nəzərdə tutulmuş işlərin hamısı müvəffəqiyyətlə həyata keçirilir, ayrılmış vəsaitdən istifadə olunur. Yəni müqavilə kağızda deyil, əməli icradadır, müqavilə işləyir.

Ancaq, təkcə bu müqavilə deyil. Biz bütün dünyaya bəyan etmişik, dünyanın bir çox böyük şirkətləri – neft şirkətləri və başqa şirkətlər Azərbaycanın təbii sərvətlərinə, iqtisadi potensialına maraq göstərirlər, gəlirlər, əlaqələr yaratmaq istəyirlər. Bu proses gedir. Bunlar xarici iqtisadi əlaqələrimizin nə qədər geniş, nə qədər ardıcıl inkişaf etdiyini sübut edən faktlardır.

Həm daxili vəziyyətimizdə, həm də xarici siyasətimizdə əldə etdiyimiz istər nailiyyətlərlə, istərsə də bu prinsiplərlə biz seçkilərə gedirik. İndi belə olan halda mən istəyirəm öyrənim, müxalifətdə olan bu qüvvələr seçkilərə hansı prinsiplərlə getmək [176-177] istəyirlər? Əgər bu prinsiplər onlar üçün də eyni prinsiplərdirsə, onda bu müxalifətin müxalifətdə olmasının səbəbi nədən ibarətdir? Bəzi qüvvələr, müxalifətdə duran qüvvələr

narahatdır ki, ola bilər, Azərbaycanın müstəqilliyinə zərər gəlsin. Hesab edirlər ki, guya onlar Azərbaycanın müstəqilliyini indi ona rəhbərlik edən adamlardan çox istəyirlər. Ancaq həyat göstərdi, keçmiş zaman göstərdi ki, onlar səhv fikirdədirlər. Bəziləri, həmin bu müxalifətdə duranlar hesab edirlər ki, Azərbaycanda demokratiyanın daşıyıcıları yalnız onlardır və başqaları demokratiya yolu ilə gedə bilməzlər. Həyat göstərdi və qəbul olunan qanunlar, həyata keçirilən tədbirlər də onu göstərir ki, xeyr, həqiqi demokratiyanı elə biz həyata keçiririk. Azərbaycanda həqiqi demokratik prinsipləri biz möhkəmləndiririk. Bu, bizim üzərimizə düşübdür.

Azərbaycanın müstəqilliyini qoruyub saxlamaq asan bir iş deyil, bunu bilməlisiniz. Yəqin, mətbuatda az-çox verilən məlumatlardan da bilirsiniz ki, Azərbaycana nə qədər təzyiqlər olur, Azərbaycanı nə qədər sıxmaq istəyirlər, Azərbaycana qarşı nə qədər məhdudiyyətlər qoyulur. Elə həmin neft müqaviləsinin imzalanması böyük cəsarət tələb edirdi və onun imzalanmasından sonra Azərbaycanın başına gələn işlər, bəlalar sizin gözünüzün qabağındadır, xalqın gözünün qabağındadır. Müxalifətdə duran adamların, qüvvələrin də gözünün qabağındadır. Ancaq bunların heç birisi bizi, Azərbaycan prezidenti kimi şəxsən məni nə qorxutdu, nə də çəkindirdi. Müstəqillik yolu ilə getmişik, gedirik. O qədər də ağılsız adam deyilik ki, müstəqillik yolu ilə gedəndə qarşımıza nə kimi çətinliklər çıxacağını, nə kimi fəlakətlərlə qarşılaşacağımızı bilməyək. Bunu mən həmişə görmüşəm və bu gün də görürəm.

Ancaq bunların heç birisi bizi müstəqillik yolundan çəkindirmir. Bir var bu müstəqilliyi əməli surətdə, dövlət başında duraraq həyata keçirmək və bütün təzyiqlərin hamısına sinə gərmək, bir də var ki, kənarda durub, küçədə "müstəqillik, müstəqillik" deyə qışqırıb heç bir şey etməmək və ona-buna da qara yaxmaq. Əgər bütün müxalifət qüvvələrinin məqsədi Azərbaycanın müstəqilliyidirsə, böyük təzyiqlərlə rastlaşmağımıza baxmayaraq, biz bunu təmin edirik. Dəfələrlə demişəm ki, müstəqillik bizim üçün əbədidir. Əgər müxalifətdə duran qüvvələr özlərini doğrudan da demokratik qüvvələr və demokratiyanın daşıyıcıları hesab edirlərsə, biz demokratiyanı sözdə yox, əməli surətdə həyata keçiririk. Belədirsə, nə üçün gərək [177-178] aramızda müxalifət – hakimiyyət münasibətləri olsun? Demək, belə çıxır ki, prinsipial məsələlərdə müxalifət ilə hakimiyyətdə olan qüvvələr arasında fərq yoxdur. Onda bu müxalifətin məqsədi nədir? Yalnız hakimiyyətə gəlmək, vəzifəyə gəlmək! Ancaq bir ölçüb-biçmək lazımdır ki, sən hakimiyyətə gələndən sonra bu yükü daşıya biləcəksən, yoxsa daşıya bilməyəcəksən? Bu ağırlığı çiynində apara biləcəksən, ya bilməyəcəksən? Bunu bacara biləcəksən, ya bacara bilməyəcəksən? Təcrübə də, tarix də göstərdi ki, bəziləri, o hayqırıb-qışqıranlar hakimiyyətə gələndən sonra bu yükü apara bilmədilər.

Ona görə də mən bu sözlərimlə heç də Azərbaycanda müxalifəti ləğv etmək və ya məhv etmək fikrində deyiləm. Əksinə, hər bir demokratik cəmiyyətdə, şübhəsiz ki, müxalifət olmalıdır. Amma müxalifətin hakimiyyətə qarşı, iqtidara qarşı prinsipləri nədən ibarət olmalıdır – bunu anlatmaq lazımdır. Əgər bu prinsiplərdə doğrudan da müxtəliflik varsa, gedib dursun müxalifətdə, çünki bu prinsiplərlə razı deyil. Ancaq bunlar hamısı sadəcə olaraq, nəyin bahasına olursa-olsun hakimiyyətə gəlməkdən, vəzifə tutmaqdan ötrüdürsə, bu, şübhəsiz ki, sağlam müxalifət hesab edilə bilməz.

Ona görə də mən bir prezident kimi, üzərinə böyük bir məsuliyyət götürmüş şəxs kimi, dünən bu qanunu imzalayarkən onun tam həyata keçirilməsini arzu edən bir şəxs kimi istəyirəm ki, bizim cəmiyyətimiz sağlam cəmiyyət olsun, həqiqi demokratik cəmiyyət olsun və cəmiyyətimizdə sağlam müxalifət olsun, siyasi müxalifət olsun. Həmin siyasi müxalifət də iqtidarın siyasətində və ya onun əməli fəaliyyətindən fərqli olan öz prinsiplərini bəyan etsin ki, bax, buna görə mən müxalifətdəyəm, bu səbəblərə görə müxalifətdəyəm, bunları tələb edirəm, istəyirəm bunlar həyata keçirilsin. Əgər cəmiyyətin, ölkənin, xalqın xeyrinə olarsa, müxalifətdə duraraq bəzən öz fikirlərini həyata keçirə bilərlər.

Ancaq təəssüf ki, Azərbaycanda müxalifətin yaranması, inkişaf etməsi, ümumiyyətlə, cəmiyyətin formalaşması tariximizin çox ağır, faciəli bir səhifəsinə çevrilmişdir. Təsəvvür edin, beş il bundan qabaq, 1990-cı ildə Azərbaycanda parlament seçkiləri keçirildi, – o vaxt Ali Sovet deyirdilər, – kommunist rejimi dövründə seçildi. İndi biz həmin parlamentlə işləyirik. Düzdür, o parlament müəyyən qədər modernləşdirilmişdir, ancaq həmin parlamentlə işləyirik. Beş il keçib, bu parlamentin [178-179] səlahiyyət vaxtı bitir. Biz tamamilə vaxtında, heç bir şeyi pozmadan yeni parlament seçkiləri təyin etmişik.

Bu beş il müddətində Azərbaycanın həyatında nələr baş veribdir, neçə dəfə dövlət hakimiyyəti dəyişibdir, neçə dəfə Azərbaycan vətəndaş müharibəsinə qoşulubdur, vətəndaş müharibəsi baş veribdir, yaxud da ki, böyük bir fəlakət, uçurum qarşısında olubdur və bu uçurumdan qurtarıbdır. Görün neçə dəfə!

1992-ci ildə hakimiyyət bir dəfə dəyişilib. Ondan üç ay sonra yenidən hakimiyyətin dəyişilməsinə cəhd olubdur, hakimiyyət dəyişibdir, yeni qüvvələr, Xalq Cəbhəsi hakimiyyətə gəlibdir. Bir il hakimiyyəti saxlaya biliblər. 1993-cü ilin iyun ayında o hakimiyyəti devirmək istəyən qüvvələr onu deviriblər. Bunu açıq demək lazımdır. Amma iş, bu hakimiyyətin devrilməsində deyildi, Azərbaycan artıq o vaxt parçalanmışdı, dağılmışdı və vətəndaş müharibəsi başlanmışdı. Onda həmin qüvvələr məhv oldular, çəkildilər, qaçdılar. Biri istefa verib qaçdı, indiyə qədər heç bilmirik haradadır. Biri qaçdı, kənddə yaşayır. O biriləri istefa verib çıxıb getdilər, indi dönüb təzədən müxalifət olublar, yenidən hakimiyyətə gəlmək istəyirlər. Yaxşı, hakimiyyətə gəlmişdiniz, əgər bacarırdınızsa əlinizdə saxlayaydınız, kim sizə mane olurdu? Əgər bacarmadınızsa, onda çəkilin, durun kənarda.

bir il, iki il, üç. il təcrübə toplayın. Ondan sonra bəlkə bir də gücünüzü sınayarsınız, bəlkə hakimiyyətə keçə bilərsiniz.

Ancaq bundan sonra gedən bütün bu proseslərdə respublikada müxalifətdə olan qüvvələrin hamısı, bir-birinə zidd olan qüvvələrin hamısı birləşdi. Keçən ilin oktyabrında dövlət çevrilişinə cəhd oldu, onun qarşısı alındı. Bu ilin mart ayında dövlət çevrilişinə cəhd göstərildi, onun da qarşısı alındı. Sonra dövlət çevrilişinə cəhdlər baş vermədi, terrora keçdilər, körpünü partlatmaq istədilər, yaxşı ki, vaxtında qarşısı alındı. Bir neçə gün bundan qabaq yeni bir çevriliş, etmək istəyən dəstə – hərbçilərdən, generallardan ibarət dəstə meydana çıxıb, onların bir neçəsi həbs olunubdur.

Azərbaycanı nə qədər dağıtmaq olar? Axı, bu insanlar başa düşməlidirlər ki, Azərbaycan onsuz da bütün dünyada ən bədbəxt bir vəziyyətə düşmüş respublikadır. Ermənistan yeddi il bundan qabaq ona hərbi təcavüz. edibdir. Azərbaycanın rəhbərlərinin başsızlığı nəticəsində, torpaqlarımızın 20 faizi əldən gedibdir, bir milyon adam qaçqındır, [179-180] bunları bir yana çıxarmaq lazımdır. Amma iki aydan bir dövlət çevrilişi edib, silah işlədib nəyəsə nail olmaq istəyirlər. Bundan da böyük cinayət, xalqa bundan da böyük xəyanət ola bilərmi?

Təsəvvür edin, bunların hamısı bir-biri ilə bağlıdır. 1993-cü ilin iyun ayında hakimiyyətdə olan qüvvələr nə üçün dövləti qoruyub saxlaya bilmədilər? Mən onlardan soruşuram, nə üçün? Həm keçmiş prezidentdən soruşuram, həm parlamentin keçmiş sədri İsa Qəmbərovdan soruşuram, həm keçmiş baş nazir Pənah Hüseynovdan soruşuram, həm də o birilərdən soruşuram: Nə üçün onlar bu dövləti saxlaya bilmədilər? Nə üçün Surət kimi yaramaz bir adam Rəhim Qazıyevlə və başqası ilə birlikdə gəlib hakimiyyəti ələ ala bildi? Nə üçün? Ona görə ki, onlar bir il müddətində bacarıqsızlıqlarını nümayiş etdirdilər, fəaliyyətsizliklərini nümayiş etdirdilər, iradəsizliklərini nümayiş etdirdilər. Nəticədə də onları müdafiə edən olmadı. Nə cür ola bilərdi ki, Surət kimi bir quldur başına dəstə yığıb Gəncədən bu yana rayonları tuta-tuta gəlib çıxsın buraya? Əgər dövlət dövlət idisə, bu nə cür ola bilərdi?

Bu cinayətlər ona görə baş verir ki, cinayət edən adamların hamısı vaxtilə bir yerdə olublar, sonra bir-birindən ayrılıblar, bir-biri ilə ədavət aparmağa, mübarizə aparmağa, bir-birini yıxmağa başlayıblar. Bütün bu cinayətlərin başında duran adamlardan biri Rəhim Qazıyevdir, 1990-cı ildən indiyə qədər bütün cinayətlərin başında duran Rəhim Qazıyevdir, Mütəllibovla birlikdə. Mən istintaq materiallarını açmaq istəmirəm. Bir terrorçu həbs olunubdur, ifadə verib ki, hələ 1990-cı ildə Mütəllibovun göstərişi ilə, Mütəllibovun əlaltılarından olan başqa bir yaramaz adamla birlikdə Moskvaya gedibdir. Yaramaz bir adamdır, terrorçudur, heç bir vəzifəsi də yoxdur. Gedib "Lefortovo" həbsxanasında Rəhim Qazıyevlə, Etibar Məmmədovla, sonra Dövlət Təhlükəsizliyi Komitəsi sədrinin birinci müavini ilə, başqaları ilə görüşüb. Sonra gəlib burada terrorçuluq edib, böyük bir adam öldürüb, başqalarını öldürübdür. İndi ələ keçib, hamısı ifşa olunur.

Bir neçə gün öncə "Moskovski komsomolets" qəzetində böyük bir məqalə çıxıbdır. Tövsiyə edərdim ki, onunla tanış olasınız. Məqalənin adı belədir: "Çernomırdini kim öldürmək istəyir?" Lakin məqalənin yarıdan çoxu Azərbaycana həsr olunubdur. Bu qəzet Azərbaycan barədə o qədər də müsbət məqalələr dərc edən qəzet deyil. Ancaq görünür, doğrudan da siyasi [180-181] plüralizm var və bu qəzetdə indi kim nə istəyirsə, onu da dərc edir. Məqalənin müəllifi də çox maraqlı məqalə dərc etdirmişdir. Buradan açıqca görünür ki, Rəhim Qazıyev hansı ölkənin hansı kəşfiyyat orqanı ilə nə vaxtdan bağlıdır və onların göstərişləri ilə nələr edibdir. Surət Hüseynov hansı ölkənin hansı kəşfiyyat orqanı ilə bağlıdır və onlarla əlaqədə nələr edibdir, narkomafiya ilə nə qədər işlər görübdür, burada nə cür təxribatlar ediblər. Bunlar hamısı məqalədə yazılıbdır. Şübhəsiz ki, hər bir məqaləni tam əsaslı sənəd hesab etmək olmaz. Mən də hesab etmirəm ki, bu məqalə əsaslı sənəddir. Ancaq məndə olan sübutlu sənədlərlə bunu tutuşduranda görürəm ki, tamamilə eynidir.

Azərbaycanın başına bu bəlaları gətirənlər bunlardır – Mütəllibovdur, Rəhim Qazıyevdir, Surət Hüseynovdur. Bunlar 1990-cı ildə Azərbaycan bu bəlaya saldılar. 90-cı ilin yanvarında bu faciə baş verdi. Faciənin qarşısını almaq əvəzinə, ondan istifadə etdilər, hakimiyyətə gəldilər.

Sonrakı dövrlərdə və nəhayət, 1993-cü ilin iyununda Azərbaycanda baş vermiş hadisələrin bir çoxu indi artıq açılır. Sizə demək istəyirəm ki, son vaxtlar hüquq-mühafizə orqanları yaxşı işləyirlər. Onların işdə zəif olmasını, səhvlər buraxmasını, nöqsanların çox olmasını dəfələrlə qeyd etmişəm. Bilirsiniz ki, mənim burada işlədiyim müddətdə hüquq-mühafizə orqanları rəhbərlərinin də, demək olar, hamısı dəyişilibdir, təyin etdiyim təkcə bir adamı kənar edib yerinə başqasını qoymuşam. Ancaq yeni təyin olunanlar da o qədər yaxşı fəaliyyət göstərmirdilər. Lakin məmnuniyyət hissi ilə qeyd etmək istəyirəm ki, son vaxtlar onların fəaliyyəti çox güclənib və bunun nəticəsində də artıq bir çox cinayətlərin üstü açılır. Mən müsbət cəhətdən Daxili İşlər Nazirliyinin, əməliyyat işlərinin aparılmasında Milli Təhlükəsizlik Nazirliyinin, Xüsusi İdarənin, bu işlərin istintaqının sürətlə və peşəkar səviyyədə aparılmasında baş prokurorluğunun və Respublika Prokurorluğunun fəaliyyətini qeyd etmək istəyirəm.

Ümumiyyətlə, indi bizim hüquq-mühafizə orqanları – Daxili İşlər Nazirliyi, Milli Təhlükəsizlik Nazirliyi, Xüsusi İdarə və Respublika Prokurorluğu birlikdə çox ahəngdar işləyirlər və yaxşı da nəticələr əldə etmişlər. Bu nəticələrin bəziləri mətbuatdan məlumdur. Məsələn, dövləti cinayət etmiş şəxslərin keçən il sentyabrın 21-də Milli Təhlükəsizlik Nazirliyinin təcridxanasından qaçırılmasını götürək. Məlum idi ki, onlar öz-özünə [181-182] qaça bilməzdilər. Aydın idi ki, bu, hansısa bir xarici qüvvənin fəaliyyəti nəticəsində baş

vermişdi. Amma təəssüf ki, biz bunu vaxtında arayıb tapa bilmirdik. İndi çox şeylər açılır. İpin ucu nəinki artıq tapılıb, həm də çox şeylərin üstü açılıbdır. Həmin təcridxanadan qaçmış və sonra bəyanatlar vermiş Əlikram Hümbətov yaxalanıbdır. Onu oradan qaçıran şəxs, istintaq təcridxanası rəisinin növbətçi köməkçisi tutulubdur. Lənkəranda, burada, Bakıda onlara havadarlıq edənlər – Rəhim Qazıyevin qardaşları, qohum-əqrəbaları, yaxud Lənkəranda "Talış-Muğan Respublikası" yaratmaq istəyənlər və başqaları həbs olunublar. Məhz bu işlə əlaqədar 40 nəfər həbs edilmişdir. Bu adamlar ifadələr verirlər. Mən bu ifadələri açmaq istəmirəm, çünki həmin işin necə təşkil olunduğu aydındır.

Nəriman İmranov, Surət Hüseynov bu məsələni əvvəldən təşkil ediblər. Oktyabrın əvvəlində XTPD-çilərin Respublika Prokurorluğunu tutması, yaxud da sonra bu hadisələrin baş verməsi təsadüfi deyildi. Bunu biz əvvəllər də bilirdik, təhlil də vardı, bir çox sübutlarımız da vardı. Amma indi əldə olunan sübutlar çox canlı, çox kəsərli sübutlardır. Bu sübutlardan heç kim heç yana çıxa bilməyəcəkdir ki, bu çevrilişə hazırlıq 1994-cü ilin mayından başlanmışdır. Nəhayət, artıq avqust ayından bu məsələnin qurulması, onların oradan qaçırılması və ondan sonra dövlət çevrilişinin həyata keçirilməsi planları hazırlanıbdır. Bu planları Nəriman İmranov, Surət Hüseynov və şübhəsiz ki, onların Moskvada oturan havadarları – Mutəllibov və başqaları birlikdə hazırlamışlar.

İndi bunların üstü açılmışdır, həbs olunmuş adamlar ifadələr verirlər ki, nə cür olub, necə qaçıblar, harada olublar. İndi sizə deyə bilərəm ki, hətta onlar qaçandan sonra Bakıda gizlənirlərmiş, heç yerə getməmişdilər. Gözləyirmişlər ki, çevriliş olacaq, onlar hakimiyyətə gələcək, qayıdıb öz yerlərini, vəzifələrini tutacaqlar, hətta ondan da yuxarı vəzifələr tutacaqlar. Məhz oktyabrın 5-6-dan beş-altı gün keçəndən sonra onların bir hissəsini Lənkərana, bir, hissəsini isə Rusiyaya, Moskvaya, başqa yerlərə göndəriblər. İndi bunların hamısının üstü açılmışdır.

Amma bununla qurtarsaydı, deyərdik, bəli, bir cəhd etdilər, çevriliş baş tutmadı, geriyə çəkildilər. Lakin sonradan hamısı toplaşdı. Dünən bizim hüquq-mühafizə orqanlarının rəhbərləri, baş prokuror Eldar Həsənov da çox ədalətli dedilər ki, həmin [182-183] adamlar bir yerə toplaşdılar Rövşən Cavadov, Mahir Cavadov XTPD-dən böyük bir qüvvə yaradaraq Azərbaycanda dövləti dağıtmağa çalışdılar. Hamısı birləşdi, Mütəllibov da, Rəhim Qazıyev də, Xalq Cəbhəsi də, Əbülfəz Elçibəy də, Müsavat Partiyası, Boz Qurd Partiyası da birləşdi. Yaxşı, əgər siz əqidə sahibisinizsə, nə cür ola bilər ki, dünənki düşməninlə, Azərbaycan dağıdanlarla birləşirsən? Demək, əqidən yoxdur! Məqsəd nəyin bahasına olur-olsun gəlib yenə də hakimiyyətdə bir yer tutmaqdır. Burada başqa bır məqsəd, başqa bir niyyət yoxdur.

Bunun da qarşısını aldıq. İndi orda-burda hərə bir söz deyir. Ancaq bunlar hamısı faktdır. Bundan sonra biz bir neçə dəfə siqnallar almış, yoxlamışıq ki, Mahir Cavadov qaçıb gah Ukraynada, gah Moskvada, gah da başqa ölkədə gizlənibdir, adamları orda-burda işləyirlər ki, körpünü partlatsınlar. Çünki gördülər ki, daha silahlı dəstə toplamaq mümkün deyil. Rəhim Qazıyev burada vərəqələr yaymışdı, öz çıxışlarını videokassetlərə yazdırıb paylamışdı. Burada da bəzi adamlar ona həvəslə qulaq asırdılar: "biz buradayıq, nə bilim, iki milyon adamımız var, bunu edəcəyik, onu edəcəyik" və s. Moskvada Surət Hüseynovla Mütəllibov bəyanat verdilər ki, "Vətəndaş birliyi" yaratmışıq. Mütəllibov başqa bir bəyanat verdi ki, mən Azərbaycandakı "Narazılar partiyası"nın rəhbəriyəm. Gör özünü hansı səviyyəyə gətirib çıxarmışdır. Demək, özünün əqidəsi yoxdur, kim bu hakimiyyətdən narazıdırsa, onunladır.

Bunlar hamısı, birləşib mart hadisəsini törətdilər. Lakin baş tutmadı. Qaçıb dağıldılar. Yenə də birləşdilər. Ya emissarları bir-birinin yanına gedir, ya da şəxsən birləşirlər.

Yeni bir çevriliş cəhdi. Bu, nədən ibarət idi? Bu günlərdə bizə siqnallar gəldi. Aşkar elədik ki, general Vahid Musayev, general Şahin Musayev, general Rafiq Ağayev, bir neçə zabit yenə də Rəhim Qazıyevin, Mütəllibovun, Surət Hüseynovun göstərişi ilə hərbi hissələri ələ almaq, Azərbaycanda çevriliş etmək istəyirlərmiş. Bunların bir qismi həbs olunubdur, artıq bunu etiraf edirlər, ifadə verirlər ki, may ayından bu işləri görməyə başlayıblar.

İndi görün biz nə vəziyyətdə işləyirik. Sizə açıq deyə bilərəm ki, bizim günumüzün, şəxsən mənim günümün yarısı bu məsələlərin qarşısını almağa gedir. Şübhəsiz ki, bunlar hərtərəfli təxribat edirlər. Əgər onlar bir şeyə nail ola bilmirlərsə, bizim başımızı belə şeylərə qatmalarının özü də bir təxribatdır. [183-184] Nə edək, axı, bu xalqı, milləti, dövləti bu canilərdən, cinayətkarlardan qorumaq lazımdır. Belələri indiyə qədər nə üçün yaşayıb? Nə üçün?

Dünən Milli Məclisin üzvləri cürbəcür təşkilatlar haqqında müzakirə aparırdılar. Belə hesab edirəm ki, Milli Məclisin üzvləri hamısına tamamilə düzgün qiymət verdilər, düzgün müzakirə gedirdi. Mən bunu tamamilə bəyənirəm. Ancaq gəlin danışaq. Rəhim Qazıyev Azərbaycan Xalq Cəbhəsinin üzvü idi ya yox? Liderlərindən biri idi! Eyni zamanda başqalarına qulluq edirdi. Bəs Xalq Cəbhəsi hakimiyyətə gələndən sonra heç olmasa onu Müdafiə Nazirliyindən çıxaraydılar, qoymayaydılar dağıtsın. Mən o zaman Naxçıvanda yaşayırdım. İki gündən bir İsgəndər Həmidovla birlikdə televiziya ilə çıxış edərək ona-buna hədə-qorxu gəlirdilər. Eyni zamanda Rəhim Qazıyev kimlərə, nələrə xidmət eləyib, – məlumdur.

Əgər bu cür cinayətkarlara, xainlərə qarşı vaxtında prinsipial münasibət göstərilsəydi, respublika belə ağır vəziyyətə düşməzdi. Bu münasibət hakimiyyətdə olanlar tərəfindən göstərilməli idi. Əgər bunu bacarmırdılarsa, hakimiyyətə niyə gəlirdilər?

XTPD-ni götürün, bu, sadə bir şey deyil. Neçə illərdi ki, o, mütəşəkkil bir cinayətkar dəstəyə dönmüşdü. İstintaq gedir, Eldar Həsənov mənə bir neçə dəfə məruzə edib bildiribdir ki, XTPD-nin sağlam təbəqəsi həmin dəstənin başçılarına indi nifrət edir ki, bir çox adamları iradələrinin əksinə olaraq bu cinayətə qoşublar. Axı, bu XTPD xalqın, dövlətin, ictimaiyyətin gözünün qabağında yaranmış, inkişaf etmişdi. Xalq Cəbhəsinin hakimiyyəti vaxtında İsgəndər Həmidov Rövşən Cavadovu gətirib daxili işlər nazirinin müavini təyin etmişdi. Ola bilərdimi ki, bu cinayətkarı gətirib belə vəzifəyə qoyasan, əlinə bu qədər silah verəsən, bir belə imkan yaradasan. Özü də iddia ilə yaşayırdı. Mən buraya gələndən sonra daxili işlər naziri olmaq istəyirdi. Elə əvvəl də nazir olmaq istəmişdi. Əlinə bir belə silah, bu qədər imkan keçirəndən sonra, şübhəsiz ki, istədiyini edirdi.

Yaxud qardaşı Mahir Cavadovu götürək. Cinayətkardır, onların bütün ailəsi cinayətkardır. Mən keçən dəfə də dedim, onun qohum-əqrəbasından bəziləri narazılıq edirlər. Qoy özlərindən narazılıq etsinlər ki, onlar xalqa bu qədər böyük bədbəxtliklər gətirmişlər. Qoy onlar özləri-özlərini ittiham etsinlər. Mahir Cavadov camaatın gözü qabağında Azərbaycanı, Bakını [184-185] dağıdırdı, bir adam ona bir söz demirdi. Axırda da belə oldu ki, bunlardan həm Rəhim Qazıyev istifadə elədi, həm də Moskvada oturan başqa adamlar istifadə elədilər. Eyni zamanda Xalq Cəbhəsi istifadə elədi. Türkiyənin vətəndaşları Fərman Dəmirkol, Kənan istifadə elədilər. Fərman Dəmirkol kimdir? Onu İsa Qəmbərov gətirib Ali Sovetdə vəzifəyə qoymuşdur və uzun müddət burada işləmişdir. Təəssüflər olsun ki, bizim vaxtımızda da vəzifədə olubdur. Bu məsələ meydana çıxana qədər nədənsə, Ali Sovetin aparatı da buna fikir verməmişdir. Eyni zamanda o, Türkiyənin hansısa təşkilatından məvacib alırdı. Ali Sovetdən məvacib alırdı və burada da çevrilişin hazırlanması ilə məşğul olurdu. Bu da təəccüblü məsələdir.

Şübhəsiz ki, çevrilişlə məşğul olan bəzi Türkiyə vətəndaşları buradan qovuldu, çıxarıldı. Ancaq belə bir adamın gəlib burada olması, bu işdə iştirak etməsi və gecə-gündüz Rövşən Cavadovla, Mahir Cavadovla bir yerdə olub çevriliş, hazırlanması kimlərinsə gözünün qabağında olubdur, kim isə bunu görübdür. Mən hesab edirəm ki, məsələn, Ali Sovetdə aparatın başçısı Səfa Mirzəyev niyə buna fikir verməyib, belə adamı orada saxlayıb? Nə üçün saxlayıb, bu adam orada nəyə lazım idi? Ali Sovetə həftədə bir dəfə gəlirmiş və ya gəlmirmiş. İsa Qəmbərov oradan nə vaxt çıxıb getmişdir?

Düzdür, dörd ay mən də orada işləmişəm, ancaq mənim başım qarışıq olub, belə şeylərə baxmağa imkanım olmayıb.

Görürsünüzmü, bunlar bir-biri ilə necə birləşiblər və məqsəd də nədir. Rövşən Cavadov, Mahir Cavadov gəlib Azərbaycanı idarə edə bilərdilərmi? Demək, məqsəd Azərbaycanı dağıtmaqdan ibarət idi, başqa bir şey yoxdu.

Bayaq dedim, son hadisənin də qarşısı alınandan sonra onlar yenə də çəkilmirlər. Yenə də bir dəstə gəlib burada dövlət çevrilişi etmək istəyirdi. Bunun da üstü açıldı, onlar da həbs olunublar və güman edirəm ki, cəzalarını alacaqlar.

Əlikram Hümbətov uzun müddət Lənkəranda yaşayıb. "Talış-Muğan Respublikası" yaratmaq istəyən adamlar onu orada gizlətmiş, yedirib-içirtmişlər, bəsləmişlər. Bu cür vətəndaşlıq ola bilərmi? Şübhəsiz, hüquq-mühafizə orqanlarının böyük günahıdır ki, vaxtilə, Lənkəranda olarkən onu tapa bilməmişlər. Amma eyni zamanda mən onlara təşəkkür etdim ki, onu tapdılar. Çünki onun tapılması çox şeyi açdı.

Ancaq bizim vətəndaşlar nə fikirləşirlər, bu cinayətkarlara nə qədər havadarlıq etmək olar? [185-186]

Bunları ona görə deyirəm ki, keçən parlament seçkilərindən indiki parlament seçkilərinə qədər ötən bu beş il ərzində Azərbaycan böyük bəlalar içərisində yaşayıbdır, indi də yaşayır. Amma fərq ondan ibarətdir ki, o bəlalar vaxtilə Azərbaycanda daxili sabitliyi pozub, qarma-qarışıqlıq, hərc-mərclik yaradıb və bizə 1993-cü ildə elə bir miras qoyublar ki, cəmiyyətimizin belə cinayətkarlardan təmizlənməsi üçün bunları aradan qaldırmağa neçə illər lazımdır. Bu adamlardan biri bir ölkənin, digəri başqa ölkənin kəşfiyyatı ilə bağlı olaraq Azərbaycanı dağıdırlar.

Şübhəsiz ki, biz öz işimizə arxayınıq, əminik. Mən bunu iyunun 24-də ümumxalq nümayəndələri toplantısında dedim və indi də deyirəm ki, heç bir şey bizi çəkindirməyəcək, tutduğumuz yoldan döndərməyəcək, belə hərəkətlərin hamısının qarşısı alınıb və alınacaqdır. Əgər mart ayında çevrilişə cəhdin qarşısı alınandan sonra çevriliş etmək istəyən həmin adamlar iyulun 30-da partlayış törətmək istəyirdilərsə, onun da qarşısı alındı. Generalların, zabitlərin may ayından çevrilişə hazırlığını da aşkar edib üzə çıxardıqsa, demək, bunların hamısını tapıb aşkar edəcəyik. Rəhim Qazıyev də gəlib cavab verəcəkdir, məhkəmənin hökmü var. Surət Hüseynov da, Mütəllibov da, orada bir Vaqif Hüseynov var, – düzdür o, pərdə arxasındadır, amma o da orada ayrı-ayrı orqanlarla birlikdə Azərbaycana qarşı çox işlər görür, – o da, başqaları da, hamısı xalqın qarşısında cavab verəcək. Ona görə də biz bunların hamısından nəticə çıxarmalıyıq.

İndi bu parlament seçkilərini sağlam mühitdə, sağlam əhval-ruhiyyədə keçiririk. Çox böyük ehtiyac var ki, parlamentimiz yüksək səviyyəli insanlardan ibarət olsun, ağıllı, zəkalı, bilikli, millətinə, xalqına sadiq adamlardan ibarət olsun, ziyalılardan ibarət olsun, parlamentin tərkibi doğrudan da Azərbaycan cəmiyyətinin səviyyəsini qaldırsın.

Parlament hakimiyyət orqanının bir qoludur. Əgər icra orqanının ən yüksək nöqtəsində duran prezidentdirsə, hakimiyyətin bir qolu olan parlament 125 nəfərdən ibarətdir. Bu 125 deputat gərək o qədər

səviyyəli, Azərbaycan xalqının daxili mənəviyyatını o qədər təmsil edə bilən insanlar olsun ki, prezidentlə birlikdə Azərbaycanı bir daha yuxarıya qaldırsınlar və cəmiyyətimizi irəliyə apara bilək. Müxalifət də olsun, ancaq sağlam müxalifət olsun, siyasi müxalifət olsun. Hərbi müxalifət ola bilməz, silahlı müxalifət ola bilməz. Biz bunlara yol [186-187] verməyəcəyik. Ancaq bunlar son illər Azərbaycan həyatının gerçəkliyidir, həyatımızı ləkələyən faktlardır. Biz bundan heç də imtina edə bilmərik, çünki bu dövrü yaşamışıq, bu hadisələrin hamısının içindən keçmişik.

Nitqimin əvvəlində dedim, bir də deyirəm ki, müxalifət hansı prinsiplər əsasında olmalıdır. Vaxtilə mən də müxalifətdə olmuşam, amma nəyə görə? 1986-1987-ci illərdə xidmət etdiyim dövlət siyasətinə daxilən müxalifətdə olmuşam. Məhz ona görə də 1987-ci ilin oktyabr ayında Siyasi Büronun tərkibindən və baş nazirin birinci müavini vəzifəsindən kənarlaşdırıldım. Niyə? Çünki aparılan siyasətin bəzi tərəfləri ilə, xüsusən milli siyasətlə, milli respublikalara qarşı aparılan siyasətlə razı deyildim, bunu açıq bildirirdim. Azərbaycana olan münasibətlə razı deyildim, bunu açıq deyirdim. Orta Asiya, Qafqaz ölkələrinə olan münasibətlə razı deyildim və bunu açıq şəkildə bildirirdim. Ona görə də bizim bir yerdə işləməyimiz mümkün olmadı. Mən müxalifətdə idim. Düzdür, o vaxt elə imkan yox idi, mən çıxış etmirdim, bəyanat vermirdim, qəzetlərə yazmırdım. Ancaq mən müxalifətdə idim, ona görə də kənarlaşdım.

Amma sonra 1990-cı il yanvarın 20-də Azərbaycan xalqına qarşı edilən hərbi təcavüz məni açıq müxalifətə çıxardı. Səhərisi gün gedib öz fikirlərimi söylədim. Kommunist Partiyasının Azərbaycana qarşı etdiyi hərbi təcavüzə öz etirazını bildirdim və artıq açıq müxalifətə keçdim.

O vaxt Azərbaycanda da çoxları Kommunist Partiyasından çıxdı. Təsəvvür edin, mən 1943-cü ildən, 20 yaşından Kommunist Partiyasında olmuşam, ona xidmət etmişəm. Ancaq nəyə görə, nə səbəbə mən açıq müxalifətə keçdim? Çünki gördüm ki, artıq ölkənin, Sovetlər İttifaqının rəhbərliyi Azərbaycana qarşı ədalətsizlik edir. Azərbaycanın hüquqları tapdalandı, ərazisinin bir hissəsi dağıdılır. Ermənistanın əlinə keçir, hökumət rəhbərləri bunun qarşısını almır, əksinə, kömək edirlər. Azərbaycanda azadlıq hərəkatını boğmaq üçün böyük qoşun hissələri yeridərək azərbaycanlıları qırırlar.

Mən partiyadan çıxmaq üçün ərizə verərkən bunların hamısını yazmışam. Uzun müddət Kommunist Partiyasına xidmət edən adamın nəyə görə partiyadan çıxması səbəbləri mətbuatda dərc olunubdur. Ondan sonra mən Azərbaycana gəlmişəm. 1990-cı ilin iyulundan Azərbaycandayam. O vaxtlar parlament seçkiləri keçirilirdi. Mən Naxçıvanda bütün seçkiqabağı [187-188] yığıncaqlarda Kommunist Partiyasının əleyhinə açıqca çıxış edirdim, Sovet İttifaqının dağılmasını tələb edirdim, Azərbaycanın müstəqilliyini tələb edirdim. Bax bu, mənim müxalifət mövqeyim idi. Mən müxalifətdə idim, o vaxta qədər ki, Azərbaycan müstəqilliyini qazandı, o vaxta qədər ki, Kommunist Partiyası hakimiyyətdən getdi. Bundan sonra mən müxalifətdə olmadım. Çünki mənim prinsiplərim bu prinsiplərə uyğun idi.

Xatirimizdədir, 1991-ci ilin fevralında mən gəlib burada, parlamentdə çıxış etdim, açıq dedim ki, Kommunist Partiyası hakimiyyətdən getməlidir, Sovet İttifaqı dağılır və onun saxlanması haqqında Azərbaycanda referendum keçirilməməlidir. Mən dedim ki, iclas salonundan Leninin büstünü götürmək lazımdır, çünki o, Azərbaycanın müstəqilliyini təmsil edən bayraqla yan-yana dura bilməz. Mən bunları dedim, hamısı mətbuatda var. Mən ayrı-ayrı şəxslərə qarşı deyil, o vaxtkı rejimə qarşı müxalifətdə idim, o ədalətsizliyə qarşı müxalifətdə idim. Bunu da axıradək çatdırdım.

Ancaq Azərbaycan müstəqil olandan, xüsusən də Kommunist Partiyası hakimiyyətdən gedəndən sonra, Xalq Cəbhəsi hakimiyyətə gələndən sonra mən müxalifətdə deyildim. Baxmayaraq ki, Xalq Cəbhəsi çox böyük ədalətsizliklər etdi, mən onlara qarşı müxalifətdə deyildim. Bir yerdə belə tapa bilməzsiniz ki, mən onlara qarşı çıxış etmiş olum. Heç vaxt. Əksinə, Naxçıvanda seçkiqabağı yığıncaqlarda onları müdafiə etmişəm, bir çoxunun deputat seçilməsinə kömək etmişəm. Görürəm, Rəşid Həsənov başını tərpətməklə təsdiqləyir, çünki orada idi. Öz çıxışlarımla, nüfuzumla onlara kömək etmişəm. Bir də görürdüm 3-4 min adam yığışıb ki, kimə səs verək? Xalq Cəbhəsinin nümayəndəsini göstərib deyirdim ki, buna səs verin. Məni də eşidirdilər. Nə üçün bunu edirdim? Çünki bunlarda Azərbaycanın müstəqilliyini əldə etmək üçün, milli azadlığına nail olmaq üçün yeni bir qüvvə görürdüm. 1990-cı il noyabrın 17-də biz Naxçıvanda Azərbaycanın indiki bu bayrağını qaldırdıq. Mən o Məclisə rəhbərlik edirdim. Muxtar respublikanın adından "Sovet Sosialist" sözlərini çıxardıq. Bunlar mənim prinsiplərim idi. Bu prinsiplər həyata keçdi.

Sonra hakimiyyətə Xalq Cəbhəsi gəldi, mən onlara kömək elədim. Xalq Cəbhəsi bir dəfə də olsun deyə bilməz ki, hakimiyyətdə olduqları vaxt mən onların əleyhinə çıxış etmişəm.

Yadınızdadırmı, Surət Hüseynov qoşunlarını Qarabağdan çıxartdı, iqtidara qarşı qalxdı. O vaxtlar mənə müraciət etdilər. [188-189] Mən bəyanat verdim. Bu bəyanatda var ki, mən Azərbaycan prezidenti Əbülfəz Elçibəyi müdafiə edirəm və bütün qüvvələri Əbülfəz Elçibəyin ətrafında birləşməyə çağırıram. Bu o vaxt idi ki, onlar Gəncədə ilk dəfə qalxmışdılar.

1992-ci il mayın 14-də Mütəllibov gəldi, parlamentdə çıxış elədi. Xatirinizdədirmi, dedi ki, mən Heydər Əliyevə müraciət edirəm, Naxçıvana müraciət edirəm, gəlin birləşək. Xalq Cəbhəsi Bakıdan mənə müraciət etdi. Dərhal bəyanat verdim ki, bu bəyanatı qəbul etmirəm, Mütəllibov kimi bir prezidenti tanımıram və onun

hakimiyyətə gəlməsini qeyri-qanuni hesab edirəm. Mənim bu müraciətim burada yayıldı, istifadə etdilər, yəni mən burada müxalifətdə olmadım.

Sonra böyük qardaşım vəfat etmişdi, gəldim buraya, Əbülfəz Elçibəylə görüşdük, söhbət etdik. Ona bir çox məsləhətlər verdim. Müxalifətdə olmadım.

Ona görə də əgər tale belə gətirdisə, xalqın tələbi bir tərəfdən və Əbülfəz Elçibəyin, İsa Qəmbərovun və başqalarının xahişi bir tərəfdən məni Bakıya gətirdisə – mən istəməyərək buraya gəldim, mən nə mübarizə eləyib, nə də xahiş eləyib buraya gəlmişəm – Azərbaycanı bu ağır vəziyyətdən çıxardımsa, əgər bu qırğının qabağını aldımsa, "Talış-Muğan Respublikası"nın yaranmasının qarşısını aldımsa, Azərbaycanın parçalanmasının qarşısını aldımsa, o adamlar ki, mən onları xilas etmişəm, niyə mənə qarşı müxalifətdədirlər və böhtanlar danışırlar? Nə üçün? Axı, mən sizi xilas etdim, Surət Hüseynov gəlib sizi burada qırırdı. Mən gəlib girdim sizin aranıza. Özü də siz özünüz məni tapıb gətirdiniz. Mən buradan durub Gəncəyə getdim, böyük bir təhlükə altında idim. Getdim Gəncəyə, oradan qayıtdım gəldim və dedim, bəli, vəziyyət belədir ki, indi mən Ali Sovetin sədri olmağa razıyam. Ondan sonra da əlimdən gələni etdim.

Hicran Kərimli var, naxçıvanlı cavan oğlandır. Bəlkə bunu onun cavanlığına bağışlamaq olar, dünən orada dedi ki, Heydər Əliyev Surət Hüseynovu baş nazir qoymuşdu. Bəli, mən qoymuşdum, başqa nə edə bilərdim? Mən qoydum, mən də onun cəzasızını verdim. Azərbaycanı bu vəziyyətdən çıxarmaq lazım idi.

Ona görə də əməkdaşlıq etmək əvəzinə, kömək etmək əvəzinə gəlib indi müxalifətdə dayanmaq, böhtanlar yağdırmaq heç bir qüvvəyə hörmət gətirməyəcəkdir. Mən bunu və keçmişdə, öz həyatımda müxalifət dövrünü bu gün yada salaraq [189-190] onu demək istəyirəm ki, müxalifətdə duran qüvvə gərək prinsiplərə görə müxalifətdə olsun. Əgər prinsiplər yoxdursa, sadəcə "sən vəzifədəsən, mən bu vəzifədə deyiləm, ona görə də müxalifətdəyəm", – belə müxalifət, şübhəsiz ki, sağlam müxalifət hesab oluna bilməz.

Güman edirəm ki, bizim cəmiyyətimizdə indi çox təmizləmə gedibdir, gedir və bundan sonra da gedəcəkdir. Rəhim Qazıyev, Surət Hüseynov, Mütəllibov, Əlikram Hümbətov, nə bilim, başqa-başqa xəyanətkarlardan Azərbaycan xilas olubdur və xilas olacaqdır. Cəmiyyətimiz təmizlənəcəkdir. Xalq artıq hər şeyi başa düşür, anlayır və biz cəmiyyətimizi möhkəmləndirəcəyik. Ümidvar olduğumu bildirmək istəyirəm ki, bu seçkilər sağlam şəraitdə keçiriləcəkdir. Yeganə arzum odur ki, bizim parlamentə dəyərli adamlar seçilsinlər.

Dünən partiyalar haqqında müzakirələr keçirildi. Orada düzgün mövqelər bildirildi. Hesab edirəm ki, Ədliyyə Nazirliyi çox intensiv işləməlidir. Şəxsən mənim fikrim bundan ibarətdir ki, partiyalar, hansılar ki, qanun çərçivəsinə daxil olur, onlar qeydiyyata alınmalıdır və seçkilərdə iştirak etməlidir, o cümlədən Xalq Cəbhəsi də. Mənim fikrim bunlardan ibarətdir.

Ancaq hər bir partiya qanuna tabe olmalıdır. Heç kəsə ərköyünlük şəraiti, heç kəsə istisna şəraiti yaratmaq olmaz. Hansılar ki, doğrudan da həqiqi partiyadır, qeydiyyata alınsınlar. Ona görə də biz partiyaların qeydiyyata alınma vaxtını qanunda iyirmi gün uzatdıq. Ədliyyə nazirinin birinci müavini Südabə Həsənovaya göstəriş verirəm: iyirmi gün müddətində siz intensiv işləməlisiniz, o partiyalara kömək etməlisiniz ki, öz nöqsanlarını aradan qaldıra, sənədlərini düzgün tərtib edə bilsinlər. Özlərinin partiya olduqlarını gəlib sizə sübut edə bilsinlər, qanunun tələbləri əsasında lazımi sənədləri sizə təqdim etsinlər və siz onları bir partiya kimi tanıya biləsiniz. Şübhəsiz ki, heç kəsin qeyri-qanuni qeydiyyata alınması haqqında göstəriş vermirəm və verə bilmərəm. Hər şey qanun çərçivəsində olmalıdır. Ancaq şəxsi arzum bundan ibarətdir ki, dünən dediyiniz həmin o ən kiçik partiyalar da özlərini partiya şəklinə salsınlar. Doğrudan da mən dünən televiziya ilə dinləyərkən təəccüb elədim: Sosial-Demokrat Partiyası neçə ildir bu adla fəaliyyət göstərir, ancaq indiyə qədər qeydiyyatda deyilmiş. O gün də xarici ölkələrdən birinin səfiri Ramiz Mehdiyevin yanına gəlib deyir ki, bilirsiniz, Sosial-Demokrat Partiyası bizim ölkədə çox tanınmış partiyadır, lazımdır ki, sizdə də o, qeydiyyata alınsın, seçkilərdə iştirak etsin. Qəribə şeydir, bu necə partiyadır ki, indiyədək qeydiyyatdan keçməmişdir? Südabə xanım məlumat verdi ki, bu partiyanın Sumqayıt, yoxsa hansısa rayon təşkilatları saxta məlumat veriblər və bunlar özləri də onları cəzalandırıblar. Bu nə cür partiyadır?

Bu, nəyin nəticəsidir? Azərbaycanda özbaşınalıq, qanunsuzluq o qədər hökm sürüb ki, kim nə istəyirsə onu da edir. İndi biz hərəni qanunun tələbləri ilə öz yerinə qoymaq istəyirik, hər kəsi qanuna tabe etdirmək istəyirik, qanunun aliliyini təmin etmək istəyirik. Bu da müqavimət doğurur, silahlı qüvvələr meydana çıxarır, cinayətkar adamları üstümüzə qaldırır, dövlət çevrilişi cəhdi yaradır. Ancaq nə olur-olsun biz bu yolla gedirik və gedəcəyik.

Ona görə də mən rica edirəm ki, partiyalara qayğı göstərilsin, onların qeydiyyata alınması məsələsinə çox diqqətlə yanaşasınız. Hansı partiya doğrudan da partiya kimi qeydiyyata alına bilərsə, qoy seçkilərdə iştirak etsin. Mən şəxsən bunun tərəfdarıyam və bu barədə kömək etməyə hazıram. Dünən Milli Məclisdə, gərək ki, Məclisin üzvü Hacıbaba Əzimov deyirdi ki, hakimiyyət partiyalara kömək etsin. Mən onun sözünə görə demirəm, bu mənim şəxsi fikrimdir. Amma onun sözünə cavab olaraq demək istəyirəm ki, – deyəsən o da bir partiyanın başçısıdır, – Əlikram Hümbətov cənub zonasını dağıdanda bəs o harada idi? Dünən deyir ki, xalq qalxdı, nə bilim belə elədi. Xalq qalxana qədər o harada idi? Xalqı kim qaldırdı, nə cür oldu? Axı, o, Lənkəranda universitetin rektorudur, professordur, hörmətli adamdır. Nə cür olmuşdur ki, Əlikram Hümbətov kimi bir quldur gəlib Azərbaycanın o cür gözəl bir məntəqəsini əlinə keçirmişdi və orada hakimlik edirdi, bunlar

da hərəsi çəkilib getmişdi öz yuvasına, başlarını oradan çıxarmırdılar. Bu, vətəndaşlıq mövqeyidirmi? İndi dünən orada durub danışır ki, xalq ayağa qalxdı, belə elədi, elə elədi. O xalqın içində sən yox idin. Sən Milli Məclisin üzvüsən, eyni zamanda professorsan, rektorsan və yəqin ki, orada qohum-əqrəban var. Qarşısına çıxaydın. Heç kəs onun qarşısına çıxmadı. Çoxları gedib ona tabe oldu, ərizə verib vəzifə istədi, ona qulluq, xidmət elədi.

O üç ayda bu cənub məntəqəsində nələr keçirdiyimizi mən bilirəm. Əlikram Hümbətov indi həbsxanadan mənə məktub yazıb, axmaq bir şey yazıbdır. Ancaq o vaxtlar mən onu iki [190-191] dəfə qəbul elədim. Surət Hüseynov gəldi, Rəhim Qazıyev də onun dalınca mənim kabinetimə girdi. Rəhim Qazıyevi yarım saat ayaq üstə saxladım. Mən ona dedim ki, sən bura girə bilməzsən, çıx. Mən onda Ali Sovetdə idim, o binada idim. Dedim, çıx burdan. Dedi ki, mən burada iştirak edəcəyəm. Dedim ki, sənin haqqın yoxdur burada iştirak etməyə, çıx. Əgər bu yanıma gəlibsə, onu mənim yanıma Surət gətirib, mən onunla danışacağam.

Surətin yanında danışıq nə oldu? Dedi ki, sizin burada oturmağa haqqınız yoxdur. Sizi Moskva, Rusiya qəbul etmir. Burada Surət oturmalıdır. Bu onun mənim özümə dediyi sözlərdir. Götürüb Moskvaya məktublar yazırdı, Mütəllibova namələr göndərirdi. Göstərmişdi ki, talış xalqı nə vaxt Rusiyanın tərkibinə daxil olubdur. Sonra slavyan dövlətləri birliyinə müraciətlər göndərirdi. Belə xəyanətkar insanlardı. Amma o, tək deyildi. Bəs, onda Hacıbaba Əzimov harada idi? Ya başqaları
harada idi?

Mən Rəhim Qazıyevi kabinetdən qovandan sonra onunla bərabər Lənkərana getdi, gecə səhərə qədər onun beynini doldurdu. Rəhim Qazıyev nəyə qulluq edirdi? Azərbaycanın parçalanmasına.

Bilirsiniz, gərək hər kəs vətəndaş mövqeyi tutsun. Təəssüf ki, bax bu cür hadisələr baş verib. Rəhim Qazıyev, İsgəndər Həmidov, Hümbətov kimiləri, başqaları meydana çıxıb, meydan sulayıblar, vəzifə tutublar, ağalıq ediblər, hakimiyyətdə olublar. Ona görə ki, bizim ziyalılarımız, hörmətli adamlarımız mövqesiz olublar, çəkiniblər, gizləniblər, özlərini qoruyublar, xalqa qayğı göstərməyiblər, qorxublar. Bunlar da həqiqətdir.

Güman edirəm ki, bunlar hamısı keçmişdə qalacaq. Güman edirəm ki, bunların hamısından bizim hər birimiz ibrət dərsi götürəcəyik. Güman edirəm ki, bu acı keçmişi biz daim xatırlayacaq, bu cür hərc-mərcliyə, bu cür qanunsuzluğa, bu cür ədalətsizliyə bundan sonra Azərbaycanda imkan verilməyəcəkdir. Mən bir prezident kimi, Azərbaycanın bu istiqamətdə inkişaf etməsinin keşiyində durmuşam və duracağam. Minnətdaram ki, xalqın tam əksəriyyəti mənim prezident kimi apardığım siyasəti, əməli fəaliyyətimi dəstəkləyir, bəyənir və öz hüsn-rəğbətini bildirir. Bu mənim üçün hər şeydən yüksək mükafatdır və məni də bu qədər gərgin işləməyə, bütün həyatımı bu işə sərf etməyə cəlb edən xalqın bu münasibətidir, xalqın məni dəstəkləməsidir. Arzu edirəm ki, biz elə bir parlament [192-193] seçək ki, parlamentimizin hər bir üzvü də xalqın həqiqi dəstəyini ala bilsin, xalq tərəfindən həqiqi seçilən adam olsun, ədalətli seçilən adam olsun. Eyni zamanda xalqın başını ucalda bilən adam olsun, xalqın səviyyəsini yüksəldə bilən adam olsun. Belələri Azərbaycanda çoxdur. Biz Azərbaycanın intellektual, mədəni səviyyəsi ilə fəxr edə bilərik. Çünki bizim çox dəyərli insanlarımız var. Ancaq şərait yaratmaq lazımdır ki, bu dəyərli insanlar üzə çıxsınlar, onlar parlament seçkilərində iştirak etsinlər və bizim parlamentə daxil ola bilsinlər.

Bu qanunun qəbul olunması ilə əlaqədar mənim deyəcəyim bu qədər. Ola bilər, mənim nitqim çox böyük olsun, ancaq mən bu sözləri bu qanunu qəbul edərkən, onu imzalayarkən deməyi özümə borc hesab edirəm.

İkinci məsələ konstitusiya layihəsinin hazırlanması məsələsidir. Biz bu işi müvəffəqiyyətlə başa çatdırdığımız kimi, güman edirəm ki, konstitusiyanın layihəsini də vaxtında hazırlayıb təqdim elə bilərik. Təklif edirəm ki, işçi qrup öz fəaliyyətini davam etdirsin, 15 gün müddətində konstitusiyanın layihəsini təqdim etsin.

Sentyabrın 1-nə konstitusiyanın layihəsi işçi qrup tərəfindən təqdim olunmalıdır. Biz bundan sonra konstitusiya komissiyasında bu layihəni müzakirəyə başlayarıq. Güman edirəm ki, əgər biz sentyabr ayında layihəni konstitusiya komissiyası səviyyəsində qəbul edə bilsək, bundan sonra ümumxalq müzakirəsinə təqdim edərik və nəzərdə tutulduğu kimi noyabr ayının 12-də parlament seçkiləri ilə bərabər, eyni zamanda konstitusiyanın qəbul olunması üçün referendum keçiriləcəkdir. Ona görə də bizim seçki komissiyası ki, bu işə başlayır, onun üzərinə əlavə bir vəzifə düşür. O vəzifə də referendumun keçirilməsidir. Referendum həmin gün keçiriləcəkdir.

Seçki komissiyasının sədri Cəfər Vəliyev bu barədə düşünüb öz təkliflərini verməlidir. Güman edirəm ki, o, seçkilərin keçirilməsi ilə əlaqədar öz vəzifəsini bilir və təkliflərini də verəcək, həyata keçirəcəkdir. Ancaq həmin o gün konstitusiyanın ümumxalq tərəfindən qəbul olunması üzrə referendum da keçiriləcəkdir. Şübhəsiz ki, referendum keçirmək üçün həmin seçki dairələrində, məntəqələrdə bundan əlavə lazımi işlər, böyük işlər görülməlidir. Ona görə də gərək Cəfər Vəliyev bu referendumun keçirilməsi üçün seçki komissiyası tərəfindən təkliflərini versin ki, nə lazımdır və hansı miqdarda vəsait ayrılmalıdır, [193-194] nə işlər görülməlidir. Bu seçki dairələri və bu məntəqələr referendumun keçirilməsini təmin edə biləcəkmi? Güman edirəm ki, etməlidir. Bunun üçün nə etmək lazımdır? Bunların hamısını indidən müəyyən etmək lazımdır, gecikdirmək olmaz.

Mənim deyəcəyim bu qədər. Mənə sualınız varmı? Bu barədə yeni bir fikir söyləməyə ehtiyac varmı? Yoxdur. Onda sizin hamınızı bu qanunun qəbul olunması münasibətilə bir də təbrik edirəm. Sağ olun. [194-195]

## DİNDARLARLA GÖRÜŞDƏ ÇIXIŞ

*Təzəpir məscidi*

*18 avqust 1995-ci il*

Əziz və hörmətli həmvətənlər, bacılar və qardaşlar!

Sizi, bütün Azərbaycan xalqını, bütün Azərbaycan müsəlmanlarını bu bayram – Həzrəti Məhəmməd Peyğəmbərin Mövlud günü münasibətilə təbrik edirəm! Bütün Azərbaycan müsəlmanlarına səadət, xoşbəxtlik, firavanlıq arzulayıram!

Həzrəti Məhəmməd Peyğəmbərin Mövlud günü bizim böyük bayramımızdır. Çünki biz müsəlmanlar həyatımızın başlanğıcını Allah tərəfindən göndərilmiş Məhəmməd Peyğəmbərin və onun yaratdığı Qurani-Şərifin əsasında görürük. Xalqımızın, müsəlmanların Allahın göstərişi ilə Məhəmməd Peyğəmbərin, Qurani-Şərifin qoyduğu yolla getdiyi illər, əsrlər biz müsəlmanları daim yaşadıb, çətinliklərdən çıxarıb, xoşbəxt günlərə gətirib, bizə xoşbəxtlik, səadət bəxş edibdir. Ona görə də bu bayram bizim üçün ən böyük bayramdır. Bu, səadət, xoşbəxtlik, mənəviyyat bayramıdır. Biz bu bayramı böyük iftixar hissi ilə qeyd edirik. Ona görə ki, bizim müqəddəs Qurani-Şərif kimi kitabımız var. Ona görə ki, biz müsəlmanlar Allahın qoyduğu yol ilə, Həzrəti Məhəmməd Peyğəmbərin qoyduğu yol ilə gedərək nailiyyətlərdən-nailiyyətlərə çatmışıq.

Bu günlər biz bir daha Qurani-Şərifə, Məhəmməd Peyğəmbərin qoyduğu yola sədaqətimizi, hörmətimizi, ehtiramımızı bildiririk. Bir daha dua edirik ki, bütün gələcək nəsillər də bu yolla getsinlər. Həyatımızda rastlaşdığımız çətinliklərdən çıxmaq üçün Allah-taala, müqəddəs islam dinimiz bizə dayaq olsun, kömək olsun!

Müstəqil Azərbaycan Respublikası öz tarixinin mürəkkəb bir dövrünü yaşayır. Bu dövrün çox müsbət, xoşbəxt cəhətləri var. Eyni zamanda ağır, çətin, kədərləndirici cəhətləri var.

Xoşbəxtliyimiz ondan ibarətdir ki, Azərbaycan xalqı uzun əsrlər boyu istədiyi, arzu etdiyi, həsrəti ilə yaşadığı milli azadlığını, dövlət müstəqilliyini nəhayət əldə edib. Azərbaycan xalqı indi özü öz taleyinin sahibidir və müstəqil dövlət qurub, yaradıb yaşaya bilir. Bu, xalqımızın tarixlər boyu yaşadığı bütün [195-196] dövrlərdə ən yüksək səviyyəyə çatdığımız bir dövrdür, bizim üçün ən böyük xoşbəxtlikdir. Xalqımız sərbəstdir, azaddır, dövlət müstəqilliyini əldə edib və biz müstəqil dövlət kimi, dünyanın bütün dövlətləri ilə bərabərhüquqlu bir dövlət kimi yaşayırıq.

Xoşbəxtliyimiz ondan ibarətdir ki, uzun illərin məhrumiyyətindən sonra biz dinimizə sahib olmuşuq, islam dininə sahib olmuşuq. İslam dini bütün qadağalardan, bütün məhrumiyyətlərdən qurtarıb, Azərbaycan müsəlmanlarının hər biri üçün onun ürəyinin istədiyi kimi mənəviyyatını yaradan, mənəviyyatını quran bir mənbə olubdur. Bu, böyük nailiyyətdir, böyük xoşbəxtlikdir. İndi artıq məscidlərimizin də qapısı açıqdır. Günü-gündən yeni-yeni Allah evləri, məscidlər də açılır. Xalqımız öz dininə qayıdır, dinini qiymətləndirir, islam dininin xalqımız üçün nə qədər əhəmiyyətli olduğunu dərk edir. Bu, böyük nailiyyətdir.

Ona görə də mən bu gün Allaha itaət edərək, islam dinimizə itaət edərək Həzrəti Məhəmməd Peyğəmbərin Mövlud günü məhz. buraya, Allah evinə, məscidə gəlmişəm. Sizin hüzurunuza gəlmişəm ki, bu xoşbəxtliyimizi, bu nailiyyətimizi, bu bayramımızı sizinlə birlikdə qeyd edək.

Eyni zamanda, yaşadığımız tarixi dövrün böyük çətinlikləri, ağırlıqları var, bizi kədərləndirən cəhətləri var. Bu da bizim həyatımızın gerçəkliyidir. Bu dövrü biz yaşamalıyıq, çətinliklərin, ağırlıqların öhdəsindən gəlməliyik, bu kədərlərdən xilas olmalıyıq. Bu kədərlər də ondan ibarətdir ki, xalqımıza, millətimizə, dinimizə düşmən olan qüvvələr tərəfindən, Ermənistan tərəfindən yeddi il öncə ölkəmizə, Azərbaycana hərbi təcavüz baş veribdir. Yeddi ildir ki, bu hərbi təcavüz davam edir.

Təəssüflər olsun ki, xalqımızın ağır dövründə ona lazımi rəhbərlik olmadığına görə biz torpaqlarımızın bir qisminin Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilməsinə imkan vermişik. Azərbaycanın ərazi bütövlüyü pozulub, torpaqlarımızın iyirmi faizi erməni silahlı qüvvələri tərəfindən işğal edilibdir. O torpaqlarda əsrlər boyu yaşamış, yaratmış, özünə yurd-yuva qurmuş, el-obasını qorumuş, saxlamış azərbaycanlılar, müsəlmanlar zorla öz yerlərindən qovulublar, didərgin salınıblar, qaçqın vəziyyətinə düşüblər. Azərbaycana qarşı yeddi il davam edən hərbi təcavüz nəticəsində övladlarımız şəhid olub, qanlar tökülübdür. Müsəlmanlığımıza, azərbaycanlılığımıza böyük [196-197] zərbələr vurulubdur. Bu, həyatımızın kədərli cəhətidir, çətin, ağır cəhətidir.

Ancaq biz gələcəyə inanırıq. İnanırıq ona görə ki, biz ədalətli bir xalqıq, sülhsevər bir millətik, müsəlman dünyasının bir hissəsiyik. Biz inanırıq ki, bu bəlalardan çıxacağıq və torpaqlarımız azad olacaq, işğalçılar qovulacaq, ərazi bütövlüyümüz təmin ediləcəkdir. Ancaq bu o qədər də asan deyil. Buna nail olmaq üçün çox işlər görmək lazımdır və biz bunu görürük. Məhz buna nail olmaq üçün biz keçən ilin mayında atəşkəs haqqında saziş əldə etdik. Artıq on beş aydır ki, atəş kəsilibdir. Biz bu atəşkəs rejimini saxlaya bilirik, ona riayət edirik. On beş aydır ki, övladlarımız həlak olmur, güllə atılmır, müharibə getmir, qan tökülmür, şəhidlər gəlmir.

Bilirsiniz ki, əvvəlki illərdə biz hər gün şəhid qəbul edirdik. Siz də, biz də – hamımız bir yerdə matəm mərasimlərində olurduq, şəhidləri dəfn edirdik, ağlayırdıq, göz yaşı tökürdük. Hələ indi də göz yaşımız qurumamışdır. Çünki şəhidlərin xatirəsini heç vaxt unuda bilmərik. Onların qəhrəmanlığı, şəhidliyi onları əbədiyyətə qovuşdurmuşdur. Onların xatirəsi qəlbimizdə daim yaşayacaqdır.

Ancaq fərq ondan ibarətdir ki, indi artıq müharibə yoxdur, yeni şəhidlər gəlmir, yeni matəm mərasimləri qurulmur. Şübhəsiz ki, bu, bizim son nailiyyətimiz deyil. Bu, sadəcə olaraq vasitədir, şəraitdir ki, biz bu imkanlardan istifadə edərək bütün siyasətimizi fəallaşdırıb, dünyanın bütün imkanlarından, sülhsevər dairələrindən istifadə edib müharibəyə son qoyaq, ərazi bütövlüyümüzü təmin edək, işğal olunmuş torpaqlarımızı azad edək, müsəlmanlarımız, azərbaycanlılar, vətəndaşlarımız öz yerinə-yurduna qayıtsın. Güman edirəm ki, biz buna nail olacağıq. Mən buna əminəm.

Ancaq bizim dərdimiz, çətinliyimiz, kədərimiz təkcə bu deyil. Əgər belə olsaydı, dərd yarı idi. Dərdimiz bir də ondan ibarətdir ki, bütün bu dövrdə, Ermənistanın Azərbaycana təcavüzünün davam etdiyi yeddi il ərzində xalqımız daxili çaxnaşmalar içində yaşayır, daxili qarşıdurma şəraitində yaşayır, daxili ədavət, dedi-qodu içərisində yaşayır. Bəzi qüvvələr, bəzi adamlar müsəlmanlığını da itirib, vicdanmı da itirib, namusunu, şərəfini də itirib, xalqımızın bu ağır dövründən öz şəxsi məqsədlərinə nail olmaq üçün istifadə etməyə cəhd göstərirlər. Ona görə də cürbəcür təxribatlara əl atırlar, xalqımızı [197-198] parçalamaq, dağıtmaq istəyirlər. Ağır vəziyyətdə yaşayan xalqımızı daha da ağır vəziyyətə salmaq istəyirlər.

Bu tariximiz sizin gözünüzün qabağındadır. Mən bu gün bunların hamısına bir daha təfsilatı ilə qayıtmaq fikrində deyiləm. Ancaq onu bildirmək istəyirəm ki, bizim dərdimizin üstünə dərd gəlir. Adətən ölkə, xalq, millət xarici düşmənin basqınına məruz qalanda daha da sıx olur, daha da birləşir, əl-ələ verir, bütün kin-küdurəti unudur ki, ümumi düşmənin qarşısına bir yerdə çıxsınlar. Ancaq təəssüf ki, bizim içərimizdəki düşmən qüvvələr Azərbaycan xalqına bəlkə də xarici düşmənlərdən daha çox zərbə vurublar. Onlar xalqımızı parçalayıblar, cürbəcür qruplara, tayfalara bölüblər və ölkəmizi, müstəqil Azərbaycanı parçalamağa cəhd ediblər. Bunların nəticəsində də biz məğlubiyyətlərə uğramışıq, bunların nəticəsində də Ermənistan silahlı qüvvələri torpaqlarımızı işğal edibdir.

Gəlin açıq danışaq, Azərbaycan xalqı qəhrəman xalqdır, cəsur xalqdır. Azərbaycan xalqı aciz xalq deyil ki, erməni işğalçıları gəlib bizim torpaqlarımızı zəbt edə bilsinlər. Mən heç də razı ola bilmərəm belə hesab edək ki, xalqımız zəif olubdur, onlar isə güclü. Yox! Biz özümüzü içimizdən yemişik, içəridən parçalamışıq. Bununla da daxili düşmənlərimiz erməni işğalçılarına kömək edib, yardım edib və xalqımıza onlardan da çox düşmənçilik ediblər.

Allaha şükürlər olsun ki, son iki ildir sizin gözünüzün qabağında apardığımız siyasət və tədbirlər nəticəsində biz daxilimizdə olan təxribatçı qüvvələri bir-bir ifşa edirik, sıradan çıxarırıq və cəmiyyətimiz, ölkəmiz bəlalərindən təmizlənir. Ancaq biz bu təmizliyi nə qədər aparırıq, xarici düşmənlərimiz, ayrı-ayrı ölkələrdə Azərbaycanın müstəqilliyinin əleyhinə olan adamlar satqınlıqdan, xəyanətkarlıqdan o qədər istifadə edərək ölkəmizi yenə də diz üstə çökdürməyə çalışırlar. Onlar müstəqilliyimizi boğmağa, əldən almağa çalışırlar, bizi yenə də müstəmləkə, qul etmək istəyirlər.

Yox! Mən bu gün sizə deyirəm və bu Allah evində and içirəm ki, biz bundan sonra heç vaxt müstəqilliyimizi əldən verməyəcəyik! Hər bir azərbaycanlı bunu anlamalı, bilməlidir. Biz bir daha müstəmləkə ola bilmərik, bir daha qul ola bilmərik. Biz azad olmuşuq, Azərbaycan xalqı azad yaşamalıdır. Ancaq ölkəmizin daxilində olan ayrı-ayrı xəyanətkarlar, satqınlar öz şəxsi mənafelərini xalqın mənafeyindən, milli mənafeyimizdən, ənənələrimizdən üstün tutaraq yenə də müstəqilliyimizi [198-199] dağıtmaq istəyirlər. Biz buna yol verməyəcəyik! Son iki ildə gedən proseslər gözünüzün qabağındadır, görürsünüz ki, biz bunun qarşısını alırıq və bundan sonra da alacağıq.

Bu dövrdə Azərbaycanı neçə dəfə dağıtmaq istədilər. 1993-cü ilin iyun ayında Azərbaycan artıq parçalanmışdı, siz bunun şahidisiniz, Azərbaycanı dağıtmışdılar, vətəndaş müharibəsi başlamışdı. Təsəvvür edin, bir tərəfdən erməni silahlı qüvvələri hücum edirdi, ikinci tərəfdən Azərbaycanda vətəndaş müharibəsi başlamışdı. Azərbaycan belə bir şəraitdə yaşaya bilərdimi ? Biz xalqımızı xilas etdik. Keçən ilin oktyabrında yeni bir çevriliş etmək istədilər, onun qarşısını aldıq. Təşkilatçıların bəzisi həbs olundu, bəzisi qaçdı. Amma yenə də əl çəkmədilər. Qaçıb biri bir ölkədə, o birisi başqa ölkədə, çoxu Moskvada toplaşdılar. Yenidən güc toplayıb bu ilin martında Azərbaycanda bir daha dövlət çevrilişi etmək istədilər, Azərbaycan prezidentini məhv etməyə, terror etməyə çalışdılar. Onun da qarşısını aldıq.

Bilirsiniz ki, qaçmış, gizlənmiş həmin düşmənləri biz son vaxtlar həbs etmişik, üzə çıxarmışıq. Respublikamıza qəsd edən, Azərbaycanın müstəqilliyini dağıtmaq istəyən adamların hamısının artıq iç üzü açılıbdır və hamısı ədalət məhkəməsi qarşısında duracaqdır. Onların hamısı tapılıbdır. Bir qismi hələ ələ keçməyib, onlar da ələ keçəcəklər. Amma o qaçıb gizlənənlər ələ keçiblər, ifşa olunublar və xalqın ədalət məhkəməsi qarşısında cavab verəcəklər.

Mart ayındakı çevriliş cəhdinin qarşısını alandan, onları dağıdandan sonra cəmi bir ay keçməmiş, həmin qüvvələr yeni bir çevriliş hazırlamağa başladılar. Bir həftə bundan qabaq biz bir qrup yüksək rütbəli zabiti – generalları, zabitləri həbs etmişik. Onlar Azərbaycanda yenidən çevrilişə cəhd göstərmək yolu tutublar. Onlar –

general Vahid Musayev, general Rafiq Ağayev, general Şahin Musayev, bir sıra polkovniklər və başqaları artıq ifşa olunublar.

Bu əməlləri edənlər kimlərdir ? Özlərinin cürbəcür şəxsi məqsədləri üçün həmin bu daxildə olub, müxalifətdə duran qüvvələr, Azərbaycandan qaçıb orda-burda gizlənənlər – Mütəllibovdur, Rəhim Qazıyevdir, Surət Hüseynovdur, onların əlaltılarıdır. Ancaq onlar da gedib ayrı-ayrı ölkələrdə satılırlar, qul olurlar, xalqını sataraq, necə deyərlər, onlara xidmət edirlər, xalqı ağır vəziyyətə salmaq istəyirlər. [199-200]

Eşitdiniz ki, Sabunçu rayonundakı körpünü dağıtmaq istəyirdilər. Bilirsiniz, fürsətdən istifadə edib demək istəyirəm ki, mən keçən dövrdə Azərbaycanda rəhbər işləyərkən bizim bütün inşaatçıları bir il yarım səfərbər etdim ki, o körpünü tikək. Sabunçu rayonundakı körpünü nə üçün tikdik ? Yaşlı adamların yadında olar, hava limanına gedən yolu həmişə oradan keçən elektrik qatarı kəsirdi. Yadınızdadırmı ? Şübhəsiz ki, bu da yolun təhlükəsizliyinə mane olurdu. Yol hərəkətini nizama salmaq üçün biz oraya böyük vəsait qoyduq. O körpünü tikdirən də, yaradan da mənəm. Onun əsasını qoyan da, axıra çatdıran da mənəm. Mən bunu xalqım üçün, Bakı üçün, Bakının vətəndaşları üçün etmişəm. Körpünün uzunluğu 600 metrdir. İndi gətirib onun altına o qədər partlayıcı maddələr qoyublar ki, körpünü də, ətrafda olan binaları da dağıtsınlar, insanları da məhv etsinlər. Nə var, nə var ki, Heydər Əliyevi məhv eləyəcəklər...

Görürsünüz, xəyanətin bundan da artıq dərəcəsini təsəvvür etmək mümkün deyil. Görürsünüz, xəyanətin sərhədi nə qədər böyükdür. Bunun da qarşısı alındı. Yenə də deyirəm, təxribatçı, çevriliş etmək istəyən terrorçu yeni bir qrupun da qarşısı alındı, alınır və alınacaq. Siz onu bilin, xalqımız, bütün vətəndaşlarımız da bilsin: biz haqq və ədalət yolu ilə gedirik. Biz xalqımızı bu bəlalardan qurtarmaq istəyirik. Mən bır prezident kimi bütün səyimi, qüvvələrimi buna sərf edirəm və həyatımın son dəqiqələrinə qədər sərf edəcəyəm. Heç bir terrorçu, heç bir təxribatçı, heç bir cinayətkar, heç bir xəyanətkar bizi bu yoldan çəkindirə bilməyəcəkdir!

Axı, mən də insanam, həyatım var, yaşayıram, canlı adamam. Bəzən düşünürəm ki, əcəba, bu mənim həyatımda bir belə nədir ? Məni öldürmək istəyən də olub, mənə qarşı terror etmək istəyən də, batırmaq istəyən də olub. Mənim həyatım, tərcümeyi-halım sizə məlumdur. 1987-ci ildə Moskvada böyük çaxnaşmalardan, mən istefaya gedəndən sonra başıma nə bəlalar gəldi. Orada məni əzmək, həbs etmək istədilər, boğmaq istədilər, boğa bilmədilər. Gəldim buraya, burada boğmaq istədilər, boğa bilmədilər. Getdim ucqar bir yerdə, Naxçıvanda üç il yaşadım, orada boğmaq istədilər, boğa bilmədilər. Xalqın iradəsi ilə iki ildir buraya gəlmişəm. Mən buraya özüm gəlməmişəm, xalqın iradəsinə görə gəlmişəm. Əcəba, nə cür olur ki, bir belə xəyanətkar, bir belə terrorçu, bir belə qəsd edənlər öz istəklərinə nail ola bilmirlər? Allah qoruyur! **(Yerdən səslər:** [200-201] Əziz prezident, sizi Allah qoruyur, bundan sonra da qoruyacaqdır. Heydər Əliyev, xalq sizin arxanızdadır. Sizə qəsd etmək istəyənlərə ar olsun! Xəyanətkarlara, satqınlara ar olsun!).

Mənim əzizlərim, ona görə də mən arxayınam. Arxayınam ki, əməli salehliyimə, xalqıma sədaqətimə, mənəviyyatıma görə Allah-taala məni qoruyub, qoruyur və axıra qədər qoruyacaqdır! Mən də sizə, xalqıma, Azərbaycan müsəlmanlarına xidmət etməyi özümə ən böyük, şərəfli vəzifə hesab edirəm. Mənim həyatımın mənası budur. Həyatımın başqa mənası yoxdur. Mən belə yaşamışam, belə yaşayıram, belə yaşayacağam!

Mən dedim ki, tarix boyu azərbaycanlıların, müsəlmanların həyatına İslam dini həmişə dayaq olubdur, bu gün də, gələcəkdə də dayaqdır. Bu gün, Həzrəti Məhəmməd Peyğəmbərin Mövlud günü sizi təbrik edərək əmin olduğumu bildirmək istəyirəm ki, biz həmişə bu dayağa istinad edəcəyik. Ancaq respublikamızın bu dövründə hamı çalışmalıdır ki, xalqımız birləşsin, xalqımız daha da bərabər, sıx olsun. Biz azərbaycanlılar, biz Azərbaycan müsəlmanları dərk etməliyik ki, həyatımızın ən mürəkkəb və həlledici bir mərhələsini yaşayırıq. Ona görə də həm xarici düşmənlərin qarşısını almaq üçün, ölkəmizin müstəqilliyini əlindən almaq istəyən qüvvələrin qarşısını almaq üçün, həm də onların kölələrini, qullarını, Azərbaycanın içərisində satqınlıq edib onlara xidmət edənləri ifşa etmək üçün hamımız birləşməliyik, hamımız əl-ələ verməliyik.

Məhəmməd Peyğəmbərin bu Mövlud günü mən Azərbaycan xalqını, bütün Azərbaycan vətəndaşlarını birliyə, vəhdətə dəvət edirəm və sizin hamınıza səadət, xoşbəxtlik arzu edirəm! [201-202]

## BÖYÜK BRİTANİYANIN BAKIDAKI SƏFİRLİYİNİN YENİ BİNASININ AÇILIŞI MƏRASİMİNDƏ ÇIXIŞ

*24 avqust 1995-ci il*

Hörmətli cənab səfir!
Hörmətli səfirlər, xanımlar və cənablar!

Bu gün müstəqil Azərbaycan Respublikasında, Azərbaycanın paytaxtı Bakıda Böyük Britaniya Krallığı səfirliyinin yeni binasının açılışı mərasiminə toplaşmışıq. Xüsusi qeyd etmək istəyirəm ki, Böyük Britaniya Krallığının Azərbaycandakı səfirliyi çoxdandır, iki ildən artıqdır ki, fəaliyyət göstərir. Ancaq indi yeni bina hazırlanıb, təmir olunub və biz bu gün həmin binanın açılışı mərasimində iştirak edirik. Bu münasibətlə mən Böyük Britaniya Krallığının Azərbaycandakı səfirini və səfirliyin bütün əməkdaşlarını, respublikamızda yaşayan Böyük Britaniya vətəndaşlarının hamısını ürəkdən təbrik edirəm. Əmin olduğumu bildirmək istəyirəm ki, bu binada qəbul otağı olmasa da, yerlər o qədər geniş olmasa da, səfirliyin fəaliyyəti geniş və səmərəli olacaqdır.

Cənab Tomas Yanq qeyd etdi ki, 1919-20-ci illərdə Böyük Britaniyanın Azərbaycanda səfirliyi olub, ancaq onun ömrü az olubdur. Bildirdi ki, bu da ona görə belə olub ki, onun bünövrəsi o qədər də möhkəm olmayıbdır. Bu, həqiqətdir, təkcə səfirliyin bünövrəsi yox, bizim o vaxt yaranmış ilk demokratik respublikamızın, müstəqil hökumətimizin bünövrəsi möhkəm olmayıb və buna görə də onun fəaliyyəti uzun sürə bilməyibdir.

Ancaq indi Azərbaycan Respublikasının müstəqil bir dövlət kimi yaxşı bünövrəsi var. Onun bünövrəsi də Azərbaycan dövlətinin və dövləti idarə edənlərin dövlət müstəqilliyinə, milli azadlığa olan sədaqətidir. Ona görə mən tam əminəm ki, indi müstəqil Azərbaycan Respublikasının çox möhkəm bünövrəsi var və gələcəyi də əbədi olacaqdır. Bununla əlaqədar olaraq Böyük Britaniya Krallığının Azərbaycandakı səfirliyinin bu binada, gələcəkdə bəlkə bundan da geniş binada həm bünövrəsi yaxşı olacaqdır, həm də fəaliyyəti səmərəli olacaqdır. [202-203]

Azərbaycanın dövlət müstəqilliyini təmin edən amillərdən biri bundan ibarətdir ki, respublikamız dünyanın bütün dövlətləri ilə qarşılıqlı surətdə faydalı əlaqələr qurub, qurur və bu əlaqələri daim inkişaf etdirməyə çalışır. Mən böyük məmnuniyyət hissi ilə qeyd edə bilərəm ki, Böyük Britaniya Krallığı ilə Azərbaycan Respublikası arasında yaranmış dövlətlərarası münasibətlər müsbət istiqamətdə inkişaf edir və bunlar öz yaxşı nəticələrini verir. Biz bu əlaqələri yüksək qiymətləndiririk və onların gələcəkdə daha da inkişaf etməsi üçün öz tərəfimizdən şübhəsiz ki, bütün səyləri göstərəcəyik. Bu sahədə bəzi çox təqdirəlayiq addımlar atılıbdır. Böyük Britaniyanın nüfuzlu "Britiş Petroleum" neft şirkəti respublikamızda özünəməxsus yer tutub və Xəzər dənizinin Azərbaycan sektorunda ölkəmizə mənsub olan neft yataqlarının işlənməsində Azərbaycan Dövlət Neft Şirkəti ilə və dünyanın başqa şirkətləri ilə müştərək fəaliyyət göstərməkdədir.

Güman edirəm ki, bu, əlaqələrimizin başlanğıcıdır, ilk addımlardır və tam əminəm ki, biz bütün sahələrdə – iqtisadiyyat, elm, mədəniyyət, humanitar sahələrdə Böyük Britaniya ilə əməkdaşlığımızı sürətlə inkişaf etdirəcəyik.

Cənab Tomas Yanq Azərbaycandakı vəziyyət haqqında da bəzi fikirlər söylədi. Bildirdi ki, noyabrın 12-də nəzərdə tutulmuş parlament seçkilərinə ümidlər bəsləyirlər. Mən təşəkkür edirəm. Çünki noyabrın 12-də keçiriləcək seçkilərə ən çox ümidləri Azərbaycan xalqı, ictimaiyyəti bəsləyir. Məmnunam ki, Azərbaycanda siyasi plüralizm, demokratiya prinsiplərinin bərqərar olması artıq dünya ictimaiyyəti tərəfindən, o cümlədən Böyük Britaniyanın nümayəndələri tərəfindən də qiymətləndirilir.

Mən bir daha qeyd etmək istəyirəm ki, biz bu prinsipləri dövlət quruculuğumuzda əsas prinsiplər kimi götürmüşük və bu da daxili siyasətimizin, yəni həyatımızın zərurətindən meydana gələn prinsiplərdir. Biz bunu kiminsə xoşuna gəlməsi üçün etmirik. Biz bunu öz xalqımızın gələcəyi üçün edirik.

Cənab səfir Tomas Yanq dedi ki, mən siyasətdən danışmaq istəmirəm, ancaq öz nitqinin yarısından çoxunu siyasətə, o cümlədən Azərbaycanın daxili işlərinə həsr etdi. Güman edirəm ki, o özü də nitqindəki ziddiyyəti müşahidə etdi. Ancaq bu da maraqlıdır. Biz heç də narahat deyilik ki, ölkəmizdə olan səfirliklər bizim daxili işlərimizlə maraqlanırlar, bu barədə öz fikirlərini söyləyirlər və bəzən məsləhətlər verirlər. [203-204] Şübhəsiz ki, onlar bizim daxili işlərimizə qarışmamalıdırlar. Ancaq qarışanda da biz bunun üstünü vurmuruq. Çünki onların bu işlərə qarışmağı da bizim üçün təhlükəli deyildir. Biz bu prinsipləri özümüz üçün onların istədiyindən də əziz tuturuq.

On gün bundan əvvəl biz seçkilər haqqında qanunu qəbul edəndən sonra bununla əlaqədar keçirdiyimiz toplantıda danışarkən mən demişəm və bu gün bu məsələyə toxunulduğuna görə bir daha qeyd etmək istəyirəm ki, Azərbaycanda hər bir şəxs seçmək və seçilmək hüququna, hər bir siyasi partiya seçkilərdə fəal iştirak etmək hüququna malikdir. Qeydiyyatdan keçməmiş siyasi partiyaların qeydiyyatı üçün şərait yaratmaq məqsədi ilə

qeydiyyat müddətini 20 gün də uzatdıq və mən arzu edirəm ki, partiyalar qeydiyyata alınmaq üçün bu müddətdən səmərəli istifadə etsinlər, cənab Tomas Yanq da onlara kömək etsin ki, tezliklə qeydiyyatdan keçsinlər.

Biz istəyirik ki, Azərbaycanda partiyaların sayına görə dünyada rekord vuraq. Mən iki gün bundan əvvəl ABŞ senatoru cənab Şelbi ilə cənab səfir Kozlariçin iştirakı ilə söhbət edirdik. O, bir daha bildirdi ki, onlarda seçkilərdə iki partiya iştirak edir. Ancaq bizdə artıq 45 partiya var, bir onu da hələ olacaqdır. Sonra Almaniya bundestaqının üzvü cənab Vimmer mənimlə söhbət edəndə onlarda da bu qədər partiyanın olmadığını bildirdi. Ona görə də mən istəyirəm ki, Azərbaycan heç olmasa bir şeydə – partiyaların sayına görə Amerikadan, Almaniyadan fərqlənsin. Xarici ölkələrin səfirlərinə müraciət edirəm ki, bu məsələnin həll olunmasında bizə kömək etsinlər.

Mən Böyük Britaniya səfirliyini və Böyük Britaniya dövlətini Azərbaycanda onun səfirliyi binasının açılması münasibətilə bir daha ürəkdən təbrik edirəm. Ümidvar olduğumu bildirmək istəyirəm ki, cənab Tomas Yanq, onun hörmətli xanımı və səfirliyin bütün əməkdaşları bu binada səmərəli işləyəcəklər və Böyük Britaniya ilə Azərbaycan arasında olan əlaqələrin inkişaf etməsinə öz səylərini göstərəcəklər. Təbrik edirəm. [204-205]

## RESPUBLİKADA KƏND TƏSƏRRÜFATI İŞLƏRİNİN GEDİŞİ VƏ AQRAR İSLAHATLARIN HƏYATA KEÇİRİLMƏSİ VƏZİYYƏTİNƏ HƏSR OLUNMUŞ MÜŞAVİRƏDƏ GİRİŞ SÖZÜ

*Prezident Sarayı*

*25 avqust 1995-ci il*

Hörmətli müşavirə iştirakçıları!

Bugünkü müşavirənin əsas məqsədi kənd təsərrüfatı sahəsində cari işləri və meydana çıxan məsələləri müzakirə edib, onlar haqqında lazımi tədbirlər görməkdən ibarətdir. Kənd təsərrüfatı iqtisadiyyatımızın böyük bir hissəsini təşkil edir. Əhalimizin təxminən yarısı – kənd yerlərində yaşayanlar kənd təsərrüfatı ilə məşğul olur. Respublika iqtisadiyyatının vəziyyəti, həm də əhalimizin ərzaq və kənd təsərrüfatı məhsulları ilə təmin edilməsi əsasən kənd təsərrüfatı işlərindən, istehsaldan, əldə olunan məhsullardan çox asılıdır. Respublika iqtisadiyyatının digər sahələrinin, o cümlədən sənayenin də bu məhsullara tələbatı böyükdür. Ona görə də biz bu məsələlərə daim ciddi diqqət yetirmişik və diqqəti bu gün də azaltmamalıyıq.

Aydındır ki, indi vəziyyət dəyişib. Çünki indi respublikamızın iqtisadiyyatı və digər sahələri keçid dövrünü yaşayır. Biz iqtisadi islahatlar aparırıq, o cümlədən aqrar bölmədə də iqtisadi islahatların həyata keçirilməsinə başlanmışdır. Şübhəsiz ki, bunlar bir tərəfdən gələcəkdə iqtisadiyyatımızın inkişafını təmin edəcəkdir, ikinci tərəfdən də bu, keçid dövründə müəyyən çətinliklər yaradır və bəzi yerlərdə bu məsələlər düzgün təşkil edilmədiyi üçün biz itkilər veririk. Ona görə də biz bir tərəfdən iqtisadiyyat sahəsində tutduğumuz yol ilə getməliyik, yəni islahatlar aparmalıyıq, lazımi tədbirlər görməliyik, amma eyni zamanda əlimizdə olan mövcud imkanlardan səmərəli istifadə etməliyik. Bu, iqtisadiyyatın bütün sahələrinə – kənd təsərrüfatına da, sənayeyə də aiddir.

İndi kənd təsərrüfatı üçün çox mühüm olan avqust ayı başa çatır. Bu baxımdan bu görüşün zəruri olduğunu nəzərə alaraq sizi bu müşavirəyə dəvət etmişik. Yenə də deyirəm, məqsədimiz [205-206] əsas cari məsələləri araşdırmaq və bu məsələlərin həlli üçün lazımi tədbirlər görməkdir. Eyni zamanda, məqsədimiz aqrar bölmədə islahatların gedişi vəziyyəti haqqında məruzəni dinləyib, qarşıya çıxan məsələlərin həll olunması üçün tədbirlər görməkdir.

Birinci məsələ barədə kənd təsərrüfatı naziri İrşad Əliyev, aqrar islahatların gedişi vəziyyəti haqqında isə baş nazirin birinci müavini Abbas Abbasov məlumat verəcəklər.

### YEKUN NİTQİ

Müşavirəni başlayarkən bildirdim ki, bugünkü müşavirə kənd təsərrüfatının cari işlərinə həsr olunubdur və biz bu gün buraya həmin işlərlə əlaqədar lazımi tədbirləri müəyyənləşdirmək üçün toplaşmışıq. Şübhəsiz ki, biz eyni zamanda, aqrar sahədə aparılan islahatların gedişi ilə əlaqədar müəyyən məlumatları da almalı idik.

Kənd təsərrüfatının indiki vəziyyəti haqqında verilən məlumatlar müəyyən təsəvvür yaradır. Buna görə də güman edirəm ki, geniş müzakirəyə ehtiyac yoxdur. Əgər burada kimsə nəsə demək istəyirdisə və deyə bilmədisə, mən baş nazir Fuad Quliyevə, kənd təsərrüfatı naziri İrşad Əliyevə, baş nazirin birinci müavini Abbas Abbasova tapşırıram ki, bu müşavirə qurtaran kimi həmin konkret məsələləri onlarla birlikdə həll etsinlər. Mən belə hiss etdim ki, böyük əhəmiyyətə malik təklif və məsələlər daha irəli sürülmür.

Lakin bununla yanaşı, bugünkü məlumatlar onu göstərir ki, bir tərəfdən, kənd təsərrüfatımızın imkanları hələ var, özü də az deyildir. Odur ki, biz kənd təsərrüfatında islahatlara, yeni üsullara hələ başlamazdan əvvəl bu imkanlardan istifadə etməliyik. Onları bir tərəfə qoymaq olmaz. Bugünkü məlumatlar həm də onu göstərir ki, bu imkanlardan istifadə etmək üçün, ilin axırınadək kənd təsərrüfatı işlərini başa çatdırmaq üçün və ən başlıcası isə istədiyimiz qədər kənd təsərrüfatı məhsulları istehsal etmək üçün təcili surətdə bir neçə tədbir görülməlidir.

Birincisi, taxıl istehsalı. sahəsində. Taxıl biçini qurtarıbdır. Kənd təsərrüfatı naziri İrşad Əliyevin məlumatından belə aydın olur ki, bu il quraqlıq olduğuna görə, başqa səbəblərə görə 900 min ton taxıl istehsal edilmişdir. Şübhəsiz ki, bu, Azərbaycanın imkanları ilə müqayisədə həddindən artıq azdır. 650 min hektar sahədə taxıl əkilib və 900 min ton taxıl istehsal [206-207] edilibdir. Şübhəsiz ki, bu, əsla yaramaz bir nəticədir. Azərbaycan torpaqlarının nəyə qadir olduğu keçmiş dövrlərdən məlumdur. Yadımdadır ki, 1980-81-ci illərdə Azərbaycanda 450 min hektar sahədə taxıl əkilirdi. Bildiyiniz kimi, o vaxtlar taxıl əkilən torpaqların müəyyən hissəsini üzümçülük və başqa sahələr üçün ayırdıq. O illər biz 450 min hektar taxıl sahəsindən 1,3-1,5 milyon ton taxıl götürürdük və 400 min ton da taxıl tədarük edə bilirdik. İndi o vaxtkına nisbətən taxıl əkini sahəsi 200 min hektar artırılıbdır. Deməli, bu 200 min hektar sahə şumlanıb, bunun üçün zəhmət çəkilib, yanacaq və

texnika işlədilib, nə qədər toxum səpilibdir. Amma məhsul o vaxtkından təxminən 500-600 min ton az götürülübdür. Şübhəsiz ki, belə işləmək yaramaz.

Aydındır ki, bunlar sadəcə olaraq cari ildə buraxılan səhvlərin, nöqsanların, çatışmazlıqların və ya işə pis münasibətin nəticəsi deyildir. Ümumiyyətlə, son illər bütün sahələrdə, o cümlədən də kənd təsərrüfatında istehsala münasibətin dəyişməsi, dağıdıcı proseslər, hərc-mərclik, özbaşınalıq və məsuliyyətsizlik belə vəziyyətə gətirib çıxarmışdır. Azərbaycanda ildə nəinki 1,5 milyon, hətta 2 milyon ton taxıl istehsal etmək imkanımız var. Əslinə qalsa biz bundan da artıq miqdarda taxıl məhsulu götürmək imkanına malikik. Zənnimcə, bunları heç kəs təkzib edə bilməz. Lakin biz belə işləyəcəyiksə, işimizin nəticəsi bu cür olacaqsa, onda biz özümüz-özümüzə ziyan vururuq. Çünki əkməsəydin və ya az əksəydin, onda başqa məsələ. Bu halda deyərdik ki, az əkmişəm, az da götürürəm. Amma 650 min hektar torpaqdan istifadə edilibdir. Yenə də deyirəm, bu da böyük tədbirlər görülməsi nəticəsində olubdur. Ora vəsait xərclənibdir. Bu 650 min hektar torpağı şumlamaq, əkib-becərmək, toxum səpmək üçün nə qədər xərc gedibdir. 650 min hektar sahədən 900 min ton məhsul götürmək nə deməkdir ?! Bizim taxıla nə qədər ehtiyacımız olduğunu bilirsiniz. Biz respublika əhalisini çörək və taxıl məhsulları ilə təmin etmək üçün nə qədər çətinliklər çəkirik. Mən hələ mal-qara üçün yemi bir yana qoyuram. İndi burada məlumat verildi ki, cəmi 172 min ton taxıl tədarük edilib. Biz 172 min ton taxıl ilə əhalini bir il saxlaya bilərikmi ? Respublikanın əhalisini çörəklə təmin edə bilərikmi ? Şübhəsiz ki, yox.

Odur ki, bundan ciddi nəticə çıxarmaq lazımdır. İrşad Əliyev burada dedi ki, bu il 700 min hektar sahədə taxıl əkmək planlaşdırılır. Mən buna etiraz etmirəm, çünki bizim torpağımız [207-208] var və bu torpaqlar boş qalmamalıdır. Onlardan istifadə olunmalıdır: bunun üçün təkcə yerli əhalini deyil, başqa rayonlardan qaçqın düşüb orada məskunlaşmış vətəndaşlarımızı da cəlb etmək lazımdır. Əlbəttə, boş torpaqları əkib-becərmək gərəkdir. Amma indi onlar şumlanmalı, səpiləcək toxum yaxşı hazırlanmalıdır. Özü. də toxum keyfiyyətli olmalıdır. Səpin də vaxtında getməlidir. Ümumiyyətlə, bütün başqa işlər də keyfiyyətlə görülməlidir ki, gələn il biz oradan lazımi miqdarda məhsul götürə bilək.

Bunu da nəzərə almaq lazımdır ki, Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş ərazilərimizdə xeyli miqdarda münbit və olduqca məhsuldar torpaqlarımız qalıbdır. Elə götürək Füzuli rayonunun torpaqlarını, yaxud da Cəbrayıl, Zəngilan, Qubadlı rayonlarının torpaqlarını. Sözlərim eləcə də Kəlbəcər, Laçın rayonlarının torpaqlarına aiddir. Şübhəsiz ki, orada da olduqca yararlı torpaqlarımız var. Ağdam rayonu ərazisinin çox hissəsi işğal altındadır. Amma bu gün burada məlumat verdilər ki, rayonun işğal edilməmiş torpaqlarının az bir hissəsində taxıl da, üzüm də istehsal olunubdur. Əlbəttə, Ağdam rayonu keçmişdə Azərbaycanda böyük miqdarda məhsul verən rayonlardan biri idi. Çünki onun torpaqları çox münbit və məhsuldar torpaqlardır. Adamları da olduqca fədakar insanlardır. Yaxşı məhsul istehsal edə bilirdilər. Onlar yaxşı da yaşayırdılar. İndi bu torpaqlar Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilibdir və biz bu torpaqlardan müvəqqəti məhrum olmuşuq. Deməli, belə halda biz ərazimizin başqa hissəsindəki torpaqlardan səmərəli istifadə etməliyik. Ərazimizin bir hissəsi işğal olunduğu halda və digər məhsullar istehsalı üçün yararlı torpaqlarımızın böyük bir qismi əlimizdə olmadığı halda, ərazimizin başqa sahələrində 700 min hektar torpaqdan taxıl istehsalı üçün istifadə edə biləriksə, deməli, bu bizim imkanlarımızın genişliyindən xəbər verir. Amma bu imkanlardan səmərəli istifadə etmək lazımdır.

Ona görə də, mənim bu sahədə tələbim bundan ibarətdir. Birincisi, İrşad Əliyevin burada verdiyi rəqəmlər barədə. Dünən mən həmin məsələlərlə, kənd təsərrüfatı məsələləri ilə əlaqədar baş nazir Fuad Quliyevin, baş nazirin birinci müavini Abbas Abbasovun, kənd təsərrüfatı naziri, maliyyə naziri, Milli Bankın sədri, Prezident Aparatı işçiləri və başqa şəxslərin iştirakı ilə müşavirə keçirdim və bir çox göstərişlər verdim. Dünən onlar işləmişlər. Bu gün İrşad Əliyevin verdiyi məlumatdan [208-209] isə mən belə başa düşdüm ki, verdiyim göstərişlər nəticəsində bir çox məsələlər həll olunubdur. Ancaq bu hələ o demək deyil ki, bütün məsələlər həll edilmişdir. Dünən mən bu barədə göstərişlər verərkən və indiki müşavirəni hazırlayarkən biz bu ilki məhsuldan nə qədər taxıl götürə biləcəyimiz haqqında fikir mübadiləsi apardıq. Bu gün İrşad Əliyev məlumat verdi ki, biz daha 20 min ton buğda götürəcəyik. Ondan əlavə, qarğıdalı da var, başqa dənli bitkilər də. Amma xalis buğda 20 min tondur. O bildirdi ki, bu 20 min ton buğda hansı rayonlardan, özü də nə qədər götürülməlidir. Mən birinci növbədə kənd təsərrüfatı nazirindən, rayon icra hakimiyyəti başçılarından, rayon kənd təsərrüfatı idarələrinin başçılarından tələb edirəm ki, İrşad Əliyevin vəd etdiyi kimi, bu məsələ sentyabrın 10-na qədər həll olunsun. Həm də bu məsələnin həllinin maliyyə tərəfi təmin edilmişdir. Mən bu barədə göstəriş vermişəm. Fuad Quliyev mənə dedi ki, maliyyə məsələsi artıq həll olunmuşdur. Əgər çatışmayan bir şey varsa, onu da həll etmək lazımdır ki, dövlətin sərəncamına 20 min ton buğda mütləq göndərilsin. Buna bütün səviyyələrdə nəzarət etmək lazımdır, o cümlədən baş nazir Fuad Quliyev də nəzarət etməlidir.

Eyni zamanda gələn il yaxşı məhsul, xüsusən taxıl məhsulu götürmək üçün indi məsul dövrdür. Aydındır ki, biz islahatları həyata keçirəcəyik. Bu barədə mən öz fikirlərimi bir qədər sonra deyəcəyəm. Söz yox ki, torpaqlar bölünüb paylanacaq və torpaq islahatı haqqında qanunun qəbul edilməsini də tezləşdirəcəyik. Amma indiki şəraitdə torpaqdan səmərəli istifadə etmək lazımdır. Buna görə də mən İrşad Əliyevin burada dediklərini nəzərə alıram ki, 700 min hektar sahədə taxıl əkiləcəkdir. Bunun üçün lazımi tədbirlər görülməlidir, keyfiyyətli şum aparılmalıdır və taxıl səpini vaxtında keçirilməlidir.

Bu gün Fuad Quliyev mənə məlumat verdi ki, mənim dünənki göstərişlərimdən sonra onlar lazımi tədbirlər görüblər. Keyfiyyətli taxıl toxumu almaq üçün əlavə olaraq 3 milyon dollar vəsait ayrılıbdır. Bunların hamısından istifadə olunmalıdır. Vaxtında keyfiyyətli toxum alınmalı və səpilməlidir. Bir sözlə, gələn il yüksək məhsul götürmək üçün hər cür şərait yaradılmalıdır.

İndi kənd təsərrüfatımızın əsas sahəsi pambıqçılıqdır. Bildiyiniz kimi, vaxtilə, daha doğrusu, 85-ci, 86-cı və 87-ci illərdə [209-210] respublikanı dağıtmağa can atan adamlar bizi dəfələrlə günahlandırmışlar ki, nə üçün biz pambıq bitkisinin Azərbaycanda geniş yayılmasına şərait yaratmışıq, çalışmışıq. Guya biz xalqımıza ziyan vurmuşuq, pis işlər görmüşük və s. və i.a. İndi bunların nə dərəcədə böhtan xarakteri daşıdığını, ağılsız söz olduğunu və ağılsız adamlar tərəfindən deyildiyini, millətimizə, xalqımıza xəyanət olduğunu görürsünüz. Bildiyiniz kimi, bu ağır dövrümüzdə bizə müəyyən qədər valyuta gətirən sahə pambıqçılıq sahəsidir. Əlbəttə, biz bu qədər yox, bundan da artıq pambıq istehsal edə bilərik. Çünki biz vaxtilə bundan da artıq pambıq məhsulu götürmüşük.

Şübhəsiz ki, pambıqçılıq Azərbaycan üçün mühüm bir sahədir. Bu, bizim icad etdiyimiz yeni bir şey deyildir. Tarixi sənədlər göstərir ki, 200 il bundan öncə də Azərbaycan kəndliləri .pambıq əkib-becərir və ondan öz dolanacağı üçün vəsait əldə edirdilər.

Ona görə də bu sahə yaşamalıdır və ona diqqət yetirilməlidir. Şübhəsiz ki, Azərbaycanın keçən il istehsal edilmiş pambıqdan iki dəfə, hətta bundan da çox pambıq istehsal etməyə imkanı var, özü də xeyli dərəcədə. Mən ümidvaram ki, biz iqtisadi islahatları həyata keçirdikdən sonra, insanlar öz torpaqlarının sahibi olduqdan sonra və hər şeyin sahibi özləri olduqdan sonra görəcəksiniz Azərbaycanda nə qədər kənd təsərrüfatı məhsulları istehsal ediləcəkdir, o cümlədən də pambıq məhsulu. Şəxsən mənim buna şübhəm yoxdur.

Lakın indi konkret olaraq söhbət bu gündən gedir. Bu da ondan ibarətdir ki, keçən ildəkinə nisbətən bizim daha çox pambıq əldə etməyə imkanımız var. İrşad Əliyev burada məlumat verdi ki, onların hesabına görə, 390 min ton pambıq istehsal etmək mümkündür. Amma güman edirəm ki, o da müəyyən ehtiyatla deyir. Zənnimcə, bundan da çox pambıq istehsal etmək olar. Doğrudur, bu il quraqlıq oldu, bəzi yerlərdə taxıl sahələrinə zərər dəydi, itkilərimiz oldu. Ancaq eyni zamanda yay çox isti keçdiyinə görə pambıq əvvəlki illərə nisbətən bu il xeyli tez yetişibdir. Mən 30 ildir ki, pambıqçılıq sahəsi ilə məşğul oluram və buna görə də deyə bilərəm ki, pambıq üçün şərait hansı ildə necə olub. Hamısı mənim yadımdadır, heç nəyi unutmamışam. Əgər keçmiş dövrləri yada salsaq, onda görərik ki, Azərbaycanda avqustun 15-dək, ya da 20-dək bu qədər pambıq yığılması çox az-az illərdə olubdur. Bu gün İrşad Əliyev məlumat verdi ki, artıq neçə min ton pambıq yığılıbdır. [210-211] Bu gün isə avqustun 25-dir. Pambıq yığımına adətən avqustun axırlarında – sentyabrın əvvəllərində başlanardı. Çox az-az illər olardı ki, pambıq belə tez yetişmiş olsun.

Mən belə hesab edirəm ki, tarlalarda məhsul boldur. Dünən "Xəbərlər" proqramında hansı rayondansa pambıq sahəsini göstərirdilər. O hansı rayon idi ? Bəli, yadıma düşdü, Goranboy rayonu idi. Düzü, təəccübləndim. Mən gördüm ki, sahələrdə pambıq kollarının yarpaqları da tökülmüşdür, kolların üstündəki qozalar isə tamamilə açılmışdır. Biz belə mənzərəni ancaq sentyabrın ortalarında müşahidə edə bilərdik. İndi görün, nə qədər imkan yaranıbdır ki, sürətlə pambıq yığmaq mümkün olmuşdur.

Odur ki, pambıq yığımını çox ciddi təşkil etmək lazımdır, özü də bəri başdan. Mən ötən illərin təcrübəsindən bunu da demək, daha doğrusu, xəbərdarlıq etmək istəyirəm ki, belə isti və quraq keçən yay vaxtından sonra adətən sentyabrda yağışlar çox olur. Mən hələ oktyabr ayını demirəm. Bəli, sentyabr yağmurlu aydır. Bunu uzun illərin müşahidələri də göstərir. Ona görə də indi vaxtı itirmək olmaz, pambıq qozalarının tamamilə açıldığı bütün sahələrdə məhsul tezliklə yığılmalıdır. Dünən mən pambığın yığılması barədə göstərişlər verdim və Fuad Quliyev mənə bildirdi ki, onlar dünən məsələlərə baxıb, hər şeyi həll etmişlər. Yəni indi hər şey Kənd Təsərrüfatı Nazirliyindən asılıdır. Keçən ilin məhsulundan satılan pambıqdan 62 milyon dollar vəsait əldə edilibdir. Əvvəllər siz hayküy salırdınız ki, pambıqyığanlar əmək haqqını elə həmin gün alsınlar. Biz keçən il də tədbir gördük ki, məhz belə olsun. Doğrudur, daha keçmiş vaxtlar deyil ki, əməkçi pambığı yığırdı və arxayın olurdu ki, axırda öz haqqını alacaqdır. Almağına alırdı, özü də çox yaxşı haqq alırdı. İndi də belə etmək üçün sizin vəsaitiniz var. Biz pambığın satılmasını 94-cü ilin axırlarında və 95-ci ilin əvvəllərində ötən illərdəkinə nisbətən daha yaxşı təşkil etmişik. Siz artıq valyuta almısınız. Valyuta sizin əlinizdədir. Milyardlarla manat sizin əlinizdədir. Bundan səmərəli istifadə edin.

Amma bəzi məlumatlar var və bəzi hallarda da mən özüm şübhələnirəm ki, göndərilən pullar dağıdılır, ora-bura xərclənir, deyirlər, nə bilim, onu da ödəmək lazımdır, bunu da. Burada Kənd Təsərrüfatı Nazirliyindən, şəxsən İrşad Əliyevdən tələb edirəm ki, bu işlərlə ciddi məşğul olsunlar. Artıq [211-212] keçmiş vaxtlar deyildir. Mən Vahid Valyuta Fondunu ləğv etmişəm, iqtisadiyyatda sərbəstləşdirmə haqqında fərman vermişəm, satılan məhsuldan əldə olunmuş valyutanın hamısının təsərrüfatlara, müəssisələrə, Kənd Təsərrüfatı Nazirliyinə ayrılması haqqında fərman vermişəm. Deməli, pambığı satmısınız. Özü də yaxşı qiymətə sata bilmisiniz, valyuta almısınız. İndi zəhmət çəkib ondan istifadə edin ki, daha çox pambıq yığıb yenə də sata biləsiniz. Siz artıq bu ilin təcrübəsindən gördünüz ki, pambıq normal satılıbdır. Deyə bilmərəm ki, hamısı normal satılıbdır. Salman Cəfərov burada bəzi məlumatlar verdi. Mən bu barədə danışacağam. Amma keçən illərə nisbətən müəyyən irəliləyiş var, məhsul normal satılıbdır, valyuta da gəlibdir, bundan istifadə edin. Daha nə istəyirsiniz?

Ona görə də mən sizdən tələb edirəm ki, heç kəsin üstünə yıxmayın. Siz pulları pambıq zavodlarına göndərmisiniz. Bəs, onlar bu pullardan necə istifadə edirlər? Pambıqyığanlaramı verirlər, yoxsa öz ciblərinə qoyurlar, yaxud başqa məqsədlər üçün istifadə edirlər? Bunların hamısının məsuliyyətini siz daşıyırsınız.

Siz 390 min ton dediniz, amma mən hesab edirəm ki, bundan da çox pambıq yığmaq mümkündür. Bunun üçün işlə ciddi məşğul olmaq lazımdır. Ən əvvəl Kənd Təsərrüfatı Nazirliyi, şəxsən nazirin özü işlə hər gün məşğul olmalıdır. Bu işlərlə yerli icra hakimiyyəti orqanları, icra hakimiyyətinin başçıları, kənd təsərrüfatı idarələri və ümumiyyətlə, yerli orqanlarımızın hamısı məşğul olmalıdırlar. Pambıq tezliklə yığılmalıdır. Bunun üçün hər cür maliyyə imkanı yaradılıbdır və bu imkanlardan səmərəli istifadə edilməlidir. Mən bu gün Fuad Quliyevə göstəriş vermişəm ki, yanacaq məsələsi və başqa məsələlər də həll olunmalıdır. Burada Bərdə rayon icra hakimiyyətinin başçısı dedi ki, yanacaq gəlib çıxmayıbdır. Bunları həll etmək lazımdır.

Bununla yanaşı, mən rayon icra hakimiyyəti başçılarına, rayon kənd təsərrüfatı idarələrinin rəhbərlərinə və bütün rəhbər orqanlara deyirəm ki, gətirilən yanacaqdan səmərəli istifadə olunmalıdır. Yanacaq ayrılıb, gətirilib və ondan kənd təsərrüfatı işləri üçün istifadə edilməlidir. Amma yerlərdə yanacağı satır, ondan başqa məqsədlər üçün istifadə edir, respublikadan kənara daşıyır, özlərinin varlanması üçün cürbəcür yollarla mənimsəyirlər. Belə hallara son qoymaq lazımdır. Mən kənd təsərrüfatı nazirinə heç də təsadüfən demədim ki, Yanacaq [212-213] Komitəsinə sizin 230 milyard manat borcunuz var. Mən demirəm ki, borcunuzu bu dəqiqə qaytarmalısınız. Amma bilin ki, əvvəla, borclusunuz. İkincisi isə, bu borcun çoxu ondan əmələ gəlib ki, göndərilən yanacağın hamısı kənd təsərrüfatı işləri üçün istifadə olunmayıb, dağıdılıb, mənimsənilib, ayrı-ayrı adamların varlanması üçün sərf edilib. Bir neçə icra hakimiyyəti başçısının özləri də bu işlərlə məşğul olublar. Bu işə nəzarət etmək əvəzinə, dövlətin işlərinə can yandırmaq əvəzinə, şəxsi varlanmaq məqsədi güdmüşlər. Mən hələ kənd təsərrüfatı orqanlarını demirəm. Onlar öz yerində.

Buna görə də tələb edirəm ki, bütün bu nöqsanlar, qüsurlar, bu cinayət halları aradan götürülsün və kənd təsərrüfatının bütün sahələrində, xüsusən pambığın yığılması ilə əlaqədar ciddi iş aparılsın. Məsuliyyət kənd təsərrüfatı naziri İrşad Əliyevin, baş nazir Fuad Quliyevin, baş nazirin birinci müavini Abbas Abbasovun, yerli icra hakimiyyəti başçılarının və yerli orqanların üzərinə düşür. Kənd təsərrüfatı sahəsində bütün məsələlərlə ciddi məşğul olmaq lazımdır.

Buraya təcili siqnallar, məlumatlar gəlir və bizim dövlət nəzarəti şöbəsi də araşdırmalar aparmış, məlumatlar vermişdir. Bu, bir həqiqətdir ki, keçən il istehsal edilən pambıq 283 min, yaxud 284 min ton olmayıbdır, bundan xeyli çox olubdur. İstehsal edilən pambığın bir hissəsini kənd təsərrüfatı idarələri rayonlarda pambıq zavodlarında gizlədirlər. Ola bilsin ki, onlar Kənd Təsərrüfatı Nazirliyinin bəzi rəhbər işçiləri ilə əlbir hərəkət edirlər və bu məhsuldan öz şəxsi mənafeləri üçün, şəxsən varlanmaq üçün istifadə edirlər. Bu, həqiqətdir. Buna mənim heç bir şübhəm yoxdur. Qəribə haldır, keçmiş dövrlərdə, planın yerinə yetirilməsi əsas məqsəd olduğu dövrlərdə bizim kənd təsərrüfatı sahəsində nöqsanlarımızdan biri də rəqəmlərin şişirdilməsi idi. Biz belə hallara qarşı mübarizə aparırdıq. Yadınızdadır, biz nə qədər adamı cəzalandırdıq, rayon rəhbərlərindən, rayon partiya komitələrinin birinci katiblərindən işdən çıxarılanlar da oldu, həbsxanaya düşənlər, ciddi cəza alanlar da oldu. Mən hələ təsərrüfat rəhbərlərini demirəm. Nə üçün? Ona görə ki, o vaxtlar rəqəmləri şişirdir, hesabatlarda göstəriciləri artıq yazırdılar. Bunun əvəzində isə pul alır, onu mənimsəyirdilər. İndi isə əksinə olub, yəni rəqəmləri şişirtmir, əksinə, azaldırlar. Pambığı gizlədirlər, sonra onu mahlıca çevirirlər. Burada, gətirilən faktlardan məlum oldu ki, bu məhsulu xəlvəti, gizli satırlar və beləliklə də ayrı-ayrı [213-214] adamlar şəxsən varlanır, camaatın əksəriyyəti isə kasıblıq içində yaşayır. Bunlara dözmək olarmı?!

Amma kənd təsərrüfatı sahəsində, ümumiyyətlə, bütün sahələrdə, o cümlədən pambıqçılıq sahəsində törədilən cinayətlər tək bundan ibarət deyildir. Mən tam əminəm ki, həmin o istehsal edilmiş 283, yaxud 284 min ton pambıqdan, burada Salman Cəfərovun dediyinə görə, 86 min ton mahlıc çıxıbdır. Bu mahlıcın da bir hissəsini oğurlayıblar. Buna mənim şübhəm yoxdur. Burada faktlar gətirdilər ki, Yevlaxda, Kürdəmirdə və başqa yerlərdə pambığı zavodlardan çıxarıb xəlvəti xarici ölkələrə apararkən tutublar və indi bu barədə işlər Daxili İşlər Nazirliyində və prokurorluq orqanlarındadır. Axı, insan gərək bir düşünsün, başa düşsün. Biz yol verə bilmərik ki, ayrı-ayrı adamlar xalqın ümumi sərvətindən istifadə edərək şəxsən varlansın, zəngin olsun, nə bilim, kapitalist olsunlar, əhalimizin əksəriyyəti isə ehtiyac içərisində yaşasın, gündən-günə yoxsullaşsın. Bu, yolverilməz haldır. Əgər istehsal edilən pambığın hamısı göz qabağında olsaydı, ondan gələn gəlirin hamısı hər bir kəsə öz zəhməti müqabilində çatsaydı və bu cür oğurluq hallarına yol verilməsəydi, cinayətlər törədilməsəydi, şübhəsiz, ümumi iqtisadi vəziyyətimiz bundan xeyli yaxşı olardı və əhalinin maddi vəziyyəti də bundan daha yaxşı olardı.

Buna görə mən bütün vətəndaşlarımıza, xüsusən kənd təsərrüfatı sahəsində işləyən vətəndaşlarımıza, pambıqçılıqla məşğul olan vətəndaşlarımıza müraciət edirəm ki, daha tələbkar olsunlar, pambıq zavodlarında çalışan adamlara, təsərrüfat rəhbərlərinə, icra hakimiyyəti başçılarına, icra hakimiyyəti orqanlarında, kənd təsərrüfatı orqanlarında işləyən adamlara imkan verməsinlər ki, şəxsən varlanmaqla məşğul olsunlar, iqtisadiyyatımıza və xalqın rifah halına belə zərbələr vursunlar.

Vəzifəli adamlar başa düşməlidirlər ki, onlar dövlətdən etimad alıblar, dövlət orqanlarında vəzifə daşıyırlar. Onlara vəzifələri ona görə verməyiblər ki, xalqın qanını sorub, şəxsən varlanmaqla məşğul olsunlar.

Bu vəzifələr ona görə verilib ki, onlar ayrı-ayrı sahələri idarə etsinlər və bu idarəetmə də elə olsun ki, ümumi iqtisadiyyatımız irəli getsin, bunun nəticəsində insanların rifah halı yaxşılaşsın. Onlar vəzifələrə bu məqsədlə təyin edilirlər. Daha ona görə təyin edilmirlər ki, hərə bir vəzifə tutsun və öz şəxsi məqsədləri ilə, öz şəxsi məsələləri ilə məşğul olsun. Təəssüf ki, belə hallar respublikamızda çox geniş yayılıb. [214-215] Buna qarşı ictimaiyyətdə nifrət oyatmaq lazımdır. Belə insanlara qarşı xalqda ikrah hissi oyatmaq gərəkdir.

Mən Kənd Təsərrüfatı Nazirliyindən tələb edirəm ki, bu işlərlə ciddi məşğul olsunlar. İrşad Əliyev bilsin ki, ona böyük etimad göstərilib, böyük bir nazirlik ona tapşırılıb və ona böyük inam göstərilibdir. O, bu inamı doğrultmalıdır. Onun bəzi müavinlərinin nə ilə məşğul olduqlarını bilmirəm. Kənd Təsərrüfatı Nazirliyini təmizləmək lazımdır. Mən kadr məsələsini nəzərdə tuturam. Mən bu göstərişi bir neçə dəfə vermişəm. Müzamil Abdullayev kimi quldurlar, cinayətkarlar iqtisadiyyatımıza nə qədər zərbələr vurublar. Tək o deyildir, başqaları da olublar. Bizim kənd təsərrüfatı sahəsini belə cinayətkarlardan, belə quldurlardan xilas etmək lazımdır. Amma onların bir çoxu indiyədək ayrı-ayrı vəzifələrdə oturublar və öz əxlaqı ilə, öz keçmiş əhval-ruhiyyəsi ilə yaşayaraq iqtisadiyyatımızı dağıdırlar.

Mən tələb edirəm, bunlara son qoyulsun. Bizim hüquq-mühafizə orqanları ciddi mübarizə aparmalıdırlar. Mən təəssüf edirəm, burada məlumat verildi ki, istintaq işləri indiyə qədər uzadılır və Salman Cəfərov burada, nə təhər deyərlər, göz yaşları ilə xahiş edir ki, heç olmasa bu işin birini qurtarın, başqalarına da ibrət olsun ki, bəli, bu iş qurtardı, bu adam cəzalandı. Bu işlərin istintaqı nə qədər çəkməlidir? Mənim xatirimdədir, Yevlax rayonundan pambığın çıxarılması neçə ay bundan qabaq olub. Orada kim günahkardırsa, vəzifəsindən asılı olmayaraq cəzalandırılmalıdır. Vəzifəli adamlar isə, əksinə, daha çox cəzalandırılmalıdır.

Yaxud da Kürdəmirdə pambıq zavodundan pambıq çıxarırlar. Mən soruşdum, Eldar Həsənova tapşırmışdım, mənə deyirlər ki, bir nəfər pambıqçıdan savayı heç kəsi hələ məsuliyyətə cəlb etməyiblər. Pambıq zavodunun direktoru sərbəst gəzir, icra hakimiyyəti başçısı bu işdə nə qədər günahkardır, ya günahkar deyil – aydınlaşdırmaq lazımdır. Prezident Aparatı da, prokurorluq da bununla məşğul olmalıdır. Necə ola bilər ki, icra hakimiyyəti başçısının gözünün qabağında pambıq zavodundan 500 ton pambıq çıxarırlar? Kimliyindən asılı olmayaraq, hansı rayonda ki, belə hadisə baş verib, icra hakimiyyəti başçısı buna birbaşa cavabdehdir. Yoxsa özünü kənara çəksin, desin ki, bilmədim, görmədim, – necə ola bilər? Kürdəmir rayonu balaca rayondur, rayonun mərkəzi də bizə məlumdur – böyük bir şəhər deyil, oradakı pambıq zavodu da bizə [215-216] məlumdur. Nə cür ola bilər ki, oradan 500 ton pambığı xəlvəti çıxarsınlar, bunların da xəbəri olmasın? Prokurorluq orqanlarının bu işi ləngitməsini yalnız bu cür qiymətləndirə bilərəm ki, yəqin bu işdə onların özlərinin də şəxsi marağı var. Ona görə də mən baş prokuror Eldar Həsənova tapşırıram: icralarında olan bu işlərin istintaqı təcili aparılmalı və məhkəməyə verilməlidir. Təqsirkarlar məhkəmə qarşısında cavab verməlidirlər. Hüquq-mühafizə orqanları – Daxili İşlər Nazirliyi, Respublika Prokurorluğu və başqaları öz fəaliyyətlərini bu məsələlərin qarşısının alınmasına yönəltməlidirlər.

Alınan məlumatlara görə pambığın bir hissəsini bax, beləcə, gizli olaraq, bir hissəsini isə, bəlkə də, oğurlayaraq xaricə aparırlar. Bu məhsul xaricə haradan çıxarılır ? Bizim Sərhəd Qoşunları, Gömrük Komitəsi var, Gömrük Komitəsinin məntəqələri var. Salman Cəfərov bu gün mənə məlumat verəndə dedi ki, dəniz vasitəsilə daha çox çıxarırlar. Orada bizim Gömrük İdarəmiz var, Sərhəd Qoşunları İdarəsi var. Əgər bu məhsul oradan çıxırsa, demək, onlar da əlbirdirlər. Belə olan halda Gömrük Komitəsinin sədri haraya baxır, Sərhəd Qoşunlarının rəisi, Milli Təhlükəsizlik Nazirliyinin rəhbərliyi haraya baxır ?

Bilirsiniz, bizim sərhədlərdə o qədər dövlət orqanları var ki, bəzən bilmirsən, bunlar nə qədər olar. Məsələn, bizim hava limanında polisin böyük bir dəstəsi var, Sərhəd Qoşunlarının böyük bir dəstəsi var, Gömrük Komitəsinin böyük bir dəstəsi var, nəqliyyat prokuroru var, Vergi Müfəttişliyinin adamları var, başqaları var... Eyni zamanda həmin bu hava limanından ayrı-ayrı cinayətkarlar o tərəf-bu tərəfə gedirlər, ayrı-ayrı şeyləri də qanunsuz aparırlar. Nə cür ola bilər ? Həmin orqanları bu məntəqədə nədən ötrü yaratmışıq, ona görə ki, hərə özünün şəxsi mənafeyini təmin etsin ? Biz bu orqanları həmin məntəqələrdə dövlətin mənafeyini qorumaq üçün yaratmışıq və onlar dövlətin mənafeyini qorumalıdırlar. Ona görə mən bütün bu nazirliklərin, komitələrin, idarələrin başçılarına xəbərdarlıq edirəm ki, bu işlərlə ciddi məşğul olsunlar.

Pambığın qeyri-qanuni çıxarılması haqqında başqa məlumatlar da var. Mən tapşıracağam, Salman Cəfərov da özündə olan məlumatları və başqa məlumatları prokurorluq orqanlarına versin və istintaq orqanları bunlarla ciddi məşğul olmalıdırlar. [216-217]

Bir sözlə, bu mövzunu yekunlaşdıraraq demək istəyirəm ki, bu il yaxşı pambıq məhsulu yetişdirilib və onu tezliklə, itkisiz yığıb dövlətə təhvil vermək lazımdır. Görürsünüz ki, dövlət də pambığın satılmasından əldə olunan valyutanın üçdə ikisini təsərrüfatlara verir. Bundan artıq nə ola bilər? Maddi maraq da, maliyyə şəraiti də təmin olunur. Sadəcə olaraq işləmək və bunun nəticəsindən istifadə etmək lazımdır.

Üzümçülük də respublikanın kənd təsərrüfatının əsas sahəsidir. İrşad Əliyevin məruzəsindən belə başa düşdüm ki, bu il 400 min ton üzüm istehsal etmək imkanı var. Belə hesab edirəm ki, dünən verdiyim göstərişdən sonra baş nazirin yanında keçirilən müşavirədə maliyyə məsələləri həll olunubdur, Kənd Təsərrüfatı Nazirliyinin tələbləri ödənilibdir və üzümün vaxtında yığılması üçün lazımi şərait yaranıbdır. 15 min ton üzüm

yığılmışdır. Lazımdır ki, bütün məhsul yığılıb dövlətə, yəni şərab zavodlarına verilsin, şərab, başqa məhsullar istehsal olunsun. Bu da bizim iqtisadiyyatımız üçün çox lazımlı bir sahədir.

Demək istəyirəm ki, oradan-buradan mənə məlumatlar gəlir, guya indi bu işləri aparmaq üçün kənd təsərrüfatının maliyyə çətinlikləri var. Mən dünən bütün göstərişləri vermişəm və aldığım məlumatlardan belə qənaətə gəlmişəm ki, bu məsələlər həll olunur və həll olunacaq. Kənd təsərrüfatı işi belədir ki, siz bir həftə bir işi görün, bir həftədən sonra yenə təmin olunacaqsınız. Ona görə də mən icra hakimiyyəti başçılarından, rayon kənd təsərrüfatı idarələrindən tələb edirəm ki, bütün işləri görsünlər. Əgər haradasa bir gün, üç gün, dörd gün, beş gün vəsait çatmadısa, adamların haqqı ödənilmədisə, tezliklə çatacaqdır.

Mən kənd təsərrüfatı işləri ilə məşğul olan vətəndaşlara da müraciət edirəm. Onlar işə daha da can-başla yanaşmalıdırlar. Əgər bu gün haqqını almayıbsa, beş gündən, on gündən sonra alacaqdır. O yerlərdə ki, bəzi obyektiv səbəblərə görə maliyyə çətinlikləri yaranır, icra hakimiyyəti başçıları gərək iş aparsınlar, kənd təsərrüfatı ilə məşğul olan vətəndaşlar arasında izahat aparsınlar, onları başa salsınlar, bildirsinlər ki, əgər bu gün haqqı çatmayıbsa, beş gündən, on gündən sonra çatacaq. Ona görə də burada hərtərəfli iş getməlidir. Bir tərəfdən, şübhəsiz ki, maliyyə imkanlarımızı səfərbər etməliyik, ikinci tərəfdən də, bir də deyirəm, yerlərdə icra hakimiyyəti başçıları, dövlət orqanlarının rəhbərləri, kənd təsərrüfatı orqanlarının rəhbərləri [217-218] bu işə konkret tədbirlərlə yanaşmalıdırlar, ayrı-ayrı çatışmazlıqları bəhanə edərək ümumi işi geri salmamalıdırlar.

Burada Bərdə rayonunun icra hakimiyyəti başçısı böyük bir həyəcanla dedi ki, yeddi gündür Bərdəyə qaz verilmir. Şübhəsiz ki, bu işə baxmaq lazımdır. Xüsusən orada çoxlu qaçqın olduğuna görə Fuad Quliyevə tapşırdım ki, baxsın, həll eləsin. Bu məsələləri qoymaq, həllini tələb etmək lazımdır. Ancaq dramatikləşdirmək də lazım deyil. İnsanlarla işləmək lazımdır. Onları başa salmaq lazımdır ki, biz hansı şəraitdə yaşayırıq. Əgər vaxtilə Azərbaycanda ildə 15 milyard kubmetr qaz hasil edirdiksə, indi 6 milyard kubmetr qaz çıxarırıq. İki gün öncə Gürcüstanın səfiri mənim yanıma gəlmişdi. Onlar Türkmənistandan az miqdarda qaz alırdılar, indi tamamilə kəsilmişdir. Gürcüstan kimi respublikada bir kubmetr də olsun qaz yoxdur. Yaşayırlar, düzdür pis yaşayırlar, amma yaşayırlar. Şübhəsiz, bizim imkanlarımız var, bunlardan istifadə edirik və edəcəyik. Ancaq düşdüyümüz vəziyyəti də bilmək lazımdır.

Bununla əlaqədar mən qaçqınların qayğısına qalmağı rayon icra hakimiyyəti başçılarının xüsusilə nəzərinə çatdırmaq istəyirəm. Nə olur-olsun, birinci növbədə qaçqın, köçkün düşmüş adamların qayğısına daim qalmaq lazımdır. Bəlkə də yerli adamlardan xeyli artıq onların qayğısına qalmaq gərəkdir. Çünki yerli adam öz evində yaşayır, onun nəyisə var, amma qaçqın, köçkün hər şeyi itiribdir, yaşamağa da çadırdan savayı heç nəyi yoxdur.

Mən bir neçə dəfə demişəm, rayonlarda o icra hakimiyyəti başçıları ki, qaçqınlara layiqli münasibət göstərmirlər, özləri gedib bir neçə gün həmin çadırlarda yaşamalıdırlar ki, onların vəziyyətini görsünlər və bilsinlər ki, bu adamlara nə kimi qayğı göstərmək lazımdır. Eyni zamanda qaçqınları işə cəlb etmək lazımdır. Məsələn, Qubadlının icra hakimiyyəti başçısı burada çıxış edərək dedi ki, bəzi rayonlarda onlar torpaq sahəsi götürüblər, işləyirlər. Bir bu deyil. Laçının icra hakimiyyəti başçısı da bir dəfə mənə danışmışdı ki, onlar bir neçə rayonda torpaq sahəsi götürüblər, becərirlər, məhsul əldə edirlər. İşğal olunmuş rayonların icra hakimiyyəti başçıları burada iştirak edirlər. Onlar oturub gözləməməlidirlər ki, haradan nə kömək gəlir, elə bununla da yaşasınlar. Hərə çalışmalı, təşəbbüs göstərməlidir ki, nə isə bir şey yaratsın. İndi nə edək, düşdüyümüz bu vəziyyətdə daim qalmayacağıq ki! Torpaqlarımız da azad ediləcək, qaçqınlarımız da öz yerlərinə qayıdacaqlar. [218-219] Ancaq yaranmış bu müvəqqəti vəziyyətdən hər bir rayon icra hakimiyyəti başçısı özü çıxış yolları tapmalıdır. Mən bunu həm işğal olunmuş rayonların, həm də ərazisində qaçqınlar yaşayan rayonların icra hakimiyyəti başçılarına bir daha tapşırıram.

Qaçqınların işi ilə məşğul olmaq, onlara humanitar yardım göstərmək üçün baş nazirin müavini İzzət Rüstəmov xüsusi olaraq bu vəzifəyə təyin edilmişdir. Mən İzzət Rüstəmova dəfələrlə demişəm, bu gün bir daha tapşırıram. Bizə ayrı-ayrı beynəlxalq təşkilatlardan çoxlu humanitar yardım gəlir. Bu yardımların gəlməsi və paylanması mərkəzləşdirilməlidir və bununla ciddi məşğul olmaq lazımdır. İzzət Rüstəmov bu işlə daha ciddi məşğul olmalıdır. Mən bunu bir neçə dəfə demişəm, şəxsən yanımda olanda da, telefonla da demişəm və bu gün bir daha tapşırıram. Çünki humanitar yardım ayrı-ayrı təşkilatlardan gəlir. Haradan gəlir, kim bundan istifadə edir – bəzən bu məsələlər nəzarətdən çıxır.

Məsələn, bizim televiziyada bir neçə dəfə deyiblər ki, Amerika Birləşmiş Ştatları Azərbaycana 70 milyon dollarlıq humanitar yardım göstərmişdir. İzzət Rüstəmov və Nazirlər Kabinetində qaçqınlarla məşğul olan başqa adamlar, təşkilatlar gərək aydınlaşdırsınlar, görək bu 70 milyon dollarlıq yardım haraya sərf olunub, kimə çatıb, hansı şəkildə – ərzaq şəklindəmi, paltar şəklindəmi, başqa ləvazimat, dava-dərman, yaxud sadəcə olaraq valyuta şəklindəmi gəlmişdir. Bunlarla məşğul olmaq lazımdır. Nə qədər demək olar ? Mən dəfələrlə bunu demişəm, amma dəqiq bir məlumat ala bilmirəm. Nazirlər Kabineti bu işlə ciddi məşğul olmalıdır. İzzət Rüstəmova bir də göstəriş verirəm və bütün bu təşkilatların hamısını ona tabe edirəm. Hamısına rəhbərlik eləsin, hamısı ilə bir yerdə işləsin, hamısının işini əlaqələndirsin. Amma biz bilək, görək ki, nə var, nə yox.

Bütün bunlarla yanaşı, yenə də qeyd edirəm ki, yerindən-yurdundan didərgin düşmüş adamlara xüsusi qayğı göstərmək lazımdır. Şübhəsiz ki, müharibə əlillərinə, şəhid ailələrinə də xüsusi qayğı göstərmək lazımdır.

Yerli icra hakimiyyəti orqanları onların ərazisində olan hərbi hissələrə də yardım etməlidirlər. Bu, keçmişin adət-ənənəsidir. O vaxtlar ayrı-ayrı təşkilatlar, ayrı-ayrı orqanlar hərbi hissələrə hamilik edərdi. Hesab edirəm ki, bu, indi də lazımdır.

Mən başqa sahələrə toxunmaq istəmirəm, İrşad Əliyev burada söylədi. Ancaq kənd təsərrüfatı sahələrindən birinin üzərində [219-220] dayanmaq istəyirəm. Bu da tütünçülükdür. Bilirsiniz, çox təəccüb edirəm. Tütünçülük çox gəlirli sahədir. Keçmiş vaxtlarda kənd təsərrüfatında, demək olar, ən gəlirli sahə tütünçülük hesab edilirdi. Tütün əkib tütün yarpağı təhvil verən adamlar həddindən artıq gəlir götürürdülər. Vaxtilə biz 55-60 min ton tütün yarpağı istehsal edirdik. İndi belə başa düşdüm ki, əkin sahələri iki dəfə azalıb, dediniz ki, 15 min hektar əvəzinə 8 min hektar tütün əkilib. Əgər əkin sahəsi iki dəfə azalıbsa, 8 min hektardan gərək azı 25-30 min ton tütün yarpağı götürülsün.

Amma bir tərəfdən bu sahəyə fikir verilməyib, digər tərəfdən də, açıq deyim, kənd təsərrüfatı sahəsində və ümumiyyətlə, ondan da yuxarı olan sahələrdə işləyən şəxslər bu sahələrlə onda ciddi məşğul olublar ki, burada onların şəxsi mənfəətləri var. Mən bunu artıq müşahidə etmişəm. Harada şəxsi mənfəəti varsa, özünə bir şey götürə bilirsə, məşğul olur, tütünü hara satmaq, nə etmək lazımdırsa, yer də tapılır. Əgər şəxsi mənfəəti yoxdursa, bununla heç məşğul olmur. Belə yaşamaq olmaz axı, dövlət işində belə işləmək olmaz! Mən neçə dəfə demişəm: Kənd Təsərrüfatı Nazirliyi – bir, Nazirlər Kabineti – iki, tütünçülüklə məşğul olan rayonların rəhbərləri – üç, bunlar hamısı bir yerə yığışıb istehsal olunan tütünün vaxtında satılmasını təşkil edə və ondan alınan gəliri yeni məhsul istehsalına yönəldə bilməzdilərmi? Əlbəttə, edə bilərdilər. Amma nə işlə məşğul olmuşlar ? Bunu Abbas Abbasov da yaxşı bilir, İrşad Əliyev də yaxşı bilir, amma nə üçünsə, bunlarla məşğul olmurlar. Keçmişdə belə şeylərlə məşğul olurdular, ona görə ki, fikirləşirdilər – oradan "şapka" deyirlər, nə bilim, nə deyirlər, onu götürə bilərik, ya bilmərik. Görür ki, götürə bilmir – məşğul olmur, başqa şeylə məşğul olur. Bilirsiniz, bəsdir bu işlərlə məşğul olmaq, qurtarmaq lazımdır!

Artıq biz o illərin əzab-əziyyətini gördük və xalqımızı, respublikamızı nə vəziyyətə saldılar, biz bunu gördük. Bəsdir, kim bu xəstəliklə xəstələnibsə, ya özünü müalicə etsin, ya da bizim sıralarımızdan çıxsın getsin. Mən bunu açıq deyirəm. Mən çıxıb getmək demirəm, müalicə olunan adamlar bizimlə işləyə bilərlər. Amma həmin xəstəliklə bizim aramızda yaşamaq olmaz. Elə bu tütünçülük sahəsində yaranmış vəziyyəti də mən bununla izah edirəm. Hesab edirəm ki, Nazirlər Kabineti və Kənd Təsərrüfatı Nazirliyi əgər bu işə ürəklə, can-başla, dövlət [220-221] mənafeyi nöqteyi-nəzərindən yanaşsalar, bu məsələləri yaxşı həll edə bilərlər.

Tütünə tələbat həmişə var, hər yerdə var. Əgər keçmiş Sovetlər İttifaqının ərazisini götürsək, on beş respublikadan ən çox tütün istehsal edən Moldoviya, ondan sonra isə Azərbaycan idi. Buna da tələbat çox böyük idi, çünki keçmiş Sovetlər İttifaqının tələbatını əlbəttə ki, ödəmirdi, xaricdən alınırdı. İndi necə olur ki, əkin sahələrimiz, yaxşı tütünçülərimiz ola-ola və tütün məhsulu istehsal edə-edə onu satmağı, yaxud yeni məhsul alması bacarmayaq ? Mən Almatıda olarkən Qazaxıstan prezidenti Nazarbayev dedi ki, onlarda tütün fabriki vardı, "Marlboro" şirkətinə veriblər, çox yaxşı da işləyir. Amma bilirəm ki, Qazaxıstanda Azərbaycandakı qədər tütün istehsal olunmur. Qazaxıstan böyük respublikadır, ancaq tütünçülüklə məşğul olmur.

Yaxşı, biz niyə bu addımı atmırıq ? Mən demirəm ki, biz də aparıb verək "Marlboro"ya. Niyə məşğul olmuruq, investor tapmırıq, nə üçün ?

Biz çayçılıq sahəsində də mövqelərimizi itirmişik. Dediniz ki, çay yarpağı istehsalı 15 min ton olacaq. Vaxtilə 25-30 min tona qədər yaşıl çay yarpağı istehsal edirdik. Bununla da ciddi məşğul olmaq lazımdır. Başqa sahələr – meyvəçilik, tərəvəzçilik barədə burada deyildi və mən bunların üzərində dayanmaq istəmirəm. Hər bir sahəyə fikir vermək lazımdır.

Aqrar bölmədə islahatlar haqqında. Burada Abbas Abbasov ümumi məlumat verdi, çətinliklərdən danışdı. Mən belə başa düşdüm ki, əsas çətinliklərdən biri də torpaq islahatı haqqında qanunun gecikməsidir. Bunun gecikməsinin müəyyən obyektiv və subyektiv səbəbləri var. Hesab edirəm ki, bu qanunu tezliklə hazırlamaq və onun müzakirəsinə başlamaq lazımdır. Çünki bu, çox mürəkkəb və ciddi bir qanundur. Güman edirəm ki, onun müzakirəsi də çox vaxt alacaqdır. Mən dünən Arif Rəhimzadə ilə bu barədə danışdım. O, bu işlərlə məşğul olur. Ola bilər ki, bir daha bu barədə fikir mübadiləsi aparaq və bu məsələni hərəkətə gətirək.

Ancaq eyni zamanda bu qanundan əlavə, görüləsi başqa işlər də var. Bunları görmək lazımdır. Biz burada iki çıxış eşitdik. Bunlardan biri Zaqatala rayon icra hakimiyyəti başçısının çıxışı idi. Biz bu rayonu bayraq kimi qaldırmış, örnək etmişik, imkan vermişik ki, tezliklə, öz imkanları çərçivəsində aqrar islahatları aparsınlar, başqaları üçün təcrübə olsunlar. Bir də [221-222] Masallı rayon icra hakimiyyətinin başçısı çıxış etdi. Onu biz heç vaxt özümüz təbliğ etməmişik. Ancaq onun burada verdiyi məlumatlar çox böyük maraq doğurdu. Orada olmuş bir neçə jurnalist söhbət zamanı mənə bəzi məlumatlar vermişdilər. Ona görə də bizim komissiyamız və şəxsən Abbas Abbasov bu məsələ ilə ciddi məşğul olmalıdır.

Bilirsiniz, bir var ki, iclas keçirəsiniz, müzakirə aparasınız, televiziya ilə göstərəsiniz, – bunlar hamısı lazımdır. Amma bir də var ki, praktiki işlə məşğul olasınız. Biz bu qanunu da qəbul edəcəyik, buna şübhə yoxdur. Bu yolla gedirik və gedəcəyik. Amma bilmək lazımdır ki, bu ildən artıq vaxt itirə bilmərik. Bunu hamı bilməlidir. Keçən il deyirdik ki, payız-qış mövsümü bu islahatların tam keçirilməsi üçün ən əlverişli vaxtdır. Bunu əlimizdən buraxdıq. Artıq yay gəlib keçdi, indi payıza doğru gedirik. Əgər qarşıda duran dövrdə də –

payız-qış mövsümündə də islahatların sürətlə həyata keçirilməsinə nail ola bilməsək, o zaman bu iş, yenə də gecikəcəkdir. Ona görə də mən komissiyadan, yerli icra hakimiyyətindən, onların başçılarından tələb edirəm ki, bu məsələlərlə ciddi məşğul olasınız və rayonlarda öz daxili imkanlarınızdan istifadə edib, bunları həll edəsiniz.

Təsadüfi deyil ki, mən Zaqatalanın icra hakimiyyəti başçısına dedim ki, siz niyə ştat istəyirsiniz. Dünən Abbas Abbasov da mənimlə söhbətdə müşavirə zamanı dedi ki, bizə ştat lazımdır ki, bir orqan yaradaq, islahatları aparmağa rəhbərlik eləsin, Nazirlər Kabinetində bu işlə bir nəfər məşğul olur. Mən çox təəccüb edirəm. Nazirlər Kabinetində nə qədər işçi var. Götürün, onlardan bir orqan yaradın. Kənd Təsərrüfatı Nazirliyində nə qədər işçi var. Ümumiyyətlə, bizdə kənd təsərrüfatı ilə məşğul olan nə qədər orqan var. Onların hərəsindən bir nəfər ştat götürsəniz, dünən 25 ştat deyirdiniz, əgər lazımdırsa, 35-45 ştat da düzəldə bilərsiniz. Amma bunu bir problem kimi ortaya atasınız ki, bizə 25 adam lazımdır, bir nəfər adam məşğul olur, ona görə də biz bunu edə bilmirik – yaramaz axı, belə şey olmaz! Bu, onu göstərir ki, işlə ciddi məşğul olmuruq. Ciddi məşğul olmaq lazımdır. Bu barədə biz müzakirələr aparmışıq, deyilən sözlərə qayıtmaq istəmirəm. Bir daha bəyan edirəm ki, iqtisadi islahatlar ümumiyyətlə, bütün sahələrdə gələcək həyatımızın, iqtisadiyyatın əsasını təşkil edir. Aqrar sahədə iqtisadi islahatların aparılması bu sahədə [222-223] nailiyyətlərimizi şübhəsiz ki, ən yüksək səviyyəyə çatdıracaqdır.

Mən aldığım təəssürat barədə çox söz demək istəmirəm. Ancaq əgər Masallının icra hakimiyyəti başçısının burada dediyi sözlər həqiqətdirsə, – inanmıram ki, burada yalan informasiya versin, – görün, məsələn, heyvandarlıq sahəsində nə qədər böyük nailiyyətlər əldə olunub. Məsələn, yağın, südün qiyməti haqqında deyilənləri götürək. Bu məhsullar indi hamısı bazara gəlir. Əgər Masallı rayonunda bir o qədər mal-qara varsa, onun verdiyi məhsul – ət də, süd də, yağ da – hamısı bizim bazara gedir. Bazara gələndə camaatı təmin edəcək, qiymətlər aşağı düşəcək, insanlar yaxşı yaşayacaqlar. Demək, təşəbbüskarlıq bu məsələləri həll edir. Biz də təşəbbüskarlığa geniş yol açmışıq. Bir də bəyan edirəm ki, bizim yolumuz budur və bu yolla da gedəcəyik, getməliyik.

Bugünkü müşavirəni bununla bitirirəm. Mən Ramiz Mehdiyevə tapşırmışam, icra hakimiyyəti başçıları toplaşsınlar. Yerlərdən gələn adamlar hamısı təcili yerlərə qayıtmalıdır. Bizim rəhbər orqanlarımız bu işlə ciddi məşğul olmalıdırlar. Sözümü yekunlaşdıraraq bir daha demək istəyirəm ki, bu məsələlərlə birinci növbədə Kənd Təsərrüfatı Nazirliyi ciddi məşğul olmalıdır. Baş nazirin birinci müavini Abbas Abbasov bu məsələlərlə ciddi məşğul olmalıdır, çünki indiyədək görülən işlər məni qane etmir. Baş nazir Fuad Quliyev hər gün kənd təsərrüfatı işləri ilə əlaqədar, xüsusən pambıq, üzüm yığımı, taxıl şumu və sair ilə bağlı hansı məsələ qalxıbsa, dərhal baxmalı, ölçü götürməlidir. Hansı məsələləri özünüz həll edə bilmirsinizsə, hər gün bu barədə mənə müraciət edə bilərsiniz. Sağ olun. [223-224]

## TÜRKDİLLİ DÖVLƏTLƏR BAŞÇILARININ 3-cü ZİRVƏ TOPLANTISINDA ÇIXIŞ

*Bişkek,*

*28 avqust 1995-ci il*

Hörmətli dövlət başçıları!
Xanımlar və cənablar!

Bizə göstərilən qonaqpərvərliyə və Zirvə görüşümüzü yüksək səviyyədə təşkil etdiklərinə görə hər şeydən əvvəl Qırğızıstan Respublikasının prezidenti cənab Əsgər Akayevə və Qırğızıstan hökumətinə dərin təşəkkürümü bildirirəm.

Azərbaycan xalqı adından bu mötəbər məclisin iştirakçıları olan əziz və möhtərəm qardaşlarım – Türkiyə Respublikasının prezidenti Süleyman Dəmirəli, Qazaxıstan Respublikasının prezidenti Nursultan Nazarbayevi, Qırğızıstan Respublikasının prezidenti Əsgər Akayevi, Türkmənistanın prezidenti Saparmurad Niyazovu, Özbəkistan Respublikasının prezidenti İslam Kərimovu ürəkdən salamlayıram, sizə və xalqlarımıza hörmət və ehtiramımı bildirir, səadət və firavanlıq arzulayıram.

Məmnuniyyətlə qeyd etmək istəyirəm ki, əsası 1992-ci ilin oktyabrında Ankarada qoyulmuş bu üçüncü Zirvə görüşümüz artıq gözəl bir ənənəyə çevrilmişdir.

Çox sevindirici haldır ki, Avrasiya məkanının xeyli hissəsini, böyük iqtisadi potensialı, insan potensialını birləşdirən ölkələrimiz müstəqil dövlətlər, dünya birliyinin bərabərhüquqlu üzvləri kimi artıq regional əməkdaşlığa başlayıblar.

Çoxəsrlik tarixi boyu dünya sivilizasiyası xəzinəsinə sanballı töhfələr vermiş, coğrafi yaxınlığı ilə, tarixi tale, mədəniyyət, adət-ənənə, din və dil birliyi kimi sarsılmaz tellər ilə bir-birinə bağlı olan xalqlarımız və ölkələrimiz sıx və səmərəli əməkdaşlıq üçün çox geniş imkanlara malikdirlər.

Ədəbiyyat və incəsənət, memarlıq, fəlsəfə və dəqiq elmlər sahəsində xalqlarımızın yetirməsi olan korifeylərimizin dahi əsərləri bütün bəşəriyyətin tərəqqisinə, onun mənəvi həyatına və maddi mədəniyyətinə böyük təkan vermişdir.

Bu yaxınlarda qardaş Türkiyə Respublikasında Şərq ədəbiyyatının və fəlsəfəsinin korifeylərindən biri, dahi Azərbaycan [224-225] şairi Məhəmməd Füzulinin anadan olmasının 500 illik yubiley toplantılarında və Almatıda qazax xalqının ləyaqətli oğlu, görkəmli mütəfəkkir, filosof, şair Abayın 150 illiyinə həsr olunmuş bayram şənliklərində, məmnuniyyətlə iştirak etdim. Bir daha qəti əmin oldum ki, İbn Sinanın, Nizaminin, Nəvainin, Yunis İmrənin, Füzulinin, Məhdumqulunun, Mahmud Kaşqarinin və Şərqin bir çox digər parlaq dahilərinin yaradıcılığı, "Dədə Qorqud", "Koroğlu", "Manas", "Alpamış" kimi ölməz dastanlar təkcə bizim qohum xalqlarımıza mənsub deyil, onlar həm də bütün bəşəriyyətin sərvətidir.

Mən çox şadam ki, bizim Zirvə görüşümüz "Manas" eposunun min illik yubileyi ilə üst-üstə düşür və biz də, bu Zirvə görüşünün iştirakçıları olan dövlət başçıları, bütün qırğız xalqı ilə birlikdə türk aləmi üçün müqəddəs olan bir əsərin min illik ildönümünü azad Qırğızıstanın paytaxtı gözəl Bişkek şəhərində təntənəli surətdə qeyd edirik.

"Manas" köləliyə qarşı çıxır, xalqın azadlığını, müstəqilliyini hər şeydən uca tutur, müqəddəs hesab etdiyi ata yurdunu yadelli işğalçıların tapdağından qorumaq üçün xalqı mübarizəyə çağırır, türk xalqlarının qardaşlığını məhəbbətlə tərənnüm edir.

Biz vacib problemlərimizin həll olunması üçün bir-birimizə kömək göstərməli, yardım əlimizi uzatmalıyıq, parçalanmanın və təklənmənin qarşısını almalıyıq, dara düşmüş qardaşlarımıza birlikdə kömək etməliyik, qanlı müharibələrin və silahlı münaqişələrin alovunu söndürməliyik.

Bütün bunlara görə mən bu görüşümüzə çox böyük əhəmiyyət verirəm. Belə görüşlərin daimi xarakter almasını ürəkdən alqışlayıram. Tarixi mənşəyimiz, qarşımızda duran məqsəd və problemlərin oxşarlığı, milli mənafelərimizin birliyi – bütün bunlar bizim strateji əməkdaşlığımızın etibarlı təməlidir və gələcəyimizə nikbin baxmağa imkan verir.

Yaşadığımız son illərdə Yer kürəsində böyük tarixi, geosiyasi dəyişikliklər baş vermişdir. Yaranmış yeni şəraitdə bizim qarşılıqlı əlaqələrimizi müstəqil, suveren əsaslar üzərində qurmaq üçün geniş üfüqlər açılır.

Ölkələrimizin keçirdiyi islahatları, dünya iqtisadi birliyi ilə bərabərhüquqlu inteqrasiyaya doğru atdığımız addımları nəzərə alaraq əməkdaşlığımızın bu sahəsini xüsusilə vacib sayıram. Ölkələrimizin zəngin təbii sərvətlərindən, çox böyük sənaye, [225-226] kənd təsərrüfatı və intellektual potensialından səmərəli istifadə edərək, onları müasir texnologiyalarla zənginləşdirərək, yeni nəqliyyat-kommunikasiya sistemlərini yaradaraq biz XXI əsrin tələblərinə cavab verə biləcəyik və xalqlarımıza layiqli həyatı yaratmağa nail olacağıq.

Xəzəryanı dövlətlərin hər birinin enerji ehtiyatı ilə zəngin olan öz sektoru və buradan irəli gələn bütün hüquqları və imkanları vardır. Biz bu imkanlardan istifadə edib, birgə çoxtərəfli layihələrin həyata keçirilməsində fəal əməkdaşlıq etməklə Xəzər hövzəsi zonasını iqtisadi tərəqqi və çiçəklənmə zonasına çevirə bilər, dünya iqtisadi sistemində layiqli yerimizi tuta bilərik. Eyni zamanda Xəzər dənizinin zəngin təbii ehtiyatları əməkdaşlıq üçün geniş imkanlar açmaqla bərabər, bu sərvətlərdən qənaətlə və səmərəli istifadə etmək vəzifəsini də qarşımıza qoyur.

İri investisiya layihələri bizim enerji resursları ilə zəngin ölkələrimizi dünya istehlakçıları ilə bağlamaq üçün müasir nəqliyyat və kommunikasiya sistemləri yaratmağa imkan verir.

Qarşılıqlı faydalı və bir-birini tamamlayan iqtisadi əməkdaşlıq üçün ümumi məkan yaratmaq və Mərkəzi Asiyadan çəkiləcək neft və qaz kəmərlərini Türkiyəyə, oradan isə dünya bazarına çıxarmaq xalqlarımız üçün olduqca faydalı olardı. Bu kəmərlərin çəkilməsi, onların fasiləsiz və təhlükəsiz işləməsinin təmin edilməsi xalqlarımız arasında əməkdaşlığı daha da möhkəmlədər və müstəqil dövlətlərimizin çiçəklənməsinə xidmət edərdi.

Bu mötəbər məclisdə təmsil olunan bir sıra qardaş dövlətlər kimi Azərbaycan da mürəkkəb keçid dövrünü yaşayır. Sovetlər İttifaqı dağıldıqdan sonra öz müstəqilliyini elan edən Azərbaycan demokratik hüquqi dövlət quruculuğu, radikal bazar islahatlarının həyata keçirilməsi yolunu tutmuşdur. Bu cür tarixi dövrə xas olan obyektiv çətinliklərə baxmayaraq biz artıq bu yolda bir sıra müvəffəqiyyətlər əldə etmişik.

Əsrlər boyu öz azadlığına nail olmaq üçün mübarizə aparmış xalqımızın iradəsinə söykənərək müstəqil Azərbaycan Respublikası suveren, hüquqi dövlət quruculuğunda inamla irəliləyir.

Bu gün biz öz taleyimizin və sərvətlərimizin sahibiyik. Qısa dövr ərzində Azərbaycanda siyasi plüralizm, insan, söz, mətbuat, vicdan azadlığı bərqərar olunmuşdur. Milliyyətindən, [226-227] dilindən, siyasi baxışlarından asılı olmayaraq insan hüquqları Azərbaycanda etibarlı surətdə qorunur.

40-dan çox siyasi partiya, 400-ə yaxın müstəqil qəzet, 30-dan çox informasiya agentlikləri və teleşirkətlər tam sərbəstlik şəraitində fəaliyyət göstərir.

Biz dövləti zor işlətməklə devirməyə yönəldilmiş bir sıra antikonstitusion cəhdlərin qarşısını aldıq. Respublikanın daxilində ictimai-siyasi stabilliyi bərqərar etdik. Köklü demokratik islahatları həyata keçirmək üçün gördüyümüz tədbirlər bütün Azərbaycan xalqı tərəfindən inam və qətiyyətlə dəstəklənir. Buna görə də istiqlaliyyət yolundan bizi sapındırmaq mümkün deyil.

Biz bu ilin noyabr ayının 12-də çoxpartiyalı sistem əsasında ilk azad demokratik parlament seçkiləri keçirmək barədə qərar qəbul etmişik, Respublikada seçkilərə geniş hazırlıq işləri gedir. Əminəm ki, bu parlament seçkiləri Azərbaycanda demokratik ənənələrin bərqərar edilməsi yolunda mühüm addım olacaqdır. Elə həmin gün də biz müstəqil Azərbaycanın ilk demokratik konstitusiyasını ümumxalq referendumu ilə qəbul edəcəyik. Bu hadisələr Azərbaycan tarixində yeni parlaq səhifə olacaq və gələcək nəsillərin xoşbəxt həyatını təmin edəcəkdir.

Biz azad bazar münasibətlərini yaradaraq bərabərhüquqlu tərəfdaş kimi dünya iqtisadiyyatına inteqrasiya olunmaq üçün ciddi iqtisadi islahatlar aparırıq. Kənd təsərrüfatı sahəsində islahatlar artıq müvəffəqiyyətlə həyata keçirilir. Özəlləşdirmə proqramı qəbul olunub və yaxın zamanlarda dövlət mülkiyyətinin genişmiqyaslı özəlləşdirilməsi həyata keçiriləcəkdir.

Dünyanın iri neft şirkətlərinin təmsil olunduğu konsorsium ilə bağlanmış məşhur "Əsrin müqaviləsi" imzalandıqdan sonra Xəzər dənizinin Azərbaycana məxsus olan sektorunda enerji ehtiyatlarının istismarı üzrə uzunmüddətli beynəlxalq əməkdaşlıq sürətlə inkişaf edir. Böyük məmnuniyyət hissi ilə qeyd etmək istəyirəm ki, bu müqavilə qardaş Türkiyə Respublikasını təmsil edən neft şirkəti də fəal iştirak edir.

Bununla bərabər, Azərbaycan Respublikası öz dövlət quruculuğu yolunda ciddi maneələrlə də üzləşir. Yeddi ildən bəri Ermənistan Respublikası Azərbaycana qarşı hərbi təcavüz edib, qanlı müharibə törədibdir. Bu təcavüz nəticəsində Azər[227-228]baycanın torpaqlarının iyirmi faizindən çoxu işğal olunub, bir milyondan çox vətəndaşımız işğal olunmuş torpaqlardan qaçqın düşüb və indi ağır şəraitdə çadırlarda yaşayır.

Xalqımızın güzəranına mənfi təsir göstərən amillərdən biri də odur ki, Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuş ərazilərdə sənaye və kənd təsərrüfatı müəssisələrimiz, sosial obyektlərimiz və mədəniyyət abidələrimiz, taxıl zəmilərimiz, pambıq plantasiyalarımız, üzüm bağlarımız işğalçılar tərəfindən yandırılmış, viran edilmişdir.

Böyük itkilərə və qurbanlara baxmayaraq biz bu münaqişənin sivilizasiyalı siyasi yollarla, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı, onun Minsk qrupu çərçivəsində həll olunmasına, regionda ədalətli beynəlmiləl qanunlara söykənən sülhün və əmin-amanlığın bərqərar edilməsinə çalışırıq. Lakin məsələnin siyasi yolla həll olunması üçün ermənilər öz qoşunlarını Şuşa və Laçın da daxil olmaqla Azərbaycanın işğal edilmiş bütün torpaqlarından çıxarmalıdırlar.

Azərbaycan müharibə etmək istəmir. Biz torpaqlarımızın müdafiəsinə qalxmışıq, Ermənistanın hərbi təcavüzünə qarşı, respublikamızın ərazi bütövlüyü, suverenliyi uğrunda mübarizə aparırıq. Biz dünyanın bütün dövlətləri tərəfindən qəbul olunmuş beynəlxalq hüquq normalarına hörmət qoyulmasını, Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin təmin olunmasını tələb edirik. Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik

Şurasının, İslam Konfransı Təşkilatının erməni təcavüzünü pisləyən və erməni işğalçı qoşunlarının işğal olunmuş bütün torpaqlardan qeyd-şərtsiz çıxarılmasını tələb edən qətnamələrinin həyata keçirilməsini tələb edirik.

Sevindirici haldır ki, keçən ilin may ayında əldə edilmiş atəşkəs barədə sazişə artıq on beş aydır ki, riayət olunur. Biz dəfələrlə bəyan etmişik və bir daha bildiririk ki, ədalətli və möhkəm sülhə nail olunana qədər atəşkəs rejiminə sadiq qalacağıq. Eyni zamanda hesab edirik ki, yaranmış vəziyyət – "Nə müharibə, nə sülh" şəraiti əbədi olaraq davam edə bilməz. Müharibəyə son qoyulmalı və işğal edilmiş Azərbaycan torpaqları tezliklə azad olunmalıdır.

Fürsətdən istifadə edərək mən sizə, bu Zirvə görüşündə iştirak edən dövlət başçılarına müraciət edirəm ki, öz imkanlarınızdan istifadə edərək bu münaqişəni tezliklə həll etməyə səy göstərəsiniz. Azərbaycanın ərazi bütövlüyünü təmin etməyə [228-229] və bir milyondan çox qaçqını öz doğma yurd-yuvalarına qaytarmağa əlinizdən gələn köməyi bizdən əsirgəməyəsiniz.

Bütün ölkələrin ərazi bütövlüyünü, sərhədlərin toxunulmazlığını qorumaq, dünyanın bir çox regionlarında axır zamanlarda geniş surətdə yayılmış separatizmə və terrorizmə qarşı ciddi mübarizə aparmaq, Birləşmiş Millətlər Təşkilatının nizamnaməsinə və Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının prinsiplərinə riayət etmək, onları fəal surətdə həyata keçirmək hər birimizin və hamımızın müqəddəs borcudur.

Əziz və möhtərəm qardaşlar!

Türksoy proqramı çərçivəsində etdiyimiz əməkdaşlıq xalqlarımızın həyatında, mədəniyyətində böyük əhəmiyyət kəsb edir. "Manas"ın min illiyinə və Abay Kunanbayevin 150 illiyinə həsr edilmiş təntənəli yubiley mərasimləri də bu əməkdaşlığın bir qoludur.

Bildiyiniz kimi, YUNESKO-nun qərarı ilə bu il Şərqin böyük mütəfəkkiri, Azərbaycan şairi Məhəmməd Füzulinin 500 illik yubileyi də bütün dünyada geniş surətdə qeyd olunur. Artıq Ankarada, Moskvada bu bayramlar keçirilib, ilin axırında isə Parisdə, YUNESKO-nun baş qərargahında keçiriləcəkdir.

Fürsətdən istifadə edərək sizi Füzuli təntənələrinin Zirvə bayramına – Azərbaycanın paytaxtı Bakıya dəvət edirəm.

Xalqlarımız min illər boyu sıx əməkdaşlıq etmiş, qarşılıqlı fəaliyyət göstərmiş, bir-birini zənginləşdirmişlər. Yeni dövrdə, yeni şəraitdə bu əməkdaşlığın dirçəldilməsi hamımız üçün böyük əhəmiyyət kəsb edir. Bu köklər, bu əsaslar xalqlarımızın ən müqəddəs arzularının çiçəklənməsinə geniş imkanlar açır, onların sülhə, tərəqqiyə doğru inamla getməsinə gözəl şərait yaradır.

Mən inanıram ki, bir çox ağır sınaqlardan keçmiş bu yolda həm itkilərin acısını dadmış, həm də dirçəliş sevincini duymuş xalqlarımız çoxəsrlik ümidlərini həyata keçirəcək, XXI əsrə öz şanlı əcdadlarının layiqli övladları kimi qədəm qoyacaqlar. Bu bizim ümidimiz, bu bizim vəzifəmiz, bu bizim borcumuzdur.

Diqqətinizə görə təşəkkür edirəm. [229-230]

## TÜRKDİLLİ DÖVLƏTLƏR BAŞÇILARININ ZİRVƏ TOPLANTISINDA MƏTBUAT KONFRANSINDA BƏYANAT

*Bişkek*

*28 avqust 1995-ci il*

Mən Mərkəzi Asiyada gedən inteqrasiya proseslərini müsbət qiymətləndirirəm. Belə hesab edirəm ki, təkcə bu ölkələr deyil, ümumiyyətlə bütün ölkələr bundan sonra daha dərin inteqrasiya yolu ilə getməlidirlər. Çünki bu yol həmişə iqtisadiyyatın inkişafına, dövlətlər arasında daha sıx münasibətlər yaranmasına kömək edəcəkdir. Mənə verilən sualdan istifadə edərək demək istəyirəm ki, Azərbaycan ilə Mərkəzi Asiya ölkələri arasında iqtisadi əlaqələrin lazımi səviyyədə olmamasından təəssüflənirəm.

Bizim respublikalarımız keçmişdə Sovet İttifaqına daxil olarkən həm iqtisadi baxımdan, həm də mədəni dəyərlərlə mübadilə baxımından, görüşlər keçirilməsi, bir-birinə nümayəndə heyətləri göndərilməsi baxımından daha sıx bağlı idilər. İndi bu əlaqələr zəifləmişdir. Amma biz istəyirik, Azərbaycan istəyir ki, bu əlaqələr geniş olsun. Tarixi keçmişimizi, ümumi köklərimizi, bizi bu görüşə toplayan zəmini əsas tutaraq Azərbaycan istəyir ki, Mərkəzi Asiyanın bütün ölkələri ilə daha sıx iqtisadi, mədəni, elmi-texniki əməkdaşlıq yaratsın və bu inteqrasiyaya daxil olsun. [230-231]

## "MANAS" DASTANININ 1000 İLLİYİNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ YIĞINCAQDA ÇIXIŞ

*Bişkek*

*28 avqust 1995-ci il*

Hörmətli prezident Əsgər Akayev!
Əziz və möhtərəm qırğız bacı və qardaşlarım!
Xanımlar və cənablar, əziz dostlar!

"Manas" dastanının 1000 illik yubileyi münasibətilə, böyük bayram münasibətilə sizi, bütün qırğız xalqını Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm. Sizə, qırğız xalqına, Qırğızıstan Respublikasına səadət və xoşbəxtlik arzulayıram.

"Manas" dastanının 1000 illik yubileyi qırğız xalqının böyük tarixini dünyaya bir daha nümayiş etdirir. Qardaş qırğız xalqı "Manas" dastanının qoyduğu yolla gedir. Min il, əsrlərdən-əsrlərə böyük yol keçmiş "Manas"ın dahi fikirləri, dahi sözləri bu yolu daim işıqlandırmışdır. "Manas" qırğız xalqının müdrikliyinin rəmzidir, zəkasının, qəhrəmanlığının, cəsarətinin rəmzidir. "Manas" qırğız xalqının daim vətənpərvər olduğunu, adətsevər, azadlıqsevər olduğunu, cəsarətli olduğunu bütün dünyaya nümayiş etdirir. "Manas" qırğız xalqının böyük mədəni və mənəvi sərvətidir, bütün dünya sivilizasiyasının, bəşəriyyətin dəyərli sərvətidir, türk dünyasının, türkdilli xalqların, İslam dünyasının böyük mənəvi sərvətidir. "Manas" eyni zamanda Azərbaycan xalqına məxsusdur, Azərbaycan xalqının da mənəvi, mədəni sərvətidir. Manas bizim hamımızın, xalqlarımızın hamısının ulu babasıdır.

Azərbaycan Respublikasında "Manas"ın sözləri, fikirləri geniş yayılıbdır. Azərbaycan şairləri, ədibləri, musiqiçiləri "Manas"ı daim oxuyur, təbliğ edir, geniş yayırlar. Bizim şairlərimiz "Manas"ı Azərbaycan dilinə tərcümə ediblər. Sənətçilərimiz "Manas"ın sözlərini çox böyük məharətlə və həvəslə oxuyurlar, sazda çalırlar. Bu gün burada, ölkəmizdən gəlmiş nümayəndə heyətinin üzvləri arasında Azərbaycanın gözəl sənətçisi, "Manas"çı Mehriban xanım "Manas"ın Azərbaycanda nə qədər sevildiyini və yayıldığını nümayiş etdirəcəkdir.

"Manas"ın dili bizim hamımızın dilidir. Biz bir kökdən, bir dildən olan xalqlarıq. Ancaq əsrlərdən-əsrlərə dilimizdə müəyyən [231-232] fərqlər yaranmışdır. Bir-birimizi qəlbən duyuruq, qəlbən anlayırıq, amma dilimizdə olan fərqlərə görə deyilən sözlərin bəzilərini anlaya bilmirik. Mən bu gün sözlərimi Azərbaycan dilində başladım. Ancaq eyni zamanda istəyirəm ki, sözlərimi siz və məni dinləyən bütün Qırğızıstan vətəndaşları, qırğızların hamısı eşidə bilsin. Ona görə bir neçə kəlmə də ürək sözlərimi rus dilində demək istəyirəm.

Əziz qırğız qardaş və bacılar, əziz dostlar! Biz müqəddəs qırğız torpağına qardaşlıq hissləri ilə, böyük bayramı, "Manas" dastanının 1000 illiyi bayramını sizinlə birlikdə təntənəli şəkildə qeyd etmək üçün gəlmişik. "Manas" qırğız xalqının fəxri, qırğız xalqının milli ləyaqətinin nümayişi, onun müdrikliyinin, qəhrəmanlığının nümayişidir. Qırğız xalqı çoxlu çətinliklərə, həyatın keçməkeşlərinə baxmayaraq, min il Manasın sözlərini qəlbində qoruyub saxlamış, onun göstərdiyi yolla azadlığa və müstəqilliyə doğru getmişdir.

Manas min il bundan əvvəl qüdrətli qırğız dövləti yaratmışdı. Bu gün qırğız xalqı yenidən milli müstəqillik əldə etmişdir, onun öz milli dövləti var. "Manas" dastanının 1000 illiyini məhz belə şəraitdə Qırğızıstanda və başqa ölkələrdə geniş və təntənəli surətdə, dünya miqyasında qeyd etmək mümkün olmuşdur.

Biz dünən əzəmətli abidənin – "Manas aılı"nın açılışında böyük məmnuniyyətlə iştirak etdik. Qırğız xalqının əli ilə, zəkası və bacarığı ilə yaradılan və bundan sonra da yaradılacaq nə varsa, həqiqətən böyük Manasın qırğız xalqına və bütün dünyaya qoyub getdiyi nəhəng irsi layiqincə əks etdirir. Xüsusilə fərəhlidir ki, biz bu bayramı qırğız xalqının milli müstəqilliyi və milli dövlətçiliyi şəraitində qeyd edirik. İki gündən sonra qırğız xalqının müstəqilliyə qovuşmasının və müstəqil qırğız dövləti yaranmasının dörd ili tamam olacaq. Əziz dostlar, mən sizi və qırğız xalqını qazandığınız bütün tarixi nailiyyətlər, milli müstəqillik bayramı münasibətilə ürəkdən təbrik edir və əmin olduğumu bildirmək istəyirəm ki, siz Manasın qoyduğu yolla gedərək milli müstəqilliyinizi, milli dövlətçiliyinizi möhkəmləndirəcək, böyük Manasın göstərişlərini həyata keçirəcəksiniz.

Qırğız və Azərbaycan xalqlarını ümumi köklərimizdən, tarixi keçmişimizdən, adət və ənənələrimizdən, dilimizdən və dinimizdən, bir çox başqa xüsusiyyətlərdən doğan çoxəsrlik dostluq telləri bağlayır. Biz qırğız xalqı ilə olan bu dostluğumuzu [232-233] əziz tuturuq. Qırğız xalqı dövlət müstəqilliyi qazandıqdan sonra Qırğızıstan torpağında gedən prosesləri biz dostcasına müşahidə edirik. Dünən və bu gün biz Qırğızıstanda baş vermiş və indi də davam edən böyük dəyişikliklərin şahidi olduq. Bütün bu dəyişikliklər onu göstərir ki, böyük Manasın vəsiyyətləri həyata keçir. Bu, həm də qırğız xalqının, Qırğızıstan dövlətinin öz müstəqilliyini və suverenliyini möhkəmləndirmək üçün gördüyü böyük işlərlə bağlıdır. Bütün bunlarda bizim böyük dostumuz,

Qırğızıstanın layiqli rəhbəri, Qırğızıstan Respublikasının prezidenti, qardaşımız Əsgər Akayevin böyük xidməti var.

Qırğızıstan kimi, Azərbaycan da dörd il bundan əvvəl milli istiqlaliyyət qazanmışdır və özünün müstəqil dövlətini qurur, azadlıq, demokratik hüquqi dövlət qurmaq, tərəqqi yolu ilə gedir. Biz belə hesab edirik ki, milli müstəqilliyin əldə olunması həm qırğız xalqı, həm də Azərbaycan xalqı və bu yola çıxmış digər xalqlar üçün ən böyük tarixi nailiyyətdir. Məhz bunun sayəsində biz burada bərabərhüquqlu dövlətlərin nümayəndələri kimi iştirak edə, xeyirxah hisslərimizi, qırğız qardaşlarımıza, Qırğızıstanın bütün vətəndaşlarına çatdıra, ümumi işimizdə həmrəyliyimizi nümayiş etdirə bilirik.

Sizə bildirmək istəyirəm ki, biz dövlət müstəqilliyimizi çox yüksək qiymətləndiririk, dövlət müstəqilliyimizi möhkəmləndirmək və inkişaf etdirmək yolunda möhkəm dayanırıq, heç vaxt, heç bir halda bu yoldan dönməyəcəyik. Bu yolla gedərək bütün xalqlarla, o cümlədən qırğız xalqı ilə, Qırğızıstan Respublikası ilə dostluğumuzu möhkəmləndirəcəyik. Əziz dostlar, burada olmağımdan istifadə edərək sizi əmin etmək istəyirəm ki, biz Azərbaycan və qırğız xalqları arasında dostluğu möhkəmləndirəcək, iqtisadiyyat, mədəniyyət, elm sahələrində, humanitar sahədə, bütün başqa sahələrdə əlaqələrimizi inkişaf etdirəcəyik. Bir-birimizə kömək edəcək, böyük Manasın qoyduğu yolla birlikdə irəliləyəcəyik.

Əziz və hörmətli bacılarım, qardaşlarım, əziz qırğız dostlarım! Bu bayram münasibətilə sizin hamınızı bir daha ürəkdən təbrik edirəm. Hamınıza Azərbaycan xalqının ən gözəl arzularını çatdırıram. Sizin hamınızı qucaqlayır, Azərbaycan xalqı adından öpürəm. Sizə xoşbəxtlik, səadət və bütün işlərinizdə müvəffəqiyyətlər arzulayıram. Sağ olun! [233-234]

## "MANAS" MUZEYİNİN TƏNTƏNƏLİ AÇILIŞI MƏRASİMİNDƏ ÇIXIŞ

*Talas*

*29 avqust 1995-ci il*

Qırğızıstan Respublikasının əziz və hörmətli prezidenti,
qardaşımız Əsgər Akayev!
Türkiyə Cümhuriyyətinin əziz və hörmətli cümhur
başqanı, qardaşımız Süleyman Dəmirəl!
YUNESKO-nun baş direktoru, əziz və hörmətli Federiko Mayor!
Əziz və hörmətli, möhtərəm qırğız bacılarım, qardaşlarım!
Əziz dostlarımız, əziz qonaqlar!

Biz, Azərbaycandan gəlmiş nümayəndələr artıq üç gündür ki, qədim qırğız torpağında, müstəqil Qırğızıstan Respublikasındayıq. Qırğız xalqının, bütün türk dünyasının, xalqlarımızın hamısı üçün əziz və möhtərəm olan böyük "Manas"ın 1000 illik yubileyini qırğız xalqı ilə bərabər qeyd edirik. Biz bu günlər sizinlə bir yerdə, sizinlə bərabər olmağımızdan, "Manas"ın 1000 illik yubileyi, bayram şənliklərində sizinlə birlikdə iştirak etməyimizdən çox məmnunuq.

Bu gün bizim üçün çox əzizdir. Biz Manasın vətəninə, Manasın doğulduğu yerə gəlmişik. Manasın qəbrini, muzeyini ziyarət etmək bizə nəsib olubdur. Biz Manasın xatirəsinə həsr olunmuş böyük bir muzey kompleksinin açılmasında iştirak edirik. Bu, bizim üçün çox əziz gündür.

Bu bayramlar, bugünkü şənlik münasibətilə Azərbaycan xalqı adından sizi – qırğız qardaşlarımızı, bacılarımızı, qırğız xalqını, Qırğızıstan dövlətini, onun prezidenti Əsgər Akayevi, bütün dostlarımızı ürəkdən təbrik edirəm, hamınıza cansağlığı, xoşbəxtlik və səadət arzulayıram!

Talasın vətəndaşlarına, insanlarına, burada, Allahın bəxş etdiyi təbiətin bu gözəl guşəsində yaşayan, Manasın qəbrini min il qoruyub saxlayan talaslılara, Talasın hörmətli adamlarına, o cümlədən Talasın, Qırğızıstanın hörmətli adamlarından biri olan əziz dostumuz Çingiz Aytmatova xüsusi hörmətimi, məhəbbətimi bildirirəm. [234-235]

"Manas" dastanını min il qoruyub saxlayan qırğız xalqına və xüsusən Manasın qəbrini, məqbərəsini qoruyub saxlayanların hamısına, talaslılara Azərbaycan xalqı adından təşəkkürümüzü bildirirəm. Talaslılar, qırğız xalqı "Manas" dastanını, Manasın qəbrini, Manasın xatirəsini min il müddətində böyük çətinliklərdən, sınaqlardan keçərək qoruyub saxlamışlar. Ancaq indi "Manas"ın min illiyi qeyd edilərkən, Manasın muzeyi açılarkən biz tam əminik ki, Qırğızıstan Respublikasının müstəqil dövləti, azadlığa çıxmış Qırğızıstan xalqı bundan sonra Manası daha da ucaya qaldıracaqlar. Manasın həm dastanı, həm bu muzeyi, həm də qəbri gələcək nəsillər üçün əbədi yaşayacaqdır.

Əziz bacılar və qardaşlar! Bu böyük bayram münasibətilə sizi bir daha ürəkdən təbrik edirəm, sizə, qardaş qırğız xalqına səadət, xoşbəxtlik arzu edirəm. Sağ olun. [235-236]

## BİŞKEKDƏN ZİRVƏ TOPLANTISINDAN BAKIYA QAYIDARKƏN TƏYYARƏDƏ JURNALİSTLƏRƏ MÜSAHİBƏ

*29 avqust 1995-ci il*

Bişkek Zirvə toplantısı, altı dövlət başçısının görüşü üçüncü belə görüşdür. Bu dəfəki toplantı göstərdi ki, bu görüşlər artıq ənənəyə çevrilir, yeni yaranmış türkdilli dövlətlərin həyatında öz yerini tutur və davam edəcəkdir.

Bu görüşlər çox əhəmiyyətlidir. Doğrudur, bu Zirvə toplantılarının nə qədər davam edəcəyi müəyyən qədər məlum deyil. Mən bu toplantıdan sonra belə qənaətə, fikrə gəldim ki, belə görüşlər davam edəcək və biz Bişkek bəyannaməsində nəzərdə tutduq ki, növbəti görüş Daşkənd şəhərində keçirilsin.

Bişkek bəyannaməsini siz yəqin oxumusunuz, məlumatınız var. Bu bəyannamə bizim ölkələrimiz arasında iqtisadiyyat, elm, mədəniyyət, texnika və digər sahələrdəki əlaqələrin inkişaf etdirilməsinə yönəldilmişdir və bu da bizim üçün əhəmiyyətlidir. "Manas"ın min illik yubileyinin bu vaxt keçirilməsi və bütün türkdilli dövlətlərin başçılarının yubileyin əsas mərasimlərində iştirak etməsi onu göstərir ki, birlik daha da möhkəmlənir və bundan sonra da möhkəmlənəcəkdir. Mən bu görüşlərdən çox razıyam.

Bu Zirvə toplantısının işi təkcə türkdilli ölkələrin dövlət başçılarının görüşündən və imzalanmış Bişkek bəyannaməsində əks olunan məsələlərdən ibarət deyil. Biz dövlət başçıları bir çox məsələlər, dünyada gedən proseslər, ölkələrimiz arasında əlaqələrin inkişaf etdirilməsi barədə qeyri-rəsmi çox söhbətlər, müzakirələr apardıq ki, bu da çox əhəmiyyətlidir. Zirvə toplantısındakı çıxışımda mən qeyd etdim ki, Xəzəryanı ölkələrin əməkdaşlıq etməsi çox gərəklidir və bu əməkdaşlıq üçün çox böyük əsaslar var. Bu fikri başqa dövlət başçıları da qeyd etdilər. Doğrudur, Özbəkistan Xəzəryanı dövlət deyil, amma onun da, Qırğızıstanın da bu məsələdə çox marağı var. Biz Xəzərin təbii sərvətlərindən, onun kommunikasiya, nəqliyyat imkanlarından istifadə olunması məsələləri barədə qeyri-rəsmi fikir mübadilələri apardıq və bu məsələlərin həll edilməsi barədə fikirlərimizi söylədik. Hesab edirəm ki, bu da çox faydalıdır. [236-237]

Bəyannamə barədə bizim təkliflərimiz, məsələn, münaqişə ilə bağlı təklifimiz sənəddə öz əksini tapdı. Əlbəttə, biz istərdik ki, Ermənistanın Azərbaycana qarşı təcavüzü konkret olaraq göstəriləydi. Lakin mən çıxışımda bu barədə danışdım. Separatçılığa, terrorizmə qarşı mübarizə aparmağın, hərbi münaqişələrin qarşısının alınmasının zəruriliyi kimi məsələlər bəyannamədə öz əksini tapdı.

Azərbaycanın Mərkəzi Asiyada iqtisadi inteqrasiyaya qoşulmasının mümkünlüyü barədə suala gəlincə onu demək olar ki, mən bizim buna prinsipcə hazır olduğumuzu dedim. Belə hesab edirəm ki, – bunu dövlət başçıları ilə söhbətimdə də bildirdim – Mərkəzi Asiya ölkələri ilə iqtisadi əlaqələrimiz çox zəifdir. Məsələn, Sovet İttifaqının tərkibində olduğumuz vaxtdakına nisbətən bu əlaqələr çox zəifdir. Mən dəfələrlə təşəbbüs qaldırmışam ki, əlaqələri inkişaf etdirmək və genişləndirmək lazımdır. Hələlik bu fikrə münasibət yaxşıdır. Bu barədə Qırğızıstanla, başqa ölkələrlə də danışmışıq. Bir sözlə, bu, faydalı olacaqdır.

Qırğızıstanda olan görüşlərimiz mənim üçün çox əhəmiyyətlidir. Əvvəla, "Manas"ın 1000 illik yubileyi mərasimləri çox yaxşı təşkil olunmuşdu, mənə çox böyük təsir bağışladı. Eyni zamanda mən Qırğızıstanın prezidenti Əsgər Akayevlə ölkələrimiz arasındakı əlaqələrin, xüsusən iqtisadi əlaqələrin inkişaf etdirilməsi barədə çox ətraflı danışıqlar apardım.

Qırğızıstanda 18 min azərbaycanlı yaşayır. Mən orada yaşayan azərbaycanlıların vəziyyəti ilə maraqlandım. Doğrudur, çox imkan olmadı, amma Qırğızıstandakı bir sıra Azərbaycan cəmiyyətlərinin başçıları ilə görüşdüm. Bişkekdə axşam qəzetinin redaktoru azərbaycanlıdır. O, gəlib mənimlə görüşdü, biz söhbət etdik. Əsgər Akayevin dediyinə görə, Qırğızıstanda çoxluq təşkil etməyən millətlərə müəyyən imkanlar yaradıblar. Hətta bu cəmiyyətlərin fəaliyyət göstərməsi üçün sarayların birində onlara yerlər də ayırıblar. O cümlədən Azərbaycan cəmiyyətinə də yer ayrılıb.

Qırğızıstanda yaşayan azərbaycanlıların çoxu orada elm, səhiyyə, iqtisadiyyat sahələrində işləyirlər. Mənə dediklərinə görə, orada onların vəziyyəti pis deyil, yaxşıdır. Onlar Qırğızıstanın ictimai-siyasi həyatında da iştirak edirlər.

Ancaq məni ən çox maraqlandıran Qırğızıstan ilə Azərbaycan arasındakı əlaqələrdir. Çünki bu əlaqələr indiyədək zəifdir. Biz Əsgər Akayevlə bu barədə söhbət apardıq və belə qərara [237-238] gəldik ki, bu əlaqələri gücləndirmək üçün hər iki tərəfdən lazımi əlavə tədbirlər görüləcəkdir. Burada böyük imkanlar var və bu imkanlardan istifadə etmək lazımdır.

Bir daha qeyd edirəm ki, "Manas"ın 1000 illiyi yüksək səviyyədə keçdi. Mən bunu təkcə "Manas"ın yubileyi kimi yox, ümumiyyətlə bir kökdən olan xalqlarımızın keçmişinə, bu gününə və gələcəyinə baxış kimi qiymətləndirirəm və bu da bizim üçün çox əhəmiyyətlidir. [238-239]

## QADINLARIN VƏZİYYƏTİNƏ DAİR IV ÜMUMDÜNYA KONFRANSININ İŞTİRAKÇILARINA

Hörmətli konfrans iştirakçıları!

Azərbaycan xalqı adından qadınların vəziyyətinə həsr olunmuş IV Ümumdünya konfransının iştirakçılarını ürəkdən salamlayır, konfrans nümayəndələrinin hamısına bərabərlik, inkişaf və sülh naminə fəaliyyətində uğurlar arzulayıram.

Milyondan artıq qaçqını və məcburi köçkünü olan Azərbaycan üçün bu gün ən ümdə vəzifə Ermənistan Respublikasının hərbi təcavüzü nəticəsində doğma evindən-ocağından məhrum olan qaçqın qadın və uşaqların problemlərini həll etməkdən ibarətdir. Pekin konfransı ərəfəsində keçirilmiş geniş miqyaslı "Öz doğma evimə qaytarın məni" siyasi tədbiri, üzərində qadın forumunun simvolu olan bayrağa minlərlə qaçqın qadının imza atması ilə nəticələnmişdir.

Ümidvaram ki, dünya qadınları öz bacıları – Azərbaycan qadınlarına da kömək edəcək, torpaqlarının 20 faizi erməni qəsbkarları tərəfindən zəbt olunmuş Azərbaycanın ərazi bütövlüyünün müdafiəsində, işğal olunmuş torpaqların Azərbaycana qaytarılmasında öz xidmətlərini göstərəcəklər.

Öz müstəqilliyinə nail olduqdan sonra Azərbaycan digər beynəlxalq sazişlərlə yanaşı, "Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğvi haqqında" sazişə də qoşularaq bir daha demokratik və dünyəvi bir dövlət qurduğunu təsdiq etmişdir.

Bizim ən böyük amalımız qadınlarımızı azad, xoşbəxt, fəal və nikbin, uşaqlarımızı sağlam, gümrah, şən və hər cəhətdən təmin olunmuş görməkdir.

Əminəm ki, sizin bu konfransınız bu amallar uğrunda mübarizənin real yollarını göstərəcək, səmərəli fəaliyyət proqramını müəyyənləşdirəcəkdir.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*4 sentyabr 1995-ci il* [239-240]

## İSLAM KONFRANSI TƏŞKİLATININ BAŞ KATİBİ ZATİ-ALİLƏRİ HƏMİD ƏL-QABİD CƏNABLARINA TƏBRİK MƏKTUBU

Hörmətli cənab baş katib!

Əziz qardaşım Həmid əl-Qabid!

Sizi və başçılıq etdiyiniz İslam Konfransı Təşkilatının baş katibliyini bu təşkilatın 11 sentyabr 1995-ci ildə keçiriləcək 25 illik yubileyi münasibətilə səmimi-qəlbdən təbrik edir, işlərinizdə müvəffəqiyyətlər arzulayıram.

İslam Konfransı Təşkilatının müsəlman dünyasının bu günü və gələcəyi naminə etdiyi xeyirxah işlər dünyada mövcud olan bütün nüfuzlu təşkilatlara bir örnəkdir. Təsadüfi deyil ki, dünya ictimaiyyəti bu təşkilatı yarandığı gündən nüfuzlu bir təşkilat kimi tanımış, bütün dünyada sülhün, əmin-amanlığın qorunması uğrunda gördüyü xidmətləri yüksək qiymətləndirmişdir.

Ümidvaram ki, bu təşkilatın uzun illər ərzində əldə etdiyi təcrübələrlə dolu zəngin fəaliyyəti bundan sonra da bütün dünya müsəlmanlarının rifahının daha da yüksəlməsinə, müsəlman xalqlarının həmrəyliyinə, onların xoşbəxt gələcəyinə və dünyada sülhün əldə edilməsi işinə xidmət edəcəkdir.

Əziz qardaşım!

Erməni təcavüzü nəticəsində Azərbaycan xalqının yaşadığı bu ağır günlər sizə məlumdur. Rəhbəri olduğunuz İslam Konfransı Təşkilatı tərəfindən Azərbaycan xalqına göstərdiyiniz mənəvi dəstəyə görə sizə öz təşəkkürümü bildirirəm.

Fürsətdən istifadə edərək, bir daha sizə və İslam Konfransı Təşkilatının rəhbərliyinə öz adımdan və Azərbaycan xalqı adından uğurlar, cansağlığı, səadət arzulayıram.

Dərin hörmətlə,

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*7 sentyabr 1995-ci il* [240-241]

## 1992-ci İLDƏ NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİNİN SƏDRİ İŞLƏYƏRKƏN HEYDƏR ƏLİYEVƏ "SƏS" QƏZETİ VASİTƏSİLƏ MÜRACİƏT ETMİŞ AZƏRBAYCAN ZİYALILARI İLƏ GÖRÜŞDƏ ÇIXIŞ

*Prezident Sarayı*

*9 sentyabr 1995-ci il*

Əziz və hörmətli dostlar!

Bu gün biz qeyri-adi bir görüş keçiririk. Mən bu şənbə günü sizi istirahətinizdən ayırmışam və bura dəvət etmişəm. Təxminən üç il bundan əvvəl baş vermiş bəzi hadisələri yada salmaq, xatırlamaq üçün. Eyni zamanda üç il bundan əvvəl Azərbaycanın bu günü, gələcəyi haqqında düşünən adamların bir qisminin o vaxtkı təşəbbüslərinin zaman keçəndən sonra cəmiyyətimiz, xalqımız, millətimiz üçün nə qədər əhəmiyyətli olduğuna bir daha (mən "bir daha" deyirəm, çünki bu barədə öz fikirlərimi daim demişəm) qiymət vermək və bu barədə düşündüklərimi söyləmək üçün.

Bura dəvət olunan şəxslər 1992-ci ildə Azərbaycanın, respublikamızın həyatında ağır proseslər getdiyi zaman mənə çox müraciət edən Azərbaycan vətəndaşlarının bir qrupudur. Məlumdur, amma mən bunu qeyd etməliyəm ki, 1987-ci ildə mən Moskvada işləyərkən o vaxtkı Siyasi Büronun üzvlüyündən, Sovetlər İttifaqı Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsindən istefaya gedəndən sonra həyatımda, mənim üçün doğma, əziz olan Azərbaycan Respublikasının, xalqımızın həyatında çox böyük dəyişikliklər əmələ gəldi.

O vaxtlar mən Moskvada yaşayarkən, demək olar ki, cəmiyyətdən tamamilə təcrid edilmiş bir vəziyyətdə olduğum dövrdə Azərbaycanla, doğma xalqımla daim maraqlanırdım və onun qayğıları ilə yaşayırdım. Onun keçirdiyi çətin proseslər məni narahat edir, incidirdi. O vaxtkı şəraitə görə etdiyimdən artıq bir şey edə bilmirdim. Ancaq bəzi şeylər də edirdim.

Məlumdur ki, sonra 20 Yanvar faciəsi baş verdi. Xalq çox hiddətləndi. 1990-cı il yanvarın 20-də xalqımıza qarşı çox qatı [241-242] hərbi, siyasi təcavüz oldu. Xalqımıza böyük zərbə vuruldu. Cəmiyyətdə böyük canlanma əmələ gəldi. O zaman mən də kənarda qalmadım, öz sözümü dedim, münasibətimi bildirdim. O vaxta qədər mənim Azərbaycana qayıtmaq fikrim yox idi. Bunu sizə açıq demək istəyirəm. Şübhəsiz ki, mən Azərbaycanın həsrəti ilə yaşayırdım. Ancaq hesab edirdim ki, mən artıq siyasi fəaliyyətdən kənardayam, Moskvada yaşayıram, – nə qədər ağır, çətin olsa da, orada yaşayıram. Belə hesab edirdim ki, qayıtmağa can atmağa ehtiyac da yoxdur. Şübhəsiz ki, ürəyim istəyirdi və başqa cür də ola bilməzdi.

20 Yanvar faciəsi məni dəhşətə gətirdi, çox həyəcanlandırdı. Mənə qarşı olan bütün təzyiqlərə, təqiblərə baxmayaraq, həyatım və ailəm üçün yaranmış təhlükəyə baxmayaraq, mən artıq siyasi fəaliyyətə qoşuldum. O mənada yox ki, bir siyasi mövqe, vəzifə tutum. Sadəcə – kənarda qalmamaq üçün. Bir də ona görə yox ki, kənarda qalmağım mənim üçün pis olar. Ona görə ki, hiss etdim ki, mənim sözümə, fikrimə Azərbaycan xalqının indiki bu ağır dövründə böyük ehtiyacı var. Məhz buna görə, başqa məqsədə görə yox.

O vaxt mən Azərbaycana gəlməyə çox can atdım. Hər vəchlə mənim qarşımı aldılar, çox maneələr törətdilər, hətta bunu mənə qadağan etdilər, inzibati təzyiq tədbirlərinə əl atdılar. Buraya gəlməyimi nə Sovetlər İttifaqının o vaxtkı rəhbərliyi istəyirdi ("istəyirdi" demək olmaz, buna qəti etiraz edirdi), eyni zamanda Azərbaycan Respublikasının o vaxtkı rəhbərliyi buna etiraz edirdi. Tək etiraz deyil, onlar birlikdə bütün tədbirləri görürdülər ki, məni insan hüquqlarından məhrum etsinlər. O vaxt mən adi bir vətəndaş idim. Şübhəsiz, vətəndaş kimi istədiyim yerə. gedə bilərdim. Axı, mən xaricə getmək istəmirdim. Sovetlər İttifaqı dövlət idi, onun daxilində istədiyim yerə gedə bilərdim, o cümlədən doğulduğum, yaşadığım, işlədiyim vətənimə də qayıda bilərdim. Ancaq onlar mənim hüquqlarımı tamamilə pozdular, dağıtdılar, tapdaladılar.

Mənim cəhdlərim bir neçə ay nəticə vermədi və bir sıra inzibati tədbirlərlə mənim Azərbaycana gəlməyimin qarşısını aldılar. Ancaq mən öz niyyətimdən əl çəkmədim, çalışdım, mübarizə apardım. O vaxtdan sonra mən mətbuatda – Moskva mətbuatında, xarici ölkələrin mətbuatında, informasiya orqanlarında açıq bəyanatlar verdim, fikirlərimi bildirdim. Faktiki olaraq 1990-cı ilin 21 yanvarında mən Kommunist Partiyasını [242-243] mənən tərk etdim və açıq mübarizəyə başladım. Bu mübarizə şəxsən özümə yeni bir vəzifə almaq üçün deyildi. Sadəcə, görürdüm ki, xalq ağır vəziyyətdədir, respublikanın rəhbərləri xalqa xəyanət edirlər, xalqın ziyalı, dəyərli adamları ayağa qalxıblar, ancaq onları boğurlar. Hesab etdim ki, burada mənim səsim onların səsinə güc verə bilər. Beləliklə də biz bu ağır vəziyyətdə xalqımızı, onun milli mənliyini, mənəviyyatını qoruya bilərik.

Bütün bu cəhdlərin qarşısının alınmasına baxmayaraq, 1990-cı ilin yayında mən təyyarə ilə Bakıya uçmaq üçün çox ciddi bir addım atdım. Qarşıma qoyulan o inzibati tədbirlər nəticə vermədi. O vaxt burada çox

böyük bir cinayət, sui-qəsd etdilər. “Azərnəşr”in direktoru Əjdər Xanbabayev o zaman vaxtaşırı mənimlə telefon əlaqəsi saxlayan şəxs idi. Adi bir adam idi. Burada oturanların çoxları kimi, nə vəzifə sahibi idi, nə də mənim vaxtımda bir vəzifə almış adam idi. Adi ziyalı, vətənpərvər bir adam idi. Burada işlədiyim vaxtda mənimlə heç bir şəxsi münasibəti olmayan bir adam idi. Ancaq sadəcə olaraq Vətənə ürəyi yandığına görə, görünür, daxili mənəviyyatı çox yüksək olduğuna görə o mənimlə vaxtaşırı əlaqə saxlayırdı. Onu burada vəhşicəsinə qətlə yetirdilər, öldürdülər. Bu hadisə mənim buraya gəlməyimdən bir gün əvvəl oldu: mən Bakıya uçmalı idim, ondan bir gün əvvəl onu burada qətlə yetirdilər.

Təəssüf ki, bundan beş il keçsə də, bu cinayət hələ açılmayıb. Ancaq indi, güman edirəm ki, istintaq orqanları bu cinayətin açılmasına çox yaxın bir mərhələdədirlər. Əminəm ki, bu cinayət açılacaq, cinayətkarlar da tamamilə aşkar olunacaqlar.

Bu adamın vəhşicəsinə qətlə yetirilməsi şübhəsiz ki, mənə ağır təsir etdi, bir insan kimi məni çox sarsıtdı. Ancaq eyni zamanda məni daha da ruhlandırdı ki, əgər belə adi insanlar öz amalına görə özünü qurban verə bilirlərsə, deməк, Azərbaycanda belələri az deyil. Demək, xalqımız öz milli mənliyini itirməyibdir və mən bu fəaliyyətimi davam etdirməliyəm.

Bunun üstündən bir müddət keçəndən sonra yenə də böyük çətinliklərlə mən nəhayət, Bakıya gəldim. Vaxtınızı almaq istəmirəm, bunlar hamısı məlumdur. Məni Bakıda .yaşamağa qoymadılar, Naxçıvana getdim. Mən hesab etdim ki, doğulduğum, gəncliyimi yaşadığım torpaqda – Naxçıvanda həyatımı sona çatdıracağam. Ancaq orada Naxçıvanın əhalisi, [243-244] xalq mənə çox böyük qayğı göstərdi. Mənə böyük hörmət etdilər və parlament seçkiləri zamanı – 1990-cı ilin sentyabr ayında mənim Azərbaycan və Naxçıvan parlamentlərinə seçilməyim haqqında cürbəcür təşəbbüslər etdilər.

Doğrudur, mən gedib orada evdə sakit oturmamışdım. Mən o vaxt çoxlu görüşlərə gedirdim, yanvar faciəsi ilə əlaqədar, Azərbaycanın müstəqil olması üçün, ölkəmizin milli azadlığı haqqında, Ermənistanın Azərbaycana təcavüzü və bu təcavüzün qarşısını almaq üçün Azərbaycanın lazımi tədbirlər görməməsi barədə öz fikirlərimi söyləyirdim. O vaxtlar mənim fikirlərim çox təsirli idi. Mən xalqla əlaqədə idim. Demək olar ki, o vaxt Naxçıvan Muxtar Respublikasının bütün bölgələrində, böyük şəhərlərində, kəndlərində oldum, insanlarla görüşdüm. Bu görüşlər onlar üçün böyük dayaq, mənim üçün də bır təsəlli oldu. Hər halda mən uzun müddət təcrid olunduğum bir vəziyyətdən çıxdım.

Nəhayət, məni həm Naxçıvan Muxtar Respublikasının, həm də Azərbaycan Respublikasının parlamentinə deputat seçdilər. Mənim parlamentdəki çıxışlarım da, mənə qarşı olan ədalətsiz hərəkətlər, təhqirlər də məlumdur. Hər halda hesab edirəm ki, o vaxtlar Naxçıvan Muxtar Respublikasında milli azadlıq hərəkatım qaldırmaq üçün, müstəqillik barədə fikirləri möhkəmləndirmək üçün orada milli azadlıq arzusunda olan insanlarla bərabər biz çox iş gördük. O vaxt Naxçıvan Azərbaycana çox böyük bir örnək oldu, çox təsir etdi. Bunlar da hamısı sizə məlumdur. Mən sadəcə olaraq əsas mövzuya gəlmək üçün bunları bir balaca xatirinizə salıram.

Kommunist Partiyası dağılandan sonra və Sovet İttifaqı artıq dağılmaq ərəfəsində ikən – 1991-ci ilin yayında mən bir müddət Moskvada yaşadım. Sonra buraya gəldim. Moskvadakı qiyam barədə Bakıda eşitdim. Mən Naxçıvana getdim. Muxtar respublikanın, Naxçıvanın əhalisi meydanlara toplaşdı – on minlərlə, biri deyirdi 60 min, biri deyirdi 70 min adam, demək olar ki, əhalinin əksəriyyəti mənim Ali Məclisə sədr seçilməyimi tələb etdi. Mən də buna razılıq verdim. Orada da mən buna əvvəlcə çox müqavimət göstərirdim, istəmirdim. Razılığımın səbəbi o oldu ki, Naxçıvan ağır vəziyyətdə idi, ona kömək etmək lazım idi. Bu da mənim borcum idi. Şübhəsiz ki, kənarda duran bir adam kimi, mən bu köməyi edə bilməzdim. Ancaq həmin vəzifəni üzərimə götürəndən sonra bu köməyi etməyə imkanlarım oldu və işlər də gördük. [244-245]

Sonra Xalq Cəbhəsi hakimiyyətə gəldi və onun hakimiyyətə gəlməsinə mən bir siyasi xadim kimi dəstək verdim, bir şəxs kimi kömək etdim. Ancaq onların da hakimiyyət dövrü nə cür oldu, nə təhər oldu – sizə məlumdur. Bilirsiniz ki, 1992-ci ildə Ayaz Mütəllibov hakimiyyətdən gedəndən sonra burada çox proseslər cərəyan edirdi. Burada prezident seçkiləri təyin olunmuşdu. Böyük-böyük qruplar mitinqlər keçirirdilər ki, o vaxtlar konstitusiyada qoyulmuş yaş həddi götürülsün və Heydər Əliyev də prezidentliyə namizədliyini verə bilsin. Düzdür, mənim onlarla heç bir əlaqəm yox idi. O mitinqdə iştirak edənlərin bəziləri indi buradadırlar, mən bunu tam səmimi olaraq deyirəm, heç bir əlaqəm yox idi. Naxçıvanda televiziya o qədər də normal işləmirdi, bu məlumatları biz çox gec alırdıq. Bəzən hamısını da ala bilmirdik, ancaq qulağıma dəyirdi. Mənim yanıma çox adamlar gəlirdi, belə məsələlər haqqında məlumatlar verirdilər. Mənimlə söhbət edənlərin – o cümlədən burada iştirak edənlərin çoxu mənim yanıma gəlirdi – hamısına deyirdim ki, siz bunları nahaq edirsiniz, mən nə prezident olmaq fikrindəyəm, nə Azərbaycanın rəhbərliyinə qayıtmaq fikrindəyəm, nə də Bakıya dönmək fikrindəyəm. Mən yalnız və yalnız Naxçıvanda yaşayıram və əlimdən gələni edirəm ki, Naxçıvan blokada şəraitindən, bu ağır vəziyyətdən çıxsın.

1992-ci ilin mayında burada parlamentin sədri seçilirdi. O vaxt bu məsələlər parlamentdə də qaldırıldı. Mən buna da tamamilə etiraz etdim. Yəni məndən soruşan olmadı, ancaq mən özüm buraya gəlməyimi, parlamentə sədr seçilməyimi heç lüzumlu hesab etmirdim. O təkliflərlə, orada təşəbbüs qaldıranlarla da mənim qətiyyən heç bir əlaqəm yox idi.

Təəssüf ki, həmin gündən bir gün qabaq Naxçıvanla Ermənistan arasında hərbi münaqişə başladı. Onun səbəbləri mənə məlumdur ki, bunu kim, nə üçün etmişdi. Biz orada şəhidlər verdik, qurbanlar verdik, Naxçıvanın ərazisini Ermənistan silahlı qüvvələrinin hücumundan qorumaq üçün 40 gün müharibə apardıq.

Sonra, 1992-ci ilin payızında mənim yanıma cürbəcür xahişlərlə, tələblərlə adamlar gəlirdi ki, siz Bakıya gəlməlisiniz, respublikanın siyasi həyatında iştirak etməlisiniz, Azərbaycanda vəziyyət ağırdır. Mən bunun zəruriliyini hiss edirdim. Ancaq burada proseslər o qədər gərgin idi və cürbəcür iddiada olan adamlar o qədər çox idi ki, mən sadəcə olaraq özümü o səviyyəyə [245-246] endirmək, gəlib bu işlərlə məşğul olmaq istəmirdim. Tam səmimiyyətlə sizə deyirəm ki, mənim yenidən Bakıya qayıtmaq fikrim yox idi. Bir tərəfdən ürəyimdə daxili inciklik var idi, ikinci tərəfdən isə hesab edirdim ki, indi yeni meydana gəlmiş siyasətçilər var, qoy Azərbaycanın işlərini onlar aparsınlar, onlara imkan vermək lazımdır.

Ancaq buna baxmayaraq, mənim yanıma, Naxçıvana qruplarla ayrı-ayrı adamlar gəldilər, çox xahişlər etdilər. Burada oturanların çoxu şahiddir ki, mən hər dəfə onları çox mehriban qarşılayıb, ətraflı söhbət edib, onlara öz təşəkkürümü bildirib, hər dəfə də demişdim ki, çox sağ olun, sizin bu münasibətinizdən mən çox məmnunam, ancaq mən bu təkliflərin heç biri ilə razı deyiləm, bunların heç birini qəbul etmirəm və qəbul etməyəcəyəm.

1987-ci ilin sonundan, demək olar ki, 1988-ci ildən mənə qarşı ədalətsizlik, böhtançılıq kampaniyası başlanan zamandan mən şübhəsiz ki, mənəvi əzab çəkirdim. Ayrı-ayrı adamların, şəxslərin, ziyalıların gəlib Naxçıvanda məni ziyarət etmələri, mənimlə görüşmələri, söhbət etmələri mənim üçün xoş bir hal idi. Mənəvi təskinlik idi. Ona görə ki, təəssüflər olsun, çoxları – mənimlə bərabər işləmiş, uzun müddət mənimlə əməkdaşlıq etmiş, mənim rəhbərliyim altında yaşamış, inkişaf etmiş, vəzifələrdən-vəzifələrə çıxmış adamlar ya məni unutdular, ya da bəziləri o böhtançıların tərəfinə keçdilər.

Belə bir şəraitdə yanıma gələn adamların çoxunu mən keçmiş zamanlarda tanımırdım. Gəlirdilər, özlərini təqdim edirdilər, özləri haqqında məlumat verirdilər. Onları qəbul edirdim və tam səmimiyyətlə demək istəyirəm ki, bundan məmnun olurdum. Çünki təsəvvür edin, mənəvi cəhətdən çox ağır vəziyyətdə yaşayan insan - cəmiyyətdən təcrid olunmuş, bəzi adamların xəyanətkarlığını, nankorluğunu görən insan bir də baxır ki, qapı açılır, heç gözlənilmədən, tanımadığı bir adam gəlib özünü təqdim edir və öz münasibətini bildirir. Şübhəsiz ki, dara düşən hər bir adam üçün, o cümlədən mənim üçün bu, müsbət hadisədir. Ancaq yenə də deyirəm, mən bu təkliflərin heç birisini qəbul etmirdim.

Son zamanlar ən çox Sirus Təbrizli gəldi, uzun müddət Naxçıvanda yaşadı. Hətta mən gördüm ki, o istəyir Naxçıvanda ümumiyyətlə bizimlə bərabər yaşasın. Dəfələrlə mənim yanıma gəldi. Tək öz adından yox, çox böyük ziyalı qrupu adından mənimlə söhbət apardı ki, mən Bakıya gəlməliyəm. Mən [246-247] hər dəfə ona çox səmimiyyətlə deyirdim ki, dediyin sözlərin hamısı əsaslıdır, ancaq mən indi bu təklifləri qəbul edə bilmərəm.

Nəhayət, mənim üçün gözlənilmədən "Səs" qəzetində Sirus Təbrizlinin böyük bir müsahibəsi çıxdı. Gətirdilər Naxçıvanda mən o müsahibəni oxudum. Şübhəsiz ki, bu, mənə görə yox, respublikanın həyatından narahat olduğuna görə yazdığı çox səmimi bir müsahibə idi – Sirus Təbrizli: Heydər bəyi biz çağırmalıyıq. Qəzetin 1-ci, 2-ci, 3-cü səhifələri, bəlkə də 4-cü səhifəsi də, bəli, qəzetin nömrəsi bütünlüklə buna həsr olunub.

Mən bu müsahibəni çox məmnuniyyətlə oxudum. Sirus Təbrizlinin bu cəsarətli hərəkətinə, ədalətli mövqeyinə çox yüksək qiymət verdim. Bundan sonra, xatirimdədir, Sirus Təbrizli ora gəldi. Mən ona yenə dedim ki, çox sağ ol, bunu yazmısan. Ancaq mən heç bir şeyi qəbul edə bilmərəm.

Yeri gəlmişkən, mən "Səs" qəzeti haqqında demək istəyirəm. Bilirsiniz ki, Azərbaycanda qəzetlər çoxdur. Mən bu gün "Səs" qəzetinə xüsusi təşəkkürümü bildirmək istəyirəm. Mən 1991-ci il fevralın əvvəlində Azərbaycan parlamentinin birinci sessiyasında çıxış etdim, sizə məlumdur. Mənim çıxışımı heç kəs dərc etmək. istəmirdi. O vaxt "Aydınlıq" qəzeti və onun müxbiri Mahal İsmayılov – mən onu da çox minnətdarlıqla xatırlayıram. İki il burada olduğum müddətdə çox çalışmışam onunla görüşüm, təəssüf ki, görüşə bilməmişəm, – o mənim yanıma, yaşadığım evə gəldi. Xahiş etdi ki, çıxışımın mətnini ona verim, dərc etsinlər. Mənim bu çıxışımı ilk dəfə "Aydınlıq" qəzeti tamamilə dərc elədi. Mənim üçün lazım idi ki, ictimaiyyət, əhali çıxışımı olduğu kimi oxusun. Çünki o vaxt rəsmi qəzetdə bu çıxış olduğu kimi verilməmişdi – bir hissəsi verilmişdi, bir hissəsi verilməmişdi. Mən istəyirdim ki, bu çıxış olduğu kimi, necə var elə də verilsin. Özü də mənim çıxışım əvvəldən yazılmış çıxış deyildi. O vaxt Moskvadan gətirdiyim bir diktofonum var idi. Naxçıvandan olan bir deputatla bir yerdə otururduq. Həmin diktofonu ona verdim, dedim ki, mən ora gedəndə, sən bunun düyməsini bas mən çıxışı qurtaranadək yaz ki, sonra mən onu götürə bilim. Mən hər şeyi sizə açıq danışıram. O da bunu çox yaxşı elədi. Bu adam indi gərək ki, haradasa polis rəisidir. Naxçıvandan deputat idi – Allahverdi Həsənov. O vaxt salonda oturarkən çoxları mənə yaxın gəlmirdilər, bu isə həmişə mənim yanımda otururdu və sübut etmək istəyirdi ki, mənim yanımda oturub. Çox sağ olsun. Bəzən rəyasət [247-248] heyətinə qeydlərimi də ona verirdim və deyirdim ki, apar ver. Onu da edirdi. Çox yaxşı xidmət edirdi.

Ona görə də mənim çıxışımı sonra gətirib kağıza köçürmüşdük. "Aydınlıq" qəzeti bu çıxışı verdi. Onda mənim "Səs" qəzetindən xəbərim yox idi.

Xatirinizdədir ki, ondan bir ay sonra, mart ayının əvvəlində Sovetlər İttifaqının saxlanılması haqqında referendum barədə bir sessiya oldu. Mən orada çox kəskin çıxış etdim ki, Sovetlər İttifaqı dağılır, o saxlanıla bilməz... "Aydınlıq" qəzeti birinci dəfə çıxışımı dərc etdiyinə görə mən hesab etdim ki, indi bunu da dərc edəcəkdir. Mən o vaxt "Aydınlıq" qəzetinə müraciət etdim ki, siz bir yaxşı iş görmüsünüz, bunu da dərc edin. Mən hər şeyi olduğu kimi deyirəm... Xidmətlərini də deyirəm... "Aydınlıq" qəzeti ikinci dəfə bunu dərc etmədi: "Yox, olmaz, mümkün deyil, birinci dəfə dərc edəndən sonra bizi sıxdılar, əzdilər" və sair.

"Səs" qəzetinin nümayəndəsi özü mənim yanıma gəldi ki, bəs, sizin çıxışınız var ? Dedim ki, var. Verə bilərsiniz ? Verə bilərəm. Verdim apardılar, dərc etdilər. Bax, o vaxtdan mənim həyatım bu "Səs" qəzeti ilə bağlanıb. Ona görə "Səs" qəzetinə mənim xüsusi hörmətim var. Bu qəzetin təsisçisi Fərəməz Maqsudovdur. Fərəməz Maqsudov o vaxt "Əlincə" cəmiyyəti yaratmışdı. "Əlincə" cəmiyyəti də bu qəzeti buraxırdı. Mən o vaxtdan bu "Səs" qəzeti ilə bağlıyam. İndi bugünkü danışığımızın mövzusu olan məsələlərin hamısı o vaxt "Səs" qəzetində dərc olunmuşdur. Sirus Təbrizlinin həmin bu böyük müsahibəsi "Səs" qəzetində dərc olundu və bundan sonra "Səs" qəzeti ilə bizim əməkdaşlığımız sonadək davam etdi.

Mən dedim ki, Sirus Təbrizli gəldi, bu müsahibəsini təqdim etdi, danışdıq, mən təşəkkürümü bildirdim. Ancaq yenə də dedim ki, çox sağ olun. Mən heç bir şeyi qəbul etmirəm. Çünki burada yazılmışdı ki, Heydər bəyi biz çağırmalıyıq. Mən dedim ki, çağırırsınız çağırın, ancaq mən yerimdən tərpənən deyiləm, sağ olun. Şübhəsiz ki, burada, Azərbaycanda məni çağırmaq istəyən bir Sirus Təbrizli deyildi, çoxları idi. Mən o vaxt nəinki Bakıdan, digər şəhərlərdən, rayonlardan, qəsəbələrdən də məktublar alırdım. O məktubların bəzilərini poçtlarda saxlayırdılar, buraxmırdılar, – mən bunu bilirdim, amma bəziləri də gəlib çatırdı.

Bir müddətdən sonra "Səs" qəzetində Azərbaycanın bir qrup ziyalısının mənə müraciəti dərc olundu. Bu da mənim [248-249] üçün gözlənilməz bir şey idi. "Azərbaycan sizin sözünüzü gözləyir" müraciətini 91 nəfər ziyalı imzalayıbdır. Mən bu müraciəti də, imza atanların adlarını, familiyalarını da oxudum. Çoxunu mən tanıyıram. Amma bir çoxunu, mən səmimi deyirəm, həqiqətən şəxsən tanımıram. Bu siyahının xarakterik cəhəti nədən ibarətdir? Ondan ibarətdir ki, bu siyahıda olan adamların əksəriyyəti şübhəsiz, ziyalılardır. Amma əksəriyyəti heç bir vəzifə tutmayan adamlardır və mən burada işləyən vaxtda da, yəni mənim dövrümdə bir vəzifə, imtiyazlar alan adamlar deyillər. Bunlar özləri öz əməyi ilə yaşamış, işləmiş adamlardır. Ancaq görünür, respublikanın həyatı üçün çox ürəyi yanan adamlardır. Eyni zamanda cəsarətli adamlardır. Onlar o vaxt – Naxçıvana qarşı, şəxsən mənə qarşı böyük təzyiqlər olduğu zaman belə bir məktuba imza atmışlar.

Bu, 1992-ci il oktyabr ayının əvvəlində olmuşdu. O vaxt Naxçıvana qarşı təzyiq doğrudan da çox böyük idi. Sizə düzünü deyim, bəzən fikirləşirdim: bəlkə mən Naxçıvandan çıxıb gedim ki, Naxçıvana qarşı bu təzyiq azalsın ? Amma ölçürdüm-biçirdim ki, bəlkə mən gedəndən sonra Naxçıvan daha da pis vəziyyətə düşə bilər. Yəni mən özümü, necə deyərlər, qurban verməyə də hazır idim. Moskvaya dönmək mənim üçün çətin idi. Başqa bir yerə getmək imkanı axtarırdım ki, bəlkə Naxçıvandan çıxım gedim. Niyə? 1990-cı ildə ki, Naxçıvana gəldim, orada xalq məni qarşıladı. O vaxt burada Azərbaycanın rəhbərliyi – mənim vaxtilə yetişdirmələrim, mənim vaxtımda işləmiş adamlar mənə görə Naxçıvana qarşı mənfi hərəkətlər etməyə, Naxçıvanı blokadaya salmağa və sair hallara başladılar. O vaxt Afiyəddin Cəlilov Naxçıvanda həm Vilayət Partiya Komitəsinin katibi idi, həm də, Ali Sovetin sədri idi. Onu oradan götürdülər. Rəhbərliyi dəyişdirdilər. Elə etdilər ki, orada dəyişəkliklər aparsınlar. Dəyişiklik apardılar. Naxçıvanın rəhbərliyini dəyişdirdilər. Onlar da çalışırdılar ki, orada məni bir balaca sıxışdırsınlar. Amma mənim nəyimi sıxışdıracaqlar ? Mən oturmuşdum evdə. Bir şey edə bilmədilər.

Mən bunu da qeyd etməliyəm ki, sonra, sentyabr ayının əvvəlində Naxçıvanın vətənpərvər adamları, müstəqillik sevən adamları o vaxt Moskvada qiyam zamanı Azərbaycan rəhbərliyinin o qiyamı dəstəklədiyinə görə Naxçıvanda ayağa qalxmışdılar. Mən o vaxt Naxçıvanda deyildim. Qiyam baş verməmişdən bir neçə gün əvvəl Moskvadan çıxıb Bakıya gəlmişdim. Burada yaşayırdım. [249-250]

Amma mən orada olmadan, mənim xəbərim olmadan Naxçıvanda xalq ayağa qalxmışdı, o qiyamı dəstəkləyən Azərbaycan rəhbərliyinə qarşı böyük mitinqlər keçirmişdilər, gedib Vilayət Partiya Komitəsinin binasını bağlamışdılar, partiyanı ləğv eləmişdilər. Bunu Naxçıvanın vətənpərvər, müstəqillik sevən insanları etmişdilər.

Burada avqustun 30-da bu sessiya oldu. Sentyabrın 1-də mən Naxçıvana gəldim. İndi vaxtınızı almaq istəmirəm. Düzdür, mənim yolumu kəsdilər, Naxçıvana buraxmaq istəmirdilər. Hər halda çıxdım getdim. O vaxt gəldim ki, Naxçıvanda aləm qarışıb. Mən Naxçıvana gələn axşam böyük bir mitinq çağırdılar, demək olar ki, 70 min adam toplaşdı. Mən gedib həmin mitinqdə iştirak etdim. Bu vaxt prezident seçkisi keçirilirdi və Mütəllibov prezident seçilməli idi. Mən burada sessiyada olarkən açıqca dedim ki, bu prezident seçkisi indi keçirilə bilməz və Ayaz Mütəllibovun prezident seçilməyə haqqı yoxdur. Mütəllibovun özünün yanında – burada oturmuşdu, mən bunu dedim. Getdim Naxçıvana. Sentyabr ayının 8-nə prezident seçkiləri təyin olunmuşdu, Naxçıvanda sessiya keçirildi, məni Ali Məclisin sədri seçdilər. Birinci qərarımız o oldu ki, Naxçıvanda prezident seçkilərini qadağan edək. Amma ondan qabaq Vilayət Partiya Komitəsi prezident seçkiləri üçün Naxçıvanda dairələr, məntəqələr yaratmışdı, bülletenlər gətirtdirmişdilər. Böyük məsrəf, xərc olmuşdu. Bunlar hamısı var idi.

Biz bunu qadağan etdik. Dərhal Bakıdan, Azərbaycandan böyük təzyiqlər oldu. Buradan Naxçıvana 9 deputat göndərdilər. Xatirimdədir, onlardan üçü general idi: general Nəsirov, general İsrafilov, respublika prokurorunun müavini Cəfər Quliyev, o da yəqin ki, general idi. Doqquz deputat, daxili işlər nazirinin birinci müavini başda olmaqla bir 60 nəfər də daxili qoşunlardan və sairə zabit göndərdilər. Çətin bir vəziyyət yarandı. Mən onlara ultimatum verdim ki, Naxçıvanı tərk etməlidirlər. Naxçıvanı tərk etməsələr xalq qalxacaq və şübhəsiz, vəziyyət çox gərginləşəcək. Onlar qorxdular, çəkildilər, Naxçıvanı tərk etdilər. Naxçıvanda prezident seçkiləri keçmədi.

Ondan sonra Naxçıvana təzyiqlər daha da artdı. Burada bir qrup naxçıvanlı hüquqşünası ortaya çıxartdılar ki, Heydər Əliyev Naxçıvanı Azərbaycandan ayırır və sair. Yəni bu, Naxçıvana olan təzyiqlərin bir mərhələsi idi. Xalq Cəbhəsi hakimiyyətə gələndən sonra Xalq Cəbhəsinin rəhbərliyi Naxçıvana [250-251] təzyiqlər etməyə başladı. Mən bunu ona görə danışıram ki, bu sənədlər, müraciətlər o vaxt qalxdı ki, Naxçıvana qarşı təzyiqlər başlandı. Artıq Mütəllibov hakimiyyəti tərəfindən yox, Xalq Cəbhəsi hakimiyyəti tərəfindən.

Məsələn, bu müraciət oktyabrın 4-də olmuşdu və oktyabrın 24-də Xalq Cəbhəsi Naxçıvanda çevriliş etmək istədi. Bunu da etdi. Silahlı dəstələrlə gedib Daxili İşlər Nazirliyini, Televiziyanı zəbt etdilər və televiziya ilə bizim əleyhimizə çıxış etdilər. Biz bunun qarşısını yenə də kütlənin köməyi ilə aldıq. Bax, məhz bu zaman, bu gərgin dövrdə mən istəyirdim ki, Naxçıvana bu təzyiqlər olmasın. Ona görə də istəmirdim heç bir başqa siyasətə qarışım. Mən sadəcə olaraq Naxçıvanı bu ağır vəziyyətdən çıxarmağa çalışırdım. İranla, Türkiyə ilə əlaqələr yaradıb onlardan ərzaq və sair almaqla məşğul idim. Bax, belə bir zamanda belə bir müraciət mənə gəldi.

Bu müraciəti alandan sonra mən çox düşündüm. Sirus Təbrizli mənim yanıma gəldi, hətta mənə bir sənəd də gətirdi ki, biz bir cavab layihəsi hazırlamışıq. Mən bu cavabı da vermək istəmədim və nəhayət, çox ölçüb-biçdim və özüm bir cavab yazdım, o da yenə "Səs" qəzetində dərc olundu.

Bax, bu tarixi bir balaca xatırlayaraq mən sizinlə bu görüşümün məqsədini açıram. Məqsəd ondan ibarətdir ki, o vaxt şübhəsiz, Azərbaycanın vəziyyətini, bu gününü, gələcəyini düşünən adamların əksəriyyəti məni bir ümid yeri kimi axtarıb tapırdı və mənə müraciət edirdi. Mən belə hesab edirəm. Müraciət edən adamların bəziləri bunu şifahi edirdilər, bəziləri gəlib edirdilər. Amma bir qrup, 91 adam da rəsmi müraciətə imza atıb qəzetə vermişdi, heç bir təzyiqdən, təqibdən qorxmayaraq. Mənim sizə danışdıqlarım onu göstərir ki, təzyiqlər, təqiblər var idi. Güman edirəm ki, imza atan bu adamların bəziləri sonra təqib olunmuşdular.

Mən iki ildən artıqdır ki, Bakıdayam. Ola bilər, indi siz soruşasınız ki, biz o vaxt sizə müraciət etmişik, siz bizi indi yada salmısınız. Yox, siz həmişə mənim qəlbimdə olmusunuz, heç vaxt unutmamışam. Amma sadəcə olaraq, mən hesab edirdim ki, siz müraciət edəndə heç biriniz şəxsi bir məqsəd daşımırsınız, elədirmi ? Siz Azərbaycanın dövlətçiliyi, müqəddəratı, Azərbaycanın taleyi haqqında düşünürdünüz. Bir halda tale belə gətirdi ki, mən Azərbaycana gələsi oldum və burada işlərə başlayası oldum, demək, mən birinci növbədə bu işlərlə məşğul olmalı idim. Ancaq inanın, mən elə o vaxtdan imkan [251-252] axtarırdım ki, sizi dəvət edim, sizinlə görüşüm. Mümkün olmurdu. İndi nə edək, üzərimizə düşən məsuliyyət o qədərdir ki, sutkanın 24 saatını da işləsən çatdırmaq mümkün olmur. Ona görə də mən bu planları qururdum ki, gələn həftə, o birisi həftə görüşəcəyəm. Ancaq nəhayət, indi bu imkan əldə olunub. Ona görə mən xahiş etdim ki, bu 91 şəxsi dəvət etsinlər. Yenə də deyirəm, bəziləri ilə şəxsən tanışlığım yoxdur, yəni şəxsi görüşüm olmayıb. Mən hamınıza təşəkkür edirəm.

Ona görə yox ki, mən buraya gəlmişəm. Ona görə ki, siz doğrudan da millətin, xalqın taleyi haqqında düşünən adamlar və cəsarətli adamlar olmusunuz, belə adamlar da varsınız. Bu müraciət olsa da, olmasa da proseslər gedirdi, nəsə olacaq idi. Ola bilərdi ki, mən gələydim, ola bilərdi mən gəlməyəydim, bunun fərqi yoxdur. Əsas məna ondan ibarətdir ki, siz öz vətəndaşlıq, vətənpərvərlik hissiyyatlarınızı açıq bildirmisiniz. Bu birinci. İkinci də, şübhəsiz, mənə qarşı ədalətsizlik olan bir dövrdə və uzun müddət mənimlə bərabər işləyən adamların mənə qarşı nankor çıxdıqları, vəfasız olduqları bir dövrdə siz o daxili sədaqətinizi büruzə vermisiniz, açmısınız və hətta qəzetə vermisiniz. Ona görə təşəkkür edirəm.

Mən çox təəssüflə demək istəyirəm ki, bu müraciətə imza atanlardan, 91 nəfərdən bir qismi rəhmətə gedibdir. Bu, Kərim Kərimovdur. Q çox böyük bir alim idi. Gərək ki, son vaxtlar Memarlıq və İncəsənət İnstitutunun direktoru idi. Çox dəyərli bir insan idi. Xüsusən Azərbaycanın qədim miniatür sənətinin tədqiq olunması və elmi surətdə əsaslandırılması mövzusunda onun çox gözəl kitabları var. Mən onu yaxşı tanıyırdım. Rəhmətə gedibdir.

Xəlil Rza, bizim məşhur şairimiz. Rəhmətə gedibdir. Bilirsiniz ki, vəfatından sonra mənim fərmanımla o, respublikanın ən yüksək ordeni – "İstiqlal" ordeni ilə təltif olunubdur.

Ağababa Mahmudov, Tusi adına Pedaqoji Universitetin müəllimi. Çox təəssüf edirəm ki, onunla şəxsən tanış deyildim.

Əmir Mərdanov, Elmlər Akademiyası Botanika İnstitutunun laboratoriya müdiri. Onunla da mənim şəxsi tanışlığım olmayıbdır, təəssüf edirəm.

Mövsüm Mövsümov, bu, yaxşı bir jurnalist idi. Mən onu tanıyırdım. Vəfat edibdir.

Mirzə Əsgərov, bu da çox gözəl jurnalistlərdən biri idi və "Naxçıvan" qəzeti ki, var, indi çox yaxşı fəaliyyət göstərir, onun [252-253] təsisçisidir, onun əsasını qoyan adamdır. Çox dəyərli bir insan idi.

Məmməd Məmmədov, Texniki Universitetin dosenti. Onunla da şəxsi tanışlığım olmayıb, şübhəsiz, ola bilər, mən işləyən vaxtlar görüşmüşük, amma xatırlaya bilmirəm.

Mən rica edirəm, bu şəxslərin xatirəsini bir dəqiqəlik sükutla yad edək. Allah rəhmət eləsin.

İndi isə mən istərdim, Sirus Təbrizli bu işlərdə ən çox fəal olmuş bir adam kimi əvvəlcə o şəxslərin siyahısını oxusun ki, bu müraciətə imza atıblar.

*HEYDƏR ƏLİYEVƏ MÜRACİƏT*

*Möhtərəm Heydər bəy! Hamımız görürük ki, respublikamızın, xalqımızın vəziyyəti gündən-günə ağırlaşır. Azərbaycan sözün əsl mənasında siyasi, mənəvi böhran keçirir. Bunun da əsas səbəbi son illər respublikada mövcud olan və getdikcə daha da güclənən hakimiyyət böhranıdır. Ali hakimiyyət və idarəetmə orqanları Konstitusiyaya zidd, "real vəziyyətə uyğun" fəaliyyət göstərməklə, əslində iflic vəziyyətinə düşmüşdür. Bir çox dövlət orqanları heç bir hüquqi əsas olmadan yaradılıb fəaliyyət göstərir.*

*Bir sözlə, mövcud iqtidar ictimai-siyasi gedişatlara tam nəzarət edə bilmir. Cəmiyyət obyektiv qanunauyğunluqlardan daha çox subyektiv mülahizələrə əsasən idarə olunur. Ən dəhşətlisi odur ki, siyasi və iqtisadi sistemdə əsaslı islahatlar aparılmır. Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya aktında təsbit olunmuş hakimiyyət bölgüsü havadan asılı qalmış, hüquqi dövlətin yaradılması yolunda real addımlar atılmamışdır. İqtidarın idarəetmə səriştəsi, təcrübəsi, bacarığı olmayanda zora əl atması təbiidir. Qəribə burasındadır ki, prezidentdən tutmuş respublikanın müxtəlif vəzifəli şəxsləri dəfələrlə öz müsahibələrində bildiriblər ki, artıq hakimiyyəti bizim əlimizdən heç kəs ala bilməz, çünki ordu və polis bizə xidmət edir.*

*Dünənə kimi küçə, meydanlarda səhərdən axşama qədər demokratiyadan danışanlar, görünür, demokratiyanın mahiyyətinin nə olduğunu dərk etmirlər. Əsl demokratik ölkələrdə ordu, polis, başqa inzibati orqanlar siyasətdən kənardır və bütün bu qüvvələr hakimiyyətdə olanlara deyil, xalqa xidmət edirlər. Rəhbərliyin siyasi naşılığından, idarəetmə səriştəsizliyindən, hakimiyyət hərisliyindən həm daxildən, həm də xaricdən müəyyən qüvvələr öz mənafeləri üçün məharətlə istifadə edirlər. Əgər dünənə qədər Azərbaycanın sərvətləri bir istiqamətdə daşınıb aparılırdısa, indi* [253-254] *var-dövlətimiz bir neçə səmtə axıdılır. Bir sıra Şərq ölkələrindən qovulmuş Qərb inhisarları indi asanlıqla çoxdan həsrətində olduqları Bakı neftini ələ keçirirlər. Belə gedərsə biz siyasi əsarətdən qurtarmamış, tezliklə iqtisadi əsarətə məruz qalacağıq. Çünki respublikanın olan-qalan iqtisadi potensialı sürətlə dağılır, təbii sərvətlərimiz talan edilir.*

*Vəziyyətin ağırlığından, çıxılmazlığından, həyatın qeyri-sabitliyindən, gələcəyə ümidsizlikdən respublikanı yüzlərlə ziyalı-yüksək ixtisaslı kadrlar tərk edir. Sözsüz ki, ən ağır zərbə geniş xalq kütləsinə, aşağı təbəqəyə dəyir. Hadisələrin bu cür inkişafı göstərir ki, yaxın gələcəkdə sosial-ədalətdən heç əsər-əlamət də qalmayacaq. Halbuki uzun illər boyu imperiya boyunduruğu və totalitar rejim altında inləyən xalqımız bu gün demokratik qanunlara əsaslanan vətəndaş cəmiyyəti qurmaq arzusu ilə yaşayır.*

*Yaşadığımız dövrün səciyyəvi cəhətlərinin, cəmiyyətin inkişaf meyllərinin iqtidar tərəfindən düzgün qiymətləndirilməməsi, fərsiz kadr siyasəti, idarəetmə səriştəsi olmayan təsadüfi adamların dövlət strukturlarında yüksək vəzifələrə təyin edilməsi, respublikamızın onsuz da ağır olan durumunu daha da dərinləşdirir.*

*Xalqımıza qarşı törədilən ən böyük dəhşətli cinayətləri – 20 Yanvar, Xocalı, Şuşa, Laçın və digər faciələri törədənlər hələ cəzalarına çatmayıblar. Axın görünməyən, minlərlə insan ömrü aparan, saysız-hesabsız ailələri doğma yurdlarından didərgin salan Qarabağ fitnəkarlığı bir çoxları üçün siyasi oyunbazlığa, məqam, vəzifə qamarlamaq girəvəsinə, qazanc mənbəyinə dönübdür. Azərbaycanda "sürətli artım" ancaq yeni-yeni partiyaların və onların liderlərinin meydana çıxması sayəsindədir. Bu siyasi partiyaların sayı gündən-günə çoxalsa da, respublikada ictimai-siyasi həmrəylik yaratmaq yolunda əməli iş görülmür, siyasi vakuum mövcuddur. Çünki bu siyasi partiyaların rəhbərləri arasında sözün əsl mənasında geniş xalq kütləsinin dərin inam və etimadını qazanmış, müxtəlif zümrələrdən olan adamları birləşdirə biləcək beynəlxalq nüfuzlu və respublika həyatının bütün sahələrindən tam, geniş məlumatı olan güclü lider yoxdur.*

*Möhtərəm Heydər bəy! İndiki vəziyyətdə bu çətin, məsuliyyətli işi respublikada öz üzərinə götürməyə qadir yeganə şəxs Sizsiniz! Uzun illər əldə etdiyiniz dövlət quruculuğu təcrübələrinizə əsaslanaraq, Siz, qısa müddətdə Azərbaycanda geniş xalq kütləsini əhatə eləyəcək çox böyük, güclü, nüfuzlu və işlək bir partiya yaratmağa qadirsiniz. Buna görə də Azərbaycanın demək* [254-255] *olar ki, bütün bölgələrində aparılan ictimai rəy sorğularının nəticələrinə və bizim təşkilat komitəsinə daxil olan minlərlə şifahi və yazılı vətəndaş təkliflərinə əsaslanaraq belə bir qənaətə gəlirik ki, yaratmaq istədiyimiz Yeni Azərbaycan Partiyasına bu gün rəhbərlik etməyə qadir olan yeganə mütləq lider Siz ola bilərsiniz və ya yalnız bu halda yaranmaqda olan partiya öz qarşısına qoyduğu məqsədə çatar, respublikanın bütün zümrələrdən olan xalq kütləsini öz ətrafında birləşdirərək Azərbaycanın siyasi, iqtisadi həyatında mövcud olan boşluğu dolduracaq, dövlət quruculuğu*

*işlərində öz layiqli töhfəsini verə biləcək. Əminik ki, Yeni Azərbaycan Partiyası müdrik ağsaqqalımız Heydər Əliyevin ətrafında birləşəcək dərin zəkalı, təmiz əxlaqlı, yüksək mədəniyyətli, müstəqil düşüncəli, milli qürurlu peşəkar insanların siyasi partiyasına çevriləcəkdir. Əgər bu partiyanın bünövrəsini Sizin kimi güclü dövlət xadimi qoyarsa, o uzun illər xalqımızın bir neçə nəsli üçün də siyasi yetkinlik məktəbi olar. Biz Yeni Azərbaycan Partiyasını yeni düşüncə tərzli insanların Sizin ətrafınızda sıx birləşdiyi mütəşəkkil, güclü aparıcı qüvvəyə malik bir partiya kimi görürük. İnanırıq ki, Azərbaycanımızın bu günü, sabahı naminə başqa partiya, qurum və cəmiyyətlərin vətənpərvər üzvləri də həlledici anda məhz bu partiyanın mövqeyində dayanacaqlar. Yeni qüvvələrin öncülü, aparıcısı Sizin kimi şəxsiyyət olarsa, tezliklə müstəqil respublikamızın inkişaf istiqamətləri həm müəyyənləşdirilər, həm də uğurlu addımlar atılar.*

*Siz bu gün siyasi, iqtisadi, hərbi və mənəvi blokadada olan Naxçıvan Muxtar Respublikasını da məhz öz şəxsi nüfuzunuz və uzaqgörən diplomatik səriştənizlə qoruyub saxlayır və idarə edirsiniz. Bütün çətinliklərə baxmayaraq, hələ Baltik respublikalarında belə qalan rus ordusunun Naxçıvandakı hissələrini Siz çox bacarıqla, qayda-qanunla yola saldınız. Qardaş Türkiyə və İranın köməyi ilə Naxçıvan əhalisini dözülməz vəziyyətdən çıxarırsınız. İstərdik ki, bu işləri bütün Azərbaycan üçün görəsiniz.*

*Heydər bəy! Bizim bu müraciətimizə minlərlə Azərbaycan vətəndaşı məmnuniyyətlə qoşulmağa hazırdır. Hələlik isə ilk addım olaraq bunun bir qrup ziyalılar adından biz edirik. Biz həm öz, həm də on minlərlə respublika əhalisi adından Sizdən xahiş edirik ki, yaradılmaqda olan Yeni Azərbaycan Partiyasına rəhbərlik etməyə razılıq verəsiniz. Azərbaycan Sizin sözünüzü və qəti qərarınızı gözləyir.*

*Hörmətlə və ehtiramla* [255-256]

*Azərbaycan Respublikası EA-nın akademikləri – Ziya Bünyadov, Fərəməz Maqsudov, Heykəltaraşlıq akademiyasının akademiki – Ömər Eldarov, Azərbaycan EA-nın müxbir üzvləri – İqrar Əliyev, Kərim Kərimov, Məmmədtağı Cəfərov, Sabir Hacıyev; Xəlil Rza Ulutürk – xalq şairi; Sirus Təbrizli – yazıçı-publisist; Azərbaycan Respublikasının xalq deputatları – Zeynəb Xanlarova – xalq artisti, Əli Omərov, Eldar İbrahimov, Mixail Zabelin, Əlfəddin Abdullayev; professorlar: – Murtuz Ələsgərov – əməkdar hüquqşünas; Əkbər Bayramov – əməkdar elm xadimi; Zahid Qaralov – əməkdar müəllim; Həsən Quliyev, Adil Qasımov, Əjdər İsmayılov, Fikrət İsmayılov – respublika dövlət mükafatı laureatı, Şahlar Əsgərov, Mübariz Əhmədov, Əli Nuriyev, Ədalət Fərəcov, Həsən Mirzəyev, Zahid Xəlilov, Vilayət Əliyev, Abbas Səmədov; Ağababa Mahmudov, Şəmistan Mikayılov, Səfyar Musayev, Əsədulla Qurbanov, Musa İlyasov, Tələt Qayıbov, Məmməd Məmmədov, Rafiq Əmənzadə, Lalə Hacıyeva, Eldar Abbasov, Əli İnsanov, Fuad İsmayılov, Əlişir Musayev, Hüsü Kərimov, Rafiq Məmmədhəsənov, Məmməd Nəsirov, İbrahim İsayev, Faiq Cəfərov, Sudef İmamverdiyev, Liliya Luqovaya – dosent, əməkdar həkim; elmlər doktorları – Hacıbala Abutalıbov, Novruz Quliyev, Əmir Mərdanov; dosentlər – Sabir Xəlilov, Pənah Mahmudov, İsgəndər Quliyev, Zakir Sərdarov, Əli Əhmədov, Əli Nağıyev, Maqsud Nəcəfov, Heydər Hüseynov, Nəbi Əsgərov, Allahverdi Hacıyev, Tofiq Hüseynov, Məmməd Məmmədov, Musa Heydərov; Hacan Hacıyev – elmlər namizədi, "Qaraçöp" xeyriyyə cəmiyyətinin sədri; elmlər namizədləri: – Nəzir Əhmədov, Allahyar Hüseynov, İbrahim Əzizov, Aydın Əhmədzadə, Vidadi Acalov, Səbirə Dünyamalıyeva; Georgi Savoskin – "Sodrujestvo" cəmiyyətinin üzvü, Lüdviq Muradov – "Azərbaycan-Rusiya" cəmiyyətinin məsul katibi, Rafael Allahverdiyev – "Azərbaycan-Rusiya" cəmiyyətinin vitse-prezidenti, Asif Cahangirov – BXTŞ-nin müdiri, Rafiq Qasımov – "Azərelektroterm"in baş direktor müavini, Kərim Kərimov – Bakı Kondisioner zavodunun şöbə müdiri, Munis Bayramov – Azərbaycan "Əlillər" cəmiyyəti sədrinin köməkçisi, Möhsün Möhsünov – yazıçı-jurnalist, Ağabəy Əsgərov – elmlər namizədi, "Səs" qəzetinin baş redaktoru, Vüqar Rəhimzadə – "İki* [256-257] *sahil" qəzetinin baş redaktoru, Rizvan Cəbiyev – "Naxçıvan" qəzetinin baş redaktoru, Ariz Abduləliyev – "Axtarış" qəzetinin baş redaktoru, Əziz Axundov – "Gənc müəllim" qəzetinin redaktoru, Mirzə Əsgərov – "Real" agentliyinin direktoru, Xeyrəddin Qoca – "Açıq söz" qəzetinin redaktor müavini, jurnalistlər: Səlahəddin Quliyev, Ziya Paşa, Vüqar İsmayılov, Tahir Məmmədov.*

*HEYDƏR ƏLİYEVİN AZƏRBAYCAN*
*ZİYALILARININ*
*MÜRACİƏTİNƏ CAVABI*

Hörmətli ziyalılar!

16 oktyabr 1992-ci il tarixli "Səs" qəzetində dərc olunan müraciətinizlə böyük diqqət və ehtiramla tanış oldum. Müraciətinizdən, mətbuat və televiziyadan, Azərbaycanın müxtəlif bölgələrindən gələn məktublardan aldığım məlumatlardan aydın olur ki, respublikada ictimai-siyasi və sosial-iqtisadi vəziyyət son dərəcə ağırdır. Bu şəraitdə Azərbaycan ziyalılarının narahatçılığı haqlıdır və təqdirəlayiqdir.

Azərbaycan Respublikasının dövlət müstəqilliyi əldə etməsi tarixi hadisədir və şübhəsiz ki, bütün azərbaycanlıları, bütün Azərbaycan vətəndaşlarını hədsiz dərəcədə sevindirir.

Eyni zamanda bu əlamətdar hadisə müstəqil Azərbaycan dövləti, Azərbaycan xalqı qarşısında çox məsul, mürəkkəb, çətin vəzifələr qoyur. İndi əsas vəzifə dövlətçiliyin, müstəqilliyin bərqərar olunmasını, milli-demokratik dövlətin formalaşmasını, müstəqil Azərbaycanın suverenliyini, təhlükəsizliyini təmin etmək və vətəndaşlara azad, xoşbəxt, firavan həyat şəraiti yaratmaqdan ibarətdir. Bu xeyirxah və şərəfli işə hər bir vətənpərvər öz layiqli töhfəsini verməlidir.

Bununla bağlı və Sizin müraciətinizə cavab olaraq bəzi fikirlərimi və arzularımı açıqlamaq istəyirəm.

Hər şeydən öncə qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasının dövlət müstəqilliyi əldə etməsi təxminən səksəninci illərin əvvəllərindən başlanmış, keçmiş Sovetlər İttifaqında və bütün dünyada gedən ictimai-siyasi proseslərin zəruri nəticəsidir. Bu tarixi-obyektiv proseslər Sovet İttifaqının dağılmasına, Kommunist partiyasının tarixin səhnəsindən çıxmasına və 15 müttəfiq respublikanın hər birinin müstəqil dövlətə çevrilməsinə gətirib çıxarmışdır. Bundan sonrakı hadisələr [257-258] – yeni müstəqil dövlətlərin, o cümlədən Azərbaycan Respublikasının dünya ölkələri, müxtəlif Beynəlxalq təşkilatlar, Birləşmiş Millətlər Təşkilatı tərəfindən tanınması təbii bir haldır və beynəlxalq, dövlətlərarası hüquq normalarının qanunauyğun təzahürüdür.

Buna görə də Azərbaycanın müstəqillik əldə etməsini heç bir vəchlə müəyyən ictimai-siyasi qüvvələrin, təşkilatların, ayrı-ayrı şəxslərin, o cümlədən də Xalq Cəbhəsinin xidməti saymaq olmaz. Təkrar edirəm, bu tarixi-obyektiv proseslərin nəticəsidir, taleyin və zamanın Azərbaycan xalqına, eləcə də keçmiş müttəfiq respublikaların xalqlarına əvəzsiz töhfəsidir.

Beləliklə, Azərbaycanın dövlət müstəqilliyi bütün Azərbaycan xalqının milli sərvətidir və heç cür yol vermək olmaz ki, bu ayrı-ayrı siyasi partiyaların, qurumların, şəxslərin müstəsna səlahiyyətinə, monopoliyasına çevrilsin.

Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsi, milli-demokratik dövlətin, hüquqi cəmiyyətin yaradılması bütün ictimai-siyasi, sosial-iqtisadi potensialdan maksimum istifadə olunmasını tələb edir. Əgər hər hansı ölkənin xalqları öz hüquqlarını anlayır və onları qoruya bilirsə, o zaman ən kiçik dövlət belə ən böyük məmləkət qədər güclü olur. Güman edirəm ki, bu yolda əsas vəzifələr aşağıdakından ibarətdir.

**Birinci.** Azərbaycanın müharibə vəziyyətindən çıxması və Qarabağ probleminin tezliklə həll olunması. Artıq beş ildir ki, Azərbaycanla Ermənistan arasında müharibə gedir, ərazimizin bir hissəsini itirmişik. Ermənistanla həmsərhəd bölgələrin bir çox yaşayış məntəqələri dağılmış, minlərlə insan həlak olmuş, yaralanmış, şikəst və əlil olmuşlar. Respublikada yüz minlərlə yurdlarından didərgin düşmüş, ağır vəziyyətdə yaşayan qaçqınlar var. Respublikaya misli görünməmiş hədsiz maddi və mənəvi ziyan dəyib. Ən dəhşətlisi budur ki, bütün bu faciələrin hələ də sonu görünmür. Bir il bundan əvvəl olduğu kimi bu gün də Azərbaycanın rəhbər dövlət orqanlarının Qarabağ problemi haqqında dəqiq, aydın konsepsiyası və lazımi hərbi-siyasi strategiyası yoxdur. Belə təsəvvür yaranır ki, Qarabağda və başqa sərhəd zonalarında hərbi əməliyyatlar özbaşına gedir.

**İkinci.** Azərbaycanda sosial-iqtisadi böhranın dərinləşməsi, xalqın güzəranının gündən-günə ağırlaşması böyük həyəcan doğurur. Respublika iqtisadiyyatının cari ilin doqquz ayındakı vəziyyəti barədə statistik məlumatlar insanı dəhşətə gətirir. [258-259] Milli gəlirin istehsalı 25 faiz, sənaye məhsullarının istehsalı 25 faiz aşağı düşmüşdür. Kənd təsərrüfatında və əsaslı tikintidə vəziyyət daha da ağırdır. Əgər Azərbaycanın iqtisadiyyatının səviyyəsinin son 5-6 il ərzində dayanmadan aşağı düşməsini nəzərə alsaq, o zaman respublikanın necə böyük fəlakətlə üzləşdiyini təsəvvür etmək çətin deyil.

Azərbaycan tükənməz təbii sərvətlərə, zəngin sənaye, aqrar və sosial ehtiyatlarına, lazımi intellektual potensiala, əsaslı istehsal fondlarına, istənilən qədər işçi qüvvəsinə malikdir. Bütün bunlardan respublikanın müstəqilliyini möhkəmlətmək və insanların həyat səviyyəsini yaxşılaşdırmaq üçün səmərəli istifadə olunmalıdır. Aqrar sahədə təkcə bir il ərzində istehsalı yüksəltməklə kənd təsərrüfatı məhsullarını xeyli artırmaq mümkündür. Təəssüf ki, respublikanın belə zəngin daxili imkanlarından lazımi səviyyədə istifadə olunmur.

Belə qənaətə gəlmək olur ki, dövlət və hökumət orqanlarının respublikanı ağır vəziyyətdən çıxarmağa yönəldilən aydın iqtisadi proqramı, strategiyası, əhalinin həyat səviyyəsini günü-gündən yaxşılaşdırmaq üçün konkret tədbirləri yoxdur. Müşahidələr göstərir ki, bu sahədə də çox işlər kortəbii aparılır.

**Üçüncü.** Bu gün respublikada aparılan kadr siyasəti çox haqlı olaraq geniş xalq kütləsinin etiraz və narazılıqlarına səbəb olur. Rəhbər vəzifələrə təyinatlar iş qabiliyyəti, biliyi, bacarığı, təsərrüfat və idarəetmə işlərindəki təcrübəsi nəzərə alınmadan yalnız, Xalq Cəbhəsinə mənsubiyyətinin əsas götürülməsi hüquq normalarına uyğun deyil, ağır nəticələr verə bilər. Xalq, Xalq Cəbhəsinə heç zaman belə müstəsna hüquq və səlahiyyət verməmişdir. Ötən illər və onilliklər ərzində respublikada dövlət idarəetmə, iqtisadiyyat, elm, mədəniyyət və sosial sahələrdə kifayət qədər bilikli, təcrübəli, səriştəli, yüksək mədəniyyətə malik kadrlar hazırlanmışdır. Onların hamısı ictimai-siyasi təşkilatlara, partiyalara mənsubiyyətindən asılı olmayaraq fəal quruculuğa cəlb edilməlidirlər.

Azərbaycandan kənarda, Rusiyada, Ukraynada və başqa respublikalarda ölkənin mötəbər, nüfuzlu ali məktəblərində, elm mərkəzlərində, ali hərbi məktəblərdə təhsil almış və böyük təcrübə toplamış azərbaycanlılar yaşayır. Onları öz vətənlərində müstəqil Azərbaycanın həyatının müxtəlif sahələrində çalışmağa cəlb etmək

üçün tədbirlər görmək lazımdır. [259-260] Yeniləşən, demokratikləşən müstəqil Azərbaycana onlar öz səmərəli fəaliyyətləri ilə çox böyük fayda verə bilər.

Bu gün bolşeviklərin və kommunistlərin özünü doğrultmayan təcrübələrindən yenidən istifadə olunmasına yol verilməməlidir. Təəssüf ki, son aylar bu təcrübə respublikada geniş tətbiq edilir.

**Dördüncü.** Müstəqil Azərbaycanın dövlətçiliyinin möhkəmlənməsi hər şeydən əvvəl respublikada qanunların toxunulmazlığından, qanunun aliliyindən asılıdır. Totalitarizmdən tamamilə xilas olmaq yalnız demokratiyanın ardıcıl inkişafı, siyasi plüralizm, insan azadlığı şəraitində mümkündür. Söhbət söz, vicdan, din, təşəbbüskarlıq və sahibkarlıq, mülkiyyətçilik, seçib seçilmək azadlığından gedir.

Azərbaycanda yaşayan hər bir vətəndaş milliyyətindən, dinindən, dilindən, siyasi əqidəsindən asılı olmayaraq bu demokratik azadlıqlara və hüquqlara malik olmalıdır. Əfsuslar olsun ki, bu sahədə də respublikada ötən yarım ildə heç bir dəyişiklik baş verməmişdir.

Fikrimcə, yeni müstəqil dövlətin quruculuğu prosesinə vətəndaşların hamısı, əhalinin bütün təbəqələri cəlb olunmalıdır. Yeni müstəqil Azərbaycan bütün Azərbaycan xalqınındır. Hamı onun tərəqqisinə çalışmalıdır. Bu işdə heç kəsə məhdudiyyət qoyulmamalıdır.

**Beşinci.** Son zamanlar Azərbaycanın parçalanmasına yönəldilmiş meyllərin təzahürü böyük təhlükə yaradır. Belə meyllərin qarşısı qətiyyətlə alınmalıdır. Yaranan problemlər sivilizasiya və demokratik yollarla həll edilməlidir.

Azərbaycan onilliklərlə, yüzilliklərlə onun ərazisində yaşayan bütün insanların vətəni olmuşdur. Yaranmış vahid, bütöv Azərbaycanın demokratik prinsiplər əsasında qorunub saxlanması və inkişaf etdirilməsi, müstəqil Azərbaycan dövlətinin möhkəmləndirilməsi üçün mühüm vəzifə və əsas şərtdir.

Azərbaycanın bugünkü həyatı və gələcək taleyinə dair digər problemlər də məni narahat edir. Lakin Sizin müraciətinizə cavab verərkən yuxarıda göstərilən məsələlərə daha öncə diqqət yetirməyi lazım bilirəm. Zənnimcə, onların ən qısa müddətdə həlli müstəqil Azərbaycan dövləti üçün son dərəcə vacibdir. Azərbaycanın çağdaş və gələcək taleyi ilə bağlı bu problemlərinə biganə qalmağa heç kəsin haqqı yoxdur.

Güman edirəm ki, müstəqil Azərbaycan dövlətinin gələcək [260-261] həyatının və fəaliyyətinin əsasını təşkil edən demokratiya və siyasi plüralizm şəraitində Sizin müraciətinizdə göstərilən yeni Azərbaycan siyasi partiyasının yaradılması obyektiv zəruriyyətdən doğulur.

Belə partiya Azərbaycanın ictimai-siyasi həyatında fəal iştirak edərək yeni müstəqil Azərbaycan dövlətinin möhkəmləndirilməsində və inkişafında tarixi rol oynaya bilər.

Əgər belə partiya yaradılarsa onun fəaliyyətində fəal iştirak etməyə hazıram.

Dərin hörmətlə

**HEYDƏR ƏLİYEV**

*24 oktyabr 1992-ci il*
*Naxçıvan şəhəri*

## YEKUN NİTQİ

Mən görüşümüzə başlayarkən dedim ki, bu görüş müəyyən dərəcədə xatirə xarakteri daşıyır. Ona görə də təxminən üç il bundan öncə mövcud olmuş vəziyyəti və irəli sürülmüş təşəbbüsləri, dərc edilmiş sənədləri yada salmağa ehtiyac var. Lakin məqsədim, bir daha deyirəm, sizinlə görüşmək, sizə öz təşəkkürümü bildirməkdir. Ona görə yox ki, siz o vaxt bu müraciətə imza atmısınız və buna cavab olaraq mən Azərbaycanın siyasi vəziyyəti barədə öz fikirlərimi bəyan etmişəm, Yeni Azərbaycan Partiyasının yaradılmasına razı olmuşam və bu partiyada fəal iştirak etməyə söz vermişəm. Ona görə ki, Yeni Azərbaycan Partiyasının yaradılması ilə, yaxud mənim yenidən siyasi fəaliyyətə qayıtmağımla deyil, təkcə elə bu addımla siz özünüzün vətəndaşlıq borcunuzu yerinə yetirmisiniz, vətəndaşlıq mövqeyinizi bəyan etmisiniz və bir daha bildirirəm, o ağır, çətin dövrdə, biz hamımız təzyiqlər altında olduğumuz bir zamanda cəsarət, qeyrət, qəhrəmanlıq göstərmisiniz. Mən bunu tam qətiyyətlə deyə bilərəm. Sizin bax, bu vətəndaşlıq mövqeyinizə görə, mənəvi saflığınıza görə, Azərbaycan naminə ümumi işlərimizə sədaqətinizə görə hamınıza təşəkkür edir, cansağlığı arzulayır və bütün işlərinizdə uğurlar diləyirəm.

Azərbaycanda vəziyyət indi də ağırdır və qoy heç kəs elə təsəvvür etməsin ki, bu vəziyyəti çox qısa bir zamanda ciddi səkildə dəyişdirmək mümkündür. Çünki hər hansı bir problem həll edildikdən sonra başqa birisi meydana çıxır. Bu da həll olunursa, yeni bir problem yaranır. Burada bir təbiilik, yəni [261-262] obyektiv səbəblər var. Şübhəsiz ki, respublikamızda vəziyyətin gərgin olmasının başqa səbəbləri də mövcuddur. Təbiilik, obyektiv səbəblər ondan ibarətdir ki, Sovet İttifaqı dağıldıqdan sonra müstəqillik əldə edən respublikaların hər biri keçid dövrü yaşayır. Bu dövrü keçirən respublikaların hamısında ağır proseslər gedir. Həmin proseslər onların bəzilərində daha ağır gedir, digərində nisbətən yüngül keçir.

Dünən mən Moldovanın baş naziri cənab Sangelini qəbul etdim. Mən bir müddət öncə Buxarestdə Qara dəniz hövzəsi ölkələrinin iqtisadi əməkdaşlıq toplantısında iştirak edərkən Moldova prezidenti cənab Snequrla görüşdük. Bu görüşün təşəbbüsçüsü o idi. Biz respublikalarımız arasında əməkdaşlığın genişləndirilməsi barədə ətraflı söhbət etdik. Həmin görüşün nəticəsi olaraq sentyabrın 8-də Moldova nümayəndə heybəti buraya gəlmişdi. Biz onlarla görüşdük, Fuad Quliyev danışıqlar apardı. Onlarla mənim də söhbətim oldu. Nəhayət, yaxşı bir müqavilə imzaladıq, iqtisadi əməkdaşlığı inkişaf etdirmək üçün bəzi tədbirlər müəyyənləşdirdik.

Mən Moldovada vəziyyətlə maraqlandım. Şübhəsiz ki, onlarda müharibə getmir. Doğrudur, onlarda "Pridnestrovye problemi" deyilən problem var. Lakin buna baxmayaraq, onlar müharibə aparmırlar. Pridnestrovye özünü muxtar bir qurum elan edib, amma onlarda sərhəd açıqdır, ziddiyyət yoxdur, Pridnestrovye və Moldova rəhbərləri bir-birinin yanına gedib-gəlir, danışıqlar aparırlar. Bir sözlə, onların da problemləri var. Amma bizimki kimi problemləri yoxdur. Qərb ölkələri onlar üçün tamamilə açıqdır. Şərqdəki ölkələrlə də bütün sərhədlər açıqdır, blokadaları və başqa çox ağrılı problemləri yoxdur.

Bir məsələni qeyd edim. Onlar da keçmişdən üzümçülüklə, şərabçılıqla məşğuldurlar. Bildiyiniz kimi, Moldova vaxtilə Sovet İttifaqında ən çox üzüm istehsal edən respublika idi. Biz üzümçülüyü inkişaf etdirməyə başladıqdan sonra Azərbaycanda üzüm məhsulunun miqdarı onlardakına nisbətən daha artıq oldu. Onlar ildə təxminən 1 milyon 100 min ton – 1 milyon 200 min ton, biz isə 80-81-ci illərdə təqribən 1 milyon 500 min ton – 1 milyon 600 min ton üzüm məhsulu istehsal edirdik. O vaxtlar biz tez-tez görüşür, əlaqə saxlayırdıq. Aramızda yarış var idi.

Mən onlardan soruşdum ki, vəziyyət nə təhərdir ? Onlar elə o dövrdə də ağıllı tərpəniblər. Söylədilər ki, alkoqolizmə qarşı [262-263] mübarizə aparılan dövrdə bizə çox təzyiq etdilər, lakin biz üzüm bağlarının əksər hissəsini saxladıq.

Bəs Azərbaycanda necə oldu ? Bir tərəfdən, Azərbaycanda üzümçülüyün belə geniş inkişaf etdirilməsini Sovet İttifaqı rəhbərliyinin gözü götürmürdü. Ona görə gözləri götürmürdü ki, Azərbaycan iqtisadiyyatı belə yüksək sürətlə inkişaf edirdi. Azərbaycan Sovet İttifaqında ən böyük üzümçülük, şərabçılıq respublikası, bu sahədə inhisarçı olmuşdu. Mən bilirdim ki, bütün bunları onların gözləri götürmür. Onlar təzyiq göstərirdilər ki, burada üzüm bağları məhv edilsin.

Bəs Azərbaycanın o vaxtkı rəhbərləri nə iş gördülər ? Yəqin ki, qəzetlərin nədən yazdığı da, planlar da, yadınızdadır. Bəli, bunu mənə günah kimi yazırdılar ki, Heydər Əliyev Azərbaycanda böyük üzüm bağları yaradıbdır. Hətta ermənilər yazmışdılar ki, Əliyev Azərbaycanı çaxır anbarına çevirib. Bilirsiniz niyə belə yazırdılar ? Çünki Ermənistan çox böyük üzümçülük respublikası olduğu halda, ildə 240 min tondan artıq üzüm istehsal edə bilmirdi. Onlar bizimlə yarışa girmişdilər. Bir dəfə Ermənistan KP MK-ın birinci katibi ilə danışarkən mən dedim ki, sən respublikamızla yox, bizim Cəlilabad rayonu ilə yarışmalısan. Çünki onlar 260 min ton üzüm veriblər.

Bəs axırı nə oldu ? O qədər əziyyətlə, zəhmətlə yaradılmış bağları 85-87-ci illərdə dağıdıb viran qoydular. Nə var ki, bunu bir tərəfdən Moskva istəyirdi, digər tərəfdən isə bu bağları Heydər Əliyev yaratmışdı. Məgər bu bağları Heydər Əliyev özü üçünmü saldırmışdı ?! Halbuki bağ demirəm, bir dənə də olsun öz şəxsi tənəyim yoxdur. Biz bu bağları xalq üçün yaratmışdıq. Amma moldovalılar dedilər ki, üzüm bağlarının əksəriyyətini qoruyub saxlayıblar, indi onların şərabları Avropa bazarına çıxarılır, orada satılır. Tək üzümçülükdə deyil, başqa sahələrdə də belə olmuşdur. Onlar, bir tərəfdən, bağları məhv etməyə qoymamışlar, digər tərəfdən isə onların coğrafi vəziyyəti elədir ki, ölkələrlə əlaqə yaradır, saxlayır, ticarət edirlər. Buna baxmayaraq, çətinlikləri, problemləri çoxdur, yanacaqları çatmır. Gəlib bizimlə yanacaq məsələsini həll etdilər, biz onlara yanacaq satacağıq.

Lakin bizimlə müqayisə etdikdə onların problemləri, əlbəttə, azdır. Onlarda nə müharibə gedir, nə də qaçqınlar, köçkünlər, didərginlər var. Ona görə də respublikamızın vəziyyəti başqa respublikaların vəziyyətindən fərqlidir. Bununla yanaşı, [263-264] hər bir respublikanın özünə görə problemi var. Bunlar obyektiv proseslərdir. Bu proseslər getməlidir. Biz bu keçid dövrünü yaşamalıyıq. Bu dövrü bir respublika tez, digəri gec keçir. Şübhə yoxdur ki, keçid dövrü qurtardıqdan sonra müstəqil dövlətlər iqtisadi cəhətdən normal bir səviyyəyə gəlib çıxacaqlar. Əlbəttə ki, bu səviyyəyə Azərbaycan da nail olacaqdır. Amma Azərbaycanı bu yolda ləngidən səbəblər sizə məlumdur: bir tərəfdən müharibə, Ermənistanın təcavüzü, digər tərəfdən isə daxili vəziyyət.

Biz müharibəni müəyyən qədər dayandırmışıq, on beş aydır ki, atəş açılmır, atəşkəsə nail olmuşuq. Bu, şübhəsiz, böyük nailiyyətdir. Biz danışıqlar aparırıq. Məsələni danışıqlar yolu ilə tamamilə həll etmək istəyirik. Sirus Təbrizli qeyd etdi ki, Rusiya prezidenti cənab Boris Yeltsin dünən çox geniş bir müsahibə vermiş və çox dəyərli də sözlər demişdir. Respublikamıza aid etsək, onun dəyərli sözlərindən biri bundan ibarətdir ki, ərazi bütövlüyü beynəlxalq normalara uyğun olan haldır. Amma bunun Rusiya dövlətinin rəhbəri tərəfindən bir daha qətiyyətlə bildirilməsi və Rusiyanın ərazi bütövlüyünün əsas şərt kimi götürülməsi həm də hər bir müstəqil dövlətin ərazi bütövlüyünün şərti kimi qəbul edilməlidir.

Biz bunu qiymətləndiririk, çünki Rusiya, bir tərəfdən, böyük dövlətdir, digər tərəfdən, qonşumuzdur, üçüncü tərəfdən isə Rusiya Ermənistanla Azərbaycan arasında münaqişənin aradan qaldırılması üçün daim fəaliyyət göstərir, Qarabağ münaqişəsinin həlli üzrə Minsk qrupunun həmsədridir.

Ona görə də bu atəşkəs rejiminin yaranması, danışıqların getməsi əvvəlki dövrə nisbətən, şübhəsiz, bir nailiyyətdir. Bu, eyni zamanda bizə sakitlik yaradıbdır. On beş aydır ki, biz şəhidlər dəfn etmirik, on beş aydır ki, qan tökülmür, on beş aydır ki, insanlar bir az sakit yaşaya bilirlər, iqtisadi problemlərin həlli üçün müəyyən qədər macal tapıblar. Əlbəttə ki, bu, məsələnin heç də həll olunması demək deyildir. Məsələnin həlli Azərbaycanın ərazi bütövlüyünün tamamilə təmin edilməsindən, işğal olunmuş torpaqlardan, o cümlədən də Laçın və Şuşa rayonlarından Ermənistan silahlı qüvvələrinin çıxarılmasından və şübhəsiz ki, aparılan danışıqlar nəticəsində Dağlıq Qarabağa Azərbaycanın tərkibində, Azərbaycanın suverenliyi və ərazi bütövlüyünün qorunması şərti ilə müəyyən status verilməsindən ibarətdir.

Hazırda danışıqlar prosesi gedir. Mətbuatda da yazırlar, [264-265] orada-burada da deyirlər ki, danışıqlar istənilən nəticəni vermir. Söz yox ki, hər şey birdən ola bilməz. Məsələn, Sankt-Peterburqda Rusiya parlamentinin başçısı cənab Şumeykonun təşəbbüsü ilə Gürcüstan, Azərbaycan, Ermənistan və Rusiya parlamentlərinin başçıları görüşüblər. Bizim parlamentin başçısı Rəsul Quliyev orada layihə təqdim etmişdir. Bu yeni bir şey deyildi. Biz dövlətlərin ərazi bütövlüyünü sadəcə olaraq bir daha təsdiq edirik, separatçılığın yolverilməzliyini bir daha deyirik. Təcavüzkarlığın yolverilməzliyini bir daha bəyan edirik. Yəni bunlar yeni bir şey deyildir. Amma Ermənistan buna etiraz etdi. Belə olan halda Ermənistan göstərdi ki, o, istəsə də, istəməsə də təcavüzkardır və ərazi bütövlüyü prinsipini təsdiq etmək istəmir. Deməli, Ermənistan başqa ölkənin, konkret olaraq Azərbaycanın torpağım zəbt etmək istəyir, onun torpağına göz dikibdir. Ermənistan separatçılığı pisləmək istəmir, deməli, Dağlıq Qarabağ ermənilərinin separatçılığını dəstəkləyir.

Düzdür, istədiyimiz bir layihəyə imza ata bilmədik. Lakin elə bunun özü də bir daha nümayiş etdirdi ki, Ermənistan təcavüzkar mövqedədir, Ermənistan separatçılığı müdafiə edir, Ermənistan başqa ölkənin, konkret olaraq Azərbaycanın torpağını ələ keçirmək istəyir. Odur ki, bu proseslər asan proseslər deyildir. Onlar gedir və gedəcəkdir. Əminəm ki, biz var qüvvə ilə səy göstərib bu məsələlərin həllinə nail olacağıq.

Ancaq Azərbaycanın iqtisadi və sosial vəziyyətinin indiyədək istənilən səviyyəyə qaldırılmamasının əsas səbəblərindən biri də respublikamızın daxilində gedən bu proseslərdir. Həmin müraciətdə ziyalılar yazırdılar: "Hakimiyyətdə olan qüvvələr deyirlər ki, ordu da, polis də bizim əlimizdədir, biz hakimiyyəti nə olur-olsun əldən verməyəcəyik". Bəs ordu, polis, bir sözlə, hər şey onların ixtiyarında olduğu halda nə üçün 93-cü ilin may-iyun aylarında Azərbaycanda vətəndaş müharibəsi baş vermişdir ? Bəli, vətəndaş müharibəsi! Bax, sizin o müraciətiniz həyəcan təbili idi. Mən də öz cavabımda yazmışam ki, Azərbaycanı parçalamaq meylləri var. Mən bunu hələ oktyabr ayında göndərdiyim cavabımda yazmışdım. Əlbəttə, o vaxt nə mən, nə də siz bunu havadan götürməmişdik. Siz bu sözləri bir ziyalı kimi yazırdınız. Reallığa söykənərək yazırdınız. Həqiqətdə də belə oldu. 93-cü ilin may-iyun aylarında burada vətəndaş müharibəsi başladı, Azərbaycanı parçalamaq [265-266] niyyəti reallaşdı. Azərbaycan parçalandı, cənub zonası əldən getdi, Gəncə Azərbaycanın dövlət hakimiyyətindən tamamilə çıxdı, burada dövlət dağıldı.

Əgər o vaxtlar sizin çağırışınıza qoşularaq gəlmədimsə, 93-cü ilin iyun ayında vəziyyət artıq belə gərgin olduğu halda mən bir adamın deyil, minlərlə adamın çağırışma səs verərək buraya gəldim. Ancaq ondan sonra belə fikirləşmək olardı ki, gərək hərə özü üçün bir nəticə çıxarsın. Bir il hakimiyyətdə olub, hakimiyyəti əldə saxlaya bilməyən adamlar indi qoy özləri üçün bir nəticə çıxarsınlar. Gəlib, dövləti möhkəmlətmək üçün əl-ələ versinlər, indi bu dövlətə başçılıq edən adamlarla işləsinlər. Amma bunun əvəzində onlar müxalifətə keçdilər və iki ildir ki, dövlətə qarşı müxalifətdə durublar, iki ildir ki, dövlətə qarşı təxribatla məşğuldurlar. Bütün bunlar, yəni həm onların təxribatları, həm respublikadan qaçıb Moskvada yerləşən adamların təxribatları, həm də burada böyük vəzifələr iddiası ilə yaşayan adamların əməlləri gətirib 94-cü ildə oktyabr hadisələrinə çıxartdı. Dövlət çevrilişinə cəhdin qarşısı alındı. Bundan sonra nəticə çıxarılmalı idi, amma çıxarılmadı. Yenə həmin qüvvələr birləşib XTPD-ni ortaya atdılar ki, bunların vasitəsilə dövləti devirsinlər. Bu niyyət də baş tutmadı. Bunlar da dağıldı. Onların bir hissəsi qaçıb yenə də xarici ölkələrdə, əksəriyyəti də Moskvada yerləşdi. Ondan sonra nə etdilər ? Körpünü partlatmaq istədilər, terror hərəkətlərinə əl atdılar. İstədilər ki, körpünü partladıb dövlət başçısını öldürsünlər. O da baş tutmadı. Lakin sonralar aydınlaşdırdıq ki, burada keçmişdə və indi xidmətdə olan bir qrup hərbi qulluqçu – generallar, zabitlər hələ may ayından başlayaraq yığışıb, respublikadan qaçmış və Moskvada olan cinayətkarların və bəzi xarici ölkələrdə gizlənmiş cinayətkarların göstərişi ilə yenə də hərbi çevriliş etmək istəyirdilər. Biz onları da üzə çıxartdıq.

Gördüyünüz kimi, qısa bir müddətdə nə qədər ağır proseslər getmişdir. Keçmiş Sovet İttifaqının respublikaları arasında ikinci bir respublika tapmaq çətindir ki, orada bu cür ağır proseslər getsin. Şübhə yoxdur ki, bütün bunlar qarşımızda duran planların həyata keçirilməsinə maneçilik törədir. Ancaq eyni zamanda müsbət nəticə ondan ibarətdir ki, bütün bunlara baxmayaraq, respublikanın daxilində ictimai-siyasi sabitlik yaranmışdır, respublika bütün dünya ölkələri ilə əlaqələr qurmuş və bu əlaqələri inkişaf etdirir, bütün beynəlxalq təşkilatlarda fəal [266-267] iştirak edir. Biz böyük neft müqaviləsi imzaladıq. Bu müqavilə imzalandıqdan sonra bizə çox təzyiqlər oldu, nə qədər təxribat halları oldu. Lakin biz bunun qarşısını aldıq. Bizə təzyiq göstərmək istəyən

dövlətlər bizimlə hesablaşmalıdırlar və hesablaşır da. Biz başqa işləri də görürük, dövləti də möhkəmləndiririk. Yenə də deyirəm, ən böyük nailiyyət ondan ibarətdir ki, insanlar heç olmasa sakit yaşaya bilirlər. Problemlər həll edilməyib, lakin həll olunmalıdır, iqtisadiyyat sahəsində də, aqrar sahədə də islahatlar getməlidir. Özəlləşdirmə həyata keçirilməlidir. Əlbəttə, bunların hamısı olmalıdır. Amma bunlar üçün şərait yaradılmalıdır. Deyə bilərəm ki, indi biz bu şəraiti yaratmışıq. Odur ki, yaranmış şəraitdən istifadə edərək, gecikmədən bu tədbirlərin həyata keçirilməsinə nail olmalıyıq.

Biz belə hesab edirik və dünya ictimaiyyəti də bu fikirdədir ki, bu baxımdan parlament seçkiləri çox böyük əhəmiyyətə malikdir. 90-cı ildə seçilmiş parlament işləsə də, onun fəaliyyətində çox ciddi dəyişikliklər edilibdir. Bu günədək məhz həmin parlament fəaliyyət göstərir. Noyabrın 12-də parlament seçkiləri keçiriləcək. Biz qanun qəbul etmişik. Zənnimcə bu, çox demokratik qanundur. Hər halda bu qanunun demokratik olmaması haqqında biz heç bir mötəbər mənbədən, demokratiyanı doğrudan da dərk edən mənbədən heç bir irad almamışıq. Buna çox diqqət yetirirlər. Məsələn, Amerikanın Demokratiya İnstitutu var. Onun başçısı cənab Ledski bir neçə ay öncə buraya gəlmişdi. Mən onu qəbul etdim. Biz ətraflı söhbət etdik. Onlar burada artıq öz ofisini açıblar və fəaliyyətə başlayıblar. Onlar bu qanuna baxıblar. Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının da nümayəndələri yaxın günlərdə Bakıya gələcək və seçkilərədək burada olacaqlar. Onlar da bizim qanuna baxıblar. Demokratiya sahəsində yüksək səviyyədə inkişaf etmiş olan Qərb ölkələrinin nümayəndələri də bizim qanuna baxıblar. Bu qanuna qarşı heç bir irad yoxdur. Deməli, o, tam demokratik bir qanundur.

Biz birinci addımı atmışıq, yəni seçkilərin vaxtını təyin etmişik. İkinci addımı da atmışıq: demokratik prinsiplərə xidmət edən qanun qəbul etmişik. Bu qanun Azərbaycanda hüquqi demokratik dövlət qurulması sahəsində çox böyük bir addımdır. Biz müstəqil Azərbaycanın demokratik konstitusiyasını hazırlayırıq. Konstitusiya komissiyasında müzakirədən sonra yaxın vaxtlarda onu da mətbuata, ictimaiyyətin müzakirəsinə [267-268] verəcəyik. Şübhəsiz ki, indi əsas məsələ qarşıdakı seçkilərin tam demokratik şəraitdə keçirilməsidir. Biz buna da çox ciddi fikir veririk.

Partiyalarla bağlı gedən proseslər də sizə məlumdur. Əvvəllər deyirdilər ki, 43, yaxud 44 partiya var, amma qeydiyyatdan, deyəsən, 33 partiya keçib. Bəli, 33 partiya. Bəziləri qeydiyyatdan keçə bilməyiblər. Bunun səbəblərini mətbuat işıqlandırır. Bu məsələyə Ədliyyə Nazirliyi, sonra Ali Məhkəmə baxır. Biz bu işlərə qarışmırıq. Məsələn, Xalq Cəbhəsi çox narahat idi, indi o da qeydiyyatdan keçib. Amma qəzetlərində yazırlar, yenə də ədalətsiz yazırlar. Bu gün səhər elə mən özüm də oxudum. Ədliyyə Nazirliyinin bizə verdiyi məlumatda göstərilir ki, onların yenidən təqdim etdikləri sənədlərdə qanun nöqteyi-nəzərindən həddindən çox qüsurlar var. Ədliyyə Nazirliyi bu qüsurlara görə onları gərək qeydiyyatdan keçirməyəydi. Ancaq Ədliyyə Nazirliyi də yəqin ölçüb-biçir, ümumi ictimai-siyasi vəziyyəti nəzərə alaraq onları qeydiyyatdan keçiribdir. Buna sağ ol deməkdənsə, onlara güzəştə gedilməsinə görə minnətdar olmaqdansa, yenə də hoqqabazlıqla məşğuldurlar. Lakin bu hoqqabazlıq bir nəticə verəsi deyildir. Çünki artıq biz bunları görmüşük və görürük.

Azərbaycanda demokratiyam inkişaf etdirmək istəyən qüvvələr bax, burada əyləşən qüvvələrdir. Bəli, demokratiyanın tərəfdarları bizik! Əgər mən 90-cı ildə kommunist rejimi vaxtında Naxçıvanda böyük təqiblər altında olduğum zamanda "demokratiya" deyərək qışqırırdımsa və mənə qarşı nə qədər hörmətsizlik, nə qədər təhqirlər olacağını əvvəlcədən bilsəm də, gəlib parlamentin ilk sessiyasında demokratiya, Azərbaycanın müstəqilliyi haqqında car çəkirdimsə, indi mən Azərbaycanın prezidenti olduğum halda bunları – öz arzularımı, öz istəklərimi, şübhəsiz, yerinə yetirirəm və yerinə yetirəcəyəm də!

Ona görə də, mən dəfələrlə demişəm, müxalifətdə olan qüvvələr qoy hesab etməsinlər ki, demokratiyanın daşıyıcıları onlardır. Yox, demokratiyanın daşıyıcıları Azərbaycanın ağıllı, zəkalı insanlarıdır, ziyalılarıdır. Azərbaycanda həqiqi demokratiya, qanun çərçivəsində olan demokratiya yolunda fədakarcasına çalışan insanlarıdır. Azərbaycan xalqının mənəviyyatıdır. Daha ayrı-ayrı adamlar deyildirlər – onların bəziləri demokratiyanın həqiqətən nə demək olduğunu bəlkə də bilmirlər. Sadəcə olaraq vaxtilə bu şüardan istifadə edərək [268-269] müəyyən mövqe tutduqlarına görə o köhnə bayatını yenidən oxumağa çalışırlar.

İndi o tarixi hadisələri yada salarkən mən bu sözləri deməyi lazım bildim. Ümidvar olduğumu bildirmək istəyirəm ki, o illərdə olduğu kimi, yenə də biz hamımız birlikdə, bundan sonra da Azərbaycanın müstəqilliyinin möhkəmlənməsi və inkişaf etməsi üçün çalışacağıq, Azərbaycanda dövlət quruculuğunun müvəffəqiyyətlə həyata keçirilməsi üçün birlikdə səy göstərəcəyik. Azərbaycanda müstəqil demokratik hüquqi dövlət yaradıb hüquqi demokratik cəmiyyətin bərqərar edilməsinə nail olacağıq. Mən buna tam əminəm.

Sizə bir daha təşəkkürümü, minnətdarlığımı bildirirəm, hamınıza cansağlığı, xoşbəxtlik arzulayıram. [269-270]

## BAKIDA İKİNCİ PROTEZ-ORTOPEDİK MƏRKƏZİN AÇILIŞI MƏRASİMİNDƏ ÇIXIŞ

*18 sentyabr 1995-ci il*

Beynəlxalq Qırmızı Xaç Komitəsinin ümumiyyətlə dünyada, o cümlədən Azərbaycanda fəaliyyəti çox yüksək qiymətə layiqdir. Mən Beynəlxalq Qırmızı Xaç Komitəsinin Azərbaycanda gördüyü işlərlə bağlı tədbirlərdə, görüşlərdə əvvəllər də iştirak etmişəm. Azərbaycanın Ermənistan tərəfindən təcavüzə məruz qaldığı, respublikamızın böyük itkilər verdiyi bir zamanda və müharibə nəticəsində ölkəmizdə insanların həlak olduqları, şikəst, əlil olduqları bir zamanda BQXK-nin fəaliyyəti bizim üçün daha da əhəmiyyətlidir.

BQXK yarandığı dövrdən indiyədək insanlar arasında sülh, əmin-amanlıq yaratmağa, müharibə alovlarını söndürməyə çalışmışdır. Müharibələr, hərbi münaqişələr, silahlı toqquşmalar baş verdiyi zaman BQXK nümayəndələri öz həyatlarım belə təhlükə altına alaraq insanlara yardım etməyə səy göstərmişlər.

Mən keçən il respublikamızda BQXK-nin tarixinə həsr olunmuş bir sərgidə iştirak etdim. Bu sərgi BQXK-nin yarandığı dövrdən indiyədək nə qədər böyük işlər gördüyünü nümayiş etdirdi. Məhz buna görə də BQXK dünyada, beynəlxalq təşkilatlar arasında özünəməxsus çox hörmətli yer tutur. Mən bir daha qeyd edirəm ki, Azərbaycanın bu ağır dövründə BQXK-nin nümayəndəliyinin respublikamıza gəlməsi və geniş fəaliyyət göstərməsi çox əhəmiyyətlidir və ölkəmizin bu ağır vəziyyətdən çıxmasına yardım edir.

BQXK-nin Azərbaycanın Qızıl Aypara Cəmiyyəti ilə əməkdaşlığı da çox böyük əhəmiyyət kəsb edir. Onun Türkiyənin "Qızıl Ay", İranın "Hilal Əhmər" cəmiyyətləri ilə əməkdaşlığı da mühümdür. BQXK-nin respublikamızda açdığı Protez-Ortopedik Mərkəz bu təşkilatın fəaliyyətində yeni bir addımdır. Bu münasibətlə mən sizə təşəkkürümü bildirirəm. Azərbaycanda apardığınız fəaliyyətin tərkib hissəsi kimi bunu yüksək qiymətləndirirəm, sizi təbrik edirəm. Bütün Azərbaycan ictimaiyyətini təbrik edirəm. Əmin olduğumu bildirmək istəyirəm [270-271] ki, indi burada fəaliyyətə başlayan Protez-Ortopedik Mərkəz Azərbaycanda Ermənistanın təcavüzü nəticəsində əlil, şikəst olmuş adamların sağalması, əmək fəaliyyətinə qayıtması üçün çox faydalı olacaqdır.

Bu çox xeyirxah işdir və bunu insanlar heç vaxt unutmayacaqlar. Nəinki burada müalicə olunub əmək fəaliyyətinə qayıdanlar, öz səhhətini normallaşdıranlar, hətta onların nəvələri, nəticələri də bunu yaddan çıxarmayacaqlar. Azərbaycan xalqı bunu heç vaxt unutmayacaqdır. Sizə bir daha təşəkkür edirəm. Bu münasibətlə hamınızı təbrik edirəm və bu mərasimdə böyük məmnuniyyətlə iştirak edirəm.

* * *

Mən bildirmək istəyirəm ki, sizin burada yaratdığınız Protez-Ortopedik Mərkəzlə tanışlıqdan yaxşı təəssüratlar əldə etdim. Çox layiqli, səliqəli və xüsusən əlillərə, şikəstlərə yaxşı yardım göstərmək imkanına malik olan bir mərkəz yaratmısınız. Mən lövhəni açarkən və qapıdan içəri girərkən də bunu belə təsəvvür edirdim, ancaq gördüklərim təsəvvür etdiklərimdən də üstün oldu.

Bu xeyirxah işinizə, respublikamıza etdiyiniz bu humanitar yardıma görə sizə bir daha təşəkkür edirəm. Mən sizin planlarınız barədə burada söylədiyiniz fikirləri də bəyənirəm. İstərdim ki, siz bu mərkəzin ikinci-üçüncü mərtəbələrini də lazımi səviyyəyə çatdırıb bu məqsədlər üçün istifadə edəsiniz. Həmin mərtəbələrdən özünüzün, yaxud Qızıl Aypara cəmiyyətinin istifadə etməsini fərqi yoxdur, çünki buradan Azərbaycanın mənafeyi üçün istifadə olunacaqdır. Mən sizin bu təkliflərinizi dəstəkləyirəm.

Siz Azərbaycanda gördüyünüz işlər haqqında indi qısa məlumat verdiniz. Bu məni çox məmnun edir. Ümumiyyətlə, mənim bu barədə məlumatım var, ancaq sizin özünüzün bilavasitə verdiyiniz məlumatlar mənim üçün çox maraqlı və əhəmiyyətlidir. Azərbaycan ona edilən təcavüz nəticəsində indi elə bir ağır vəziyyətə düşüb ki, onun daim cürbəcür formalarda və cürbəcür istiqamətlərdə humanitar yardımlara böyük ehtiyacı var. Hərbi təcavüz nəticəsində Azərbaycana vurulan yaraların sağalması hələ bir çox illər çəkəcəkdir. Biz humanitar yardımları nə qədər çox əldə etsək, o yaralar da o qədər tez sağala bilər. Ona görə də sizin təşkilatın bu istiqamətdə etdiyi yardımlar bizim üçün olduqca gərəkli, olduqca [271-272] əhəmiyyətlidir. Mən sizdən rica edirəm ki, bunu davam etdirəsiniz və genişləndirəsiniz. Hansı sahədə, hansı humanitar yardım edə bilərsinizsə, buna nəinki etiraz ola bilməz, hətta biz bunu əvvəlcədən dəstəkləyirik.

Burada xarici ölkələrin səfirləri və başqa beynəlxalq təşkilatların nümayəndələri də var. Fürsətdən istifadə edərək onu da qeyd etmək istəyirəm ki, Azərbaycana edilən humanitar yardımların bir nöqtədə mərkəzləşdirilməsi lazımdır. Bu mərkəzləşdirmə indiyədək lazımi səviyyədə təşkil olunmadığına görə humanitar yardımların bəzən haradan, nə cür edilməsindən az məlumat alırıq. Bu barədə bizim prinsipimiz ondan ibarətdir ki, hansı sahədə, hansı təşkilat, hansı ölkə humanitar yardım göstərə bilərsə, göstərsin. Yəni buna nə məhdudiyyət qoyulub, nə də biz bunun hamısını bir yerə yığmağa çalışmayacağıq. Ancaq sadəcə olaraq bu yardımlar sahəsində aparılan işlər müəyyən dərəcədə əlaqələndirilməli, müəyyən mərkəzdə məlumatlar

toplanmalıdır. Həmin yardımların hansı sahəyə daha əlverişli, yaxud gərəkli olduğu bu mərkəzdən müəyyən ediləndə yardımlar daha səmərəli olacaqdır. Bu işlərin daha da səmərələşdirilməsi, mərkəzləşdirilməsi məsələlərini baş nazirin müavini İzzət Rüstəmova həvalə etmişəm. Mən ona əmr vermişəm ki, humanitar yardım göstərən təşkilatların hamısı ilə əlaqələri genişləndirsin, əgər ehtiyac varsa mərkəzləşdirilmiş yeni bir struktur da yaratsın və bu məsələlərin əlaqələndirilməsi işləri ilə daha yaxından məşğul olsun. Onda ümumiyyətlə Azərbaycana göstərilən humanitar yardımların həcmi, onların əhəmiyyəti, hansı ölkədən, hansı beynəlxalq təşkilatdan nə qədər gəlməsi barədə Azərbaycan hökumətində, dövlətində, şəxsən məndə hərtərəfli məlumat olacaq, bu yardımların bir-birinə nisbəti daha da aydınlaşacaq. Belə bir təşkilati iş humanitar yardım göstərən bütün təşkilatlar üçün də əhəmiyyətlidir. Çünki onların da hər biri biləcək ki, nə qədər yardım göstərilib və bu, dövlət, hökumət tərəfindən bilinir, qəbul olunur və qiymətləndirilir. İzzət Rüstəmov bu işlərlə daha ciddi məşğul olmalıdır və siz də onunla sıx əlaqədə işləməlisiniz.

Siz təşkilatınızın Azərbaycanda gördüyü bəzi işlər haqqında da məlumat verdiniz. Bu baxımdan sizin təşkilatın müharibə, hərbi münaqişə ilə əlaqədar Azərbaycanın itkin düşmüş vətəndaşlarının axtarılması və tapılması, əsirlikdə olan vətəndaşlarımızın tapılması və geri qaytarılması sahəsində gördüyü [272-273] işləri mən yüksək qiymətləndirirəm. Məhz sizin fəaliyyətiniz nəticəsində, Ermənistanda əsirlikdə olan bəzi vətəndaşlarımızı geri qaytarmağa nail olmuşuq. Ancaq siz bilirsiniz ki, Ermənistanda əsirlikdə olan Azərbaycan vətəndaşları hələ çoxdur.

Biz Cenevrə konvensiyasını imzalamışıq, ona riayət edirik və istəyirik ki, bütün dövlətlər ona riayət etsinlər. Ona görə də Ermənistanda əsirlikdə olan Azərbaycan vətəndaşlarının qaytarılması sahəsində sizin gördüyünüz işlərə görə təşəkkür edərək, eyni zamanda bu sahəyə hələ çox böyük ümidlər bəslədiyimizi bildirmək istəyirəm. Biz dəfələrlə demişik ki, hər ölkə əsirlərin hamısını qaytarmalıdır. Biz buna hazır idik və bunu da etdik. Siz bilirsiniz və bütün dünya ictimaiyyəti də bilir ki, Azərbaycanda ermənistanlı əsirlər yoxdur. Tək-tək, orada-burada təsadüf nəticəsində əsir düşmüş adamları da ya danışıqlar vasitəsilə qaytarırıq, yaxud da sizin vasitənizlə qaytarmağa hazırıq. Amma Ermənistanda əsirlikdə olan Azərbaycan vətəndaşları çoxdur və bunların siyahıları, hətta hansı əsirin harada olması, ünvanı da bizə məlumdur. Biz bunu sizə də vermişik, Ermənistan tərəfinə də vermişik, dünyanın bütün beynəlxalq təşkilatlarına da təqdim etmişik. Ermənistan tərəfinin bu sahədə ədalətsiz, beynəlxalq normalara zidd olan hərəkətləri dözülməzdir. Hərdənbir beş-altı əsir qaytararaq dünyaya car çəkirlər ki, guya əsirləri qaytardılar. Ancaq əslində yüzlərlə, minlərlə Azərbaycan vətəndaşı orada əsirlikdədir. Onların arasında qadınlar da, uşaqlar da, qocalar da var. Bu, həqiqətdir. Ona görə də biz tələb edirik və bundan sonra da tələb edəcəyik ki, beynəlxalq təşkilatlar bu ədalətsizliyə öz münasibətini bildirsinlər və nəhayət Ermənistanı məcbur etsinlər ki, bu əsirləri geri qaytarsın.

Bilirsiniz ki, ikitərəfli saziş əsasında atəşi dayandırmışıq və on beş aydır atəşkəs rejimi şəraitində yaşayırıq, yəni atəşin yenidən başlanmasına imkan vermirik. Belə bir şəraitdə əsirlərin geri, öz vətənlərinə qaytarılması əsas şərtlərdən biridir. Mən arzu edərdim ki, siz bu işlərlə daha ciddi məşğul olasınız. Biz indiyə qədər olduğu kimi, sizin təşkilata yenə də böyük ümidlər bəsləyərik.

Siz arzu etdiniz ki, elə olsun, daha bundan sonra insanlar şikəst, əlil olmasınlar. Yəni müharibə olmasın, münaqişə olmasın və insanlar da həlak olmasınlar, şikəst olmasınlar, [273-274] qan tökülməsin. Biz də bu arzularla yaşayırıq və buna daim sadiq olacağıq. Ancaq mən indi o otaqda bir qadınla görüşdüm – burada xidmətçi işləyir. O, qulağıma astaca bir neçə söz dedi. Sadəcə xidmətçi işləyən bu qadın – bilmirəm haradandır, bəlkə də o da qaçqındır, yaxud qaçqın deyil, hər halda Azərbaycan vətəndaşıdır – mənə dedi ki, bir arzum var: torpaqlarımız geri qaytarılsın. Bu onu göstərir ki, tək mənim yox, yalnız dövlət adamlarının yox, sadə adamların, adi bir xidmətçi qadının da – ola bilsin, onun həyatında cürbəcür çətinliklər var, yaşayışı da çətindir – bir arzusu var, torpaqlarımız işğaldan azad olunsun. Bu arzu hər bir Azərbaycan vətəndaşının, bütün Azərbaycan xalqının .arzusudur. Bizim ümumi arzumuz, istəyimiz və tələbimizdir. İşğal olunmuş torpaqlarımız azad edilməlidir. Azərbaycanın ərazi bütövlüyü təmin edilməlidir. Bir daha müharibə olmamalıdır, sülh olmalıdır, insanlar da həlak olmamalı, əlil, şikəst olmamalıdırlar.

Əminəm ki, vaxt gələcək, bu mərkəz müharibə nəticəsində deyil, yalnız və yalnız təbii fəlakətlər nəticəsində xəsarət almış, yaxud şikəst olmuş adamlara xidmət edəcəkdir. Amma eyni zamanda, işğal edilmiş torpaqlarımızın azad olunması, Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi Azərbaycan xalqının əsas məqsədidir və bu məqsəd yolunda da Azərbaycan xalqı sona qədər mübarizə aparacaq, çalışacaq, tədbirlər görəcək, vuruşacaqdır.

Siz burada gözəl süfrə açmısınız, qeyd etdiniz ki, Azərbaycanın ənənəsinə uyğun olan bir süfrədir. Bu, həqiqətdir. Ancaq mən arzu edirəm ki, hər bir Azərbaycan vətəndaşının öz ailəsində, evində belə süfrə açmağa imkanı olsun. Mərkəziniz mübarək olsun, bir daha təbrik edirəm. Süfrənizdən də qoy mərkəzin işçiləri və buraya gəlib müalicə olunan adamlar istifadə etsinlər. Sağ olun! [274-275]

## DAHİ AZƏRBAYCAN BƏSTƏKARI ÜZEYİR HACIBƏYOVUN ANADAN OLMASININ 110 İLLİYİNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ YUBİLEY GECƏSİNDƏ NİTQ

*Respublika sarayı*

*18 sentyabr 1995-ci il*

Hörmətli xanımlar, cənablar!
Əziz bacılar və qardaşlar!

Böyük bayram münasibətilə, Azərbaycan xalqının milli bayramı, mədəniyyət, musiqi bayramı münasibətilə, Üzeyir Hacıbəyovun anadan olmasının 110 illik yubileyi münasibətilə sizi ürəkdən təbrik edirəm.

Üzeyir Hacıbəyov fövqəladə fitri istedadı, böyük fədakarlığı, mükəmməl təhsili, elmi, vətənpərvərliyi, ictimai-siyasi fəaliyyəti ilə xalqımızın böyük şəxsiyyətlərindən biri olmuş, dünya korifeylərinin ön sırasında duran, Azərbaycanı təmsil edən görkəmli şəxsiyyət olmuşdur.

Azərbaycanın gözəl guşələrindən biri olan Ağcabədidə dünyaya gəlmiş, Şuşada ilk təhsilini almış, müqəddəs Şuşanın ab-havasının təsirini, Natəvan dünyasının, musiqişünas Mir Möhsün Nəvvab sənətinin, fikrinin təsirini duymuş, sonra Qori seminariyasında yüksək təhsil almış və nəhayət, Sankt-Peterburqda konservatoriyanı bitirmiş Üzeyir Hacıbəyov beləliklə böyük, parlaq yaradıcılıq yoluna başlamış və bu yaradıcılıq yolunu şərəflə keçmiş, Azərbaycan xalqının tarixində görkəmli bir yer tutmuşdur.

Üzeyir Hacıbəyov uşaqlıqda, gənc vaxtlarından məhz fitri istedadına görə çox şeyləri öyrənməyə çalışmış və öyrənmişdir. Azərbaycanın tarixini öyrənə bilmiş, mədəniyyət tarixini və xalqımızın musiqisini öyrənmiş, musiqiyə böyük həvəs göstərmişdir. Bütün bunların hamısını özündə cəmləyərək, Azərbaycan xalqının zəngin musiqi xəzinəsindən bəhrələnərək 22 yaşında "Leyli və Məcnun" operasını yazıb dünyaya təqdim etmiş və bununla da böyük bəstəkar kimi özünü tanıtmış, fəaliyyətə başlamışdır.

Azərbaycanda opera sənətinin tarixi "Leyli və Məcnun" [275-276] operası ilə başlayır. Azərbaycan xalqının böyük və zəngin teatr tarixi var. Onun banisi Mirzə Fətəli Axundov olmuşdur. Azərbaycan opera sənətinin, opera teatrının banisi isə Üzeyir Hacıbəyovdur. Onun yaradıcılığı sayəsində, əsasında və onun tükənməz fəaliyyəti nəticəsində Azərbaycanda böyük opera sənəti, opera və balet teatrı inkişaf etmiş və bu gün bizim dünya şöhrətli opera sənətimiz var, opera və balet teatrımız var.

Sonra Üzeyir Hacıbəyov ardıcıl olaraq gözəl, dəyərli musiqi əsərlərini yazmış və xüsusən "Arşın mal alan", "O olmasın, bu olsun" kimi böyük əsərləri, – operettaları ilə məşhurlaşmış, bütün sonrakı fəaliyyətini Azərbaycan musiqisinin, mədəniyyətinin inkişafına həsr etmişdir. Üzeyir Hacıbəyov böyük addımını "Leyli və Məcnun" operası ilə başlamışdır. Böyük Məhəmməd Füzulinin poeması əsasında, onun əsərlərindən istifadə edərək, xalqımızın muğam musiqisindən, folklorundan, xalq musiqisindən, mahnılarından istifadə edərək Azərbaycanın əsrlərdən-əsrlərə keçmiş zəngin musiqisini ilk dəfə nota köçürmüş, onun böyük simfonik orkestrlə ifasını təmin etmiş, özü ona rəhbərlik, dirijorluq etmişdir.

Azərbaycan tarixi mədəniyyət, elm, ədəbiyyat, memarlıq sahəsində çox zəngindir. Bizim çoxəsrlik ədəbiyyatımız var – Nizami, Xaqani, Füzuli, Nəsimi, Vaqif və bunlardan sonra gələn dahilər. Bizim qədim memarlıq abidələrimiz var. Bizim qədim rəssamlıq sənəti nümunələrimiz var. Azərbaycan xalqı dünya sivilizasiyası xəzinəsinə böyük töhfələr vermişdir.

Bunların içərisində ən görkəmli yer tutan, dünyada məşhurlaşmış, dünyanın hər yerinə yayılmış musiqi əsərlərini yaradan və Azərbaycanın çoxəsrlik musiqisini sistemləşdirən, formalaşdıran və dünyaya təqdim edən Üzeyir Hacıbəyov olmuşdur. Üzeyir Hacıbəyov ömrünün son gününə qədər həyatını Azərbaycan mədəniyyətinin, musiqisinin inkişafına, insanların təhsillənməsinə, maariflənməsinə həsr etmişdir. O həm yazıçı, publisist, həm də alim, maarifçi, filosof, ictimai-siyasi xadim olmuş, dövlət işlərində fəal iştirak etmişdir.

1918-ci ildə Azərbaycanda ilk demokratik respublika yaranan zaman və yaranandan sonra Üzeyir Hacıbəyov o vaxt gedən ictimai-siyasi proseslərin fəal iştirakçısı olmuşdur. O, görkəmli bir şəxsiyyət kimi həmin proseslərin düzgün istiqamətdə getməsinə təsir etmiş və o ağır dövrdə, çətin dövrdə xalqımızın milli mənliyinin yüksəlməsi üçün çox səylər göstərmişdir. [276-277]

Azərbaycanın ilk demokratik respublikasının yaşaması, inkişaf etməsi üçün çalışmış, fəaliyyət göstərmişdir. Azərbaycanın ərazi bütövlüyünün təmin olunması üçün cəhdlər göstərmişdir. Parisə – Versal konfransına gedən Azərbaycan nümayəndəsinə onun verdiyi tövsiyələr, məsləhətlər və göstərişlər – Üzeyir Hacıbəyovun kiçik qardaşı Ceyhun Hacıbəyov da nümayəndə heyətinin tərkibində idi – bunlara canlı sübutdur. Üzeyir Hacıbəyov ilk müstəqil Azərbaycan dövlətinin "Azərbaycan" qəzetinin redaktoru olmuş və bu qəzetin fəaliyyətində həm öz məqalələri ilə, həm də rəhbərliyi ilə çox böyük xidmətlər göstərmişdir.

Sonrakı dövrdə də Üzeyir Hacıbəyov Azərbaycan ictimai həyatının daim mərkəzində olmuşdur. Xalqı savadsızlıqdan xilas etmək, xalqın mədəni səviyyəsini qaldırmaq, mədəniyyəti inkişaf etdirmək üçün o, çox görkəmli addımlar atmış, böyük tədbirlər görmüşdür. Azərbaycanda musiqi məktəbinin, ali musiqi təhsilinin yaranması, incəsənətin geniş inkişaf etməsi fəaliyyəti ilə bağlıdır.

Azərbaycanda Üzeyir Hacıbəyov məktəbinin təsiri altında bəstəkarlar ordusu yaranmışdır. Deyə bilərəm ki, Üzeyir Hacıbəyov Azərbaycanın tarixində ilk bəstəkardır. Azərbaycanın ondan sonrakı bəstəkarlarının hamısı bilavasitə onun tələbəsi olmuş, sonrakı nəsillər onun əsərlərinin, yaradıcılığının təsiri altında təhsil almış, böyümüş, bəstəkarlıq sənətini qavramış və yeni-yeni musiqi əsərləri yaratmışlar.

Üzeyir Hacıbəyovun əsərlərində təkcə musiqi yox, onun ictimai-siyasi və mənəvi məzmunu da böyük əhəmiyyət kəsb edir. Bəstəkarın əsərlərinin hamısında insan azadlığı, insanın paklığı, səmimiyyəti, insanların bir-birinə münasibəti tərənnüm edilibdir. Bu, "Leyli və Məcnun"da da belədir. "Arşın mal alan"da da belədir. "Məşədi İbad"da da belədir və nəhayət, Üzeyir Hacıbəyovun şah əsəri olan "Koroğlu"da da və başqa əsərlərində də belədir. Üzeyir Hacıbəyovun yaradıcılığının ən əsas xüsusiyyətlərindən biri ondan ibarətdir ki, o, tək musiqi yox, əsərlərinin bütün mövzusunu kəşf edib, yaradıbdır. Onların mənasını, məzmununu düşünüb və seçdiyi mövzular, bu mövzular əsasında yaratdığı musiqi, dramaturgiya əsərləri heç də təsadüfi xarakter daşımır. "Leyli və Məcnun" operası da təsadüfi olaraq yaradılmayıb. "Leyli və Məcnun" əfsanəsi əsasında dahi şairimiz Məhəmməd Füzulinin yazdığı [277-278] poemadakı humanist, insanpərvər duyğular, azadlıq fikirləri, insanın insana pak, saf məhəbbəti Üzeyir Hacıbəyovu o qədər cəlb etmişdir, o qədər maraqlandırmışdır ki, məhz bunlara görə o, ilk əsəri üçün Məhəmməd Füzulinin yaradıcılığına müraciət edib, o mövzunu seçib və bunun əsasında ölməz bir əsər yaradıbdır. 87 ildir ki, bu əsər Azərbaycan səhnəsində göstərilir və biz əminik ki, əsrlər boyu yaşayacaqdır.

Üzeyir Hacıbəyov "Arşın mal alan", "O olmasın bu olsun" operettalarında tək gözəl musiqi ilə insanlara zövq vermək, yaratdığı əsərlərin personajları ilə onları güldürmək, şənləndirmək məqsədi yox, başqa məqsədlər daşıyırdı. Onun məqsədi xalqımızın həyatında olan mənfi cəhətləri – ətaləti, nadanlığı, xalqımızı geriyə salan ayrı-ayrı adətləri insanlar üçün ən təsirli vasitə – musiqi vasitəsilə tənqid, ifşa etməkdən, xalqın gözünü açmaqdan, onu irəliyə aparmaqdan, xalqın mədəniyyətini, mənəviyyatını qaldırmaqdan ibarət idi. Şübhəsiz ki, bu, musiqi əsəri vasitəsilə hər bir insana daha tez çatır.

Yeri gəlmişkən, mən öz fikrimi demək istəyirəm. Hər bir bədii əsər insanlara təsir göstərir, şübhəsiz ki, müsbət təsir göstərir – onların xarakterlərinin formalaşmasına, inkişaf etməsinə, mədəni səviyyəsinin artmasına böyük təsir göstərir. Amma musiqi əsəri vasitəsilə göstərilən təsir bütün o biri əsərlərin təsirindən yüksəkdir. Əgər nəzərə alsaq ki, əsrimizin əvvəlində xalqımızın əksəriyyəti savadsız idi, kitab oxuya bilmirdi və kitablar da çox az idi, kino, televiziya və başqa vasitələr yox idi, təsəvvür edin, Üzeyir Hacıbəyov öz operası vasitəsilə Məhəmməd Füzulinin sözlərini, "Arşın mal alan", "O olmasın, bu olsun" və başqa operettaları – musiqi vasitəsilə istədiyi fikirləri insanlara çatdırmaqla xalqımızın mənəvi və mədəni inkişafında nə qədər böyük xidmətlər göstəribdir.

Dediyim kimi, Üzeyir Hacıbəyov bütün əsərlərində insan azadlığını, xalqların azadlığını tərənnüm edib, istibdada, zülmə, hökmranlığa qarşı üsyan edibdir. Xalqımızın böyük dastanı olan "Koroğlu" dastanının Üzeyir Hacıbəyov tərəfindən istifadə olunması Azərbaycan tarixində, mədəniyyətində, bədii həyatında çox böyük və əvəzsiz bir hadisədir.

"Koroğlu" dastanı əsrlər boyu nəsillərdən-nəsillərə keçib, bizim günlərimizə gəlib çatıbdır. "Koroğlu" dastanı insanları həmişə qəhrəmanlığa, cəsurluğa dəvət edibdir. Bu dastan insanlarda qəhrəmanlıq, cəsurluq, vətənpərvərlik əhval-ruhiyyəsi yaradıbdır. "Koroğlu" dastanı insanları həmişə azadlığa, [278-279] azadlıq yolunda mübarizəyə, zülmə qarşı mübarizəyə çağırıbdır. "Koroğlu" dastanı ona görə sevilibdir ki, xalqın həyatı, gələcəyi üçün ən əhəmiyyətli fikirlər o dastanda cəm olubdur. "Koroğlu" dastanını nəinki xalqımıza, bütün dünya ictimaiyyətinə daha da təsirli şəkildə çatdırmaq, tanıtdırmaq üçün Üzeyir Hacıbəyovun "Koroğlu" operasını yaratması, yenə də deyirəm, mədəniyyətimizdə böyük inqilabi hadisədir.

İndiyədək Üzeyir Hacıbəyov böyük bir bəstəkar, musiqiçi, publisist, alim kimi tanınır. Onun yubileylərini qeyd edərkən biz Üzeyir Hacıbəyov yaradıcılığının həmişə bu cəhətlərini işıqlandırmışıq.

Mən böyük məmnuniyyət hissi ilə qeyd etmək istəyirəm ki, ötən vaxtlarda da Üzeyir Hacıbəyovun yubileylərinin keçirilməsinin təşkilatçılarından, iştirakçılarından olmuşam. Üzeyir Hacıbəyovu xalqımız heç vaxt unutmayıbdır. O, yaşadığı zamanda da həmişə sevilibdir. Dünyasını dəyişəndən sonra isə o həmişə bizim sevimlimiz olubdur. Xalq onu daim qəlbində saxlayıb, mədəniyyətimiz onun yaradıcılığından daim bəhrələnərək inkişaf edibdir. Buna görə də Üzeyir Hacıbəyovun anadan olması gününü biz hər il qeyd edirik.

Üzeyir Hacıbəyovun 90 illik yubileylərini böyük təntənə ilə qeyd etdiyimiz xatirimə gəlir. 1975-ci ildə Üzeyir Hacıbəyovun 90 illik yubileyini hazırladıq, təntənə ilə həm Azərbaycanda, o vaxt imkan dairəsində Sovet İttifaqının həm paytaxtında, başqa respublikalarda, dünyada qeyd edə bildik. Azərbaycanda, Bakıda mədəniyyət xadimlərindən ilk dəfə Üzeyir Hacıbəyovun yaşadığı ev onun ev-muzeyinə çevrildi. 1975-ci ildə, 20 il bundan əvvəl Üzeyir Hacıbəyovun ev-muzeyi açıldı. Biz hamımız çox məmnunuq ki, bu ev-muzey 20 ildir Azərbaycan xalqının, mədəniyyətinin inkişafına, yüksəlməsinə xidmət edir. Yaranan gündən indiyədək bu

muzeyə Üzeyir Hacıbəyovun yaxın silahdaşı Ramazan Xəlilov rəhbərlik edir. Böyük xidmətlərinə görə mən onu Azərbaycanın yüksək ordeni – "Şöhrət" ordeni ilə təltif olunması haqqında fərman imzaladım.

Ramazan Xəlilov çox xoşbəxt adamdır, 95 yaşı var, bu gün də fəaliyyətdədir. O, Üzeyir Hacıbəyovla çiyin-çiyinə gedib, bizim üçün onun nişanəsidir. Ona görə də o bizim üçün əzizdir və xoşbəxtlik də ondan ibarətdir ki, o bu gün də yaşayır. Güman edirəm ki, biz onun 100 illiyini də qeyd edəcəyik.

1985-ci ildə Üzeyir Hacıbəyovun 100 illik yubileyi böyük [279-280] təntənə ilə qeyd olundu – Azərbaycanda da, o vaxt Sovetlər İttifaqının paytaxtı Moskvada da. Moskvanın ən böyük salonlarından biri olan Sütunlu salonda biz onun yubileyini qeyd edərkən Sovetlər İttifaqının bütün respublikalarının nümayəndələri orada Üzeyir Hacıbəyov haqqında xatirələrini söylədilər. Biz hamımız bunları eşidərkən, bunların şahidi olarkən böyük iftixar hissi duyurduq.

Nəhayət, bu gün biz Üzeyir Hacıbəyovun 110 illik yubileyini keçiririk. Şəxsən mən çox xoşbəxtəm ki, Üzeyir Hacıbəyovun 90 illik, 100 illik yubileylərinin və bu gün də 110 illik yubileyinin keçirilməsi işlərinə həm rəhbərlik etmişəm və həm də bu işlərin təşkilatçısıyam.

Üzeyir Hacıbəyovu tədqiq edən alimlərin əsərlərinin və xüsusən yubiley mərasimlərindəki çıxışların adətən əksər hissəsində deyilən sözlər onun musiqisi sahəsində fəaliyyətinə həsr olunub. Təsadüfi deyildir ki, bu yubileylərdə daim musiqişünaslar, bəstəkarlar, musiqiçilər çıxış edirdilər. Ola bilər, ilk dəfədir ki, Üzeyir Hacıbəyovun yubiley mərasimində respublikanın prezidenti söz söyləyir. Bu heç də təsadüfi deyil. Çünki Üzeyir Hacıbəyov dahi bir bəstəkar, musiqiçi, eyni zamanda böyük alimdir, filosofdur, maarifçidir. Xalqımızda milli dirçəliş, milli oyanış, milli özünüdərk hisslərinin yaranmasında, formalaşmasında, inkişaf etməsində Üzeyir Hacıbəyovun əsərləri və onun bilavasitə fəaliyyəti böyük rol oynamışdır. Azərbaycanlılar – gənclər, vətəndaşlarımız məhz Üzeyir Hacıbəyovun əsərlərindən ruhlanaraq Vətənimizi daha da çox sevmişlər; onun musiqisini dinləyərək, onun əsərlərindən irəli gələn fikirlərin təsiri altına düşərək hiss etmişlər ki, Vətən, ölkə, millət hər bir insan üçün nə qədər əzizdir, doğmadır.

Üzeyir Hacıbəyov böyük vətəndaş olmuşdur. Bir də qeyd edirəm, 1918-1920-ci illərdə ağır bir dövrdə – Azərbaycanın ilk müstəqil respublikasının fəaliyyət göstərdiyi dövrdə Üzeyir Hacıbəyovun yaradıcılığı əvəzsizdir. Üzeyir Hacıbəyovun fəaliyyəti ondan sonrakı dövrdə də fövqəladə əhəmiyyətli və əvəzsizdir.

Əgər tarixə nəzər salsaq, Üzeyir Hacıbəyov üç hakimiyyət dövründə yaşamışdır. Onun doğulduğu dövr, mədəniyyət xadimi kimi dünyaya gəldiyi dövr Azərbaycanda çar Rusiyasının hakimiyyəti dövrü idi. Ondan sonra Azərbaycanda 1918-ci ildə ilk demokratik respublika yarandı. İki ilə yaxın müddət [280-281] müstəqil Azərbaycan Respublikası dövrü idi. Ondan sonra Azərbaycanda Sovet hakimiyyəti quruldu və bu hakimiyyət 1991-1992-ci illərə qədər davam etdi. Üzeyir Hacıbəyov bütün bu üç mərhələdə hakimiyyətin xarakterindən, formasından asılı olmayaraq xalqına xidmət etmişdir. Bu gün bunu deməyə əsas var ki, o belə düşünmüşdür: hansı hakimiyyət olursa-olsun, xalqa sədaqətlə xidmət edən, xalqın irəli getməsinə çalışan adam heç bir şeylə hesablaşmamalıdır. Üzeyir Hacıbəyov belə olmuşdur.

Keçmiş zamanlarda Üzeyir Hacıbəyovun həyat yolu haqqında söhbət düşəndə, onun yaratdığı əsərlərdən danışırdılar, amma o dövrlərdə, əsrin əvvəlindən 1920-ci ilə qədər onun ictimai-siyasi fəaliyyəti haqqında heç bir şey deyilmirdi. Bəzən xəlvəti deyirdilər ki, Üzeyir Hacıbəyov Müsavat hökumətinin üzvü olubdur və sairə, amma onun üstünü vurmaq lazım deyil. Ondan sonrakı dövrdə, 1920-ci ildən 1949-cu ilə qədər, dünyasını dəyişənə qədər Üzeyir Hacıbəyov Sovet hakimiyyəti dövründə yaşamışdır. Üzeyir Hacıbəyovun fəaliyyətinin bu dövrü də əvvəlki dövr kimi çox bəhrəli, çox məhsuldar, xalqımız üçün çox dəyərli, əhəmiyyətli olmuşdur.

Bu gün, respublikamızda ictimai-siyasi sistem dəyişəndən sonra yenə də əvvəlki xəstəliyə düşmək, bir dövrü qabarıq verib, o biri dövrü gizlətmək lazım deyil. Üzeyir Hacıbəyov 1885-ci ildə anadan olandan 1949-cu ilə qədər, yəni dünyasını dəyişənə qədər Azərbaycan xalqının görkəmli bir oğlu olmuşdur. Azərbaycan xalqına xidmət etmişdir və hansı sistemdə olursa-olsun, hansı hakimiyyət dövründə olursa-olsun bütün imkanlarından istifadə edərək xalqını daim irəliyə aparmışdır.

Üzeyir Hacıbəyovun 1920-ci ilə qədərki fəaliyyəti haqqında danışarkən, eyni zamanda onun bundan sonrakı fəaliyyətinə də yüksək qiymət vermək lazımdır. Azərbaycan mədəniyyətinin çiçəklənməsində – biz bu gün böyük iftixar hissi ilə deyə bilərik ki, bəli, XX əsrdə və əsrimizin 20-ci ilindən sonra respublikamızda mədəniyyət inkişaf edib, çiçəklənib, böyük mədəniyyət ordusu yaranıb, xalqımız savadlanıb, onun mədəni səviyyəsi qalxıb – bunların hamısında Üzeyir Hacıbəyovun əvəzsiz rolu var.

Üzeyir Hacıbəyov 1937-ci ildə dünyaya "Koroğlu" operasını təqdim etmişdir. Yenə də deyirəm, bu xalqımızın tarixində, mədəniyyətimizdə böyük bir inqilabi hadisə kimi meydana çıxdı. Azərbaycanın mədəniyyəti "Koroğlu" əsəri ilə o vaxtlar [281-282] Sovetlər İttifaqının paytaxtı olan Moskvaya getdi. Sovetlər İttifaqı böyük bir dövlət idi. Qədim tarixə malik olan Rusiyanın paytaxtında, Kreml sarayında Üzeyir Hacıbəyov böyük hörmət və ehtiramla qarşılandı. Əgər Üzeyir Hacıbəyov vaxtilə Peterburqda bir tələbə kimi konservatoriyada təhsil almışdısa, Rusiya çarlarının ən ali sarayı olan Kreml sarayında 1937-ci ildə böyük hörmətlə qarşılandı. Bunlar hamısı böyük tarixdir. Bunların heç birisini unutmaq olmaz.

Böyük Vətən müharibəsi – 1941-1945-ci illər müharibəsi zamanı Üzeyir Hacıbəyov xalqımızda vətənpərvərlik ruhunu qaldırmaq üçün gözəl əsərlər – marşlar, mahnılar yazmış, faşizm üzərində qələbə

çalınması üçün xidmətlər göstərmiş, hətta öz vəsaiti ilə təyyarə alıb cəbhəyə göndərmişdir. Bu, həmin Üzeyir Hacıbəyovdur.

Üzeyir Hacıbəyov əsrin əvvəlində də, 1918-1920-ci illərdə də və 1920-ci ildən 1949-cu ilə qədər də Azərbaycanın ictimai-siyasi həyatında iştirak etmişdir. Üzeyir Hacıbəyov o vaxt Azərbaycan parlamentinin, Sovetlər İttifaqı parlamentinin – Sovetlər İttifaqı böyük dövlət idi, onun parlamenti var idi, hansı parlamentə necə qiymət vermək başqa məsələdir – bu parlamentlərin üzvü olmuşdur və o adı daşımağı özünə böyük fəxr bilmişdir. Bunu da unutmaq lazım deyil, Üzeyir Hacıbəyov bizimdir – bütün varlığı, yaradıcılığı ilə.

Üzeyir Hacıbəyovun ən böyük xidmətlərindən biri müstəqil Azərbaycan Respublikasının ilk himnini yaratmasıdır. O himn sonra kənarlaşdırıldı. 1945-ci ildə Azərbaycan Sovet Sosialist Respublikasının yeni himni yarandı. Onu da Üzeyir Hacıbəyov yaratdı. Nəhayət, Azərbaycan müstəqilliyini əldə edəndən sonra Üzeyir Hacıbəyovun 1919-cu ildə yaratdığı, hamımızın həddindən artıq sevdiyimiz Dövlət himnini biz bərpa etdik. Bunlar hamısı Azərbaycanın tarixidir. Bunlar hamısı Üzeyir Hacıbəyovun həyat yolunun, yaradıcılığının mərhələləridir.

Üzeyir Hacıbəyovun yaşadığı hər gün bizim üçün qiymətlidir. Üzeyir Hacıbəyovun yazdığı hər bir əsər, hər bir not vərəqi bizim üçün qiymətlidir. Üzeyir Hacıbəyovun ictimai-siyasi fəaliyyəti əvvəldən axıra qədər bizim üçün qiymətlidir. Çünki bunlar hamısı Azərbaycan xalqının dirçəlməsinə, mədəniyyətinin inkişaf etməsinə, xalqımızın özünü tanımasına xidmət edibdir. Bu xidmətlər heç vaxt unudula bilməz. Bu xidmətlər əvəzsizdir. [282-283]

Bütün bunlara görə Üzeyir Hacıbəyovun yaradıcılığı Azərbaycan xalqının milli sərvətidir. Üzeyir Hacıbəyov şəxsiyyəti Azərbaycan xalqının iftixarı, bizim milli iftixarımızdır.

Üzeyir Hacıbəyov gəncliyini Şuşada keçiribdir. Şuşa hər bir azərbaycanlı üçün əziz, müqəddəs bir şəhərdir. Üzeyir Hacıbəyov daim Azərbaycanın ərazi bütövlüyü uğrunda vuruşmuşdur. Onun 1918-1920-ci illərdə yazdığı məqalələri oxuyarkən düşünürsən: o sözlər bu gün üçün də nə qədər aktualdır! O vaxtkı vəziyyət bu gün yenidən meydana çıxıbdır. Ermənistanın Azərbaycana qarşı qəsbkarlığı, torpaqlarımızı ələ keçirmək cəhdi və vətənpərvər insanlarımızın ölkəmizi qoruması – o vaxt da belə olubdur. Üzeyir Hacıbəyov o vaxt bu yolda çalışıbdır və bu gün də, təəssüf ki, tarix belə gətiribdir. Biz hamımız birlikdə Üzeyir Hacıbəyov kimi insanların qoyduğu yol ilə gedərək Azərbaycanın müstəqilliyini, Azərbaycanın ərazi bütövlüyünü qoruyub saxlamağa çalışırıq.

Üzeyir Hacıbəyovun vətəni olan Şuşada – bütün Azərbaycan onun vətənidir, ancaq gəncliyini Şuşada keçirmişdir – ona görə orada da ev-muzeyi yaradılmışdı. Burada olanların bir qismi yəqin ki, o muzeyi ziyarət edibdir. Mən də dəfələrlə ziyarət etmişəm. Şuşada Üzeyir Hacıbəyovun da heykəli qoyulmuşdu. Orada təkcə Üzeyir Hacıbəyovun yox, böyük sənətkarımız Bülbülün də, böyük şəxsiyyət Natəvanın da heykəli qoyulmuşdu, başqa heykəllər də var idi.

1992-ci ilin may ayında Şuşa Ermənistan tərəfindən işğal olundu. İşğalçılar çox şeyləri dağıtdılar, o cümlədən mədəniyyətimizin abidələrini də. Onlar Üzeyir Hacıbəyovun, Bülbülün, Natəvanın heykəllərini nəinki dağıtdılar, hətta vəhşiliyi o qədər büruzə verdilər ki, o heykəlləri güllələdilər. Çox böyük iş oldu ki, o heykəllər əsirlikdən xilas edildi, Gürcüstan vasitəsilə Azərbaycana gətirildi, indi İncəsənət Muzeyində nümayiş etdirilir. Oranı ziyarət edənlər görürlər ki, Üzeyir Hacıbəyovun heykəlinə nə qədər avtomat, tüfəng gülləsi vurulub. O düşmənlər vaxtilə bu güllələri Üzeyir Hacıbəyovun özünə vurmağa çalışıblar, ancaq vura bilməyiblər. İndi isə onlar bu güllələri onun heykəlinə vurublar. Bunlar bizim üçün ağır, əzabverici hadisələrdir. Ancaq bu həqiqətdir və bu həqiqət də onu göstərir ki, nə qədər vəhşilik ola bilər. Faşistliyin, vəhşiliyin dərəcəsi yoxdur. Ermənistan işğalçılarının bu hərəkətləri məhz bunu sübut edir.

Ancaq erməni işğalçıları heç də belə bilməsinlər ki, o güllələr [283-284] Üzeyir Hacıbəyov, Bülbül, Natəvan yaradıcılığını sarsıda bilər, yox! Elə düşünməsinlər ki, bu güllələr Azərbaycan xalqının mənəviyyatını sarsıda bilər, yox! Elə güman etməsinlər ki, Şuşanın işğalı daimi ola bilər. Yox, ola bilməz!

Biz bu gün Üzeyir Hacıbəyovun 110 illik yubileyini qeyd edərək əmin olduğumuzu bildiririk ki, Üzeyir Hacıbəyovun irsi yaşayacaq və onun yaşadığı yerlərin hamısı ziyarətgaha çevriləcəkdir. Biz əminik ki, Azərbaycan torpaqları Ermənistan işğalçılarının əlindən qurtaracaqdır. Biz əminik ki, Şuşa azad olacaqdır. Biz əminik ki, bütün Qarabağ, işğal olunmuş bütün torpaqlarımız azad ediləcək, müstəqil Azərbaycan öz ərazilərinin hamısının, öz sərhədlərinin sahibi olacaqdır.

Buna böyük əsas da var. On altı aydır ki, Ermənistanla Azərbaycan arasındakı müharibədə atəşkəs rejimi davam edir. Biz bu vasitə ilə, sülh yolu ilə torpaqlarımızı azad etməyə və ərazi bütövlüyümüzü təmin etməyə çalışırıq. Görülən tədbirlər, beynəlxalq təşkilatların fəaliyyəti, beynəlxalq təşkilatlar çərçivəsində bizim fəaliyyətimiz və ardıcıl surətdə apardığımız siyasət buna sübutdur.

Dünyanın böyük dövlətləri də bu məsələnin sülh yolu ilə həll olunmasına səy edirlər, beynəlxalq təşkilatlar Minsk qrupu çərçivəsində fəaliyyət göstərirlər. Əminəm ki, onlar bu fəaliyyətlərini bundan sonra da artıracaqlar. Çünki heç bir dövlət işğalçılığı bəyənməməlidir. Heç bir dövlət separatizmi bəyənməməlidir. Heç bir dövlət təcavüzü bəyənməməlidir. Əgər bu belədirsə, əgər haqq-ədalət varsa, əgər dünyada beynəlxalq normalar bundan

sonra da bərqərar olacaqdırsa, onda deməк, bizim işimiz haqdır və biz haqq yolu ilə bu məsələlərin həll edilməsinə nail olacağıq.

Eyni zamanda, Üzeyir Hacıbəyovun yaradıcılığı həmişə insanları vətənpərvərliyə çağırdığı kimi, bu gün də Azərbaycan vətəndaşlarını vətənpərvərliyə dəvət edir. Biz bu gün Üzeyir Hacıbəyovun xatirəsini yad ediriksə, onun yaradıcılığını bir daha yüksək qiymətləndiririksə, bu yaradıcılığın ən yüksək nöqtəsi olan vətənpərvərlik hisslərini özümüzdə daha da artırmalıyıq, daha da inkişaf etdirməliyik. Özümüzü bu hissiyyatlarla gələcəyə hazırlamalıyıq.

Biz öz torpaqlarımızın sahibi olmalıyıq. Məsələləri sülh yolu ilə həll etməliyik. Nəyin bahasına olursa-olsun. Hansı yolla olursa-olsun Şuşa da, Qarabağ da, işğal edilmiş bütün torpaqlarımız da azad olunacaq – Azərbaycan xalqının iradəsi ilə [284-285] azad olunacaq, Azərbaycanın qəhrəman oğullarının şücaəti ilə azad olunacaq, Azərbaycanın ərazi bütövlüyü təmin ediləcəkdir.

Bu arzularla, bu fikirlərlə mən sizə, bütün Azərbaycan xalqına xoşbəxt həyat, müvəffəqiyyət arzulayıram. Dahi Üzeyir Hacıbəyovun xatirəsi qarşısında baş əyirəm. Bütün Azərbaycan xalqı bu gün Üzeyir Hacıbəyovun xatirəsi qarşısında baş əyir. Mən onun xatirəsinə hörmət və ehtiramımı bildirərək, bu gün bir daha xalqımızı birliyə dəvət edirəm. Üzeyir Hacıbəyov irsinin yaşaması naminə, mədəniyyətimizin, mənəviyyatın yaşaması naminə sizin hamınızı şücaətə, qəhrəmanlığa, vətənpərvərliyə dəvət edirəm. Sağ olun! [285-286]

## "HƏR ŞEY İNSAN ÜÇÜN" BİRİNCİ AZƏRBAYCAN BEYNƏLXALQ TİCARƏT SƏRGİSİNİN RƏSMİ AÇILIŞI MƏRASİMİNDƏ ÇIXIŞ

*20 sentyabr 1995-ci il*

Hörmətli xanımlar və cənablar!

Bu gün Azərbaycanda, Bakıda yeni bir hadisə baş verir. Bizim cəmiyyətimiz üçün, insanlar üçün ən əhəmiyyətli olan yeni bir sərgi açılır. Bu sərginin adı onun mənasını və məzmununu çox gözəl əks etdirir: "Hər şey insan üçün". Bizim cəmiyyətimizin, dövlətimizin məqsədi, hamımızın məqsədi insanların rifah halını yaxşılaşdırmaq, insanların gündəlik tələbatını ödəmək, insanlara yaxşı həyat tərzi yaratmaqdan ibarətdir. Ona görə də belə məzmunlu və belə geniş sahələri əks etdirən sərginin Azərbaycanda açılmasına mən xüsusi əhəmiyyət verirəm.

Biz Azərbaycanda iqtisadiyyatın bütün sahələrinin inkişaf etdirilməsinə çalışırıq. Azərbaycan bazar iqtisadiyyatı yolu ilə getdiyinə görə və dünya iqtisadiyyatı ilə inteqrasiya yolunda olduğuna görə bu sahələrin inkişaf etdirilməsi üçün Azərbaycana xarici şirkətlərin gəlməsini və xarici investisiyaların qoyulmasını iqtisadi siyasətimizdə əsas istiqamət hesab edirik.

1994-cü ildə, 1995-ci ildə Azərbaycanda, bu binada neft və qaz sənayesinə aid olan çox böyük beynəlxalq sərgilər keçirilmişdir. Neft və qaz sənayesi Azərbaycan iqtisadiyyatının aparıcı sahəsidir. Bu, bizim böyük təbii sərvətlərimizdən istifadə olunması üçün yaranmış bir sənaye sahəsidir. Şübhəsiz ki, bu sahəyə biz çox diqqət yetiririk və bundan sonra da yetirəcəyik. Neft və qaz sənayesi, sənayenin bütün başqa sahələri bütün istehsalat hamısı son mərhələdə insanların tələbatını ödəmək üçün, insanların yaxşı yaşaması üçün və onlara yaxşı həyat tərzi qurmaq üçün bizim qarşımızda olan məqsədlərə xidmət edir. Ona görə də sənayenin belə böyük aparıcı sahələrinə aid olan sərgilər keçirib dünya şirkətlərini buraya dəvət edərək və Azərbaycanda bu sahələrə investisiya qoyulmasına çalışaraq, biz eyni zamanda insanlar üçün bilavasitə lazım [286-287] olan malların istehsalı sahəsində də çox işlər görməliyik və bu sahəni inkişaf etdirmək üçün xarici ölkələrin şirkətlərini Azərbaycana dəvət etməyə çalışmalıyıq.

Məhz buna görə bugünkü sərgiyə mən yüksək qiymət verirəm. Bu sərginin iştirakçılarına əvvəlcədən təbrik məktubu göndərmişəm və bu gün onları bir daha ürəkdən təbrik edirəm, sərgiyə uğurlar arzulayıram və sərgidə iştirak edən şirkətlərin Azərbaycanla əməkdaşlıq etməsini arzulayıram. Bu sərgi Azərbaycan Ticarət-Sənaye Palatası ilə Böyük Britaniyanın "İntənəşnl treyd ənd eksibişnz LTD" şirkəti tərəfindən birlikdə, onların əməkdaşlığı nəticəsində hazırlanmış bir sərgidir. Sərgi bu əməkdaşlığın başlanğıcını nümayiş etdirir. Ümidvar olduğumu bildirmək istəyirəm ki, bu əməkdaşlıq davam edəcək, genişlənəcək və inkişaf edəcəkdir.

Bu sərgidə iştirak edən şirkətlər Azərbaycanın "Hər şey insan üçün" istehsal sahələrinin nə qədər böyük imkanlara malik olduğunu biləcəklər. Eyni zamanda sərgidə iştirak edən şirkətlər, xüsusən xarici ölkələrdən burada təmsil olunan şirkətlər Azərbaycanda artıq investisiya qoyulması üçün həm iqtisadi, həm də ictimai-siyasi vəziyyətin tamamilə əlverişli olduğunu bir daha dərk edəcəklər. Ümidvaram ki, bunların əsasında xarici ölkələrin şirkətləri ilə bizim əməkdaşlığımız genişlənəcək və inkişaf edəcəkdir.

Mən bu gün burada bir daha bəyan edirəm ki, Azərbaycan öz iqtisadiyyatını sərbəst iqtisadiyyat, bazar iqtisadiyyatı yolu ilə aparır və daim aparacaqdır. Bu yolu şərəflə, müvəffəqiyyətlə keçmək üçün biz xarici ölkələrin şirkətləri ilə sıx əməkdaşlıq etmək istəyirik və mən onları bu əməkdaşlığa dəvət edirəm. Bir daha elan edirəm ki, xarici şirkətlərin Azərbaycanda fəaliyyət göstərməsi üçün bütün şərait yaradılacaq və onların əməli fəaliyyətdə qarşılaşdıqları maneələr də aradan götürüləcəkdir.

Azərbaycanda mülkiyyətin özəlləşdirilməsi proqramı qəbul olunubdur. Biz artıq bu proqramın əməli surətdə həyata keçirilməsi ilə məşğuluq. Biz Azərbaycanda təşəbbüskarlıq, sahibkarlıq meyllərinə geniş yol açmışıq və bu yolun indən sonra da tamamilə səmərəli olmasını təmin edəcəyik. Bir daha qeyd edirəm ki, dünya şirkətlərinin, xarici şirkətlərin Azərbaycanda sərbəst fəaliyyət göstərməsi üçün, Azərbaycanın iqtisadi potensialından müştərək istifadə edilməsi üçün bütün şərait yaradılacaqdır. [287-288]

Azərbaycanda daxili ictimai-siyasi vəziyyət sabitdir, bu sabitlik təmin olunur və heç kəs narahat olmasın – heç bir qüvvə bu sabitliyi poza bilməz. Mən bunu ona görə deyirəm ki, bilirəm, xarici investisiyanın hər bir ölkəyə, o cümlədən Azərbaycana gəlməsi üçün bu da əsas şərtlərdən biridir. Bir sözlə, mən hər bir şirkətin Azərbaycana gəlib fəaliyyət göstərməsini arzulayıram. Xüsusən "Hər şey insan üçün" olan sahələr, bu malları istehsal edən sahələr bizdən ötrü daha əhəmiyyətlidir.

Mən ümidvaram ki, sərginin eksponatları ilə tanış olanlar Azərbaycanda bu sahələrdə əməkdaşlıq etməyə qoşulacaqlar. Britaniya şirkəti ilə Azərbaycan Ticarət-Sənaye Palatası arasında, onların müştərək fəaliyyəti nəticəsində yaranmış bu sərginin açılışı münasibətilə sizi və sərgidə iştirak edən bütün şirkətlərin və müəssisələrin hamısını bir daha ürəkdən təbrik edirəm, sizə öz işlərinizdə uğurlar diləyirəm.

İşləriniz xeyirli olsun, uğurlu olsun! [288-289]

## AZƏRBAYCAN NEFT-QAZ SƏNAYESİ KOLLEKTİVLƏRİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞDƏ GİRİŞ SÖZÜ

*Prezident sarayı*

*20 sentyabr 1995-ci il*

Hörmətli neftçilər!

Bu gün Azərbaycan iqtisadiyyatının əsas sahəsi olan neft-qaz sənayesi kollektivlərinin nümayəndələri buraya dəvət olunublar. Məqsədimiz neft-qaz sənayesinin bugünkü vəziyyətini sizinlə birlikdə bir daha təhlil etmək, görülən işləri bir daha nəzərdən keçirmək və qarşıda duran vəzifələr haqqında danışmaqdan ibarətdir.

Neft-qaz sənayesində çalışan mütəxəssislərlə, mühəndislərlə, fəhlələrlə və bu sənayenin müxtəlif sahələrinə rəhbərlik edən şəxslərlə biz dəfələrlə görüşmüşük, danışıqlar aparmışıq. Ancaq bu gün belə bir görüşə ehtiyac var. Mən rica etmişdim ki, bu görüşə neft-qaz sənayesi kollektivlərinin hamısından nümayəndələr dəvət olunsun, bu sahədə olan vəziyyəti birlikdə bir daha təhlil edib nəzərdən keçirə bilək.

Bu gün, eyni zamanda, Azərbaycan Dövlət Neft Şirkəti ilə dünyanın böyük neft şirkətləri konsorsiumu arasında bağlanan neft müqaviləsinin imzalanması günündən bir il keçir. Biz bu müqavilənin imzalanmasına çox böyük ümidlər bəsləmişik. O, Azərbaycan neft sənayesinin inkişafında çox böyük rol oynayacaqdır. Artıq bir il arxada qalmışdır. Bu bir il müddətində nə işlər görülübdür? Müqavilənin həyata keçirilməsi üçün nə tədbirlər aparılıb və hansı nəticələrə gəlmişik? Bu məsələyə də nəzər salmaq lazımdır. Şübhəsiz ki, bunlar bir-biri ilə əlaqədar məsələlərdir. Çünki neft sənayemizin bu günü və gələcəyi mövcud neft quyularından, neft istehsal edən sahələrdən səmərəli istifadə olunmasında, eyni zamanda, yeni neft yataqlarının işlədilməsindən asılıdır. Bunlar hamısı da yeni texnologiyadan, texnikadan istifadə olunması ilə bağlıdır. Bunlar hamısı indiyədək istifadə edilən avadanlığın müasir tələblərə uyğun avadanlıqla əvəz olunmasından asılıdır. [289-290] Bunlar hamısı dünya təcrübəsində indi artıq məlum olan üsulların, metodların Azərbaycan neft sənayesində tətbiq olunmasından asılıdır.

Ona görə də bu məsələlər bir-biri ilə sıx bağlıdır. Yəni bu, bir məsələdir. Ancaq neft müqaviləsinin bağlanmasından bu gün artıq bir il keçdiyinə görə bu sahədə görülən işlər haqqında ayrıca bir məlumat dinləməyə ehtiyac var.

### YEKUN SÖZÜ

Respublikamızın həyatında, o cümlədən onun əsas sahəsi olan iqtisadiyyatda problemlər çoxdur. Bunlar bu gün yaranmayıb, dünən yaranmayıb, son illər gedən proseslərin nəticəsində yaranan problemlərdir, bir-birinin üstünə gələn problemlərdir. Bu problemlər bizim neft-qaz sənayesində də var və onlar həmin sahədə imkanlarımızdan tam istifadə olunmasına mane olur.

Respublika ümumiyyətlə sosial-iqtisadi böhran içindədir. Bu böhranın səbəbləri də məlumdur, bunu dəfələrlə demişik. Biz bir iqtisadi-siyasi sistemdən, sosial sistemdən başqasına keçirik, tamamilə ondan fərqli olan bir sistemə keçirik. Bu keçid dövrü çətindir, ağırdır, əzablıdır, böyük itkilərlə müşayiət olunur. Ancaq bu dövrü biz yaşamalıyıq, bu dövrü keçməliyik.

Bilirsiniz ki, neft sənayesi ilə mən uzun illər ərzində – 1969-cu ildə Azərbaycan Respublikasına rəhbərliyə başlayan gündən məşğul olmuşam. Sonralar isə – Moskvada işlədiyim zaman – ümumiyyətlə, böyük bir dövlətin – Sovetlər İttifaqının neft sənayesi ilə məşğul olmuşam. O vaxtlar da bizim neft sənayesində problemlər var idi, az deyildi. O vaxt da biz bu problemlərin həll olunmasında bəzi çətinliklərlə rastlaşırdıq. Ancaq onları həll edirdik. O zaman problemlər başqa xarakter daşıyırdı. Məsələn, o vaxt maaşın vaxtında verilib-verilməməsi problemi yox idi. Fəhlə, mütəxəssis, neftçi işləyirdi, vaxtında maaşını alırdı. O vaxtlar, məsələn, uşaq bağçalarının çatışmaması barədə söhbət yox idi. Yaxud da ki, indi Neft daşları haqqında danışdılar, o vaxtlar Neft daşlarına gedib-gələnlər həmişə deyirdilər ki, bura Neft daşları deyil, bir cənnətdir.

Bu problemlər yox idi, başqa problemlər vardı. Burada qeyd edildi: ildə nə qədər kəşfiyyat qazması aparmaq lazım idi, nə qədər istehsal qazması aparmaq lazım idi, yeni-yeni buruqlar lazım idi, yeni-yeni qazma işləri lazım idi. Bu işlərin görülməsi üçün ləvazimat çatışmırdı, bəzən vəsait çatışmırdı, [290-291] bəzən planlar vaxtında yerinə yetirilmirdi. Bu problemlər var idi. O vaxtlar istehsal fondları yaxşı vəziyyətdə idi, xüsusən dənizdə neft çıxarılması sahəsində. İstehsal fondlarının dəyişilməsinə, onların təzələnməsinə, təmir olunmasına biz çox vəsait ayırırdıq. Bunlar hamısı var idi. Ancaq o vaxtlar yenə də problemlər var idi, onları həll edirdik.

Amma indi o problemlərin üzərinə bir çox başqa problemlər gəlibdir. Bunlar hamısı bizim respublikanın iqtisadiyyatında gedən proseslərlə əlaqədardır. Burada dedilər ki, 100 milyon dollarlıq, mən belə başa düşdüm, neft avadanlığı, maşınqayırma zavodlarının məhsulu var, onları sata bilmirlər. Çünki dəmir yolunun tarifləri çox

yüksəkdir. O vaxtlar dəmir yolunun tarifi haqqında heç düşünən var idimi? Yaxud dəmir yolu bir gün işləməsin, – axı, belə şey yox idi. Amma indi nəinki dəmir yolumuzun işləməsi çətindir, onun yolunu uzun müddət bağlamışdılar, indi bir balaca açılıbdır. Amma bu, təkcə dəmir yolu məsələsi deyil. Bizim dəmir yolundan vaqonları keçiririk başqa ölkələrin dəmir yoluna. O dəmir yoluna keçmək üçün, ondan istifadə etmək üçün onların tariflərinə uyğun haqq verməliyik. Bir bu deyil. Mən sadəcə bir neçə nöqtəyə sizin diqqətinizi cəlb edərək bildirmək istəyirəm ki, indi vəziyyət tamamilə başqa cürdür.

Biz müstəqil dövlət olmaq istəmişik və indi müstəqil dövlətik. Müstəqillik üçün biz gərək bu əziyyətləri çəkək, gərək bu əzablara dözək. Çünki müstəqil dövlətin yaranması, qurulması bu çətin yollardan keçəcəkdir, başqa yollar yoxdur.

Ancaq bu, təkcə Azərbaycana aid olan problemlər deyil. Başqa respublikaların iqtisadiyyatında da vəziyyət belədir. Ola bilər, birində digərindən biz az yaxşı olsun, başqasında isə o birindən pis olsun. Yəni fərqlər varsa da, o qədər böyük deyil. Əgər keçmişdə bir dövlətdə olduğumuz vaxtdakı neft sənayesini – indi ayrı-ayrı müstəqil dövlətlərdə olan neft sənayesini götürsək, əksəriyyətinin vəziyyəti elə bizim neft sənayesinin vəziyyəti kimidir.

Müstəqilliklə, keçid dövrü ilə əlaqədar olaraq bu çətinliklər obyektiv xarakter daşıyır, təbiidir. Bunları bilmək lazımdır. Biz bunlara dözməliyik. Ancaq o mənada yox ki, həmişə belə olacaq, buna daim dözəcəyik və elə həmişə belə yaşayacağıq, – yox. Bunlara dözərək eyni zamanda bu vəziyyətdən çıxmaq [291-292] üçün çox ciddi tədbirlər görməliyik. Varmı bu vəziyyətdən çıxmaq yolları? Var. Edə bilərikmi biz onları? Edə bilərik. Ancaq gəlin, bu gün burada həqiqəti etiraf edək ki, bu ağır, çətin yolu keçərkən insanların bir çoxu yalnız öz şəxsi məqsədlərini, şəxsi mənafelərini güdür, müstəqil Azərbaycan Respublikasının iqtisadiyyatının sağlamlaşması, onun bu ağır vəziyyətdən çıxması üçün çalışmaq lazım gəldiyini o qədər də bilmir. Hərə özü üçün nəsə edir – biri zənginləşir, biri kasıblaşır, biri həddindən artıq qeyri-qanuni sərvətlər əldə edir, o birisi yaşadığı vəziyyətdən də üç-dörd pillə aşağı düşür. Ümumiyyətlə, dövlətimizin iqtisadiyyatında bu ağır vəziyyət davam edir.

Ona görə də bugünkü görüşümüzdən hamımız bir əsas nəticə çıxarmalıyıq: biz bu ağır iqtisadi-sosial vəziyyətdən çıxış yollarını müəyyən edib, bu çıxış yollarından istifadə edib iqtisadiyyatımızı bu vəziyyətdən qurtarmalıyıq. Ümumiyyətlə, iqtisadiyyatın bu vəziyyətdən çıxarılmasının əsas yolunu biz müəyyən etmişik. Bu, mülkiyyət formasının tədricən dəyişdirilməsi, bazar iqtisadiyyatı yolu ilə gedilməsi, Azərbaycan iqtisadiyyatının dünya iqtisadiyyatı ilə daha da sıx inteqrasiya olunması və xarici şirkətlərin Azərbaycana sərmayə qoyması, onların vasitəsilə Azərbaycan iqtisadiyyatının canlandırılması və hərəkətə gətirilməsidir. Respublikamızın, xalqımızın xoşbəxtliyi ondan ibarətdir ki, zəngin təbii sərvətlərimiz var, böyük iqtisadi potensialımız var, intellektual potensialımız var. Geofizika sahəsində müştərək müəssisə haqqında indi verilən məlumat onu göstərir ki, bizim böyük intellektual, texniki və mühəndis potensiallarımız var. Bu potensiallardan sadəcə olaraq səmərəli istifadə etmək lazımdır. Bu, respublikamızın ümumi sərvətidir. Ola bilər, buna görə biz ayrı-ayrı respublikalardan bir az da fərqliyik, müsbət mənada fərqliyik. Ancaq bunların hamısını hərəkətə gətirmək üçün biz gərək yeni iqtisadi yollara gedib, iqtisadiyyatımızı yeni iqtisadi prinsiplər əsasında qurub bu ağır vəziyyətdən çıxaq.

Biz bu barədə neft sahəsində böyük bir addım atmışıq. Dünyanın böyük neft şirkətləri ilə neft müqaviləsi imzalamışıq. Neft yataqlarının başqa sahələrində də müştərək iş görmək üçün danışıqlar aparırıq. Ancaq bu, bütün işlərin həll olunması deyil. Bütün işləri həll etmək üçün daha geniş fəaliyyət göstərmək lazımdır.

Neft sənayesində bizim vəziyyətimiz başqa sahələrə nisbətən, [292-293] demək olar ki, yaxşıdır. Baxmayaraq ki, problemlər çoxdur, – ağır vəziyyət haqqında burada nə qədər danışıldı, – ancaq sənayemizin bütün başqa sahələrinə nisbətən neft sənayesinin vəziyyəti fərqlidir. Fərqlidir ona görə ki, biz neft çıxarırıq, fərqlidir ona görə ki, neft emal edirik. Ölkəmizin, respublikamızın neft məhsullarına olan tələbatını tamamilə ödəyə bilərik və neftin bir hissəsini ixrac edirik. İqtisadiyyatımızın və xüsusən sənayemizin başqa sahələrində bu cəhətdən imkanlarımız çox məhduddur. Ancaq eyni zamanda, biz neft sənayesinin potensialının hamısından istifadə edə bilmirik. Bunlar da bax, bu ağır problemlərin yaranmasına gətirib çıxarmışdır.

Mən bu gün görüşümüzü başlayarkən bildirdim ki, bu görüşümüzün birinci məqsədi, əvvəla, neft sənayesində olan vəziyyət və lazımi tədbirlər haqqında fikir mübadiləsi aparmaqdan, ikincisi, bir il bundan öncə imzalanmış neft müqaviləsinin necə həyata keçirilməsi haqqında hesabat, məlumat almaqdan ibarətdir. Müzakirəmizin birinci məsələsi bugünkü danışıqlardan, verilən məlumatlardan daha da aydın olur. Neft sənayesində çox böyük problemlər var, onları həll etmək lazımdır. Bunun üçün də daha fəal işləmək, yeni tədbirlər görmək lazımdır. Bunların bir qismi bizim Dövlət Neft Şirkəti rəhbərliyinin üzərinə düşür, onların fəaliyyətindən asılıdır, şirkətin ayrı-ayrı strukturlarının rəhbərlərinin fəaliyyətindən asılıdır. Mən bu gün tələb edirəm ki, mövcud şəraitdən, mövcud imkanlardan istifadə edərək Dövlət Neft Şirkəti və onun bütün strukturları öz fəaliyyətlərini gücləndirsinlər. Belə hesab edirəm ki, onların hələ istifadə etmədikləri imkanlar çoxdur və bunlardan daha səmərəli istifadə etmək lazımdır. Neft şirkətinin prezidenti Natiq Əliyev, onun müavinləri və bütün strukturların rəhbərləri bundan da yaxşı işləməlidirlər.

Doğrudur, məsələn, bu ilin nəticələrini mən o qədər müsbət qiymətləndirməsəm də, o qədər mənfi də qiymətləndirə bilmərəm. Bizim əsas göstəricimiz çıxarılan neftin miqdarıdır. 1985-ci ildə biz Azərbaycanda 13 milyon 150 min ton çıxarırdıqsa, bu il 9 milyon 100 min ton gözlənilir. Fərq böyükdür. Ancaq əgər bu on ili götürüb ilbəil baxsaq, – məndə cədvəl var, bu gün baxmışam, – görərik ki, məsələn, 1985-ci ildən sonra beş il müddətində neft xeyli azalıbdır. 1990-cı ildən azalma sürəti ilbəil getdikcə çox böyük olubdur. [293-294] Amma, məsələn, keçən illə bu ili müqayisə etsəniz, azalma sürəti aşağı düşübdür. Bunu müsbət qiymətləndirmək olar. Əgər keçən il 9 milyon 500 min ton neft hasil olunubsa, bu il 9 milyon 100 min ton gözlənilir. 400 min ton azalır. Bu, şübhəsiz ki, keçən illərdəki azalmaya nisbətən aşağıdır. Ancaq biz keçən ilə nisbətən 400 min ton az neft alacağıq. Əgər bu meylin qarşısı alınmasa, gələn il bu səviyyə daha da aşağı düşəcəkdir.

Şübhəsiz ki, neft müqaviləsi ilə bağlı aparacağımız iş və əldə edəcəyimiz nəticələr buna müsbət təsirini göstərəcəkdir. Ancaq yalnız buna ümid bağlamaq olmaz. Mövcud quyulardan, mövcud istehsal imkanlarından daha səmərəli istifadə etmək lazımdır. Ona görə də neft çıxarılması sahəsindəki işi mən bu cür qiymətləndirirəm. Hesab edirəm ki, Dövlət Neft Şirkəti də öz işindən razı olmamalıdır, biz də onların işindən razı deyilik. İş daha yaxşı getməlidir, imkanlardan daha çox istifadə olunmalıdır.

Neft sənayesi ağır sahədir. Keçmişdə bizim neft sənayesi lap yüksək səviyyədə olduğu zaman da burada işlər asan getmirdi. Mənim xatirimdədir, o illər demək olar ki, günümüzün yarısı neft sənayesinin problemlərinin həllinə sərf olunurdu. Məhz buna görə biz o illərdə neft sənayesini o səviyyədə saxlaya bilirdik. Amma indi çox yerdə nizam-intizam pozulub, dağıntı da gedir, hərc-mərclik də var, oğurluq da, məsuliyyətsizlik də var. Bunlar hamısı var. Bu gün Natiq Əliyev deyir ki, Əzizbəyov neftin binasını kim isə kooperativə vermişdir, kooperativ isə bir şəxsə satmışdır. Bilirsiniz, sərbəst iqtisadiyyat yoluna keçmək, iqtisadiyyatı sərbəstləşdirmək onu bu cür dağıtmaq demək deyildir. Bazar iqtisadiyyatına keçmək, sərbəst iqtisadiyyata keçmək illər boyu milyonlarla insanın əlinin qabarı, zəhməti ilə, alın təri ilə yaradılmış bu sərvətləri ayrı-ayrı quldurlar tərəfindən, ayrı-ayrı oğrular tərəfindən dağıtmaq demək deyildir. Ancaq təəssüflər olsun ki, 1988-1989-cu illərdən, xüsusən 1990-cı ildən başlayaraq ayrı-ayrı adamlar, – guya ki, bunlar yeni istehsal formaları yaradırlar, yeni kiçik müəssisələr yaradırlar, Azərbaycanın iqtisadiyyatını yüksəldəcəklər, onun səmərəliliyini artıracaqlar, – bu yolla iqtisadiyyatın çox hissəsini dağıdıblar. O cümlədən neft sənayesində də çox dağıdıblar, ona görə də ayrı-ayrı adamlar həddindən artıq zənginləşib, amma ümumiyyətlə neft sənayemiz bu günə düşübdür.

Məsələn, keçmişdə İliç adına olan Neftçilər sarayı, böyük, [294-295] zəngin bir saraydır, burada doğru deyildi, – memarlıq abidəsidir. Kim isə onu götürüb bir şəxsə vermişdi, kim isə orada kooperativ düzəltmişdi. Yaxşı ki, biz bu işə qarışdıq, sarayı bərpa etdik, şirkətin ixtiyarına keçirdik. Şirkət də indi ondan səmərəli istifadə edir. Amma Azərbaycanın nə qədər belə varı-dövləti dağılıbdır, oğurlanıbdır, ayrı-ayrı adamların əlinə keçibdir. Təəssüflər olsun ki, bax bu da insanların əxlaqını pozub, mənəviyyatını pozub, nizam-intizamı pozub, qanun-qaydanı pozubdur, bizim ümumi sərvətimizə, ümumi iqtisadiyyatımıza böyük zərbələr vurubdur.

Bir də deyirəm: bizim yolumuz mülkiyyətin formasını dəyişdirməkdir, bazar iqtisadiyyatını inkişaf etdirməkdir. Ancaq oğurluqla yox, quldurluqla yox, ayrı-ayrı adamların qeyri-qanuni yollarla bu işləri ələ keçirməsi ilə yox, qanuni yolla, qanun çərçivəsində də, bir də sosial ədaləti unutmadan, onun prinsiplərini saxlayaraq inkişaf etdirməkdir. Ona görə də, yenə də deyirəm, nə qədər çox dağılmış olsa da, bizim neft sənayesinin hələ də çox böyük, zəngin istehsal fondları var. Düzdür, bu fondların bəziləri köhnəlib, əvvəlki keyfiyyətini itirib, ancaq onlardan səmərəli istifadə etsək – və biz bunu etməliyik, – neft hasilatını nəinki bu səviyyədə saxlaya bilərik, bundan da çox neft çıxara bilərik.

Sənayedə bizim ikinci əsas sahəmiz qaz istehsalıdır. Təsəvvür edin, 1985-ci ildə 14 milyard kubmetr qaz çıxarılırdı, bu il isə 6,6 milyard kubmetr gözlənilir. Görün nə qədər aşağı düşmüşdür. Bəli, iki dəfə yarım azalmışdır. Nə üçün, nəyə görə? Mən hər dəfə soruşanda deyirlər ki, əlavə quyular qazılmalı idi, yeni buruqlar olmalı idi, yeni-yeni qaz yataqları açılmalı idi. Doğrudur, bu belədir. Xatirimdədir, keçmişdə – təxminən 80-ci illərin əvvəlində biz qaz istehsalını 15 milyard kubmetrə çatdırmışdıq. Onda da bu, elə-belə başa gəlmirdi. Hər il iş görülürdü, yeni quyular qazılırdı, yeni istehsal sahələri açılırdı, qaz çıxarılması da artırdı.

Ancaq indi biz mövcud buruqlarımızdan, mövcud mədənlərimizdən bundan da çox qaz çıxara bilərik. Doğrudur, burada Natiq Əliyev bir problemi dedi, məsələn, əgər boru kəməri çəkilsə, orada müəyyən qədər qaz istehsal edib nəql etmək olar. Yaxud, "Pennzoyl" şirkətinin gətirib kompressor stansiyasını qurması ilə qaz çıxarılması ilə 1 milyard 200 milyon kubmetr artıbdır. Belə imkanlar var, ancaq bunlar vəsait tələb edir. Güman edirəm ki, gələcəkdə biz bu vəsaiti vaxtlı-vaxtında [295-296] tapıb verməliyik və bu işi təmin etməliyik. Ancaq mövcud imkanlarımız indikindən də artıq qaz çıxarmağa şərait yaradır. Sadəcə olaraq bu sahədə də daha səmərəli işləmək lazımdır.

Bir sözlə, hesab edirəm ki, əsas vəzifə bu ilin sonuna qədər işləri daha da yaxşılaşdıraraq neftçıxarma, qazçıxarma sahəsində əldə olunmuş səviyyədən daha da yüksəyə qalxmaq və Azərbaycanın tələbatını təmin etməkdir. Eyni zamanda bunu təmin etmək üçün, – burada bu barədə çox deyildi, – neft-qaz sənayesinə kömək etmək lazımdır, onun problemlərini həll etmək lazımdır. Burada 28 May adına Neft və Qazçıxarma İdarəsindən

gələn nümayəndə sadəcə dedi ki, bizim yeməyimizi verin, içməyimizi verin, məvacibimizi verin, biz də neft çıxaraq. Bunu etmək lazımdır. Düzdür, bizim maliyyə vəziyyətimiz ağırdır, çətindir. Amma buna baxmayaraq, neftçilərin maaşları vaxtlı-vaxtında verilməlidir. Mən onu da bildirmək istəyirəm ki, neftçilərin maaşları bütün başqa sahələrdə işləyən fəhlələrin, mühəndislərin, mütəxəssislərin maaşlarının hamısından yüksəkdir, bunu siz bilirsiniz. Bizim neft şirkətində orta əmək haqqı 200 min manatdır. Elədir, ya yox? 220 min manatdan artıqdır. Amma ümumiyyətlə, bizim respublikada orta əmək haqqı 60 min manatdır. 60 minlə 220 min arasında, görürsünüz, üç dəfədən çox fərq var. Deməli, neftçilərin orta əmək haqqı bütün başqa sahələrdə işləyən adamların orta əmək haqqından üç dəfə artıqdır. Bilirəm ki, bu da bugünkü tələbatı ödəmir. Ancaq nə edək ki, bundan artıq imkanımız yoxdur. Lakin Maliyyə Nazirliyi, banklarımız neftçilərin maaşlarının vaxtlı-vaxtında verilməsini təmin etməlidirlər. Neftçilərin maaşı gecikməməlidir, bunu təmin etmək lazımdır.

Neftçilərin səmərəli işləməsi üçün burada bir çox problemlər qaldırıldı. Təkcə onların səmərəli işləməsi üçün yox, ümumiyyətlə neft sənayesinin daha ahəngdar işləməsi üçün məsələlər qaldırıldı. Məsələn, neft sənayesinə olan borclar və neft sənayesinin borcları. Azərenerji şirkətinin rəhbəri Müslüm İmanov çıxış etdi – onların borcları və onlara olan borclar. Kənd təsərrüfatının borcları və kənd təsərrüfatına olan borclar. Eləcə də başqa sahələri götürək. Bunlar böyük iqtisadi problemlərdir. Mən bunların həll edilməsi barədə dəfələrlə Nazirlər Kabinetinə göstərişlər vermişəm. Bu gün çox böyük təəssüf hissi ilə demək istəyirəm ki, Nazirlər Kabineti, İqtisadiyyat Nazirliyi bu məsələlərin həlli ilə layiqincə məşğul [296-297] olmurlar. Demək istəmirəm ki, bu məsələlərin həll olunması asan bir işdir. Yox, asan iş deyildir. Ancaq eyni zamanda bunu tamamilə çıxılmaz vəziyyət kimi də qəbul edə bilmərəm. Bunun cürbəcür yolları var. Bu yolları bizim iqtisadçılar da bilirlər, sənayeçilər də bilirlər və Nazirlər Kabinetinin rəhbərliyi də bilir. Sadəcə olaraq oturub bir neçə variant haqqında düşünmək lazımdır, lazımi tədbir görülməlidir.

Ancaq təəssüf ki, bu tədbirlər görülmür. Bir tərəfdən biz neft çıxarırıq. Burada İmanov dedi ki, neft şirkətinin məhsullarının 40 faizini onlar işlədir, elektrik enerjisi istehsal edirlər. Həmin elektrik enerjisi əhaliyə, xüsusən sənaye müəssisələrinə verilir. Əgər istifadə olunan elektrik enerjisinin qiyməti qayıtmırsa, demək, insanlar, təşkilatlar, müəssisələr bundan müftə istifadə edirlər. Şübhəsiz ki, onlar da müftə istifadə edəndə hər şeyi dağıdırlar. Bunların qarşısı alınmalıdır, lazımi tədbirlər görülməlidir. Bu tədbirləri də Nazirlər Kabineti görməlidir. Təəssüf ki, Nazirlər Kabineti bu işlərlə ciddi məşğul olmamışdır. Mən tələb edirəm ki, bu işlərlə ümumiyyətlə ciddi məşğul olunsun. Xüsusən neft sənayesinin problemlərinin köklü surətdə həll olunması üçün ayrıca tədbirlər hazırlanmalı, təsdiq edilməlidir. Lazım gələrsə, bunlar mənim fərmanlarımla qəbul olunmalıdır.

Ona görə mən Nazirlər Kabinetinə tapşırıram. Baş nazir Fuad Quliyev burada yoxdur, ezamiyyətdədir, iki-üç gündən sonra gələcəkdir, ona tapşırıq verirəm, – neft sənayesinin bütün problemlərinin həll olunması üçün bir ay müddətində tədbirlər hazırlansın və mənə təqdim edilsin. Şübhəsiz ki, bu tədbirlər Dövlət Neft Şirkəti ilə birlikdə, müvafiq nazirliklər – İqtisadiyyat Nazirliyi, Maliyyə Nazirliyi ilə, banklarla, başqa əlaqədar təşkilatlarla birlikdə hazırlanmalıdır.

Burada borclar haqqında söhbət getdi. Bu da böyük bir problemdir. Biz bu məsələnin həll olunmasını vaxtilə Nazirlər Kabinetinə tapşırmışıq. Nazirlər Kabineti bu məsələlərin həlli üçün komissiya yaradıbdır. Ancaq bu komissiya indiyə qədər bir iş görə bilməyibdir. Ona görə mən bu gün Nazirlər Kabinetinə və Vahid Axundova tapşırıram ki, bu, sadəcə şifahi tapşırıq olmasın, bu tapşırıqla əlaqədar və neft sahəsində görüləsi işlərlə əlaqədar mənim sərəncamımı hazırlayasınız ki, mən onu imzalayım. Bunun üçün ayrı sərəncam. Borcların ödənilməsi ilə əlaqədar oktyabrın 15-dək müvafiq tədbirlər hazırlanıb təqdim olunmalıdır. Yəni Nazirlər Kabinetində [297-298] bunlara baxılmalıdır, lazımi qərarlar qəbul olunmalıdır və bu qərarların qəbul edilməsi və nəticəsi haqqında Prezidentə məlumat verilməlidir.

Mən yenə də Dövlət Neft Şirkətinin daxili imkanları məsələsinə qayıdıram. Dövlət Neft Şirkəti istehsal etdiyi neft məhsullarının böyük bir hissəsini ixrac edir, xarici ölkələrə satır, valyuta qazanır. Ancaq ixrac edilən neftdən gələn gəlirdən necə istifadə olunur? Doğrusu, bu barədə mənim dəqiq məlumatım yoxdur. Mən bunu Natiq Əliyevə bir neçə dəfə demişəm. Bu gün də görüşdən əvvəl dedim. O mənə deyir ki, biz bunu xərcləyirik, öz daxili işlərimizə yönəldirik. Ancaq mənim məlumatım yoxdur ki, nə cür xərclənir, nə təhər xərclənir. Hər halda bizim ixracdan gələn gəlirimizin əsas mənbələrindən biri neft məhsullarıdır. Bu məhsulları biz satırıq. Amma gələn gəlirdən nə cür, nə təhər istifadə olunur, buna nə qədər nəzarət var, bu pullar hara gedir – mən bir Prezident kimi bunu bilmirəm.

Tələb edirəm ki, həm 1993-cü ildə, həm 1994-cü ildə, həm də bu ilin doqquz ayında xaricə satılmış bütün neft məhsullarının haraya, nə qədər, hansı qiymətə satılması, ondan nə qədər gəlir gəlməsi, bu gəlirin haraya istifadə olunması, nə nəticə verməsi barədə Dövlət Neft Şirkəti mənə yazılı hesabat versin. Mən bunu bilməliyəm. Nəinki bilməliyəm, həm də bu, bizim müzakirə mövzusuna çevrilməlidir. Biz bunu müzakirə etməliyik. Çünki bu heç vaxt nə Nazirlər Kabinetində müzakirə olunubdur, nə bir Prezident kimi mən bunu burada heç vaxt müzakirə etməmişəm və bilmirəm bu pullar haraya gedir. Mən bundan narahatam. Ona görə də bunu tələb edirəm.

Burada dedilər ki, biz keçən il Türkmənistandan qaz almışıq. Bu ilin əvvəlində də, – mən belə başa düşdüm, – 500 milyon kubmetr qaz alınıbdır. Son vaxtlar mən oradan-buradan belə təkliflər eşidirdim ki, biz yenə də

Türkmənistanla əlaqə yaratmalıyıq, qaz almalıyıq və respublikanı qazla təmin etməliyik. Əgər belə olmasa, burada vəziyyət çətinləşəcək, ağır olacaq, hətta bəziləri deyirdi ki, sosial partlayış olacaq və sairə. İndi burada Səməd Sadıqov dedi ki, bizim qaza olan tələbatımızın 6,6 milyard kubmetri var, 2 milyard kubmetr çatışmır. Bilirsiniz, bəlkə bizə bundan əlavə 4 milyard kubmetr də qaz lazımdır. Ancaq elə şey var ki, bizim yoxumuzdur, 6,6 milyard kubmetr qazımız ki var! Bəs Gürcüstan, Ermənistan nə etsin – onların bir kubmetr də qazı yoxdur. Onlar necə yaşayırlar! [298-299]

Mən bunu niyə deyirəm? Özü də çox böyük hiddətlə deyirəm. Çünki çıxarılan qazın bir çox hissəsi dağıdılır, ayrı-ayrı yerlərdə satılır. Mənə gələn məlumatlardan görünür ki, bizim Dövlət Qaz Şirkətində çox hərcmərclik var. Onlar qazı Gürcüstana, oradan da Ermənistana satırlar. Həm də təkcə qazı yox. Məndə olan məlumatlara görə, buradan neft məhsullarını da xəlvətcə Qazax tərəfdən keçirirlər və Gürcüstan adı ilə Ermənistana da gedir. Türkmənistandan qazın alınmasında da cürbəcür qanunsuz və iqtisadiyyatımıza zərbə vuran hərəkətlər olubdur. Bu siqnallar da mənə gəlib çatıbdır. Mən elə bilirəm ki, qaz almaq üçün çox çalışan adamlar heç də hesab etmirlər ki, doğrudan da biz qışda qazsız yaşaya bilməyəcəyik. Ona görə ki, istəyirlər bu işdə yenə əllərini qızdırsınlar.

Bilirsiniz, xalqın bu ağır vəziyyətində, insanların kasıb yaşadıqları bir dövrdə xalqın malını oğurlayıb, mənimsəyib zənginləşməkdən ləyaqətsiz hərəkət ola bilməz. Ayrı-ayrı insanlar ləyaqətini itiriblər, xalq haqqında düşünmək əvəzinə, millət haqqında düşünmək əvəzinə, respublikanın iqtisadiyyatını normal vəziyyətə salmaq əvəzinə tutduğu vəzifəyə hərə özü üçün xüsusi bir gəlir götürmək istəyir. Özü də bu gəliri, nə təhər deyərlər, bir balaca insafla götürsə, yenə deyərsən ki, buna bəlkə dözmək olar. Ancaq bunlar o qədər yırtıcı olurlar, o qədər gözüac olurlar ki, heç bir şeylə doymurlar. Beləlləri bizim içərimizdə hələ də var. Həmin bu qazı, neft məhsullarını bizim qərb zonasında satan adamlar yenə öz çirkin işlərini davam etdirirlər.

Ümumiyyətlə, işlərimizin çətin getməsinin səbəbi nədir? Burada Müslüm İmanov danışdı. Bir məsələni həll etmək üçün min dənə mərtəbədən keçib hər yerdə nə isə vermək lazımdır. Bizim bu ağır vəziyyətimizdə belə şeylərə dözmək olarmı?

Dəmir yolunda böyük hərcmərclik var. Şirkətlərin-filanların yüklərinin birini də rüşvətsiz keçirmirlər. Hətta onun taksası da var: hansı vaqona nə qədər vermək lazımdır.

Bilirsiniz, bu qədər soyğunçuluq, xalqa bu qədər xəyanət hallarına biz artıq dözə bilmərik. Ona görə də mən hesab edirəm ki, əgər bu il biz 6,6 milyard kubmetr qaz çıxarırıqsa, həmin səviyyəni nəinki saxlamaq, həm də artırmaq lazımdır. Çünki "Pennzoyl" şirkətinin bizə verdiyi kompressor stansiyasının hesabına o artmalıdır və bundan savayı özümüz də [299-300] onu artırmalıyıq. Əgər "Pennzoyl" olmasaydı, demək, biz bir milyard filan qədər aşağıya düşməliydik? Keçən il "Pennzoyl" yox idi, biz 6,4 milyard kubmetr qaz çıxarmışdıq. Bu il "Pennzoyl" var, 6,6 milyard kubmetr qaz çıxarılacağı gözlənilir.

İndi bir milyard 300 milyon kubmetr qaz gəlir. Əgər "Pennzoyl" olmasaydı, onda qazın həcmi nə qədər aşağı düşəcəkdi. Belə yaramaz, mən bununla razı ola bilmərəm. Mən Dövlət Neft Şirkətinin rəhbərliyindən və Natiq Əliyevdən tələb edirəm ki, qazçıxarma sahəsində əlavə tədbirlər görülsün. Biz bu il Türkmənistandan qaz almayacağıq, imkanımız yoxdur. Mən bunu elan edirəm. Onsuz da indiyədək alınan qazdan bizim xeyli borcumuz var.

Bilirsiniz, indi baş qarışıqdır, bəzən mən bunu bilmirəm, amma bu işlə bir balaca ciddi məşğul olanda hər şey mənə aydın olur. Türkmənistandan ki, qazı almışıq, mən hesab edirəm ki, o qazın hamısı gəlib respublikaya çatmayıb. Onu oğurlayıblar, Türkmənistanda və burada olan adamlar əlbir olub onu mənimsəyiblər. Mən belə fikirdəyəm, bu mənim təhlilimin nəticəsidir. Ona görə də biz bu il heç bir yerdən qaz almayacağıq, öz qazımızla yaşamalıyıq.

Yenə də deyirəm, Ermənistan 1990-cı ildən heç bir yerdən qaz almır. Gedib Türkmənistandan milyard yarım kubmetr qaz alır, nə cür yaşayır? Yaşayır, hətta müharibə edib bizim torpaqlarımızı da işğal etdi. Ermənistanın nefti, neft məhsulları yoxdur. Biz respublikamızı neftlə bütünlüklə təchiz etmişik. Nefti, benzini olmayan Ermənistan isə gəlib torpaqlarımızı işğal etdi. Amma bu qədər neft çıxarırıq, bu qədər neft məhsullarımız var, bunları isə ora-bura dağıdırıq.

Gürcüstanın da həmçinin, nə nefti var, nə də qazı var. Böyük çətinliklə İrandan, yaxud Türkmənistandan bir qədər qaz ala bilirlər. Ordan-burdan bir az neft məhsulları alırlar, yaşayırlar. Bizim isə bu qədər neftimiz olduğu halda və bu qədər qaz çıxardığımız halda hələ gedib Türkmənistandan qaz alıb gətirək? Əlbəttə, pulumuz olsaydı, alardıq. Ancaq yoxdur axı! Olmayan halda nə üçün bəzi adamlar bizi daha böyük bəlaya salmaq istəyirlər?

Qazdan istifadə edilməsinə nəzarət olmalıdır. Mən "Azəriqaz" Dövlət Şirkətinin prezidenti Tariyel Hüseynova xəbərdarlıq edirəm və ondan tələb edirəm ki, şirkətin işində olan nöqsanlar aradan götürülsün. Cürbəcür yaramaz hallara son qoymaq lazımdır. Dövlət Neft Şirkətindən tələb edirəm ki, [300-301] qaz istehsalını təmin etsin ki, xüsusən qış dövründə respublikamız öz qazı ilə yaşayıb-işləyə bilsin.

Gəlin bir şeyi də fikirləşək. Sənayenin çox hissəsi işləmir. Respublikamızda qazın və neft məhsullarının ən böyük istehlakçısı sənayemizdir. Sənayenin çox hissəsi işləmirsə, bəs onda qaz niyə çatmır? Axı, işləmirsə,

demək, ora qaz getmir. Neft məhsulları da həmçinin. Əgər sənayenin çox hissəsi işləmirsə və neft məhsullarından istifadə etmirsə, onda bu neft məhsulları haradadır?

Bizim İqtisadiyyat Nazirliyi də köhnə qayda ilə işləməməlidir. Siz bu məsələlərə baxmalısınız. Köhnə Dövlət Plan Komitəsində olduğu kimi, sizin standart cədvəlləriniz var və həmin cədvəllər əsasında da yazırsınız ki, keçən il bu qədər olmuşdur, gərək bu il bundan beş faiz artıq olsun. Bir bax, gör, hansı zavod, hansı fabrik işləyir, nə qədər qazdan istifadə edir, nə qədər neft məhsullarından istifadə edir, nə qədər elektrik enerjisi işlədir.

Müslüm İmanov burada deyir ki, mən elektrik enerjisi verirəm, pul vermirlər. Yaxşı, sən elektrik enerjisini verirsən, əgər bu zavodların, fabriklərin bir çoxu işləmirsə, yaxud da ki, istehsal gücünün cəmi 20-30 faizi səviyyəsində işləyirsə, bu elektrik enerjisi hara gedir? Bunu bir araşdıran varmı? Yoxdur axı!

Bizim İqtisadiyyat Nazirliyi bununla məşğul olmur, Nazirlər Kabineti bununla məşğul olmur. Ayrı-ayrı müəssisə rəhbərləri, şirkət rəhbərləri axı, vicdanla işləməlidirlər. Bu, yağı malı deyil, dövlətin malıdır. Bu, bizim xalqın sərvətidir. Əgər sənin zavodun bu il öz istehsal gücünün 20 faizi səviyyəsində işləyirsə, demək, sən 20 faiz elektrik enerjisi alacaqsan, 20 faiz də neft, yaxud qaz məhsulları ala bilərsən. Sənə bundan artıq lazım deyil. Əgər artıq gəlirsə, demək, harasa havayı gedir, harasa dağıdılır, oğurlanır.

Bu məsələləri həm araşdırmaq lazımdır, həm də qanun-qayda yaratmaq lazımdır. Mən İqtisadiyyat Nazirliyinə, Nazirlər Kabinetinə tapşırıram ki, bu məsələləri araşdırsınlar, respublikanın istehsal sahələrində – sənayedə, kənd təsərrüfatında, nəqliyyatda və bütün başqa sahələrdə elektrik enerjisinə, neft məhsullarına olan tələbat dəqiqləşdirilsin. Kağız üzərində on ildən, on beş ildən qalmış tələbat yox, real tələbat müəyyənləşdirilsin, onlara tələbatı təmin edən miqdarda bu məhsullar, o cümlədən elektrik enerjisi ayrılsın və [301-302] məlumat verilsin ki, bu elektrik enerjisinin, neft-qaz məhsullarının qalan hissəsi haradadır, hara gedir və bundan kim istifadə edir.

Mən Azərbaycan neftçilərinin fəaliyyətini həmişə yüksək qiymətləndirmişəm və qiymətləndirirəm. Neftçilər Azərbaycan tarixində əvəzsiz xidmətlər göstərmişlər, əsrin əvvəlindən indiyədək Azərbaycanın şanını-şöhrətini qaldırmışlar. Respublikanın bütün iqtisadiyyatının inkişafı neft sənayesi ilə bağlıdır. Demək, Azərbaycan neftçilərinin əməyi ilə bağlıdır.

Azərbaycan neftçiləri 45 ildir ki, dənizdən neft çıxarırlar və onların hər günkü əməyi böyük qəhrəmanlıq nümunəsidir. 28 May adına Neft və Qazçıxarma İdarəsinin burada çıxış edən nümayəndəsi dedi ki, onlar balaca bir sahədə, bir özüldə həm işləyirlər, həm də yaşayırlar, lakin xəstələri olanda onlara dərman verən bir həkim də yoxdur. Belə bir şəraitdə işləməyin, çalışmağın özü bir qəhrəmanlıqdır. Mən həmişə olduğu kimi, bu gün bir daha neftçilərin əmək fəaliyyətini, Azərbaycan iqtisadiyyatının inkişaf etməsində onların xidmətini yüksək qiymətləndirirəm və bütün neftçilərə öz təşəkkürümü, hörmət və ehtiramımı bildirirəm.

28 May adına Neft və Qazçıxarma İdarəsinin buruqlarından, Neft daşlarından, başqa neftçıxarma idarələrindən, yaxud neft buruqlarından gələrək burada iştirak edən, neft sənayesində, bilavasitə neftin çıxarılmasında işləyən şəxslərlə bugünkü görüşümdən çox məmnun olduğumu bildirmək istəyirəm. 28 May adına Neft və Qazçıxarma İdarəsindən burada çıxış edən nümayəndə dedi ki, onun Prezidentlə görüşəcəyini eşidəndə hamı sevindi. Bilin ki, mən də sizinlə görüşə belə sevinclə gəlmişəm.

İşlər çox olduğuna görə indi mən Neft daşlarına gəlməyə imkan tapmamışam. 28 May adına idarənin buruqlarına da gəlməyə çox can atıram, amma hələ ki, imkanım yoxdur. Güman edirəm, vaxt gələcək, biz bəzi işlərimizi qurtarandan sonra mən sizin yanınıza da gələcəyəm, görüşəcəyik. Bilavasitə sizin buruqlarda, sahələrində söhbət edəcəyik, problemlərinizin həll olunması üçün əlavə tədbirlər görəcəyik. Mən burada olan nümayəndələrdən xahiş edirəm ki, bütün neftçilərə və xüsusən uzaqda, dənizdə işləyən, ayrı-ayrı buruqlarda olan neftçilərə mənim salamımı, hörmət və ehtiramımı çatdırasınız.

Biz sözlə, neftçilər Azərbaycan ictimaiyyətinin, xalqının, cəmiyyətinin həmişə aparıcı qüvvəsi olublar, belə də var. Neftçilər [302-303] Azərbaycan dövlətçiliyinin dayağıdırlar. Mən neftçilərə güvənirəm və Azərbaycan neftçilərinin dayağı kimi mən onları daim öz yanımda hiss edirəm. Sizin problemlərinizin imkan daxilində həll olunması üçün lazımi göstərişlər verdim.

Bu gün müzakirə olunan ikinci məsələ neft müqaviləsinin həyata keçirilməsi barədədir. Dövlət Neft Şirkətinin prezidenti Natiq Əliyevin verdiyi məlumatdan belə görünür ki, neft konsorsiumunun fəaliyyəti ilə əlaqədar Beynəlxalq Rəhbər komitənin bu il üçün nəzərdə tutduğu işlər normal gedir, planlar vaxtlı-vaxtında yerinə yetirilir, ayrılmış büdcədən tamamilə istifadə olunur və ilin axırınadək istifadə olunacaqdır. Bu onu göstərir ki, neft müqaviləsi kağız üzərində olan bir sənəd deyil, artıq fəaliyyətdə olan bir müqavilədir. Bu gün neft müqaviləsinin birinci ildönümünü qeyd edərkən mən bir daha bildirmək istəyirəm ki, biz bir il bundan əvvəl Azərbaycanın iqtisadiyyatı üçün, Azərbaycan xalqının rifahı üçün, respublikamızın bu günü və gələcəyi üçün çox cəsarətli, gərəkli bir addım atmışıq. Biz bu yolla gedəcəyik, imzalanmış neft müqaviləsini ilbəil həyata keçirəcəyik.

Mən əminəm ki, Azərbaycan xalqı müqavilədə nəzərdə tutulmuş mərhələlərdə bu müqavilənin əhəmiyyətini və xüsusən onun iqtisadi faydasını görəcək, hiss edəcəkdir. Ancaq onun əhəmiyyəti və faydası sadəcə olaraq müqavilə əsasında çıxarılan neftdən gələn gəlirdən ibarət deyil. "Geofizika" müştərək müəssisəsinin rəhbəri Fuad Əliyevin buradakı çıxışı buna nümunədir. Nümunədir ona görə ki, biz bu neft müqaviləsi ilə artıq

dünyanın neft şirkətlərinin, tək neft şirkətlərinin yox, bütün başqa şirkətlərin də Azərbaycana gəlməsi üçün geniş yol açmışıq. Onlar bu yolla gedəcəklər və öz fəaliyyətləri ilə, elə bu müqavilənin həyata keçirilməsi üçün qoyduqları vəsaitlə Azərbaycan iqtisadiyyatının bir çox sahələrini inkişaf etdirəcəklər və Azərbaycanın müasir tələblərə uyğun infrastrukturlarını yaradacaqlar. Mən buna tam əminəm.

Əgər "Geofizika" müştərək müəssisəsində indi 600 nəfər işləyirsə və yüksək əmək haqqı alırsa, onların hazırladığı, avadanlıqla təmin etdiyi "Geofizika" gəmisi artıq dünya standartlarına cavab verirsə və Xəzər dənizinin başqa sektorlarında da fəaliyyət göstərə bilirsə, artıq bu, neft müqaviləsinin kiçik, orta bir nəticəsidir. Ancaq neft müqaviləsindən bilavasitə və dolayısı ilə irəli gələn, bizim üçün iqtisadi cəhətdən belə mənfəətli [303-304] hallar bu gün də, gələcəkdə də çox olacaqdır. Ona görə də biz bu neft müqaviləsinin həyata keçirilməsini ardıcıl surətdə təmin edəcəyik.

Düzdür, neft müqaviləsi bir ildir ki, imzalanıbdır. Bir ildir ki, dünyanın demək olar hər yerində bu müqavilənin ətrafında cürbəcür mülahizələr irəli sürülür. Neft müqaviləsi, demək olar ki, bütün dünya mətbuatının və bir çox iqtisadi mərkəzlərin, bir çox ölkələrin diqqətini xüsusi cəlb edibdir. Onun həyata keçirilməsi üçün cürbəcür manеələr törətmək istəyirlər. Onun əleyhinə ayrı-ayrı ölkələrdə, ayrı-ayrı mətbuat orqanlarında cürbəcür məqalələr yazırlar. Bəzən bizi qorxutmaq istəyirlər. Bəzən bizi bu işlərdən çəkindirmək istəyirlər. Ancaq bunların hamısı əhəmiyyətsizdir. Çünki biz neft müqaviləsini imzalamaqdan qabaq, baş verə biləcək bütün bu halları düşünmüşük, onları qabaqcadan görmüşük və neft müqaviləsini tam düşüncəli şəkildə və tam inamla imzalamışıq.

Ancaq çalışmaq lazımdır ki, neft müqaviləsi Azərbaycan iqtisadiyyatının bütün sahələrinə də qoşulsun. Məsələn, bizim neft maşınqayırma sahəsi. Mənə deyirlər ki, guya bu barədə – neft maşınqayırma sənayesində bu neft müqaviləsinin həyata keçirilməsi barədə danışıqlar gedir. Amma güman edirəm ki, danışıqlar hələ zəif gedir. Çünki bu neft müqaviləsinin həyata keçirilməsində Azərbaycanın neftçıxarma və neft maşınqayırma potensialından istifadə olunmalıdır. Bu konsern isə çox zəif işləyir. O zavodların rəhbərləri də bu işlə ciddi məşğul olsunlar. Mən fürsətdən istifadə edib bu gün bunu deyirəm və konsernin rəhbərliyini, zavodların rəhbərlərini xəbərdar edirəm – onlar bu işlə ciddi məşğul olsunlar.

Bu yaxınlarda konsorsiumun beynəlxalq rəhbər komitəsinin Azərbaycanda, Bakıda iclası olacaqdır. Konsorsiumun nümayəndələri yenə də Bakıda toplaşacaqlar. Onlarla sıx əməkdaşlıq etmək lazımdır. Ümumiyyətlə, sənayemizin bütün sahələri maşınqayırma sahəsi, xüsusən neft maşınqayırma sahəsi bu işə girişməlidir. Müqavilənin imzalanmasından bir il keçibdir. Ancaq mən burda hələ ki, ciddi bir hərəkət görmürəm. Təkcə neft maşınqayırmasında deyil, iqtisadiyyatımızın başqa sahələrində də xüsusən sənayemizdə, maşınqayırmanın başqa sahələrində ciddi bir nəticə müşahidə olunmur.

Şübhəsiz ki, zavodlarımız, istehsal müəssisələrimiz bu neft müqaviləsinin həyata keçirilməsində iştirak etmək üçün gərək [304-305] müasir texnologiya səviyyəsinə qalxsınlar. Ancaq bu səviyyəyə qalxmaq üçün də gərək müştərək işə qoşulasınız, bu şirkətləri özünüzə cəlb edəsiniz. Bu müasir texnologiya səviyyəsinə onlarla birlikdə qalxmaq olar. Siz təkbaşına müasir texnologiya səviyyəsinə qalxa bilməyəcəksiniz. Çünki özünüzün vəsaitiniz yoxdur və sizə əlavə vəsait verməyə bizim imkanlarımız da yoxdur. Siz bunu bilməlisiniz və düşünməməlisiniz ki, bir ay da, iki ay da, üç ay da yaşadınız, işlədiniz, başınızı birtəhər dolandırdınız, – bununla da qurtarmaq olar. Bu cür işləmək olmaz. Bizim böyük iqtisadi potensialımız var, bu potensial şübhəsiz ki, neft müqaviləsinin həyata keçirilməsinə cəlb olunmalıdır, mütləq!

O ki qaldı, Dərin özüllər zavodu, indi onun adını dəyişiblər, başqa cürdür, – o zavod bu sahədə işin əsas iştirakçısı olmalıdır. Mən bunu tapşırdım və güman edirəm ki, mənə bu barədə məlumatlar veriləcəkdir. Ancaq indi bilmirəm o "MakDermott" şirkəti ilə müştərək yaranmış müəssisənin fəaliyyəti necə olacaqdır. Güman edirəm ki, bunlar düşünülmüş bir şeydir. Mən hesab edirəm ki, bu zavodun istehsal gücü tamamilə konsorsiuma cəlb olunmalıdır və konsorsium tamamilə bundan istifadə etməlidir.

Zavodun direktoru burada dedi ki, ona şərait yaratsınlar, nəsə çubuqlar istehsal etsin, onlar lazımdır. Bəlkə sənayemizə, iqtisadiyyatımıza lazımdır, mənim etirazım yoxdur. Amma bu, zavodun əsas iş sahəsi deyil axı, köməkçi, əlavə sahəsidir. Zavod özünə əlavə iş tapmaq istəyir. Mən bunu başa düşürəm, ona kömək etmək olar ki, doğrudan da fəhlələrin, mütəxəssislərin müəyyən hissəsi orada işləsin. Ancaq bu, zavodun əsas məqsədi, əsas profili deyil. Zavodun əsas profilindən istifadə etmək haqqında, bu barədə düşünmək lazımdır. Güman edirəm, Nazirlər Kabinetinə bir ay müddətinə hazırlamağı tapşırdığım tədbirlərə bunlar hamısı daxil olacaqdır.

Biz sözlə, imzalanmış neft müqaviləsinin bir illiyini bu gün qeyd edərək məmnuniyyət hissi ilə bildirmək istəyirəm ki, müqavilə işləyir, lazımi işlər görülür. Ancaq bu işlərin daha geniş miqyasda görülməsi üçün iqtisadiyyatımızın bütün sahələri bu müqavilədə iştirak etməyə maraq göstərməlidirlər, öz təkliflərini verməlidirlər, təşəbbüslərdə bulunmalıdırlar.

Nəhayət, bu gün iqtisadiyyatdan söhbət getdiyinə görə mən bir də bildirmək istəyirəm ki, iqtisadiyyatımızın bu ağır vəziy[305-306]yətdən çıxması yolu iqtisadiyyatda islahatların aparılmasıdır, özəlləşdirmə proqramının həyata keçirilməsidir, bütün islahatların keçirilməsidir və mülkiyyətin formasının dəyişdirilməsidir. Bunun üçün bütün sahələrdə, o cümlədən neft və qaz sahəsində də ciddi işlər görülməlidir. Ancaq bu işlər qanun

çərçivəsində proqramımız çərçivəsində aparılmalıdır. Bu işləri görərkən heç kəs nə vəzifəsindən, nə də imkanlarından sui-istifadə etməməlidir.

Bu ağır, çətin prosesdir. Ona görə də bu prosesin həyata keçirilməsində hər bir insan gərək vətəndaşlıq məsuliyyətini hiss etsin. Hiss etsin ki, bu işdə gərək namusla, insafla iştirak etsin, öz xeyrini də götürsün, ancaq dövlətə də zərər vurmasın. İqtisadiyyatımız bütün bu özəlləşdirmədən böyük mənfəət götürməlidir. Nədən mənfəət götürməlidir? Birincisi, bu özəlləşdirmə prosesindən, gəlirdən Azərbaycanın milli gəlirinin, büdcəsinin inkişaf etməsi təmin olunmalıdır. İkincisi də özəlləşdirilmiş müəssisələr dərhal yeni texnologiya ilə şəxsi mülkiyyətdə işləyib mallar istehsal etməlidir, nəticələr verməlidir və bu da iqtisadiyyatımızı inkişaf etdirməlidir. Bunu ancaq ona görə edirik. Başqa məqsəd olsa biz bunu etmərik.

Ona görə də mən bu məsələlərin qarşımızda duran əsas məsələlər olduğunu bir daha bəyan edirəm və güman edirəm ki, bu tədbirlərin həyata keçirilməsində hər kəs öz məsuliyyətini hiss edəcəkdir.

Gəlin, bununla da bu görüşümüzü qurtaraq. Görüşümüzün sonunda Azərbaycan neftçilərini indiyədək etdikləri xidmətlərə görə bir daha təbrik edirəm. Onlara təşəkkürümü bildirirəm. Müstəqil Azərbaycan Respublikasının bu günü, gələcəyi naminə neftçilərimizin böyük fəaliyyət göstərəcəyinə ümidvar olduğumu bildirmək istəyirəm. Sağ olun. [306-307]

## AZƏRBAYCAN YƏHUDİ İCMASINA

Əziz həmvətənlər!

Respublikamızın bütün yəhudi vətəndaşlarını Roş-Ha-Şana-yəhudi təqvimi ilə təzə il münasibətilə ürəkdən təbrik edirəm. Bu qədim bayram dünya yəhudiləri üçün təkcə yeni ilin başlanğıcı deyil, həm də insanların etiraf və tövbə, paklaşma və yeniləşmə çağıdır.

Bu bayram münasibətilə yəhudi qardaş və bacılarımıza cansağlığı, xoşbəxtlik, səadət diləyir, ölkəmizdə milli həmrəyliyin daha da möhkəmləndirilməsi, doğma evimiz – suveren Azərbaycanın çiçəklənməsi naminə hamılıqla səyləri artırmağı arzulayıram.

Allah eləsin – təzə il əmin-amalıq, şad xəbərlər, gerçəkləşən xoş arzular ili olsun!

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*25 sentyabr 1995-ci il* [307-308]

## ÇİN XALQ RESPUBLİKASI YARANMASININ 46-cı İLDÖNÜMÜ MÜNASİBƏTİLƏ RƏSMİ QƏBULDA NİTQ

*„Gülüstan" Sarayı*

*29 sentyabr 1995-ci il*

Hörmətli cənab səfir!
Hörmətli xanımlar və cənablar!

Çin Xalq Respublikasının yaranmasının 46-cı ildönümü, bu bayram münasibətilə mən sizin hamınızı, böyük Çin xalqını ürəkdən təbrik edirəm və Çin xalqına xoşbəxtlik, firavanlıq arzulayıram.

Çin Xalq Respublikası yaranandan indiyə qədər – 46 il ərzində öz ölkəsinin inkişafı üçün çox böyük işlər görmüşdür. Görülən işlər Çin xalqının rifahını yaxşılaşdırıb, ÇXR-in dünya miqyasında mövqelərini möhkəmləndiribdir.

Çin böyük bir ölkədir. Çin xalqı böyük bir xalqdır. Çin xalqının qədim, zəngin tarixi var. Bu xalq dünya mədəniyyətinə, sivilizasiyasına böyük töhfələr veribdir. Çin xalqının bəşəriyyət qarşısındakı xidmətləri daim yüksək qiymətləndirilib. İndi, yeni şəraitdə, – XX əsrin ortalarından, 1949-cu ildən Çin xalqı yeni bir həyat qurmağa başlayıb. Çin Xalq Respublikası və onun rəhbərləri Çin xalqını tutduqları yol ilə aparırlar. Doğrudan da, bu müddətdə Çin Xalq Respublikasında çox ciddi və səmərəli iqtisadi islahatlar həyata keçirilib. Bunlar Çin xalqının tarixinə, ənənəsinə və ölkənin daxili siyasətinə uyğun olan islahatlardır və Çin xalqına böyük faydalar gətiribdir. Biz bunları keçən il ÇXR-də rəsmi səfərdə olarkən öz gözümüzlə gördük və yaxından tanış olmaq imkanı əldə etdik.

Çin Xalq Respublikası ilə Azərbaycan arasında dostluq əlaqələri yaranıbdır. ÇXR BMT Təhlükəsizlik Şurasının daimi üzvüdür. ÇXR bu beynəlxalq təşkilatın Təhlükəsizlik Şurasında həmişə ölkələrin, xalqların milli azadlıq və öz dövlət müstəqilliyini əldə etmək səylərinə tərəfdar olubdur. Azərbaycan Respublikası yaranandan ÇXR respublikamızın milli azadlığını, dövlət müstəqilliyini tanıyıb və beynəlxalq təşkilatlarda, xüsusən BMT-də ölkəmizlə sıx əməkdaşlıq edib. [308-309]

Məlumdur ki, Azərbaycan Respublikası Ermənistan tərəfindən təcavüz altındadır və bu təcavüz nəticəsində ölkəmizin həyatında çox faciəli hadisələr baş veribdir. Bu məsələlər, xüsusən Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsi ilə əlaqədar məsələlər beynəlxalq təşkilatlarda, o cümlədən BMT Təhlükəsizlik Şurasında müzakirə olunub. Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsi ilə əlaqədar BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi qətnamələrə ÇXR-in daimi nümayəndəsi həmişə səs verib, tərəfdar olubdur.

Ölkələrimiz arasında əlaqələr inkişaf etməkdədir. Çin Xalq Respublikasının sədri Szyan Szeminin dəvəti ilə keçən il mən ÇXR-də rəsmi səfərdə olmuşam. Bu səfər zamanı ÇXR-in sədri cənab Szyan Szemin ilə, ÇXR Dövlət Şurasının sədri cənab Li Pen ilə və başqa rəhbər şəxslərlə bizim çox səmərəli görüşlərimiz, danışıqlarımız olmuş və dövlətlərimiz, ölkələrimiz arasında əlaqələrin inkişaf etdirilməsi üçün çox əhəmiyyətli sənədlər imzalanmışdır. Biz bunu yüksək qiymətləndiririk və hesab edirik ki, müstəqil Azərbaycan Respublikası ilə ÇXR arasında əlaqələrin inkişaf etməsi üçün bu, böyük bir mərhələdir.

Mən və ÇXR-də mənimlə səfərdə olmuş Azərbaycan nümayəndələri bu səfərimizdən çox gözəl təəssüratlarla qayıtmışıq, görüşlərimizdən və danışıqlarımızdan çox razı qalmışıq. Orada bizə böyük qonaqpərvərlik, hörmət və ehtiram göstərilibdir. Bunlar hamısı bir daha sübut edir ki, ölkələrimiz arasındakı əlaqələr yaxşıdır, ancaq daha da inkişaf etmək imkanına malikdir. Ölkələrimiz, xalqlarımız arasında olan əlaqələrin inkişaf etməsinə biz öz tərəfimizdən çalışacağıq və səylər göstərəcəyik.

Mütəxəssislərimiz ÇXR-də gedən islahatları və onların xarakterini öyrənirlər. ÇXR-də həyata keçirilən işlər bizim üçün şübhəsiz ki, maraqlıdır və iqtisadçılarımız, xüsusən sənaye sahəsində, bazar iqtisadiyyatı yolunda fəaliyyət göstərən orqanlarımız bundan istifadə etməli, bəhrələnməlidirlər.

Bu bayram günündə mən bir daha bəyan edirəm ki, Azərbaycan Respublikası ilə ÇXR arasında olan dostluq və əmək[309-310]daşlıq bundan sonra daha sürətlə inkişaf edəcək, bu yolla getmək üçün biz öz tərəfimizdən səylər göstərəcəyik.

ÇXR-in 46-cı ildönümü münasibətilə, bayram münasibətilə mən sizi bir daha təbrik edirəm. Buradan Pekinə, Çinə Azərbaycan xalqının salamını və xoş arzularını çatdırmağı rica edirəm.

Çin Xalq Respublikasının, Çin xalqının şərəfinə, Çin xalqının gələcək xoşbəxtliyi şərəfinə badə qaldırıram. [310-311]

## TÜRK XALQLARININ III DOSTLUQ, QARDAŞLIQ VƏ ƏMƏKDAŞLIQ QURULTAYININ İŞTİRAKÇILARINA

Möhtərəm qurultay iştirakçıları!

Sizi türk xalqlarının **III** dostluq, qardaşlıq və əməkdaşlıq qurultayının açılışı münasibətilə ürəkdən salamlayır və sizə işinizdə müvəffəqiyyətlər arzulayıram.

Tarixin ağır sınaqlarına zaman-zaman sinə gərmiş türk xalqları qarşılıqlı elmi, mədəni, iqtisadi və siyasi əlaqələrini qoruyub saxlamış, bəşər tarixində daim önəmli mövqe tutmuşlar.

Müasir türk dünyası yeni yüksəliş mərhələsini yaşayır. Bu gün suverenlik əldə etmiş gənc türk cümhuriyyətlərinin bir sırada inamlı addımları türk dünyasının xoşbəxt sabahından soraq verir. Əminəm ki, türk xalqlarının **III** qurultayı da bu müqəddəs arzu və istəklərin həyata keçirilməsində mühüm rol oynayacaqdır.

Müstəqil inkişaf yoluna qədəm qoyan Azərbaycan Cümhuriyyəti də suverenliyini əldə etdiyi ilk gündən türk dünyasının möhkəmlənməsinə sədaqətlə xidmət etmiş və bundan sonra da edəcəkdir.

Bütün türk xalqlarına sıx dostluq və qardaşlıq telləri ilə bağlı olan Azərbaycan xalqı adından sizin mötəbər məclisinizə öz işində uğurlar diləyirəm.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*30 sentyabr 1995-ci il* [311-312]

## AZƏRBAYCAN RESPUBLİKASININ YENİ KONSTİTUSİYA LAYİHƏSİNİ HAZIRLAYAN KOMİSSİYANIN İCLASINDA ÇIXIŞ

*Prezident sarayı*

*3 oktyabr 1995-ci il*

Hörmətli komissiya üzvləri!
Komissiya iclasının hörmətli iştirakçıları!

Bu gün biz Azərbaycan Respublikası Konstitusiyasının hazırlanması ilə əlaqədar təşkil olunmuş komissiyanın növbəti iclasına toplaşmışıq. Komissiyamız fəaliyyətdədir və fəaliyyətə başlayandan sonra səmərəli iş görmüşdür. Komissiyanın birinci iclası iyunun 5-də olmuşdur. O vaxt biz komissiyanın qarşısında duran vəzifələr haqqında danışdıq. Əsas vəzifə Azərbaycan Respublikasının yeni konstitusiyasının və onunla yanaşı olaraq ölkə parlamentinə seçkilərlə əlaqədar seçki qanununun hazırlanmasıdır.

Azərbaycan parlamentinin səlahiyyətlərinin sona çatması ilə əlaqədar olaraq biz o vaxt ümumi fikrə gəldik ki, əvvəlcə respublika Milli Məclisinə seçkilər haqqında qanun layihəsinin hazırlanmasına başlamaq lazımdır ki, bu qanun hazırlansın və seçkilərin vaxtı təyin edilsin, parlamentə seçkilər vaxtında keçirilsin. Bu, konstitusiya komissiyasının ilk işi oldu. Qanunun konstitusiya komissiyasında hazırlanması tamamilə təbii və məqsədəmüvafiq bir haldır. Çünki seçkilər haqqında indi artıq qəbul olunmuş qanun konstitusiya qanunudur.

Şübhəsiz, əgər biz bundan əvvəl Azərbaycanın yeni konstitusiyasının layihəsini hazırlayıb qəbul etmiş olsaydıq, onda bu qanun da konstitusiya əsasında qəbul oluna bilərdi. Ancaq yeni konstitusiya olmadığına görə, seçkilər haqqında qanun konstitusiya qanunu olduğuna görə biz ilk növbədə seçkilər haqqında qanun layihəsinin hazırlanması ilə məşğul olduq.

Komissiyanın bir neçə iclası keçirildi. Komissiyanın işçi qrupu səmərəli işlədi və bütün bunların nəticəsində, bir neçə dəfə müzakirədən sonra seçki qanununun layihəsi hazırlanıb Azərbaycanın Milli Məclisinin müzakirəsinə təqdim edildi. Milli Məclis bu qanun layihəsini müzakirə edərək qəbul etdi və seçkilərin günü təyin olundu. Azərbaycan parlamentinə yeni seç[312-313]kilərin – yəni müstəqil Azərbaycan Respublikasının demək olar ki, birinci parlamentinə seçkilərin günü təyin olunub: 12 noyabr. Seçkilərə çox qızğın hazırlıq işləri gedir. Yəni seçkilər prosesi başlayıb və həyata keçirilir.

Hesab edirəm ki, konstitusiya komissiyamızın ilk uğurlu addımlarından biri belə bir qanunun qəbul olunmasıdır. Bu gün qanun artıq qəbul ediləndən sonra və beynəlxalq ictimaiyyət, beynəlxalq təşkilatlar tərəfindən müəyyən qədər təhlil olunandan və respublikamızın ictimaiyyəti tərəfindən müzakirə ediləndən sonra tam qətiyyətlə demək olar ki, biz ilk dəfə demokratik prinsiplərə tam uyğun olan bir qanun – seçki qanunu qəbul etmişik və onu həyata keçiririk.

Qanun qəbul ediləndən sonra o, geniş təhlil və müzakirə olunmuşdur. Düzdür, bəzi müxalifət dairələri, mənbələri, mətbuat orqanları bu qanunun guya qeyri-demokratik olduğu haqqında ayrı-ayrı fikirlər söyləməyə cəhd etdilər. Bu da təbiidir. Çünki müxalifət, yaxud hər şeydən narazı qalan qüvvələr nəsə deməlidirlər. Ancaq bunlar həmin qanunun mahiyyətinə, mənasına və onun cəmiyyətimizdə tutduğu yerə heç bir təsir edə bilməz. Çünki cəmiyyətimiz bu qanunu demokratik bir qanun kimi qəbul edibdir. Bunu ictimaiyyət belə qəbul edibdir və bir də qeyd edirəm ki, beynəlxalq təşkilatlar, xüsusən beynəlxalq aləmdə demokratiya problemləri ilə məşğul olan təşkilatlar, institutlar – bunlar hamısı bu qanunumuzun tam demokratik olduğu haqqında fikirlər söyləyiblər. Hər halda biz bu mötəbər mənbələrdən həmin qanunun əksinə heç bir fikir, rəy almamışıq. Ona görə də hesab edirəm ki, bu qanunun qəbul edilməsi nəinki konstitusiya komissiyasının uğurlu addımıdır, belə bir qanunun qəbul olunması, əməli surətdə həyata keçirilməsi və yeni parlament seçkilərinə hazırlıq işinin qızğın surətdə getməsi müstəqil Azərbaycan Respublikasında demokratik proseslərin bərqərar olmasını və inkişaf etməsini əyani surətdə nümayiş etdirir.

Artıq seçkilər prosesi gedir və Mərkəzi seçki komissiyasının verdiyi məlumata görə bu seçkilərdə iştirak etməyə çox böyük həvəs göstərilir. 18 siyasi partiya seçkilərdə iştirak etmək üçün Mərkəzi seçki komissiyasına müraciət edib. Müraciət edən partiyaların hamısı seçkilərdə iştirak etmək üçün lazımi sənədləri alıblar və öz fəaliyyətlərinə başlayıblar. Yəni heç bir siyasi partiyanın, şübhəsiz ki, qeydiyyatda olan, hüququ [313-314] olan partiyaların seçkilərdə iştirak etməsinə heç bir maneə törədilmir. Qeyd etdiyimiz kimi, 18 siyasi partiya Mərkəzi seçki komissiyası tərəfindən lazımi sənədlər alıb və seçkilərdə iştirak etməyə başlayıb.

Bildiyiniz kimi yeni parlamentimizdə 125 deputat yeri var. Bundan 25-i proporsional prinsiplər əsasında, yəni siyasi partiyaların iştirakı ilə paylanan yerlərdir. Yüz yer birmandatlı seçki dairələrindən ibarətdir. Burada isə deputatlar majoritar seçki prinsipləri əsasında seçiləcəklər. Mərkəzi seçki komissiyasının verdiyi məlumata görə həmin yüz yerə artıq 1024 ərizə, müraciət verilibdir. Mərkəzi seçki komissiyası sədrinin verdiyi məlumata görə, bütün müraciət edənlər, ərizə verənlər komissiyadan lazımi sənədləri alıblar, seçkilərdə iştirak etmək üçün

onların hamısına şərait yaradılıbdır. İndi proses gedir. Onlar seçki qanununa əsasən lazımi işlər görməlidirlər, imzalar toplamalıdırlar, sənədlərini təqdim etməlidirlər. Bu proses normal, vaxtlı-vaxtında gedir və hesab edirəm ki, Mərkəzi seçki komissiyası bu sahədə bütün tədbirləri görür, vətəndaşların hər birinin seçkilərdə iştirak etməsi üçün şərait yaradır.

Seçkilərin keçirilməsinə 39 gün qalır. Deməк vaxtın bir hissəsi keçib, işin bir hissəsi görülübdür. Güman edirəm ki, qarşıdakı günlər daha səmərəli olacaq, həm seçkilərdə iştirak etmək istəyən vətəndaşlar, həm seçicilər, həm də seçkilərdə iştirak edən partiyalar fəal olacaqlar və biz seçkiləri mütəşəkkil, demokratik şəraitdə apara biləcəyik.

Bu gün bir də demək istəyirəm, – çünki oradan-buradan cürbəcür yalançı, yanlış və bəzən də əsassız, tamamilə böhtan xarakteri daşıyan yazılar meydana çıxır, fikirlər yaymaq istəyirlər, – dəfələrlə demişik və mən bu gün də demək istəyirəm ki, Azərbaycanda parlament seçkilərinin tam demokratik şəraitdə keçirilməsi üçün bütün imkanlar yaradılacaqdır. Buna heç kəsin şübhəsi olmasın. Hər halda hakimiyyət orqanları tərəfindən bütün şərait yaradılacaqdır.

Mərkəzi seçki komissiyası sərbəst fəaliyyət göstərir. Yerlərdə təşkil olunmuş seçki dairələri sərbəst fəaliyyət göstərirlər və hər bir vətəndaşın seçilmək hüququndan istifadə etməsi təmin olunacaqdır. Güman edirəm ki, vətəndaşlarımız da seçkilərdə fəal iştirak edəcəklər və seçkilər keçiriləcəkdir.

Hələ seçkilərə hazırlıq işlərinə başlamamışdan, qanun qəbul etməmişdən də əvvəl biz dünyaya bəyan etmişik ki, beynəlxalq təşkilatların, demokratiya institutlarının, ayrı-ayrı [314-315]ölkələrin müşahidəçilərini qəbul etməyə hazırıq və mən bu gün bunu bir daha bildirirəm. Bizim seçkilərə böyük maraq göstərilir və bəzi nümayəndələr artıq gəlib burada seçki prosesini müşahidə edirlər. Bunlar BMT-nin, ATƏT-in nümayəndələridir, ABŞ-ın Demokratiya İnstitutunun respublikamızda daimi nümayəndəliyi açılıb. Onlar artıq burada yerləşiblər, özlərinin iqamətgahlarını yaradıblar, fəaliyyətdədirlər, Mərkəzi seçki komissiyası ilə, ümumiyyətlə respublikamızın əhalisi ilə əlaqədədirlər. Onlar prosesi müşahidə edirlər. Seçkilərin keçirilməsi ilə əlaqədar qanun pozuntusu barədə onlar tərəfindən heç bir narazılıq meydana çıxmayıb.

Aldığımız məlumatlar və informasiya orqanlarının verdiyi məlumatlar onu göstərir ki, dünya ictimaiyyəti, xüsusən demokratiya prinsiplərini qorumağa çalışan ölkələrin ictimaiyyəti və onların informasiya orqanları da Azərbaycanda seçki prosesi haqqında müsbət rəylər bildirirlər.

ABŞ-ın prezidenti cənab Bill Klinton dünən mənə telefonla zəng etmişdi. Mənim cənab Bill Klintonla çox geniş, ətraflı telefon danışığım oldu. Bu telefon danışığında biz birinci növbədə ABŞ ilə Azərbaycan arasında olan əlaqələrin vəziyyəti, perspektivliyi və bu əlaqələrin inkişaf etdirilməsi haqqında səmərəli fikir mübadiləsi apardıq. Azərbaycan Respublikasının Xəzər dənizində olan sektorundakı yataqlardan neft istehsalı və bu yataqlardan istifadə edilməsi haqqında da ətraflı fikir mübadiləmiz oldu. Bu mövzu danışıqlarımızda çox geniş yer tutdu. Ermənistan-Azərbaycan münaqişəsi, yəni Dağlıq Qarabağ məsələsi ilə əlaqədar olan münaqişə və onun indiki vəziyyəti, bu münaqişənin sülh yolu ilə həll olunması məsələləri barəsində də müzakirə, fikir mübadiləsi apardıq, hansı imkanlardan istifadə etmək məsələlərini araşdırdıq. Eyni zamanda Azərbaycan Respublikasında demokratiyanın inkişafı, iqtisadi islahatların keçirilməsi və bütün sahələrdə demokratiya prinsiplərinin bərqərar olması, bazar iqtisadiyyatına keçid məsələləri barədə də geniş fikir mübadiləsi apardıq.

Mən hesab edirəm ki, bizim bu telefon danışığımız çox əhəmiyyətli, maraqlı, məzmunlu oldu. Bunun əhəmiyyətli cəhətlərindən biri də ondan ibarətdir ki, ABŞ prezidenti Bill Klinton Azərbaycanda demokratiyanın inkişafından, iqtisadi islahatların keçirilməsi ilə əlaqədar gördüyümüz işlərdən və aparılan siyasətdən məmnun olduğunu söylədi. Bildirdi ki, onlar arzu edirlər ki, Azərbaycan bu istiqamətdə gələcəkdə də [315-316] inkişaf etsin və respublikamızın bu sahədə əldə etdiyi nailiyyətlər ümumiyyətlə dünya ictimaiyyəti üçün, o cümlədən bir çox başqa ölkələr üçün də gərəkli ola bilər.

Mən yenə də deyirəm ki, cənab Bill Klintonla bizim bu danışığımızın əhəmiyyəti böyükdür. Bir daha qeyd etmək istəyirəm ki, o, respublikada demokratiyanın, iqtisadi islahatların inkişafından məmnun olduğunu bildirdi.

Beləliklə, biz tutduğumuz bu demokratiya yolu ilə gedirik və seçkiləri də tam demokratik əsaslarla aparacağıq, buna heç kəsin şübhəsi olmasın.

İndi konstitusiya komissiyasının vəzifəsi konstitusiyanın layihəsini tezliklə hazırlayıb təqdim etmək və onu ictimaiyyətin müzakirəsinə verməkdən ibarətdir. Biz komissiyanın keçən iclaslarında bu sahədə fikir mübadiləsi aparmışıq. Seçki haqqında qanun layihəsini hazırlayıb Milli Məclisə təqdim edən kimi konstitusiya komissiyasının iclasında komissiyanın işçi qrupuna tapşırıq verdik ki, onlar artıq bütün işlərini konstitusiya layihəsinin hazırlanmasına səfərbər etsinlər. O vaxtdan indiyə qədər xeyli iş görülüb. İşçi qrupu Prezident Aparatının, Ali Sovetin Aparatının müəyyən strukturları ilə birlikdə, hesab edirəm ki, bu sahədə çox səmərəli iş görüb. Konstitusiya komissiyasında müzakirə etməyimiz üçün əsaslı materiallar hazırlanıbdır. Güman edirəm ki, biz bu gün gələcək günlərdə işimizin nə cür, hansı şəkildə qurulması məsələlərini müəyyənləşdirməliyik.

Bunu nəzərə almaq lazımdır və biz əvvəldən də belə qərar qəbul etmişik ki, yeni konstitusiya layihəsini ümumxalq müzakirəsinə verməliyik. Yeni konstitusiyanı ümumxalq səsverməsi, referendum yolu ilə qəbul

etməliyik. Buna görə də noyabrın 12-də keçiriləcək seçkilər günü eyni zamanda referendum günü elan olunmalıdır. Referendum günündə Azərbaycan Respublikasının Konstitusiyası qəbul edilməlidir.

Vaxt az qalıbdır, ona görə də ən uzağı oktyabr ayının 12-nə qədər – referendum, seçki gününə bir ay qalana qədər biz yeni konstitusiyanın layihəsini ictimaiyyətə təqdim etməliyik və onu ümumxalq müzakirəsinə verməliyik. Güman edirəm ki, biz bunu edə bilərik. Çünki işçi qrupunda, Prezident Aparatında, Ali Sovetin Aparatında indiyədək aparılan işlər və hazırlanan materiallar – mən onlarla müəyyən qədər tanış olmuşam – onu göstərir ki, biz bu materiallar əsasında komissiyanın iclaslarında layihəni hazırlayıb sona çatdıra bilərik. [316-317]

Azərbaycanın yeni konstitusiyası necə olmalıdır? Keçən iclaslarımızda biz bu barədə danışmışıq. Amma bu gün, bu məsələyə bilavasitə başladığımız zaman bəzi fikirləri deməyə ehtiyac var. Birinci, onu xatırlatmaq istəyirəm ki, Azərbaycan Respublikasının konstitusiya tarixi böyükdür. Azərbaycan Respublikasının ilk konstitusiyası, demək olar ki, 1919-cu ildə qəbul edilibdir. Ancaq bu, konstitusiya olmayıbdır. Müstəqillik haqqında akt qəbul olunubdur. 1919-cu ildə ilk Azərbaycan Demokratik Respublikası dövlət müstəqilliyi haqqında akt qəbul edibdir.

Bu akt konstitusiya xarakteri daşıdığına görə biz onu Azərbaycan dövlətçiliyində konstitusiyanın başlanğıcı kimi, konstitusiya yaratmaq işinin başlanğıcı kimi qəbul edə bilərik.

Sonra bildiyiniz kimi, 1920-ci ildə Azərbaycanda Sovet Sosialist Respublikası yaranıbdır. Bu respublika 1921-ci ildə Azərbaycanın ilk konstitusiyasını qəbul edibdir. O vaxt hələ Sovetlər İttifaqı yox idi. Yaranmış və şübhəsiz ki, kommunist hakimiyyəti altında olan respublikalar müstəqil idilər. Bu konstitusiya müəyyən dəyişikliklərlə 1937-ci ilə qədər davam edibdir. Baxmayaraq ki, Sovetlər İttifaqı yaranandan sonra, 1924-cü ildə, onun Konstitusiyası da yaranmışdı, amma Azərbaycanda 1921-ci ildə qəbul edilmiş konstitusiya davam edirdi. Ancaq şübhəsiz ki, ona dəyişikliklər, əlavələr olunmuşdur.

1936-cı ildə Sovetlər İttifaqının yeni konstitusiyası qəbul edildikdən sonra – 1937-ci ildə Azərbaycan Sovet Sosialist Respublikasının yeni konstitusiyası qəbul olunub. Bu konstitusiya 1978-ci ilə qədər yaşayıbdır. 1977-ci ildə Sovetlər İttifaqının yeni konstitusiyası qəbul olunub və ondan bir il sonra, 1978-ci ilin aprelində Azərbaycan Respublikasının yeni konstitusiyası yaranıbdır.

İndiyə qədər Azərbaycan Respublikası 1978-ci ildə qəbul olunmuş konstitusiya ilə yaşayır, işləyir. Doğrudur, bu müddətdə konstitusiyaya bir çox əlavələr, dəyişikliklər edilibdir. Xüsusən qeyd etmək lazımdır ki, Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra – 1991-ci il oktyabrın 18-də Konstitusiya Aktı qəbul edibdir. Doğrudur, o vaxt bu sahədə müəyyən anlaşılmayan hallar da olubdur. Xatirinizdədir ki, 1991-ci il avqustun 30-da Azərbaycan parlamenti müstəqillik haqqında bəyanat qəbul etdi. Ancaq görünür ki, Azərbaycan Respublikasının o vaxtkı rəhbərləri müstəqilliyi nədənsə istəmirdilər. Çünki bu aktları, şübhəsiz, vaxtında keçirmək olardı. [317-318]

Belə bir bəyanat qəbul olunandan sonra xeyli vaxt keçdi və oktyabrın 18-də müstəqillik haqqında Konstitusiya Aktı qəbul edildi. Baxmayaraq ki, artıq o vaxt Sovetlər İttifaqı dağılırdı və bu, göz qabağında idi, ancaq Azərbaycan xalqının iradəsinə zidd olaraq o zaman Azərbaycan respublikasının rəhbərliyi müstəqilliyə getmək istəmirdi. Nədənsə, görünür, ümid bəsləyirdi ki, Sovetlər İttifaqı qalacaq, yaşayacaqdır. Əgər o vaxtkı prosesləri xatırlasanız, slavyan dövlətlərinin – Rusiya, Ukrayna və Belorusiyanın imzaladıqları ittifaq sazişindən sonra Sovetlər İttifaqı artıq dağılmış kimi idi. Ancaq Sovetlər İttifaqının o vaxtkı prezidenti Qorbaçov cəhd göstərirdi ki, xalq deputatları qurultayını toplasın, bu məsələni müzakirə etsin. Bunu edə bilmədi və nəhayət, bəyanat verdi ki, Sovetlər İttifaqının dağılmasına o da razıdır.

Güman edirəm, o vaxt Azərbaycan rəhbərliyində bəziləri ümid bəsləyirdilər ki, Sovetlər İttifaqı hələ yaşayacaqdır. Çünki 1991-ci ilin martında Azərbaycan rəhbərliyi bir referendum keçirib qərar qəbul etdi ki, Sovetlər İttifaqı saxlanılmalıdır. Onlar bu siyasətdən, yəni bu istiqamətdən, görünür ki, əl çəkə bilmirdilər. Şəxsən mən məhz bununla izah edə bilərəm ki, avqustun 30-da müstəqillik haqqında bəyanat qəbul ediləndən sonra yalnız oktyabrın 18-də dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı da referendumdan keçməli idi. Bu, təbiidir. Çünki 1991-ci ilin martında Sovetlər İttifaqının saxlanması haqqında referendum təşkil olunmuşdu. Əgər oktyabrın 18-də Konstitusiya Aktı qəbul olunmuşdusa, bir aydan sonra, noyabrın 18-də referendum keçirilə bilərdi. Çünki bir ay müddətində elan edib referendum keçirmək olar. Ancaq nədənsə, bu referendumu noyabrın 18-nə də yox, dekabrın 18-nə də yox, dekabrın 29-na salmışdılar və referendum həmin gün keçirildi.

Bunları sadəcə olaraq ona görə xatirinizə salıram ki, bizim müstəqillik yolunda xalqın iradəsi ilə bu xalqı idarə edən adamların iradəsi arasında olan böyük məsafəni bir daha bildirdim. Bildirdim ki, bizim xalq müstəqilliyə nə qədər can atmışdısa, ayrı-ayrı qruplar müstəqil dövlət olmağımızı heç də istəməmişlər. Bəziləri indi də köhnə əhval-ruhiyyə ilə yaşayır, müstəqilliyi yenə də müvəqqəti hesab edirlər. Ona görə də bu proseslərin tarixini sizin xatirinizə salıram.

Bütün bunlara baxmayaraq, 1991-ci il oktyabrın 18-də qəbul olunmuş dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı [318-319] çox dəyərli sənəddir. Bu sənəddə Azərbaycanın müstəqilliyi və müstəqil dövlət kimi dövlət quruculuğu haqqında çox dəyərli müddəalar öz əksini tapıbdır.

Beləliklə, mən Azərbaycanın konstitusiya yaradıcılığı tarixi haqqında müəyyən qədər, kiçik məlumat verərək, indi qarşıda duran işlərimiz haqqında danışmaq istəyirəm. Biz müstəqil Azərbaycan Respublikasının, demək olar, ilk konstitusiyasını yaradırıq. Çünki 1919-cu ildə qəbul olunmuş müstəqillik haqqında Akt, – əgər biz onu konstitusiya xarakterli bir sənəd kimi qəbul ediriksə, – o, konstitusiya olmayıbdır. Ondan sonra – 1921-ci ildə, 1937-ci ildə və 1978-ci ildə qəbul olunan konstitusiyalar da şübhəsiz ki, sovet hakimiyyəti dövründə qəbul edilən konstitusiyalardır. O vaxtlar Azərbaycan Respublikası müstəqil dövlət olmamışdır və şübhəsiz ki, bu konstitusiyalarda kommunist ideologiyası, sovet hakimiyyətinin prinsipləri öz əksini tapmışdı.

İndi biz müstəqil Azərbaycan Respublikasının, Azərbaycan dövlətinin ilk konstitusiyasını qəbul edirik. Bu, çox məsuliyyətli və eyni zamanda çox şərəfli vəzifədir. Bu, bizə nəsib olubdur və güman edirəm ki, biz, yəni indiki nəsil həmin şərəfli vəzifəni ləyaqətlə yerinə yetirməyə qadirik və yerinə yetirə biləcəyik. İndiyə qədər görülən işlər və hazırlanmış materiallar əsas verir ki, biz qısa müddətdə konstitusiyanın layihəsini komissiyanın bir neçə müzakirəsindən keçirdikdən sonra xalqımıza, ictimaiyyətə təqdim edək.

Bizim yeni konstitusiyamız, şübhəsiz ki, birinci növbədə Azərbaycan Respublikasının dövlət müstəqilliyini, bu müstəqilliyin əbədi olduğunu və dövlət müstəqilliyini qoruyub saxlamaq, yaşatmaq üçün bütün prinsipləri əks etdirməlidir. Yeni konstitusiyamız demokratik prinsipləri özündə əks etdirməlidir. Yəni dünya demokratiyasının əldə etdiyi bütün nailiyyətlərdən, demokratiya sahəsində inkişaf etmiş dövlətlərin konstitusiya təcrübəsindən istifadə etməli və Azərbaycan Respublikasının özünəməxsus tarixi, milli ənənələrini əks etdirən prinsipləri özündə cəmləşdirməlidir. Bir sözlə, biz elan etmişik və mən bir daha bəyan edirəm ki, Azərbaycanda demokratik, hüquqi, sivilizasiyalı, dünyəvi dövlət qururuq. Demokratik, hüquqi, sivilizasiyalı dövlət quruculuğu proseslərini və bunu təmin etmək üçün bütün şərtləri, müddəaları konstitusiya özündə əks etdirməlidir.

Demokratiya prinsipləri geniş məfhumdur. Əgər bu, bir tərəfdən [319-320] insanların, vətəndaşların hüquqlarının təmin edilməsi prinsipləridirsə, ikinci tərəfdən dövlətçiliyin qurulmasını, dövlət quruculuğu prosesinin aparılmasını, inkişaf etdirilməsini və Azərbaycanda həm dövlətin, həm xalqın, həm də hər bir vətəndaşın hüquqlarının qorunmasına təminat verə bilən dövlətin qurulub yaranmasını təmin edən prinsiplər olmalıdır.

Demokratiyanın bir tərəfi insan hüquqları, vətəndaşların hüquqları, ikinci tərəfi isə dövlət quruculuğu və həm müstəqil dövləti yaşadıb, qoruyub saxlamaq üçün, həm də insanların hüquqlarını qoruyub saxlamaq üçün dövlət hakimiyyətinin təmin olunmasıdır.

Güman edirəm ki, indiyə qədər gördüyümüz işlər və əldə etdiyimiz təcrübə artıq imkan verir ki, bu məsələlərin hamısı hüquqi nöqteyi-nəzərdən formalaşdırılsın və bizim konstitusiyada öz əksini tapsın.

Mən bu konstitusiyanın başqa müddəaları haqqında danışmaq fikrində deyiləm, çünki buna ehtiyac duymuram. Sadəcə olaraq bu əsas prinsipləri qeyd edirəm. Güman edirəm ki, bu prinsiplər əsasında bizim konstitusiyanın layihəsi qısa müddətdə hazır olub, təqdim edilə bilər.

Konstitusiyamızda dövlətin, Azərbaycanın bu ağır keçid dövründə, bir də qeyd edirəm, vətəndaşların hüquqlarını qorumaq, dövlətçiliyi qorumaq üçün təminatlar olmalıdır. Bu iki il müddətində biz sizinlə birlikdə, Azərbaycanın dövlətçiliyini dağıtmaq, pozmaq cəhdlərinin dəfələrlə şahidi olmuşuq.

Dünən Milli Təhlükəsizlik Nazirliyinin verdiyi məlumat, güman edirəm, ictimaiyyətə bir daha bildirir ki, xalqı parçalamaq, dövləti dağıtmaq cəhdlərindən hələ də əl çəkməyən qüvvələr var. Bu məlumatı yəqin ki, eşitmisiniz, bilirsiniz. Biz iki ildir dövlətçiliyimizə zidd olan qüvvələri başa salmaq, anlatmaq istəyirik ki, onlar cinayətkar əməllərindən əl çəksinlər. Ancaq təəssüflər olsun, bəziləri hələ də elə hesab edirlər ki, cinayətkarlıq yolu ilə nəsə əldə edə bilərlər.

Oktyabrın 1-2-də Milli Təhlükəsizlik Nazirliyi və onunla birlikdə Daxili İşlər Nazirliyi tərəfindən aparılan əməliyyatlar nəticəsində cinayət halları və yeni silah cəbbəxanalarının, xüsusən terrorçuluq üçün istifadə ediləcək silahların gizlədilib saxlanması, özü də kimin tərəfindən, – bir var ki, adicə cinayətkar tərəfindən, bir də var ki, vaxtilə Azərbaycan Respublikasının deputatı seçilmiş adam tərəfindən. Ancaq təkcə [320-321] şəxsən o deyil, onun havadarları, ona istiqamət verənlər tərəfindən (güman edirəm istintaq onları qısa müddətdə aşkar edib və aşkar edəcəkdir), Azərbaycanda yenə də qarışıqlıq yaratmaq, terrorçuluq etmək, dövlətə qarşı cinayət etmək cəhdi göstərən adamlar tərəfindən – cinayətlər törədilməsinin hazırlanması prosesi artıq meydana çıxıbdır.

Bax, buna görə də bizim bu gün və gələcəkdə qəbul edəcəyimiz qanunlar və xüsusən əsas qanunumuz – konstitusiya gərək elə bir konstitusiya olsun ki, bir tərəfdən insanların hüquqlarını qorusun, insan azadlıqlarını, demokratiyanı təmin etsin, siyasi plüralizmi təmin etsin, mətbuat, söz, din, dil azadlığını təmin etsin, ikinci tərəfdən isə dövləti, cəmiyyəti idarə etmək üçün təsisatların yaranmasını təmin etsin ki, bu cür hallara yol verilməsin. Ona görə də, güman edirəm, biz elə bir konstitusiya yaradacağıq ki, bu konstitusiya Azərbaycan Respublikasının nəinki qısa müddətdə, həm də uzun müddətdə müstəqillik yolu ilə getməsini təmin edəcəkdir, Azərbaycan Respublikasında demokratik hüquqi dövlətin qurulmasını təmin edəcəkdir və ölkəmizdə olan bütün vətəndaşların hüquq və azadlıqlarını təmin edəcəkdir.

Komissiyanın göstərişi ilə işçi qrupu konstitusiyanın layihəsini hazırlamaq üçün bir çox təkliflər irəli sürmüşdür. Bu təkliflər əsasında, onları ümumiləşdirərək, onların üzərində işləyərək Prezident Aparatında və

Ali Sovetin Aparatında müəyyən materiallar hazırlanıbdır. Mən buna hələ layihə yox, materiallar deyirəm, çünki layihəni, güman edirəm ki, bu materiallar əsasında sistemləşdirmək və işçi qrupunun adından bizə təqdim etmək lazımdır. Bu materiallarla ilkin tanış olmuşam və belə hesab edirəm ki, bunlar artıq layihənin qısa müddətdə işlənib hazırlanması üçün tam əsas yaradıbdır. Ona görə də, – bilmirəm, indi bu barədə müzakirəyə ehtiyac var, ya yox, əgər ehtiyac varsa, müzakirə edə bilərik, – düşünürəm ki, bizim işçi qrupu toplaşıb bu materialları qısa müddətdə, mənə elə gəlir ki, iki gün ərzində sistemləşdirib təqdim etsə, biz təqdim olunan bu layihəni komissiyanın üzvlərinə paylaya və onun əsasında müzakirə apara bilərik. Mənim fikrim belədir. Əgər başqa bir fikir varsa, gəlin müzakirə edək.

* * *

İşçi qrupu artıq işləyir, bu yeni bir şey deyil. Bir də deyirəm, bu işçi qrupu qəbul etdiyimiz qanunun layihəsini hazırlayıb [321-322] komissiyanın müzakirəsinə vermişdir. Bu işçi qrupu indiyə qədər də işləyir, xeyli təkliflər verib və o təkliflər müəyyən qədər sistemləşdirilib, ancaq hələ layihə şəklinə gətirilməyib. Ona görə mən bu gün komissiyanı yığdım ki, komissiyanın adından işçi qrupuna göstəriş verək ki, onlar qısa müddətdə bunu layihə şəklinə salıb bizə təqdim etsinlər.

Daha kimin sualı, sözü var? Yoxdur. Deməli, bu təklifə etiraz yoxdur ki, işçi qrupuna iki gün vaxt verək. Çünki mən baxmışam, materialların çoxu hazırdır. İşçi qrupunun üzvləri çox səmərəli işləyiblər, mən hesab edirəm ki, yaxşı materiallar hazırlayıblar. İşçi qrupu iki gün müddətində materialları sistemləşdirsin və layihəni hazırlasın. Deməli, bu gün ayın 3-dür, ayın 5-də günün axırında layihə komissiyanın üzvlərinə təqdim olunsun, paylansın. Ola bilər ki, biz ayın 6-da toplaşaq. Bu zaman həmin layihə komissiya üzvlərində olacaq. Onlar bu layihə ilə tanış olacaqlar, onun üzərində işləyəcəklər, biz də bu layihəni müzakirə edəcəyik.

Etiraz yoxdur ki? Onda gəlin bugünkü iclası qurtaraq. Yenə də deyirəm, ayın 5-də günün axırında layihə mənə təqdim olunur, mən isə onu komissiyanın üzvlərinə paylayıram. Oktyabrın 6-da komissiyanın növbəti iclası keçirilir. Mən komissiya üzvlərindən əvvəldən xahiş edirəm ki, onlar layihəni alan kimi onunla çox ətraflı tanış olsunlar, öyrənsinlər, ayın 6-dakı iclasda biz məruzəyə qulaq asmayacaq, layihəni müzakirə edəcəyik ki, layihəyə kimin nə sözü, təklifi, nə əlavəsi var. Sağ olun. [322-323]

## ALMANİYANIN YENİDƏN BİRLƏŞMƏSİ GÜNÜ MÜNASİBƏTİLƏ AFR-in AZƏRBAYCANDAKI SƏFİRLİYİNİN TƏŞKİL ETDİYİ RƏSMİ QƏBULDA NİTQ

*"Sinema klub"*

*3 oktyabr 1995-ci il*

Hörmətli cənab səfir!
Hörmətli xanımlar və cənablar!

Sizi böyük bayram - Almaniyanın yenidən birləşməsi günü münasibətilə təbrik edirəm, alman xalqına xoşbəxtlik və səadət arzulayıram.

Alman xalqının böyük və şərəfli keçmişi vardır. Onun tarixində böyük nailiyyətləri, olubdur. Son beş ildə isə bu xalqın həyatında baş verən dəyişikliklər yeni Almaniyanın yaradılması deməkdir. XX əsrdə Almaniya iki dəfə: həm Birinci dünya müharibəsində, həm də İkinci dünya müharibəsində məğlubiyyətə uğrayıbdır. İkinci dünya müharibəsinin sona çatması və faşizm üzərində qələbə nəticəsində Almaniya parçalanmış, 45 il bu vəziyyətdə yaşamışdır.

Alman xalqının iradəsi və dünyada gedən tarixi, ictimai-siyasi proseslər nəticəsində beş il öncə Almaniyanın parçalanmış vəziyyətdə qalmasına son qoyuldu. Bu, XX əsrin sonunda Almaniyanın həyatında əlamətdar bir hadisə kimi dünya tarixinə daxil olubdur. Almaniya birləşib və indi dünyanın güclü və hörmətli dövlətlərindən birinə çevrilibdir.

Azərbaycan xalqı Almaniyanın yenidən birləşməsini böyük məmnuniyyətlə və ruh yüksəkliyi ilə qarşıladı. Əgər o dövrü yada salsaq, həmin günlərdə Azərbaycan xalqı da öz milli azadlığı və müstəqilliyi uğrunda, birləşmək uğrunda mübarizə aparırdı. Ona görə də o tarixi hadisə Azərbaycanda çox böyük əks-səda vermişdir.

Almaniya birləşdikdən sonra AFR-də gedən iqtisadi, ictimai-siyasi proseslər onu göstərir ki, nəhayət, bu ədalətli hadisə baş vermiş və alman xalqı birləşib müstəqil, böyük bir dövlətdə istəklərinə uyğun olaraq həyatını qurur, beynəlxalq aləmdə [323-324] layiqli yer tutur və dünya proseslərinə öz təsirini göstərir. Mən alman xalqını bu beş il müddətində əldə etdiyi nailiyyətlər münasibətilə təbrik edirəm və ümidvar olduğumuzu bildirmək istəyirəm ki, Almaniya daim vahid olacaqdır. Almaniya bundan sonra dünyada sülhün bərqərar edilməsinin təminatçılarından biri olacaqdır. Avropada heç vaxt yenidən müharibə baş verməyəcəkdir və Almaniya Federativ Respublikası bunun təminatçısı olacaqdır.

Azərbaycan xalqı ilə alman xalqı arasında böyük tarixi əlaqələr var. Keçmişdə Azərbaycanda çoxlu alman yaşamışdır. Xalqımızın həyatında onların rolu olubdur. Almanların keçmişdə Azərbaycanda yaşamalarının izləri indi də durur. Bu izlər və bəzi abidələr bizim tərəfdən qorunub saxlanılır.

Yaşadığımız XX əsrdə də alman və Azərbaycan xalqları arasında iqtisadi və digər əlaqələr mövcud olubdur. Almaniyanın neft şirkətləri əsrin əvvəllərində Azərbaycanda neft hasilatında iştirak ediblər. İkinci dünya müharibəsindən sonra həm Şərqi, həm də Qərbi Almaniya ilə Azərbaycan arasında geniş iqtisadi, mədəni, elmi əlaqələr olubdur. Azərbaycan dövlət müstəqilliyini əldə etdikdən sonra birləşmiş Almaniya ilə ikitərəfli əlaqələr qurubdur. Biz bu əlaqələrin bütün sahələrdə inkişafına böyük diqqət yetiririk və əməkdaşlığımızın genişləndirilməsi üçün öz tərəfimizdən lazımi səylər göstəririk. Hesab edirəm ki, AFR ilə Azərbaycan Respublikası arasında əlaqələrin inkişaf etdirilməsinin böyük perspektivləri vardır. İmkanlar çoxdur və biz arzu edirik ki, bu imkanlardan Almaniya Federativ Respublikasının şirkətləri, iş adamları, iqtisadi strukturları səmərəli istifadə etsinlər.

Biz bu sahədə öz tərəfimizdən lazımi səylər göstəririk. Şübhəsiz ki, ikitərəfli səylər gələcəkdə əlaqələrimizin genişlənməsinin əsasını yaradacaqdır.

Məmnuniyyət hissi ilə qeyd etmək istəyirəm ki, Almaniya Federativ Respublikası Azərbaycan Respublikasının düşdüyü indiki vəziyyətdə onun problemlərinin beynəlxalq aləmdə həll olunmasında ədalətli mövqe tutur. AFR-in ədalətli mövqeyi Ermənistanın Azərbaycana qarşı təcavüzünün qarşısının alınmasına kömək edir. Almaniyanın verdiyi bəyanatlar – Azərbaycanın dövlət müstəqilliyini dəstəkləməsi, respublikamızın ərazi bütövlüyünün təmin olunmasına dair onun müsbət bəyanatları və Ermənistan ilə Azərbaycan arasında hərbi münaqişənin sülh yolu ilə sona çatması üçün Minsk qrupunda, [324-325] beynəlxalq təşkilatlarda Almaniya Federativ Respublikasının iştirakı bizim üçün gərəkli köməkdir. Bu barədə biz Almaniyanın dövlət və hökumət başçıları ilə, şəxsən kansler Helmut Kol və prezident Roman Hersoq ilə, habelə digər rəsmi şəxslərlə görüşlərimizdə çox səmərəli danışıqlar aparmışıq. Həmin danışıqların məzmunundan və mənasından razı olduğumu bu gün bir daha bildirmək istəyirəm.

Hesab edirəm ki, biz bazar iqtisadiyyatı yolu ilə getdiyimiz üçün və ölkəmizin iqtisadiyyatı dünyaya açıq olduğu üçün Azərbaycan Almaniyanın şirkətləri və iş adamlarının diqqətini daha çox cəlb edəcəkdir.

Güman edirəm ki, yaxın vaxtlarda Almaniyadan bura iş adamları gələcəkdir və biz daha geniş iqtisadi əlaqələr quracağıq.

Almaniya 45 il parçalanmış vəziyyətdə yaşayıb. Ərazi bütövlüyünün pozulmasının, ölkənin parçalanmasının xalqlar üçün nə qədər əzab-əziyyətli olduğunu alman xalqı öz həyatında hiss edibdir. Ona görə də güman edirəm ki, Azərbaycanın parçalanmasından çəkdiyimiz əzab-əziyyətləri, ərazi bütövlüyümüzün pozulmasını, torpaqlarımızın bir qisminin Ermənistan silahlı qüvvələrinin işğalı altında olmasını Almaniyada hər bir alman, öz həyatını təhlil edən insan başqalarına nisbətən daha yaxşı anlayar və daha tez dərk edə bilər. Ona görə də biz respublikamızın ərazi bütövlüyünü bərpa etmək üçün, müharibə vəziyyətindən çıxmaq üçün Almaniya Federativ Respublikasına ümidlər bəsləyirik və güman edirik ki, Almaniya beynəlxalq təşkilatlarda daim bizim haqq-ədalət işimizi müdafiə edəcəkdir.

Bu gün istər Almaniyada, istərsə də ondan kənarda yaşayan hər bir alman öz ölkəsinin, xalqının birləşməsini bayram edir və sevinc içərisindədir. Biz də bu sevinci burada sizinlə bölüşdürürük. Ümidvaram ki, vaxt gələcək, Azərbaycan xalqı da öz ərazi bütövlüyünü bərpa etməsinin sevincini hiss edəcək və alman dostları ilə birlikdə həmin sevinci bölüşəcək və bayram edəcəkdir.

Bir daha sizi, alman xalqını və Almaniyanın bütün vətəndaşlarını bu böyük bayram münasibətilə təbrik edirəm. Alman xalqına, Almaniya Federativ Respublikasına səadət və xoşbəxtlik arzu edirəm. Cənab səfir, sizin istək və arzularınızı nəzərə alaraq mən bu badəni alman xalqının, Almaniya Federativ Respublikasının şərəfinə, Almaniya və Azərbaycan xalqlarının dostluğu şərəfinə qaldırıram. [325-326]

## AVROPA BİRLİYİ KOMİSSİYASININ KOMİSSARI HANS VAN DEN BRUKLA BİRGƏ MƏTBUAT KONFRANSINDA BƏYANAT

*4 oktyabr 1995-ci il*

Hörmətli xanımlar və cənablar!

Siz – mətbuat nümayəndələri Avropa Birliyinin nümayəndə heyətinin başçısı cənab Hans Van Den Brukla və nümayəndə heyətinin üzvləri ilə danışıqlarımızda iştirak etmisiniz, onların məzmunu ilə tanışsınız. Ona görə də bu barədə geniş məlumat verməyə ehtiyac yoxdur. Mən yalnız onu demək istəyirəm ki, Azərbaycan ilə Avropa Birliyi arasında əməkdaşlıq sürətlə inkişaf edir. Brüsseldə, Avropa Birliyinin baş qərargahında olarkən mən bu birliyin rəhbərləri cənab Jak Santerlə və cənab Hans Van Den Brukla, habelə başqaları ilə ətraflı söhbətlər aparmışdım. Bundan sonra bizim əməkdaşlığımızda böyük dəyişikliklər əmələ gəlir. Azərbaycanın iqtisadi vəziyyəti ağır olduğuna görə Avropa Birliyi ölkəmizə ərzaqla və digər yardımlarla kömək edir. Bütün sahələrdə bizim əməkdaşlığımız mütəşəkkil surətdə həyata keçir.

Ancaq qeyd etmək istəyirəm ki, əməkdaşlığımızın bundan sonra da inkişaf etməsinə böyük ehtiyac vardır. Bunu nəzərə alaraq mən cənab Van Den Bruku Azərbaycana rəsmi səfərə dəvət etmişəm. O, mənim dəvətimi qəbul edərək böyük bir nümayəndə heyəti ilə respublikamıza gəlib. Hesab edirəm ki, burada apardığımız danışıqlar səmərəli oldu. Nəticədə Azərbaycan ilə Avropa Birliyi arasında yeni memorandumu indicə imzaladıq. Memorandumu Azərbaycan Respublikası tərəfindən baş nazir Fuad Quliyev, Avropa Birliyi tərəfindən isə təşkilatın komissiyasının komissarı cənab Hans Van Den Bruk imzaladı.

Bizim əməkdaşlığımız təkcə bu memorandumla bitmir. Bu, sadəcə olaraq hazırkı vaxta dair olan sənəddir. Biz Avropa Birliyi ilə daha sıx əməkdaşlıq etmək üçün, onun tərəfdaşı olmaq üçün öz təkliflərimizi vermişik. Həmin təkliflər [326-327] qəbul olunubdur. Bu günlərdə danışıqlar aparmaq üçün biz xüsusi nümayəndə heyətini təyin edəcəyik. Danışıqlar nəticəsində belə razılığa gəlmişik ki, bu nümayəndə heyəti bu ayın sonunda və ya noyabrın əvvəlində Brüsselə gedəcək. Avropa Birliyi ilə tərəfdaşlıq səviyyəsində əməkdaşlıq etmək üçün danışıqlar aparacaqdır. Həmin danışıqlar nəticəsində böyük bir saziş imzalanacaqdır. Biz bunu istəyirik və bu sahədə lazımi işləri görəcəyik. Biz Avropa Birliyi ilə əməkdaşlığın genişləndirilməsinə tərəfdarıq. Hesab edirəm ki, cənab Van Den Brukun Azərbaycana səfəri bu işə müsbət təsirini göstərəcəkdir.

Cənab Van Den Bruk Respublikamızda qaçqınların məskunlaşdığı bölgəyə səfər edib və orada qaçqınlarla görüşüb, Azərbaycanın işğal olunmuş ərazilərindən zorla qovulmuş vətəndaşlarımızın həyat şəraitinin ağırlığını öz gözləri ilə görübdür. Onu müşayiət edən nümayəndə heyəti də həmin yerlərdə olubdur. Bunların hamısı Avropa Birliyində Azərbaycan barəsində daha dəqiq, ətraflı və obyektiv məlumat əldə etmək üçün yaxşı bir vasitədir. Mən buna görə – Azərbaycana gəldiyinə və burada bu işləri gördüyünə görə cənab Van Den Bruka və onunla gələn nümayəndə heyətinə təşəkkürümü bildirirəm. Hesab edirəm ki, cənab Van Den Bruk da öz bəyanatını verəcəkdir.[327-328]

## BMT-nin 50 İLLİYİNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ GECƏDƏ NİTQ

*Respublika Sarayı*
*6 oktyabr 1995-ci il*

Hörmətli xanımlar və cənablar!
Hörmətli qonaqlar!

Bu il Birləşmiş Millətlər Təşkilatının 50 illik yubiley ilidir. İkinci dünya müharibəsi sona çatandan sonra, alman faşizmi üzərində çalınmış qələbənin şüaları altında 1945-ci ildə ABŞ-ın San-Fransisko şəhərində dünyada böyük bir beynəlxalq təşkilat – BMT yarandı.

BMT yaranarkən onun nizamnaməsində əsas vəzifələri müəyyən edilmişdir. Dünyada müharibə başlanmasına yol verilməməsi, beynəlxalq sülhün, əmin-amanlığın, təhlükəsizliyin qorunması, dövlətlər arasında bərabərhüquqlu əlaqələr qurulması və dövlətlərin bu prinsiplər əsasında dostluq əlaqələri yaratması, hər bir dövlətin suveren hüquqlarının qorunması, iqtisadiyyat, sosial, mədəniyyət, elm, humanitar sahələrdə inkişafın təmin olunması – bu gün, 50 il keçəndən sonra tam məmnuniyyətlə demək olar ki, yarım əsr ərzində Birləşmiş Millətlər Təşkilatı bu vəzifələrin və üzərinə düşən bütün başqa vəzifələrin həyata keçirilməsi üçün çalışmışdır və böyük nailiyyətlər əldə etmişdir. 50 il müddətində yenidən böyük müharibə baş verməmişdir. Bu, böyük nailiyyətdir. Əsrimizin birinci yarısında iki dəfə dünya müharibəsi baş vermiş və bu, böyük faciələrə gətirib çıxarmışdır. İkinci dünya müharibəsindən sonra dünyada böyük dəyişikliklər baş vermişdir. Əsrlər boyu yaşamış imperiyalar dağılmış, millətlər öz milli azadlığına nail olmuş, ölkələr dövlət müstəqilliyini əldə etmişlər.

BMT yaranarkən 50 dövlət bu təşkilata daxil olmuşdur. İndi BMT-nin tərkibində 184 dövlət var. İkinci dünya müharibəsindən sonra uzun müddət "soyuq müharibə" hökm sürmüşdür. Nəhayət, buna da son qoyulmuşdur. Bloklararası qarşıdurma demək olar ki, aradan götürülməkdədir. Sovetlər İttifaqı dağılmış və bunun nəticəsində də SSRİ-nin tərkibində olan 15 [328-329] müttəfiq respublika öz dövlət müstəqilliyini əldə etmiş, müstəqil dövlət olmuş və BMT-yə daxil olmuşdur.

Dünyada demokratiyanın güclü inkişafı prosesi mövcuddur. Bazar iqtisadiyyatı, sərbəst iqtisadiyyat artıq dünyanın bir çox ölkələrində sürətlə həyata keçirilir. BMT-nin nizamnaməsində əks edilmiş əsas vəzifələrdən biri olan insan hüquqlarının, azadlığının qorunması dünyanın bir çox ölkələrində artıq mövcuddur. Bunlar hamısı son 50 ildə dünyada baş vermiş dəyişikliklərdir, onların nəticələridir. Bu nailiyyətlərin əldə olunmasında hər bir sülhsevər dövlətin payı var və BMT-nin xidmətləri böyükdür.

Azərbaycan Respublikası dörd il bundan əvvəl öz dövlət müstəqilliyini əldə etmiş və 1992-ci ilin mart ayında BMT-yə üzv qəbul olunmuşdur. Biz tarixdə ilk dəfə müstəqil Azərbaycan Respublikasının dünya birliyində bərabərhüquqlu yer tutduğuna görə, BMT-nin bərabərhüquqlu üzvü olduğuna görə fəxr edirik.

Bu gün, bu bayram günü mən BMT-nin yaranmasının 50 illik yubileyi münasibətilə sizi, bütün Azərbaycan ictimaiyyətini təbrik edirəm. Azərbaycan xalqının, dövlətinin təbrikini və hərarətli salamlarını BMT-nin baş qərargahına, Nyu-Yorka, BMT-nin baş katibi cənab Butros Qaliyə göndərirəm.

Azərbaycanda bir çox dövlətlərin səfirlikləri yaranıb, fəaliyyət göstərir. Üç ildir ki, burada BMT-nin nümayəndəliyi fəaliyyət göstərir və cənab Mahmud əl-Səidin indi dediyi kimi, BMT-nin bir çox komitələrinin, strukturlarının ayrı-ayrı nümayəndəlikləri də Azərbaycanda fəaliyyət göstərirlər. Mən Azərbaycanda təmsil olunan səfirləri bu bayram münasibətilə təbrik edirəm, onların vasitəsilə isə BMT üzvü olan bütün dünya dövlətlərini ürəkdən təbrik edirəm.

BMT-nin banilərindən biri keçmiş Sovetlər İttifaqı olmuşdur. Beynəlxalq aləmdə keçmiş Sovetlər İttifaqının varisi indi Rusiyadır. Bu gün Rusiya Federasiyasının hökumət nümayəndə heyəti bu salonda, bayram mərasimində bizimlə birlikdə iştirak edir. Müstəqil Azərbaycan Respublikası Rusiya Federasiyası ilə dostluq və qardaşlıq əlaqələrini bundan sonra da inkişaf etdirmək əzmindədir. Rusiya Federasiyasının böyük tərkibdə və yüksək səviyyədə hökumət nümayəndə heyətinin Azərbaycana gəlməsi, bizim apardığımız və bu günlərdə aparacağımız danışıqlar onu sübut edir ki, bu əlaqələrin inkişaf [329-330] etdirilməsi üçün həqiqətən də hər iki tərəfdən çox böyük səylər göstərilir. Mən bu gün, bu bayram günü bir də demək istəyirəm ki, Rusiya Federasiyası Azərbaycanın şimal qonşusudur, yaxın dostudur və RF ilə Azərbaycan Respublikasının dostluğunun əsasını uzun illər qırılmaz tellərlə bağlı olan əlaqələr təşkil edir. Bu gün Rusiya Federasiyası nümayəndə heyətinin bu mərasimdə olmağından biz hamımız məmnunuq.

Mən Rusiya hökuməti nümayəndə heyətini salamlayıram, bu bayram münasibətilə Rusiya dövlətini 1945-ci ildə BMT-nin əsasını qoyan dövlətlərdən biri kimi təbrik edirəm, Rusiya hökuməti nümayəndə heyətinin bütün üzvlərini və nümayəndə heyətinin başçısı, bizim dostumuz, cənab Aleksey Alekseyeviç Bolşakovu ürəkdən salamlayıram.

Azərbaycan Respublikası müstəqillik əldə edəndən sonra BMT-nin ölkəmizə göstərdiyi qayğını və köməyi biz yüksək qiymətləndiririk. Azərbaycan bir müstəqil dövlət kimi gəncdir. Onun qarşısında çox böyük və çətin vəzifələr durur. Ermənistanın Azərbaycana təcavüzü nəticəsində respublikamızın həyatında çox mürəkkəb

problemlər yaranıbdır. BMT-nin Azərbaycanda təmsil olunmuş, fəaliyyət göstərən və respublikamızın həyatına kömək edən bütün nümayəndəliklərinə və onların bütün əməkdaşlarına dövlətimiz adından təşəkkürümü bildirirəm.

Ermənistanın Azərbaycana hərbi təcavüzünə qarşı BMT-nin və onun Təhlükəsizlik Şurasının etdikləri səyi də respublikamız, dövlətimiz yüksək qiymətləndirir. Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazilərini işğal etməsi ilə əlaqədar BMT Təhlükəsizlik Şurası 1993-cü ildə dörd qətnamə qəbul etmişdir. Təhlükəsizlik Şurası sədrinin yeddi bəyanatı elan olunubdur. Bütün bu sənədlərdə BMT Təhlükəsizlik Şurası işğal olunmuş torpaqlardan Ermənistan silahlı qüvvələrinin qeyd-şərtsiz çıxmasını tələb edir. Azərbaycan Respublikasının ərazi bütövlüyünü, onun sərhədlərinin toxunulmazlığını dəstəkləyib və ölkəmizin ərazisini zor ilə ələ keçirmək hərəkətini pisləyibdir. BMT-nin və onun Təhlükəsizlik Şurasının bu addımları bütün Azərbaycan xalqı tərəfindən yüksək qiymətləndirilir.

Azərbaycan Respublikası BMT-nin üzvü kimi bu təşkilatla sıx əməkdaşlıq edir və bundan sonra da edəcəkdir. Biz BMT-nin üzvü olduğumuza görə fəxr edirik. Respublikamızda, ölkəmizdə demokratik hüquqi, sivilizasiyalı dövlət quruculuğu, [330-331] iqtisadi islahatların həyata keçirilməsi yolunda, demokratiyanın inkişafının təmin edilməsi yolunda gördüyümüz işlərdə BMT-ni özümüzə həmişə yardımçı hesab edirik. Biz bu əməkdaşlığa həmişə çox ehtiyac duyuruq və öz tərəfimizdən bu əməkdaşlığın səmərəli və daimi olmasına çalışacağıq.

BMT-nin üzvü kimi Azərbaycan Respublikası bu təşkilatın nizamnaməsində göstərilmiş tələblərə riayət olunmasını, yəni Azərbaycanın suveren hüquqlarının qorunmasını tələb edir. Azərbaycanın suveren hüquqları pozulub, Ermənistan tərəfindən Azərbaycana hərbi təcavüz edilib və bu təcavüz nəticəsində Azərbaycan Respublikasının ərazisinin 20 faizi Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunub, işğal olunmuş ərazimizdən bir milyondan artıq vətəndaşımız qaçqın düşübdür.

BMT-də, onun komitələrində, strukturlarında bu barədə yetərli məlumatlar vardır. BMT-nin baş katibi cənab Butros Qali keçən ilin oktyabrında Bakıda olarkən biz ona geniş məlumatlar vermişik. Keçən il BMT Baş Məclisinin iclasında mən Azərbaycan xalqı adından bu məsələlər barədə geniş məlumatlar verib, xalqımızın, respublikamızın tələblərini irəli sürmüşəm, BMT-nin təşəbbüsü və onun rəhbərliyi altında 1994-cü ilin sentyabrında və 1995-ci ilin martında Qahirədə və Kopenhagendə keçirilən beynəlxalq məclislərdə, forumlarda Azərbaycan Respublikası bu məsələlərin zəruri olduğunu bir daha elan edib və Azərbaycanın suveren hüquqlarının qorunması üçün səylər göstərməyi dünya ictimaiyyətindən tələb edibdir. Biz bu gün, BMT-nin 50 illik yubileyi günü bu beynəlxalq təşkilatın xidmətlərinə yüksək qiymət verərək, eyni zamanda müstəqil Azərbaycan Respublikasının suveren hüquqlarının qorunması üçün daha təsirli səylər göstərilməsini gözləyirik.

Azərbaycan xalqı sülhsevər xalqdır. Biz dünyada sülhün bərqərar olmasını istəyirik. Doğrudur, son 50 il müddətində dünyada böyük müharibə baş verməyibdir, ancaq hərbi münaqişələr, ayrı-ayrı regionlarda müharibələr böyük insan faciəsinə, tələfatına səbəb olur və dövlətləri, xalqları, ölkələri təhlükə altında qoyur. Yeddi il əvvəl Qafqazda, demək olar ki, bütün keçmiş Sovetlər İttifaqında baş vermiş ilk münaqişə – Dağlıq Qarabağ məsələsi ilə əlaqədar Ermənistanın Azərbaycana təcavüzü nəticəsində baş vermiş münaqişə bundan sonra çox regionlara sirayət edibdir. İndi artıq təkcə Azərbay[331-332]canda yox, Gürcüstanda da, Şimali Qafqazda da, Qafqazın başqa bölgələrində də hərbi münaqişələr var. Biz bunların hamısına son qoyulmasını tələb edirik. Balkan ölkələrində gedən hərbi münaqişələrə son qoyulmasını tələb edirik. Dünyanın bütün qaynar nöqtələrində gedən hərbi münaqişələrə son qoyulmasını tələb edirik. Bir də qeyd edirəm. Azərbaycan bütün dünyada sülhün bərqərar olunmasını istəyir. Biz dünyada sülh istəyirik, regionumuzda sülh istəyirik, ölkəmizdə sülh istəyirik. Ümidimiz, arzumuz budur ki, BMT bundan sonra bu sahədə öz səylərini artıracaqdır.

Sülhsevər xalq, dövlət olan Azərbaycan Respublikası, onun dövləti Ermənistanla münaqişədə atəşin kəsilməsinə nail oldu və 1994-cü ilin mayında atəşkəs haqqında saziş imzalandı. 16 aydan artıqdır ki, biz atəşkəs rejimində yaşayırıq. Biz bunu müsbət hadisə kimi, regionumuzda sülhün təmin olunması üçün bir vasitə kimi qiymətləndiririk və bu vasitədən səmərəli istifadə etmək üçün cəhdlər göstəririk. ATƏT-in Minsk qrupu çərçivəsində gedən danışıqların sürətlənməsini istəyirik. Onun sürətlənməsi və böyük sülhün yaranması üçün biz öz səylərimizi göstəririk, təkliflərimizi veririk, konstruktiv mövqe tuturuq və bəzi kompromislərə də gedirik. Bunlar hamısı bizim sülhsevər olmağımızı bir daha sübut edir və dünyaya nümayiş etdirir. Bunlar hamısı onu göstərir ki, biz sülh istəyirik. Eyni zamanda Azərbaycan Respublikasının ərazi bütövlüyü, onun sərhədlərinin toxunulmazlığı, Azərbaycan vətəndaşlarının təhlükəsizliyi, regionda təhlükəsizlik bizim üçün əsas vəzifədir, məqsəddir. Bizim bütün danışıqlarımız yalnız bu məqsədə nail olmaq üçün aparılır. Əmin olduğumu bildirmək istəyirəm ki, BMT, onun Təhlükəsizlik Şurası və başqa orqanları bizim səsimizi eşidəcək, öz fəaliyyətini gücləndirəcəkdir. Biz ATƏT çərçivəsində gedən danışıqları səmərəli hesab edirik və danışıqların gələcəkdə də bu çərçivədə, ancaq daha da sürətli və nəticəli olmasını istəyirik.

BMT-nin üzvü kimi müstəqil Azərbaycan Respublikasının amalı və məqsədi Azərbaycanın dövlət müstəqilliyini qorumaq, onu əbədi etməkdən ibarətdir. Azərbaycanda hüquqi, demokratik dövlət qurmaqdan, xalqımızın rifahını yaxşılaşdırmaqdan, ölkəmizdə demokratiyanı bərqərar etməkdən, insan azadlıqlarını, hüquqlarını qorumaqdan ibarətdir. Biz BMT-nin nizamnaməsinə sadiqik və ona sadiq olaraq da öz hüquqlarımızın

təmin olunmasını tələb edirik. Bu çağırışla, bu tələblər[332-333]lə mən bu gün bir daha BMT-nin Baş Qərargahına müraciət edirəm.

BMT-nin 50 illik fəaliyyətinə yüksək qiymət verərək, biz bu yubileyin Azərbaycanda belə təntənəli keçirilməsini lazım bilmişik. Bu yubiley ilə əlaqədar Azərbaycanda bir çox tədbirlər həyata keçirilib və keçirilməkdədir. Bugünkü təntənəli mərasim də məhz Azərbaycan Respublikasının BMT-yə olan münasibətinin nümayişidir, eyni zamanda BMT-nin nizamnaməsinə bizim sədaqətimizin nümayişidir.

Mən bir daha sizi, bütün Azərbaycan ictimaiyyətini, xalqımızı, bütün dövlətlərin bu mərasimdə iştirak edən nümayəndələrini BMT-nin 50 illik yubileyi münasibətilə təbrik edirəm, hər bir vətəndaşa səadət və xoşbəxtlik arzu edirəm, hər bir dövlətə sülh və əmin-amanlıq arzu edirəm. Bütün dünyada sülhün, əmin-amanlığın, təhlükəsizliyin bərqərar olmasını arzu edirəm. Sağ olun. [333-334]

## AZƏRBAYCAN İLƏ RUSİYA ARASINDA ƏMƏKDAŞLIQ HAQQINDA SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİNDƏ ÇIXIŞ

*7 oktyabr 1995-ci il*

Burada iştirak edənlərin hamısını – Rusiya hökuməti sədrinin müavini cənab Bolşakov Aleksey Alekseyeviç başda olmaqla Rusiya Federasiyasının nümayəndə heyətini və təbii ki, Azərbaycan Respublikasının nümayəndələrini sənədlərin imzalanması münasibətilə təbrik edirəm. Deməк istəyirəm ki, mühüm dövlətlərarası, hökumətlərarası sənədlərin hazırlanması və bu gün imzalanmasının mümkün olması üçün bu günlərdə çox iş görülmüşdür. Belə hesab edirəm ki, bu sənədlər Rusiya ilə Azərbaycan arasında münasibətlərin, xüsusən iqtisadi əməkdaşlığın daha da inkişaf etdirilməsi yolunda atılmış yaxşı addımdır. Biz bəzi sənədlər üzərində hələ işləyirik. Yəqin ki, onlar da hazırlanacaq və imzalanmaq səviyyəsinə çatdırılacaqdır. Mən belə hesab edirəm ki, bu, Rusiya Federasiyası ilə Azərbaycan Respublikası arasında həyatın bütün sahələrində iqtisadi, elmi-texniki əməkdaşlığın intensiv inkişafını təmin etmək üçün birgə səylərlə həyata keçirməli olduğumuz böyük işin yalnız bir hissəsidir.

Şəxsən mən bu günlərdə böyük iş görülməsindən məmnunam. Buraya belə yüksək səlahiyyətli nümayəndə heyətinin gəlməsinə görə Rusiya hökumətinə təşəkkür etmək istəyirəm. Birgə görülmüş iş üçün qonaqlarımıza və şəxsən Aleksey Alekseyeviç Bolşakova təşəkkür etmək və ümidvar olduğumu bildirmək istəyirəm ki, bizim bu işimiz özünün yeni müsbət nəticələrini verəcəkdir. Bir daha təkrar edirəm, nümayəndə heyəti burada hələ işləyir, biz birgə iş aparırıq və bu iş bu gün də, sabah da, gələcəkdə də öz nəticələrini verəcəkdir. Sizin hamınızı təbrik edirəm. [334-335]

## PAKİSTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ FƏRRUX ƏHMƏD XAN LEQARİNİN BİNƏ HAVA LİMANINDA QARŞILANMA MƏRASİMİNDƏ BƏYANAT

*9 oktyabr 1995-ci il*

Pakistan Respublikasının prezidenti, hörmətli Fərrux Əhməd xan Leqari!

Hörmətli qonaqlar, xanımlar və cənablar!

Biz bu gün Pakistan Respublikasının prezidentini Azərbaycanda böyük məmnuniyyətlə qonaq qəbul edirik.

Ölkələrimiz arasında yaranmış əlaqələr zamanı ilk dəfədir ki, Pakistan Respublikasının prezidenti Azərbaycana rəsmi səfərə gəlmişdir. Pakistan prezidentinin mənim dəvətimlə respublikamıza gəlməsi ölkələrimiz arasında əlaqələrin sürətlə inkişafını nümayiş etdirir. Pakistan Respublikasının prezidenti ilə bizim danışıqlar aparmağımız və dövlətlərarası sənədlərin imzalanması nəzərdə tutulubdur, habelə onun ölkəmizlə, Azərbaycan xalqı ilə tanış olması üçün proqram tərtib edilibdir. Əmin olduğumu bildirmək istəyirəm ki, görüşlərimiz, danışıqlarımız yaxşı nəticə verəcəkdir və biz Pakistan ilə Azərbaycan arasında mövcud əlaqələri yüksək səviyyəyə qaldıracağıq.

Biz Pakistan prezidentini əziz qonaq kimi qəbul edirik. Pakistanlı qonaqlara "Azərbaycana xoş gəlmisiniz!" deyirəm. Əminəm ki, Azərbaycan xalqının və vətəndaşlarımızın Pakistana, onun xalqına olan hörmət və ehtiramını cənab prezidentin özü Azərbaycanda olduğu müddətdə hiss edəcəkdir.

Cənab prezident, mən sizi və qonaqlarımızın hamısını ürəkdən salamlayıram. Onlara bir daha deyirəm ki, Azərbaycana xoş gəlmisiniz! Sizin respublikamıza səfəriniz uğurlu olacaqdır. [335-336]

## AZƏRBAYCAN RESPUBLİKASI İLƏ PAKİSTAN İSLAM RESPUBLİKASI ARASINDA ƏMƏKDAŞLIQ HAQQINDA SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİNDƏ MƏTBUAT ÜÇÜN BƏYANAT

*9 oktyabr 1995-ci il*

Pakistanın prezidenti bu gün Azərbaycana rəsmi səfərə gəlmişdir. Bu, Pakistan dövlət başçısının Azərbaycana ilk səfəridir. Cənab prezident Azərbaycana gələn dəqiqələrdən indiyədək biz çox səmərəli çalışmışıq. Bunların və əvvəlcədən görülmüş işlərin nəticəsində Azərbaycan ilə Pakistan arasında əlaqələri inkişaf etdirmək üçün çox mühüm sənədlər imzalanmışdır.

Pakistan ilə Azərbaycan arasında diplomatik əlaqələr respublikamız öz müstəqilliyini əldə etdikdən sonra yaranmışdır. Təxminən üç ildən artıq bir vaxtda Azərbaycan ilə Pakistan arasında dostluq əlaqələri müntəzəm mövcuddur və ardıcıl surətdə inkişaf etmişdir. Hər iki tərəfdən – Pakistan və Azərbaycan tərəfindən bu əlaqələrin bütün sahələrdə inkişaf etdirilməsi üçün səylər göstərilmiş, bunlar öz nəticəsini vermişdir. Əldə olunan əsas nailiyyət bundan ibarətdir ki, iki ölkə arasında – Pakistan ilə Azərbaycan arasında dostluq əlaqələri artıq çox möhkəm təməl əsasında qurulmuşdur və bu əlaqələrin inkişaf etməsi üçün yaxşı şərait yaranmışdır.

Pakistanın hörmətli prezidenti ilə mənim bugünkü söhbətlərim, danışıqlarım və iki ölkənin nümayəndə heyətləri arasında aparılan danışıqlar əlaqələrimizin inkişaf etdirilməsi üçün çox böyük imkanlar olduğunu bir daha aşkar etdi. Bugünkü danışıqların əsas nəticəsi ondan ibarətdir ki, həm Pakistan prezidenti, həm də mən bəyan etdik ki, Azərbaycan ilə Pakistan arasındakı əlaqələr dostluq xarakteri daşıyır və bu əlaqələr bundan sonra daha da möhkəm olacaqdır. İqtisadi, ticarət əlaqələrinin inkişaf etdirilməsi üçün geniş imkanlar var və bu məqsədlə lazımi tədbirlər görüləcəkdir.

Bu gün imzaladığımız sənədlər bu əlaqələr üçün yaxşı qanuni əsaslar yaradır. Həmin sənədlər əsasında əməli iş görmək üçün hər iki prezident lazımi göstərişlər veribdir. [336-337]

Beynəlxalq aləmdə, təşkilatlarda Pakistan ilə Azərbaycan arasındakı əməkdaşlıq həmişə hər iki ölkənin mənafeyinə uyğun olub, eyni zamanda beynəlxalq aləmdə hər iki ölkənin mövqeyinin müdafiə olunmasına, qorunmasına yönəldilibdir. Bu gün bəyan etdik və mən bunu bir daha ictimaiyyətə çatdırıram ki, biz beynəlxalq aləmdə, təşkilatlarda gələcəkdə də bu mövqelərdən çıxış edəcək və sıx əməkdaşlıq edəcəyik.

Mən Pakistan prezidentinin Azərbaycana səfərindən məmnun olduğumu bir daha bildirmək istəyirəm. Bu gün imzaladığımız sənədlərin Pakistan ilə Azərbaycan arasında dövlətlərarası ilk sənədlər olduğunu bir daha qeyd etmək istəyirəm. Ümidvar olduğumu bildirmək istəyirəm ki, bu sənədlər əməli surətdə həyata keçiriləcəkdir və gələcəkdə dövlətlərimiz, hökumətlərimiz arasında yeni-yeni sənədlər imzalamağa nail olacağıq.

Bu gün cənab prezident ilə mənim və nümayəndə heyətlərimizin arasındakı danışıqlarda mətbuat nümayəndələri iştirak ediblər. Onlar danışıqlarımızın məzmunundan halidirlər və buna görə də mən vaxt alıb bu barədə geniş məlumat verməyə ehtiyac duymuram. Diqqətinizə görə təşəkkür edirəm. [337-338]

## PAKİSTAN PREZİDENTİ FƏRRUX ƏHMƏD XAN LEQARİ İLƏ AZƏRBAYCAN MİLLİ MƏCLİSİ ÜZVLƏRİNİN GÖRÜŞÜNDƏ NİTQ

*10 oktyabr 1995-ci il*

Hörmətli cənab prezident!

Hörmətli Milli Məclis, hörmətli xanımlar və cənablar!

Biz Pakistan Respublikasının prezidenti, hörmətli cənab Fərrux Əhməd xan Leqarinin Azərbaycan Respublikasının parlamentində nitqini böyük diqqətlə və ehtiram hissi ilə dinlədik. Cənab prezident, Pakistan İslam Respublikasının keçdiyi yol haqqında və dövlət quruculuğu sahəsində, demokratiya sahəsində əldə etdiyi nailiyyətlər, təcrübələr haqqında Azərbaycan parlamentinə verdiyiniz məlumatlar bizim üçün fövqəladə dərəcədə maraqlı və əhəmiyyətlidir. Pakistan xalqının milli azadlıq yolunda, müstəqillik yolunda apardığı mübarizə ona böyük xoşbəxtlik gətiribdir. Pakistan 1947-ci ildə dövlət müstəqilliyini əldə edib. 1950-ci ildən isə tam müstəqil bir dövlət kimi yaşayır və hörmətli cənab prezidentin burada söylədiyi nitqdən biz daha aydın hiss etdik ki, onlar demokratiya yolunu tutublar və öz dövlətini, öz həyatını demokratik prinsiplər əsasında qururlar.

Pakistan xalqı ilə Azərbaycan xalqının tarixi keçmişində, adət-ənənələrində çox bənzərlik var və bizim bir dinə mənsub olmağımız xalqlarımızı bir-birinə daim yaxın edib. Bu gün bunların əsasında Pakistan Respublikası ilə Azərbaycan Respublikası arasında dostluq və sıx əməkdaşlıq əlaqələri mövcuddur.

Pakistan xalqı 1947-ci ildən milli azadlığa çıxıb, dövlət müstəqilliyini əldə edib, indiyə qədər hüquqi demokratik dövlət qurmaq yolu ilə gedir. Əldə etdiyi nailiyyətlərlə yanaşı, bir çox problemlərlə, çətinliklərlə də rastlaşır. Azərbaycan xalqı öz milli azadlığını, dövlət müstəqilliyini dörd il bundan öncə əldə edib və bu dörd ildə milli azadlığı, müstəqilliyi möhkəmləndirməklə bərabər, həm də çox çətin, ağır daxili problemlərlə, eyni zamanda Ermənistanın hərbi təcavüzü ilə rastlaşıbdır. [338-339]

Pakistan öz tarixi təcrübəsinə əsaslanaraq, bu təcrübədən istifadə edərək yaxşı bilir ki, müstəqil Azərbaycanda bu dörd il müddətində bizim getdiyimiz yol nə qədər ağır, çətin yoldur, eyni zamanda çox şərəfli yoldur. Güman edirəm ki, məhz buna görə də Azərbaycan öz dövlət müstəqilliyini elan edən kimi Pakistan onun səsinə səs vermişdir, Azərbaycanın müstəqilliyini tanımışdır və sonrakı dövrdə Azərbaycanla dostluq, əməkdaşlıq əlaqələri qurmağa, yaratmağa, Azərbaycanın mənafeyini beynəlxalq təşkilatlarda daim müdafiə etməyə çalışmışdır. Biz çox məmnunuq ki, Pakistan məsafə etibarilə bizdən uzaqda olsa da, Azərbaycan üçün çox yaxındır, Azərbaycanın həm daxili vəziyyətini, burada gedən prosesləri izləyir, həm də ölkəmizin beynəlxalq aləmdə olan vəziyyətinə diqqət yetirir.

Hörmətli prezident, siz Azərbaycanda demokratik proseslərin inkişaf etməsi haqqında, bazar iqtisadiyyatının inkişafı, Azərbaycanın demokratiya yolu ilə getməsi haqqında və yaxın vaxtlarda ölkəmizdə yeni, demokratik parlament seçkilərinin keçiriləcəyi barədə çox dəyərli sözlər dediniz. Əmin ola bilərsiniz və bütün dünya ictimaiyyəti də əmin ola bilər ki, Azərbaycan Respublikası tutduğu yolla daim irəliləyəcək, Azərbaycanda demokratik hüquqi, sivilizasiyalı dövlət quruculuğu davam edəcək, ölkəmiz bazar iqtisadiyyatı yolu ilə gedəcək, iqtisadi islahatları ardıcıl surətdə həyata keçirəcək, dünya birliyində öz layiqli yerini tutmağa çalışacaqdır.

Bu mühüm və taleyüklü məsələlərin həll olunmasında biz dünya ölkələrinin hamısının təcrübəsindən istifadə edirik və dost Pakistan dövlətinin, Pakistan Respublikasının təcrübəsindən mütləq istifadə etməyə çalışacağıq. Azərbaycan Respublikasının ən çətin problemi Ermənistanın ölkəmizə qarşı təcavüzü nəticəsində yaranmış ağır vəziyyətdir. Ermənistanın hərbi təcavüzü Azərbaycan Respublikasına çox böyük, ağır zərbələr vurubdur. Azərbaycan Respublikasının ərazisinin 20 faizi Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuş, bu ərazilərdən bir milyondan çox vətəndaşımız zorla çıxarılmış və hazırda onlar ağır şəraitdə yaşayırlar.

Müharibəni biz başlamamışıq, Azərbaycan sülh istəyir, Azərbaycan xalqı daim sülhsevər duyğularla yaşayıbdır. Ona görə də biz məsələnin sülh yolu ilə həll olunmasına çalışırıq. Bu məqsədlə də 16 ay bundan öncə atəşkəs haqqında saziş [339-340] imzalamışıq və o vaxtdan indiyə qədər atəşkəs rejiminin saxlanmasına riayət edirik. Ancaq Azərbaycan xalqı heç vaxt bu ədalətsizliyə – Azərbaycana qarşı olan təcavüzə dözməyəcəkdir. Azərbaycan xalqı işğal olunmuş torpaqların azad edilməsi uğrunda çalışır və çalışacaqdır. Ölkəmizin ərazi bütövlüyünün, sərhədlərimizin toxunulmazlığının təmin edilməsi bizim üçün ən ali məqsəddir.

Ermənistan-Azərbaycan münaqişəsi məsələsi, Ermənistanın Azərbaycana qarşı təcavüz etməsi məsələsi beynəlxalq təşkilatlarda dəfələrlə müzakirə olunubdur və bu gün bu fürsətdən istifadə edərək hörmətli prezident, sizə və Pakistan dövlətinə, hökumətinə Azərbaycan xalqının təşəkkürünü bildirirəm. Pakistan daim Azərbaycan Respublikasının mövqeyini müdafiə edibdir, Azərbaycana qarşı olan hərbi təcavüzü pisləyibdir. Cənab prezident, siz bu gün burada, Azərbaycan parlamentində Pakistanın bu mövqeyini bir daha bəyan etdiniz. Ona görə mən sizə təşəkkür edirəm.

Biz Pakistan üçün çox mühüm əhəmiyyəti olan Kəşmir məsələsinin də sülh yolu ilə həll olunmasının tərəfdarıyıq. Bu məsələnin beynəlxalq təşkilatlarda müzakirəsi zamanı Azərbaycan daim Pakistanın mövqeyini, onun hüquqlarını müdafiə edib və bundan sonra da müdafiə edəcəkdir.

Hörmətli cənab prezident! Siz ikinci gündür ki, Azərbaycan torpağındasınız, Azərbaycan xalqının bugünkü həyatı, vəziyyəti ilə tanış olursunuz. Güman edirəm ki, bunlar Azərbaycana ilk dəfə gəlmiş Pakistan prezidenti üçün və ümumiyyətlə Pakistan dövləti, respublikası üçün Azərbaycanı daha yaxından tanımaqdan ötrü yaxşı vasitədir. Mən sizinlə apardığımız danışıqları səmərəli hesab edirəm. Pakistan ilə Azərbaycan arasında ilk dəfə imzalanmış sənədləri çox mühüm sayıram və belə hesab edirəm ki, bu sənədlər Pakistan-Azərbaycan əlaqələrinin sürətlə inkişaf etməsi üçün yaxşı əsas yaradır.

Azərbaycan xalqı Pakistanı və onun xalqını özü üçün dost ölkə, dost xalq kimi qəbul edibdir və bizim bu görüşlərimiz bu dostluğun daha da möhkəmlənməsinə, daha da inkişafına xidmət edəcəkdir. Pakistan xalqına Azərbaycan xalqının hörmət və ehtiramını, hərarətli salamlarını çatdırıram və Pakistan xalqına səadət, xoşbəxtlik arzulayıram. Ümidvaram ki, dövlətlərarası əlaqələrimiz bundan sonra daha da sürətlə inkişaf edəcək, görüşlərimiz davam edəcəkdir. [340-341]

Pakistanın baş naziri hörmətli xanım Bənəzir Bhutto ilə beynəlxalq məclislərdə iştirak edərkən bir neçə dəfə görüşüb ətraflı danışıqlar aparmışam. Bu danışıqlardan çox məmnun olduğumu bildirmək istəyirəm. Bu günlərdə Pakistanın prezidenti ilə də şəxsi tanışlığım baş verdi. Bir də qeyd edirəm, bunlar hamısı bizim gələcəyimiz üçün yaxşı əsas yaradır. Hörmətli cənab prezident, rica edirəm, mənim bir daha dəvətimi Pakistanın baş naziri, hörmətli xanım Bənəzir Bhuttoya çatdırasınız. Biz onu Azərbaycanda görməkdən məmnun olacağıq. Sizin də məni Pakistana dəvət etməyinizi məmnuniyyətlə qəbul edirəm və hesab edirəm ki, belə görüşlər həm Pakistan, həm də Azərbaycan üçün çox faydalı olacaqdır.

Bir daha Pakistan xalqına səadət, xoşbəxtlik arzu edir, müstəqillik yolunda ona uğurlar diləyirəm. [341-342]

## PAKİSTAN PREZİDENTİ FƏRRUX ƏHMƏD XAN LEQARİNİN ŞƏRƏFİNƏ RƏSMİ QƏBULDA NİTQ

*"Gülüstan" Sarayı*

*10 oktyabr 1995-ci il*

Hörmətli cənab prezident!
Hörmətli xanımlar və cənablar!

Pakistan İslam Respublikasının prezidenti cənab Fərrux Əhməd xan Leqarinin Azərbaycana rəsmi səfərinin ikinci günü başa çatır. Mənim dəvətimi qəbul edib Azərbaycan Respublikasına rəsmi səfərə gəldiyinə və bu iki gün müddətində aramızda aparılan danışıqlara və əldə olunan nailiyyətlərə, sazişlərə görə cənab prezidentə bir daha təşəkkürümü bildirirəm.

Hörmətli cənab prezident, sizi və sizi müşayiət edən nümayəndə heyətinin üzvlərini, Pakistandan Azərbaycana gəlmiş bütün qonaqları Bakıda bu gözəl "Gülüstan" sarayında bir daha səmimi qəlbdən salamlayıram. Pakistan Respublikası prezidentinin Azərbaycana rəsmi səfəri Pakistan ilə Azərbaycan arasında dostluq və əməkdaşlıq əlaqələrinin yeni bir mərhələsidir. Ölkələrimiz arasında olan diplomatik əlaqələr dövründə ilk dəfədir ki, Pakistan Respublikasının prezidenti Azərbaycan torpağına gəlibdir. Biz bunu yüksək qiymətləndiririk və bu iki gün müddətində – cənab prezident Azərbaycanda olduğu zaman şahid oldu ki, Azərbaycan vətəndaşları onu böyük hörmət və ehtiramla qarşılayırlar.

İki gün müddətində aparılan danışıqlar onu sübut edir ki, ölkələrimiz arasında səmimi dostluq əlaqələri var və bu əlaqələrin inkişaf etdirilməsi üçün geniş imkanlar mövcuddur. Bu dostluq əlaqələrinin genişləndirilməsi barədə fikirlərimiz eynidir və buna görə də Pakistan Respublikasının prezidenti və mən dostluq və əməkdaşlıq haqqında böyük bir müqaviləni imzaladıq. Eyni zamanda əlaqələrimizi, xüsusən iqtisadi, ticarət əlaqələrimizi inkişaf etdirmək üçün bir neçə saziş də imzalanıbdır. Bu sənədlər bizim gələcək fəaliyyətimiz üçün yaxşı əsas yaradır. Ancaq bu günlər əldə olunan ən əsas [342-343] nəticə ondan ibarətdir ki, Pakistan və Azərbaycan dost ölkələr kimi bir-biri ilə əlaqələrini daha da genişləndirəcək, inkişaf etdirəcək və bir-birinə daha yaxından yardım edəcəkdir.

Hörmətli prezident bu gün Azərbaycan Respublikasının parlamentində çox dəyərli, əhəmiyyətli nitq söylədi. Hörmətli prezidentin nitqinin müddəaları bizim, yəni Azərbaycan dövləti ilə Pakistan dövlətinin, hökumətlərimizin arasındakı bütün məsələlərdə fikirlərin eyni olduğunu bir daha nümayiş etdirdi. Pakistan xalqı milli azadlığına, dövlət müstəqilliyinə nail olandan sonra demokratik, sivilizasiyalı, hüquqi dövlət qurmaq yolu ilə gedir, bu sahədə bütün çətinliklərin öhdəsindən gələrək böyük nailiyyətlər əldə edibdir. Azərbaycan Respublikası da dörd il bundan əvvəl öz dövlət müstəqilliyini, mülki azadlığım əldə edərək müstəqilliyini möhkəmləndirməyə çalışır, dövlət quruculuğu ilə, Azərbaycanda hüquqi, demokratik, sivilizasiyalı dövlət yaratmaq prosesi ilə məşğuldur.

Bir aydan sonra müstəqil Azərbaycan Respublikasında ilk demokratik parlament seçkiləri keçiriləcəkdir. Eyni zamanda Azərbaycan Respublikasının ilk demokratik konstitusiyası qəbul olunacaqdır. Azərbaycanın bu ağır, çətin dövründə belə demokratik və çox böyük əhəmiyyət kəsb edən tədbirlərin keçirilməsi onu sübut edir ki, Azərbaycan xalqı, respublika hakimiyyəti demokratiya yolu ilə gedir və daim bu yol ilə gedəcəkdir. Azərbaycanda gedən bu proseslər və respublikamızda demokratiyam bərqərar etmək üçün həyata keçirilən başqa tədbirlər, o cümlədən iqtisadi islahatların aparılması Pakistan dövləti tərəfindən qiymətləndirilir və bu barədə hörmətli prezident parlamentin iclasında çox əhəmiyyətli fikirlər söylədi.

Eyni zamanda bizim qonaqlarımız bu iki gün müddətində Azərbaycanın ağır və çətin problemləri ilə tanış oldular. Həmin problemlərdən ən böyüyü, ən çətini Ermənistan tərəfindən Azərbaycana edilən hərbi təcavüz, bu təcavüz nəticəsində Azərbaycan Respublikası ərazisinin bir qisminin Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunması və işğal edilmiş torpaqlardan bir milyondan çox vətəndaşımızın zorla qovulmasıdır. Mən bir daha məmnuniyyət hissi ilə qeyd etmək istəyirəm ki, Pakistan Azərbaycan Respublikasına qarşı Ermənistanın etdiyi hərbi təcavüzü daim pisləmişdir və bu gün də pisləyir. Eyni zamanda Azərbaycanın ağır vəziyyətdən [343-344] ləyaqətlə çıxması və bu məsələlərin sülh yolu ilə həll olunması üçün lazımi səylər göstərir. Azərbaycan xalqının bu ağır dövründə Pakistan xalqının, Pakistan dövlətinin onunla həmrəy olması bizim üçün çox qiymətlidir.

Biz bilirik ki, Pakistanın yerləşdiyi regionda onu narahat edən bəzi problemlər var. Kəşmir probleminin həll olunmasında biz Pakistanı daim dəstəkləmişik və bu gün də mən bu barədə dövlətimiz adından bəyanat verirəm. Pakistanı narahat edən məsələlərdən biri də Əfqanıstanda yaranmış vəziyyətdir. Biz Əfqanıstanda bütün məsələlərin sülh, danışıqlar yolu ilə, dincliklə həll olunmasının tərəfdarıyıq. Ümidvar olduğumu bildirmək istəyirəm ki, Pakistan bu istiqamətdə fəaliyyət göstərəcək və onları narahat edən problemlərin öhdəsindən gələ biləcəkdir.

Biz hər yerdə sülh olmasını istəyirik, dünyada zorakılığın əleyhinəyik. İşğalçılığın, bir dövlətin zor işlədərək başqa dövlətin ərazisini ələ keçirməsinin əleyhinəyik. Biz bütün beynəlxalq hüquq normalarına hər bir dövlət tərəfindən əməl olunmasının tərəfdarıyıq və bunu tələb edirik. Dünən və bu gün aparılan söhbətlərimizdə bizə bir daha məlum oldu ki, Pakistan xalqı və Pakistan dövləti özünün qarşısında duran məsələləri öz iradəsi ilə, ədalətlə həll etmək istəyir, Azərbaycanın qarşısında duran problemləri də Azərbaycan xalqı öz iradəsi ilə, müstəqil surətdə, ədalətlə həll etmək istəyir. Bu məsələlərdə həmfikir olmağımız gələcək əməkdaşlığımız üçün daha yaxşı şərait yaradır.

Bir sözlə, danışıqlarımız, söhbətlərimiz Pakistan ilə Azərbaycan arasındakı dostluq, əməkdaşlıq əlaqələrinin inkişafı üçün yaxşı zəmin yaradıbdır və biz Azərbaycanda bu imkanlardan səmərəli istifadə etməyə çalışacağıq. Ümidvaram ki, yüksək səviyyədə dövlətlərarası əlaqələrimiz bundan sonra mütəmadi olaraq davam edəcəkdir. Mən hörmətli prezidentin dəvətindən istifadə edib Pakistanı ziyarət etmək fikrindəyəm. Pakistanın baş naziri, hörmətli xanım Bənəzir Bhuttonu Azərbaycana dəvət etmişəm və biz onun ölkəmizə gəlməsini səbirsizliklə gözləyəcəyik. Bu əlaqələr, danışıqlar dövlətlərimizin, hökumətlərimizin bütün səviyyələrində də davam edəcək[344-345]dir. Biz – həm Pakistan, həm də Azərbaycan istər dövlət quruculuğunda qarşımızda duran məsələləri həll etmək, müstəqilliyimizi möhkəmləndirmək üçün, istərsə də beynəlxalq aləmdə öz mövqelərimizi möhkəmləndirmək üçün, Azərbaycan Respublikasının öz ərazi bütövlüyünü, sərhədlərinin toxunulmazlığını təmin etməsi üçün birgə səylər göstərəcəyik.

Pakistan xalqına, onun dövlətinə, hökumətinə səadət, xoşbəxtlik arzulayır, qarşıda duran vəzifələrin müvəffəqiyyətlə həyata keçirilməsi üçün uğurlar diləyirəm. Sağ olun. [345-346]

## PAKİSTAN PREZİDENTİ FƏRRUX ƏHMƏD XAN LEQARİNİN AZƏRBAYCAN DÖVLƏT İNŞAAT MÜHƏNDİSLƏRİ UNİVERSİTETİNİN YATAQXANASINDA MÜVƏQQƏTİ MƏSKUNLAŞMIŞ FÜZULİ, KƏLBƏCƏR. ZƏNGİLAN, CƏBRAYIL QAÇQINLAR İLƏ GÖRÜŞÜNDƏ ÇIXIŞ

*11 oktyabr 1995-ci il*

Əziz bacılar, qardaşlar!
Əziz uşaqlar, əziz vətəndaşlarımız!

Mən bu gün Pakistan Respublikasının prezidenti cənab Fərrux Əhməd xan Leqari ilə birlikdə sizin yanınıza, görüşünüzə gəlmişəm. Mən bura sizin vəziyyətinizlə bir daha tanış olmaq üçün gəlmişəm. Bilirsiniz ki, Pakistan prezidenti cənab Fərrux Əhməd xan Leqari üçüncü gündür Azərbaycanda rəsmi ziyarətdədir. İlk dəfədir ki, Pakistan kimi böyük bir dövlətin prezidenti respublikamıza rəsmi səfərə gəlibdir. O mənim dəvətimlə Azərbaycanda səfərdədir. Üç gün müddətində biz çox səmərəli danışıqlar apardıq, iki dövlət – Pakistan Respublikası ilə Azərbaycan Respublikası arasında dostluq və əməkdaşlıq haqqında, ticarət və iqtisadi əlaqələri inkişaf etdirmək haqqında və digər məsələlər barədə sazişlər imzaladıq. Bu, Azərbaycan torpağında Pakistan rəhbərliyi ilə ilk yüksək səviyyəli görüşümüzdür və ilk dəfə imzalanan sənədlərdir.

Pakistan böyük dövlətdir. O öz müstəqilliyini 1947-ci ildə əldə edibdir. Bu dövlət Asiya qitəsində geniş yer tutur, dünya siyasətində böyük mövqeyi var. Azərbaycan isə dörd il öncə öz müstəqilliyini qazanıb. Respublikamız müstəqillik yolunda ilk addımlarını atır, müstəqil dövlət quruculuğu ilə məşğuldur. Belə bir şəraitdə Pakistan kimi böyük bir dövlətlə müstəqil Azərbaycan Respublikası arasında sıx əlaqələrin yaranması ölkəmizin beynəlxalq aləmdə mövqeyinin möhkəmlənməsini göstərir, eyni zamanda respublikamızın öz müstəqilliyini qoruyub saxlaması üçün, Ermənistanın təcavüzündən xilas olması üçün Azərbaycanın yeni bir dayağının olduğunu nümayiş etdirir. [346-347]

Biz Pakistan ilə Azərbaycan arasında mövcud dostluq əlaqələrindən çox razıyıq. Son üç gündə apardığımız danışıqlarda bu əlaqələr daha yüksək səviyyəyə çatıbdır. Azərbaycan müstəqillik əldə etdiyi ilk vaxtlardan Pakistan respublikamıza öz müsbət münasibətini göstərib və beynəlxalq təşkilatlarda bizim mövqeyimizi həmişə müdafiə edibdir. Pakistanın baş naziri hörmətli xanım Bənəzir Bhutto ilə mən bir neçə dəfə görüşmüşəm. Bizim Qahirədə, Mərakeşdə, Aşqabadda və başqa yerlərdə görüşlərimiz, çox ətraflı danışıqlarımız, söhbətlərimiz olubdur. Biz əlaqələrimizin inkişaf etdirilməsi üçün həmfikir olduğumuzu bildirmişik.

İndi Pakistan prezidenti cənab Fərrux Əhməd xan Leqari ölkəmizə səfərə gəlibdir. Sonra mən Pakistana rəsmi səfərə gedəcəyəm. Pakistanın baş naziri xanım Bənəzir Bhuttonu respublikamıza səfərə dəvət etmişəm. Beləliklə, biz dövlətlərarası əlaqələri çox yüksək səviyyədə inkişaf etdirəcəyik.

Bunların hamısı hər iki ölkə üçün – həm Pakistan üçün, həm də Azərbaycan üçün faydalıdır. Bu, Azərbaycan üçün xüsusən faydalıdır. Ona görə ki, respublikamız ağır vəziyyətdədir. Ermənistanın Azərbaycana qarşı yeddi ildən bəri davam edən hərbi təcavüzü nəticəsində torpaqlarımızın bir hissəsi Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunubdur. Həmin ərazilərdən vətəndaşlarımız – siz, əziz bacı və qardaşlarımız, əziz övladlarımız zorla çıxarılmısınız, müvəqqəti olaraq köçkün düşməyə məcbur olmusunuz. İndi qaçqın vəziyyətində yaşayırsınız. Mən bilirəm, indi hər birinizin ürəyi Füzuli ilə, Kəlbəcər ilə, Zəngilan ilə, Laçın ilə, Şuşa ilə, Ağdam ilə, Qubadlı ilə döyünür, işğal altında qalmış başqa ərazilərimizlə döyünür. Azərbaycanın hər bir kəndi, hər bir bucağı, hər bir dağı, hər bir çayı, hər bir çeşməsi, hər bir ağacı sizin üçün də, mənim üçün də əzizdir. Sizin yaşadığınız rayonlarda, kəndlərdə, şəhərlərdə ev-eşiyiniz də, yurdunuz da, obanız da, dağlarınız da, çaylarınız da, qayalarınız da, meşələriniz də, çeşmələriniz də bizim hər birimiz üçün əzizdir, hər birimiz üçün çox qiymətlidir. Onlar Azərbaycanın hər bir vətəndaşının abidəsidir, böyük bir məskəni, böyük bir məkanıdır.

Məcburən çıxdığınız rayonlar, kəndlər təkcə sizin üçün əziz deyil, bütün Azərbaycan vətəndaşları üçün əzizdir. Mənim üçün isə Azərbaycanın prezidenti kimi, vətəndaş kimi, Azərbaycanı öz həyatından çox sevən insan kimi Azərbaycanın hər bir guşəsi, hər bir nöqtəsi əzizdir. Ona görə bizim yeganə və [347-348] ən ali məqsədimiz ondan ibarətdir ki, torpaqlarımız tezliklə azad olsun, erməni işğalçıları ərazilərimizdən çıxsınlar.

Doğrudur, indi bizim torpaqlarımızı viran ediblər, dağıdıblar. Ancaq bunların hamısı müvəqqətidir. Əsas məsələ hər bir kəsin öz yerinə, yurduna, elinə, obasına qayıtmasıdır. İnsanlar yaradıcıdır. Azərbaycan xalqı yaradıcı xalqdır, qurucu xalqdır. Əminəm ki, biz torpaqları azad etdikdən sonra hər bir kənddə, hər bir məntəqədə, hər bir qəsəbədə, hər bir şəhərdə indi dağıdılanlar qısa müddətdə bərpa olunacaq. Siz evinizə, doğma yerlərinizə qayıdacaqsınız, öz elinizin ab-havasını yenidən duyacaqsınız. Buna əmin ola bilərsiniz. Sizin müvəqqəti olaraq düşdüyünüz bu ağır vəziyyət hamımızı narahat edir. Mənim ürəyimin ən böyük ağrısı sizin hər birinizin bu ağır şəraitdə yaşamağınızdır. Ona görə də var gücümüzlə, qüvvəmizlə və bütün imkanlarımızla Azərbaycanı bu

vəziyyətdən çıxarmağa çalışırıq. Əmin olun ki, bu problemlərin həll edilməsi üçün mən daim, gecə-gündüz çalışıram, çalışacağam və sizinlə birlikdə ali məqsədimizə nail olacağıq.

Pakistan Respublikasının prezidenti cənab Fərrux Əhməd xan Leqari ilə danışıqlarımızda, söhbətlərimizdə bu mövzu, yəni Azərbaycanın işğal edilmiş torpaqlarının azad olunması və yerlərindən didərgin düşmüş adamların öz torpaqlarına qayıtması ən əsas mövzulardan biri olubdur. Pakistanlılar da öz tarixində, öz həyatında qaçqınları çox görüblər. Onlar da belə təcavüzlərə məruz qalıblar. Öz azadlıqları uğrunda mübarizə aparıblar. Bizim gün-güzəranımızı, düşdüyümüz vəziyyəti onlar başqalarından bəlkə də daha yaxşı bilirlər, daha yaxından hiss edirlər. Biz danışıqlarımızda da belə bir ümumi fikrə gəldik ki, bu haqq-ədalət işini başa çatdırmaq üçün Pakistan da Azərbaycana kömək edəcəkdir.

Ona görə də bu gün Pakistan prezidentinin özü xahiş etdi ki, gəlib burada sizinlə görüşsün. Mən də onunla birlikdə sizin görüşünüzə gəlmişəm. Güman edirəm ki, bu görüş sizə müəyyən qədər mənəvi dayaq olacaqdır. Bilin ki, – mən bu gün bir daha deyirəm, – mən də, bütün Azərbaycan da ağır vəziyyətinizi bilir, hiss edir, sizi unutmur və heç vaxt unutmayacaqdır. Siz daim mənim qəlbimdəsiniz, daim mənim fikrimdəsiniz, si[348-349]zin həyatınız həmişə məni düşündürür. Çalışacağam ki, bütün beynəlxalq təşkilatların, dövlətlərin imkanlarından istifadə edərək sizi bu vəziyyətdən çıxaraq.

Azərbaycanın işğal edilmiş torpaqları azad olunacaqdır. Azərbaycan müstəqil dövlət kimi öz taleyinin, öz ərazisinin, öz torpaqlarının sahibi olacaqdır. Buna əmin ola bilərsiniz. Mən sizə hörmət və məhəbbətimi, sevgimi bildirirəm. Hamınızı salamlayaraq bu balaca uşağı bağrıma basıram. Onu öpərək sizin hər birinizi öpürəm, hər birinizi bağrıma basıram. Sağ olun. [349-350]

## AZƏRBAYCANIN XALQ ŞAİRİ BƏXTİYAR VAHABZADƏYƏ

Əziz Bəxtiyar müəllim!

Sizi – xalqımızın böyük şairi, görkəmli alimi, tanınmış pedaqoqu və yorulmaz ictimai-siyasi xadimini 70 illik yubileyiniz münasibətilə ürəkdən təbrik edirəm.

Xalqın düşüncə və arzuları, hiss və duyğuları, istək və amalları həmişə sizin zəngin yaradıcılığınızın, mübariz poeziyanızın cövhəri olmuşdur. Məslək və əqidənizin xidmətində sədaqətlə durmuş. qələminiz sizi şöhrət zirvəsinə ucaltmış, Azərbaycanın sevimli sənətkarı etmişdir.

Çoxillik elmi-pedaqoji fəaliyyətiniz, nurlu şer-sənət dünyanız illər boyu gənclərin tərbiyəsinə böyük təsir göstərmiş, haqq-ədalətin təntənəsi uğrunda mübarizədə qalib gəlməyə xalqı səfərbər etmişdir. Bu gün Vətən torpağının keşiyində duran mərd oğul və qızlarımız məhz doğma xalqın, müqəddəs torpağın azadlığı üçün yanmaq amalı ilə yaşayır, döyüşür və yaradır.

Sizin şəxsiyyətiniz və yaradıcılığınız xalqın milli təfəkkürünün formalaşmasına xidmət etmiş, onu milli dirçəlişə səsləmiş, istiqlaliyyət uğrunda mübarizədə əvəzsiz rol oynamışdır. Siz hər zaman azadlıq carçısı olmuş, ən çətin anlarda belə güc və silah qarşısında baş əyməmiş, əqidəsindən dönməyən şair, mübariz millət vəkili, yorulmaz ictimai xadim kimi xalqın müdafiəsinə qalxmışsınız.

Hörmətli şair!

Sizi – həyatın mənasını xalqa sədaqətlə xidmətdə görən fədakar insanı ömrün müdrik çağında Azərbaycanın müstəqilliyi həqiqətən bəxtiyar etmişdir. Sizə möhkəm cansağlığı, uzun ömür və müstəqil Azərbaycan dövlətinin gələcəyi naminə fəaliyyətinizdə yeni uğurlar arzulayıram.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*12 oktyabr 1995-ci il* [350-351]

## AZƏRBAYCAN RESPUBLİKASININ YENİ KONSTİTUSİYA LAYİHƏSİNİ HAZIRLAYAN KOMİSSİYANIN İCLASINDA GİRİŞ SÖZÜ

*Prezident Sarayı*

*12 oktyabr 1995-ci il*

Hörmətli komissiya üzvləri!
Hörmətli xanımlar və cənablar!

Azərbaycan Respublikasının yeni konstitusiya layihəsini hazırlayan komissiya tərəfindən yaradılmış işçi qrupu xeyli iş görübdür. Konstitusiya komissiyasında apardığımız müzakirələr əsasında, irəli sürülmüş təkliflər, müddəalar əsasında işçi qrupu konstitusiyanın layihəsini hazırlayıbdır. Bu layihə konstitusiya komissiyasının üzvlərinə paylanıbdır. Layihənin hazırlanıb təqdim edilməsindən bir neçə gün keçib və bəzi tədbirlərimiz olduğuna görə konstitusiya komissiyasını yığmaq mümkün olmamışdır. Mən layihə ilə tanış olandan sonra bu müddətdə konstitusiya komissiyasının işçi qrupunun bir sıra üzvlərinə bəzi təkliflərimi verdim, mülahizələrimi söylədim ki, onlar işləsinlər. Görülən əlavə işlərlə dünən tanış oldum. Hiss etdim ki, əlavə çox iş görülüb. Hesab edirəm ki, biz indi artıq konstitusiya layihəsini müzakirə edib, onu qəbul etmək səviyyəsinə gəlib çatmışıq.

Sizə paylanan bu layihəni əsas götürmək olar. Ancaq onun üzərində işləmək lazımdır. Layihənin üzərində işləmək üçün bir çox materiallar da hazırlanıb və bir çox fikirlər formalaşıbdır. Hesab edirəm ki, konstitusiyamızda bəzi müddəaları mütləq əks etdirməliyik. Mən sizdə olan layihə əsasında danışıram. Məsələn, bu layihənin giriş hissəsini bir az da genişləndirmək lazımdır. Giriş hissəsində milli dövlətçilik ənənələrimiz, Azərbaycanın dövlət müstəqilliyi ilə əlaqədar fikirlər əks olunmalıdır. Giriş hissəsi Azərbaycanın Dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı ilə əlaqələndirilməlidir.

Qəbul edəcəyimiz, konstitusiya müstəqil Azərbaycan dövlətinin ilk konstitusiyası, eyni zamanda uzunömürlü olmalıdır. Demək istəmirəm elə bir konstitusiya olmalıdır ki, bu, daim [351-352] yaşasın, – bu, çox yaxşı olardı, şəxsən mən bunu arzu edərdim – ancaq elə edək ki, uzunömürlü olsun. Ona görə bu layihənin giriş hissəsində və konstitusiyanın maddələrində bir neçə fikri daha da dəqiqləşdirmək, genişləndirmək lazımdır.

Konstitusiyada insan hüquqları, azadlıqları haqqında maddələr çoxdur. Onlar da müəyyən qədər dəqiqləşdirilməli, təkmilləşdirilməlidir. Eyni zamanda layihədə vətəndaşların vəzifələri barədə də lazımi qədər maddələr var. Amma güman edirəm ki, layihədə bu vəzifələr daha dəqiq ifadə olunmalı və bu maddələr daha da təkmilləşdirilməli, genişləndirilməlidir.

Respublikamızda Naxçıvan Muxtar Respublikası var. Layihədə Naxçıvan Muxtar Respublikasına həsr edilən, Naxçıvan MR-in statusu, muxtar respublikadakı dövlət qurumu haqqında maddələr olmalıdır. Bunlar işlənilməli və layihəyə əlavə edilməlidir. Bir neçə başqa fikir də var. Mən bunları işçi qrupunun üzvləri ilə görüşümdə demişəm və onlar bu barədə müəyyən materiallar hazırlayıblar. Ona görə də yaxşı olardı ki, indi konstitusiya komissiyasının üzvləri bu layihə ilə əlaqədar öz fikirlərini, əlavələrini, təkliflərini versinlər, işçi qrupunun üzvləri ilə mənim son günlər apardığım iş nəticəsində hazırlanmış materiallardan istifadə olunsun və bu gün sabaha qədər bu layihəni işləyib artıq qəbul edilmə səviyyəsinədək çatdıraq. Ona görə də kimin nə təklifi, fikri varsa buyursun. Biz bu gün, sabah işləməliyik.

### YEKUN SÖZÜ

*14 oktyabr 1995-ci il*

Hörmətli komissiya üzvləri!
Hörmətli xanımlar və cənablar!

Bu gün Azərbaycan Respublikasının yeni konstitusiya layihəsini hazırlayan komissiyanın növbəti iclasıdır. Biz konstitusiya komissiyasının iclasını ilk dəfə iyunun 5-də keçirmişik. Komissiyanın üzvləri, komissiyanın yaratdığı işçi qrupu o vaxtdan indiyədək konstitusiya layihəsinin hazırlanması ilə müntəzəm olaraq məşğuldurlar. İndiyə qədər işçi qrupu daim işləyib, komissiya beş dəfə öz iclasını keçirib və hər dəfə də konstitu[352-353]siya layihəsinin yaranması haqqında müzakirələr gedibdir. Bu konstitusiya komissiyasının altıncı iclasıdır. Güman edirəm ki, komissiyanın oktyabrın 12-də keçirdiyimiz iclasında biz çox ətraflı hazırlanmış layihəni müzakirə etdik və bu layihənin tamamilə hazır olduğunu hamımız birlikdə təsdiq etdik. Ancaq eyni zamanda bu layihə ətrafında müzakirələr, təkliflər oldu. Ona görə də biz bu təkliflərlə, tövsiyələrlə, məsləhətlərlə əlaqədar bir daha işçi qrupuna tapşırdıq ki, işi davam etdirsin. İş davam etdirilib.

Komissiyanın dünən axşam keçirilən iclasında verilən təkliflər nəzərə alınaraq konstitusiya layihəsi yenidən təqdim olunubdur. Mənə verilən məlumatlara görə, bu gün səhər saat 10-dan layihənin son variantı komissiyanın bütün üzvlərinə paylanıbdır. Güman edirəm ki, siz bu variantla, yəni burada edilən dəyişikliklərlə, əlavələrlə tanış olmusunuz, layihəni yenidən oxumusunuz. Ona görə də mən şəxsən hesab edirəm ki, konstitusiyanın layihəsi hazırdır. [353-354]

## GÖRKƏMLİ ALİM VƏ CƏRRAH MUSTAFA BƏY TOPÇUBAŞOVUN ANADAN OLMASININ 100 İLLİYİ YUBİLEYİNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ GECƏDƏ ÇIXIŞ

*Azərbaycan Dövlət Opera və Balet teatrı*

*14 oktyabr 1995-ci il*

Hörmətli xanımlar və cənablar!

Mustafa bəy Topçubaşovun anadan olmasının 100 illik yubileyi Azərbaycan xalqının elminin, təhsilinin, səhiyyəsinin, mədəniyyətinin bayramıdır. Bu bayram münasibətilə sizi ürəkdən təbrik edirəm. Mustafa bəy Topçubaşovun davamçılarına, bütün Azərbaycan xalqına və vətəndaşlarına elmin, təhsilin, səhiyyənin, mədəniyyətin inkişafında uğurlar arzulayıram.

Mustafa bəy Topçubaşovun həyat yolu, yaradıcılığı, onun bizim üçün və gələcək nəsillər üçün qoyduğu irs milli sərvətimiz və milli iftixarımızdır.

XX əsr sona çatır. Bu əsrdə xalqımız bir çox mərhələlərdən, sınaqlardan, imtahanlardan keçib və nəhayət, öz milli azadlığına, dövlət müstəqilliyinə nail olubdur. Bütün bu mərhələlərdə Azərbaycan xalqını yaşadan, irəliyə aparan, xalqımıza güc, ruh verən Azərbaycan xalqının görkəmli şəxsiyyətləri, böyük alimləri və dahi insanları olmuşlar.

Mustafa bəy Topçubaşov XX əsrdə Azərbaycanın ən görkəmli şəxsiyyətlərindən biridir. O, İrəvan şəhərində, qədim Azərbaycan torpağında dünyaya göz açıb, Kiyev Universitetini bitirib, sonra isə Bakıya gəlib və burada fəaliyyətə başlamışdır. Çox maraqlıdır ki, o, 24 yaşı olanda Azərbaycanın tarixində ilk dəfə olaraq yaranmış Bakı Dövlət Universitetində azərbaycanlı müəllim kimi dərs deməyə başlamışdır. Məlumdur ki, o vaxt Azərbaycanda ilk universitet yaranarkən milli kadrlarımız çox az idi. Universiteti yaradanlar Rusiyadan və başqa ölkələrdən professorlar, mütəxəssislər dəvət etmişdilər. Ancaq eyni zamanda, təhsil almış və yetişmiş azərbaycanlılar da var idi. Gənc Mustafa bəy də o vaxt fəaliyyətə başlayıbdır. Yəni o, gənclik dövründən daim irəliyə baxmış və böyük [354-355] təhsil almağa çalışmışdır, xalqına xidmət etməyi öz qarşısına məqsəd qoymuş və buna nail olmuşdur. Mustafa bəy Topçubaşov o vaxtdan həyatının son dəqiqələrinə qədər fəaliyyət göstərib, işləyib, çalışıbdır və demək olar ki, XX əsrin əvvəlindən sonuna qədər Azərbaycanın elmi, təhsili, səhiyyəsi, mədəniyyəti onun adı və fəaliyyəti ilə, xalqımıza bəxş etdiyi elmi əsərləri ilə bağlıdır.

Mustafa bəy Topçubaşov nadir bir sima və nadir bir insan olmuşdur. Adamlar üçün ən vacib olan sahə – onların sağlamlığının qorunması, insanların xəstəliklərdən xilas olması, sağlam insan yetişdirilməsi cəmiyyət üçün həm keçmişdə, həm indi, həm də gələcəkdə mühüm olan sahədir. Mustafa bəy Topçubaşovun öz fəaliyyətini məhz bu sahəyə həsr etməsi heç də təsadüfi deyildir. Bu, onun daxili mənəviyyatı ilə bağlıdır. Bütün həyatı, yaradıcılığı, fəaliyyəti göstərir ki, o, şüurlu olaraq bu sənətdən başlayıbdır. Ancaq yaşadıqca, yaratdıqca onun fəaliyyət dairəsi genişlənib, böyük alim, ictimai-siyasi xadim olubdur. Azərbaycan xalqının formalaşmasında, milli təfəkkürün inkişafında, xalqımızın ağır xəstəliklərdən qurtarmasında, elmimizin, təhsilimizin inkişafında böyük xidmətlər göstəribdir. Onun xidmətləri məlumdur. Azərbaycan xalqının qazandığı böyük nailiyyətlərdə möhkəm yeri də hamıya məlumdur. Biz bu gün buraya toplaşaraq, onun xidmətlərinə yüksək qiymət verərək, xatirəsinin nə qədər əziz olduğunu nümayiş etdiririk.

Biz çox vaxt yazıçıların, şairlərin, mədəniyyət xadimlərinin yubileylərini qeyd edirik. Bu, təbiidir. Çünki əsrlər boyu yaşamış, yaratmış Azərbaycan xalqı öz tarixində böyük yazıçılarla, şairlərlə, mədəniyyət xadimləri ilə məşhur olubdur. Keçmiş əsrlərdə də böyük alimlərimiz yaşayıblar. Bu gün biz məhz böyük alim, müəllim, ictimai-siyasi xadim Mustafa bəy Topçubaşovun 100 illik yubileyinə toplaşmışıq. Bu, onu göstərir ki, elmə, müəllimliyə, səhiyyəyə xalqımızın hörmət və ehtiramı mənəviyyatın bütün sahələrinə olan hörmət və ehtiramdan az deyildir. Biz sentyabr ayında böyük bəstəkar, dahi filosof Üzeyir Hacıbəyovun 110 illik yubileyini qeyd etdik. Bu gün Mustafa bəy Topçubaşovun 100 illik yubileyini qeyd edirik. Bu iki böyük şəxsiyyət, iki böyük sima XX əsrdə demək olar ki, yan-yana gedib, xalqımızı birlikdə irəli aparıb, birlikdə çalışıb və özləri də ucalıblar, xalqı da ucaldıblar. Özləri də məşhurlaşıb – dünyada məşhur olan şəxsiyyətlərə çevrilib, xalqımızı da [355-356] məşhurlaşdırıblar, dünyaya tanıdıblar. Buna görə onların xidmətləri əvəzsizdir.

Mustafa bəy Topçubaşov elm, təhsil, səhiyyə ilə məşğul olduğu qədər də ictimai sahədə böyük xidmətlər göstərmişdir. Azərbaycan ictimaiyyəti arasında Mustafa Topçubaşov həmişə çoxsahəli ictimai fəaliyyəti ilə məşhur olubdur. O, Azərbaycan parlamentinin uzun illər üzvü olmuş, Ali Sovetə xeyli müddət sədrlik etmiş, keçmişdə Sovetlər İttifaqı Ali Sovetinin deputatı olmuşdur. Təkcə beynəlxalq elmi konfrans və simpoziumlarda çıxışları ilə yox, İkinci dünya müharibəsindən, Böyük Vətən müharibəsindən sonra dünyada sülhün saxlanması və qorunması üçün ümumdünya təşkilatlarında fəaliyyət göstərib, bu təşkilatların üzvü olubdur. Mustafa bəy Topçubaşov Azərbaycan Sülhü Müdafiə Komitəsi yaranandan ömrünün sonuna qədər bu mötəbər sahəyə rəhbərlik edibdir.

Mustafa bəy Topçubaşov Böyük Vətən müharibəsi zamanı, dünyanı faşizm təhlükəsi bürüdüyü bir vaxtda – 1942-ci ildə Kommunist Partiyasına daxil olubdur və ömrünün sonuna qədər bu partiyanın üzvü olubdur. O, bu partiyaya xidmət edərkən xalqına, millətinə, Vətəninə, torpağına xidmət edibdir. Ona görə də Mustafa Topçubaşov həmişə yüksək qiymətləndirilib, həmişə mötəbər məclislərin yuxarı tərəfində oturub, ən yüksək vəzifələr tutmuş adamlar ona həmişə hörmət və ehtiramla yanaşıblar. Mustafa bəy Topçubaşov bu fəaliyyətlərinə görə böyük mükafatlar alıbdır, ordenlərə, dövlət mükafatlarına layiq görülübdür. 1975-ci ildə onun 80 yaşı tamam olan zaman o vaxtlar Sovet İttifaqının ən yüksək mükafatına – Sosialist Əməyi Qəhrəmanı adına layiq görülmüşdür.

Bilirsiniz, tarixə düzgün qiymət vermək, onu düzgün təhlil etmək lazımdır. Biz yaşadığımız uzun bir dövrü silib-poza bilmərik. Əgər onu silib atsaq, onda gərək Mustafa bəy Topçubaşovu tariximizdən tamamilə çıxaraq. Mustafa bəy Topçubaşovun həyatı, yaradıcılığı, Azərbaycan xalqı qarşısında xidmətləri o dövrdə məhz həmin dövlətin tərkibində, həmin cəmiyyətin içərisində, həmin ictimai-siyasi rejimin tərkibində olmuşdur. Bu, eyni zamanda Azərbaycan xalqına da xidmətdir. Əgər o vaxtlar hamımız bir dövlətin tərkibində idiksə, xalqımızın ayrı-ayrı nümayəndələrinin bu dövlətin mükafatları ilə fərqləndirildiyini görürüksə, deməli, bu bizim Azərbaycan dövlətinin, Azərbaycan Respublikasının mükafatıdır. Mustafa bəy [356-357] Topçubaşov bütün həyatı və fəaliyyəti ilə Azərbaycan xalqını bugünkü gün üçün hazırlayıbdır.

Bizim xalqın əsrin əvvəlində olan təhsil, elm, mədəniyyət. səviyyəsini təsəvvürünüzə gətirin və onu bu günlə müqayisə edin. Nə qədər fərq görünür! Biz nə qədər irəliləmişik, dünya səviyyəsinə nə qədər çatmışıq! Bax, bunların hamısında Topçubaşov kimi insanların, böyük şəxsiyyətlərin rolu unudulmazdır, əvəzsizdir. Beləliklə, Topçubaşov 62 illik fəaliyyətində, yaradıcılığında Azərbaycan xalqının inkişaf etməsi üçün, Azərbaycanın elmi potensialının yaranması üçün, xalqımızın bu günə gəlib çıxması üçün, Azərbaycan xalqının öz müstəqilliyini əldə etmək imkanının yaranması üçün çalışıbdır.

Bu il biz Azərbaycan Elmlər Akademiyasının yaranmasının 50 illik yubileyini qeyd edirik. Bu, Azərbaycan xalqının tarixində böyük bir səhifədir. Çoxəsrlik tariximizdə böyük elmimiz, alimlərimiz olubdur. Ancaq Azərbaycan elmi heç vaxt bu qədər mütəşəkkil və bu qədər qüvvətli, güclü, çoxsahəli olmayıbdır. 50 il ərzində Azərbaycan Elmlər Akademiyası bütün elmi potensialı özündə cəmləyərək xalqımızın elm, yaradıcılıq sahəsində nəyə qadir olduğunu dünyaya göstəribdir.

Xalqımız istedadlı xalqdır, ağıllı xalqdır. Xalqımızın istedadlı, ağıllı, elmli, zəkalı olmasını biz Mustafa bəy Topçubaşov kimi adamların şəxsiyyətində görürük, bunu dünya da görür.

Mustafa bəy Topçubaşov ömrünün 30 ilini Azərbaycan Elmlər Akademiyasının yaranmasına və inkişafına sərf edibdir. O, böyük bir məktəb – cərrahlıq məktəbi, təbiblər məktəbi, alimlər məktəbi yaradıbdır. Amma respublika Elmlər Akademiyasının 50 illik tarixinin 30 ili ərzində Mustafa bəy Topçubaşov onun rəhbərliyində duran adam, akademiyanın vitse-prezidenti olmuşdur.

Mənim Mustafa bəy Topçubaşovla uzun illər şəxsi tanışlığım, bizim yaxşı münasibətimiz olubdur. Onu yaxından tanımışam. Xüsusən 1969-cu ildə Azərbaycana rəhbərlik etməyə başladığım gündən mən Mustafa bəy Topçubaşovla əməkdaşlıq etmişəm. Bizim çoxlu görüşlərimiz olubdur. Azərbaycan elminin, səhiyyəsinin, mədəniyyətinin inkişafına dair onunla çoxlu fikir mübadiləsi aparmışam. O insanda mən həmişə nuranilik, alicənablıq, yüksək ziyalılıq gördüm. Bəzən mənə elə gəlirdi ki, – yəqin, bu bir həqiqətdir, – Mustafa bəy Topçubaşov anadan ziyalı kimi doğulubdur. Çünki o, əsl ziyalı [357-358] adam idi. Onun ziyalılığı təkcə elmində də yox, xasiyyətində, davranışında, insanlara münasibətində idi – hər bir sahədə onun ziyalılığı, alicənablığı özünü parlaq surətdə göstərirdi.

O həm də olduqca təvazökar bir adam idi. Mustafa bəy Topçubaşov haqqında şübhəsiz ki, onunla bir yerdə işləyənlər, tələbələri çoxlu xatirələr yazıblar və indən sonra da yazacaqlar. Mənim də çoxlu xatirələrim var. Ancaq vaxtınızı çox almaq istəmirəm. Xatirimdədir, bir dəfə bir nəfər mənim yanıma gəlib dedi ki, Mustafa bəy Topçubaşov akademiyada özünü elə aparır ki, elə bil heç vitse-prezident deyildir. Mən dedim nə olubdur ki? O dedi ki, Mustafa bəy Topçubaşov akademiyanın bufetində oturur, kefir, bir dənə də peraşki götürür və camaat, hamı ilə birlikdə orada yemək yeyir. Mən dedim burada nə var ki? O dedi: akademikdir, professordur, akademiyanın vitse-prezidentidir, hamı ilə bərabər gəlib bufetdə oturur. Mən təəccübləndim. Demək, insanlar başqa cür də düşünürlər. Ancaq eyni zamanda – mən Mustafa bəy Topçubaşovun təvazökarlığını bilirdim – bu, mənim xatirimdə qaldı. Nə qədər təvazökar adam idi o! Bu, onun alicənablığının, ziyalılığının, təvazökarlığının parlaq təzahürüdür. İnsanlar var ki, bir xırda vəzifə tutan kimi ya evində, ya dövlət işində özlərinə xüsusi xidmət tələb edirlər, özləri üçün cürbəcür şərait yaratmaq istəyirlər, işdən əvvəl və ya sonra ancaq bununla məşğul olurlar. Lakin xalqına bu qədər xidmət etmiş adam, həmin o Elmlər Akademiyasının bünövrəsini qoyanlardan biri bu cür təvazökar həyat keçirirdi.

Bir bu deyil. Ümumiyyətlə, onu tanıyanlar, onunla təmasda olanlar bilirlər ki, Mustafa bəy Topçubaşov nə qədər təvazökar, nə qədər insan adam olubdur. Yüz minlərlə adamın həyatını xilas edibdir, onlara şəfa veribdir. Xəstəliklərdən xilas edibdir, yaşadıbdır, nə qədər insana tərbiyə veribdir, təhsil veribdir və nəhayət, onun ən yüksək keyfiyyəti bundan ibarətdir ki, öz siması ilə, öz şəxsiyyəti ilə, öz həyat yolu və yaradıcılığı ilə bizim üçün – bugünkü və gələcək nəsillərimiz üçün böyük bir nümunə yaradıbdır. Bu, böyük bir sərvətdir.

Mustafa bəy Topçubaşov 1981-ci ildə vəfat etdi. Biz onu böyük təntənə ilə son mənzilə yola saldıq. Xatirəmdədir, bunu da deməyi lazım bilirəm, çünki belə şeylərdən ibrət dərsi götürmək lazımdır – bəziləri gəlib deyirdilər ki, Mustafa bəy Topçubaşov artıq qocalıbdır. Bəlkə o, istefaya getsin, yaxud kafedra müdirliyini başqa adama tapşırsın? Çünki belə adət [358-359] var ki, kafedra müdirləri müəyyən bir yaşdan sonra kafedrada professor vəzifəsinə keçirlər və kafedraya rəhbərliyi başqa adama verirlər. Onun ətrafında belə sözlər danışan, belə təkliflər verən adamlar var idi. Akademiyanın vitse-prezidenti olduğu vaxt da deyirdilər. Bunların hamısı mənim xatirimdədir. Mən bunları eşidərkən həmişə bir cavab vermişəm: o dediyiniz qanun-qaydalar Mustafa bəy Topçubaşova aid deyil. O elə bir insandır ki, elə bir fədakar adamdır ki, həyatının, yaşının son dəqiqəsinə qədər göstərdiyi fəaliyyət bizim üçün gərəkli və əhəmiyyətlidir. Bəli, Mustafa bəy Topçubaşov həyatının son dəqiqəsinə qədər fəaliyyətdə oldu. Xalqına xidmət etdi və şərəflə də dünyasını dəyişdi.

Mustafa bəy Topçubaşovun həyatı, yaradıcılığı, qoyduğu irs bizim üçün böyük təcrübə mənbəyidir, böyük mənəviyyat mənbəyidir. Bir daha deyirəm ki, biz onunla fəxr edirik. Bu gün onun anadan olmasının 100 illik yubileyini təntənə ilə qeyd edərək biz elmimizə, mədəniyyətimizə yüksək qiymət verməyimizi nümayiş etdiririk. Eyni zamanda Azərbaycan xalqını yüksək səviyyəyə qaldırmış Mustafa bəy Topçubaşovun xatirəsinə hörmət və ehtiramımızı bildiririk. Mən Mustafa bəy Topçubaşovun xatirəsi qarşısında baş əyirəm və deyirəm ki, onun xatirəsi bizim üçün həmişə əziz olacaqdır, onun adı Azərbaycanın gələcək nəsilləri üçün örnək olacaq və daim yaşayacaqdır. [359-360]

## AZƏRBAYCANDA PARLAMENT SEÇKİLƏRİ İLƏ ƏLAQƏDAR BAKIYA GƏLMİŞ BEYNƏLXALQ MÜŞAHİDƏÇİLƏR QRUPU İLƏ GÖRÜŞDƏ ÇIXIŞ

*Prezident Sarayı*

*17 oktyabr 1995-ci il*

Biz çox ətraflı fikir mübadiləsi apardıq. Üç saat yarımdan çoxdur ki, söhbət edirik. Ancaq hesab edirəm ki, bu üç saat yarım bizim üçün çox əhəmiyyətli bir vaxtdır. Yenə də deyirəm, biz geniş fikir mübadiləsi apardıq, bir-birimizi dinlədik. İndi söhbətimizi yekunlaşdıra bilərik.

Birincisi, mən bir daha onu qeyd etmək istəyirəm ki, Azərbaycanda demokratik parlamentin yaranması üçün, qəbul etdiyimiz qanunu biz tamamilə həyata keçirməyə çalışırıq və çalışacağıq. Ümumiyyətlə, son illər Azərbaycan Respublikasının həyatında baş vermiş hadisələri nəzərə alaraq və onların təkrar olunmasına yol verməmək məqsədi ilə biz qanunun aliliyini təmin etməyə çalışırıq. Bu məqsədlə biz parlament seçkiləri ilə bərabər, eyni zamanda Azərbaycanın yeni konstitusiyasını qəbul etmək üçün bu konstitusiyanın layihəsini artıq ümumxalq müzakirəsinə vermişik. Ancaq bir şeyi dərk edirik və rica edirəm siz də bunu nəzərə alasınız. Bu da ondan ibarətdir ki, biz ilk dəfə demokratik seçkilər keçirmək istəyirik.

Bildiyiniz kimi, 1990-cı ildə keçirilmiş parlament seçkiləri kommunist rejimi çərçivəsində olub və heç də demokratik olmayıbdır. Məsələn, o vaxt partiyalar seçkilərdə iştirak etmirdi. Bir hakim Kommunist partiyası var idi və o da partiya kimi seçkilərdə iştirak etmirdi. İndi görürsünüz, bizdə qeydiyyatdan keçmiş 31 partiya var. Bu 31 partiyanın hamısı seçkidə iştirak etmək barədə qərar qəbul edə bilmədi. Çünki partiyadır, ancaq o bilir ki, seçkiyə getsə bir şey edə bilməyəcək. Nəticədə 17 partiya seçkiyə girmək haqqında bəyanat verdi. Onlardan 12 partiya gəlib imza vərəqi alaraq seçkilərdə iştirak etmək istəyir.

İctimaiyyətimiz, Mərkəzi seçki komissiyası, seçki dairələri [360-361] üçün bu, ilk belə hadisədir. Sovet hakimiyyəti dövründə keçirilən seçkilərdə heç bir namizəd gedib imza yığmırdı, sadəcə olaraq ayrı-ayrı kollektivlər onun namizədliyini irəli sürürdülər. Amma indi partiya seçki hüququ almaq üçün 50 min imza yığmalıdır. Hər bir vətəndaş seçkilərdə namizəd kimi qeydə alınmaq üçün 2 min imza yığmalıdır. Şübhəsiz ki, bu, vətəndaşlarımız, siyasi partiyalar, Mərkəzi seçki komissiyası, seçki dairələri üçün də yeni bir hadisədir. Yəni bu barədə təcrübə yoxdur. Ona görə də burada səhvlər də təbiidir. Ola bilər, ayrı-ayrı əyintilər də, qanun pozuntuları da təbiidir. Şübhəsiz, bizim məqsədimiz ondan ibarətdir ki, bunlara yol verilməsin.

Ancaq vətəndaş ilk dəfə gedib 2 min imza yığırsa, bəlkə o, bunun nə qədər ciddi olduğunu indiyədək bilmir. Ona görə də bu imzaları bəlkə düzgün yığa bilmir. İndi müəyyən etmək lazımdır, – həmin vətəndaşın buraxdığı səhvlərə güzəşt etmək, yaxud onu qanuna riayət etməyə yönəltmək lazımdır. Belə münasibət partiyalara da aiddir. Ona görə də mən belə hesab edirəm ki, qəbul etdiyimiz qanun hamı üçün qanundur. Bu qanuna hamı riayət etməlidir: Mərkəzi seçki komissiyası da, dairə seçki komissiyaları da, məntəqə seçki komissiyaları da, hər bir siyasi partiya, hər bir vətəndaş da. Qanunun pozulmasına heç bir tərəfdən güzəşt etmək və heç bir tərəfə də dəstək vermək olmaz.

Bu səhvləri aradan qaldırmaq və qanun pozuntularına yol verməmək üçün bizim sizinlə əməkdaşlığımızın çox böyük əhəmiyyəti vardır. Bilirsiniz ki, seçki qanunu qəbul olunmamışdan əvvəl biz sizin hamınıza müraciət etmişdik ki, müşahidəçilər gəlsin. Çünki müşahidəçilərə bizim ehtiyacımız var. Bu faktın özü onu sübut edir ki, demək, doğrudan da, biz bu seçkiləri qanun çərçivəsində, demokratik prinsiplər əsasında keçirmək istəyirik.

Xaricdən müşahidəçiləri nə üçün çox böyük cidd-cəhdlə dəvət etmişik? Bizə kömək etmək üçün. Kömək də o demək deyil ki, gəlib sadəcə səhvlərimizin üstünü örtüb-basdırsınlar. Yox. Seçki dairələrimiz, məntəqələrimiz, Mərkəzi seçki komissiyası və hakimiyyət orqanlarının görmədikləri səhvləri aşkar etsinlər və onları bizə desinlər. İkinci tərəfdən, biz əminik ki, seçkiləri demokratik qaydada keçirəcəyik. Sizi dəvət edərkən məqsədimiz odur ki, siz bunları görəsiniz və müvafiq beynəlxalq təşkilatlara, dünyanın demokratik ölkələrinə Azərbaycan[361-362]da seçkilərin demokratik keçirilməsi haqqında məlumat verəsiniz.

Əgər biz seçkilərin demokratik keçirilməsinin tərəfdarı olmasaydıq, yaxud keçmiş, necə deyərlər, adət-ənənələrdən istifadə etmək fikrində olsaydıq, onda nə üçün bu qədər müşahidəçi dəvət edirdik? Ona görə də mən təşəkkür edirəm ki, siz gəlmisiniz və bundan sonra gələcək nümayəndələrə də əvvəlcədən təşəkkür edirəm. Sizinlə sağlam əməkdaşlıq edəcəyimizə ümidlər bəsləyirəm.

Mən ümid edirəm ki, siz burada öz müşahidəçiliyinizlə bu seçkilərin tam demokratik keçirilməsi üçün bizə kömək edəcəksiniz. Mən bu gün bu görüşün keçirilməsini ona görə zəruri hesab etdim ki, sizin indiyədək müşahidə etdiklərinizi, gördüyünüz səhvləri, yaxud əyintiləri deyəsiniz və biz onların dərhal aradan qaldırılması üçün tədbirlər görək. Güman edirəm ki, biz belə görüşləri bundan sonra da keçirəcəyik. Bir prezident kimi şəxsən mən buna çox maraqlıyam və bunun üçün sərf etdiyim vaxtı çox əhəmiyyətli hesab edirəm. Çünki bəlkə də hamıdan çox mən bu seçkilərin demokratik keçirilməsinin arzusundayam.

Siz buraxılan bəzi səhvlər haqqında burada danışdınız, iradlarınızı bildirdiniz. Mən hesab edirəm ki, sizin dediyiniz bütün sözlərə, iradlarınıza və təkliflərinizə çox diqqətlə baxılmalı və buraxılan səhvlər haqqında lazımi tədbirlər görülməlidir. Birinci növbədə Mərkəzi seçki komissiyası və onun sədri Cəfər Vəliyev gərək burada olan bütün danışıqları təhlil etsin və həm Mərkəzi seçki komissiyasının işindəki, həm dairə seçki komissiyalarının, həm məntəqə seçki komissiyalarının işindəki səhvləri, nöqsanları tezliklə aradan qaldırmağa çalışsın.

Siz buyurdunuz ki, bəzi yerlərdə icra hakimiyyəti orqanları seçki dairələrinin işinə müdaxilə, təsir edirlər və qanunsuzluğa yol verirlər. Mən qəti göstəriş verirəm ki, bunların hamısı qadağan olunsun. Mən şəhər, rayon icra hakimiyyətlərinə və icra hakimiyyəti başçılarına seçki dairələrinin işinə qarışmağı qadağan edirəm. Prezidentin İcra Aparatının rəhbəri Ramiz Mehdiyevə, Bakı şəhər icra hakimiyyətinin başçısı Rəfael Allahverdiyevə tapşırıram ki, mənim göstərişlərimi həm Bakı üzrə, həm bütün şəhərlər, rayonlar üzrə icra hakimiyyəti orqanlarının başçılarına çatdırsınlar və bu göstərişlərin yerinə yetirilməsinə nəzarət etsinlər. [362-363]

Mərkəzi seçki komissiyasının sədri Cəfər Vəliyev, – bilirəm, onların işi çoxdur, – nə qədər çətin olsa da, bütün şikayətlərə diqqətlə baxıb, lazımi qərarlar qəbul etməlidir. Mərkəzi seçki komissiyası bütün şikayətlərə seçki qanunu əsasında baxmalıdır. Əgər dairə seçki komissiyaları tərəfindən səhvlər buraxılıbsa, bu səhvlər düzəldilməlidir, Mərkəzi seçki komissiyası onların qərarlarını ləğv etməlidir və ədalətli qərarların qəbul olunmasını təmin etməlidir.

Mərkəzi seçki komissiyasının sədri dedi ki, onlarda 150 şikayət ərizəsi var. Mən müşahidəçilərdən rica edirəm ki, onlarda olan şikayətləri də Mərkəzi seçki komissiyasına versinlər. Həmin şikayətlərin hamısına bir-bir baxıb, Mərkəzi seçki komissiyasının iclasında müzakirə edib qərar qəbul etmək lazımdır. Ali Məhkəmənin sədri Xanlar Hacıyev və ədliyyə naziri vəzifəsini icra edən Südabə Həsənova burada iştirak edirlər. Mən onları xüsusən bundan ötrü dəvət etmişəm. Əgər Mərkəzi seçki komissiyasının qərarı hansısa bir vətəndaşı, yaxud partiyanı qane etməsə, onlar dərhal qanuna görə məhkəməyə şikayət etməlidirlər. Ali Məhkəmənin sədri bu şikayətlərə həm Ali Məhkəmədə, həm də bütün məhkəmələrin hamısında baxılmasını təmin etməlidir. Qanuna görə oktyabrın 25-26-dək Ali Məhkəmənin imkanı var ki, bu şikayətlərə baxsın və lazımi qərarlar qəbul etsin.

Ona görə də mən bu göstərişləri sizin yarımızda verirəm və hesab edirəm ki, bu, televiziya vasitəsilə bütün ictimaiyyətə çatdırılacaqdır. Kim Ali Məhkəməyə müraciət etmək istəyirsə müraciət etsin və Ali Məhkəmə bu müraciətlərə çox diqqətlə və obyektiv olaraq baxmalıdır. Məhkəmənin qərarı qətidir. Əgər məhkəmə qərar qəbul edəcəksə, Mərkəzi seçki komissiyasının qərarının əksinə olaraq onlar həyata keçirilməlidir və bu barədə mətbuatda məlumatlar verilməlidir.

Bütün bu işlərin hamısı aşkarlıq şəraitində aparılmalıdır. Mən Mərkəzi seçki komissiyasının sədrindən xahiş edirəm ki, gördükləri iş haqqında hər gün mətbuat vasitəsilə ictimaiyyətə məlumat versinlər. Məhkəmələr də qəbul etdikləri qərarlar haqqında ictimaiyyətə mətbuat vasitəsilə məlumat verməlidirlər.

Mən bir prezident kimi bu gün həm bizim qanunun tətbiq olunmasının təminatçısı kimi çıxış edirəm, həm də hər bir vətəndaşın hüquqlarının, xüsusən seçki prosesində onların hüquqlarının təmin olunmasının təminatçısı kimi çıxış edirəm. [363-364] Bütün hakimiyyət və dövlət orqanlarından tələb edirəm ki, qanunun tətbiq olunması və vətəndaşların hüquqlarının qorunması üçün lazımi tədbirlər görsünlər.

Sizinlə səmimi əməkdaşlığı davam etdirmək istəyirik. Görüşlərimiz tez-tez olsun, aşkara çıxan səhvləri vaxtında aradan qaldıra bilək və qarşımıza qoyduğumuz məqsədə nail olaq. Bir daha bəyan edirəm ki, Azərbaycanda yeni parlamentin demokratik prinsiplər əsasında seçilməsi mənim ən əsas məqsədlərimdən biridir. Bu məqsədimizə nail olmaq üçün sizinlə və hər bir vətəndaşla, hər bir təşkilatla əməkdaşlıq etməyə hazıram. Sağ olun. [364-365]

## HƏRBİ XİDMƏTDƏN YAYINMIŞ, FƏRARİLİK ETMİŞ VƏ DİGƏR HƏRBİ CİNAYƏTLƏR TÖRƏTMİŞ ŞƏXSLƏRİN VALİDEYNLƏRİ İLƏ KEÇİRİLƏN GÖRÜŞDƏ ÇIXIŞ

*Prezident Sarayı*

*18 oktyabr 1995-ci il*

Hörmətli bacılar, qardaşlar, hörmətli həmvətənlər!
Hörmətli xanımlar və cənablar!

Bu gün Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi günüdür. Dörd il bundan öncə 1991-ci il oktyabrın 18-də Azərbaycanın dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı qəbul olunubdur və həmin gündən etibarən Azərbaycan hüquqi nöqteyi-nəzərdən bütün dünyaya öz dövlət müstəqilliyini elan edibdir. Azərbaycanın dövlət müstəqilliyi dünya birliyi tərəfindən qəbul olunub. Azərbaycan Birləşmiş Millətlər Təşkilatına üzv qəbul edilib və dünya birliyində özünün layiqli yerini tutubdur.

Azərbaycan xalqı əsrlər boyu milli azadlıq uğrunda mübarizə edib, çarpışıb, bu arzularla yaşayıb. Özünün müstəqil dövlətinin olmasını, dövlət müstəqilliyi əldə etməsini istəyibdir. Əsrimizin əvvəlində – 1918-ci ildə Azərbaycanda ilk dəfə dövlət müstəqilliyi elan olunub, ilk Azərbaycan Demokratik Respublikası yaranıbdır. Bu respublika Azərbaycanda xalqın, millətin milli təfəkkürünün oyanması, dirçəlməsi, inkişafı üçün yollar açıb, şərait yaradıbdır.

Sonra ilk Azərbaycan Demokratik Respublikası süqut edib, Azərbaycan xalqı yetmiş il müddətində Sovet Sosialist Respublikaları İttifaqının tərkibində olubdur. Lakin Azərbaycan Respublikası yaşayıbdır. Xalqımız tarixi zərurətdən irəli gələn şəraitdə, mühitdə və mövcud dövlət quruluşu, ictimai-siyasi quruluş çərçivəsində yaşayıb-yaradıb, daim irəli gedibdir. Azərbaycanda elm, təhsil, mədəniyyət misli görünməmiş səviyyələrə qalxıb, ölkədə böyük iqtisadi potensial yaranıbdır. Azərbaycan xalqının rifahı yaxşılaşıb, yüksəlibdir. Xalqımız öz nailiyyətlərini [365-366] dünyaya nümayiş etdirmək üçün imkanlar əldə edibdir. Azərbaycan xalqı özünün adət və ənənələrindən, nəsillərdən nəsillərə ötürülmüş milli irsindən istifadə edərək, dünya mədəniyyətindən, inkişaf etmiş ölkələrin, xalqların mədəniyyətindən bəhrələnərək öz həyatını qurmağa çalışmışdır. Ancaq tam milli azadlıq hissləri xalqımızın qəlbində, şüurunda, düşüncəsində heç vaxt unudulmayıb, itməyibdir. Əksinə, mütəfəkkir insanlarımız xalqımızı daim bu ruhda tərbiyə etməyə çalışıblar. Dövlət müstəqilliyimizin əldə olunması hər bir vətənpərvər, şüurlu şəxsin qəlbində daim böyük bir arzu kimi yaşayıbdır.

Dünyada, keçmiş Sovetlər İttifaqında baş vermiş və sürətlə cərəyan etmiş ictimai-siyasi proseslər nəticəsində 1991-ci ildə Azərbaycan Respublikası, Azərbaycan xalqı öz dövlət müstəqilliyini elan etməyə imkan tapıb, buna nail olubdur. Azərbaycan müstəqil dövlət olubdur.

O gündən dörd il keçir. Dörd il qısa bir zamandır. Amma Azərbaycan xalqının həyatında bu dörd il çox böyük proseslər dövrü, çox ciddi mübarizələr, çox böyük dəyişikliklər dövrüdür. Güman edirəm ki, keçdiyimiz bu dörd il xalqımızın, müstəqil dövlətimizin tarixində ağır, çətin illər, eyni zamanda bütün bunlara baxmayaraq, xalqın milli mənliyinin dirçəlməsi, milli azadlıq, milli müstəqillik düşüncələrinin yüksəlməsi illəri kimi öz layiqli yerini tutacaqdır.

O illərin çətinliyi ən çox onunla əlaqədardır ki, biz Ermənistanın Azərbaycana qarşı etdiyi təcavüzün qarşısını almağa çalışırıq. Bu hərbi təcavüz nəticəsində xalqımız itkilər verib, şəhidlər verib, ölkəmizə, respublikamıza böyük zərbələr dəyibdir. Şübhəsiz ki, bu zərbələr cəmiyyətimizdə, ölkəmizdə də çətinliklər yaradıbdır. Bunların öhdəsindən gəlmək, bu çətinliklər şəraitində xalqı yaşatmaq, irəliyə aparmaq, cəmiyyətdə vətəndaş həmrəyliyi, birliyi yaratmaq problemləri qarşımızda həmişə böyük vəzifə kimi durub və biz bunu həyata keçirməyə çalışmışıq, çalışırıq və bundan sonra da çalışacağıq.

Ancaq xarici düşmənlərimizlə yanaşı, daxilimizdə xalqımıza xəyanət edən, onun bu ağır vəziyyətdən çıxmasına maneçilik törədən, düşmənlərin dəyirmanına su tökən qüvvələr də mövcud olubdur. Onların xalqımıza vurduğu zərər və zərbələr mənəvi məzmununa görə xarici düşmənlərin bizə vurduğu zərbələrdən heç də az deyildir. Ancaq xalqımızın müdrikliyi, iradəsi bütün bunların hamısından üstün olubdur. Bütün bu [366-367] ağırlıqlara və çətinliklərə baxmayaraq xalqımız yaşayır, yaradır, düşmənlərə sinə gərir. Dövlət müstəqilliyimiz qorunur və ərazi bütövlüyümüzün bərpa olunması, işğal edilmiş torpaqlarımızın geri qaytarılması, sərhədlərimizin toxunulmazlığının təmin edilməsi, təcavüz nəticəsində bəlalara düşmüş, doğma yurdundan qovulmuş vətəndaşlarımızın öz yerlərinə qayıtması məsələsi bizim fəaliyyətimizin mərkəzində durur və bunların həll olunması üçün çalışırıq. Məqsədimiz, amalımız əldə etdiyimiz tarixi nailiyyəti – dövlət müstəqilliyimizi qoruyub saxlamaqdır. Biz bu gün də, gələcəkdə də çalışacağıq ki, Azərbaycanın dövlət

müstəqilliyi əbədi olsun. Azərbaycan müstəqil bir dövlət kimi daim yaşasın, öz vətəndaşlarının milli azadlığını, onların hüquqlarını daim qorusun. Bu yolla gedirik və gedəcəyik.

Qarşımızda çox vəzifələr durur. Ancaq mən əminəm ki, xalqımızda olan güc, mənəvi potensial, tarixi ənənələrimiz bütün bu çətinliklərin öhdəsindən gəlməyə imkan verəcək və biz bu yolla uğurla gedəcəyik.

Dövlət müstəqilliyimizi möhkəmləndirmək, onu inkişaf etdirmək üçün ciddi tədbirlər görürük. Müstəqil Azərbaycan Respublikasında ilk dəfə demokratik parlament seçilməsi prosesindəyik. Demokratik parlament yaratmaq üçün seçkilər haqqında qanun qəbul olunub və xalqa təqdim edilibdir. Parlamentə – Milli Məclisə seçkilər prosesi başlanıb, biz indi onun ən mühüm, ən məsuliyyətli mərhələsini yaşayırıq. Əminəm ki, biz bu böyük və şərəfli missiyanı layiqincə yerinə yetirəcəyik və Azərbaycan Respublikasının ilk demokratik parlamenti – Milli Məclisi seçilib fəaliyyət göstərməyə başlayacaqdır.

Biz indi Azərbaycan Respublikasının, müstəqil Azərbaycanın ilk konstitusiyasının qəbul edilməsi prosesi ilə məşğuluq. Bu, tarixi bir hadisədir və dövlət müstəqilliyini təmin etmək üçün ən əsas atributdur. Hər bir müstəqil dövlətin özünə layiq konstitusiyası olmalıdır. Azərbaycan Respublikası dövlət müstəqilliyini əldə edəndən bəri və xüsusən son dövrlərdə bizim gördüyümüz tədbirlər əsasında ölkəmiz demokratik, hüquqi, sivilizasiyalı dövlət quruculuğu yolu ilə gedir. Bu yolla getmək üçün bizə demokratik prinsiplərə söykənən, həmin prinsipləri özündə əks etdirən, insan hüquqlarının tamamilə qorunmasını təmin edən, Azərbaycanın müstəqilliyini təmin edən yeni konstitusiya lazımdır. [367-368]

Belə bir konstitusiyanın layihəsi hazırlanıb ümumxalq müzakirəsinə verilibdir. Güman edirəm ki, xalqımız bu layihənin müzakirəsində fəal iştirak edəcək, onun təkmilləşdirilməsi üçün, Azərbaycan Respublikasının bu günü və gələcəyindən ötrü layiqli bir konstitusiya olması üçün səylərini göstərəcək və biz noyabrın 12-də ümumxalq səsverməsi yolu ilə Azərbaycanın yeni konstitusiyasını qəbul edəcəyik. Yəni, bu yaxın vaxtlarda iki böyük hadisə baş verəcək – Azərbaycan Respublikasının, müstəqil Azərbaycanın ilk demokratik konstitusiyası qəbul olunacaq, ölkəmizin ilk demokratik parlamenti – Milli Məclisi seçiləcək, fəaliyyətə başlayacaqdır.

Şübhəsiz ki, konstitusiya qəbul olunandan sonra onun əsasında çox qanunlar qəbul ediləcəkdir. Yəni, müstəqillik yolu ilə getməyimiz üçün çox işlər görüləcək və bundan ötrü də çoxlu qanunlar qəbul olunacaq, əməli tədbirlər həyata keçiriləcəkdir. Ancaq bunların hamısının əsasını yeni konstitusiya, onun zəminində Azərbaycanın dövlət orqanlarının formalaşması və Azərbaycanın yeni parlamentinin fəaliyyəti təşkil edəcəkdir. Əminəm ki, biz bunlara nail olacağıq.

Qeyd etdim ki, Azərbaycanın getdiyi dövlət müstəqilliyi yolu hamar deyil, çox çətin yoldur. İşlərimizi çətinləşdirən isə Ermənistanın Azərbaycana qarşı etdiyi təcavüzdür. Bu təcavüz yeddi il bundan öncə başlayıbdır. Onun qarşısı alına bilərdi, Azərbaycan belə ağır vəziyyətə düşməyə bilərdi. Ancaq belə olmayıb və bunun səbəbləri də sizə məlumdur. İndi bu barədə geniş danışmağa ehtiyac duymuram. Ancaq onu qeyd etmək istəyirəm ki, Azərbaycan xalqı öz qəhrəmanlıq ənənələrinə söykənərək, onun dövləti tərəfindən ərazisini qorumaq, vətəndaşlarının təhlükəsizliyini təmin etmək üçün gərəkli ordu hissələri yaratmalı idi. Təəssüf ki, bu işlər vaxtında görülməyibdir.

Dörd il bundan öncə Azərbaycanda ordunun yaradılması haqqında qərar verilibdir. Bu il oktyabrın 9-da biz Azərbaycan Ordusu yaranmasının ildönümünü qeyd etdik. Ancaq Azərbaycana qarşı hərbi təcavüz yeddi il bundan öncə başlayıbdır. Təcavüzkar – Ermənistan Azərbaycana qarşı təcavüzə başlayanda artıq onun, qanunlaşdırılmış olmasa da, hərbi hissələri, döyüşən dəstələri var idi. Məhz bunlardan istifadə edərək azərbaycanlıları ardıcıl olaraq öz yerlərindən-yurdlarından çıxardılar – əvvəlcə Ermənistandan, sonra isə Azərbaycanın öz ərazisindən çıxardılar. Vaxtilə bunların qarşısı alına bilərdi, [368-369] xalq səfərbər edilə bilərdi, xalq ayağa qalxaraq öz torpaqlarını qoruya bilərdi. Heç kəsdə şübhə yoxdur ki, hər bir vətəndaş öz evini, öz torpağını qorumağa qadir idi. Ancaq xalqı təşkil etmək, səfərbər etmək, ona kömək göstərmək, bu ruhda tərbiyə etmək lazım idi, bu işə, bu mübarizəyə qaldırmaq lazım idi. Təəssüf ki, bunlar olmamışdır. Bu da bizim məğlubiyyətimizin və ərazimizin bir qisminin işğal edilməsinin başlanğıcı olmuşdur. Ancaq təəssüf ki, sonrakı vaxtlarda da bunların qarşısı alınmamışdır.

Bəli, dörd il bundan öncə Azərbaycan ordusunun yaranması haqqında qərar verilmişdir. Amma həqiqətdə Azərbaycanın ordusu kağız üzərində yaradılmışdı, ayrı-ayrı hikkəli şəxslərin ictimaiyyət arasında apardığı təbliğat şəklində yaradılmışdı, özlərini təbliğ etmək şəklində yaradılmışdı. Amma təəssüf ki, həqiqi Azərbaycan Ordusu yaradılmamışdı. Bu da bizim o illərdəki məğlubiyyətimizin əsas səbəblərindən biridir.

1993-cü ili xatirinizə salın. Məgər o vaxt Azərbaycanda bir mərkəzdən idarə olunan, hərbi nizam-intizama riayət edən ordumu vardı ? Xeyr! Bizim hər birimiz Azərbaycan xalqı üçün müqəddəs olan Şuşanın işğalının ağrı-acısını çəkirik. Şuşanın işğalı sanki hər bir vətənpərvər insanın ürəyinə sancılmış süngüdür.

Şuşa qalası. Qəhrəman Azərbaycan oğulları vaxtilə Şuşanı qoruyub saxlayıblar. Ona görə də Şuşaya Şuşa qalası deyirlər. Dəfələrlə o, təcavüzkarlar tərəfindən zəbt edilmək təhlükəsi altında olubdur. Ancaq Şuşanı qoruyublar, saxlayıblar. Bizim əcdadlarımız, ulu babalarımız o vaxtlar öz borclarını yerinə yetiriblər. Ancaq 1992-ci ilin mayında Şuşa qalası əldən verildi. O, qala kimi vuruşmadı, qala kimi tarixi ənənələrinə sadiq. olmadı. Ona görə yox ki, onun divarları, hasarları, qala səngərləri buna qadir deyildi. Azərbaycanda daxili

çəkişmələr, ayrı-ayrı ləyaqətsiz adamların şəxsi iddiaları, şəxsi mənafelərini xalqın mənafeyindən üstün tutmaları, vəzifə hərisliyi, səriştəsizliyi, bacarıqsızlığı Şuşanın süqutuna gətirib çıxardı.

Şuşa qalası daim məğrur bir qala olub. Onun sarayları da, hər bir daşı da, qala kimi hasarları, divarları da məğrur olubdur. Şuşa qalasını əsrlər boyu yaradan ulu babalarımız da, onu qoruyanlar da məğrur, əyilməz, qəhrəman olublar. Təəssüf ki, zaman elə gətirdi ki, Şuşa qalası nadanların əlinə düşdü. Azərbaycan nadanların əlinə düşdü. Nadanlar, xalqına xəyanət [369-370] edənlər Şuşa qalasını düşmənə təslim edəndən sonra Azərbaycanın digər torpaqlarının işğal edilməsi prosesi təcavüzkar üçün daha asan oldu.

Şuşa qalasının təslim edilməsindən, heç bir davasız, mübarizəsiz, qan tökülmədən düşmənə verilməsindən on gün sonra Ermənistan silahlı qüvvələrinin təcavüzünə qarşı mübarizədə, müharibədə Azərbaycan Respublikası üçün ən strateji əhəmiyyət kəsb edən Laçın dağları, Laçın rayonu da Şuşa kimi satqıncasına düşmənin əlinə verildi. Mən bu məsələlər üzərində nə üçün dayanıram? Çünki əgər Şuşada da, Laçında da Azərbaycanın mərd, igid oğulları – onlar həmişə olub, o vaxt da var idi, – vuruşsaydılar, döyüşsəydilər, qan töksəydilər, şəhid olsaydılar və yaxud bizim üçün müqəddəs olan qalalar əgər düşmənin üstünlüyü nəticəsində, minlərlə şəhid verilərək əldən getsəydi, bəlkə də bu gün bizim belə ittiham etməyə əsasımız olmazdı.

Ancaq Azərbaycanın müqəddəratı, ölkəmizin ərazi bütövlüyünün saxlanması üçün çox böyük strateji əhəmiyyəti, həm mənəvi, həm hərbi əhəmiyyəti olan bu iki qalanın döyüşsüz, vuruşsuz, demək olar ki, şəhidsiz olaraq düşmənə verilməsi, satılması həmin insanların Azərbaycan xalqı .qarşısında etdikləri ən böyük xəyanətdir, ən böyük cinayətdir. İstintaq gedir, məhkəmə prosesi televiziya ilə verilib. Artıq tam məlum oldu ki, Şuşanı Ermənistana satdılar. Ona görə satdılar ki, burada bir qrup digər bir qrupu məğlub edib vəzifəyə gəlmək istəyirdi. Bunu açıq demək lazımdır. Bu məsələ artıq məhkəmədə aydınlaşdırılıbdır. Bu, məhkəmənin hökmündə öz əksini tapıb.

1992-ci ildə Azərbaycanda hakimiyyət uğrunda gedən mübarizə, bir qrupun o biri qrupa qarşı mübarizəsi, ayrı-ayrı adamların vəzifə tutması, vəzifəyə layiq olmayan ayrı-ayrı adamların onu nəyin bahasına olursa-olsun əlində saxlaması və vəzifədən gedəndən sonra yenidən vəzifəyə gəlmək istəməsi – bunlar hamısı xalqımıza qarşı xəyanətə gətirib çıxardı. Yenə də qeyd edirəm, bunu məhkəmə sübut edibdir.

Azərbaycanın keçmiş başçısı Ayaz Mütəllibov hakimiyyətdən gedəndən sonra ayrı-ayrı qruplar onu yenidən hakimiyyətə gətirmək istəyirdilər. Respublikamızın xaricində olan qruplar, dəstələr, qüvvələr də buna nail olmaq istəyirdi. Məhz buna görə də Azərbaycanda hakimiyyətsizlik dövründə Şuşa qalası, Şuşa rayonu düşmənə satıldı ki, guya bundan bir neçə gün sonra – mayın 14-də Mütəllibov yenidən hakimiyyətə [370-371] gələcək və ayrı-ayrı xarici qüvvələrin köməyi ilə Şuşanı yenidən qaytaracaq, beləliklə öz hakimiyyətini möhkəmləndirəcəkdir. Nə qədər dəhşətli bir haldır, nə qədər böyük bir xəyanətdir! Ola bilər ki, insan öz əşyası ilə, özünə məxsus olan şeylər, yaxud varidatla alver etsin. Amma xalqın, millətin torpağı ilə alver etmək – bundan böyük cinayət ola bilərmi!

Bundan on gün sonra Laçın əldən getdi. Təsəvvür edin. Laçın nə vaxt əldən getdi ? May ayının 7-də Şuşa qalası əldən getdi, həmin o cinayətkar Rəhim Qazıyev Şuşa qalasını verib oradan qaçdı, – məhkəmə bunu göstərdi, – gəlib buradan başqa ölkələrə gedirdi ki, orada danışıqlar aparsın. Burada daxili mübarizə getdi. Vətəni, torpağı qorumaq əvəzinə hər kəs gözləyirdi ki, vəzifəyə kim gələcəkdir. Mayın 18-də parlamentdə kimlərsə vəzifəyə gəlməli idi, yəni Xalq Cəbhəsi hakimiyyətə gəlməli idi və İsa Qəmbərov parlamentə sədr seçilməli idi. Ona görə də bütün xalqın müqəddəratı unuduldu. Torpaq da, cəbhə də unuduldu. Onların hamısı burada, Bakıda silahlı mübarizəyə qalxdılar və mayın 17-də Laçın əldən getdi.

İndi biz Ermənistanla danışıqlar aparırıq. Böyük dövlətlərin vasitəçiliyi ilə, Minsk qrupu çərçivəsində danışıqlar aparırıq. Məsələnin sülh yolu ilə həll olunmasına çalışırıq. 17 aydır ki, döyüşlər yoxdur. Atəşkəs yaratmışıq və buna riayət edirik. Buna da nail olmuşuq ki, məsələni sülh yolu ilə həll edək. Məsələlərin bir çoxunu da həll etməyə imkan var, siz bunu bilirsiniz. Ancaq biz bu məsələni niyə həll edə bilmirik? Çünki Ermənistan tərəfi Şuşanın, Laçının azad olunmasına razılıq vermir, Azərbaycanın işğal edilmiş başqa rayonlarının hamısının azad olunmasına razılıq verir. Biz isə deyirik ki, əgər Şuşa, Laçın azad olunmasa sülh sazişini imzalaya bilmərik.

Görün, üç il bundan əvvəl, 1992-ci ilin mayında xalqa qarşı edilmiş bu xəyanət bütün xalq üçün – sizin üçün, bizim üçün indi nə qədər ağır bir vəziyyət yaradır! Çünki Şuşa da, Laçın da Azərbaycanın ərazi bütövlüyünü, təhlükəsizliyini təmin etmək, sərhədlərinin toxunulmazlığını təmin etmək üçün strateji xarakter daşıyır. Ermənistan üçün də Şuşa, Laçın Dağlıq Qarabağı Ermənistana bağlamaq üçün strateji xarakter daşıyır. İndi görün, biz o vaxtkı xəyanətin nə qədər böyük əzabını, ağrısını çəkirik. Yenə də deyirəm, bunlar hamısı ona görə baş verib ki, o vaxt Azərbaycan xalqı nadanların əlində olub. Bu, ona görə baş verib ki, Azərbaycanın ordusu olmayıb. [371-372]

Dörd il bundan əvvəl – 1991-ci ildə ordunun yaranması haqqında bəyanat verilib, amma ordu olmayıb. Ayrı-ayrı bandalar, dəstələr orada-burada guya Azərbaycanı müdafiə etmək istəyiblər. Lakin onların hər biri öz şəxsi mənfəətləri ilə məşğul olub, nəticədə torpaqlarımız əldən gedibdir.

Bilirsiniz ki, Azərbaycanda güclü ordunun yaradılmasına 1993-cü ilin noyabr ayında başlanıb. Noyabrın əvvəlində mənim xalqa müraciətim və bizim apardığımız əməli, praktiki işlər Azərbaycanda nizami ordunun yaranmasının başlanğıcı oldu. O vaxtdan indiyədək biz ordunu yaradırıq. Həmin aylarda – qısa müddətdə təşkil olunmuş ordu dəstələrimiz hücuma keçdilər, 1993-cü ilin son aylarında Ermənistan silahlı qüvvələrini ilk dəfə sıxışdırıb düşmənin işğal etdiyi torpaqların bir hissəsindən çıxartdılar. O zaman Ermənistan silahlı qüvvələri ilk dəfə belə zərbələr aldılar. Xatirimdədir ki, o vaxtlar artıq bizə müraciətlər olunurdu ki, gəlin atəşi dayandıraq, danışıqlara keçək. Amma biz hücumdaydıq, buna razı olmadıq. Ordumuz nəyə qadir olduğunu həmin aylarda nümayiş etdirdi, göstərdi. Sonrakı bəzi səhvlər, satqınlıqlar, – təəssüf ki, biz bu günə qədər də həmin satqınlıqlardan xilas ola bilmirik, – bu uğurlu hücumlarımızı müəyyən qədər zəiflətdi. Nəticədə 1994-cü ilin mayında biz atəşkəs haqqında saziş imzaladıq.

İndi biz belə bir qəti fikirdəyik ki, torpaqlarımızın azad olunması üçün sülh vasitələrindən istifadə etməliyik. Bu barədə danışıqlar aparırıq və bunlar sizə məlumdur. Ancaq etibarlı sülh əldə etməkdən ötrü bu gün üçün də, Azərbaycan dövlətinin gələcəyi üçün də güclü, qüdrətli ordumuz olmalıdır. Ordu quruculuğu işi davam etdirilir.

Ordu olmalıdır, ona görə yox ki, biz hansısa bir dövlətə hücum etmək, kiminsə torpağını zəbt etmək istəyirik. Yox. Biz sülhsevər dövlətik. Biz heç kəsin torpağına göz dikməmişik. Biz öz torpaqlarımızı azad etmək, ölkəmizin ərazi bütövlüyünü, sərhədlərimizin toxunulmazlığını təmin etmək istəyirik. Azərbaycan xalqının ali məqsədi bundan ibarətdir. Azərbaycan dövlətinin apardığı siyasət, əməli fəaliyyət bundan ibarətdir. Bunun üçün və gələcəkdə də dövlət müstəqilliyimizi qoruyub saxlamaq üçün güclü ordumuz olmalıdır. Biz ordu quruculuğu işi ilə məşğul oluruq.

Təəssüflər olsun ki, bəziləri öz vətəndaşlıq borcunu layiqincə yerinə yetirə bilmir, bunu anlamır, başa düşmür, orduda xidmət etməkdən yayınır, yayınmağa çalışır və beləliklə də cinayət [372-373] edirlər. Yaxud bəziləri ordu sıralarından fərarilik edir və beləliklə də cinayət edirlər. Lakin belələri azlıq təşkil edirlər. Bu gün, bu bayram günü mən böyük iftixar hissi ilə deyirəm ki, Azərbaycan vətəndaşlarının, xalqının tam əksəriyyəti vətənpərvərlik, vətəni müdafiə etmək, vətənə sədaqət əhval-ruhiyyəsi ilə yaşayır və vətən, torpaq yolunda şəhid olmağa hazırdır. Yenə də deyirəm, təəssüf ki, bəziləri bu yüksək mənəvi səviyyəyə qalxa bilmirlər, ya təcrübəsizlikdən, ya savadsızlıqdan, yaxud mənəvi şikəstliyindən – nədənsə cinayət yollarına düşürlər. Bizim vəzifəmiz, borcumuz xalqımızı, xüsusən gənclərimizi vətənpərvərlik ruhunda tərbiyə etmək, mətinləşdirmək, formalaşdırmaqdır.

Bilirsiniz, "Müstəqil Azərbaycan" ifadəsi indi hamı üçün əzizdir, bunu hamı təkrar edir. Amma hər kəs də başa düşməlidir ki, müstəqil Azərbaycanın müstəqil yaşaması üçün hər bir vətəndaşın vətəndaşlıq borcu var. Bunu təmin etmək üçün hər bir vətəndaş öz payını verməli, öz xidmətini göstərməlidir. Bəziləri elə düşünməsinlər ki, elə "müstəqillik-müstəqillik" deyə-deyə onlar özləri bu müstəqilliyi təmin etməkdən kənarda duracaq, müstəqilliyin bəhrələrindən isə istifadə edəcəklər. Hamımızın ümumi vəzifəmiz xalqımızda vətənpərvərlik, vətənə, torpağa, millətə sədaqət, vətən yolunda şəhidliyə hazır olmaq hisslərini formalaşdırmaq, inkişaf etdirmək, təbliğ etməkdir. Güman edirəm ki, biz artıq bunları dərk edirik. Güman edirəm ki, vətəndaşlarımızın əksəriyyəti bunları dərk edir. Biz bu yolla müstəqilliyimizi möhkəmləndirəcəyik və ərazi bütövlüyümüzü təmin etməyə nail olacağıq.

Vəzifəmiz torpaqlarımızı sülh yolu ilə azad etməkdir. Ancaq sülh danışıqlarını müvəffəqiyyətlə aparmaq üçün bizim güclü ordumuz olmalıdır. Ən nəhayət, Azərbaycanın müstəqilliyini əbədi etmək üçün güclü və daim təkmilləşən, güclənən milli ordumuz olmalıdır. Bu, bizim müqəddəs vəzifəmizdir, hər bir kəsin şərəfli vəzifəsidir.

Bütün bunlara nail olmaq üçün biz gərək gəncləri, səhv yollara düşən, bəzən cinayət edən adamları bu yoldan çəkindirək və belə halların qarşısını vaxtında alaq. Son illərdə ordu sıralarından fərarilik etmiş və ona görə də cinayət məsuliyyətinə alınmış bəzi gənclərimiz indi həbsxanadadırlar. Orduya səfərbərlikdən yayındığına görə, vətəndaşlıq borcunu yerinə yetirməkdən boyun qaçırdığına, ordu sıralarından qaçdığına görə məsuliyyətə alınmış gənclərimiz var. Onlar [373-374] məhkəmə tərəfindən məsuliyyətə cəlb edilmişlər və həbsxanadadırlar. Onların hər biri cinayət edib və cəzalarını da çəkirlər. Ancaq biz xalqımıza həmişə qayğı ilə yanaşırıq. Bir prezident kimi mən həmişə hər bir vətəndaş haqqında düşünürəm.

Bizim prinsipimiz bundan ibarətdir: qanun hamı üçün qanundur. Heç kəsə güzəşt ola bilməz. Bizim üçün qanunun aliliyi ən yüksək prinsipdir. Eyni zamanda qanun çərçivəsində insanlara qayğı göstərmək də bizim vəzifəmizdir. İnsanları pis yoldan, cinayətkarlıqdan çəkindirmək, onları, xüsusən gəncləri tərbiyə etmək bizim vəzifəmizdir.

Fərariliyə, hərbi qulluqdan yayındığına, cürbəcür cinayətlər etdiklərinə görə həbsdə olan gənclərin valideynlərindən mənə çoxsaylı ərizələr, müraciətlər, məktublar gəlib. Həmin müraciətlərə, məktublara mən çox diqqətlə yanaşmışam. Bu məsələlərə baxmaq üçün prezidentin yanında bağışlama komissiyası yaratmışam. Həmin komissiyaya əmr vermişəm ki, bütün bu ərizələrə, müraciətlərə diqqətlə baxsınlar. Onlar baxıblar, həbsdə olan gənclərin valideynlərinin çoxu ilə görüşüblər, danışıblar, onları dinləyiblər. Bunların nəticəsində müəyyən təkliflər hazırlanıb və mən bununla əlaqədar müəyyən bir qərar qəbul etmək fikrinə gəlmişəm. Ancaq

mən bu qərarı qəbul etməmişdən əvvəl fərarilik edən, hərbi qulluqdan yayınan gənclərin valideynlərinin xahişi ilə bu gün onların görüşünə gəlmişəm. Dövlət orqanlarının digər rəhbərləri də burada iştirak edirlər.

Mən sizin görüşünüzə məhz bu bayram günündə, Azərbaycanın dövlət müstəqilliyi günündə gəlmişəm. Hamınızı dinləməyə hazıram. Ancaq güman edirəm ki, vaxt o qədər də olmayacaq. Ona görə də qərarı qəbul etməzdən əvvəl bəziləri öz sözlərini desinlər və bütün bu hazırlıq işlərindən, valideynləri də dinlədikdən sonra mən tam əminliklə bir qərar qəbul edə bilim. Mənə dedilər ki, buraya gələnlərin demək olar ki, hamısı danışmaq istəyir. Ancaq şübhəsiz ki, hamıya söz vermək mümkün deyil.

## YEKUN SÖZÜ

Bugünkü görüşümüzdə valideynlərdən 11 nəfər çıxış etdi. Şübhə etmirəm ki, görüşə gəlmiş valideynlərin hər biri burada çıxış etmək istəyir. Eyni zamanda güman edirəm ki, çıxış [374-375] edənlər bu salonda olanların hamısının fikrini ifadə etdilər. Ona görə də, əgər etiraz etmirsinizsə, bu çıxışları salonda olanların və bu gün əfv edəcəyim məhbusların hamısının valideynlərinin, ata-analarının, uşaqlarının, qohum-əqrəbalarının müraciəti kimi qəbul edim və çıxışlara son qoyaq.

İndi həbsdə olan 608 nəfəri – sizin övladlarınızı, gənclərimizi mən bu gün bax, bu fərmanla əfv edirəm. Mən sizin qarşınızda bu fərmanı imzalayıram. Bu bayram günü gəncləri əfv edərək mən Azərbaycanın müstəqilliyinin və bu bayramın nə qədər əziz olduğunu bir daha qeyd etmək istəyirəm. Bu bayram günündə əfv olunan hər bir kəs gərək Azərbaycan xalqına, torpağına, dövlətinə və onun müstəqilliyinə bundan sonra sədaqətlə xidmət etsin. Mən buna əminəm. Tam əmin olduğuma görə də bu sənədi imzalayıram.

Əfv olunanların adları bu fərmanda yazılıb və o, dərc ediləcək, siz onu oxuyacaqsınız. Şübhəsiz ki, onlar valideynləri ilə görüşəcəklər. Ancaq mən bu fərman əsasında müdafiə nazirinə göstəriş verirəm ki, əvvəllər ordu sıralarında olanlar ordu sıralarına qayıtmalıdırlar, orada xidmət etməlidirlər. Hansılar ki, səfərbərlikdən yayınıblar – onlar bu fərman əsasında ordu sıralarına cəlb olunacaqlar, gedib orduda xidmət etməlidirlər. Mən inanıram ki, siz valideynlər həm əfv olunan bu övladlarınızı, həm də bütün gənclərimizi Vətənə sədaqət, vətənpərvərlik, Vətəni qorumaq yolunda şəhid olmaq əhval-ruhiyyəsində tərbiyə edəcəksiniz.

Güman edirəm ki, Azərbaycanın müstəqilliyi günü imzalanan bu əfv fərmanı ümumiyyətlə, Azərbaycan gəncləri üçün çox böyük örnək olacaq, eyni zamanda xəbərdarlıq olacaqdır. Yəni qanuna riayət etmək lazımdır. Ancaq günahını anlayan, başa düşən insanlara dövlət, prezident həmişə rəhm edir və rəhm edəcəkdir. İstərdim elə olsun ki, heç kəs qanunu pozmasın. İstərdim elə olsun ki, heç kəs cəzaya düşməsin.

Xalqımızı bu ağır vəziyyətdən çıxarmaq, ordumuzu möhkəmləndirmək, müdafiə qüdrətimizi gücləndirmək və müstəqilliyimizi, ərazi bütövlüyümüzü qorumaq üçün həmişə hazır olmaq bizim böyük amalımızdır. Ona görə də bir daha deyirəm, bizim güclü ordumuz olmalıdır, hər bir vətəndaş orduda xidmət etməyi özünün şərəfli borcu hesab etməlidir. Hər bir valideyn də öz oğlunun, övladının orduda xidmət etməsini özünə şərəf bilməlidir. [375-376]

Ümidvaram ki biz gənclərimizi bu arzularla, bu duyğularla tərbiyə edəcəyik. Ümidvaram ki, ordumuz güclənəcək və möhkəmlənəcək. Ümidvaram ki, bundan sonra fərarilik, ordudan yayınma olmayacaq. Belə hallar nəinki qanunla, həm də cəmiyyətimiz, ictimaiyyətimiz, ayrı-ayrı şəxslər tərəfindən pislənəcək və onların qarşısı alınacaq, gənclər gəlib dövlət orqanları qarşısında məsuliyyətə cəlb olunmayacaqlar. Biz bunu istəyirik. Bizim arzumuz, istəyimiz budur.

Sizə cansağlığı, xoşbəxtlik arzu edirəm. Bayram münasibətilə sizi bir daha təbrik edirəm. Bütün Azərbaycan xalqını təbrik edirəm, Azərbaycan xalqına, Azərbaycan vətəndaşlarına müstəqillik yolunda uğurlar diləyirəm. Sağ olun. [376-377]

## BMT-nin 50 İLLİYİ YUBİLEYİ İLƏ ƏLAQƏDAR BMT BAŞ MƏCLİSİNİN XÜSUSİ TƏNTƏNƏLİ İCLASINDA İŞTİRAK ETMƏK ÜÇÜN ABŞ-a YOLA DÜŞƏRKƏN İSTANBULUN ATATÜRK HAVA LİMANINDA MƏTBUAT KONFRANSINDA BƏYANAT

*20 oktyabr 1995-ci il*

Hörmətli mətbuat nümayəndələri!

Bilirsiniz ki, mən Nyu-Yorka Birləşmiş Millətlər Təşkilatının yaranmasının 50 illik yubileyi münasibətilə keçirilən təntənəli mərasimdə iştirak etməyə gedirəm. Ancaq yolumuz İstanbuldan keçir. Şəxsən mən həmişə Qərb ölkələrinə gedərkən Türkiyəni ziyarət etmək istəyirəm. Ona görə də yolumu buradan salmışam. Bir saatdan sonra buradan təyyarə ilə yola düşəcəyik. Doğrusu, mənim burada qısamüddətli olmağıma sizin bu qədər böyük maraq göstərdiyinizi təsəvvür etmirdim. Düşünmürdüm ki, siz mənimlə görüşmək üçün gələcəksiniz. Mənim görüşümə gəldiyinizə və səfərimə maraq göstərdiyinizə görə sizə təşəkkür edirəm. Bir halda ki, gəlmisiniz, mən sizi bir daha salamlayıram, hörmət və ehtiramımı bildirirəm. İstanbula, Türkiyə torpağına qardaşlıq salamımı, hörmət və ehtiramımı yetirirəm. Əgər mənə sözünüz, sualınız və ya sorğunuz varsa cavab verməyə hazıram.

**Sual: Azərbaycanın Milli Məclisinə ilk demokratik seçkilərin keçirilməsi barədə nə deyə bilərsiniz?**

**Cavab:** Bilirsiniz ki, bu, Azərbaycanın indiki həyatında, ümumiyyətlə, tarixində çox önəmli və əhəmiyyətli hadisədir. Çünki respublikamız dörd il bundan öncə öz istiqlaliyyətini əldə edib və müstəqil dövlət olubdur. Lakin indiyədək onun müstəqil dövlət kimi yeni seçilmiş parlamenti olmayıbdır. Ona görə də biz noyabrın 12-nə Azərbaycanın Milli Məclisinə seçkiləri təyin etmişik. Şübhəsiz ki, bu bizim üçün o qədər də asan iş deyildir. Çünki bilirsiniz ki, Azərbaycan öz həyatının keçid dövrünü yaşayır. Respublikamız Ermənistanın təcavüzü [377-378] nəticəsində müharibə şəraitindədir. Torpaqlarımızın 20 faizi Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunubdur. İşğal olunmuş ərazilərimizdən bir milyondan artıq vətəndaşımız öz yerindən-yurdundan, el-obasından didərgin düşübdür. Qaçqınlar Azərbaycanın digər bölgələrində, məntəqələrində çox ağır şəraitdə, əksəriyyəti çadırlarda yaşayır. İqtisadi-sosial problemlər çox ağırdır, biz demək olar ki, böhran içərisindəyik. Belə bir şəraitdə parlament seçkiləri keçirmək, yəni yeni bir parlament yaratmaq böyük bir cəsarət, bu böyük işdə xalqa inamın olmasını tələb edir. Biz belə bir cəsarətli addım atmışıq və bu seçkiləri təyin etmişik.

Biz parlament seçkilərini keçirmək üçün bir neçə ay ərzində seçkilər haqqında qanun hazırladıq. Çünki müstəqil Azərbaycan dövlətində ilk dəfədir ki, parlament seçkiləri keçirilir. Biz istəyirik ki, bu seçkiləri tam demokratik prinsiplər əsasında keçirək. Bilirsiniz ki, biz Azərbaycanda demokratik, hüquqi, sivilizasiyalı bir dövlət qurmaq prosesindəyik. Bu proses içərisində olduğumuz zaman şübhəsiz ki, bizim hər addımımız, hər işimiz demokratiyaya söykənməli, demokratiyaya əsaslanmalıdır. Bu səbəbdən də biz çalışırdıq ki, bu seçkiləri sadəcə elan edərək keçmişdə olduğu kimi keçirməyək, yeni bir qanun əsasında keçirək. Yeni qanun da şübhəsiz ki, konstitusiya əsasında olmalıdır. Bizim yeni, müstəqil dövlətimizin isə indiyə qədər konstitusiyası yox idi. Dörd ildir ki, müstəqil dövlət. olmağımıza baxmayaraq biz indiyə qədər keçmiş Sovetlər İttifaqı zamanı – 1978-ci ildə qəbul olunmuş konstitusiya ilə işləyirik. Onu da qeyd etmək istəyirəm ki, 1978-ci il konstitusiyası da mənim Azərbaycana rəhbərlik etdiyim dövrdə qəbul olunub və mən hətta həmin konstitusiyanı hazırlayan komissiyanın sədri olmuşam. O konstitusiyanı da yazanlardan, onun müəlliflərindən biri, ola bilsin ki, əsası mənəm.

Ancaq o, sovet respublikasının konstitusiyası idi. Bizə şübhəsiz ki, yeni konstitusiya lazımdır. Biz yeni konstitusiyanı hazırlayırıq. Ancaq istəyirik ki, bu konstitusiyanı parlamentdə yox, ümumxalq səsverməsində, referendumda qəbul edək. Çünki bizim seçkilərimiz xalqın səsinə söykənməlidir.

Bizdə respublika prezidentini də xalq seçir. İndi Milli Məclisi, yəni parlamentin üzvlərini də xalq seçəcəkdir. Ona görə də bizim konstitusiyamız da parlamentdə yox, xalqın bəyəndiyi və referendum vasitəsilə qəbul etdiyi konstitusiya olmalıdır. Belə bir konstitusiyanın layihəsini hazırlamışıq. Ancaq biz əvvəlcə [378-379] istədik ki, seçkilər haqqında qanun hazırlayaq. Həmin qanunu hazırladıq, elan etdik və o, qəbul edildi. Mən sizə deyə bilərəm ki, Azərbaycanda parlament seçkiləri haqqında qəbul etdiyimiz qanun ictimaiyyət tərəfindən demokratik qanun kimi qəbul olunubdur. Bu barədə başqa bir söz deyən, yəni ona müxalif çıxan yoxdur.

Biz indi bu qanunun həyata keçirilməsinə başlamışıq. Çalışırıq ki, qanunun özü demokratik olduğu kimi, onun əsasında keçirilən seçkilər də tam demokratik olsun. Yəni insanların, dövlətin hüquqları qorunsun.

Biz çalışırıq ki, xalqımızın içərisində ən dəyərli adamlar, xalqın istədiyi və seçdiyi adamlar parlamentdə olsun. İndi bu iş gedir. Seçkilərin birinci mərhələsi başa çatıbdır. Yəni seçilmək istəyən insanlar, vətəndaşlar öz namizədliklərini irəli sürüblər.

Bizim parlamentdə 125 millət vəkili olacaqdır. Bu 125 deputat yerindən 25-i partiyaların siyahıları üzrə, proporsional seçki sistemi əsasında seçiləcəkdir. Yəni bu partiyalar seçkilərdə iştirak edir və deputatlar da onların verdiyi siyahılar əsasında seçilir. Ancaq 100 mandat üzrə namizədlər, yəni 100 deputat majoritar sistem əsasında seçiləcəkdir. Yəni ayrı-ayrı birmandatlı dairələrdən hər bir kəs parlamentə seçilə bilər.

Seçilmək istəyən partiyalar və vətəndaşlar artıq öz namizədliklərini bəyan ediblər. Birmandatlı dairələrdən 1070 şəxs, vətəndaş parlamentə seçilmək üçün müraciət edib, yəni ərizə verib.

Azərbaycanda Ədliyyə Nazirliyinin qeydə aldığı 31 siyasi partiya var. Bu partiyalardan 18-i seçkilərə hazırlıq başlayan vaxt seçkilərdə iştirak edəcəyini bəyan etmişdi. Ancaq son olaraq bu 18 partiyadan – hər bir partiya Mərkəzi seçki komissiyasından imza vərəqələri almalıdır. 50 min vətəndaşın imzasını toplamalıdır və Mərkəzi seçki komissiyası bu imzaların doğruluğunu təsdiqləyəndən sonra həmin partiyalara seçkidə iştirak etmək hüququ verir – 12-si gəlib seçimdə iştirak etmək üçün müraciət etmişdir. Yəni əvvəlcə 18 partiya seçkidə iştirak edəcəyi barədə bəyanat vermiş, lakin 12 partiya Mərkəzi seçki komissiyasından lazımi vərəqələri götürmüşdür.

İndi bu 12 partiya Mərkəzi seçki komissiyasına imza vərəqələrini təqdim edibdir. Vətəndaşlardan isə, dediyim kimi, 1070 nəfər öz sənədlərini veribdir. Son günlər Mərkəzi seçki komissiyası çox gərgin işləyir. Verilmiş sənədlərdən hansı doğru-düzgün tərtib olunubsa onlar seçkilərə buraxılır. Beləliklə, [379-380] biz çoxpartiyalı sistem üzrə seçkilərə gedirik. Çoxpartiyalı sistem təkcə partiyaların verdiyi siyahıdan ibarət deyil. Birmandatlı 100 dairədə hər deputat yerinə istənilən partiyanın nümayəndəsi öz namizədliyini verir. Mənə dedilər ki, Mərkəzi seçki komissiyasından alınan məlumata görə bütün partiyalara mənsub olan adamlar öz namizədliklərini irəli sürüblər. İndi seçki bu mərhələdədir. Bu işlər bitəndən sonra, təxminən sabah təbliğat işi başlayacaqdır. Yəni seçilmək istəyən adamlar özlərini təbliğ edəcəklər.

Mərkəzi seçki komissiyasında kimin xahişi ödənilməyibsə onlar şikayət edə bilərlər. Həmin şikayətə Mərkəzi seçki komissiyası baxıb, bu ayın 25-nə qədər onların yenidən qeydiyyata alınmasına imkan vardır. Əgər Mərkəzi seçki komissiyası onlar barəsində müsbət qərar qəbul etməsə onlar məhkəməyə müraciət edə bilərlər. Məhkəmə qərar verə bilər və onlar yenidən seçkiyə girə bilərlər.

Azərbaycanda ilk dəfədir ki, belə sərbəst, azad, tam hürriyyət içində seçkilər keçirilir. Bizim məqsədimiz, Azərbaycanın prezidenti kimi mənim ən əsas məqsədim ondan ibarətdir ki, demokratik bir parlament seçilsin və həmin parlamentdə Azərbaycanın hər bir siyasi qüvvəsi təmsil olunsun. Bununla da biz demokratik addım ataq.

Mən eyni zamanda sizə bildirdim ki, biz konstitusiya layihəsi hazırlamışıq. Bizdə konstitusiya komissiyası yaranıbdır. Bu komissiya çox hörmətli adamlardan – hüquqşünaslardan, alimlərdən, dövlət adamlarından ibarətdir. Mən bir prezident kimi bu komissiyaya başçılıq edirəm. Bu komissiya 3-4 aydır ki, konstitusiya layihəsi üzərində işləyibdir. Nəhayət, biz bu işi bitirmişik və konstitusiya layihəsini mətbuata vermişik. Bu layihə qəzetlərdə dərc olunubdur, yayılıbdır. Oktyabr ayının sonuna qədər vətəndaşlar, siyasi partiyalar, elmi təşkilatlar, ictimai təşkilatlar, birliklər, hər bir kəs konstitusiya layihəsi haqqında öz fikirlərini deyə bilər – yəni hansı maddə ilə razıdır və ya razı deyil, nəyi əlavə etmək istəyir, nəyi çıxarmaq istəyir. Təkliflərin hamısı toplandıqdan sonra konstitusiya komissiyası bu ayın sonunda bir daha toplaşacaq və bunları təhlil edəcəkdir. Yararlı təklifləri, əlavələri, dəyişiklikləri edəcək və konstitusiya layihəsinin son variantını bir daha mətbuata verəcəkdir.

Bu, noyabrın 12-də olacaqdır. Yəni noyabrın 12-də seçki günü eyni zamanda konstitusiyanın qəbul edilməsi, ümumxalq [380-381] səsverməsi, referendumu günüdür. Ondan 10 gün öncə son layihə yenə də mətbuata veriləcəkdir. İnsanlar bu 10 gün içərisində həmin layihəni yenə də oxuyacaq və noyabrın 12-də ona kim istəsə səs verəcək, kim istəsə səs verməyəcəkdir. Bu layihəyə xalqımız səs versə, konstitusiyamız qəbul olunacaqdır. Ona görə də noyabrın 12-si bizim üçün çox önəmli gündür. Həm yeni parlament seçiləcəkdir, həm də yeni konstitusiya qəbul olunacaqdır. Müstəqil Azərbaycan Respublikasının hüquqi, demokratik bir dövlət yaratması üçün bu, çox önəmli işlərdir. Biz bu işləri görürük.

**Sual: ABŞ prezidenti Bill Klinton ilə qarşıdakı görüşün əsas mövzusu barədə nə deyə bilərsiniz ?**

**Cavab:** Bilirsiniz ki, Amerika Birləşmiş Ştatlarının prezidenti Bill Klinton ilə aramızda çox yaxşı əlaqələr yaranıbdır. Biz bir-birimizə məktublar yazıb göndəririk, onun təmsilçiləri mənim yanıma gəlir, mənim təmsilçilərimi o qəbul edir. Keçən il mən Nyu-Yorkda olarkən Bill Klintonla görüşdüm. Bizim çox maraqlı və çox əhəmiyyətli danışıqlarımız oldu. Biz indi Bill Klinton ilə yenə də görüşəcəyik. Bundan bir neçə gün öncə cənab Bill Klinton mənə bir məktub göndərmişdir. Bu məktubda Amerika-Azərbaycan əlaqələri haqqında geniş söhbət gedir, eyni zamanda Xəzər dənizinin Azərbaycan sektorundakı neft ehtiyatlarının müştərək istifadə olunması barədə və həmin neftin ixracı, yəni onun Qərbə aparılması haqqında bəhs olunur. Məktubda Azərbaycanda demokratiyanın inkişafı barədə də söhbət gedir. Mən həmin məktuba cavab verdim. Sonra cənab Bill Klintonun təmsilçisi cənab Bjezinski də Bakıya gəlmişdi. Mənim onunla da görüşlərim və danışıqlarım

oldu. Cənab Bill Klintonun məktubunda əsas məsələlərdən biri də Ermənistan-Azərbaycan münaqişəsi barədə, yəni Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü və Dağlıq Qarabağ problemi haqqında təkliflər, fikirlərdir.

Güman edirəm ki, bizim görüşümüzdə də bu məsələlər danışıqlarımızın əsas mövzusu olacaqdır.

**Sual: Azərbaycan neftinin Qərbə ixracında ABŞ-ın hər hansı bir mövqeyi varmı ?**

**Cavab:** Mən bu gün sizə bildirmək istəyirəm ki, Azərbaycan neftinin ixracı haqqında oktyabrın 9-da çox əhəmiyyətli qərar qəbul etmişik. Siz bunu bilirsiniz. Bakıda xarici neft şirkətləri və Azərbaycan Dövlət Neft Şirkəti birgə konsorsium yaradıblar. Bilirsiniz ki, bir il bundan əvvəl, sentyabrın 20-də [381-382] Azərbaycanda bu konsorsiumla böyük bir neft müqaviləsi imzaladıq. Bir ildir ki, konsorsium işləyir və bu konsorsiumun, bu müqavilənin fəaliyyəti nəticəsində artıq 1996-cı ilin sonunda ilkin neft çıxarılacaqdır. Neçə vaxtdır biz bu neftin ixracı yollarını araşdırırıq. Bunun bir çox variantları var idi. Ayrı-ayrı ölkələr öz maraqlarını göstərirdilər. Ancaq biz çox düşündük. Türkiyənin prezidenti, mənim əziz dostum, qardaşım, hörmətli Süleyman Dəmirəl və Türkiyənin baş naziri hörmətli xanım Tansu Çillər də bu barədə mənimlə danışıqlar aparmışlar. Mən bunları da nəzərə aldım. Cənab Bill Klinton da bu barədə öz fikirlərini demişdir. Mən onları da nəzərə aldım. Rusiyanın başçıları, xüsusən baş nazir cənab Çernomırdin də mənə bu barədə məktublar yazmışdır. Bunların hamısına baxıldı. Biz çox əhəmiyyətli bir qərar qəbul etdik. İki boru xətti barədə qərar qəbul olundu – biri Gürcüstandan Qara dənizə, o birisi Rusiyadan Qara dənizə. Bu qərarı Türkiyə də çox bəyənibdir. Bu, Türkiyənin də maraqlarını təmin edir. Bu qərar Qərbdə də çox bəyənilibdir. Biz də bunu çox əhəmiyyətli qərar hesab edirik.

Bu qərarın qəbul edilməsi asan iş deyildi. Onun qəbul edilməsi yolları çox çətin idi. Ancaq biz bu yolları keçdik və belə bir qərarı qəbul etdik.

**Sual: Bu sahədəki çətinliklər nədən ibarət idi ?**

**Cavab:** Bunları biz özümüz bilirik. Bunları siz də bilirsiniz. Bu barədə siz bizdən çox yazırsınız, qəzetlərinizdə bəzən olan şeyləri, bəzən də olmayan şeyləri yazırsınız.

**Sual: İlkin neftin ixrac marşrutunun Türkiyə ərazisindən keçəcəyi yer barədə nə deyə bilərsiniz ?**

**Cavab:** Bilirsiniz ki, boru xətti Ceyhana getməlidir. Bu, böyük boru xətti olacaqdır. İstanbul boğazından nəyi keçirəcəksiniz, nəyi keçirməyəcəksiniz – bu, sizin öz işinizdir. Ancaq bizim məqsədimiz boru xəttini Türkiyədən Ceyhana keçirməkdir. Sizin də istəyiniz budur. Mən sizin arzunuza görə bunu dedim.

**Sual: Çeçenistan hadisələri barədə fikriniz necədir ?**

**Cavab:** Bilirsiniz ki, Çeçenistanda çox ağır savaş gedir. Bu işə bütün dünya ictimaiyyəti, dünya dövlətləri qoşulubdur. Bu işlə ATƏT çox ciddi məşğuldur. Onlar bu problemləri həll edirlər. Bizim ora qatılmağımıza ehtiyac yoxdur. Bizim özümüzün elə problemlərimiz var ki... Əsas problemimiz Dağlıq Qarabağ [382-383] problemi, Ermənistanın Azərbaycana qarşı təcavüzü və torpaqlarımızın işğal altında olmasıdır. Sizin bir milyondan artıq qardaşlarınız, bacılarınız qaçqın düşübdür. Azərbaycan torpaqlarının 20 faizi işğal olunubdur. Ermənistan təcavüzkardır. Bu, bizim üçün əsas məsələdir. Bilirəm ki, Türkiyə də bu məsələdə Azərbaycan kimi üzülür, bu işlə məşğul olur və biz sizinlə birlikdə, Türkiyə ilə birlikdə, digər dövlətlərlə birlikdə ATƏT-in Minsk qrupu çərçivəsində bu məsələni sülh yolu ilə həll etmək istəyirik.

Bilirsiniz ki, yeddi ildən artıqdır Ermənistanla Azərbaycan arasında müharibə gedir. Ancaq keçən il mayın 12-də Ermənistanla Azərbaycan arasında atəşkəs barədə saziş imzalanıb. İndi on yeddi aydır atəş yoxdur. Yəni qan tökülmür, vuruş yoxdur, savaş yoxdur. Bu, yeddi illik müharibədə, Ermənistan-Azərbaycan münaqişəsində ilk belə hadisədir.

Ancaq biz bu atəşkəsi məsələnin sülh yolu ilə həlli üçün əldə etmişik. Biz barış istəyirik. Müharibə aparmaq istəmirik. Lakin biz eyni zamanda, işğal olunmuş torpaqlarımızın tamamilə azad edilməsini istəyirik. Azərbaycanın ərazi bütövlüyünün, dövlət sərhədlərinin toxunulmazlığının təmin olunması, işğal edilmiş torpaqlarımızın qeyd-şərtsiz azad olunması və Azərbaycan vətəndaşlarının öz doğma yurdlarına qayıtması şərti ilə biz danışıqlar aparırıq və buna nail olmaq istəyirik.

Sağ olun, təşəkkür edirəm. [383-384]

## ABŞ-da YAŞAYAN AZƏRBAYCANLI İCMASININ NÜMAYƏNDƏLƏRİ İLƏ TÜRK EVİNDƏ GÖRÜŞDƏ ÇIXIŞ

*Nyu-York*

*20 oktyabr 1995-ci il,*

Hörmətli həmvətənlər, hörmətli dostlar!

Nyu-Yorka gəldiyim gün bildirdilər ki, Amerikada və Türkiyədə yaşayan bacı və qardaşlarımız, habelə Azərbaycanla bağlı olan adamlar mənimlə görüşmək istəyirlər. Mən sizin görüşünüzə gəlmişəm. Sizə Azərbaycandan səmimi salamlar gətirmişəm, xalqımızın hörmət və ehtiramını çatdırıram. Sizi ürəkdən salamlayıram və hamınıza hər kəsin yaşadığı və çalışdığı yerdə uğurlar, səadət və xoşbəxtlik diləyirəm.

Biz Azərbaycanda respublikamızın dövlət müstəqilliyinin dördüncü ildönümünü qeyd etdik. Dörd ildir ki, Azərbaycan müstəqil dövlət kimi yaşayır və müstəqil bir dövlət kimi dünya birliyinə daxil olubdur, BMT-nin üzvüdür. Azərbaycan Birləşmiş Millətlər Təşkilatının üzvü kimi bütün beynəlxalq toplantılarda iştirak edir, respublikamızın nümayəndələri orada ölkəmizi təmsil edirlər.

Burada, Nyu-Yorkda Birləşmiş Millətlər Təşkilatının yaranmasının 50 illiyi münasibətilə mərasim, bayram keçiriləcəkdir. Mən də Azərbaycanın prezidenti kimi, respublikamızın nümayəndə heyəti ilə birlikdə bu mərasimdə iştirak etmək üçün gəlmişəm. Bu, biz azərbaycanlılar üçün böyük bir tarixi hadisədir. İlk dəfədir ki, Azərbaycan xalqı öz tarixində bir müstəqil dövlət kimi, öz nümayəndəsini, öz təmsilçisini ən yüksək beynəlxalq təşkilatın – Birləşmiş Millətlər Təşkilatının 50 illik yubileyinə göndərmişdir. Ona görə də mən buraya gəlmişəm və sizinlə böyük iftixar hissi ilə görüşürəm.

Azərbaycan müstəqil dövlətdir və müstəqil dövlət kimi dünyanın hər bir ölkəsi ilə sərbəst əlaqələr qurur. Biz Azərbaycanda müstəqil dövlət kimi yaşayaraq, eyni zamanda dünyada yaşayan bütün azərbaycanlılar, bütün türklər haqqında düşünürük. Hamımız bir millətik. Hamımız bir kökə məxsus xalqıq. Azərbaycanda yaşayanların, Azərbaycandan gəlib burada, [384-385] Amerikada, İranda, Türkiyədə, İngiltərədə və digər ölkələrdə yaşayanların hamısı birdir.

Bilirsiniz ki, indi biz Azərbaycanda ağır bir dövr, keçid dövrünü yaşayırıq. Öz problemlərimiz çoxdur. Buna baxmayaraq respublikamızdan kənarda yaşayan soydaşlarımız haqqında daim düşünürük, onların həyatı ilə həmişə maraqlanmağa çalışırıq və soydaşlarımıza qayğımızı, hörmətimizi göstərmək istəyirik. Ona görə də sizinlə bu görüşüm mənim üçün çox əzizdir. Mən çox məmnunam ki, sizin hər biriniz bu gün, bu axşam evinizdən ayrılıb buraya gəlmisiniz. Burada həm bir-birinizlə – yəqin ki, mən savab iş görmüşəm ki, siz burada bir-birinizlə görüşürsünüz, – həm də mənimlə, Azərbaycandan gələn nümayəndələrlə görüşürsünüz. Mən bundan çox məmnunam.

Azərbaycanda gedən proseslər sizə məlumdur. Qeyd etdim ki, Azərbaycan dörd ildir müstəqil dövlət kimi yaşayır. Müstəqillik yolu asan deyil, çətindir.

Heç bir xalq milli azadlığını əldə edən kimi, heç bir ölkə öz dövlət müstəqilliyini qazanan kimi dərhal normal şəraitdə yaşamağa imkanı olmayıbdır. Bu, təbii bir haldır. Çünki uzun illər başqa bir dövlətin tərkibində yaşayan xalq, başqa bir dövlətin içərisində olan ölkə əgər həmin dövlətdən ayrılırsa, müstəqil olursa, onun qarşısına çoxlu böyük problemlər çıxır. Dünyaya öz müstəqilliyini bildirmək, tanıtmaq və bütün ölkələr tərəfindən tanınmaq özü böyük bir problemdir. Bilirsiniz ki, Azərbaycan uzun illər Rusiyanın tərkibində, sonra isə 70 il Sovetlər İttifaqının daxilində olubdur. Azərbaycanın bütün iqtisadiyyatı, elmi, mədəniyyəti, insanların şəxsi əlaqələri son 70 ildə Sovetlər İttifaqının tərkibində olan başqa respublikalarla çox sıx bağlı idi. Bizim fabriklərimiz, zavodlarımız, iqtisadiyyatımız Rusiya ilə və başqa respublikalarla bağlı olubdur. Ona görə də müstəqillik əldə edəndən sonra, İttifaq dağılandan sonra, müstəqil dövlət kimi yaşayan zaman iqtisadiyyatın keçid dövründə çoxlu problemlər yaranır. Bu problemlərin həlli ilə məşğuluq.

Bir daha qeyd edirəm ki, hər bir ölkənin, hər bir xalqın keçid dövründə həyatı asan olmur, yollar hamar deyil, çətin olubdur. Ancaq respublikamızın həyatını çətinləşdirən ən böyük səbəb həm də Ermənistanın Azərbaycana qarşı təcavüzüdür. Bilirsiniz ki, Azərbaycan yeddi ildir ki, Ermənistan tərəfindən [385-386] təcavüzə məruz qalıbdır. Bu hərbi təcavüz 1988-ci ildə başlayıb. Bəzi səbəblərdən – bunu indi burada araşdırmağa ehtiyac yoxdur, onlar sizə məlumdur – Azərbaycan öz torpaqlarını müdafiə edə bilməyibdir. Ermənistan silahlı qüvvələri Azərbaycan torpaqlarının bir qismini işğal edibdir. Ərazimizin 20 faizi Ermənistan silahlı qüvvələrinin işğalı altındadır. İşğal olunmuş torpaqlardan bir milyondan artıq vətəndaşımız öz doğma yurdunda qaçqın vəziyyətində, ağır şəraitdə yaşayır. Onların çoxu gecə də, gündüz də, qışda da, yayda da çadırlarda yaşayır, çətin həyat tərzi keçirir. Bunların hamısı respublikamızda keçid dövrünü çox çətinləşdirib və mürəkkəbləşdiribdir.

Ancaq bəzi müsbət hallar da vardır. Bu da ondan ibarətdir ki, biz 1994-cü ilin mayında Ermənistan-Azərbaycan münaqişəsində atəşkəs əldə etdik. 17 aydır ki, atəşkəs rejimi davam edir. Yəni müharibə getmir, atəş yoxdur, qan tökülmür, ancaq Azərbaycan Ordusu Ermənistan silahlı qüvvələri ilə üz-üzə dayanıbdır və Ermənistan qoşunları işğal olunmuş ərazilərimizdən çıxmayıbdır.

Atəşkəsin əldə olunması böyük müsbət haldır. Mən bunu bir də qeyd edirəm. Ona görə ki, insanlarda müəyyən qədər sakitlik əmələ gəlibdir. Ondan əvvəlki illərdə savaş davam edirdi, döyüşlər, müharibə gedirdi. Şübhəsiz ki, hər gün şəhidlər olurdu, qan tökülürdü. İndi bunlar yoxdur. Lakin hələ müharibəyə son qoyulmamışdır, Ermənistanın işğalından xilas olmamışıq. İşğal edilmiş torpaqlarımız azad olunmayıb. Ona görə də bizim həyatımızda bunlar müəyyən çətinlik yaradıbdır. Biz çalışırıq ki, bu şəraitdən tamamilə sülh yaranması üçün istifadə edək. Yəni müharibəyə sülh yolu ilə son qoyaq, işğal olunmuş torpaqlarımızı azad edək və Azərbaycanın ərazi bütövlüyünə nail olaq. Bunun üçün biz danışıqlar aparırıq. ATƏT-in – Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının çərçivəsində Minsk qrupu yaranıbdır. 1992-ci ildə yaranmış bu qrup Ermənistan-Azərbaycan münaqişəsini sülh yolu ilə həll etmək üçün təşkil olunub. Biz Minsk qrupu çərçivəsində daim danışıqlar aparırıq.

Keçən ilin dekabrında Budapeştdə ATƏT-in üzvü olan ölkələrin dövlət başçılarının görüşündən sonra Minsk qrupunda müəyyən dəyişiklik əmələ gəlib. İndi Minsk qrupunun iki sədri vardır. Sədrlərdən biri Rusiyadan, digəri isə Finlandiyadandır. Onların rəhbərliyi altında danışıqlar gedir, Ermənistan və [386-387] Azərbaycan nümayəndələri vaxtaşırı görüşür, danışıqlar aparırlar. Son görüşlər və danışıqlar Finlandiyanın Alan adalarında olmuşdur. Minsk qrupunun başçıları Azərbaycana tez-tez gəlirlər, onlar Ermənistanda da olurlar. Yəqin ki, burada da bu məsələlərin həlli üçün biz müəyyən danışıqlar aparacağıq.

Güman edirəm ki, bizim sülhsevər siyasətimiz atəşkəsin bundan sonra da davam etməsi və intensiv olaraq danışıqlar aparılması, beynəlxalq təşkilatların, xüsusən ATƏT-in bu işdə fəal iştirakı, böyük dövlətlərin bu işə yaxın münasibəti nəticəsində – ABŞ-ın rəhbərliyi, prezident cənab Bill Klinton da bu məsələnin həllinə çox böyük maraq göstərir – biz bu məsələnin sülh yolu ilə həll edilməsinə nail olacağıq.

Doğrudur, bu asan deyildir. Çünki Ermənistan işğal etdiyi torpaqlardan asanlıqla çıxmaq istəmir, çoxlu şərtlər qoyur. Ancaq bizim də şərtlərimiz var. Şərtimiz ondan ibarətdir ki, işğal edilmiş torpaqların hamısı, o cümlədən bizim üçün müqəddəs olan Şuşa rayonu, Laçın rayonu da azad edilməlidir. Belə bir şəraitdə biz Dağlıq Qarabağda yaşayan ermənilərin təhlükəsizliyini təmin etmək üçün Dağlıq Qarabağın statusu haqqında müzakirəyə başlayıb qərar qəbul edə bilərik. Bu şərtlərlə biz Böyük Sülh Sazişi bağlayıb bölgəmizdə Ermənistan ilə Azərbaycan arasında uzunmüddətli sülh yarada bilərik. Biz bu yolda çalışırıq. Əgər buna nail ola bilməsək, şübhəsiz ki, torpaqlarımızı işğal altında qoya bilmərik. Azərbaycan xalqının iradəsi möhkəmdir, xalqımız çox cürətlidir və nəyin bahasına olursa-olsun torpaqlarımızı azad edəcəkdir. Xalqımız bunu etmək əzmindədir. Azərbaycanın ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığı təmin olunacaqdır.

Dünyada haqq-ədalət varsa, insan hüquqları, hər bir dövlətin, hər bir xalqın hüquqları qorunursa, bu, belə olmalıdır. Çünki heç bir vəchlə heç bir dövlət gərək imkan verməsin ki, bir dövlət başqa bir dövlətin ərazisini zorla ələ keçirsin. İndiki zamanda, XX əsrin sona çatdığı bir dövrdə, dünyada yeni dövlətlərarası əlaqələr qurulduğu bir vaxtda, beynəlxalq təşkilatlar hər bir məsələni ədalətli həll etmək haqqında müddəalar irəli sürdüyü halda, böyük dövlətlər bu müddəalara sadiq olduqlarını bildirdikləri halda, heç cür yol verə bilmərik, heç kəs də yol verməməlidir, heç bir beynəlxalq təşkilat buna razı olmamalıdır ki, bir ölkənin ərazisi başqa bir dövlət tərəfindən zorla ələ keçirilsin. Biz buna yol verməyəcəyik. Biz belə [387-388] vəziyyətə qətiyyən razı ola bilmərik. Mən bir daha deyirəm, müstəqil Azərbaycan Respublikasının beynəlxalq normalar tərəfindən tanınmış ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığı təmin olunacaqdır.

Biz müstəqil Azərbaycanın iqtisadiyyatını inkişaf etdirmək üçün çalışırıq ki, dünyanın bütün ölkələri ilə iqtisadi əlaqələr yaradaq. Son iki ildə dünyanın böyük dövlətləri ilə, qonşu ölkələrlə və digər dövlətlərlə əlaqələrimizin inkişafı üçün bir çox addımlar atılıbdır. Mən bir çox ölkələrə səfərlər etmişəm. Azərbaycana müxtəlif ölkələrin dövlət və hökumət başçılarının səfərləri olubdur. Biz çox gərəkli sazişlər, müqavilələr imzalamışıq. Bunların həyata keçirilməsini istəyirik. Məqsədimiz Azərbaycanı açıq, sərbəst bir ölkəyə çevirməkdən ibarətdir. Azərbaycanın qapılarını dünyaya açmışıq. Respublikamız dünya investisiyaları üçün açıqdır. Azərbaycanda yeni həyat yaranır. Azərbaycanda sivilizasiyalı, hüquqi demokratik dövlət qururuq. Biz Azərbaycanı demokratiya yolu ilə aparmaq istəyirik, dünya demokratiyasına qovuşdurmaq istəyirik. Respublikamızın iqtisadiyyatını sərbəst bazar iqtisadiyyatına, sahibkarlıq prinsiplərinə qovuşdurmaq məqsədi ilə hər bir ölkə ilə, hər bir şirkətlə, hər bir iqtisadi qurumla əlaqə qurmağa hazırıq və bu əlaqələri də qururuq. Bilirsiniz ki, bir il öncə – keçən ilin sentyabrında mən buraya, Nyu-Yorka gəlmişdim. Ondan əvvəl, yeni sentyabrın 20-də Azərbaycanın neft yataqlarından müştərək istifadə olunması üçün biz dünyanın böyük neft şirkətləri ilə müqavilə imzaladıq. Bu, çox əhəmiyyətli müqavilədir, tarixi xarakter daşıyır. Ona görə də həmin müqaviləni "Əsrin müqaviləsi" adlandırırlar. ABŞ prezidenti cənab Bill Klinton da həmin müqavilə imzalandıqdan sonra mənə göndərdiyi məktubda bu müqaviləni "Əsrin müqaviləsi" adlandırmışdır. Bu, doğrudan da böyük bir işdir. Bir il müddətində həmin müqavilənin həyata keçirilməsi təmin olunur. Bu müqavilə Azərbaycan Dövlət Neft Şirkəti ilə xarici neft şirkətlərinin yaratdığı konsorsium arasında

imzalanmışdır. Həmin konsorsiuma Azərbaycan Dövlət Neft Şirkəti ilə birlikdə 11 şirkət daxildir. Onlardan beşi ABŞ şirkətləridir. Bilirsiniz ki, bunlar "AMOKO", "Eksson", "Pennzoyl", "MakDermott", "Yunokal" şirkətləridir. Amerikanın bu beş böyük neft şirkəti bizim həyata keçirəcəyimiz layihənin sərmayəsinin demək olar ki, 47 faizini təmin edir. Deməli, layihənin 47 faizi Amerika şirkətlərinə məxsusdur. Ona görə də indi Amerikanın neft şirkətləri ilə Azərbaycan [388-389] arasında sıx iqtisadi əlaqələr qurulubdur. Bu müqavilə 30 il müddətinə bağlanıbdır. Həmin müddətdə Azərbaycanın üç neft yatağından çox böyük miqdarda neft çıxarılacaq və bu şirkətlər arasında paylanacaqdır. Şübhəsiz ki, Qərb şirkətləri bunu Qərbə ixrac edəcəklər. Bunun üçün bir il ərzində ilkin neftin nəql olunması, yəni xaricə çıxarılması üçün neft kəmərinin marşrutunu müzakirə etdik.

Müqavilənin həyata keçirilməsi nəticəsində 1996-cı ilin sonunda ilkin neft alınacaqdır. Həmin neftin xaricə çıxarılması məsələsi çox mühüm problemdir. Biz bunu xeyli müzakirə etdik və oktyabrın 9-da Bakıda bütün şirkətlərin hamısı birlikdə yekdil qərar qəbul etdi. Qərara alındı ki, bu neftin ixracı üçün ilkin neft kəmərindən istifadə olunsun. Boru kəmərlərinin biri Rusiyadan, başqa bir kəmər isə Gürcüstandan keçməklə Qara dənizə – biri Novorossiysk, digəri isə Supsa limanlarına çıxacaqdır.

Beləliklə, hesab edirəm ki, biz çox düzgün qərar qəbul etdik. Əminəm ki, bu qərar Azərbaycanda çıxarılan ilkin neftin ixracını təmin edəcəkdir.

Ancaq gələcəkdə, bir neçə il sonra çıxarılacaq neftin ixracı üçün də boru xəttinin çəkilməsi barədə düşünürük. Bildiyiniz kimi, bu barədə əsas fikirlərimizdən biri odur ki, həmin boru kəməri Türkiyə ərazisindən keçməklə Ceyhana çəkilsin. Amma bu barədə başqa təkliflər də var. Biz bunun da üzərində işləyirik.

Bir sözlə, bu məlumatları sizə verməkdə məqsədim odur biləsiniz ki, biz müqaviləni imzalamışıq. Ancaq bu müqavilə kağız üzərində qalmayıb, həyata keçirilir.

Oktyabrın 9-da konsorsiumun iclasında gələn il üçün büdcə müəyyənləşdirilibdir. Gələn ildən bu şirkətlər müqavilənin həyata keçirilməsi üçün 750 milyon dollar sərmayə qoyurlar. Get-gedə bu sərmayə artacaq və şübhəsiz ki, neft çıxarılacaq və ondan həm konsorsiumun üzvü olan şirkətlər, həm də Azərbaycan Respublikası mənfəət götürəcəkdir. Güman edirəm ki, bu müqavilənin həyata keçirilməsi Azərbaycanın iqtisadiyyatına xeyli kömək edəcəkdir.

Ancaq bizim iqtisadiyyatımız təkcə neftdən ibarət deyil, iqtisadi potensialımız böyükdür, təbii sərvətlərimiz zəngindir, ona görə də biz dünya şirkətlərini, beynəlxalq maliyyə mərkəzlərini Azərbaycana dəvət edirik. Biz onların respublikamıza [389-390] gəlməsinə maraq göstəririk və hər biri ilə Azərbaycanda əməkdaşlıq etməyə hazırıq.

Bir də qeyd edirəm ki, biz ölkəmizin iqtisadiyyatını sərbəst bazar iqtisadiyyatı əsasında qururuq, ona görə də hər bir şirkətin Azərbaycana gəlməyə imkanı var.

Siz Amerikada yaşayırsınız, yaxşı bilirsiniz ki, hər bir şirkət sərmayə qoymaq üçün o ölkədə ictimai-siyasi vəziyyətin sabit olmasını istəyir. Azərbaycanda müharibə getdiyinə görə və son illər vəziyyət sabit olmadığına görə bir çox şirkətlər ölkəmizə gəlmək istəsələr də, ancaq ehtiyat etmişlər. Bu gün sizə deyə bilərəm ki, Azərbaycanın daxilində ictimai-siyasi vəziyyət tamamilə sabitdir.

Doğrudur, bu, asan olmayıb. Bilirsiniz ki, iki il yarım əvvəl mən Azərbaycanın rəhbərliyinə gəlmişəm. 1993-cü ilin iyun ayında Azərbaycan təhlükəli bir vəziyyətdə idi. Azərbaycanda vətəndaş müharibəsi başlayırdı, insanlar bir-birini qırırdı, qan tökülürdü. O ağır dövrdə – bir silahlı dəstənin o biri silahlı dəstənin üstünə getdiyi, dövləti devirdikləri vaxtda məni Azərbaycana dəvət etdilər. Bilirsiniz ki, mən uzun müddət Azərbaycandan təcrid olunmuşdum. Bakıda yaşamırdım. Dəvət etdilər, mən də Azərbaycan xalqı ilə bağlı olduğuma görə – bu, mənim doğma xalqımdır, Vətənimdir, torpağımdır – xalqı bu ağır vəziyyətdən çıxarmaq üçün dəvəti qəbul etdim, Bakıya gəldim. Sonra məni prezident seçdilər və iki il yarımdır ki, işləyirəm.

Bu iki il yarım Azərbaycanda ictimai-siyasi vəziyyəti sabitləşdirmək üçün çox ağır bir dövr olub: birincisi, o vətəndaş müharibəsini sovuşdurmaq lazım idi. Bu, asan məsələ deyildi. Biz buna nail olduq. Ancaq bundan sonra ayrı-ayrı silahlı dəstələr, qruplar vəzifə, mənsəb ələ keçirmək üçün, öz şəxsi məqsədlərinə nail olmaq üçün yenə də dövlət çevrilişləri etməyə çalışdılar. Keçən ilin sentyabr ayında mən burada – Nyu-Yorkda idim. Gəlib BMT-nin toplantısında ilk dəfə nitq söyləmişdim. Amma mən Bakıya qayıdarkən Azərbaycanda iki böyük dövlət xadimimiz – parlament başçısının müavini Afiyəddin Cəlilova və Xüsusi İdarənin rəisi polkovnik Şəmsi Rəhimova qarşı terror etdilər, onları öldürdülər. Mən Bakıya qayıdan kimi dövlət çevrilişinə cəhd başlandı. Bilirsiniz ki, mən xalqa müraciət etdim. Çevrilişin qarşısını aldıq.

O vaxtdan bir il keçib. Bu bir il müddətində yenə də iki dəfə dövləti devirmək, Azərbaycan prezidentini öldürmək istə[390-391]yiblər. Ancaq bunların hamısının qarşısını almışıq, alırıq. Bilirəm ki, ürəyiniz ölkəmizlə bir vurur. Ona görə də mən sizə deyə bilərəm, – bir azərbaycanlı kimi arxayın olun. Doğrudur, Azərbaycanda belə cinayətkar qruplar hələ var, fəaliyyət göstərirlər. Ancaq xalq onların qarşısını ala bilir. Ən vacibi odur ki, dövlət öz dövlətçiliyini qoruya bilir və biz dövləti devirmək istəyən belə terrorçu qüvvələrin qarşısını alırıq.

Biz bu çevrilişin qarşısını aldıq. Bir çox adamlar həbs olundular, indi məhkəmə qarşısında duracaqlar. Onlardan bəziləri qaçaraq Moskvada və digər yerlərdə gizlənirlər. Azərbaycana qarşı yenə də təxribat işləri görürlər. Ancaq bunların hamısının qarşısı alınıb və alınacaqdır.

Mən buraya yola düşməmişdən iki gün əvvəl böyük bir terror aktının üstü açıldı. Bir il əvvəl edilmiş terrorun cinayətkarları tapıldı və onlar həbs olundular. Bu məsələ artıq açılıb. Bu terroru edənlər bu ilin martında dövlət çevrilişi etmək istəyənlər idi. Onlar tək özləri deyildilər, onları xaricdən, ayrı-ayrı ölkələrdən də idarə edirdilər. Daxili işlər nazirinin keçmiş müavini Rövşən Cavadov və onun qardaşı Mahir Cavadov ayrı-ayrı siyasi qüvvələrlə birləşərək hökumətin üzərinə hücum etdilər. Azərbaycanın prezidentini öldürməyə və dövləti ələ almağa çalışdılar. Biz bunun qarşısını aldıq. Ancaq keçən il sentyabrın 30-da olan terrorun üstü indiyədək açılmamışdı. İndi açılıb, terror edən həmin adamlar həbs olunublar, ələ keçiblər, məhkəmə qarşısında duracaqlar.

Demək istəyirəm ki, bizim xarici düşmənimiz – Ermənistan silahlı qüvvələri yeddi ildir Azərbaycanı dağıdır, bir də ki, təəssüflər olsun, xalqımızın içərisində ayrı-ayrı qruplar bir-biri ilə vuruşurlar. Bu yeddi il içərisindəki daxili çəkişmələr, vuruşmalar Azərbaycanın Ermənistan qarşısında məğlub olmasının, yəni torpaqlarımızın bir hissəsinin işğal edilməsinin əsas səbəblərindən biri olubdur.

Biz bunların qarşısını almışıq. İndi Azərbaycanda sakitlikdir. İnsanlar sərbəst yaşayırlar. Doğrudur, çətin yaşayırlar. İqtisadi vəziyyət ağırdır. Əhalinin bir qismi kasıbçılıq içərisindədir. Ancaq insanlar mənəvi cəhətdən rahat yaşayırlar, sabit şərait yaranıb. Ona görə də Azərbaycana gəlin. Azərbaycana rahat gəlməyə, qohum-əqrəbalarınızla görüşməyə əvvəlki illərdən indi daha yaxşı şərait yaranıbdır.

Mən burada olduğum müddətdə bir çox dövlət başçıları ilə görüşəcəyəm. O cümlədən ABŞ-ın prezidenti Bill Klintonla [391-392] mənim görüşüm olacaq. Başqa dövlət başçıları ilə də görüşlərim olacaqdır. Bu görüşlərimizdə şübhəsiz ki, həm ikitərəfli, dövlətlərarası əlaqələrin inkişaf etdirilməsi məsələləri, həm də Ermənistan-Azərbaycan münaqişəsinə son qoyulması məsələləri müzakirə ediləcəkdir. Bir daha deyirəm ki, bu münaqişəyə son qoyulması yalnız bizim şərtlərimiz əsasında – Azərbaycanın işğal edilmiş ərazilərinin azad olunması, qaçqın düşmüş vətəndaşlarımızın öz yerlərinə, yurdlarına qayıtması nəticəsində mümkün ola bilər. Bu məsələlər cənab Bill Klintonla da, başqa dövlət başçıları ilə də müzakirə ediləcəkdir. Ola bilər ki, Ermənistan prezidenti Ter-Petrosyan ilə də mənim görüşüm olsun. Hər halda Nyu-Yorkda bir neçə gün çox gərgin çalışacağıq, işləyəcəyik. Güman edirəm ki, işlərimiz səmərəli olacaqdır.

Mən sizinlə görüşməyimdən bir daha məmnun olduğumu bildirirəm. Hamınıza cansağlığı, xoşbəxtlik arzulayıram.

Biz burada Türk evindəyik. Türkiyə dost və qardaş ölkəmizdir. Türkiyə bizim öz məmləkətimizdir. Yəni Azərbaycandan Türkiyəyə gələn hər bir adam özünü öz məmləkətində hiss edir. Türkiyədən Azərbaycana gələnlər də özlərini öz məmləkətlərində hesab edirlər.

Nyu-Yorkdakı Türk evinə mən ikinci dəfədir ki, gəlirəm, doğma evimiz kimi gəlirəm. Ev sahiblərinin burada Azərbaycan ilə Türkiyə arasındakı dostluğun, qardaşlığın inkişaf etdirilməsi üçün göstərdikləri səylərə, gördükləri işlərə öz hörmət və ehtiramımı bildirmək istəyirəm. Biz dostuq, qardaşıq. Mən buraya gələrkən bu gün bir saat, saat yarım İstanbulda oldum. Orada bir neçə rəhbər şəxslərlə görüşdüm. İki gün bundan əvvəl hörmətli dostumuz Süleyman Dəmirəllə telefonla danışdım. Türkiyənin prezidenti Süleyman Dəmirəl də sabah buraya gələcəkdir. Onunla da görüşlərimiz olacaq. Yəni bizim aramızda olan dostluq, qardaşlıq əlaqələri tarixi köklər üzərində qurulub. Ancaq yeni dövrdə bu əlaqələr inkişaf edir, böyüyür və hər birimiz bu əlaqələrin inkişaf etməsinə çalışmalıyıq. Azərbaycanın prezidenti kimi bundan sonra da çalışacağam. [392-393]

## BMT-nin 50 İLLİYİ YUBİLEYİ İLƏ ƏLAQƏDAR BMT BAŞ MƏCLİSİNİN XÜSUSİ TƏNTƏNƏLİ İCLASINDA ÇIXIŞ

*Nyu-York,*

*22 oktyabr 1995-ci il*

Hörmətli sədr!
Hörmətli dövlət və hökumət başçıları!
Hörmətli baş katib!
Xanımlar və cənablar!

Bütün dünyada sülhün, təhlükəsizliyin və sabitliyin möhkəmlənməsinə çox böyük töhfələr vermiş Birləşmiş Millətlər Təşkilatının əlli illiyi münasibətilə mən sizi Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Birləşmiş Millətlər Təşkilatının yaradılmasından keçən yarım əsr ərzində böyük müsbət dəyişikliklər baş vermişdir. Bu da dünyanın əsaslı şəkildə yeniləşməsini və BMT Nizamnaməsinin prinsiplərinin əməli surətdə həyata keçirilməsini sübut edir.

Ən başlıca nəticə budur ki, "soyuq müharibə" illərindəki kəskin qarşıdurmaya baxmayaraq, yeni dünya müharibəsinin meydana çıxmasına yol verilməmişdir. Müstəmləkəçilik, aparteid, irqi ayrı-seçkilik keçmişdə qalmışdır. Xalqlar öz talelərini həll etmək imkanı qazanmışlar, milli azadlıq və dövlət müstəqilliyi əldə etmişlər.

Vaxtilə Sovetlər İttifaqının tərkibində olmuş respublikaların indi dövlət müstəqilliyi və suverenlik qazanmaları tarixi hadisədir.

Ümumbəşəri dəyərlər dünyada geniş yayılır və bərqərar olur. Bunların arasında azadlıq, demokratiya və insan haqları ideyaları xüsusi yer tutur. İctimai-siyasi və dövlət quruculuğunda, iqtisadiyyatda, həyatın bütün sahələrində demokratik dəyişikliklər həyata keçirmək zərurəti çox ölkələr üçün ən vacib amil olmuşdur.

BMT-nin bütün üzvləri, xüsusən iqtisadi cəhətdən inkişaf etmiş və demokratik ənənələri olan iri dövlətlər bu nəticələrin əldə olunması üçün öz töhfələrini vermişlər. Lakin burada xüsusi rol Birləşmiş Millətlər Təşkilatına məxsusdur. O, 50 il [393-394] ərzində bəşəriyyətin tarixində ən nüfuzlu və ən səlahiyyətli beynəlxalq təşkilata çevrilmişdir.

Ümidvaram ki, bu təşkilatın işi üçün meydana çıxmış maliyyə çətinlikləri onun gələcək uğurlu fəaliyyəti naminə aradan qaldırılacaqdır.

Bütün bunlar bizi sevindirir və bizdə iftixar hissi doğurur. Ancaq dünya hələ də tam təhlükəsiz, mükəmməl və ideal vəziyyətdə deyildir. Elə problemlər var ki, bunlar köklü şəkildə həll olunmalıdır. Dövlətlər arasındakı münasibətlərdə beynəlxalq hüquq normalarının pozulması, beynəlxalq terrorizm, kütləvi qırğın silahlarının yayılması, aclıq və səfalətin aradan qaldırılması, ekoloji fəlakətlərin qarşısının alınması məhz belə problemlərdir. Dünyanın bir çox regionlarında qanlı müharibələrə, milyonlarla insanların saysız-hesabsız əzab-əziyyətlərinə səbəb olan təcavüzkar millətçilik və separatizm halları sülh üçün böyük təhlükədir.

Ermənistan Respublikası tərəfindən Azərbaycana qarşı təcavüzkarlıq yeddi ildən çoxdur ki, davam etməkdədir. Bu təcavüz ölkəmizin Dağlıq Qarabağ bölgəsini qəsb etmək məqsədi daşıyır. Erməni silahlı qüvvələri Azərbaycan ərazisinin iyirmi faizindən çox hissəsini işğal edib, həmin ərazilərdən zorla qovulmuş bir milyondan çox vətəndaşımız qaçqına çevrilib, hazırda çadır şəhərciklərində ağır, dözülməz vəziyyətdə yaşayır. BMT Təhlükəsizlik Şurası Ermənistan silahlı qüvvələrinin işğal etdikləri Azərbaycan torpaqlarından qeyd-şərtsiz çıxarılmasını tələb edən dörd qətnamə qəbul edib. Ancaq həmin qətnamələr təcavüzkar tərəfindən yerinə yetirilmir. Buna görə də ATƏT-in Minsk qrupu çərçivəsində münaqişənin sülh yolu ilə nizamlanması üçün aparılan proses hələlik istənilən nəticələri vermir.

Hörmətli dövlət və hökumət başçıları, mən bu gün sizə, Birləşmiş Millətlər Təşkilatına, ATƏT-ə müraciət edərək, Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə nizamlanmasına, Azərbaycanın ərazi bütövlüyünün, onun beynəlxalq miqyasda tanınmış sərhədlərinin toxunulmazlığının bərpa olunmasına təsirli yardım göstərməyinizi xahiş edirəm.

Azərbaycan xalqının iradəsini ifadə edərək bəyan edirəm [394-395] ki, biz yer kürəsinin hər hansı bir nöqtəsində və hər hansı bir formada təcavüzkarlığı pisləyirik. Biz sülh istəyirik. Biz bütün dünyada sülh istəyirik, bizim regionda sülh istəyirik, bütün qonşu dövlətlərlə sülh və mehriban münasibətlər istəyirik. Bu ümidlərlə, bu inamla mən bu şərəfli kürsünü tərk edirəm.

Diqqətinizə görə sağ olun! [395-396]

## BMT-nin 50 İLLİYİ İLƏ ƏLAQƏDAR YUBİLEY TƏNTƏNƏLƏRİ ZAMANI ABŞ-ın NÜFUZLU MƏTBUAT ORQANLARI VƏ İNFORMASİYA AGENTLİKLƏRİNİN MÜXBİRLƏRİNƏ MÜSAHİBƏ

*Nyu-York*

*24 oktyabr 1995-ci il*

**Sual: Prezident Klintonla görüşünüz necə keçdi? Azərbaycan öz müstəqilliyinin qorunub saxlanmasında, habelə neft məsələlərinin həllində ABŞ tərəfindən ehtiyac hiss etdiyi dəstəyi ala bildimi ?**

**Cavab:** ABŞ prezidenti cənab Bill Klintonla mənim görüşüm və söhbətlərim, hesab edirəm ki, çox yaxşı keçdi. Mən bu görüşdən məmnunam. Söhbətlərimiz çox mehriban, qarşılıqlı anlaşma və hörmət şəraitində getdi. Həm Amerikanı, həm də Azərbaycanı maraqlandıran əsas məsələlər ətrafında fikir mübadiləsi apardıq.

Əsas mövzulardan biri Azərbaycana məxsus neft yataqlarının işlənilməsində ABŞ şirkətlərinin iştirakı, bir il bundan öncə imzalanmış neft müqaviləsinin əməli surətdə həyata keçirilməsi və ilkin neftin ixracı üçün boru kəmərlərinin marşrutu barədə qəbul edilmiş qərar idi. Cənab Bill Klinton bu sahədə Azərbaycanla olan əməkdaşlığa yüksək qiymət verdi. Xüsusən ilkin neftin ixracı üçün eyni zamanda iki marşrutun seçilməsi və həmin kəmərlərin istifadəyə verilməsi haqqında oktyabrın 9-da qəbul olunmuş qərarı çox yüksək qiymətləndirdi.

Bilirsiniz ki, bu ayın əvvəlində cənab Bill Klintonla bizim telefon danışığımız olmuşdur. Həmin söhbətimizdə də bu məsələlərə başlıca diqqət yetirmişdik. İndi artıq deyə bilərəm ki, bu sahədə qarşımızda duran məsələlər həll olunmuşdur.

Cənab Bill Klintonla danışıqlarımızın çox hissəsi Ermənistanla Azərbaycan arasındakı hərbi münaqişəyə son qoyulması və sülh yaranması ilə əlaqədar idi. Hesab edirəm ki, Amerika Birləşmiş Ştatları və ələlxüsus, şəxsən prezident cənab Bill Klinton bu məsələlərlə daha ciddi və daha yaxından məşğul olmağa başlayıblar. Danışıqlar zamanı bu barədə də fikir mü[396-397]badiləsi aparıldı və sülhə doğru irəliləyiş üçün məsələnin mərhələlərlə həlli haqqında tam fikir eyniliyi oldu.

Mən bu gün səhər Ermənistan prezidenti cənab Levon Ter-Petrosyanla da görüşüb söhbət etmişəm. Bu görüş təkbətək oldu. Biz vəziyyətdən çıxmağın yolları barədə ikilikdə, şahidsiz, vasitəçisiz müzakirələr apardıq. Mən bu barədə cənab Bill Klintona ətraflı məlumat verdim. Cənab Bill Klintonla danışığımız və gəldiyimiz nəticə ondan ibarətdir ki, artıq müharibəyə son qoyulmalıdır.

Bilirsiniz ki, Ermənistan ilə Azərbaycan arasındakı münaqişə yeddi ildən çoxdur davam edir. Yeddi il gedən müharibədə biz ilk dəfə uzunmüddətli atəşkəs rejimi əldə etmişik. 1994-cü ilin mayında atəşkəs haqqında saziş imzalamışıq və on yeddi aydır ki, ona riayət edirik. Sizə bildirmək istəyirəm ki, dünya təcrübəsində və xüsusən silahlı münaqişələr tarixində, zənnimcə, ilk dəfədir ki, münaqişədə olan tərəflər heç bir vasitəçi, yəni xarici qüvvə, yaxud sülhyaratma qüvvələri olmadan atəşkəs rejimini qoruyub saxlayırlar.

Bu, nadir bir haldır və eyni zamanda onu göstərir ki, mən bu barədə cənab Bill Klintona həm məlumat verdim, həm də fikrimi dedim, – münaqişədə olan tərəflərin bir-birinə inamı hələ tam itməyibdir. Yəni hər iki tərəfi təmin edə biləcək şərtlər çərçivəsində böyük sülh əldə olunsa, onu qoruyub saxlamaq və uzunmüddətli etmək üçün çox yaxşı əsas var. Biz bu halı qiymətləndirməli və qorumalıyıq. Bu gün cənab Ter-Petrosyan da, mən də bizim mətbuat nümayəndələrinin qarşısında bəyan etdik ki, atəşkəs rejiminə bundan sonra da əməl edəcəyik.

Bir də qeyd edirəm, mən bu barədə cənab Bill Klintonla danışarkən biz bu məsələnin həll olunmasının yollarını araşdırdıq. Bu məsələnin həyata keçirilməsi üçün müəyyən təkliflər, yəni müəyyən prinsiplər hazırlanıbdır. Ancaq şübhəsiz ki, bunların üzərində hələ işləmək lazımdır. Biz, o cümlədən şəxsən mən, hesab edirik ki, – bu gün cənab Bill Klintona bunu bir daha dedim, – böyük sülhə nail olmaq üçün birinci növbədə, işğal edilmiş torpaqların azad olunmasına başlanmalıdır.

Azərbaycan ərazisinin iyirmi faizi Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş, bir milyondan artıq vətəndaşımız qaçqın düşmüşdür və onların əksəriyyəti çadırlarda yaşayır. Bu vəziyyətə son qoymaq lazımdır. Məsələni həll etmək üçün Ermənistan silahlı qüvvələri işğal olunmuş torpaqlardan [397-398] çıxmalı və qaçqınlar öz yerlərinə qayıtmalıdırlar. Eyni zamanda nəqliyyat xətlərinin, başqa kommunikasiya vasitələrinin bərpasına başlanmalıdır. Nəhayət, Dağlıq Qarabağda olan ermənilərin təhlükəsizliyinin təmin edilməsi üçün şərait yaradılmalı, Azərbaycan Respublikasının Konstitusiyası Dağlıq Qarabağa Azərbaycanın ərazisi çərçivəsində muxtariyyət statusu verməlidir.

Azərbaycanın ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığı başlıca prinsipdir və mütləq bizim bütün işlərimizin əsasında dayanmalıdır. Bu məsələlərin hansı ardıcıllıqla və necə həll edilməsi barədə bundan sonra

hələ iş gedəcəkdir. Ancaq danışıqlarımızın əsas məzmunu ondan ibarətdir ki, biz atəşin yenidən başlanmasına yol verməməliyik və mütləq böyük sülh əldə etməliyik. Amerika Birləşmiş Ştatları burada çox böyük və həlledici rol oynaya bilər.

Şübhəsiz ki, bunlar hamısı Azərbaycanın müstəqil dövlət kimi qorunub saxlanması üçün də böyük şərtdir. Azərbaycan iqtisadiyyat sahəsində Qərb şirkətləri, xüsusən ABŞ şirkətləri ilə artıq uzunmüddətli əməkdaşlığa başlayıbdır. Bizim imzaladığımız neft müqaviləsi otuz il müddətinə nəzərdə tutulmuşdur. Sizə məmnuniyyətlə deyə bilərəm ki, ötən bir il üçün müqavilədə nəzərdə tutulmuş plan tamamilə həyata keçirilib. 1996-cı ildə görüləcək işlər üçün neft şirkətləri 750 milyon dollar həcmində büdcə təsdiq ediblər. Nəzərdə tutulmuş iki neft kəməri gələn ilin sonunadək hazır olmalı, müqaviləyə əsasən ilkin neft hasil edilməlidir.

Ancaq bizim əməkdaşlığımızın hüdudları get-gedə genişlənir. Dünən mən Amerikanın "Mobil" şirkətinin prezidenti ilə görüşdüm. Bu şirkət neft konsorsiumuna daxil deyildir, lakin Azərbaycanın bir neçə neft yatağında iş görmək istəyir. Mən prinsip etibarilə buna razılıq verdim və onlar öz təkliflərini yaxın günlərdə mənə yazılı surətdə təqdim edəcəklər. Beləliklə, yenə də deyirəm, Amerika Birləşmiş Ştatlarının Azərbaycanla olan iqtisadi əlaqələri uzunmüddətlidir və hesab edirəm ki, bu əməkdaşlıq müvəffəqiyyətlə həyata keçirilərkən yeni-yeni imkanlar da yaranacaqdır. Mən bu əməkdaşlığın tərəfdarıyam, onu davam etdirmək üçün öz tərəfimdən bütün səyləri göstərəcəyəm.

**Sual: Sizcə, Rusiya bu əməkdaşlığın davam etməsinə imkan verəcəkmi ? Sizə elə gəlmirmi ki, ruslar elə vəziyyət yaradacaqlar ki, Şevardnadze kimi, siz də** [398-399] **ölkənizdən kənara çıxa bilməyəcəksiniz ? Azərbaycan Rusiyanın təsirindən qoruna biləcəkmi ?**

**Cavab:** Bilirsiniz, vəziyyət elədir ki, mən də Azərbaycanda o qədər asan şəraitdə yaşamıram. Siz bilirsiniz ki, Azərbaycanda işlədiyim müddətdə orada iki dəfə dövlət çevrilişi üçün çox təhlükəli cəhd göstərilibdir. Onlardan biri elə keçən il mən Nyu-Yorkda olarkən hazırlanmışdı və mən Azərbaycana qayıtdıqdan iki gün sonra baş verdi. Yəqin eşitmişdiniz, mən Nyu-Yorkda olarkən, keçən il sentyabrın 30-da terrorçular Bakıda bizim iki nəfər çox görkəmli dövlət xadimimizi parlament sədrinin müavini Afiyəddin Cəlilovu və Təhlükəsizlik üzrə Xüsusi İdarənin rəisi polkovnik Şəmsi Rəhimovu bir gündə qətlə yetirdilər. Mən o vaxt bu xəbəri Nyu-Yorkda olarkən aldım.

Bakıya gedərkən İstanbulda dayandım, çünki orada başqa təyyarəyə minirəm. Orada müxbirlərin bəziləri mənə hətta sual verirdilər, güman edirdilər ki, mən qorxacaq və artıq Azərbaycana qayıtmayacağam. Ancaq bu terrorlar, şübhəsiz ki, məni qorxuda bilməzdi. Mən Bakıya gəldim, lakin iki gün sonra dövlət çevrilişi cəhdi başlandı. Vəziyyət çox gərgin idi. Mən gecə televiziya ilə xalqa müraciət etməyə məcbur oldum. Yüz minlərlə adam ayağa qalxaraq məni, yəni dövləti qorudu. Çevriliş cəhdi edən cinayətkarların bir qismi həbs olunub, amma bir qismi qaçıbdır və indi Moskvada gizlənirlər.

Sonra, bu ilin martında mən Kopenhagenə getmişdim. Oradan qayıdarkən hava limanında məni terror vasitəsilə öldürüb yenə dövlət çevrilişi törətmək planları qurulmuşdu. Martın 12-də mən Kopenhagendən Bakıya qayıtdım. Doğrudur, hava limanında mənə qarşı terror edə bilmədilər, ancaq Azərbaycan bir həftə çox gərgin dövr yaşadı. Hətta bəzi xarici ölkələrin səfirlikləri öz əməkdaşlarını Bakıdan çıxarırdı. Çünki narahat idilər ki, burada dövlət çevrilişi, vətəndaş müharibəsi başlayar, öz əməkdaşlarının təhlükəsizliyini təmin edə bilməzlər. Mən çox çalışdım ki, bu çevriliş cəhdinin qarşısını sülh yolu ilə alım. O vaxt artıq bir çox qüvvələr, o cümlədən bir neçə xarici ölkədə yerləşən qüvvələr birləşmişdilər. Onlar prezidenti aradan götürüb dövlət şurası yaratmaq planı hazırlamışdılar.

Bunun da qarşısını aldıq. Düzdür, bu dəfə qan töküldü, ordumuzun bəzi əsgərləri həlak oldular, şəhid oldular, amma dövləti qoruyub saxladıq. Çevriliş cəhdi iştirakçılarından bəziləri həlak oldu, bəziləri həbs edildi, bəziləri isə qaçdılar. On[399-400]lar da xarici ölkələrdə, o cümlədən Moskvada yerləşirlər. Hələ də təminat yoxdur ki, mənə qarşı terror etməyəcəklər. Amma bu məni qorxutmur. Mən bunu Azərbaycanın bütün ictimaiyyətinə dəfələrlə demişəm. Ona görə də, siz dediyiniz kimi, Rusiya, yaxud başqası olsun, nə isə etmək istəsə, – ola bilər etsin, – güman edirəm ki, biz dövlətimizi qoruyub saxlayacağıq, müstəqilliyimizi saxlayacağıq.

Mən bu gün Ukrayna prezidenti cənab Leonid Kuçma ilə görüşdüm. Cənab Leonid Kuçma Bakıda olarkən terrorçular körpünü partladıb həm məni, həm də Leonid Kuçmanı tələf etmək istəyirdilər. O vaxt bunun qarşısı alındı. Həmin körpünün altından 170 kiloqram partlayıcı maddə çıxarıldı. Bunları oraya metal qutularda qoymuşdular və partlayış uzaqdan idarə olunmaqla törədilməli idi. Yenə deyirəm, bunun qarşısını aldıq. Cinayətkarların bir qismi həbs olunub. Dövlət çevrilişi etmək istəyənlərdən bir general indi Ukraynadadır. O, azərbaycanlıdır. Bu terror hərəkəti ilə onun əlaqəsi var. Ancaq sonra çıxıb Ukraynaya getmişdi. Biz onu orada həbs etmək istədik. Cənab Leonid Kuçma mənə dedi ki, o, bundan dərhal xəbər tutaraq qaçmışdır. İndi Moskvadadır. Amma onun arvadını həbs ediblər.

**Sual: Başqa sözlə desək, Moskva keçmişdə olduğu kimi, hələ də bu regiona təsir göstərməkdə davam etməkdədir və regionu öz təsir dairəsində saxlamaq niyyətindədir. Bu fikir doğrudurmu ?**

**Cavab:** Bilirsinizmi, mən hər bir belə hadisəni Moskvanın ümumi siyasəti ilə bağlamaq istəmirəm. Belə cinayətkarların Moskvada sığınacaq tapmaları və rahat yaşayaraq Azərbaycana qarşı təxribat işləri görmələri, şübhəsiz ki, müəyyən fikirlər doğurur.

**Sual: Siz həmin adamların Moskvadan geri alınmasına, həbs olunmasına cəhd göstərmisinizmi ?**

**Cavab:** Göstərmişik, ancaq bunlar bir nəticə verməmişdir. Bayaq dediyim kimi, hətta o generalı Ukraynada həbs etmək istədik, amma tez aradan çıxa bildi.

**Sual: Mən belə başa düşürəm ki, Azərbaycandan böyük neftin ixracı, Azərbaycan neftinin uzun müddət ərzində xarici bazarlara çatdırılması məsələsində Rusiya həlledici rol oynaya bilməyəcəkdir. Siz buna necə baxırsınız və bu məsələlər cari vəziyyətə necə təsir edir?** [400-401]

**Cavab:** Bilirsiniz, heç bir şey demək olmaz ki, kim həlledici rol oynayacaq, kim oynamayacaq. Mən onu deyə bilərəm ki, biz öz siyasətimizdə sabitik. Sabit müstəqil siyasət aparırıq. Mən Azərbaycanı müstəqil dövlət kimi yaşatmağa çalışıram. Hesab edirəm ki, Azərbaycan xalqının tarixində müstəqillik qədər yüksək qiymətli heç bir şey yoxdur. Amma bu, asan deyil, çünki uzun illər başqa bir dövlətin tərkibində olmuş, yenidən müstəqillik qazanmış, eyni zamanda böyük təbii sərvətlərə malik olan Azərbaycanın müstəqil yaşamasına maneçilik törədən qüvvələr çoxdur. Amma bu maneələrə baxmayaraq, biz öz müstəqilliyimizi qoruyacağıq. Ola bilər, başımıza yeni çətin hadisələr gəlsin, çünki bu yol çox çətin yoldur. Ancaq bizim iradəmiz dönməzdir. Güman edirəm, biz buna nail olacağıq.

**Sual: İlkin neftin ixracı üçün iki neft kəmərinin. çəkilməsi haqqında qərara qayıdaraq sizə bir-iki sual vermək istəyirəm. Sizcə, Rusiya nefti Çeçenistandan necə apara biləcəkdir ? İkincisi, Rusiya Şevardnadzeyə imkan verəcəkmi ki, o, Gürcüstandan bu kəməri çəkib qurtara bilsin ? Nəhayət, Gürcüstandan keçəcək kəmərin maliyyələşdirilməsi məsələsi axıradək həll edilibmi ?**

**Cavab:** Biz qərarımızı qəbul etmişik və onu yerinə yetirməyə çalışacağıq. Mən sizə dedim ki, bu, asan olmayacaq. Ancaq mən belə fikirdəyəm ki, biz bunu həyata keçirəcəyik. Gürcüstandan keçəcək neft kəmərinin maliyyə məsələləri konsorsium tərəfindən həll olunacaqdır. Şevardnadze də çalışmalıdır, güman edirəm ki, birlikdə çalışacağıq.

**Sual: Əgər ona uzun ömür qismət olsa...**

**Cavab:** Bizim heç birimizin heç nəyə təminatımız yoxdur. Mənə qarşı olan terrorlar baş tutsaydı, çoxdan dünyadan getmişdim. Amma eyni zamanda bilmirəm ki, sabah nə olacaq. Bəlkə sabah bir terror aktı məni də dünyadan aparacaq. Amma bu, məni siyasi fəaliyyətimdən çəkindirmir.

**Sual: Sizcə, əgər Rusiya neft məsələsinin özü arzuladığı şəkildə həllinə tam nail ola bilməsə, münaqişə regionunda döyüşlərin yenidən başlanmasına çalışacaqmı ? Onlar hərbi əməliyyatların yenidən başlanmasına nail ola bilərlərmi ? Əgər belə cəhd olarsa, sizcə, Amerika Birləşmiş Ştatları bunun qarşısını almaq** [401-402] **üçün nə edə, hansı rol oynaya bilər ? Çünki Qafqaz çox mürəkkəb regiondur.**

**Cavab:** Siz çox mürəkkəb suallar verirsiniz. Soruşursunuz ki, nə ola bilər və nə olarsa, onun qarşısı nə cür alına bilər. Çox şey ola bilər. Amma hər halda, hər dəfə baş verən təhlükənin, yaxud mənfi hadisənin qarşısının nə cür alınması bizim özümüzdən və bizə dost olan ölkələrin bizimlə əməkdaşlığından asılı olacaqdır.

**Sual: Cənab prezident, mən sizinlə prezident Bill Klinton arasında olan ikitərəfli görüşə qayıtmaq istəyirəm. Bildiyimizə görə, prezident Klinton ilkin neftin eyni zamanda iki kəmərlə ixrac olunması barədə sizinlə müzakirələrə hələ əvvəlcədən başlamışdı və siz indi bu haqda söhbətlərinizi davam etdirdiniz. Bəs Azərbaycan qaçqınlarına yardım məsələsi ətrafında hansı söhbətləriniz oldu və Azərbaycana yardım göstərilməsini qadağan edən 907 nömrəli qərarın ləğvi barədə prezident Klinton sizə bir şey təklif etdimi ?**

**Cavab:** Çox yaxşı sual verdiniz, buna görə sizə təşəkkür edirəm. Biz bu məsələni cənab Bill Klintonla ətraflı. müzakirə etdik. Onu demək istəyirəm ki, üç il bundan öncə Konqres Azərbaycana qarşı çox ədalətsiz bir qərar qəbul etmişdir. Mən hesab edirəm, Konqres indi artıq özü də başa düşür ki, bu, çox ədalətsiz qərardır. Birinci, onu bilmək lazımdır ki, bu qərar Azərbaycanı ağır vəziyyətə saldı, amma Azərbaycan diz çökmədi. Ona görə tarixi nöqteyi-nəzərdən bu qərar öz əhəmiyyətini itirib.

Mən bu gün cənab Bill Klintona dedim ki, siz bizim Qafqaz regionunda Gürcüstana, Ermənistana yardım edirsiniz, amma Azərbaycana etmirsiniz. Bu üç ölkədən Amerika ilə ən çox iqtisadi əməkdaşlıq edən Azərbaycandır. Belə olan halda, Azərbaycanın ərazisində bir milyondan artıq qaçqın olduğu halda böyük, ədalətli bir dövlət kimi Amerika Gürcüstana, Ermənistana etdiyi yardım səviyyəsində, yaxud, heç olmasa, bunun yarısı həddində Azərbaycana da gərək yardım göstərəydi. Ancaq prezident Klintonun əlləri bağlıdır, Konqres onun qarşısında sədd qoyub və o, bu səddi keçə bilmir. Mən hesab edirəm ki, cənab Bill Klinton da bu qərarın nə qədər ədalətsiz olduğunu hiss edir və etiraf edir. Amma ölkənizin qayda-qanunlarını siz məndən yaxşı bilirsiniz. [402-403]

**Sual: Cənab prezident, Klinton prezidentdir və bu qərar ədalətsizdirsə, onun aradan qaldırılması üçün mübarizə aparmalıdır.**

**C a v a b:** Güman edirəm ki, mübarizə aparır, amma siz bilirsiniz ki, Konqreslə mübarizə aparmaq prezident üçün əsas məsələ deyildir. Bu, sizin öz işlərinizdir. Ancaq mən hesab edirəm ki, cənab Bill Klinton belə bir

vəziyyətin ədalətsiz olduğunu tamamilə etiraf edir. Cənab Klintonla biz həmin qərarın ləğvi üçün müəyyən əsaslar yaranması haqqında da fikir mübadiləsi apardıq. Arzu edərdim ki, siz mətbuat nümayəndələri də, – Amerikada mətbuatın təsiri çox böyükdür, – bizə bu işdə kömək edəsiniz. Sizə də müraciət edirəm, – ədaləti müdafiə edin.

**Sual: Siz "Mobil" şirkətinin prezidenti ilə görüşdüyünüzü bildirdiniz. Bu şirkət konsorsiuma qoşulmağa maraq göstərdimi ?**

**Cavab:** Yox, konsorsiumdan kənarda əməkdaşlıq etmək istəyir. Çünki konsorsium üç neft yatağının işlənməsi üçün yaradılıbdır. Bizim ayrı neft yataqlarımız da var. Məsələn, bu ayın axırında bir müqavilə imzalayacağıq. Onu "Pennzoyl" şirkəti ilə imzalayacağıq. Ona görə "Mobil" də bizimlə müstəqil əməkdaşlıq etmək istəyir.

**Sual: Bir sıra mülahizələr də dolaşmaqdadır ki, "Tengiz" yatağından çıxarılacaq neftin Azərbaycandan çəkiləcək boru kəmərləri vasitəsilə ixrac olunması gözlənilir. Sizcə, bu variant hələ də qüvvədə qalırmı ?**

**Cavab:** Bəli, orada "Şevron" şirkəti işləyir və o, 'Tengiz" yatağından çıxarılacaq neftin bir hissəsini bizim neft kəməri ilə ixrac etmək barədə təşəbbüs göstərib.

**Sual: Sizcə, bu variant mümkün olacaqmı ?**

**Cavab:** Olacaqdır, mən buna inanıram.

**Sual: İxrac olunacaq neftin həcmi barədə bir məlumat varmı ?**

**Cavab:** Oradan nə qədər neft çıxarılması və bunun nə qədərinin bizim kəmərlə ixrac olunması onlardan asılıdır. Mən indi konkret rəqəm demək istəmirəm. Ancaq prinsip etibarilə biz buna razılıq vermişik.

**Sual: Cənab prezident, bizi Azərbaycanda qarşıdakı parlament seçkiləri də maraqlandırır. Bu seçkilər ətrafında siz prezident Bill Klintonla söhbət** [403-404] **etdinizmi, söhbət zamanı bu məsələ qaldırıldımı ? Azərbaycanda azad, ədalətli, demokratik parlament seçkiləri keçiriləcəkmi ?**

**Cavab:** Bu barədə cənab Bill Klintonla bizim söhbətimiz olmadı. Mən belə başa düşdüm ki, cənab Bill Klintonun bu məsələyə dair bizə sualı yoxdur Biz bu seçkiləri tam demokratik prinsiplər əsasında keçirməyə çalışırıq və buna çox səy göstəririk. Beynəlxalq təşkilatlardan, habelə Amerika Birləşmiş Ştatlarından seçkilərdə iştirak etmək üçün bir çox müşahidəçilər dəvət etmişik. Onların böyük bir qrupu uzun müddətdir ki, Azərbaycandadır. Amerika Birləşmiş Ştatlarının Milli Demokratiya İnstitutu, cənab Letskinin rəhbərlik etdiyi institut Bakıda artıq özünün ofisini açıbdır və onların nümayəndələri fəaliyyət göstərirlər. ATƏT-in nümayəndəsi cənab Maykl Oks, – o da Amerikadandır, – öz qrupu ilə Bakıdadır. BMT-nin bir çox müşahidəçiləri də Bakıdadırlar.

Mən buraya gələndən iki gün öncə müşahidəçilərin hamısı ilə görüşdüm və dörd saat söhbət etdim. Onlar etiraf etdilər ki, heç vaxt belə hadisə ilə rastlaşmamışdılar ki, prezident müşahidəçilərlə bu qədər söhbət aparsın. Mən bəyan etdim ki, meydana çıxan mənfi halların hamısının qarşısı alınacaqdır. Seçkilərin demokratik keçirilməsi, hər bir vətəndaşın, hər bir partiyanın öz hüquqları əsasında seçkilərdə iştirak etməsi üçün şərait yaradılıb və yaradılacaqdır. Müşahidəçilərlə görüşərkən həm Mərkəzi seçki komissiyasının sədrinə, həm də Ali Məhkəmənin sədrinə tövsiyələr verdim ki, bütün şikayətlərə çox ciddi baxsınlar. Dünən xanım Madlen Olbrayt ilə görüşərkən seçkilər barədə söhbətimiz oldu və mən bu məlumatı ona da verdim.

Sizinlə görüşməyimdən çox məmnunam, hər birinizi Azərbaycana dəvət edirəm. İstədiyiniz vaxt bizim qonağımız ola bilərsiniz. Sizə və ümumiyyətlə, jurnalistlərə, mətbuat işçilərinə hörmət və ehtiramımı bildirirəm. Buraya mənimlə də çoxlu mətbuat işçisi gəlmişdir. Onların əksəriyyəti müstəqil jurnalistlərdir, necə istəyirlərsə, o cür də yazırlar. Ancaq mən mətbuatı, jurnalistləri çox sevdiyimə görə həmişə səfərə gedəndə onları özümlə aparıram. Sağ olun. [404-405]

## NEFT KONSORSİUMUNA DAXİL OLAN ABŞ ŞİRKƏTLƏRİNİN AZƏRBAYCANIN DÖVLƏT BAŞÇISININ ŞƏRƏFİNƏ TƏŞKİL ETDİKLƏRİ RƏSMİ QƏBULDA NİTQ

*Nyu-York*

*24 oktyabr 1995-ci il*

Hörmətli cənab konqresmen Qreq Laflin, hörmətli cənab Körtis, hörmətli cənab Kollinz!

Hörmətli xanımlar və cənablar!

Bu gün bu mötəbər məclisdə Azərbaycanı qonaq edənlər, buraya toplaşanlar Amerika Birləşmiş Ştatlarının çox hörmətli şəxsləridir, ABŞ-ın dövlət nümayəndələri, ölkənizin parlamentini təmsil edən nümayəndə və eyni zamanda Amerika Birləşmiş Ştatlarının böyük neft şirkətlərinin rəhbərləri və onların əməkdaşlarıdır. Burada, Nyu-Yorkda, bu möhtəşəm oteldə, çox məşhur binada, məşhur bir yerdə Azərbaycanın nümayəndələrinə, şəxsən Azərbaycanın prezidentinə göstərdiyiniz diqqət və ehtirama görə sizə səmimi-qəlbdən təşəkkürümü bildirirəm. Hamınıza, o cümlədən Amerika Birləşmiş Ştatlarının xalqına məsafəcə uzaq olsa da, sizə qəlbən yaxın olan, dost olan Azərbaycan xalqı adından, Azərbaycan vətəndaşları adından səmimi salamlar çatdırıram.

Mən buraya Birləşmiş Millətlər Təşkilatının 50 illik yubileyi ilə əlaqədar təntənəli mərasimdə iştirak etmək üçün gəlmişəm. Bu günlər dünya tarixində böyük bir hadisə baş verir. 1945-ci ildə, İkinci dünya müharibəsi qurtardıqdan və faşizm üzərində qələbə çalındıqdan sonra Amerika torpağında, San-Fransisko şəhərində 51 dövlətin nümayəndələri yeni bir beynəlxalq təşkilatın – Birləşmiş Millətlər Təşkilatının yaradılması haqqında qərar qəbul etmişlər. Tarixdən məlumdur ki, belə bir təşkilatın yaradılması haqqında hələ İkinci dünya müharibəsi gedərkən, 1942-ci ildə Amerika Birləşmiş Ştatlarında bəyannamə qəbul olunmuşdu. İkinci dünya müharibəsi qurtaran kimi Birləşmiş Millətlər Təşkilatı məhz burada, ABŞ torpağında yarandı və 50 il ərzində dünyada sülhün, əmin-amanlığın keşiyində durur. [405-406]

Şübhə yoxdur ki, Birləşmiş Millətlər Təşkilatının yaranmasında ABŞ-ın, onun mütəfəkkir insanlarının xüsusi rolu olubdur. İki yüz il bundan öncə Amerika torpağında yeni, müstəqil, demokratik bir dövlət yaratmış Corc Vaşinqton kimi, əlli il öncə də Amerika torpağında dünyada demokratiyanı, sülhü, əmin-amanlığı qorumaq üçün yeni böyük bir beynəlxalq təşkilatın yaranmasında Amerika xalqının və Amerikanın mütəfəkkir insanlarının xüsusi xidmətləri var.

Əlli il ərzində BMT böyük fəaliyyət göstərib, inkişaf edib, genişlənibdir. Bu təşkilatı 51 dövlət yaratmışdırsa, indi bu beynəlxalq təşkilatda 184 dövlət birləşibdir. Bu günlərdə Amerika torpağında, Nyu-Yorkda tarixdə ilk dəfə olaraq 184 dövlətin başçıları bu tarixi hadisəni bayram etmək üçün bir araya gəliblər, toplaşıblar. Bəşəriyyət tarixində heç vaxt bu qədər dövlətin, hökumətin başçıları – 184 dövlətin başçıları bir yerə toplaşmamışlar. Amerika Birləşmiş Ştatları BMT-nin yaranmasında böyük rol oynadığı kimi, onun 50 illik fəaliyyətində də ABŞ-ın böyük rolu var. Bu 50 illik yubileyin burada təşkil olunub gözəl, yüksək səviyyədə keçirilməsində də ABŞ-ın çox böyük rolu var.

Bayram təntənələri başlanarkən biz dövlət başçılarından ilk olaraq Amerika Birləşmiş Ştatlarının prezidenti hörmətli cənab Bill Klintonun nitqini çox böyük maraq və diqqətlə dinlədik. BMT-nin bayram məclisində cənab Bill Klintonun söylədiyi nitqi mən tamamilə bəyənirəm, onun bütün müddəaları ilə razılaşdığımı bildirirəm.

Amerika Birləşmiş Ştatları yaşadığı tarix ərzində dünyaya demokratiya, insan azadlığı, siyasi plüralizm, azad sahibkarlıq, bazar iqtisadiyyatı sahəsində böyük təcrübə verdiyi kimi, dövlətlərin, ölkələrin, millətlərin demokratik prinsiplər əsasında əməkdaşlıq etməsi sahəsində də böyük təcrübə verir və çox böyük xidmətlər göstərir. Bütün bunlar dünya xalqlarında, o cümlədən Azərbaycan xalqında, Azərbaycan vətəndaşlarında, Amerika Birləşmiş Ştatlarının dövlət quruluşuna, onun həyat tərzinə, apardığı siyasətə böyük hörmət və rəğbət hissi oyadır. Azərbaycan xalqının bu hörmət və rəğbət hisslərini sizə bildirərək, Amerika Birləşmiş Ştatlarının əldə etdiyi nailiyyətlər münasibətilə və dünyaya bəxş etdiyi demokratiya prinsiplərinin inkişafı münasibətilə sizi və sizin simanızda bütün Amerika xalqını ürəkdən təbrik edirəm. [406-407]

Azərbaycan müstəqil dövlət kimi gənc bir dövlətdir. Biz dörd ildir müstəqil dövlət kimi yaşayırıq. Biz demokratiya yolu ilə gedirik və bu yolu axıra qədər çatdırmaq istəyirik. Həyatımızın bütün sahələrində – həm iqtisadiyyatda, həm ictimai-siyasi sahədə, həm insanların hüquqlarının qorunmasında, – bütün sahələrdə demokratiyanı bərqərar etmək istəyirik. Bu niyyətlərə nail olmaq üçün sizin təcrübənizdən geniş istifadə edirik və Amerikanın təcrübəsi bizim üçün böyük örnəkdir.

Biz sərbəst iqtisadiyyat yolu ilə gedərək qapılarımızı xarici investisiyalar üçün açmışıq. Xüsusən ABŞ şirkətlərinin Azərbaycana gəlməsini çox böyük razılıq hissi ilə qarşılayırıq. Azərbaycanın təbii sərvəti olan neft yataqlarının bir hissəsindən istifadə edilməsi üçün yaradılmış konsorsiumla bir il bundan öncə böyük neft

müqaviləsi imzaladıq. Bu konsorsiuma daxil olan on neft şirkətindən beşi ABŞ-a məxsusdur. Müqavilədə onların payı 47 faiz təşkil edir. ABŞ-ın digər konsorsiuma daxil olmayan neft şirkətləri də gəlib bizimlə əməkdaşlığa başlayıblar.

Konsorsiumda Amerikanın beş şirkəti var: "AMOKO", "Pennzoyl", "YUNokal", "Eksson", "MakDermott". Bu beş şirkətdən əlavə, biz "Oksidental petroleum" şirkəti ilə də əməkdaşlığa başlamışıq. Dünən "Mobil" şirkətinin prezidenti mənimlə görüşüb, o da Azərbaycanda işə başlamaq istəyir. "YUNokal" şirkəti ilə əməkdaşlıq edən "Delta" şirkəti bizim konsorsiuma daxildir. Beləliklə, ABŞ şirkətləri ilə əlaqələrimiz çox genişlənir. Sizə məlumdur ki, bizim konsorsiumda Böyük Britaniyanın "Bi-Pi" şirkəti, Norveçin "Statoyl" şirkəti, Türkiyənin "Türk petrolları" şirkəti, Rusiyanın "LUKoyl" şirkəti də iştirak edir. Beləliklə, bizim konsorsiumumuz çox böyük beynəlxalq bir konsorsiumdur. Amma çoxluq yenə də Amerika Birləşmiş Ştatlarına məxsusdur.

Mən bu gün burada bu şirkətlərin rəhbərləri ilə görüşməyimdən çox məmnun olduğumu bildirmək istəyirəm. Müqavilənin imzalanmasından bir il ötmüşdür və böyük iftixar hissi ilə deyə bilərəm ki, müqavilə əməli surətdə həyata keçirilir. İlkin neftin 1996-cı ilin sonunda çıxarılması nəzərdə tutulubdur və bu yaxınlarda konsorsium tərəfindən mənə verilən məlumatdan tam əmin oldum ki, ilkin neft həmin vaxtda çıxarılacaqdır. İlkin neft ixracı üçün biz iki boru kəmərinin çəkilməsi haqqında qərar qəbul etmişik. Bu qərar Amerika Birləşmiş Ştatlarında və konsorsiumla daxil olan bütün şirkətlərdə, [407-408] onların mənsub olduqları ölkələrdə çox böyük ruh yüksəkliyi ilə qarşılanmışdır. Biz bu qərarın qəbul olunmasını tarixi bir hadisə kimi qeyd edirik. Hesab edirik ki, bu bizim gələcək işlərimiz üçün yaxşı əsas yaradır.

Bu gün mən Amerika Birləşmiş Ştatlarının prezidenti cənab Bill Klintonla görüşümdə bu və başqa məsələlər ətrafında ətraflı söhbət apardım. Bildirmək istəyirəm ki, mən cənab Bill Klintonla bugünkü görüşümdən çox məmnunam, çünki söhbətimiz çox ətraflı, məzmunlu və hesab edirəm ki, gələcək əməkdaşlıq üçün çox əhəmiyyətli oldu. Bu fürsətdən istifadə edərək ABŞ prezidenti hörmətli cənab Bill Klintona Azərbaycan xalqına, Azərbaycan Respublikasına və mənə göstərdiyi diqqətlə əlaqədar olaraq təşəkkürümü, minnətdarlığımı bildirirəm. Sizi əmin etmək istəyirəm ki, – mən bunu bu gün cənab Bill Klintona da dedim, – Amerika Birləşmiş Ştatları ilə Azərbaycan arasında olan əlaqələr – dostluq əlaqəsi, əməkdaşlıq günü-gündən möhkəmlənəcək, inkişaf edəcək və irəliyəcəkdir. Biz bunu ürəkdən istəyirik, bundan ötrü çalışırıq və əmin ola bilərsiniz ki, Azərbaycanın prezidenti kimi mən bu əlaqələrin inkişaf etdirilməsi üçün əlimdən gələni əsirgəməyəcəyəm.

Mən Nyu-Yorkda olarkən bir çox dövlət və hökumət başçıları ilə görüşmüş və çox səmərəli danışıqlar aparmışam. Ancaq Amerika Birləşmiş Ştatlarının prezidenti ilə görüşümü xüsusi bir görüş hesab edirəm və buna çox yüksək bir qiymət verirəm. ABŞ-ın energetika naziri xanım Heyzel o'Liri ilə və ABŞ hökumətinin üzvü, Amerika Birləşmiş Ştatlarının BMT-dəki təmsilçisi xanım Olbrayt ilə görüşlərimə və danışıqlarıma da çox yüksək qiymət verirəm.

Əziz dostlar, sizinlə, Amerikanın neft şirkətlərinin başçıları ilə mən dəfələrlə görüşmüşəm. Ancaq bugünkü görüşümü də çox yüksək qiymətləndirirəm və mənə göstərdiyiniz qonaqpərvərliyə görə, Azərbaycana bəslədiyiniz xoş münasibətə görə sizə təşəkkür edirəm. Məclisinizə rəhbərlik edən qeyd etdi ki, burada konqresmen cənab Laflin iştirak edir. Mən hesab edirəm ki, cənab Laflin bir konqresmen deyil, bəlkə də onlarca konqresmenə bərabər konqresmendir.

Əmin ola bilərsiniz ki, bizim əməkdaşlığımız müvəqqəti xarakter daşımır. Azərbaycan Amerika Birləşmiş Ştatları ilə daimi əlaqələr qurmaq fikrindədir və bu əlaqələri qurur. İqtisadi əlaqələr sahəsində əldə etdiyimiz nailiyyətlər bunun üçün bö[408-409]yük əsasdır. Ancaq bu, işin başlanğıcıdır. Hesab edirəm ki, əməkdaşlığımız üçün hələ çox böyük imkanlar var və biz bu imkanlardan istifadə etməyə çalışacağıq. Burada Azərbaycan-Amerika Ticarət-Sənaye Palatasının yaradılması haqqında verilən bəyanatı mən böyük məmnuniyyətlə qəbul edirəm. Çalışacağıq ki, bu təşkilat iqtisadi əlaqələrimizin inkişafında özünəməxsus rol oynaya bilsin.

Bütün bu rəsmi ifadələrlə yanaşı, mən Amerika xalqına və Amerika dövlətinə şəxsi hörmət və ehtiramımı da bildirmək istəyirəm. Hörmətli dostlar, siz böyük ölkədə yaşayırsınız, xoşbəxt bir ölkədə yaşayırsınız. Sizin xoşbəxt həyatınız dünya xalqları üçün çox böyük təcrübə mənbəyidir, böyük örnəkdir. Hər bir dövlət çalışır ki, onun ölkəsi Amerika Birləşmiş Ştatları kimi olsun. Azərbaycan da çalışır ki, biz də sizin getdiyiniz yolla gedə bilək. Əminəm ki, biz çalışacağıq və siz də qayğınızı və köməyinizi bizdən əsirgəməyəcəksiniz. Dostluğumuz əbədi olacaqdır. Biz dostluğa sadiq xalqıq. Bunu gələcək göstərəcəkdir.

Mən bu fürsətdən istifadə edərək Amerika xalqına, Amerika dövlətinə Azərbaycan xalqının hörmət və ehtiramını bir daha bildirirəm. Amerika xalqına səadət və xoşbəxtlik diləyirəm. Amerika dövlətinə, Amerika ölkəsinə tarixin onun üzərinə, çiyinlərinə qoyduğu məsuliyyəti, vəzifələri müvəffəqiyyətlə yerinə yetirməsini arzu edirəm.

Çıxışımı bitirərək mən Amerika Birləşmiş Ştatlarının şərəfinə, Amerika xalqının şərəfinə, Amerikanın prezidenti cənab Bill Klintonun şərəfinə badə qaldırıram. [409-410]

## Sİ-EN-EN TELEŞİRKƏTİNİN MÜXBİRİNƏ MÜSAHİBƏ

*Nyu-York*

*25 oktyabr 1995-ci il*

**Sual: Cənab prezident, sizin həyatınız çox maraqlı olub. Siz Azərbaycanın tarixində müxtəlif hadisələrlə dolu olan və böyük dəyişikliklər gedən onilliklər dövrünü yaşamısınız. Azərbaycanın tam müstəqilliyinin və iqtisadiyyatının uğurla inkişaf etdirilməsi üçün daha hansı dəyişikliklərin həyata keçirilməsini arzu edərdiniz ?**

**Cavab:** Birinci onu demək istəyirəm ki, Azərbaycanın müstəqilliyini qoruyub saxlamaq mənim indi əsas vəzifəmdir. Bu sahədə çox iş görmək lazımdır. Çünki müstəqilliyi əldə etmək, ola bilər, çətindir, amma onu qoruyub saxlamaq və inkişaf etdirmək bundan da çətindir. Mən Azərbaycanın XX əsrdə keçdiyi tarixi yaxşı bildiyimə görə və onun bir çox hissəsində Azərbaycanda gedən proseslərin iştirakçısı olduğuma görə bunun nə qədər məsuliyyətli olduğunu dərk edirəm. Mənim məqsədim Azərbaycanı hüquqi, demokratik, sivilizasiyalı bir dövlətə çevirmək, Azərbaycanda bütün demokratik prinsiplərin inkişaf etməsi üçün imkanlar yaratmaqdır. Bunlar çoxsahəli işdir. Ancaq bunları etmək üçün Azərbaycan gərək öz müstəqilliyini qoruyub saxlasın.

Lakin bu məsələnin həll olunmasını mürəkkəbləşdirən ən böyük təsiredici cəhət Ermənistan tərəfindən Azərbaycana olan hərbi təcavüzdür. Bu təcavüz nəticəsində Azərbaycanın ərazisinin iyirmi faizi Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunubdur. Həmin torpaqlardan bir milyon vətəndaşımız zorla çıxarılmışdır və onlar qaçqın vəziyyətində çadırlarda yaşayırlar. Biz indi hərbi əməliyyatları dayandırmışıq. Ermənistan ilə Azərbaycan arasında əldə olunmuş saziş əsasında on yeddi aydır ki, atəşkəs rejimində yaşayırıq. Ancaq mənim məqsədim böyük sülhə nail olmaqdan, Azərbaycanın ərazi bütövlüyünü təmin etməkdən ibarətdir. Məqsədimiz işğal olunmuş torpaqlarımızı azad etmək, oranın vətəndaşlarını öz yerlərinə-yurdlarına qaytarmaqdır. [410-411]

Bununla yanaşı, Azərbaycanda iqtisadi islahatlar keçirmək ölkənin demokratiya yolu ilə getməsi üçün əsas şərtdir. Biz özəlləşdirmə proqramı qəbul etmişik və onu həyata keçiririk, mülkiyyətin özəlləşdirilməsi ilə məşğuluq.

**Sual: Bazar iqtisadiyyatı münasibətlərinin qurulması çox çətindir. Ona görə ki, inzibati-amirlik sistemindən bazar iqtisadiyyatına keçid dövrünü yaşayırsınız. Burada qarşıya çıxan ən böyük çətinliklər, ən böyük vəzifələr nədən ibarətdir?**

**Cavab:** Ən böyük çətinlik ondan ibarətdir ki, insanlar yetmiş il dövlət mülkiyyəti, inzibati-amirlik üsul-idarəsi şəraitində yaşayıblar. İnsanların psixologiyasında dəyişiklik etmək lazımdır. Özəlləşdirmə aparmaq üçün gərək dövlət mülkiyyətində olan bütün müəssisələr özəlləşdirilsin. Amma bunu kim özəlləşdirəcək, kim öz vəsaiti ilə alacaq? Bu da böyük bir problemdir. Çünki qanun çərçivəsində vəsaiti olan insanlar indi azdır. Demək, burada bəzi qanun pozuntuları da olacaqdır. Bunların qarşısını almaq lazımdır. Bir də sosial ədaləti təmin etmək lazımdır. Ona görə də özəlləşdirmə iqtisadi islahatların keçirilməsində bizim ən çətin problemimizdir.

**Sual: Ölkənizdə özəlləşdirmədə və digər dəyişikliklərin həyata keçirilməsində xarici dövlətlərin, Qərb dövlətləri və şirkətlərinin iştirakının təmin olunması nə qədər əhəmiyyət daşıyır?**

**Cavab:** Buna imkan veriləcəkdir. Amma xarici şirkətlər gəlib burada nə qədər iştirak edəcəklər, – bunu hələ proqnozlaşdıra bilmərəm. Biz bu barədə böyük bir addım atmışıq. Bilirsiniz ki, Azərbaycanın neft yataqlarından müştərək istifadə olunması üçün Qərbin iri neft şirkətləri ilə böyük bir müqavilə imzalamışıq. Onlardan beşi – "AMOKO", "Eksson", "Pennzoyl", "YUNokal", "MakDermott" Amerikanın iri neft şirkətləridir. Başqa neft şirkətləri də var: "Bi-Pi", "Statoyl", "Delta", "LUKoyl", Türkiyə neft şirkəti. Azərbaycan iqtisadiyyatının əsasını neft təşkil edir. Biz otuz il müddətinə müqavilə imzalamışıq, müştərək iş görəcəyik. Bu, bazar iqtisadiyyatına, sərbəst iqtisadiyyata keçməyimiz üçün çox böyük bir addımdır.

Siz eşitdiniz ki, biz bu günlərdə tarixi əhəmiyyət kəsb edən böyük bir qərar, yəni neftin ixracı ilə əlaqədar iki boru kəmərinin çəkilməsi haqqında qərar qəbul etdik. Qərb neft şirkətlərinin marağına tamamilə müvafiq olaraq bir neft kəmərini [411-412] Şimaldan – Rusiyadan, ikincisini isə Gürcüstandan keçirmək haqqında qərar qəbul etdik.

**Sual: Bildiyimə görə, prezident Klinton da sizinlə əlaqə saxlayaraq iki kəmərin çəkilməsi ideyasını dəstəkləyibdir?**

**Cavab:** Bəli, o, mənimlə telefonla danışmışdı. Bizim bir neçə məsələyə dair danışığımız oldu. O cümlədən, prezident cənab Bill Klinton iki neft kəmərinin çəkilməsinin məqsədə müvafiq olması haqqında öz fikrini bildirdi. Mən isə bu fikri həyata keçirdim. Yəni bu məsələdə bizim fikirlərimiz üst-üstə düşdü.

**Sual: Əgər bu kəmərlərdən biri müəyyən səbəblər üzündən dayandırılarsa, ikinci kəmərin olması Azərbaycanın müstəqilliyinin qorunub saxlanması üçün strateji əhəmiyyətə malik bir məsələdirmi?**

**Cavab:** Bəli, bu, həm Azərbaycanın strateji maraqlarının qorunması üçün əhəmiyyətli bir məsələdir, eyni zamanda Qərb neft şirkətlərinin mənafeyinin təhlükəsizliyini təmin etməkdən ötrü əhəmiyyətli məsələdir.

**Sual: Xarici şirkətlər bu birgə neft layihəsindən nə zaman gəlir götürməyə başlayacaqlar? Yoxsa bu barədə danışmaq hələ tezdir?**

**Cavab:** Yox, tez deyil. İlkin neft 1996-cı ilin axırında hasil olunacaqdır. Bu iki neft kəməri də 1996-cı ilin sonunadək çəkilib qurtarmalıdır. 1996-cı ilin sonu – 1997-ci ildə neft artıq ixrac ediləcəkdir. Ancaq böyük neftin çıxarılması və ixracı təxminən dörd ildən sonra olacaqdır.

**Sual: Əsas neftin çıxarılması üçün əlavə investisiyalara ehtiyac duyulacaqmı, bu neftin hasil edilməsi çətin olacaqmı?**

**Cavab:** Yox, nə qədər vəsait sərf olunacağı müqavilədə göstərilmişdir. Oraya təqribən 8 milyard dollar vəsait qoyulmalıdır.

**Sual: Qərb şirkətləri bu nefti azad bazarda sata biləcəklərmi?**

**Cavab:** Bəli, bu neft onlarındır, harada istəsələr, orada da satacaqlar. Neft bölünəcəkdir, bir hissəsi Qərb şirkətlərinin, bir hissəsi isə Azərbaycanındır. Neft kəmərləri ona görə çəkilir ki, Qərb şirkətləri nefti ixrac edib istədikləri ölkəyə sata bilsinlər. Azərbaycan da öz payını ixrac edib satacaqdır. [412-413]

**Sual: Cənab prezident, sizin regionda daha bir neft yatağı var ki, onun birgə istismarında Qərb şirkətləri iştirak edirlər. Mən "Tengiz" yatağını nəzərdə tuturam. Bu yataq ətrafında danışıqlar uzun müddət davam etməkdədir və hələlik nəzərəçarpacaq nəticələr əldə olunmayıb. Sizdə Azərbaycan neftinin çıxarılması və ixracında hər hansı problemlər gözlənilirmi? Yəni neftdən götürüləcək gəlirin bölüşdürülməsində, yaxud neftin ixracında hər hansı çətinliklər, problemlər ola bilərmi?**

**Cavab:** Elə bir problem yoxdur. Ancaq **"**Tengiz" yatağından çıxarılacaq neftin ixracı üçün Gürcüstandan keçəcək neft kəmərindən istifadə oluna bilər. Neft kəmərləri, xüsusən Gürcüstandan keçəcək neft kəməri haqqında qərarımız təkcə özümüz üçün yox, eyni zamanda Qazaxıstan neftinin – "Şevron" şirkətinin "Tengiz" yatağından çıxaracağı neftin ixracı üçün çox yararlı olacaqdır.

**Müxbir: Cənab prezident, biz sizə bu neft işini uğurlu başa çatdırmağı və ölkənizin müstəqilliyinin qorunub saxlanılmasında böyük müvəffəqiyyətlər arzulayırıq.**

**Cavab:** Təşəkkür edirəm. Ancaq sizinlə görüşümdən istifadə edib onu da demək istəyirəm ki, biz noyabrın 12-də müstəqil Azərbaycanın ilk parlamentinə seçkilər keçirəcəyik. Sizin vasitənizlə dünyaya bildirmək istəyirəm ki, bu seçkilər tam demokratik şəraitdə keçiriləcəkdir. Bütün partiyaların, bütün vətəndaşların bu seçkilərdə iştirak etmələri üçün imkanlar yaradılıbdır, hər bir vətəndaşın, hər bir partiyanın hüququ qorunacaqdır. Bu da demokratiya yolunda bizim atdığımız böyük bir addımdır. Noyabrın 12-də biz ümumxalq referendumu vasitəsilə Azərbaycanın yeni, demokratik konstitusiyasını qəbul edəcəyik. Güman edirəm, bunlar hamısı Azərbaycan Respublikasında demokratiyanın nə cür inkişaf etməsi haqqında sizin dinləyicilərdə yaxşı təəssürat yarada bilər.

**Müxbir: Cənab prezident, mən əminəm ki, sizdə keçiriləcək parlament seçkilərini dünya çox maraqla, diqqətlə izləyir. Sizə bir daha müvəffəqiyyət arzulayıram. Sağ olun.**

**H. Əliyev:** Təşəkkür edirəm. [413-414]

## TÜRKİYƏ RESPUBLİKASININ 72-ci İLDÖNÜMÜ MÜNASİBƏTİLƏ BAKIDAKI TÜRKİYƏ SƏFİRLİYİNİN TƏŞKİL ETDİYİ RƏSMİ QƏBULDA NİTQ

*"Gülüstan" Sarayı*

*28 oktyabr 1995-ci il*

Hörmətli cənab səfir, hörmətli xanımlar və cənablar!

Bu gün təkcə Türkiyə xalqı üçün deyil, həm də Azərbaycan xalqı üçün böyük tarixi gündür. Türkiyə Cümhuriyyətinin yaranmasının 72-ci ildönümünü qeyd edirik. Bu münasibətlə mən Türkiyə Cümhuriyyətini, Türkiyə xalqını, bu ölkədə olan bacı və qardaşlarımızı, buraya toplaşan qonaqları, bütün Azərbaycan vətəndaşlarını ürəkdən təbrik edirəm və əmin olduğumu bildirmək istəyirəm ki, Türkiyə Cümhuriyyəti 72 il ərzində keçdiyi yol ilə indən sonra da uğurla gedəcək və yeni-yeni nailiyyətlər əldə edəcəkdir.

Son 72 il Türkiyə xalqı üçün çox mühüm və yeni bir tarixi mərhələdir. Böyük Mustafa Kamal Atatürkün fəaliyyəti nəticəsində, onun qəhrəmanlığı nəticəsində yaranmış Türkiyə Cümhuriyyəti 72 ildir ki, demokratik, mütərəqqi bir ölkə kimi dünya birliyində layiqli yerini tutubdur, öz həyatı və dövlət quruluşu ilə, daxili və xarici siyasəti ilə bir çox dövlətlər üçün örnək olmuşdur.

Türkiyə Cümhuriyyətində əldə olunmuş bütün nailiyyətlər – iqtisadiyyatın inkişafı, insanların rifahının yaxşılaşması, demokratiyanın inkişafı, insan və söz azadlığı, insan hüquqlarının qorunması böyük türk xalqının çoxəsrlik tarixində ən yüksək zirvədir, ən böyük nailiyyətdir. Bütün bu nailiyyətlərlə biz, qardaş xalq və qardaş ölkə kimi fəxr edirik və bu nailiyyətlərə görə sizinlə birlikdə məmnun olduğumuzu bildiririk.

Türkiyə ilə Azərbaycan arasında dostluq və qardaşlıq əlaqələri böyük tarixə malikdir. Biz tarix boyu, əsrlər boyu birlikdə olmuşuq, bərabər yaşamışıq, yanaşı getmişik və öz əcdadlarımızın yaratdığı milli adət-ənənələrə, mənəviyyata sadiq olmuşuq. Tarixi köklərimiz bizi birləşdirir və əsrlər boyu öz milli mənliyimiz, milli azadlığımız, istiqlal uğrunda apardığımız mübarizə bizi daha da birləşdiribdir. [414-415]

Dörd ildir ki, Azərbaycan müstəqil dövlətdir. Bu dövr Türkiyə ilə Azərbaycan arasında dostluq və qardaşlıq əlaqələrini həddindən artıq inkişaf etdirib, onu bütün sahələrə yayıb, genişləndiribdir. Biz uzun müddət bir-birimizdən ayrı düşmüşdük. Yəni əlaqələrimiz məhdud olmuşdu və həsrət içərisində yaşamışdıq. Bu dörd ilin içərisində isə biz bir-birimizə qovuşmuş və dostluq, qardaşlıq əlaqələrini tarixi köklər üzərində sürətlə inkişaf etdiririk. Bu, bizim ümumi nailiyyətimizdir. Biz bunu yüksək qiymətləndiririk. Azərbaycanın müstəqillik dövründə ona qardaşlıq münasibəti göstərən, respublikamızı dəstəkləyən ən yaxın dost ölkə Türkiyədir. Bunu bizim bütün vətəndaşlarımız yaxşı bilir və yüksək qiymətləndirirlər. Azərbaycanın beynəlxalq aləmdə mövqelərinin yaranması və inkişaf etməsində də biz Türkiyə ilə daim sıx əməkdaşlıq edirik və bu əlaqələrimizin çox müsbət bəhrələrini görürük.

Azərbaycana hərbi təcavüz edən Ermənistan işğalçılarının respublikamızda yaratdığı ağır vəziyyəti Türkiyədə də dərindən, qəlbdən hiss edirlər və bizim bu vəziyyətdən çıxmağımız üçün özümüzün çalışdığımız kimi, Türkiyədəki bacı və qardaşlarımız da çalışırlar.

Ermənistanın Azərbaycana qarşı etdiyi hərbi təcavüzü, ədalətsizliyi Türkiyə Cümhuriyyəti, Türkiyə dövləti və xalqı daim pisləyib və həmişə Azərbaycanı dəstəkləyib, Azərbaycanın haqq işini müdafiə edib və bütün beynəlxalq təşkilatlarda, dünya miqyasında, ikitərəfli münasibətlərdə Türkiyə Azərbaycana dayaq olmuşdur. Bütün bunlar bizim dostluq və qardaşlıq əlaqələrimizin sarsılmaz olduğunu nümayiş etdirir. Mən şübhə etmirəm ki, bundan sonra heç bir vasitə bizi bir-birimizdən ayıra bilməyəcəkdir.

72 il ərzində Türkiyə Cümhuriyyətində əldə edilmiş nailiyyətlər, iqtisadiyyatın inkişafında, insanların rifahının yaxşılaşdırılmasında, dövlət quruculuğunun, demokratiyanın inkişafında, demokratik prinsiplərin bərqərar olunmasında qazanılmış uğurlar və Türkiyənin bugünkü mənzərəsi bizim üçün örnəkdir və böyük təcrübə məktəbidir. Biz çalışırıq ki, bu təcrübədən səmərəli istifadə edək və Azərbaycanda müstəqil demokratik, hüquqi dövlət quraq. Bu sahədə Türkiyənin təcrübəsi gərəklidir və bu təcrübə bizə çox kömək edir.

Biz noyabrın 12-də müstəqil Azərbaycanın ilk demokratik parlamentinə seçkilər keçirəcəyik. Bu, Azərbaycanın həyatında böyük tarixi hadisədir. Ümidvaram ki, seçkilər xalqın iradəsini [415-416] ifadə edəcək və tam demokratik şəkildə keçəcək, bütün insanların, partiyaların hüquqlarının qorunması təmin olunacaq və hər bir kəs bu seçkilərdə ya seçmək, ya da seçilmək hüququndan şübhəsiz ki, istifadə edəcəkdir. Türkiyə Cümhuriyyətində də dövlət quruculuğunda proseslər gedir, yeni hökumət yaranır, vaxtından əvvəl parlament seçkiləri təyin edilibdir. Türkiyədə dekabr ayında parlament seçkiləri keçiriləcəkdir. Biz əminik ki, həm hökumətin qurulması – bu günlərdə yeni hökumət qurulur, – həm də seçkilərin keçirilməsi müvəffəqiyyətlə başa çatacaqdır.

Ölkələrimiz arasındakı əlaqələr bütün sahələrdə təzahür edir: ayrı-ayrı insanların, təşkilatların, şirkətlərin, iqtisadiyyatla məşğul olan nazirliklərin əlaqələri və dövlətlərarası əlaqələr bütün sahələrdə və bütün mərhələlərdə

bu əlaqələr yaranıb və çox uğurla irəliyə gedir. Türkiyənin dövlət və hökumət başçıları ilə biz mütəmadi olaraq əlaqə saxlayırıq, çoxlu məsələlər barəsində məsləhətləşirik. Mən bu əlaqələrdən məmnun olduğumu bir daha bildirmək istəyirəm.

Bir neçə gün bundan əvvəl Amerika Birləşmiş Ştatlarında olarkən mən ABŞ prezidenti cənab Bill Klintonla görüşdüm və ətraflı danışıqlar apardım. Dünyanın bir çox ölkələrinin dövlət və hökumət başçıları ilə görüşlərim oldu və bu görüşlərin arasında Türkiyə Cümhuriyyətinin prezidenti, hörmətli, əziz dostum, qardaşım Süleyman Dəmirəl ilə görüşüm və söhbətlərim xüsusi yer tutur. Belə görüşlər artıq ənənəvi xarakter almışdır və bu görüşlərdən biz – hər iki tərəf əlaqələrimizin inkişaf etdirilməsi üçün və Azərbaycanda demokratik proseslərin həyata keçirilməsi üçün, respublikamızın qarşısında duran ağır problemlərin həll olunması üçün daim məsləhətlər alırıq, bəhrələnirik. Bütün bunlar ölkələrimiz arasındakı əlaqələrin nə qədər geniş, nə qədər əhəmiyyətli olduğunu bir daha sübut edir.

Türkiyə Respublikasının 72-ci ildönümü münasibətilə sizin hamınızı bir daha təbrik edirəm. Türkiyə xalqına səadət və xoşbəxtlik, Türkiyə dövlətinə və hökumətinə qarşısında duran vəzifələrin həyata keçirilməsində uğurlar arzulayıram. [416-417]

## BAKI ŞƏHƏR METROPOLİTENİNDƏ BAŞ VERMİŞ FACİƏ İLƏ ƏLAQƏDAR MİLLİ TELEVİZİYA VƏ RADİO İLƏ XALQA MÜRACİƏT

*29 oktyabr 1995-ci il*

Əziz həmvətənlər, bacılar, qardaşlar, Azərbaycan Respublikasının vətəndaşları!

Azərbaycan Respublikasına, xalqımıza böyük faciə üz vermişdir. Dünən, oktyabr ayının 28-də axşam Bakı metrosunun "Ulduz" və "Nərimanov" stansiyaları arasında sərnişin qatarı qəza nəticəsində yanmağa başlamış və bu, böyük faciə ilə nəticələnmişdir. Bu hadisə baş verən kimi, bizə məlumat çatan kimi respublikanın və Bakı şəhərinin müvafiq dövlət orqanları bu faciəli hadisənin qarşısını almaq, onun nəticələrini aradan qaldırmaq üçün lazımi tədbirlər görməklə məşğul olmuşlar. Bütün qüvvələrimiz səfərbər olunubdur və hadisə baş verəndən indiyə qədər çox gərgin iş gedir.

Bizim gördüyümüz tədbirlər və baş vermiş faciənin nəticələri artıq sizə məlumdur. Bütün məsələlərin həll olunması, bütün tədbirlərin həyata keçirilməsi üçün fövqəladə dövlət komissiyası yaradılıbdır. Bu komissiya işə başlayıb və lazımi tədbirlər görübdür. Ağır faciə olduğuna görə mən bu barədə xalqımıza məlumat verərək, eyni zamanda oktyabr ayının 29-30-nu ümumxalq matəmi elan etmişəm.

Görülən tədbirlər nəticəsində faciənin miqyası məlum olubdur. Artıq sizə məlumdur ki, bu bədbəxt hadisə nəticəsində 286 nəfər həlak olub, 269 nəfər yaralanıb, xəsarət alıb, xəstəxanalara gətirilib, onlara tibbi yardım göstərilibdir. Onların çoxu tibbi yardım göstəriləndən sonra öz evlərinə gedibdir. 69 nəfər xəstəxanada müalicə olunur. Mənə verilən məlumatlardan görünür ki, xəstəxanalarda müalicə olunanların həyatı təhlükə doğurmur.

Böyük faciədir. Xalqımız matəm içindədir. 286 nəfər vətəndaşımızı – insanı itirmişik. Görülən tədbirlər nəticəsində 400 nəfər bu təhlükədən xilas olunubdur. İnsanları xilas edərkən bu işə səfərbər edilmiş şəxslərdən üç nəfər həlak olubdur. Onlardan biri hərbi qulluqçu, hərbi məktəbin müdavimidir, [417-418] ikisi mülki adamlardır. Mən bütün həlak olanların ailələrinə, onların qohum-əqrəbalarına bu faciəli hadisə münasibətilə, böyük itkiləri münasibətilə dərin hüznlə başsağlığı verirəm.

Hər bir insan itkisi, insan tələfatı bizim üçün matəmdir. Ancaq qəflətən bu qədər vətəndaşımızın həlak olması, dünyadan getməsi bizim üçün çox böyük matəmdir. Hadisənin qarşısını almaq, insanları xilas etmək üçün çalışarkən həlak olanlardan üç nəfərin xidmətini xüsusilə qeyd etmək istəyirəm. Bu, onların böyük vətənpərvər olduqlarını nümayiş etdirir. Onlar insanları xilas etmək üçün özləri həlak olublar, özlərini qurban veriblər. Güman edirəm ki, onların xatirəsi xüsusi qeyd olunacaqdır.

Biz matəm içindəyik. Mən həlak olanların ailələrinə başsağlığı verərək, eyni zamanda indi hər bir ailədə olan yas mərasimində özümü də görürəm. Mən həlak olanların ailələri ilə, qohum-əqrəbaları ilə bu günlər, bu dəqiqələr, bu saatlar bir yerdəyəm. Bu, xalqımızın ümumi kədəridir, hər bir kəsin kədəridir. Biz hamımız bu kədər, qəm-qüssə içindəyik.

Artıq sizə məlumat verilib, bildiyiniz kimi, həlak olanların dəfni ilə əlaqədar – onların dövlət hesabına dəfn edilməsi, ailələrinə lazımi yardımlar göstərilməsi haqqında mənim fərmanlarım artıq icra olunur. Bununla yanaşı, mən bu gün qərar qəbul etdim ki, həlak olanların hər birinin ailəsinə bu faciəli hadisə münasibətilə əlavə kömək – bir milyon manat məbləğində yardım göstərilsin. Bu qərarı mən bura gəlməmişdən qəbul etdim.

Şübhəsiz ki, bütün həlak olanların ailələri, qohum-əqrəbaları dövlətin qayğısı altında olacaqdır. Həlak olanların xatirəsi bizim qəlbimizdə əbədi yaşayacaqdır. Son illər Azərbaycan Respublikasının başına çox bəlalar gəlibdir. Biz çox itkilər vermişik. Azərbaycan torpaqlarını işğalçılardan müdafiə etmək, Azərbaycanın suverenliyini, müstəqilliyini qorumaq üçün çox itkilər vermişik, şəhidlər vermişik. Bütün şəhidlərin xatirəsi daim bizim qəlbimizdədir. Ancaq dünənki faciəli hadisə bütün Azərbaycan Respublikasına, bütün Azərbaycan xalqına qəflətən, gözlənilmədən böyük bir zərbə vurdu və bizi çox sarsıtdı. Güman edirəm ki, biz bu ağır günləri də keçəcəyik.

Ermənistanla Azərbaycan arasında olan münaqişədə son vaxtlar atəşkəs əldə etmişik. On yeddi aydır ki, atəş yoxdur, xalqımız cəbhələrdə itki vermir. Sülh şəraitində yaşayırıq və daimi sülh əldə etmək istəyirik. Belə bir zamanda qəflətən bu [418-419] faciənin baş verməsi, şübhəsiz ki, bizim üçün böyük zərbədir, böyük itkidir, faciədir. Ancaq biz dözümlüyük, buna da dözəcəyik.

Mən bütün həlak olanların ailələrinə müraciət edirəm, onlara Allahdan səbir diləyirəm. Onların qəminə, kədərinə şərik olduğumu bildirmək istəyirəm. Onlara dözümlülük diləyirəm. Yaralanaraq müalicə olunanlara tezliklə sağalmağı arzu edirəm. Onlar əmin ola bilərlər ki, sağalmaları üçün bütün tədbirlər görüləcək, onlara və ailələrinə lazımi yardımlar ediləcəkdir.

Mən bütün xalqımıza müraciət edirəm. Xalqımıza Allahdan səbir diləyirəm, dözümlülük diləyirəm. Tarix son illərdə Azərbaycan xalqını böyük sınaqlara çəkmişdir. Biz bu sınaqlardan çıxırıq, itkilər də, şəhidlər də veririk. Bu sınaqdan da çıxacağıq.

Biz 1995-ci ilin son aylarını yaşayırıq. Qarşımıza çox böyük vəzifələr qoymuşuq, onlar; həyata keçirməyə çalışırıq. Bir neçə gün bundan əvvəl mən Amerika Birləşmiş Ştatlarında olmuşam, Birləşmiş Millətlər Təşkilatının yaranmasının 50 illik yubiley mərasimlərində iştirak etmişəm. Orada olarkən bir çox ölkələrin dövlət, hökumət başçıları ilə, o cümlədən Amerika Birləşmiş Ştatlarının prezidenti cənab Bill Klintonla görüşmüşəm, danışıqlar aparmışam. Beynəlxalq təşkilatların rəhbərləri ilə görüşüb danışıqlar aparmışam. Dünyanın böyük beynəlxalq maliyyə mərkəzlərinin rəhbərləri ilə görüşüb danışıqlar aparmışam. Bütün bu görüşlər, danışıqlar Azərbaycan Respublikasının beynəlxalq aləmdə mövqelərini möhkəmləndirmək üçün çox faydalı, səmərəli olub, eyni zamanda Azərbaycan Respublikasının bu ağır vəziyyətdən çıxması üçün lazımi tədbirlərin görülməsindən ötrü faydalı, səmərəli olubdur.

Bu danışıqlarda Ermənistanla Azərbaycan arasında münaqişənin tamamilə aradan götürülməsi məsələsi də müzakirə edilibdir. Həmin məsələnin sülh yolu ilə həll edilməsi haqqında da danışıqlar aparılıb, çox faydalı, səmərəli nəticələr əldə olunubdur. Beynəlxalq maliyyə mərkəzləri Azərbaycanın bu ağır sosial vəziyyətini nəzərə alaraq, respublikamıza böyük məbləğdə kreditlər ayrılması haqqında qərarlar qəbul ediblər. Bunlar hamısı Azərbaycan Respublikasını bu ağır, çətin vəziyyətdən çıxarmaq üçün son vaxtlar görülən işlərdir.

Qeyd etdim ki, qarşımızda böyük vəzifələr var, biz onları [419-420] həyata keçirmək istəyirik. Noyabrın 12-də müstəqil Azərbaycan Respublikasının Milli Məclisinə, parlamentinə ilk dəfə seçkilər keçiriləcəkdir. Biz demokratik parlament yaradılması, seçkilərin tam demokratik prinsiplər əsasında keçirilməsi üçün lazımi tədbirlər görürük. Müstəqil Azərbaycan Respublikasının konstitusiyasının layihəsi hazırlanıb, ümumxalq müzakirəsinə verilib və noyabrın 12-də ümumxalq səsverməsi, referendum vasitəsilə qəbul olunacaqdır. Müzakirə davam edir. Müzakirə zamanı vətəndaşlar, xalq tərəfindən verilən bütün təkliflər, şübhəsiz ki, nəzərə alınacaq və dərc edilmiş layihə onların əsasında daha da təkmilləşdiriləcək, ümumxalq səsverməsi üçün bir daha dərc olunacaqdır.

Bunlar Azərbaycan Respublikasının həyatında, dövlət quruculuğunda çox mühüm tədbirlərdir. Yəni biz müstəqil Azərbaycanın ilk demokratik parlamentini yaradacağıq, müstəqil Azərbaycan Respublikasının ilk demokratik konstitusiyasını qəbul edəcəyik. Belə böyük tədbirlərin hazırlanması zamanı, onların ərəfəsində başımıza gəlmiş bu bəla, şübhəsiz ki, işlərimizə müəyyən təsir edə bilər. Ancaq əmin ola bilərsiniz ki, bizim iradəmiz möhkəmdir və indiyə qədər rastlaşdığımız çətinliklərin öhdəsindən gəldiyimiz kimi, bu çətinliyin də öhdəsindən gələcəyik.

Bilirsiniz ki, son vaxtlar – həm 1994-cü ildə, həm də 1995-ci ildə Azərbaycanın dövlətçiliyinə qarşı təxribat hadisələri, dövlət çevrilişinə cəhdlər, terror aktları keçirmək cəhdləri, başqa böyük cinayətlər olmuşdur. Biz bunların qarşısını aldıq və respublikamızda ictimai-siyasi sabitlik yaratdıq. Bu gün respublikamızda ictimai-siyasi vəziyyət tam sabitdir. Hər bir vətəndaş azad, sərbəst yaşamaq imkanına malikdir və xüsusən indi, seçkilərə hazırlıq ərəfəsində hər bir vətəndaşın hüquqlarının qorunması xüsusi əhəmiyyət kəsb edir. Respublikada siyasi partiyalar sərbəst fəaliyyət göstərir və onların parlament seçkilərində iştirak etməsi üçün bütün şərait yaranıbdır.

Belə bir şəraitdə baş vermiş bu faciə şübhəsiz ki, bizi kədərləndirir, incidir, məyus edir, amma iradəmizi sındıra bilmir və sındıra bilməz. Biz Azərbaycanın müstəqilliyini qorumaq, ərazi bütövlüyünü bərpa etmək, işğal olunmuş torpaqlarını azad etmək üçün əzmlə çalışırıq və çalışacağıq. Tutduğumuz yolla gedirik və gedəcəyik.

Belə ağır günlərdə, şübhəsiz ki, daha çox vətəndaş həmrəyliyinə, vətəndaş birliyinə ehtiyac duyulur. Güman edirəm ki, [420-421] Azərbaycan Respublikasının hər bir vətəndaşı bu matəm günlərində respublikamızın bu günü və gələcəyi haqqında bir daha dərindən düşünmək imkanına malikdir və dərindən düşünməlidir. Hər kəs dərk etməlidir ki, müstəqil Azərbaycanın müstəqilliyini qoruyub saxlamaq, Azərbaycanda hüquqi demokratik dövlət qurmaq, vətəndaşlarımızın rifahını yaxşılaşdırmaq amalımız hər bir kəsin amalı olmalıdır. Hər bir kəs bu ali məqsədlərə nail olmaq üçün öz səyini göstərməlidir, öz payını verməlidir.

Mən bu gün, bu matəm günü bütün Azərbaycan vətəndaşlarına, Azərbaycan xalqına bu arzularla müraciət edirəm. Xalqımıza daha da dəyanətli olmağı arzulayıram, daha da dözümlü olmağı arzulayıram. Xalqımızı, Azərbaycanın bütün vətəndaşlarını əmin edirəm ki, biz bütün çətinliklərdən çıxmağa qadirik və bu çətinliklərdən çıxacağıq. Qəmimiz, kədərimiz nə qədər çox olsa da, nə qədər ağır dəqiqələr, saatlar, günlər keçirsək də gələcəyə ümidimiz böyükdür. Biz nikbinik və nikbinlik əhval-ruhiyyəsi ilə yaşayırıq, yaşamalıyıq.

Başımıza gəlmiş bu bəla münasibətilə, bu faciə münasibətilə bütün Azərbaycan xalqına bir daha başsağlığı verirəm. Həlak olanların ailələrini bağrıma basıram, onlara Allahdan səbir diləyirəm, onlara başsağlığı verirəm. Həlak olanlara Allah rəhmət eləsin! Xalqımıza Allah səbir versin, dözüm versin! [421-422]

## AZƏRBAYCAN RESPUBLİKASININ YENİ KONSTİTUSİYA LAYİHƏSİNDƏ DÖVLƏT DİLİ HAQQINDA MADDƏNİN GENİŞ MÜZAKİRƏSİNDƏ NİTQ

*Respublika Elmlər Akademiyası*
*Rəyasət Heyətinin iclas salonu*

*31 oktyabr 1995-ci il*

Hörmətli xanımlar və cənablar, hörmətli ziyalılar!

Əvvəlcə bildirmək istəyirəm ki, sizinlə yenidən görüşməkdən çox məmnunam. Sizə və sizin simanızda Azərbaycanın bütün ziyalılarına işlərində uğurlar, səadət və xoşbəxtlik arzu edirəm.

Ölkəmiz tarixinin çox mühüm bir mərhələsini yaşayır. Respublikamızda böyük iqtisadi, ictimai-siyasi proseslər gedir və bir çox mühüm məsələlər həll olunur. Dövlət quruculuğu sahəsində aparılan işlər sırasında müstəqil Azərbaycan Respublikasının parlamentinə seçkilər və müstəqil dövlətimizin ilk konstitusiyasının qəbul olunması çox böyük əhəmiyyət kəsb edir.

Bildiyiniz kimi, bir neçə aydır ki, biz və respublikanın bütün ictimaiyyəti, dövlət orqanları çox ciddi məşğul olurlar. Nəticədə demək olar ki, biz mühüm tədbirlər ərəfəsindəyik. Təəssüf ki, bu mərhələdə respublikamıza böyük faciə üz verdi. Qəza nəticəsində metro stansiyasında insanlarımız tələf oldu. Biz ağır itkilərə məruz qaldıq, çoxlu soydaşımızı itirdik. Respublikamız matəm keçirdi və indi də bu ağır yaranın əzab-əziyyətini çəkirik. Ancaq şübhəsiz ki, bu hadisə bizim işlərimizi, gedən proseslərin inkişafını dayandıra bilməz. Qarşımıza qoyduğumuz vəzifələri vaxtında həyata keçirməyə qadirik və həyata keçirəcəyik.

Müstəqil Azərbaycan Respublikasının ilk konstitusiyasının qəbul edilməsi tarixi hadisə olacaqdır. Bildiyiniz kimi, bizim indi qüvvədə olan konstitusiyamız da var. Konstitusiya tariximiz böyükdür. Azərbaycanın ilk konstitusiyası 1921-ci ildə qəbul olunubdur. 1920-ci ildə Azərbaycanda sosialist respublikası qurulandan sonra o vaxt respublikamız özünün ilk konstitusiyasını qəbul etmişdir. Ondan qabaq isə – 1919-cu ildə ilk [422-423] Azərbaycan Demokratik Respublikası yaranandan sonra konstitusiya aktı qəbul olunmuşdu. Ancaq o zaman konstitusiya qəbul edilməmişdi. Dediyim kimi, ilk konstitusiya 1921-ci ildə qəbul olundu. O vaxt Azərbaycan Sovet Sosialist Respublikası idi. Ancaq biz hələ İttifaqa daxil deyildik.

1922-ci ilin dekabrında Sovetlər İttifaqı yarandı və Azərbaycan Respublikası da Sovetlər İttifaqının tərkibinə daxil oldu. Bundan sonra Sovetlər İttifaqının konstitusiyası qəbul edildi. Həmin konstitusiyaya uyğun olaraq Azərbaycanın 1921-ci ildə qəbul olunmuş konstitusiyasında müəyyən dəyişikliklər aparıldı. Ancaq yeni konstitusiya qəbul edilmədi. Azərbaycan Respublikası həmin konstitusiya ilə Sovetlər İttifaqının tərkibində yaşadı.

1937-ci ildə respublikamızın yeni konstitusiyası qəbul edildi. Bu, 1936-cı ildə qəbul olunmuş Sovetlər İttifaqı konstitusiyasına uyğun olan konstitusiya idi. Sonra isə – 1977-ci ildə Sovetlər İttifaqının yeni konstitusiyası qəbul olundu. Ona uyğun olaraq 1978-ci ildə Azərbaycan Respublikasının konstitusiyası qəbul edildi. Həmin konstitusiya indiyədək qüvvədədir.

Şübhəsiz ki, ondan sonrakı dövrdə respublikamızda baş vermiş böyük dəyişikliklərlə, Azərbaycanın müstəqil dövlət olması ilə əlaqədar həmin konstitusiyaya müəyyən dəyişikliklər edilibdir. Lakin bizim üçün əsas sənəd 1991-ci il oktyabrın 18-də qəbul olunmuş Konstitusiya Aktıdır.

Beləliklə, biz bu konstitusiya ilə yaşamışıq. Ancaq indi müstəqil Azərbaycan Respublikasının yeni konstitusiyasını qəbul edirik. Bir də qeyd edirəm, bu, çox böyük tarixi hadisədir və bizim, indiki nəsillərin üzərinə çox böyük məsuliyyət qoyur.

Konstitusiya elə bir sənəddir ki, o gərək uzun müddət yaşasın. Onun ömrü uzun olmalıdır. Konstitusiya tez-tez dəyişilə bilməz. Əgər konstitusiya doğrudan da həm bu günü, həm də gələcəyi tamamilə əks etdirə bilirsə, o, uzunömürlü ola bilər, gələcəkdə ona dəyişikliklər etməyə ehtiyac olmaz və ya çox cüzi dəyişikliklər aparıla bilər. Ona görə də bu işə həddindən artıq məsuliyyətlə yanaşmaq lazımdır. Biz belə də yanaşırıq. Yəni öz məsuliyyətimizi dərk edirik və bu mühüm sənədin qəbul olunması üçün gələcək nəsillərin qarşısında nə qədər cavabdeh olacağımızı da dərk edirik.

Mən konstitusiya komissiyasının sədri kimi konstitusiya layihəsinin hazırlanması dövründə, bu günə qədər çalışmışam ki, [423-424] layihənin hazırlanmasında bu sahədə biliyi, elmi, təcrübəsi olan bütün alimlər, mütəxəssislər, hüquqşünaslar, dövlət xadimləri, ictimai-siyasi xadimlər, mədəniyyət xadimləri iştirak etsinlər.

Konstitusiya komissiyasının tərkibi bu dediyim fikirləri əks etdirir. Eyni zamanda mən hesab edirəm ki, bu böyük məsuliyyəti yalnız konstitusiya komissiyasının üzvlərinin öhdəsinə qoymaq olmaz. Bu məsuliyyəti hamımız, bütün xalqımız daşımalıdır. Hər bir vətəndaş həm bu gün üçün, həm də gələcək nəsillər üçün

konstitusiyanın hazırlanmasında iştirak etməyə çalışmalıdır, öz səylərini və xidmətlərini göstərməlidir. Şübhəsiz ki, kim nəyə qadirdirsə, kim nəyi bacarırsa, kim nə edə bilərsə, etməlidir.

Azərbaycanda bu sahədə bilikli, təcrübəli, bacarıqlı adamlar çoxdur. Lazımdır ki, bu işdə heç kəs biganə qalmasın. Lazımdır ki, hər bir kəs, hər bir vətəndaş konstitusiyanın hazırlanmasını və qəbul olunmasını öz şəxsi işi kimi, taleyi kimi qəbul etsin. Belə olan halda biz Azərbaycanın müstəqilliyini təmin edən, vətəndaşlarımızın hüquqlarını qoruya bilən, ölkəmizin dövlətçiliyini möhkəmləndirən və respublikamızın müstəqil bir dövlət kimi yaşaması üçün əsas olan qanun, konstitusiya qəbul edə bilərik.

Hesab edirəm ki, bu sahədə çox iş görülübdür. Konstitusiya layihəsinin hazırlanmasına biz çox vaxt sərf etdik. Bu iş çoxdan başlanıbdır – bizim mütəxəssislər bu işə bir il bundan öncə başlayıblar. Ancaq biz bu işə mütəşəkkil olaraq iyun ayından başladıq və çox intensiv iş getdi.

Konstitusiya komissiyası yaranarkən yeni konstitusiya layihəsinin bir çox müddəaları demək olar ki, işlənib hazırlanmışdı. Konstitusiya komissiyası yarandı, onun işçi qrupu təşkil edildi. Həmin qrup gərgin işlədi və layihə konstitusiya komissiyasında bir neçə dəfə müzakirə ediləndən sonra ümumxalq müzakirəsinə verildi.

İndi müzakirələr sona çatır. Biz gərək ümumxalq müzakirəsi zamanı verilmiş təklifləri, düzəlişləri iki-üç gün içərisində təhlil edək, konstitusiya komissiyasında baxaq və onların dəyərlilərindən, xeyirlilərindən istifadə edək, beləliklə də layihəni təkmilləşdirək. Şəxsən mənim məqsədim bundan ibarətdir.

Mən bu işə çox məsuliyyətlə yanaşıram. Çünki həm Azərbaycanın konstitusiya tarixini bilirəm və onu böyük diqqətlə [424-425] təhlil etmişəm, həm də indiyədək Azərbaycanda dövlət quruculuğu sahəsində aparılan işlərin çoxunun iştirakçısıyam.

1977-ci ildə Sovetlər İttifaqında yeni konstitusiya qəbul olundu. O konstitusiyanın hazırlanması dövrü çox böyük idi. Konstitusiya komissiyası təşkil olunmuşdu. O vaxtlar Sovetlər İttifaqında, hər bir müttəfiq respublikada geniş işlər aparılırdı. Mən həmin konstitusiya komissiyasının üzvü idim və 1977-ci ildə qəbul olunmuş konstitusiyanın hazırlanmasında iştirak etmişəm. Hətta həmin konstitusiya qəbul olunarkən Sovetlər İttifaqı Ali Sovetinin sessiyasında çıxış etmişəm. Sonra isə bir il biz öz respublikamızın – Azərbaycan Respublikasının konstitusiyasını hazırlamaqla məşğul olduq. Biz də komissiya yaratdıq. Mən respublikanın rəhbəri kimi konstitusiya komissiyasının sədri idim. Xatirimdədir, biz o vaxt nə qədər çox iş gördük.

Doğrudur, qeyd etdiyim kimi, bizim qəbul etdiyimiz konstitusiya Sovetlər İttifaqı konstitusiyasının müddəalarına uyğun olmalı idi, ona münasib yazılmalı idi və eyni zamanda respublikamızın bəzi xarakterik cəhətlərini özündə əks etdirməli idi. Hesab edirəm ki, o vaxt biz buna nail ola bildik. O dövrün, o zamanın şərtləri daxilində biz Azərbaycanın konstitusiyasını qəbul etdik.

Beləliklə, mən bu məsələlərin tarixini öyrəndiyimə görə, həm də bir çox hissəsində bilavasitə iştirak etdiyimə görə indi müstəqil Azərbaycan Respublikasının konstitusiyasını tam müstəqil, heç bir dövlətdən, heç bir mərkəzdən, heç bir kəsdən asılı olmayaraq özümüzün sərbəst qəbul etməyimizin nə qədər məsuliyyətli və şərəfli olduğunu dərk edirəm. Ona görə də indiyədək çalışmışam ki, bu konstitusiyanın hazırlanmasında hamı çox yaxından, ürəkdən iştirak etsin. Çalışsın, maksimum səy göstərsin ki, bizim konstitusiyamız mükəmməl olsun. Buna nə qədər nail olduğumuzu şübhəsiz ki, xalq qiymətləndirməlidir. Çünki layihə dərc olunubdur, müzakirədən keçibdir. Aparılan müzakirələr və konstitusiya komissiyasına daxil olan təkliflər onu göstərir ki, xalq, ictimaiyyət, vətəndaşlar bu layihəni ümumən qəbul edirlər. Layihənin əleyhinə birbaşa çıxan yoxdur. Ancaq onu təkmilləşdirmək üçün təkliflər, əlavələr, dəyişikliklər irəli sürülür. Mən dünən işçi qrupu ilə görüşmüşəm. Onların mənə verdiyi məlumatdan aydın olur ki, konstitusiya komissiyasına 1400 təklif, dəyişiklik daxil olubdur. Bu təkliflər cürbəcürdür və konstitusiyanın müxtəlif maddələrinə aiddir. Onlar təhlil olunur. İşçi qrupu [425-426] onların təhlili və qiymətləndirilməsi ilə məşğuldur və o təkliflərdən hansının qəbul olunub-olunmaması barədə konstitusiya komissiyasına öz fikrini söyləyəcəkdir. Nəhayət bunlar konstitusiya komissiyasında həll olunacaqdır.

Güman edirəm ki, müzakirə nəticəsində alınan təkliflər konstitusiya layihəsini daha da təkmilləşdirəcək və biz bu günlərdə konstitusiyanın son layihəsini bir daha mətbuatda dərc edəcəyik ki, vətəndaşlarımız noyabr ayının 12-də parlament seçkiləri zamanı eyni zamanda ümumxalq səsverməsi, referendum yolu ilə konstitusiya layihəsinə öz münasibətlərini bildirsinlər. Referendumun nəticəsinə görə də konstitusiyanın qəbul edilməsi məsələsi həll olunacaqdır.

Vətəndaşlardan daxil olan təkliflərdən başqa, layihə ayrı-ayrı təşkilatlarda, birliklərdə, müəssisələrdə, idarələrdə, elm ocaqlarında, yaradıcılıq təşkilatlarında, mədəniyyət birliklərində müzakirə edilibdir. Burada deyildi ki, layihəni Elmlər Akademiyası da müzakirə edib və öz fikrini bildiribdir. Ancaq mən konstitusiyanın bir maddəsinin xüsusi müzakirə olunmasını lazım hesab edirəm. Bu, Azərbaycanın dövlət dili haqqında olan 23-cü maddədir.

Konstitusiya komissiyasında layihə müzakirə olunarkən komissiyanın üzvlərindən üç nəfər – şair Bəxtiyar Vahabzadə, yazıçılar Anar və Elçin Əfəndiyev belə fikir söylədilər ki, "dövlət dili Azərbaycan türk dilidir" yazılsın. Biz bu məsələni müzakirə etdik. Son layihəni dərc olunmağa göndərərkən belə qərara gəldik ki, bu layihədə indiyədək konstitusiyada olduğu kimi yazaq. Bu barədə sizə qısa tarixi arayış vermək istəyirəm.

1921-ci ildə qəbul olunmuş ilk Azərbaycan konstitusiyasında dövlət dili haqqında heç bir maddə yoxdur.

1937-ci ildə qəbul edilmiş Azərbaycan konstitusiyasında da dövlət dili haqqında heç bir maddə olmayıbdır.

1956-cı ildə Azərbaycan Respublikasının Ali Soveti 1937-ci ildə qəbul olunmuş konstitusiyaya əlavə edibdir. Konstitusiya Azərbaycan Respublikasında dövlət dilinin Azərbaycan dili olması barədə maddə əlavə edilibdir. O vaxt işləyən adamlarımız bunu xatırlayırlar. Həmin dövrdə bu maddənin qəbul edilməsi respublikada müəyyən mübahisələr doğurdu. Mən də onun şahidiyəm. Bu maddənin qəbul olunmasından sonra həyata keçirilən bəzi tədbirlər daha çox mübahisələr və narazılıqlar doğurdu. Bu, deyə bilərəm ki, o vaxt respublikamızı çətin vəziyyətə saldı. Çünki belə bir maddə qəbul edilən kimi [426-427] o vaxt – bəzən belə də olur, bəzi adamlar özlərini həddindən çox vətənpərvər, millətə həddindən artıq yaxın göstərmək istəyirdilər – dərhal göstərişlər verildi ki, bütün idarələrdə, təşkilatlarda yazışmaların hamısı ancaq Azərbaycan dilində getsin. Makinalar dəyişdirilməyə başlandı. Şübhəsiz ki, o vaxt bizim kargüzarlıq işlərində, katiblikdə, yazışmalarda rus dili üstünlük təşkil edib. Çünki əsas işlər rus dilində gedirdi. Ona görə işçilərin çoxu da rusdilli idi – ya rus, ya da erməni millətindən, yaxud rusdilli azərbaycanlılardan ibarət idi. Onların bəzilərini işdən çıxarmağa başladılar. Bu, Azərbaycanda böyük narazılıq doğurdu. Bundan da o vaxt Azərbaycana pis münasibət, bəlkə də düşmən münasibəti göstərən qüvvələr istifadə etdilər. Xatirinizdədir ki, 1959-cu ildə Sovet İttifaqı Kommunist Partiyasının Mərkəzi Komitəsi Azərbaycanda millətçilik olması barədə qərar qəbul etdi. O vaxt Azərbaycan rəhbərliyi dəyişildi, bəzi vəzifəli şəxslər bundan istifadə edib öz şəxsi məqsədlərinə nail oldular. Hər halda, bu tarix məlumdur. Ondan sonra bu məsələ müəyyən qədər sakitləşdi.

1977-78-ci illərdə biz yeni konstitusiyanı qəbul edərkən bu məsələ, şübhəsiz ki, əsas məsələlərdən biri idi. Biz yeni konstitusiyada Azərbaycanın dövlət dilinin Azərbaycan dili olması barədə maddə hazırladıq. Qeyd etdiyim kimi, mən həmin konstitusiyanı hazırlayan komissiyanın sədri idim və bu işlərə rəhbərlik edirdim.

Ancaq bu maddə Moskvada çox böyük etiraza səbəb oldu. Belə izah edirdilər ki, başqa respublikalarda bu yoxdur, buna ehtiyac yoxdur. Mən indi sizin vaxtınızı alıb bunların hamısını geniş danışmağa ehtiyac duymuram. Ancaq o vaxt mən Sovetlər İttifaqının rəhbərliyi ilə, Kommunist Partiyasının rəhbərliyi ilə çox gərgin danışıqlar apardım. Sübut etməyə çalışdım ki, biz dövlət dilinin Azərbaycan dili olduğunu öz konstitusiyamıza yazmalıyıq və yazacağıq.

Moskvada bir neçə dəfə müzakirələr oldu. Cürbəcür fikirlər səsləndi və həmin fikirlərin əksəriyyəti ondan ibarət idi ki, belə olmamalıdır. Ancaq biz buna nail olduq və 1978-ci ildə, səhv etmirəmsə, aprel ayında biz konstitusiyanı qəbul etdik. Həmin konstitusiyada yazıldı ki, Azərbaycanın dövlət dili Azərbaycan dilidir. Xatirimdədir, o vaxt başqa respublikanın rəhbərləri ilə kəskin danışıqlarımız oldu. Ukraynanın rəhbəri Şerbitski ilə mənim kəskin danışıqlarım xatirimdədir. O buna çox etiraz edirdi, belə əsaslandırırdı ki, siz belə yazdığınız hal[427-428]da gərək onda biz də yazaq ki, Ukraynanın dövlət dili Ukrayna dilidir. Mən ona dedim ki, sizə heç kəs mane olmur. Siz bizdən də böyük respublikasınız və Sovetlər İttifaqında sizin xüsusi çəkiniz bizimkindən qat-qat artıqdır. Siz istəsəniz bunu yaza bilərsiniz. Ancaq siz nə üçün bizə mane olursunuz? Mübahisəmiz çox gərgin oldu.

Hər halda biz bunu etdik. Deyə bilərəm ki, o vaxt on beş müttəfiq respublikadan yalnız üç respublikanın – Azərbaycan, Gürcüstan və Ermənistanın konstitusiyalarında dövlət dili haqqında maddə var idi. Qalan respublikaların heç birinin konstitusiyasında dövlət dili haqqında maddə yox idi. Mən 1978-ci ildə qəbul edilmiş konstitusiyanı nəzərdə tuturam. Qeyd etmək istəyirəm ki, o cümlədən Baltikyanı respublikalar da – onlar öz milli ənənələrini başqalarına nisbətən daha çox qoruyub saxlamağa çalışırdılar. O vaxt onları ümumiyyətlə, millətçi respublikalar hesab edirdilər, – buna baxmayaraq onlar öz konstitusiyalarında dövlət dilini yazmamışdılar.

Ancaq biz buna nail olduq. Hesab edirəm ki, bu, o dövrdə, o zamanın şəraitində respublikamızda, ümumiyyətlə, ölkəmizin tarixində çox böyük hadisə oldu. İndiyə qədər konstitusiyamızın 73-cü maddəsi – "Azərbaycanın dövlət dili Azərbaycan dilidir" maddəsi qüvvədədir. Bunu, yəni "Azərbaycan konstitusiyasının 73-cü maddəsi qüvvədədir" fikrini nəzərə alaraq yeni konstitusiyanın son layihəsini dərc edərkən yazdıq ki, Azərbaycanın dövlət dili Azərbaycan dilidir.

Ancaq sizə məlumdur ki, 1992-ci ildə başqa proseslər olmuşdur. 1992-ci ilin dekabrında Azərbaycanın Milli Məclisində dövlət dili haqqında məsələ müzakirə edilmişdir. Bu müzakirə nəticəsində qərar qəbul olunub ki, Azərbaycanın dövlət dili türk dilidir. O vaxt mən Bakıda yaşamırdım, Naxçıvanda idim. Eşitdiklərimdən, bildiklərimdən belə hiss etdim ki, bu qərar respublikada birmənalı qarşılanmayıbdır. Bu qərardan çox narazı olanlar var idi, onu çox bəyənənlər də var idi.

Sonra, konstitusiya layihəsini hazırlayarkən mən bunu araşdırdım. Bu barədə mənə əvvəl də demişdilər. Ancaq bir var ki, bir şeyi ordan-burdan eşidəsən, bir də var ki, özün araşdırasan. Mən bunu şəxsən özüm üçün araşdırdım və məlum oldu ki, bildiyiniz kimi, burada özbaşınalığa, volyuntarizmə yol verilibdir. Mən bunu deyərkən əvvəlcədən xahiş və xəbərdarlıq edirəm ki, fikirlərim heç kəsə öz sözlərini demək üçün təsir [428-429] etməsin. Mən sizə olmuş şeylərin xronologiyasını danışdım. İstəyirəm ki, burada sərbəst müzakirələr getsin.

Dövlət dili haqqında maddə konstitusiya qanunudur. Yəni bu, ya konstitusiyada olmalıdır, ya da, ona dəyişiklik edilərsə hüquqa görə, konstitusiya təcrübəsinə, qanunların qəbul edilməsi təcrübəsinə görə bu, konstitusiya qanunu kimi qəbul olunmalıdır. Ancaq bu məsələnin həllinə çox məsuliyyətsiz, səthi yanaşılmışdır.

Qəbul olunmuş qərar haqqında mən hər hansı fikir söyləmək istəmirəm. Çünki əgər fikir desəm, siz belə başa düşərsiniz ki, mən hansısa tərəfi saxlayıram. Mən heç bir tərəf saxlamıram. Ona görə də bura, sizin görüşünüzə şəxsən özüm gəlmişəm ki, fikrimi bilavasitə özüm sizə çatdırım. Ancaq hər bir şey gərək özünə layiq qayda-qanunla edilsin.

Məsələn, mən sizə dedim ki, 1978-ci ildə bu maddəni konstitusiyaya yazmaq üçün üç-dörd ay müzakirə apardıq. Bu o demək deyildi ki, bizim aramızda "dövlət dilimiz Azərbaycan dili olmalıdır" fikrinə şübhə edənlər olmuşdur. Ancaq o zaman biz müstəqil deyildik. Sovetlər İttifaqının tərkibində idik və Sovetlər İttifaqının, Kommunist Partiyasının rəhbərliyindən asılı idik. Ona görə də həm öz istəyimizi həyata keçirməli idik, həm də buna razılıq almalıydıq. Biz bundan ötrü müharibə etməyəcəydik, üsyan qaldırmayacaqdıq. Əgər kimsə hesab edir ki, üsyan qaldırmaq olardı – bu, ağılsız fikirdir.

Yəni mən onu demək istəyirəm ki, bu məsələlərin həlli zarafatyana, səthi ola bilməz. Bu, tarixi bir hadisədir. Biz müəyyən edirik ki, dövlət dilimiz hansı dildir. Bunun da səbəbi ondan ibarətdir ki, bizim dilimizə tarixdə müxtəlif cür münasibət olub və cürbəcür ad veriblər.

Ona görə də mən Milli Məclisin qərarının nəticəsinə toxunmayaraq və o barədə öz münasibətimi bildirməyərək yalnız həmin qərarın qəbul olunması prosedurası haqqında danışmaq istəyirəm. Belə bir mühüm qərar üç-dörd günün içərisində kiçik qrup adamın iradəsi, istəyi nəticəsində qəbul olunubdur. Bax, mən bunu heç bir vəchlə qanuni hesab etmirəm. Mən hesab edə bilmərəm ki, bu işə ciddi münasibət göstərilibdir.

Məsələ belə olmuşdur. Milli Məclisdə Azərbaycanın dövlət dili məsələsi müzakirə olunarkən Məclis üzvlərindən biri deyib ki, gəlin yazaq "Azərbaycanın dövlət dili Azərbaycan türk dilidir", başqa birisi deyib ki, niyə belə yazırıq. Yazaq ki, "türk [429-430] dilidir". Mübahisə gedibdir – mən bütün stenoqrama baxmışam. Kim necə çıxış edibsə, hamısı məlumdur. Mən sadəcə olaraq demək istəyirəm, indi buna heç ehtiyac da yoxdur, bunun indi əhəmiyyəti yoxdur. Bəlkə kimsə bununla maraqlanır, amma mən hesab edirəm ki, o qədər də maraqlı deyil.

Bəli, mübahisə gedibdir. Bir qismi buna etiraz edibdir, bir qismi isə əvvəlki təklifdən də qabağa gedərək deyib ki, yazaq "bizim dilimiz türk dilidir".

Məsələ Milli Məclisdə səsə qoyularkən həmin iclasda Milli Məclisin 50 üzvündən 39-u iştirak edibdir. Onların 26-sı dilimizin türk dili kimi qəbul olunmasına səs verib, 7-si, ya 8-i əleyhinə səs verib, qalanları isə bitərəf olubdur. Beləliklə də dövlət dilimizin adı dəyişilibdir. Hər bir şey etmək olar, əgər doğrudan da o, həqiqətə və bizim məqsədlərimizə uyğundursa. Ancaq belə məsuliyyətli işləri çox ağıllı, bacarıqlı, eyni zamanda xalqın iradəsinə əsaslanaraq görmək lazımdır.

1978-ci ildə qəbul olunmuş konstitusiya ümumxalq müzakirəsindən keçibdir. Deyilə bilər ki, o vaxt sovet dövrü idi, müzakirələr formal keçirdi. Bəli, bu sözü demək olar. Ancaq müzakirələr olubdur. O konstitusiya dərc edilibdir, onun barəsində xalqın məlumatı olubdur. Nəhayət, Ali Sovetin sessiyasında həmin konstitusiya yekdilliklə qəbul edilibdir.

İndi bu böyüklükdə tarixi bir qərar Azərbaycan xalqının iradəsi nəzərə alınmadan 26 nəfər tərəfindən qəbul olunubdur. Burada da böyük bir səhv buraxılıbdır. Həmin səhv ondan ibarətdir ki, əgər Milli Məclis doğrudan da belə bir qərar qəbul etməli olsaydı, həmin qərar qanuna, konstitusiyaya görə Məclis üzvlərinin üçdə ikisi tərəfindən səs verildiyi halda qəbul olunmalı idi. Yəni konstitusiya qanunu sadə səs çoxluğu ilə yox, üçdə iki səs çoxluğu ilə qəbul olunmalıdır. Milli Məclisdə bu təklif səslərin üçdə ikisini toplaya bilməyib. 50 deputatdan 26-sı, yəni sadə səs çoxluğu ilə, bir səs üstünlüyünə görə qəbul olunubdur. Burada da konstitusiya qanunu pozularaq, volyuntarizm, özbaşınalıq edilərək belə bir qanunun qəbul olunduğu hesab edilmişdir.

Təəssüflər olsun ki, bu işi Milli Məclisin o vaxtkı sədri İsa Qəmbərov və o qrupa məxsus olan deputatlar ediblər. O dövrdə Azərbaycanın prezidenti olan Elçibəy də bu qanunu imzalayıbdır. Mən yenə deyirəm, bu qanunun məna və nəticəsini kənara qoyaraq sadəcə qanunvericilik nöqteyi-nəzərindən, dövlət məsuliyyəti nöqteyi-nəzərindən bu mühüm [430-431] məsələyə nə qədər məsuliyyətsiz yanaşdıqlarını qeyd etmək istəyirəm.

Bilirsiniz ki, 1993-cü ilin iyun ayının ortalarından Ali Sovetə, Milli Məclisə mən sədrlik etməyə başladım. Mən dörd ay Milli Məclisə sədrlik etdim. O vaxt Milli Məclisin bəzi üzvləri bir neçə dəfə məsələ qaldırdılar ki, həmin qanun düzgün qəbul edilməmişdir. Yəni o, konstitusiya qanunu kimi qəbul olunmayıbdır – imzalanmasına baxmayaraq bu qanun saxta qanundur. Dedilər ki, gəlin buna yenidən baxaq. Mən buna imkan vermədim. Çünki əgər bir səhv buraxılıbsa, o vaxt buna cürbəcür münasibətlər olubdur və müəyyən gərginlik yaranıbdır. İndi bu səhvi biz tələsik düzəltməyə başlasaq və ya hesab etsək ki, bunu düzəltmək lazımdır – bu, yeni çətinlik yaradacaqdır. Mən buna imkan vermədim.

Ali Sovetin sədri Rəsul Quliyev məlumat verir ki, bu il də Məclisin üzvlərindən bir neçəsi bu məsələni yenidən qaldırıb. Yenə də buna imkan verilməyibdir. Ancaq indi, yeni konstitusiya qəbul etdiyimiz zaman bu məsələdə mövqelərimiz müəyyənləşdirilməlidir. Aydınlaşdırmalıyıq ki, hansı formanı qəbul edək. Biz ya bu layihədə olan ifadəni, ya komissiya üzvlərindən bir neçəsinin təklif etdiyi "dövlət dilimiz Azərbaycan türk dilidir" fikrini, yaxud da Milli Məclisin bir qrup üzvü tərəfindən qeyri-qanuni qəbul olunmuş formanı qəbul etməliyik. Həmin o qeyri-qanuni qanun icra olunur. İndi mənə deyirlər ki, bizim dərsliklərdə ana dilini türk dili kimi yazırlar. Mən soruşdum ki, bəs niyə belə yazırlar? Dedilər ki, bu cür qanun qəbul olunubdur. Ancaq

qanunun özü də qeyri-qanuni yolla qəbul edilmişdir. Yəni o qanunun gücü yoxdur. Mən sizə bunu açıq deyirəm. Amma eyni zamanda mən hansı fikri qəbul edəcəyimiz barədə sizə öz mövqeyimi demirəm. Sadəcə olaraq anlatmaq istəyirəm ki, bu qanunun gücü yoxdur. Bildirmək istəyirəm ki, Azərbaycanın müstəqillik dövründə bu taleyüklü tarixi məsələlərə bu qədər məsuliyyətsiz yanaşan insanlar hesab edirəm ki, xalq qarşısında xəyanət edirlər. Doğrudan da, əgər belə bir qanun lazım idisə, o, xalqın iradəsi ilə qəbul edilməli idi. Bunun üçün referendum keçirmək lazımdır. Həmin referendum sayəsində əgər bu nəticə əldə olunarsa, deməli, xalqın əksəriyyəti bunu istəyir. Yaxud da əgər referendum keçirmək istəmirlərsə, heç olmasa parlament çərçivəsində qanunu pozmayaydılar. Zorakılıq, volyuntarizm, vəzifəsindən sui-istifadə etmək – bax, dəhşətlisi budur. Təəssüf ki, bu, bizim həyatımız[431-432]da çox vaxtlar olub. Ayrı-ayrı vəzifəli şəxslər vəzifə tutandan sonra hesab edirdilər ki, xalqın taleyi də onların əlindədir, tarix də onların əlindədir – nə istəsələr onu edə bilərlər. Bax, dərd burasındadır. Bunları nəzərə alıb mən konstitusiya komissiyasında bu məsələ qalxan kimi belə bir təklif verdim: bu məsələyə səthi yanaşmaq olmaz. Bu məsələ xüsusi müzakirə olunmalıdır. Bu, birinci növbədə o dairələrdə xüsusi müzakirə olunmalıdır ki, həmin dairələr bu məsələdə səriştəlidir – yəni bu məsələdə onların biliyi, təcrübəsi var və onlar bu işin mütəxəssisləridir.

Mən sizə dedim ki, indi ümumxalq müzakirəsinə 1400 təklif verilibdir. Bunlar konstitusiyanın ayrı-ayrı maddələri haqqındadır. Onların 18-də təklif olunur ki, bizim dövlət dilimiz Azərbaycan dili yox, türk dili yazılsın. 1400 təklifin içərisində 18 təklif bir şey deyildir. Ancaq mən təkcə 18 təklifə görə yox, sadəcə belə bir halın yarandığına görə, belə bir hadisənin mövcud olduğuna görə və bəzi ziyalılarımızın bu fikirdə olduğuna görə bu məsələnin dərindən araşdırılmasını lüzumlu hesab edirəm.

Ona görə də komissiyanın son iclasında layihəni ümumxalq müzakirəsinə verərkən mən Ramiz Mehdiyevə tapşırdım ki, bu məsələ xüsusi müzakirə olunsun. Şübhəsiz ki, fabrikdə, zavodda, yaxud da kolxoz və ya sovxozda bunu xüsusi müzakirə etməyə ehtiyac yoxdur. Əlbəttə, oralardan da müəyyən fikir almaq olar. Bu məsələ xüsusi marağı olan dairələrdə xüsusi müzakirə edilməlidir. Yəni bizim elmi müəssisələrdə, Elmlər Akademiyasında – burada dilçilik, ədəbiyyat, tarix, fəlsəfə, hüquq, şərqşünaslıq institutları var, görürsünüz ki, nə qədər elmi institutlarımız var, böyük təcrübəli, bilikli adamlarımız var, – sonra, universitetlərimizdə, məsələn, Bakı Dövlət Universitetində Azərbaycan dili, Azərbaycan ədəbiyyatı, Azərbaycan ədəbiyyatı tarixi və sair kafedralar var, keçmiş pedaqoji institutumuzda – indi N. Tusi adına Pedaqoji Universitetdir – orada da dilçiliklə məşğul olan çoxlu kafedralarımız var. Yəni bizim elm və tədris ocaqlarımızda xüsusi olaraq dilçiliklə məşğul olurlar. Yaradıcılıq ittifaqlarında, ilk növbədə Yazıçılar Birliyində – bu məsələni, yəni dili yazıçılar daha yaxşı bilirlər, həm tarix nöqteyi-nəzərindən, həm də onun tətbiqi nöqteyi-nəzərindən, – digər yaradıcılıq birliklərində bu məsələ müzakirə olunsun. Mən xahiş etdim ki, hər bir birlikdə, hər bir elmi idarədə olan müzakirələrin nəticələrini gətirin, biz onlara [432-433] konstitusiya komissiyasında baxaq. Çox təəssüf edirəm ki, mənim bu göstərişim yerinə yetirilməyibdir. Mən bu göstərişi verəndən sonra şübhəsiz ki, başqa işlərlə məşğul idim. Bilirsiniz ki, oktyabrın 20-də mən Amerikaya getdim və 25-də axşam oradan qayıtdım, ondan sonra ayın 28-də metroda faciə baş verdi. Yəni mənim bu 15 gündəki fəaliyyətim, iş cədvəlim sizə məlumdur. Mən dünən bu işlə məşğul olmağa başladım və işçi qrupu ilə görüşərkən soruşdum ki, bu məsələni necə müzakirə etmisiniz, nə nəticəyə gəlmisiniz. Çünki layihədə Azərbaycan dilinin yazılması o demək deyildir ki, bu mütləq Azərbaycan dili olmalıdır.

Mən bir daha qeyd edirəm, biz layihədə Azərbaycan dilini ona görə yazmışıq ki, bu, bizim konstitusiyada yazılıbdır. Ondan sonra Milli Məclisdə qəbul olunmuş qərar qeyri-konstitusion qərardır. Bir halda ki, biz indi yeni konstitusiya qəbul edirik, cəmiyyətimizdə cürbəcür fikirlər var – bu fikirləri araşdırmaq, təhlil etmək lazımdır. Onlardan tarixilik nöqteyi-nəzərindən, bu günümüz və gələcəyimiz nöqteyi-nəzərindən doğru olanını qəbul etmək lazımdır. Yəni bu işdə xalqın iradəsini nəzərə almaq lazımdır. Bu sahədə xalqın iradəsini ən yüksək səviyyədə bizim alimlərimiz, ziyalılarımız, xüsusən də ictimai elmlər sahəsində çalışan mütəxəssislərimiz, yazıçılarımız, şairlərimiz deyə bilərlər.

Ona görə də mən yenə çox narahat oldum. Göstərişlərimi yerinə yetirmədiklərinə görə əməkdaşlarımızı tənqid etdim. Onlar mənə belə izahat verdilər ki, guya sonra mənim göstərişimi müzakirə edərkən belə fikirləşiblər ki, bu cür müzakirə etmək lazım deyil, çünki bu, ajiotaj yaradacaqdır. Ona görə də belə hesab ediblər ki, gəlin bunu elə ümumi müzakirədən keçirək və xüsusi müzakirə etməyək. Mən bundan narazı oldum və ona görə də dünən göstəriş verdim ki, bütün dediyim sahələrin nümayəndələri və ümumiyyətlə kim istəyirsə bura dəvət olunsunlar. Mən dedim ki, Yazıçılar Birliyi üzvlərinin hamısını çağırın. Dünən axşam dedilər ki, orada 500 nəfər adam var. Mən dedim ki, onların 500-nü də çağırın. Biri dedi ki, orada bəzi adamlar belə də deyə bilər, elə də deyə bilər. Mən dedim ki, onları da çağırın. Qoy onlar nə deyirlərsə, gəlib burada desinlər. Hər deyilən sözdən bir məna çıxır. Biz bundan niyə qaçmalıyıq ki. Mən dedim ki, siyasi partiyaların nümayəndələrini də çağırın. Eşitdim ki, müxalifət qəzetlərində bu maddəni [433-434] tənqid edirlər və onlar Milli Məclisin qəbul etdiyi qərarın tərəfdarlarıdırlar. Dedim ki, qoy onlar da gəlsin. Bura hamı gəlməlidir. Çünki bu bizim elə bir işimizdir ki, bunu gərək aşkar, açıq, heç kəsdən çəkinmədən müzakirə edək. Ona görə ki, ən düzgün, ən optimal fikrə gəlməliyik.

Son vaxtlar, deyəsən bu layihə dərc olunandan sonra hansısa bir müxalifət qəzetində oxudum ki, "bizim dilimizi vaxtilə Stalin və Mikoyan dəyişiblər, dilimizi Azərbaycan dili onlar adlandırıblar, indi də onların yolu ilə getmək istəyirik". Mən dünən onlara dedim ki, bilirsiniz, bax bunu yazan adamlar – əgər siz bu müzakirədən qaçmısınızsa və hesab edirsinizsə ki, bu, ajiotaj yaradacaq, hesab edirsinizsə elə bu yazılan qəbul olunmalıdır – üç ildən sonra, beş ildən sonra, xüsusən də Heydər Əliyev dünyadan gedəndən sonra götürüb yazacaqlar ki, "Heydər Əliyev Stalin və Mikoyanla birlikdə bizi bu yola gətirdi, yoxsa biz başqa yolla gedəcəydik". Mən bu tarixi məsuliyyətdən qorxmuram. Ancaq mən də araşdırıram. İstəyirəm ki, həqiqəti aydınlaşdıraq. Ona görə də xahiş edirəm ki, mənim bu çıxışımı vəziyyəti aydınlaşdırmaq niyyəti ilə qəbul edəsiniz. Mən bu barədə heç bir fikir söyləmirəm və heç söyləməyəcəyəm də. Mən bu fikri sizin sərəncamınıza verəcəyəm.

Buna görə də mən dedim ki, sizi dəvət etsinlər. Əvvəlcə fikirləşdim ki, müzakirəni özünüz aparasınız. Sonra qərara gəldim ki, yaxşı olar, buraya özüm də gəlim və bu fikirləri izah edim. Çünki özüm izah etməyəndə bəzən yenə də məsələni qarışdıracaqlar və fikirləri düzgün çatdırmayacaqlar. Mən sizə fikrimi özüm çatdırıram. Buraya televiziyanı da dəvət etmişəm. Burada nə deyilirsə, hamısını qoy yazsınlar və xalqa çatdırsınlar, hər şeyi aydınlaşdıraq. Məsələ bundan ibarətdir. Ona görə mən istəyirəm ki, siz məsuliyyəti dərindən dərk edərək müzakirə edəsiniz, bu məsələyə səthi yanaşmayasınız. Bu, çox mühüm məsələdir. Məsələn, bizim bəzi ziyalılar deyirlər ki, əgər indi biz Azərbaycan dili yazsaq, onda bəs Füzuli nə dilində yazıbdır, Cəlil Məmmədquluzadə nə dilində yazıbdır Belə sözlər deyirlər.

Eyni zamanda deyirlər ki, guya 1935-36-cı illərdə bizim dilimiz türk dili adlanıbdır və dilimizin adı o vaxt dəyişilibdir. Amma şəxsən məndə bu barədə tarixi bir sənəd yoxdur. Bu, hansı fərmanla, hansı qərarla, hansı sənədlə dəyişdirilibdir – bu, məndə yoxdur. Bilmirəm, bəlkə kimdəsə var.

Ancaq tariximiz elə olubdur ki, vaxtilə bizə "azərbaycanlı" [434-435] da deməyiblər. İndi əgər biz Cəlil Məmmədquluzadəyə, Mirzə Ələkbər Sabirə, Nəriman Nərimanova və ya başqalarına istinad ediriksə, elə onların əsərlərində deyirlər ki, biz müsəlmanıq. Bəli, o vaxt deyirdilər ki, biz müsəlmanıq. Yazıların əksəriyyətində belədir. Bizə "azərbaycanlılar" da demirdilər, bəlkə türklər deyirdilər. Amma çox vaxt deyirdilər ki, biz müsəlmanıq. Nəhayət, XX əsrin axırlarında biz bu məsələləri tam aydınlaşdırmalıyıq və bu məsələyə nöqtə qoymalıyıq ki, bütün söz-söhbətə son qoyulsun.

Siz hansı qərarı qəbul etsəniz, həmin qərarı biz konstitusiyaya yazarıq.

Mən bununla da sözümü qurtarıram. Ancaq iki kəlmə onu demək istəyirəm ki, mən bu danışdığımız dili – buna hansı dil deyirsiniz-deyin – çox gözəl dil hesab edirəm. Dilimiz zəngindir, çox ahəngdar dildir, dilimizin söz ehtiyatı çox böyükdür. Qrammatika sahəsində həddindən artıq böyük nailiyyətlərimiz var. Şəxsən mən bu dili sevirəm.

Bilirsiniz ki, keçmişə qara yaxmaq istəyənlər bunu bir müddət etdilər. Ancaq bu, əhəmiyyətsizdir. Tarixi dəyişdirmək olmaz. Bizim dilçilərin, alimlərin xatirində olmalıdır ki, – deyəsən, – 70-ci illərin axırı idi – dövlət mükafatları verilirdi. Biz xüsusən Azərbaycan dili haqqında kitab yazmış böyük bir kollektivə dövlət mükafatı verdik. Bu mükafatı onun müəllifinə görə yox, əsərin özünə və bu kitabın dilimizin təhlilinə həsr olunmasına görə verdik. Adətən biz mükafatları bir romana, bir şeirə, bir poemaya, bir teatr tamaşasına, bir rəsm əsərinə görə veririk. Amma bu mükafatı mən xüsusi mükafat hesab edirəm. Burada mənim şəxsi təşəbbüsüm, şəxsi məqsədim o olubdur ki, ictimaiyyət bir daha bilsin ki, biz dilimizin inkişafına nə qədər fikir veririk.

Bu müddətdə dilimizin böyük qrammatikası yaranıbdır. Böyük dərsliklər, əsərlər var. Respublikamızda böyük dilçilik institutu mövcuddur. Bizim böyük dilçilərimiz var, – yadımdadır, akademik Şirəliyev, Dəmirçizadə, – mən o vaxtkı adamları deyirəm, indi yaşayan alimlər adlarını demədiyimə görə məndən inciməsinlər. Bəli, bizim böyük alimlərimiz vardır.

Azərbaycanda türkologiya da çox inkişaf edibdir. Keçmiş Sovetlər İttifaqının ərazisində türkologiyaya demək olar ki, Azərbaycan qədər fikir verən olmayıbdır. Təsadüfi deyildir ki, Sovetlər İttifaqında buraxılan yeganə "Türkologiya" jurnalı [435-436] Azərbaycanda nəşr edilirdi. İndi də nəşr olunur. Yəni bu sahədə bizim böyük nailiyyətlərimiz var. Alimlərimiz, bilikli adamlarımız və belə zəngin dilimiz var.

Dilimizin 30-cu illərdəki vəziyyətini təsəvvür edin. Götürün, oxuyun 20-ci ildə yazılan kitabları. İndiki dilimizi götürün. Dilimiz nə qədər zənginləşib, nə qədər gözəlləşibdir, nə qədər cazibədar olubdur, nə qədər də şirindir. Bu bizim dilimizdir. Amma adını nə qoyacaqsınız – o, sizin işinizdir.

Mən dediyim bir-iki tənqidi sizin daha düz qəbul etməyiniz üçün Şahin Əliyevə söz verirəm. O, Milli Məclisin qəbul etdiyi həmin qərarı sizə oxusun...

Azərbaycan Respublikasının 1978-ci ildə qəbul olunmuş konstitusiyasının dövlət dili haqqında 73-cü maddəsi Milli Məclisin məlum qərarı ilə ləğv olunmur, o, qüvvədədir. Milli Məclisin qəbul etdiyi bu qərar da qüvvədədir. Bax, respublikamızda belə qarışıqlıq yaranıbdır. O vaxt dövlət və hökumət başçıları, bu böyük məsuliyyəti üzərinə götürən adamlar belə qərarı, qanunu qəbul edərkən sizinlə məsləhətləşiblərmi? Onlar Elmlər Akademiyası, Yazıçılar Birliyi ilə, bizim bu alimlərimizlə, dilçilərimizlə məsləhətləşiblərmi? Əgər məsləhətləşməyiblərsə, əgər İsa Qəmbərov, İbrahim İbrahimov, İsgəndər Həmidov Azərbaycan xalqının dili haqqında da qərar qəbul edirlərsə, onlar çox böyük səhv edirlər.

Mən sizdən xahiş edirəm ki, bugünkü məsələni sərbəst müzakirə edəsiniz. Dözümlü olun, hərə öz fikrini desin. Heç kəs kənarda qalmasın, heç nədən çəkinməsin və heç kəs də narahat olmasın ki, onun dediyinə görə ya mənfi, ya da müsbət münasibət bəslənəcəkdir.

Mən sizi tərk edirəm. İstəmirəm ki, burada iştirakımla məsələnin müzakirəsi zamanı ya o tərəfə, ya bu tərəfə təsir edəm. Mən gəlmişdim ki, sizə sadəcə olaraq məlumat verim və məqsədimizi sizə çatdırım.

Güman edirəm ki, siz bu məsələni ətraflı müzakirə edib öz qərarınızı bizə çatdıracaqsınız. Mən sizin qərarınızı gözləyəcəyəm. Sağ olun. [436-437]

## QAZAXISTAN RESPUBLİKASININ MÜSTƏQİLLİK GÜNÜ MÜNASİBƏTİLƏ BAKIDAKI QAZAXISTAN SƏFİRLİYİNİN TƏŞKİL ETDİYİ RƏSMİ QƏBULDA NİTQ

*"Gülüstan" Sarayı*

*31 oktyabr 1995-ci il*

Hörmətli səfir, hörmətli xanımlar və cənablar!

Bu gün biz Qazaxıstan Respublikasının dövlət müstəqilliyinin dördüncü ildönümünü böyük məmnuniyyətlə qeyd edirik. Bu münasibətlə mən sizi, qardaş qazax xalqını, Qazaxıstan Respublikasının bütün vətəndaşlarını Azərbaycan xalqı adından və öz adımdan səmimi qəlbdən təbrik edirəm, qazax xalqına müstəqillik yolunda uğurlar arzulayıram.

Qazaxıstan Respublikası xalqının böyük tarixi var. Əsrlər boyu qazax xalqı öz torpağında, öz yurdunda milli azadlığı uğrunda mübarizə aparmış və nəhayət, dörd il bundan öncə dövlət müstəqilliyini əldə etmiş və ilk dəfə olaraq qazax xalqının dövlətçiliyi yaranmışdır. Bu, qazax xalqının tarixində çox əlamətdar hadisədir.

Qazaxıstan böyük bir ölkədir. Onun geniş ərazisi, zəngin təbii sərvətləri, çoxsaylı əhalisi var. Ən əhəmiyyətlisi budur ki, Qazaxıstan vətəndaşları, qazax xalqı indi azad bir ölkədə yaşayırlar, öz talelərini özlərinin həll etməsi üçün imkan qazanıblar. Müstəqilliyin dörd ili ərzində Qazaxıstan Respublikasının əldə etdiyi nailiyyətlər bizi qardaş bir ölkə kimi, qardaş bir xalq kimi sevindirir. Bu nailiyyətlər münasibəti ilə mən qardaş və bacılarımızı təbrik edirəm. Qazaxıstanla Azərbaycan arasında, qazax xalqı ilə Azərbaycan xalqı arasında əlaqələr böyük tarixə malikdir. İndi, XX əsrin sona çatdığı dövrdə bu əlaqələr daha da genişlənir, daha da inkişaf edir. Son vaxtlaradək biz – Qazaxıstan da, Azərbaycan da Sovet İttifaqının tərkibində idik və bu dövlətin, İttifaqın tərkibində olduğumuz zaman xalqlarımız, ölkələrimiz arasındakı əlaqələr daha geniş inkişaf etmişdir – istər iqtisadiyyat, istərsə də mədəniyyət sahəsində, ümumiyyətlə, bütün sahələrdə.

Biz Qazaxıstanla qonşuyuq, aramızda Xəzər dənizi var. Xəzər dənizi bizim üçün həm sərhəddir, həm də bizi birləşdirən [437-438] dənizdir. Biz bu dəniz vasitəsilə əməkdaşlıq da edirik. Ən başlıcası bundan ibarətdir ki, bir-birimizə olan fayda və mənfəətimiz daha çoxdur. İki ay bundan öncə bütün türk dünyasının böyük şairi, alimi, filosofu və bəstəkarı Abay Kunanbayevin 150 illik yubileyini hamımız birlikdə öz bayramımız kimi qeyd etdik. Abay Kunanbayevin 150 illik yubileyi Azərbaycanda da xüsusi qeyd olunmuşdur. Bu bayram münasibətilə Qazaxıstan Respublikasının prezidenti, hörmətli dostum Nursultan Nazarbayevin dəvətini qəbul edərək mən Almatıya getdim və bizim nümayəndə heyətimiz yubiley şənliklərində öz bayramımız kimi iştirak etdi.

Qazaxıstan prezidenti hörmətli cənab Nursultan Nazarbayevlə mənim aramda dostluq əlaqələri var. Bu əlaqələrin də çox böyük tarixi var. İndi, Qazaxıstan və Azərbaycan müstəqil dövlətlər olduğu bir dövrdə biz həm keçmiş əlaqələrimizdən, həm də indiki əlaqələrimizdən ölkələrimizin əməkdaşlıq etməsi üçün çox səmərəli istifadə edirik.

Bu günlərdə mən Amerika Birləşmiş Ştatlarında, Nyu-Yorkda olarkən hörmətli cənab Nazarbayevlə görüşüm və söhbətlərim oldu. Həmin söhbətlər zamanı hər ikimiz Qazaxıstanla Azərbaycan arasında əlaqələrin daha da inkişaf etdirilməsi üçün öz arzularımızı bildirdik və bu məqsəd naminə səy göstərəcəyimizə söz verdik. Güman edirəm ki, bizim əməkdaşlığımız bundan sonra da daha sürətlə inkişaf edəcəkdir.

Biz bir çox beynəlxalq təşkilatlarda, habelə Müstəqil Dövlətlər Birliyi çərçivəsində də əməkdaşlıq edirik. Lakin ən çox ikitərəfli əlaqələrin inkişaf etməsinə fikir veririk və bu əlaqələrin çox əhəmiyyətli olduğunu hesab edirik. Eləcə də Xəzər dənizində həm neft və qaz çıxarılması, həm də onun təbii sərvətlərindən istifadə olunması sahəsində əməkdaşlığımızın çox böyük gələcəyi var. Ümidvaram ki, biz bu məsələlərdə eyni fikirdə olaraq, ölkələrimizin mənfəətini təmin edərək əməkdaşlıq edəcək və nailiyyətlər qazanacağıq.

Qazaxıstan Respublikasının Azərbaycanda səfirliyinin olması Qazaxıstanın Azərbaycanla əlaqələrə böyük diqqət yetirməsinin təzahürüdür. Mən bunu yüksək qiymətləndirirəm və güman edirəm ki, yaxın vaxtlarda Azərbaycan Respublikasının da Qazaxıstanda səfirliyi olacaqdır.

Mən bu bayram münasibətilə qazax xalqını bir daha təbrik edirəm. Qazax xalqının qarşısında böyük vəzifələr durur. Bu il yeni parlament seçkiləri keçirilməsi də bu vəzifələrdən biridir. [438-439] Belə bir vəzifə bizim də qarşımızda durur. Qazaxıstan artıq öz konstitusiyasını qəbul etmişdir. Bu, böyük tarixi nailiyyətdir. Qazaxıstan dekabrda parlament seçkiləri keçirəcəkdir. Biz də noyabrın 12-də həm parlament seçkiləri keçirəcəyik, həm də konstitusiya qəbul edəcəyik. Görünür ki, elə bu sahələrdə də bərabər gedirik, bir istiqamətdə gedirik, həm Qazaxıstan, həm də Azərbaycan öz dövlət müstəqilliyini möhkəmləndirir və öz dövlət quruculuğunda lazımi addımlar atır. Bax bunların hamısı gələcək dostluq əlaqələrimizin möhkəmlənməsi üçün çox böyük əsas yaradır.

Sizi bayram münasibətilə bir daha təbrik edirəm, qazax xalqına xoşbəxtlik və səadət arzulayıram. Qazaxıstan Respublikasının dövlətinə, hökumətinə, onun prezidenti hörmətli cənab Nazarbayevə öz ölkəsinin qarşısında duran vəzifələrin həyata keçirilməsində uğurlar diləyirəm.

Sağ olun! [439-440]

## AZƏRBAYCAN RESPUBLİKASININ YENİ KONSTİTUSİYA LAYİHƏSİNİ HAZIRLAYAN KOMİSSİYANIN İCLASINDA GİRİŞ SÖZÜ

*Prezident sarayı,*

*2 noyabr 1995-ci il*

Hörmətli komissiya üzvləri!
Hörmətli xanımlar və cənablar!

Bu gün Azərbaycan Respublikasının yeni konstitusiya layihəsini hazırlayan komissiyanın növbəti iclası keçirilir. Bildiyiniz kimi, indiyə qədər komissiya tərəfindən çox iş görülüb, konstitusiyanın layihəsi hazırlanıb, mətbuatda dərc olunub, ümumxalq müzakirəsinə verilib. Oktyabrın 14-də komissiyanın iclasında biz belə qərar qəbul etdik ki, ümumxalq müzakirəsi başa çatandan sonra noyabrın 2-dək ümumxalq müzakirəsinin yekunları, verilən təkliflər əsasında konstitusiyanın layihəsi işlənilsin, komissiyada baxılsın və noyabrın 2-də son variant, yəni ümumxalq müzakirəsindən sonra hasil olmuş variant bir daha dərc edilsin ki, Azərbaycan Respublikasının yeni konstitusiyası noyabrın 12-də ümumxalq səsverməsi, referendumu vasitəsilə qəbul olunsun.

Bu gün noyabrın 2-dir. Biz bu işlərin hamısını bu günə qədər tamamlaya bilməmişik. Səbəb ondan ibarətdir ki, bir tərəfdən işlər doğrudan da çoxdur, ikinci tərəfdən də bəzi hadisələr vaxtımızı çox almışdır. Ona görə də komissiyanın iclasında həm bu gün üçün nəzərdə tutulan məsələlər barəsində müzakirə gedəcəkdir, həm də bundan sonra hansı işlər görəcəyimizi birlikdə məsləhətləşib qərar qəbul etməliyik.

Ancaq bu işlərə başlamazdan əvvəl mən oktyabrın 28-də Bakı şəhər metrosunda qəza nəticəsində həlak olmuş Azərbaycan vətəndaşlarının xatirəsini bir dəqiqəlik sükutla yad etməyi rica edirəm.

Allah həlak olanlara rəhmət eləsin!

Baş vermiş faciə ilə əlaqədar bizim gördüyümüz işlər respublika ictimaiyyətinə məlumdur. Dərhal lazımi tədbirlər görülüb, komissiya yaradılıbdır. Bu müddətdə komissiya qarşısına [440-441] qoyulan vəzifələri həyata keçirir. Tələf olanların hamısı onların qohum-əqrəbaları tərəfindən götürülüb, komissiyanın iştirakı ilə dəfn edilibdir. Onların ailələrinə lazımi maddi yardım göstərilib. Xəstəxanalarda olan yaralılara tibbi yardım göstərilir. Bu faciəli hadisə bütün dünyada çox böyük əks-səda doğurubdur. Dünyanın bir çox dövlət, hökumət başçıları, beynəlxalq təşkilatların rəhbərləri, görkəmli ictimai-siyasi xadimlər xalqımıza üz vermiş bu faciə münasibətilə göndərdikləri məktublarda, teleqramlarda, mənimlə telefon danışıqlarında faciə ilə əlaqədar xalqımıza başsağlığı vermişlər.

Mən fürsətdən istifadə edərək, başımıza gələn bu bəla, faciə ilə əlaqədar bizim dərdimizə şərik olduqlarına, bizə mənəvi dəstək göstərdiklərinə, başsağlığı verdiklərinə, öz münasibətlərini bildirdiklərinə görə bütün ölkələrin dövlət, hökumət başçılarına, bizə başsağlığı verənlərin hamısına təşəkkürümü bildirmək istəyirəm.

Eyni zamanda, bu məsələlərdə respublikamıza yardım etmək üçün bir neçə ölkədən nümayəndələr gəliblər. Onların arasında xəstələrə yardım göstərmək üçün tibb işçiləri, belə qəza hadisələrini araşdıran sahənin mütəxəssisləri, ekspertləri və müxtəlif sahələrdən olan yüksək səviyyəli nümayəndələr vardır. Bir çox dövlət başçıları mənimlə telefonla danışarkən bu barədə öz təkliflərini irəli sürmüşlər və mən də bunları qəbul etmişəm, belə nümayəndələr respublikamıza gəliblər. Bəzi ölkələr, bəzi təşkilatlar bu hadisə ilə əlaqədar respublikamıza maddi kömək, dərman yardımı da göstərirlər. Bunlara görə də mən təşəkkür edirəm.

Güman edirəm ki, bu məsələlərin araşdırılması və yaralananlara, xəstələnənlərə, xəsarət alanlara lazımi tibbi yardım göstərilib, onların müalicə edilməsi üçün bizim öz imkanlarımız var. Ancaq başqa ölkələrin yardımı bu imkanlarımızı genişləndirir. Bunların hamısından istifadə edərək biz bu ağır sınaqdan da çıxacağıq.

İndi bu qəzanın başvermə səbəbləri araşdırılır. Şübhəsiz ki, qəza baş verən kimi onun haqqında bir fikir söyləmək mümkün deyildi, ola bilər, bu gün də mümkün deyil: qəza nəyə görə baş verib: – texniki səbəbdir, səhlənkarlıqdır, yaxud terrordur, təxribatdır, başqa bir cinayətdir? Bu ehtimalların hamısı mümkündür, heç birini kənara qoymaq olmaz, heç birini istisna etmək olmaz və işin bu mərhələsində hansısa bir ehtimalın üzərində dayanmaq da olmaz. Bizim fikrimiz belədir. [441-442] Biz əvvəldən də belə mövqe tutmuşuq. Mən respublikamızın istintaq orqanlarına, əməliyyat orqanlarına, inzibati orqanlara dərhal göstəriş vermişəm ki, bu qəzanın başvermə səbəbləri çox dəqiq, obyektiv aydınlaşdırılmalıdır. Heç bir subyektivliyə, obyektivlikdən kənar heç bir hərəkətə yol verilə bilməz.

Bu, ağır faciədir, ancaq onun səbəblərinin araşdırılması da bizim üçün çox vacibdir. Ona görə də mən bu gün həm sizi, həm də respublikanın bütün ictimaiyyətini bir daha əmin etmək istəyirəm ki, faciənin səbəblərinin obyektiv araşdırılması üçün bütün tədbirləri görəcəyik və – heç kəs narahat olmasın, – bu səbəblər tam obyektiv aydınlaşdırılacaqdır. İndi bəzi adamlar özləri təhqiqat aparmaq istəyirlər, bəzi jurnalistlər təhqiqat aparmaq istəyirlər. Bəzi mətbuat orqanlarında, qəzetlərdə, xüsusən müxalifət qəzetlərində cürbəcür şayiələri, ehtimalları

götürüb məqalələr yazırlar. Belə mətbuat orqanlarına, belə müəlliflərə məsləhət görərdim ki, bu işlərlə məşğul olmasınlar. Xalqın faciəsindən istifadə edib öz şəxsi məqsədlərini həyata keçirmək lazım deyil. Hər kəs öz məqsədinə nail olmaq istəyirsə, onu sivilizasiya yolu ilə, qanun çərçivəsində, adət-ənənələrimizə uyğun olaraq etməlidir, onların əsasında hərəkət etmək lazımdır. Bu faciədən istifadə edib orada-burada demək ki, "iqtidar bu işə baxmadı, onu görmədi, bunu eləmədi" – bunlar hamısı boş sözlərdir və şübhəsiz ki, belələri xalqımızın içərisində heç bir dəstək ala bilməzlər.

Hətta bu gün mənə deyirlər ki, respublikamızda cinayət törədərək qaçıb başqa yerdə, o cümlədən Moskvada gizlənmiş adamlar oradan bəyanatlar verirlər, cürbəcür şayiələr yayırlar. Bu da əhəmiyyətsizdir. Bunlara bəlkə də heç fikir vermək lazım deyil. Ancaq mən bu barədə ona görə deyirəm ki, bu faciə zamanı xalqın hamısının birləşməsi əvəzinə ayrı-ayrı insanların bu faciədən öz məqsədləri üçün istifadə etməsi, onların nə qədər mənəviyyatdankənar mövqedə durduqlarını və mənəviyyatsız olduqlarını bir daha sübut edir.

Respublikanın baş prokuroru burada oturubdur. Mən onunla hər gün əlaqə saxlayıram. O, istintaqa rəhbərlik edir. Mən ona göstərişlər vermişəm. Dünən axşam da onunla çox ətraflı danışıq aparmışam. Onlar Bakıya gələn xarici mütəxəssislərlə də görüşüblər. Burada sizin yanınızda bir daha təkrar edirəm ki, bu faciənin, qəzanın başvermə səbəbləri dürüst, obyektiv aydınlaşdırılmalıdır. Biz bunun nəticəsində tədbirlər görməliyik. Şübhəsiz ki, bizim bu mühüm nəqliyyat vasitəsi sahəsində, [442-443] eyni zamanda günahkarlar haqqında tədbirlər görülməlidir. Əgər doğrudan da qəsdən cinayət olubsa – onların haqqında tədbirlər görülməlidir.

Dünən gecə mən Moskva televiziyasına baxırdım. Belə başa düşdüm ki, orada metro sahəsində bir rəhbər işçi ilə söhbət aparırdılar. Soruşdular ki, Moskva metrosunun vəziyyəti necədir? O, Moskva metrosu vaqonlarının nə qədər ağır vəziyyətdə olduğunu dedi. Deyəsən dedi ki, Moskva metrosunun 4 min vaqonu var, onların yarısından çoxu elə belə ağır vəziyyətdədir. İndi bu, bizim həyatımızın reallığıdır.

Vaxtilə biz nə metro vaqonlarını özümüz istehsal etmişik, nə bizdə belə bir istehsal var, nə də ki, metronun bütün başqa ləvazimatlarını özümüz istehsal etmişik. Bunlar hamısı Sovetlər İttifaqının cürbəcür yerlərində istehsal olunub Azərbaycana gətirilən avadanlıqlardır, maşınlardır, dəzgahlardır. Biz onlardan istifadə etmişik və bu gün də istifadə edirik. Ola bilər, o müxalifətdə olan, qəzetlərdə yazan adamlar heç bir şey bilmədikləri kimi, bunu da bilmirlər. Ancaq mən Azərbaycanda işləyərkən bu sahə ilə çox ətraflı məşğul olmuşam, çünki Bakı metropoliteninin, ola bilər, əksər hissəsi mənim burada və Moskvada işlədiyim vaxt tikilibdir. Moskvada işləyərkən isə mən Nazirlər Soveti sədrinin birinci müavini kimi bütün nəqliyyat kompleksinə, o cümlədən metro tikintisi işlərinə də rəhbərlik edirdim. Demək istəyirəm ki, o vaxt bütün Sovetlər İttifaqında on şəhərdə metro tikilirdi. O şəhərlərdə metro tikintisi işlərinə diqqət yetirərək mən xüsusi diqqəti Bakı metrosunun tikintisinə yönəldirdim. Bu məsələlərin həll olunması üçün o vaxtlar çox tədbirlər görmüşdüm. Yəni bu işi mən bilirəm. Mən mütəxəssis deyiləm, ancaq bu işlə yaxından məşğul olduğum üçün bunu bilirəm. Metronun vəziyyətini də bilirəm. Ona görə də bu məsələləri tündləşdirməyə, cürbəcür şayiələr yaymağa, cürbəcür böhtan fikirlər söyləməyə ehtiyac yoxdur.

Yenə də deyirəm, mən baş prokurora, bütün istintaq orqanlarına əmr vermişəm ki, bu məsələ ilə ciddi məşğul olsunlar və öz qərarlarını, nəticələrini mənə təqdim etsinlər.

İndi komissiyanın iclasının bugünkü gündəliyi haqqında. Mən qeyd etdim ki, biz verilən təkliflər əsasında bu günədək layihəni tamamilə işləyib qurtarıb mətbuata verməliydik. Bu, mümkün olmadı və bunun da səbəbləri aydındır. Bu gün isə yenə də komissiyanın iclasında əhali, ictimaiyyət tərəfindən verilmiş təkliflərin hamısının müzakirə olunması gündəliyə sa[443-444]lınmayıbdır. Mən gündəliyə bir məsələni təklif etmişəm və bu gün bu məsələnin müzakirə olunmasını lazımlı hesab edirəm. O da konstitusiya layihəsinin 23-cü maddəsi – Azərbaycanın dövlət dili haqqında olan maddədir. Nə üçün mən bu maddəni xüsusi müzakirə etməyi lazım bilirəm, nə üçün maddəyə bu qədər diqqət verilir və nə üçün şəxsən mən diqqət verirəm? Ona görə ki, bu maddə konstitusiyamızın çox əsas maddələrindən biridir. Bir də ona görə ki, dövlət dili haqqında respublikamızın tarixində və xüsusən XX əsr tariximizdə cürbəcür mənbələrdə cürbəcür ifadələr olubdur. Bunların hamısını müzakirə edib, son bir qərara gəlmək lazımdır. Ona görə də mən bu məsələnin xüsusi müzakirə olunmasını lazım bilmişəm.

1992-ci ilin dekabrında Milli Məclis Azərbaycanın dövlət dili haqqında bir qanun qəbul edibdir. Dünən yox, srağagün, yəni oktyabrın 31-də bu məsələ ilə əlaqədar Elmlər Akademiyasının binasında Azərbaycan ziyalılarının – akademiyanın elmi idarələrinin, universitetlərin, yaradıcılıq birliklərinin nümayəndələrinin və alimlərimizin, şairlərimizin, yazıçılarımızın, dil, ədəbiyyat, elm sahəsində mütəxəssislərin böyük bir yığıncağını keçirməyi lazım bildim. Həmin yığıncağın birinci hissəsində mən özüm də iştirak etdim. Orada çox geniş müzakirə gedib. Müzakirə zamanı mən həmin məsələnin nə üçün bu cür müzakirə olunması haqqında fikirlərimi demişəm və bu, televiziyada verilibdir. Mən təkrar etmək istəmirəm. Yəqin ki, siz televiziya ilə bunu görmüsünüz, eşitmisiniz. Kim eşitməyibsə, mənim çıxışım qəzetdə dərc olunub, oxuya bilər.

Sadəcə onu qeyd etmək istəyirəm ki, bu məsələyə komissiyanın sədri, Azərbaycanın prezidenti kimi şəxsən mən xüsusi fikir verirəm. Bir də qeyd edirəm ki, tarixi əhəmiyyət kəsb etdiyinə, vacibliyinə, həm də onun barəsində cürbəcür fikirlər olduğuna görə, hətta müəyyən qanunsuz qərar qəbul edildiyinə görə mən bu məsələyə xüsusi əhəmiyyət verirəm.

1992-ci ilin dekabrında Milli Məclis tərəfindən qəbul olunmuş qanun, – mənasını, məzmununu kənara qoyaraq, – qanunvericilik nöqteyi-nəzərindən qeyri-qanuni bir sənəddir. Çünki konstitusiyada Azərbaycanın dövlət dili haqqında dəyişiklik etmək üçün gərək konstitusiya qanunu qəbul ediləydi. Konstitusiya qanunu qəbul etmək əvəzinə qəbul olunmuş bu adi qanun, şübhəsiz ki, konstitusiyada dəyişiklik edə bilməz. Azərbaycan Respublikasının 1978-ci ildə qəbul olunmuş kons[444-445]titusiyasında "Azərbaycanın dövlət dili Azərbaycan dilidir" yazılıbdır. 1992-ci ilin dekabr ayında isə Milli Məclisin 26 üzvünün səs verməsi ilə qanun qəbul olunubdur ki, "Azərbaycanın dövlət dili türk dilidir". Belə bir qanun qəbul edərkən 1978-ci ildə qəbul olunmuş konstitusiya qanunu ləğv olunmayıbdır. Şübhəsiz ki, bu qanun onu ləğv edə bilməzdi. O qanun da qalıbdır, yəni konstitusiya da qalıb, bu qanun da qəbul olunub. Ona görə də qanunvericilik, qanunçuluq nöqteyi-nəzərindən burada böyük qüsurlara yol verilibdir. Bu, məsələnin bir tərəfi.

İkinci tərəfi ondan ibarətdir ki, Milli Məclis tərəfindən qeyri-qanuni qəbul olunmuş bu qanun respublikamızda birmənalı qəbul edilməyib. Əhalinin bir hissəsi, demək olar ki, əksəriyyəti ümumiyyətlə bu qanunun qəbul edilməsindən narazı olubdur, ola bilər, bir hissəsi bəyənibdir. Ancaq qanunvericilik, ümumiyyətlə siyasət sahəsində təcrübəsi olan adamlar bu qanun qeyri-qanuni qəbul edildiyinə görə bundan narahat olublar.

Bax, belə bir vəziyyət yaranıb. Şübhəsiz, bunların hamısı da o zaman, o dövrdə, həmin 1992-ci ildə Azərbaycana rəhbərlik edən adamların bu cür ciddi, belə məsuliyyətli işə məsuliyyətsiz yanaşmalarını bir daha nümayiş etdirir, sübut edir. Bax, belə səhvlər buraxmamaq, həmin qeyri-qanuni yollarla getməmək üçün və bu məsələni xalqın iradəsi ilə həll etmək üçün konstitusiya komissiyasının sədri kimi mən bu işə çox ciddi fikir verirəm, bu məsələnin ciddi müzakirə edilməsini lazım bilmişəm. Ona görə də komissiyanın bugünkü iclasında yalnız bu maddəni, bu məsələni müzakirə etməyi təklif edirəm.

Onu da qeyd etmək istəyirəm ki, əgər mən komissiya sədri, bir prezident olaraq, bəzilərinin hesab etdiyi kimi, məsələn, hansısa bir tərəfə meyl etsəydim, onu edə bilərdim. Konstitusiyanın layihəsi müzakirə olunub və oktyabrın 14-də konstitusiya komissiyasında son dəfə müzakirə edilib, dərc olunub. Son müzakirə zamanı konstitusiya komissiyasının üzvlərindən üç nəfər dil haqqında öz fikirlərini bildirib.

Komissiyanın üzvləri Bəxtiyar Vahabzadə, Anar, Elçin Əfəndiyev deyirlər ki, dövlət dili yazılsın: Azərbaycan türk dili, ya Azərbaycan türkcəsi. Komissiyanın başqa üzvləri, bu fikri bəyənməyiblər, yəni bu fikrə qoşulmayıblar. Prosedura, müzakirə nöqteyi-nəzərindən vəziyyət bundan ibarətdir. Ancaq yenə də deyirəm, bu çox həssas, incə məsələ olduğuna [445-446] görə əgər bir adam da bu barədə bir söz deyirsə, ona fikir vermək lazımdır və burada məsələni adi çoxluq ilə, azlıq ilə həll etmək olmaz. Baxın, 1992-ci ilin dekabrında bu məsələni Milli Məclisdə zorla həyata keçiriblər. Əgər zorla olmasaydı, Milli Məclisin üzvlərinin əksəriyyəti gərək buna səs verəydi. Ancaq əksəriyyəti səs verməyibdir. Milli Məclisin iclasda iştirak edən 39 nəfər üzvündən bu məsələyə 26 nəfər səs verib. Milli Məclisin 50 üzvü var. Belə bir qanunun qəbul edilməsi üçün Milli Məclisin üzvlərinin üçdə ikisi səs verməli idi. Əgər üçdə ikisi səs verməyibsə, demək, təmkinlik göstərmək lazım idi. Bu ideyanı mütləq həyata keçirmək istəyən adamlar bunu bir daha müzakirə etməli idilər, bir daha məsləhətləşmələr aparmalı idilər və o adamları da inandırmaq lazım idi ki, belə bir qərar qəbul olunmalıdır. Əgər onlar inanmasaydılar, onlarla hesablaşmaq lazım idi. Bunlar olmayıb.

Mən hesab etmirəm ki, bu, təcrübəsizlikdən olub. Mən hesab edirəm ki, o insanlar – o vaxt Azərbaycana rəhbərlik edən adamlar təcrübəsizliyindən də çox, böyük iddialarla yaşayırdılar. Onların hər biri hesab edirdi ki, bütün bu alçaq dağları onlar yaradıblar, başqaları yaratmayıblar. Bax, belə iddialara görə onlar bu işləri ediblər. Əgər bu iddialar olmasaydı, buna heç böyük təcrübə də lazım deyildi. Dünya təcrübəsi, adi bir təcrübə var ki, hər şeyi müzakirə etmək olar.

Yenə də deyirəm, bu müzakirə prosesinə baxsanız, bizim müzakirəmiz belə olmayıb. Komissiyada üç nəfər adam başqa təklif verib. Amma qalanları isə deyirlər ki, Azərbaycan dili yazılsın. Nə üçün onda bəs üç nəfər başqa təklif verdiyi halda, biz layihədə bunu Azərbaycan dili olaraq müzakirəyə vermişik, mətbuatda dərc etdirmişik? Bunu izah etmək istəyirəm.

Birincisi, ona görə ki, bizim mövcud konstitusiyamızın 73-cü maddəsində Azərbaycan dili yazılıb. İkincisi, ona görə ki, uzun müddət – indi bu gün məlum oldu, yəqin onun tarixi haqqında arayışlar da veriləcəkdir – 1936-cı ildən sonra bizim dilimiz Azərbaycan dili yazılıb. Üçüncüsü də ona görə ki, 1992-ci ilin dekabrında qəbul olunmuş qanun qeyri-qanunidir. Ancaq buna baxmayaraq, bizim bu üç ziyalı, komissiya üzvü tərəfindən verilən təklifi nəzərə alaraq mən məsləhət gördüm ki, bu məsələ qoy ümumxalq müzakirəsinə verilsin: layihəni vermişik ki, xalq müzakirə etsin, öz fikrini desin, ancaq bu məsələ ilə məşğul olan mütəxəssislərimiz, alimlərimiz, yazıçılarımız, dilçilərimiz, tarixçilərimiz və bu dairədə maraqlı olan təşkilatlar [446-447] qoy bunu xüsusi müzakirə etsinlər. Mən bu barədə komissiyanın işçi qrupunun sədri Ramiz Mehdiyevə göstəriş verdim və ondan sonra bilirsiniz ki, mənim başım qarışdı, ABŞ-a səfərə getdim, gəldim.

O vaxt biz belə danışdıq ki, məsələn Yazıçılar Birliyi ayrıca, Jurnalistlər Birliyi ayrıca, dilçilik institutları, ədəbiyyat institutları ayrıca müzakirə etsinlər. Universitet ümumən yox, çünki universitetdə fizika, kimya, biologiya, riyaziyyat mütəxəssisləri də var, – bəlkə, deyək ki, onlar dilə o qədər də maraq göstərmirlər, – ancaq

universitetdə dilçiliklə məşğul olan mütəxəssislər bunu ayrıca müzakirə etsinlər və bu müzakirələrin nəticəsini konstitusiya komissiyasına versinlər.

Mən oktyabrın 30-da işçi qrupunun iclasını çağırdım və öyrəndim ki, mənim göstərişim həyata keçirilməyib, bu müzakirələr aparılmayıb. Ona görə də oktyabrın 31-də Elmlər Akademiyasının böyük salonunda belə bir yığıncağın çağırılmasını lazım bildim və bunu etdik.

Ancaq onu da bildirmək istəyirəm ki, ümumxalq müzakirəsindən sonra konstitusiya layihəsinə 1400 təklif – müəyyən düzəlişlər, əlavələr gəlib. Həmin 1400 təklifdən 18-i dövlət dili ilə əlaqədardır. Bu 18 təklifdə dövlət dilini cürbəcür formalarda – ya türk dili, yaxud da ki, Azərbaycan türkcəsi yazmaq təklif edilir. Əgər bu işə yenə də mexaniki münasibət göstərilsə, – ümumxalq müzakirəsi olubdur. 18 təklif elə bir böyük rəqəm deyildir, – mən bunu qoyardım komissiyanın iclasına, 18 təklifə baxardıq, layihədə olan maddəni də qəbul edərdik. Amma hesab edirəm ki, bu yolla getmək lazım deyil. Oktyabrın 31-də ziyalılarla xüsusi görüş keçirdim, ondan sonra orada olan çıxışlar haqqında mənə məlumat verdilər. Həmin məlumatları alandan sonra mən belə bir qərar qəbul etdim ki, bu gün bu məsələ komissiyanın iclasında xüsusi müzakirə olunsun.

Bugünkü iclasa komissiyanın və işçi qrupunun üzvlərindən əlavə, oktyabrın 31-də Elmlər Akademiyasında keçirilən o yığıncaqda çıxış edən 27 nəfərin hamısı dəvət olunubdur. Ona görə yox ki, onlar bir də, təkrar çıxış etsinlər. Amma bir halda ki, onlar çıxış ediblər, ona görə də buraya dəvət olunublar. Eyni zamanda mən xahiş edirəm ki, bu işlə məşğul olan bizim mütəxəssislər, dilçilər, ədəbiyyatçılar, Yazıçılar Birliyinin tək rəhbərliyi yox, müəyyən bir qrup adam dəvət olunsunlar. Bu[447-448]rada onlar da iştirak edirlər. Mən istəyirəm ki, bu məsələni bax, belə bir şəraitdə müzakirə edək.

Bir məsələni də nəzərinizə çatdırmaq istəyirəm. Bu çox taleyüklü, tarixi, ciddi bir məsələdir. Bu məsələni hissiyyata qapılmaqla, emosiyalarla həll etmək olmaz. Kimin ürəyi nə istəyirsə, onunla həll etmək olmaz. Ümumiyyətlə, xalqın taleyi həll edilən halda, xalqın taleyi ilə əlaqədar olan məsələlərin həllinə gərək hər kəs çox böyük məsuliyyət hissi ilə yanaşsın. Meydanda qışqırmaq, orada çıxış etmək, hay-küy salmaq, yaxud birinə demək ki, bu vicdanlıdır, bu vicdansızdır, – bilirsiniz, bu ifadələr lazım deyil. Bu məsələləri həll etmək üçün alqışlar da, qışqırıqlar da lazım deyil. Təmkinlə, sakit, sərbəst, gələcəyi düşünərək, keçmişə düzgün qiymət verərək bu məsələləri müzakirə etmək lazımdır.

Təəssüf ki, son illərdə respublikamızda bəzi emosional, hissiyyata qapılan çıxışlar və sairə müvəqqəti olaraq müəyyən bir auditoriyanı ələ alıb, ona təsir göstərib. Bunlar hamısı müvəqqəti şeylərdir. Amma bizim mənəvi dəyərlərimiz daimi xarakter daşıyır, onlar bəşəridir. Ona görə də bu işlərə cılız yanaşmaq olmaz. Məsələn, mənə dedilər və dünən axşam televiziya ilə çıxışların bir hissəsini verdilər, baxdım: bəzisi çıxış edir, yerdən qışqırırlar, əl çalırlar, kimisə qəhrəman hesab edirlər ki, o qəhrəmanlıq edib, bizim dilimizi türk dili edib və sairə.

Bilirsiniz, bunlar yararsız şeylərdir. Birincisi, bunlar həmin o qışqıranların, hay-küy salanların səviyyəsizliyini göstərir. Mən bunu tam məsuliyyətlə demək istəyirəm. Eyni zamanda bunlar bizim işimizin layiqli həll olunmasına kömək etmir. Ola bilər, kiminsə qəlbində hansısa hissiyyat çox coşqundur. Hər kəs bir fərddir, hər fərdin də özünəməxsus xasiyyəti, fikri var. Bizdə hər şey azaddır. Hər kəs öz sözünü azad deyə bilər, buna etiraz yoxdur. Ancaq belə məsələnin həll olunmasına çox məsuliyyətli, çox düşüncəli yanaşmaq lazımdır. Yenə də deyirəm, emosiyalara, hissiyyata qapılmaq lazım deyil, subyektivliyə, konyunkturluğa yol vermək olmaz. Bizim keçmişimizdə konyunkturluğa, bəzən subyektivliyə, volyuntarizmə görə başımıza çox iş gəlib. Gəlin bundan sonra bu səhvləri buraxmayaq. 1992-ci ildə qəbul olunmuş o qeyri-qanuni qanun da elə subyektivliyin, volyuntarizmin bir nümunəsidir.

Bax, bunları nəzərə alaraq, – baxmayaraq ki, işlərimiz həddindən artıq çoxdur, tutduğumuz o qrafik bir qədər gecikir, mən hesab edirəm ki, bunun eybi yoxdur, – bu məsələni bu [448-449] gün sərbəst müzakirə etmək üçün mən sizi buraya dəvət etmişəm və məsələni müzakirəyə çıxarmışam. Güman edirəm, dediklərim hər bir şəxs üçün, burada sərbəst fikir söyləmək üçün şərait yaradır.

Müzakirəni başlamaq üçün mən istəyirəm ki, Ramiz Mehdiyevə söz verəm və o, Elmlər Akademiyasında keçirilən yığıncağın nəticəsi barədə məlumat versin. Çünki mən orada çıxış etdim, yəni məsələnin qoyuluşu haqqında fikirlərimi söylədim, ondan sonra getdim ki, orada iştirakımla heç bir fikrə təsir etməyim. Amma indi komissiyanın üzvləri, o cümlədən mən də bilməliyik ki, orada gedən müzakirələr nə cür olub və onun məzmunu nədən ibarətdir, nə nəticə verib.

## YEKUN SÖZÜ

Hesab edirəm ki, biz ətraflı fikir mübadiləsi apardıq. Bütün fikirlər dinlənildi. Bu cürbəcür fikirlər, xüsusən bu dairələrdədir. Əhalidə, xalqımızın içində bu qədər fikir ayrılığı yoxdur. Mən belə hesab edirəm. Bunlara baxmayaraq biz hər bir ziyalının, alimin və xüsusən dil-ədəbiyyat sahəsində böyük işlər görmüş şəxslərin fikirlərini dinləməliyik və onlarla hesablaşmalıyıq. Güman edirəm ki, biz son qərarı konstitusiya komissiyasının gələn iclasında qəbul edərik. Bu gün burada konstitusiya üzvlərindən savayı dəvət olunmuş şəxslər də var. Onlar hamısı dəvət olunub ki, biz ictimai fikri və xüsusən bizim elm sahəsində, ədəbiyyat sahəsində olan

mütəxəssislərin fikrini öyrənək. Bunları öyrənəndən, biləndən sonra konstitusiya komissiyasının gələn iclasında biz son qərara gələrik və bunu müzakirə edərik.

Ancaq bu müzakirəni sona çatdıraraq öz tərəfimizdən onu bildirmək istəyirəm ki, bizim dilimiz əsrlər boyu yaşayıb. Biz dövlət müstəqilliyimizi 1918-ci ildə əldə etdik. Qısa bir müddətdən sonra bu dövlət müstəqilliyi əldən getdi. Dörd il bundan öncə dövlət müstəqilliyi yenidən əldə olundu. Keçmiş tariximizi yüksək qiymətləndirərək, eyni zamanda XX əsrdə xalqımızın həyatında, tarixində böyük nailiyyətlər əldə olunmasını və böyük dirçəlişi, böyük irəliləməni xüsusi qiymətləndirməliyik. Əgər keçmişdə bizim ayrı-ayrı dahi şəxsiyyətlərimiz orta əsrlərdən tutmuş indiyə qədər xalqımızın adını qaldırıblarsa, XX əsrdə və xüsusən son dövrdə, – XX əsrin əvvəlindən götürsək, 1918-ci ildə bizim ilk müstəqil respublikamızın yarandı[449-450]ğı vaxtdan götürsək və nəhayət 1920-ci ildə sovet respublikası yarandığı dövrdən götürsək, – bu dövrdə əldə edilən nailiyyətlər Azərbaycan xalqının tarixində heç vaxt olmayıbdır. Biz bunu nəinki qeyd etməliyik, biz bununla fəxr edə bilərik və mən şəxsən özüm fəxr edirəm. Mən XX əsrin əvvəllərində doğulmuşam, indi XX əsrin sonuna qədər yaşayıram. Mənim həyatım bu dövrdə keçibdir və çox şeylərin şahidiyəm. Ona görə də mən bilirəm, görmüşəm və tarixi də oxumuşam ki, bizim xalqımız bu dövrdə böyük bir inkişaf dövrü keçibdir. İndi bu populist sözlər çoxdur ki, imperiya belə eləyibdir, imperiya elə eləyibdir. Bizim xalqımızı, nə bilim, parçalayıblar o vaxt, filan eləyiblər, peşməkan eləyiblər.

Bunlar tarixi həqiqətdir. Ancaq nəticəsi nədən ibarətdir? Nəticəsi ondan ibarətdir ki, bizim xalqımızın mədəniyyəti yaranıbdır, böyük ədəbiyyatı yaranıbdır. Əgər keçən əsrlərdə biz iki-üç şəxsiyyətin adını çəkə bilirdiksə, indi XX əsrdə görün nə qədər şəxsiyyətlərin adlarını çəkirsiniz. Elmimiz yaranıb, ədəbiyyatımız yaranıb, mədəniyyətimiz yaranıb, musiqimiz yaranıb, rəssamlıq məktəbimiz yaranıb, tariximiz yaranıb. Dünyada məşhurlaşmışıq. Müstəqillik almazdan əvvəl də biz məşhurlaşmışdıq, amma müstəqillik əldə edəndən sonra artıq dünyada məşhurlaşmışıq. Görün nə qədər böyük bir yol keçmişik biz! İndi biz Birləşmiş Millətlər Təşkilatının 50 illiyini qeyd eləyirik. 1945-ci ildə BMT yaranarkən dünyada cəmisi 50 dövlət onun tərkibinə daxil idi. İndi, 50 ildən sonra Birləşmiş Millətlər Təşkilatına 184 dövlət daxildir. Onlardan biri də müstəqil Azərbaycan Respublikasıdır, Azərbaycan dövlətidir.

Bizim xalqımız savadlanıbdır. Mən başqa xalqlarla müqayisə edib kimin hansı səviyyədə olduğunu demək istəmirəm. Ancaq indi sərhədlər açılıb, dünya açılıb. Hamınız getmisiniz, gəzmisiniz, görmüsünüz. Mənim özüm də əvvəl gördüklərimdən indi daha çox görmüşəm. Mən görürəm hansı ölkədə xalqın ümumi savadı hansı səviyyədədir. Bunu görürük. Qonşu ölkələrdə də görürük. Asiya ölkələrində də görürük. Afrika ölkələrində də görürük. Avropa ölkələrinin bəzilərində də görürük. Azərbaycanda xalqın ümumi savad səviyyəsi, ümumi mədəniyyət səviyyəsi haradadır? Nə qədər Azərbaycan vətəndaşı indi xarici ölkələrə gedib yüksək səviyyəli mütəxəssis kimi işləyir. Düzdür, bizim üçün bəlkə də bu, mənfi cəhətdir ki, ağıllı adamlarımız, böyük mütəxəssislərimiz, incəsənət xadimlərimiz, mədəniyyət xadimlərimiz gedirlər, başqa ölkələrdə işləyirlər. [450-451] İndi respublikamızın belə vəziyyətinə görə. Amma bunun müsbət cəhəti də var. Müsbət cəhəti ondan ibarətdir ki, demək, xalqımızın dili, mədəniyyəti, elmi səviyyəsi o qədər yüksəkdir ki, bizim adamlarımız – bu mühitdə yetişmiş adamlar gedib başqa ölkədə müəllimlik edə bilirlər, professorluq edə bilirlər, dərs deyə bilirlər, başqa sahələrdə böyük mütəxəssis kimi işləyə bilirlər. İndiyə qədər bu səviyyə yaranmasa idi, bu ola bilərdimi.

Avropada vaxtilə cürbəcür ölkələrdən gedib fəhləlik edirdilər. Xatirimdədir, Sovetlər İttifaqı zamanı Yuqoslaviya ilə bizim əlaqələrimizlə bağlı mən bir neçə dəfə onlarla görüşmüşdüm. Orada nümayəndə heyətləri ilə olmuşdum. Yuqoslaviyanın əhalisinin bir milyondan çoxu gedib Almaniyada fəhləlik eləyirdi. Mən onların rəhbərləri ilə mübahisə aparırdım ki, bəs siz nə cür buraxırsınız ki, adamlarınız gedib Almaniyada fəhləlik eləyirlər? Deyir, biz bundan xeyir götürürük. Nə xeyir götürürsünüz? Birinci, onlar burada yaxşı yaşaya bilmirlər, orada isə fəhlə olaraq buradan yaxşı yaşayırlar. İkincisi isə, onlar orada pul qazanırlar, o pulu banklara keçirirlər, o da bizim banka keçirir və maliyyə vəziyyətimiz yaxşılaşır. Yuqoslaviya kimi ölkədən, başqa ölkələrdən də siz bilirsiniz ki, nə qədər adam gedib Avropa ölkələrində fəhləlik eləyib. Bəli, daha mən onun adını çəkmək istəmirəm, qonşumuzdur, o biri qonşu ölkələrdən. Amma bizim adamlarımız gedib universitetlərdə dərs deyirlər, gedib Türkiyədə yüksək incəsənət sahələrində müəllimlik eləyirlər, bəstəkarlıq öyrədirlər, başqa işlər görürlər. İndi görün bizim xalqımız bu dövrdə, bu XX əsrdə, xüsusən bax, bu dövrdə nə qədər inkişaf edibdir.

Bu gün, əlbəttə, ötən dövrün repressiyaları haqqında demək olar, insanlara edilmiş zülm haqqında demək olar, ədalətsizlik haqqında demək olar. Bunları demək olar. Bu bizim tariximizdir. Tarixi həqiqəti həmişə demək lazımdır. Ancaq bununla yanaşı, əldə olunan nailiyyətlərimizi niyə unudursunuz? Bu nailiyyətlərin içərisində – burada deyildi və mən də bunu təsdiq edirəm; bu, şəxsən mənim də fikrimdir, – Azərbaycan dili, indi bunu nə adlandırırsınız adlandırın, Azərbaycan dili bütün tarixdə bu qədər zənginləşməyibdir, nəinki bu 60 ilin içərisində bu qədər zənginləşməyib, bu qədər inkişaf etməyib, Azərbaycan dilində bu qədər kitablar, bu qədər romanlar, bu qədər şerlər, bu qədər hekayələr yazılmayıb[451-452]dır. Bu bizim tarixi yolumuzdur, bu bizim tarixi nailiyyətimizdir. Müstəqil Azərbaycan Respublikası deyəndə biz Azərbaycan Respublikası deyirik. Buna başqa

ad vermək olmaz. Əgər buna kimsə başqa ad versə, bu bizim xalqımıza, torpağımıza, millətimizə xəyanət ola bilər. Bu, Azərbaycan Respublikasıdır və bizi Azərbaycan Respublikası kimi tanıyırlar.

Mən beş gün Nyu-Yorkda oldum. Bu beş gündə 50-60 görüş keçirmişəm, bəlkə də 70 görüş keçirmişəm. Dünyanın ən böyük ölkələrinin prezidentləri ilə bərabərhüquqlu görüşlər keçirmişəm. Amerika Birləşmiş Ştatlarının prezidenti ilə mənim görüşüm olubdur. Dünən yenə ondan məktub almışam və məktubda da yazır ki, görüşümüzdən nə qədər məmnundur, nə qədər məzmunlu, ətraflı görüşümüz olubdur. Bu, bir mənə görə deyil. Bu, Azərbaycan xalqına görədir, Azərbaycan millətinə görədir, Azərbaycan Respublikasına görədir.

Bütün bunları da nəzərə almaq lazımdır. Hissiyyata qapılıb bunları unutmayın. Bilin ki, biz müstəqil dövlət kimi dünyada artıq öz yerimizi tutmuşuq. Ona görə, hansı qərar qəbul eləyəcəyiksə, gərək bu, milli mənliyimizə, milli qürurumuza toxunmasın. Bunu da bilmək lazımdır. Bunu da unutmaq olmaz. Nizaminin sözləri də bizim üçün əzizdir, Füzulinin sözləri də bizim üçün əzizdir, Cəlil Məmmədquluzadənin, Mirzə Fətəli Axundovun sözləri də, Sabirin sözləri də bizim üçün əzizdir, – hamısı bizim üçün əzizdir. Amma bugünkü reallıq var. Bu reallığı nə Nizami Gəncəvi görə bilərdi, nə Füzuli görə bilərdi, nə də Cəlil Məmmədquluzadə. Reallıq bütün bu tariximizin hamısından üstündür və bu, bizim üçün gələcəyə böyük bir yol açır. Əgər Ermənistanın təcavüzündən qurtara bilsək, əgər dövlətçiliyimizi möhkəmləndirə bilsək, bilin, Azərbaycanın çox böyük gələcəyi var.

Ona görə də biz gərək öz milli mənliyimizi həmişə yüksək saxlayaq. Bilirsiniz, mən uzun həyat yolu keçmişəm, bu gün də yaşayıram, sizinlə birlikdə işləyirəm. Mənim üçün hər şeydən üstün mənim milli mənliyimdir. Milli mənliyim məni həmişə bütün çətin vəziyyətlərdən çıxarıb. Milli mənliyimə görə də mən istədiyim yolla gedə bilmişəm, istədiyimə nail ola bilmişəm və xalqıma xidmət edə bilmişəm. Ona görə də milli mənliyimizi gərək itirməyək. Milli mənliyimiz də var, onunla da biz fəxr edə bilərik.

Gəlin bir balaca fasilə verək, konstitusiya komissiyasının gələn iclasında bu barədə son qərarı qəbul eləyək. Sağ olun. [452-453]

## AZƏRBAYCANIN XALQ ARTİSTİ
## VASİF ADIGÖZƏLOVA

Hörmətli bəstəkar!

Sizi – Azərbaycan musiqi mədəniyyətində xüsusi xidmətləri olan sənətkarımızı 60 illik yubileyiniz münasibətilə təbrik edirəm.

Xalq mahnılarımızın, muğamlarımızın ruhundan qida alan, ilhamla yaratdığınız musiqinizdə həmişə zamanın nəbzi duyulmuşdur. Xalqımızın zəngin musiqi xəzinəsindən bəhrələnən müxtəlif janrlı əsərləriniz insanda mənəvi qüdrət və gələcəyə inam yaradır.

Böyük musiqiçilər nəslinin nümayəndəsi kimi siz pedaqoji və ictimai fəaliyyətinizdə gənc nəslin tərbiyəsinə, doğma xalqımızın qədim mədəniyyətinin, musiqi incilərinin bütün dünyada tanınıb şöhrətlənməsinə xidmət edirsiniz.

İnanıram ki, siz mədəniyyətimizin gələcəyi naminə bundan sonra da bizi yeni sənət nümunələrinizlə sevindirəcəksiniz. Sizə bu yolda yaradıcılıq uğurları diləyirəm.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*3 noyabr 1995-ci il* [453-454]

## AZƏRBAYCAN RESPUBLİKASININ YENİ KONSTİTUSİYA LAYİHƏSİNİ HAZIRLAYAN KOMİSSİYANIN İCLASINDA GİRİŞ SÖZÜ

*Prezident Sarayı,*

*5 noyabr 1995-ci il*

Bu gün biz Azərbaycan Respublikasının yeni konstitusiya layihəsini hazırlamaq üçün təşkil olunmuş komissiyanın növbəti iclasını, ola bilər ki, son iclasını keçiririk. Komissiyanın noyabrın 2-də keçirdiyimiz iclasında biz ümumxalq müzakirəsindən sonra konstitusiya layihəsinin bir maddəsini müzakirə etdik. Bu gün isə biz konstitusiya layihəsi dərc ediləndən və onun ümumxalq müzakirəsindən sonra ictimaiyyət, əhali, mətbuat tərəfindən konstitusiya komissiyasına daxil olmuş təkliflərə, əlavələrə, dəyişikliklərə baxmalıyıq, onlar haqqında müəyyən fikrə gəlməliyik, onlardan hansıları qəbul oluna bilərsə, qəbul edib bu layihəni daha da təkmilləşdirməliyik.

Komissiyanın işçi qrupunun üzvləri daxil olmuş bütün təklifləri təhlil ediblər, baxıblar və işçi qrupunun bu barədə müəyyən fikirləri var. Ona görə də komissiyanın işini elə qurmaq olar ki, işçi qrupu bu təkliflər haqqında bizə öz fikirlərini təqdim edər və biz, komissiya üzvləri həmin təkliflərdən hansının qəbul edilib-edilməməsini müəyyənləşdirərik. Hesab edirəm ki, biz bu işi mütləq başa çatdırmalıyıq və nəhayət, layihənin son variantı hazır olub dərc edilməlidir.

Bütün bu təkliflər haqqında işçi qrupunun məlumatını dinləməzdən əvvəl, hesab edirəm ki, konstitusiyanın 23-cü maddəsi haqqında aparılan müzakirələri yekunlaşdırmaq lazımdır. Həmin maddə xüsusi əhəmiyyət kəsb etdiyinə və bu barədə bəzi fikirlər olduğuna görə bilirsiniz ki, bu maddə geniş müzakirə olunubdur. Ümumxalq müzakirəsindən sonra bu maddə bir dəfə bizim elm müəssisələrinin, yaradıcılıq təşkilatlarının, universitetlərin nümayəndələrinin, ictimaiyyətin başqa təbəqələrinin – ziyalıların iştirakı ilə Elmlər Akademiyasında müzakirə edilibdir. Ondan sonra noyabrın 2-də bu maddə konstitu[454-455]siya komissiyasında bir çox əlavə şəxslərin iştirakı ilə müzakirə olunubdur. Həmin müzakirə təxminən beş saat davam etdi. O vaxt biz bütün təklifləri dinlədik və xatirinizdədir ki, qərar qəbul olunmadı. Bu qərarı biz bu gün qəbul etməliyik. Ona görə də işçi qrupunun bütün başqa təkliflər haqqında məlumatını dinləməzdən əvvəl hesab edirəm ki, bu maddə haqqında müzakirələrimizi tamamlamalıyıq və bu barədə son fikrimizi müəyyənləşdirməliyik, bundan sonra isə başqa maddələrə aid təkliflərə baxmalıyıq.

Ona görə də mən Ramiz Mehdiyevə söz verirəm ki, o, komissiyanın noyabrın 2-də keçirilən iclasındakı müzakirənin yekunları haqqında məlumat versin...

* * *

Demək, alimlərimiz, yazıçılarımız, mütəxəssislərimiz iki böyük müzakirədə öz sözlərini deyə biliblər. Ancaq bundan əvvəl, konstitusiyanın layihəsi mətbuatda dərc ediləndən sonra əhali, xalq arasında müzakirə olunubdur. Keçən dəfə dedim və bu gün yeni məlumat almışam, – işçi qrupu məlumat verir ki, komissiyanın ayrı-ayrı maddələrinə dair 3 minə yaxın təklif gəlib. Bunların içərisində Azərbaycanın dövlət dilinə aid 23 təklif vardır, onların müəllifləri dövlət dilini türk dili, yaxud Azərbaycan türkcəsi adlandırmaq istəyirlər. Noyabrın 2-də konstitusiya komissiyasının iclasında bu komissiyanın üzvlərinin bir qismi çıxış etdi, – onların adları burada deyildi, – hər biri öz mövqeyini bildirdi. Konstitusiya komissiyasının başqa üzvləri bu barədə nə demək istəyirlər?

### YEKUN SÖZÜ

Müstəqil Azərbaycan Respublikasının ilk konstitusiyasını qəbul etmək çox məsuliyyətli, eyni zamanda çox şərəfli bir vəzifədir. Xoşbəxt adamlarıq ki, bu vəzifə bizim üzərimizə düşübdür. Eyni zamanda məsuliyyətimizi də dərk etməliyik və düşünməliyik ki, biz tarix qarşısında, gələcək nəsillər qarşısında bu işimizə görə daim cavabdeh olacağıq. Ona görə də bu məsələyə, bu işə fövqəladə diqqət yetirməliyik, bu məsələyə obyektiv, çox səbrlə və məsuliyyətlə yanaşmalıyıq. Mən bu gün bəyan etmək istəyirəm ki, konstitusiya komissiyası təşkil [455-456] olunandan indiyə qədər bu komissiyada belə bir mühit yaranıb: konstitusiya komissiyasının üzvləri, o cümlədən komissiyanın sədri kimi mən də məhz bu prinsiplər əsasında öz üzərimizə düşən vəzifənin həll olunmasına çalışırıq.

İş sona çatır. Biz bu gün layihəni axıra qədər müzakirə edib, ümumxalq müzakirəsindən sonra daxil olmuş təklifləri təhlil edib, konstitusiya layihəsinin son variantını hazırlayıb dərc etdirməliyik. Bu proseslər içində siz

– konstitusiya komissiyasının üzvləri də görürlər, bütün ictimaiyyət də bunun şahididir ki, mən dövlət dili ilə əlaqədar olan maddənin hərtərəfli müzakirə edilməsinə cəhd göstərirəm və nə qədər vaxt sərf olunsa da bunu çox lazımlı hesab edirəm. Görürəm, bəzilərinin hövsələsi çatmır, bəziləri düşünürlər ki, məsələ aydındır, qərar qəbul etmək lazımdır. Ancaq mən belə hesab edirəm ki, bu məsələdə tam aydınlıq hasil olmalıdır. Əgər mən şəxsən bu işə ümumi nöqteyi-nəzərdən yanaşsaydım, biz bu məsələni indiyədək bir neçə dəfə müzakirə etmişik və komissiya üzvlərinin əksəriyyətinin fikri birdir.

Birincisi, komissiyada layihə hazırlanarkən bu məsələ işçi qrupunda müzakirə olunub. Layihəyə bir neçə dəfə baxılıb. Sonra oktyabrın 14-də bu məsələ müzakirə edilərkən biz bu maddə barədə fikir mübadiləsi apardıq. Mən bunu bir neçə dəfə demişəm, komissiya üzvlərindən üç nəfər bu barədə, yəni Azərbaycan dövlətinin konstitusiyasında olan maddədən fərqli söylədi ki, indiyədək Azərbaycan dili dövlət dili yazılıb, indi isə bu ya Azərbaycan türkcəsi, ya Azərbaycan türk dili, ya da sonradan deyildiyi kimi, Azərbaycan (türk) dili yazılsın. Komissiyanın qalan üzvləri bu fikri dəstəkləmədilər. Onların hamısı Azərbaycan dili tərəfdarı oldu. Bu gün çıxış edən komissiyanın üzvü Etibar Məmmədov da o vaxt başqa fikir söyləmədi; o, ümumiyyətlə fikir söyləmədi. Belə olan halda, əgər mən, komissiyanın sədri kimi, bu məsələlərə ümumi prinsip nöqteyi-nəzərindən yanaşsaydım (üç nəfər deyir ki, belə olsun, amma qalanları deyir ki, belə olsun), məsələni bununla da qurtarmaq olardı. Ancaq mən hesab edirəm ki, üç nəfər komissiyanın üzvləri arasında sayca çox azlıq təşkil edirsə də, birincisi, komissiyanın hər bir üzvünün fikrinə diqqət vermək və onu nəzərə almaq lazımdır; ikincisi də, bu fikri söyləyən adamlar bizim ziyalılarımızdır – mədəniyyət, elm, ədəbiyyat sahəsində tanınmış və böyük fəaliyyət göstərmiş adamlardır. Demək, bunların fikirlərini daha da geniş [456-457] müzakirə etmək lazımdır. Ancaq eyni zamanda 1978-ci ildə qəbul edilmiş konstitusiyada Azərbaycanın dövlət dili Azərbaycan dili yazıldığına görə və on illər müddətində Azərbaycan dili həyatımızın hər yerində bərqərar olunduğuna görə biz layihənin 23-cü maddəsində yazdıq ki, "Azərbaycanın dövlət dili Azərbaycan dilidir". Bunu da ümumxalq müzakirəsinə verdik.

Ancaq bilirsiniz, – bunu keçən görüşlərimizdə demişəm, – mən çalışırdım ki, başqa fikir söyləyənlərin fikirlərinin, dəlillərinin nə qədər əsaslı olduğunu, tarixi, elmi nöqteyi-nəzərdən nə qədər münasib olduğunu araşdıraq. Mən bütün bu müddətdə çalışmışam şərait yaradım ki, insanlar sərbəst danışsınlar, hərənin sözü sərbəst meydana çıxsın. İkinci tərəfdən də bu müzakirələrdə, mübahisələrdə məsələni mən şəxsən özüm üçün daha da aydınlaşdırmaq istəyirdim. Baxmayaraq ki, bu məsələnin tarixi də mənə məlumdur, xalqımızın tarixini də, dilimizi də pis bilmirəm və dilimizin tarix boyu keçdiyi yollar da başqaları kimi mənə də məlumdur, bəlkə bir çoxlarından da az məlum deyil. Ona görə də ola bilərdi ki, mən dərhal bir mövqe tutum. Ancaq mən bunu etmədim. Hesab edirəm ki, belə də lazım idi, bu da həmin sahəyə maraq göstərənlərin, mütəxəssislərin fikirlərinin açılmasına şərait yaradacaqdır. Ona görə də layihə mətbuatda dərc olunandan sonra biz bu məsələnin yenidən müzakirə edilməsini lazım bildik.

Oktyabrın 31-də Elmlər Akademiyasında bütün ziyalıların nümayəndələri bu məsələni müzakirə etdilər. 25-dən çox adam çıxış etdi. Mən bununla qane olmadım. Noyabrın 2-də konstitusiya komissiyasının iclasını tamamilə buna həsr etdim. Biz beş saata qədər müzakirə apardıq. O müzakirədən sonra bəlkə də qərar qəbul etmək olardı. Görürsünüz ki, mən bu gün konstitusiya komissiyasının və işçi qrupunun üzvlərinin burada iştirakı ilə müzakirəni yenə də davam etdirirəm. Bütün bu müzakirələrin nəticəsində mən də öz fikrimi demək istəyirəm.

Dil, millət fəlsəfi məfhumdur, tarixi anlayışdır. İnsanlar dünyada mövcud olandan onlar hansısa dillərdə danışıblar. Bir halda ki, insanlar olub, demək, onların bir-biri ilə əlaqəsi üçün dil də olubdur. İnsanlar dünyada mövcud olandan müəyyən tayfalar, qruplar yaranıbdır, bundan sonra onlar genişlənib, millət şəklinə gəlib çıxıblar. Ona görə həm millət anlayışı, həm dil anlayışı, yenə deyirəm, fəlsəfi məfhumdur, fəlsəfi, ta[457-458]rixi anlayışdır. Dialektikanın qanununa görə, bu iki anlayış daim inkişafda, dəyişiklikdə olubdur.

Güman edirəm tarixçilərimiz, filosoflarımız elmi nöqteyi-nəzərdən mənim bu dediyim sözlərlə razı olarlar. Beləliklə, heç kəs deyə bilməz ki, XII əsrdə kim nə deyibsə, o bu gün bizim üçün ehkamdır. Heç kəs deyə bilməz ki, XV əsrdə kim nə deyibsə, o da bizim üçün ehkamdır. Bunu nəzərə almaq lazımdır və bunu unutmaq lazım deyil. Bu gün biz dövlət dilimiz haqqında məsələni müzakirə edərkən heç bir konyunkturaya yol verməməliyik. Hansısa bir qərarı qəbul edəcəyiksə, – bu kimin xoşuna gələcək, ya gəlməyəcək, – bu bizi narahat etməməlidir. Biz bunu həqiqət əsasında qəbul etməliyik və kimdənsə üzrxahlıq da etməməliyik: bağışlayın, biz sizinlə qardaşıq, amma biz dilimizi belə etmək istəyirik. Mən bununla da razı deyiləm.

Noyabrın 2-də keçirilən müzakirədə dilçi alimlərdən biri dedi, mən də onun dediyinə istinad edirəm ki, keçmiş Sovetlər İttifaqının ərazisində türkdilli 23 xalq məskun olubdur. Yəni türkdilli xalqlar çoxsaylıdır və millətcə, dilcə türk kökündən olan xalqlar çoxsaylıdır. Əgər keçmiş Sovetlər İttifaqının ərazisində türkdilli 23 xalq olubsa, onun hüdudlarından kənarda da var. Bu da təbiidir, çünki dünyada olan dillər ayrı-ayrı dil qruplarına bölünüblər və bu dil qrupları tarix boyu, əsrlər boyu formalaşıblar, sonra şaxələniblər və hər bir şaxə müəyyən proseslər nəticəsində öz istiqamətində inkişaf edib və gəlib indiki səviyyəyə çatıbdır.

Şübhəsiz ki, dünyada olan dillərin bugünkü səviyyəsi də son həddi deyil. Bəşəriyyət, insan cəmiyyəti daimidir, hər şey inkişafdadır, yüz, iki yüz, beş yüz ildən sonra nə olacaqdır, – bunu biz indi deyə bilmərik. Ancaq şübhəsiz ki, nə dünya belə olacaqdır, nə də dünyanın mənzərəsi bu şəkildə qalacaqdır. Hər şey

inkişafdadır. Belə olan halda, şübhəsiz ki, bizim mənsub olduğumuz türkdilli xalqlar da şaxələniblər, məskun olduqları yerin, ərazinin təsiri altında, qonşularının, başqa amillərin təsiri altında hərəsi öz istiqamətində inkişaf ediblər.

Ancaq bu dillərin, yəni bizim bu türk dili qrupuna mənsub dillərin gəlib dövlət dili səviyyəsinə çatması XX əsrdə baş veribdir. Mən başqa Avropa dillərini demirəm. Dövlət dili statusu alınması da, şübhəsiz ki, hər bir dövlətin dövlət kimi formalaşması ilə bilavasitə əlaqədardır. Osmanlı imperatorluğu və Osmanlı dili bu müzakirələr zamanı tez-tez yada salınır. [458-459] Amma məlumdur ki, osmanlı imperatorluğunun dövlət dili XIX əsrədək türk dili deyildi, tarixçilərimiz bunu yaxşı bilirlər. İmperatorluq Osmanlı imperatorluğu idi, amma dövlət dili türk dili deyildi. Götürün arxivlərdə onların kitablarına baxın, həmin padşahların, sultanların fərmanlarına baxın, onlar türk dilində yazılmayıb. Bütün bunlar ərəb-fars dillərində yazılıb. Gedin İstanbuldakı muzeylərə baxın, yəqin çoxları baxıblar, kim baxmayıbsa, gedib baxa bilər. Mən bundan Türkiyənin dövlət başçıları ilə danışıqlarımda da söhbət açmışam. Onlar da deyirlər ki, bəli, belə olub. Onlar da Türkiyə Cümhuriyyəti yaranandan sonra indiki türk dilini formalaşdırıb, dövlət dili ediblər. O, orada inkişaf edibdir, o ərazidə yaşayan türklər, türkdilli xalqlar həmin dili dövlət dili ediblər. Bizim üçün dost, qardaş olan Türkiyə Cümhuriyyətinin böyük Atatürkdən sonra onun fəaliyyəti nəticəsində bir cümhuriyyət kimi meydana gəlməsi, dünya birliyində öz yerini tutması və özünün dövlət dili olması bizi sevindirən bir haldır. Bir qardaş, dost ölkə kimi biz bunu böyük bir nailiyyət hesab edirik.

Bizim ərazimizdə, yəni Azərbaycanda yaşayan insanlar, İranda yaşayan və bizim dilə mənsub olan insanlar Türkiyənin Şərq hissəsində yaşayan və azəri adlanan insanlar keçmişdə də, elə XX əsrdə də biz danışdığımız dildə danışıblar. Ona görə də dilimizin dövlət dili statusu alması yalnız və yalnız 1978-ci ildə qəbul edilmiş konstitusiyada olubdur. O vaxta qədər bizim dilimiz dövlət dili statusu almayıbdır. Hamı bu həqiqəti bilməlidir.

Biz öz əcdadlarımıza daim minnətdar olmalıyıq, ona görə ki, torpaqlarımız, ərazimiz cürbəcür şahlıqların, sultanlıqların, xəlifələrin, dövlətlərin əlinə keçdiyi vaxtlarda da, dilimiz itməyib, yaşayıb. Onu xalq yaşadıbdır, eyni zamanda onu xalqımızın böyük şəxsiyyətləri yaşadıblar. Böyük şairimiz, filosofumuz, mütəfəkkirimiz Nizami Gəncəvi əsərlərinin hamısını fars dilində yazmağına baxmayaraq, yenə də türk dili haqqında öz sözünü deyibdir. Böyük Füzuli əsərlərinin əksəriyyətini ərəb dilində yazmağına baxmayaraq, türk dilində də yazıbdır və dilimizi yaşadıbdır. Molla Pənah Vaqif, Mirzə Fətəli Axundov, XX əsrdə dünyaya gəlmiş böyük şəxsiyyətlər – yazıçılar, o cümlədən Cəlil Məmmədquluzadə, şairlər, dövlət xadimləri və mütəfəkkir insanlar – Həsənbəy Zərdabi, Əhmədbəy Ağayev, Əlibəy Hüseynzadə, Fətəlixan Xoyski, Məmmədəmin Rəsulzadə, Nəriman Nərimanov, Dadaş Bünyadzadə və başqaları öz [459-460] əsərləri ilə, verdikləri qərarlarla, dekretlərlə, sənədlərlə bizim dilimizi yaşadıblar. Ancaq dilimiz dövlət dili statusu almayıb.

Bizim ən böyük sərvətimiz ondan ibarətdir ki, bunların hamısına baxmayaraq, dilimiz yaşayıb və ilbəil zənginləşibdir. Mən bunu bir dəfə demişəm və bu gün bir daha deməyi lüzumlu hesab edirəm ki, 1920-ci ildə dilimiz bu qədər zəngin, eyni zamanda bu qədər sadə, səlis, bu qədər təmiz və cazibədar olmayıbdır. 30-cu ildə də, 40-cı ildə də belə olmayıbdır. Demək, həyat inkişaf etdikcə, xalqımız mədəniyyət yolu ilə, elm yolu ilə inkişaf etdikcə, irəliyə getdikcə, dünya mədəniyyətindən bəhrələndikcə öz dilini də ilbəil inkişaf etdiribdir. Əgər XX əsri götürsək, xüsusən 20-ci ildən indiyədək Azərbaycanda böyük dilçi alimlər ordusu, böyük ədəbiyyatçılar, şairlər, yazıçılar, jurnalistlər ordusu yaranıbdır. Məhz bu dövrdə biz Nizami Gəncəvini qaldırıb dünyaya tanıda bilmişik, Məhəmməd Füzulini də, Nəsimini də qaldırıb dünyaya tanıtmışıq, Vaqifi də, Mirzə Fətəli Axundovu da, Sabiri də, Seyid Əzim Şirvanini də, Abbasqulu Ağa Bakıxanovu da tanıtmışıq və bütün bunların hamısını o dövrdə etmişik. Bu şəxsiyyətlər keçən əsrlərdə, dövrlərdə məgər dünyada bu qədər məşhur olublarmı? Yox, heç vaxt. Bu, bizim dövrümüzün bəhrəsidir və bunların hamısı da Azərbaycan adı ilə, dili ilə bağlı olubdur.

Biz Nizami Gəncəvinin əsərlərini, bütün poemalarını, "Xəmsə"sini ilk dəfə 1948-ci ildən sonra öz dilimizə, yəni indi danışdığımız Azərbaycan dilinə tərcümə etdirmişik və xalqımıza çatdırmışıq. Siz bunu da bilməlisiniz ki, mən Nizami Gəncəvinin "Xəmsə"sinin ilk dəfə rus dilinə tərcümə edilib Moskvada nəşr edilməsinə nail olmuşam. Siz də, bütün ictimaiyyət də bilməlidir ki, mən Nizami Gəncəvinin "Xəmsə"sinin, beş poemasının rus dilində Moskvada, "Xudojestvennaya literatura" nəşriyyatında yenidən çap edilməsinə nail olmuşam. Mən bununla bir neçə il məşğul olmuşam. Nizami Gəncəvinin poemaları rus dilində tamamilə nəşr edilməmişdi. Hətta sonra həyat mənə möhlət vermədi, o vaxt Moskvada bu işlərlə məşğul olarkən aydınlaşdırdım ki, Nizami Gəncəvinin əsərlərinin rus dilinə tərcüməsi tamam təkmil deyil. Mən o zaman belə bir fikrə düşdüm və onu həyata keçirməyə çalışdım ki, yenidən tərcüməçilər qrupu yaradıb Nizami Gəncəvinin əsərlərini orijinaldan rus dilinə tərcümə etdirim – tək Rusiya üçün yox, çünki rus dilini Rusiyadan savayı başqa ölkələrdə də çox bilirlər. Bunlar hamısı bu dövrün bəhrəsidir. [460-461]

O cümlədən biz Nəsiminin 600 illik yubileyini keçirərkən Nəsiminin əsərlərini ilk dəfə Azərbaycan dilinə tərcümə etdirib xalqımıza çatdırdıq.

Beləliklə, bu dövr bizim üçün, ədəbiyyatımız, tariximiz üçün böyük bəhrəli, məhsuldar bir dövrdür və bu dövrdə dilimiz inkişaf edibdir. Dövlət dili statusu almaq üçün gərək dövlət olsun. Əgər bir dil bir dövləti təmsil etmirsə, o dilə nə deyirsən de, o, dövlət dili ola bilməz. Hüquqi, fəlsəfi nöqteyi-nəzərdən bunu da bilmək

lazımdır. Biz Sovetlər İttifaqının tərkibində müstəqil dövlət olmasaq da, onun tərkibində respublika idik, dövlət idik, özümüzün himnimiz, gerbimiz, bayrağımız var idi. Doğrudur, bunlar hamısı Ümumittifaq tərkibində idi, amma hamısı var idi. Bax, belə olan vaxtda da biz dilimizi dövlət dili etmək üçün nə qədər çətinliklər çəkdik, nə qədər əzab-əziyyətə düşdük.

Amma eyni zamanda bir şey də sizin üçün yəqin maraqlı olar ki, – mən bunu bilirdim, ancaq indi xahiş etdim gətirdilər. Sovetlər İttifaqının 1977-ci ildə qəbul olunmuş konstitusiyası buradadır, kim istəyir götürüb oxuya bilər, - burada dövlət dili maddəsi yoxdur.

Noyabrın 2-də keçirilən müzakirədə Baş Arxiv İdarəsinin rəisi arayış verdi və məlum oldu ki, 1936-cı ildə Azərbaycan Respublikasının Konstitusiyası hazırlanarkən lahiyədə yazılmışdı ki, dövlət dili türk dili olsun. Ancaq bizim nümayəndələr Moskvaya gedib qayıdandan sonra 1937-ci ildə konstitusiya qəbul ediləndə dövlət dili maddəsi yazılmayıb. 1936-cı ildə Sovetlər İttifaqının konstitusiyasında da dövlət dili maddəsi yoxdur. 1977-ci ildə qəbul olunmuş Sovetlər İttifaqı konstitusiyasında dövlət dili barədə maddə yoxdur. Bunun səbəbi o deyildir ki, Sovetlər İttifaqı bir dövlət deyildi, yox. Yəqin dövlət dilini yazmayan adamlar istəmirdilər ki, dillər parçalansın. Bir də bilirdilər ki, onsuz da rus dili hakim dildir və bunu konstitusiyaya yazmağa da ehtiyac yoxdur. Mən belə düşünürəm. Ancaq bilin, bu məsələ müzakirə olunmamışdı. Mən bunu da bildirmək istəyirəm ki, biz 1977-1978-ci ildə Azərbaycan Konstitusiyasına "Azərbaycanın dövlət dili Azərbaycan dilidir" yazmağa çalışanda bizə Moskvadan deyirdilər ki, axı SSRİ konstitusiyasında bu yoxdur və siz nə üçün yazırsınız? Deyirdilər ki, bizdə də yoxdur, sizdə də olmamalıdır.

Dilimizin inkişafı bax, belə mərhələlərdən keçib və nəhayət, bizim bugünkü dilimiz – zəngin dilimiz var. Əgər biz o ta[461-462]rixi nöqtələri bir də yadımıza salsaq, 1936-cı ildən indiyədək Azərbaycanda bizim dilimiz Azərbaycan dili adlanmışdır. Bütün sənədlərdə Azərbaycan dili adlanır. Bütün yerlərdə Azərbaycan dili adlanır. 1978-ci ildəki konstitusiyada "Azərbaycan dili dövlət dilidir" yazılmışdır. Bu gün də hamımız deyirik ki, bizim dilimiz Azərbaycan dilidir.

Tarixi köklərimizə, tarixi keçmişimizə böyük hörmət və ehtiramımızı bildirərək, eyni zamanda bu gün deməliyik və mənəvi haqqımız var deyək ki, XX əsrdə bizim dilimiz öz inkişaf dövrünü keçib, formalaşıb, özünəməxsus adını götürüb və gəlib dövlət dili səviyyəsinə çatıb. İndi bunun adını dəyişdirib başqa ad qoymaq heç bir nöqteyi-nəzərdən düzgün deyil – həm tarixi nöqteyi-nəzərdən, həm fəlsəfi nöqteyi-nəzərdən, həm Azərbaycanın dövlətçiliyi nöqteyi-nəzərindən, ölkəmizin bu günü və gələcəyi nöqteyi-nəzərindən düzgün deyil.

Mən bir dəfə dedim ki, biz gərək öz milli mənliyimizi heç vaxt itirməyək. Xalqların hər biri tarixi yol keçib, hər birinin də özünəməxsus nailiyyəti var. Bizim ərazimizdə Birləşmiş Millətlər Təşkilatı tərəfindən qəbul olunmuş hüdudlar çərçivəsində Azərbaycan Respublikasında yaşayanlar azərbaycanlılardır. Bizim keçmişimiz məlumdur, biz onu inkar etmirik, – yenə də deyirəm, biz türk mənşəli bir xalqıq. Bizim dilimiz türk dilləri qrupuna məxsus dildir. Ancaq o 23 dil kimi, bizim də öz dilimiz var. Biz öz dilimizi gedib heç bir başqa dilə nə qarışdırmalıyıq, nə də ona yapışdırmalı, qoşmalıyıq. Bizim özümüzün dilimiz var. Bu dil də bizim dilimizdir. Mən bunu demişəm, yenə də deyirəm, – türk dilləri qrupuna məxsus olan digər dillər, ola bilər, həsəd apara bilərlər ki, bizim dilimiz nə qədər zəngindir.

Mən hər bir dilə öz hörmət və ehtiramımı bildirirəm. Amma hesab edirəm ki, öz dilimizlə, Azərbaycan dili ilə hər birimiz fəxr edə bilərik. Çünki bu, zəngin dildir, artıq dünyada tanınmış dildir. Xalqımızın adı da tanınıb, respublikamızın adı da tanınıb, dilimizin adı da tanınıb. Bu reallıqdır. Mən keçən dövrü kənara qoyuram, – 60 il ərzində bu, mövcud olmuş reallıqdır. Gün-gündən, aybaay inkişaf etmiş reallıqdır.

Azərbaycanda rus dili nə qədər hakim oldusa da, vaxtilə Azərbaycanda nə qədər çalışdılar ki, Azərbaycan dilini sıxışdırıb çıxarsınlar, rus dilini geniş yaysınlar, amma biz dilimizi qoruduq, saxladıq. Biz dilimizi itirmədik. İndi biz dilimizdə sərbəst danışırıq və hər bir mürəkkəb fikri öz dilimizdə ifadə et[462- 463]məyə qadirik. Bu, böyük nailiyyətdir. Bu, iqtisadi, başqa nailiyyətlərin hamısından üstün bir nailiyyətdir ki, bizim bir millət kimi özümüzə məxsus dilimiz var və o da o qədər zəngindir ki, dünyanın hər bir hadisəsini biz öz dilimizdə ifadə edə bilirik.

Ona görə də bir də deyirəm – tarixi keçmişimizə, əcdadlarımıza böyük hörmət və ehtiram hissini bildirərək, bu gün biz tarixi bir addım atmalıyıq: müstəqil Azərbaycan Respublikasının dövlət dilini qəbul etməliyik. Müstəqil Azərbaycan Respublikasının dövlət dili Azərbaycan dilidir.

Mən hesab edirəm ki, biz bu layihəni bu gün hazırlayarkən 23-cü maddəyə baxıb onu bəlkə də bir az təkmilləşdirmək, genişləndirmək olar. Hər halda bunu qəbul edirik, referenduma veririk. Bəli, qoy xalq öz sözünü desin. Ancaq biz də xalqın nümayəndəsi, cəmiyyətin üzvü kimi, eyni zamanda xalq tərəfindən böyük səlahiyyətlərə malik olan şəxslər kimi bu gün öz fikrimizi deyirik. Əgər etiraz yoxdursa, bununla da bu məsələnin müzakirəsini bitirək. [463-464]

**GÜRCÜSTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ EDUARD ŞEVARDNADZE CƏNABLARINA**

Əziz Eduard Amvrosiyeviç!

Gürcüstan Respublikasının prezidenti seçilməyinizlə əlaqədar olaraq sizə ən səmimi təbriklərimi yetirirəm, xoşbəxtlik, cansağlığı və dövlət başçısı kimi məsul fəaliyyətinizdə müvəffəqiyyətlər arzulayıram.

Əminəm ki, Azərbaycanın və Gürcüstanın qardaş xalqlarının ənənəvi dostluq, əməkdaşlıq və qarşılıqlı yardım əlaqələri hər iki xalqın rifahı, regionda sülh və sabitlik naminə bundan sonra da möhkəmlənəcək və inkişaf edəcəkdir.

Sizə və bütün gürcü xalqına keçid dövrünün çətinliklərini tezliklə aradan qaldırmağı, ərazi bütövlüyünün bərpasını, əmin-amanlıq və tərəqqi arzulayıram.

Hörmətlə,

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*8 noyabr 1995-ci il* [464-465]

## MİLLİ MƏCLİSƏ SEÇKİLƏR ÜZRƏ MƏRKƏZİ SEÇKİ KOMİSSİYASININ ÜZVLƏRİ İLƏ GÖRÜŞDƏ GİRİŞ SÖZÜ

*Prezident Sarayı*

*9 noyabr 1995-ci il*

Seçkilərə hazırlıq işləri başlanan zaman, Mərkəzi seçki komissiyasının tərkibi təsdiq olunandan sonra mən komissiyanın üzvləri ilə görüşdüm, söhbət etdim və onların işlərinin uğurla getməsi barədə arzumu bildirdim. Hesab edirəm ki, Mərkəzi seçki komissiyası bu müddətdə gərgin iş aparıb və çox iş görübdür. İndi parlament seçkilərinə və konstitusiyanın qəbul olunması üçün keçiriləcək referenduma az bir vaxt qalıbdır.

Mərkəzi seçki komissiyası öz işində müstəqildir və seçkilərin keçirilməsinin təmin olunması onun üzərinə düşür. Bu komissiya müstəqil fəaliyyət göstərir. Ona görə də mən Mərkəzi seçki komissiyasının işinə qarışmamışam və qarışmıram. Bugünkü görüşümün məqsədi isə məhz ondan ibarətdir ki, respublikamızda bu böyük tədbirlərin keçirilməsinin təmin olunması üçün bir prezident kimi özümü cavabdeh hesab edirəm və bu işdə çox böyük marağım olduğunu göstərmək istəyirəm. Marağım və cavabdehliyim də ondan ibarətdir ki, Azərbaycanda seçkilər sərbəst, azad, demokratik qaydada keçsin, insanların hüquqları təmin olunsun, seçkilərə buraxılmış adamlar, vətəndaşlar bu seçkilərdə səs toplamaq üçün öz hüquqlarından istifadə etsinlər, xüsusən seçicilər öz iradələrini sərbəst, azad ifadə edə bilsinlər və gəlib, birincisi, seçkidə, səsvermədə iştirak etsinlər, ikincisi də, istədikləri namizədə səs versinlər. Məqsəd bundan ibarətdir. Bir dövlət başçısı kimi mənim şəxsən arzum, istəyim və məqsədim bundan ibarətdir.

Ona görə də bu gün sizinlə görüşmək arzusunda oldum və bu sözləri sizə çatdırmaq istəyirəm. Doğrudur, siz mənim bu fikirlərimi bilirsiniz. Bu seçkiqabağı kampaniyada mən öz fikirlərimi dəfələrlə bildirmişəm, ancaq bunları sizə bir daha bildirmək istəyirəm. Çünki sizin işiniz təkcə indiyədək görülən işlər deyil, bu seçki kampaniyasını axıra çatdırmaqdan ibarətdir. İndiyə qədər çox iş görmüsünüz. Mən bilirəm ki, çox gər[465-466]gin işləmisiniz və hesab edirəm ki, işlərinizin hamısı səmərəli olubdur, ümumiyyətlə, müsbət qiymətləndirilə bilər. Ancaq bu son mərhələdə də sizin qarşınızda çox böyük vəzifə durur. Həmin vəzifəni də layiqincə yerinə yetirib, bu böyük işi tamamlamaq lazımdır. Mən sizi buna görə dəvət etmişəm və əgər mənə dair sözünüz olsa, yaxud məlumat vermək istəsəniz, mən sizi dinləməyə hazıram.

### YEKUN SÖZÜ

Siz – Mərkəzi seçki komissiyasının üzvləri və yerlərdə dairə seçki komissiyaları indiyə qədər çox iş görmüsünüz. Sizin gördüyünüz işləri mən çox müsbət qiymətləndirirəm. Şübhəsiz ki, sizin və dairə seçki komissiyalarının işlərində nöqsanlar, qüsurlar da var və bunların aradan qaldırılması üçün indən sonra da zəruri tədbirlər görmək lazımdır.

Müxalifət qüvvələrinin qəzetlərdə və televiziya vasitəsilə çıxışları haqqında siz burada danışdınız. Birincisi, artıq belə şeylərə öyrəşmək, vərdiş etmək lazımdır. Müxalifət elə ona görə müxalifətdir ki, gərək o danışsın. İkincisi, gərək bu danışıqlar sizi çox da narahat etməsin. Şübhəsiz, indi bizim cəmiyyətimiz formalaşma prosesində olduğu kimi, müxalifət də hələ formalaşır. Bizdə həqiqi, normal, konstruktiv mövqedə duran, eyni zamanda qanunlar çərçivəsində fəaliyyət göstərən müxalifət, demək olar ki, hələ yoxdur. Müxalifətdə olanların çoxu yalnız yalan, böhtan danışmaqla, hay-küy salmaqla özlərinin müxalifətliyini sübut etmək istəyir. Ona görə də bizim keçid dövrümüzdə belə hallar təbiidir və bu sizi narahat etməsin. Eyni zamanda bu böhtanlar, bu yalanlar, cürbəcür hədyanlar, şübhəsiz ki, insanlarda hiddət doğurur. Güman edirəm ki, bu cür mövqedə duran qüvvələr, partiyalar, ayrı-ayrı şəxslər sadəcə olaraq özləri-özlərini nüfuzdan salırlar və heç bir şey qazanmırlar. İctimaiyyətimiz, xalqımız tədricən yaxşını pisdən seçməyi bacarır və güman edirəm ki, bu, get-gedə normal bir prosesə çevriləcəkdir.

Mən də sizə tərəfdaram ki, müxalifət tərəfindən deyilən, yazılan fikirlərin əksəriyyəti ədalətsizdir və bir çoxu da böhtan xarakteri daşıyır, yalandır. Hesab edirəm ki, cəmiyyətimizin üzvlərinin əksəriyyəti onlara inanmır və bir çoxları da bunları etiraz hissi ilə, bəzən də nifrətlə qarşılayırlar. [466-467]

Siz burada Nemət Pənahovun icad etdiyi siyahı haqqında danışdınız. Mən eşidirəm, son vaxtlar mətbuatda da belə danışıqlar gedir ki, nə üçün iqtidar bu siyahı haqqında meydana çıxan məlumat barəsində susur. Respublika Ali Sovetinin sədri Rəsul Quliyev dünən televiziya ilə müsahibəsində bu barədə geniş izahat verdi. Digər tərəfdən isə, mən hesab edirəm ki, buna heç izahat, cavab verməyə ehtiyac yoxdur. Çünki biz hər bir böhtana, yalana cavab verməyə başlasaq, işimizi görə bilmərik. Yenə deyirəm, mən hesab edirəm ki, böhtana, yalana cavab verməyə ehtiyac yoxdur. O, başdan-ayağa quraşdırmadır, yalandır. Bu kiminsə tərəfindən, ola bilər, elə şəxsən Nemət Pənahov tərəfindən yalandan quraşdırılmış bir siyahıdır. Şübhəsiz, insanlarda müəyyən bir inam yaratmaq üçün hər adam bir təhlil, mülahizə aparır. Rəfiq Zəka da burada düzgün dedi ki, namizədliyini

vermiş 1.070 adamın siyahısı dərc olunubdur, hər kəs müəyyən qədər proqnozlaşdırma aparar ki, buradan təxminən kim keçə bilər. Bunların çoxunu proqnozlaşdırmaq olar. Bunu kim istəyir edə bilər və hərə də bir siyahı düzəldə bilər. Ola da bilər ki, bu siyahılar bir-birinə bənzəsin.

Bizdə heç bir siyahı yoxdur, belə bir siyahı olmayıbdır. Yenə də deyirəm – bu, ağ yalan olduğuna görə mən ona cavab verməyə ehtiyac bilməmişəm. Amma bir halda ki, siz, Mərkəzi seçki komissiyasının üzvləri bu məsələyə toxundunuz, mən bu barədə öz fikrimi deyirəm.

Siz burada müşahidəçilər haqqında fikirlər söylədiniz, verilən bəyanatdan narazı olduğunuzu bildirdiniz. Bilirsiniz, müşahidəçiləri biz özümüz dəvət etmişik. Nə üçün dəvət etmişik? Çünki biz özümüzə arxayınıq, həqiqətən demokratik prinsiplər əsasında parlament seçkiləri keçirmək istədiyimizi bütün dünyaya nümayiş etdirməliyik. Bunu bütün dünyaya nümayiş etdirmək üçün özümüz maraqlıyıq ki, Azərbaycana daha çox müşahidəçilər gəlsin. Bir neçə ay bundan qabaq bu müraciəti biz özümüz etmişik. Əgər biz özümüz bütün beynəlxalq təşkilatlara, dünyanın demokratiya sahəsində inkişaf etmiş ölkələrinə, bu ölkələrin demokratiya institutlarına öz müşahidəçilərini göndərmək barədə müraciət etmişiksə, demək, biz heç kəsdən heç bir şeyi gizlətmək istəmirik.

Azərbaycanda ilk dəfədir ki, demokratik seçkilər keçirilir. Müstəqil Azərbaycan Respublikasının ilk parlamenti yaranır. Heç kəs güman etməsin və mən də belə fikirdə deyiləm ki, bu [467-468] proses qüsursuz, səhvsiz, nöqsansız olacaqdır. Bu, heç də belə deyil. Güman edirəm ki, seçkiləri qurtarandan sonra da biz bu məsələni çox obyektiv təhlil edib buraxılan səhvləri, nöqsanları, qüsurları aşkar etməliyik və göstərməliyik ki, bəli, bu qüsurlar, səhvlər olub. Bunun əsasında da biz gələcəkdə cəmiyyətimizi demokratiya prinsipləri ilə formalaşdıracaq, inkişaf etdirəcək, irəliyə aparacağıq. Bax, biz bu əsaslara söykənərək beynəlxalq müşahidəçiləri ölkəmizə dəvət etmişik. Mən çox məmnunam ki, onlar gəliblər. Onların bəzi fikirlərinə, sözlərinə, yaxud verdikləri bəyanata gəldikdə isə, ola bilər ki, bunlar üst-üstə düşməsin və sizin xoşunuza gəlməsin. Bundan narahat olmayın. Onların öz fikri, sizin də öz fikriniz var.

Ancaq mən hesab etmirəm ki, beynəlxalq müşahidəçilər işimizə mane olmağa, yaxud bizim əleyhimizə iş aparmağa gəliblər. Bunlar düzgün deyil. Mən buna etiraz edirəm. Belə adamlar ola bilməz. İndi burada dedilər, ola bilər, müşahidəçilərdən kim isə gedib Kələkidə Əbülfəz Elçibəylə ərəb dilində danışıb. İstəyir lap yapon dilində danışsın. Əbülfəz Elçibəy iki il yarımdan sonra, nəhayət, televiziyada göründü, siz də onun danışığını gördünüz. İndi o gün o, ərəb dilində, yaxud Azərbaycan dilində danışırdı, – bunu da gördünüz, aydın etdiniz. Ona görə də siz buna narahat olmayın. Kim hara istəyir getsin, kim kimin yanına getmək istəyir getsin, kim kiminlə görüşmək istəyir, – gedib görüşsün. Bu da aşkarlıqdır, bizim siyasi plüralizm siyasətimizin təcəssümüdür, demokratiyamızın nümayişidir. Buna heç narahat olmayın.

Ancaq siz heç də düşünməyin ki, hər şeyi düz etmisiniz. Həmişə çalışın ki, baxasınız və harada nəyi isə səhv etmisinizsə, onu düzəldəsiniz. Bu, sizin üçün nə qədər acı olsa da və bunu sizə nə qədər acı desələr də, görsəniz ki, səhv etmisiniz, – yaxşı olar, səhvlərinizi düzəldəsiniz, nəinki inadkarlıqla sübut edəsiniz ki, "yox, mən səhv demirəm, sən səhvsən". İnadkarlıq lazım deyil. Biz bunlara öyrənməliyik, bu prosesi keçməliyik, özümüz özümüzü formalaşdırmalıyıq.

Dünən mən ABŞ Milli Demokratiya İnstitutunun direktoru cənab Letski ilə görüşdüm. O, çox yaxşı bir insan, təcrübəli adamdır. Mən onunla üçüncü dəfədir ki, görüşürəm. Əvvəllər bir dəfə bura gəlmişdi, görüşdük. Nyu-Yorkda gəlib mənimlə görüşdü, dünən də görüşdük. Mən ona da dedim və dəfələrlə demişəm, – bu demokratiya elə bir şey deyil ki, göydən düşsün, sən də onu götürüb hər yerdə tətbiq edəsən. Əgər Ameri[468-469]ka Birləşmiş Ştatlarında demokratiya 200 il müddətində formalaşıbsa, burada hələ də demokratiyadan şikayət varsa, yaxud demokratiya sahəsində inkişaf etmiş digər dövlətlərdə demokratiyanın pozulmasından yenə də şikayət varsa, biz bu sahədə yenicə addım atmış bir ölkəyik, xalqıq. Axı biz nə vaxt demokratiya şəraitində yaşamışıq! Heç vaxt. Tarixi keçmişimizdə də hakimlərimiz padşahlar, şahlar, sultanlar olub. İndiyə qədər yaşadığımız dövrdə də biz bir partiyanın hakimiyyəti altında olmuşuq. Ona görə də dünyada tanınmış, bəyənilmiş demokratiya bizdə indi tətbiq olunur. Mən hesab etmirəm ki, bu üç-dörd il içərisində biz demokratiyanı mənimsəmişik. Yəqin hələ illər lazım olacaq ki, tam demokratiya şəraitinə çataq. Ancaq bir şey həqiqətdir və bu da ondan ibarətdir ki, biz bu yolla qəti gedirik və bu yolla da gedəcəyik. Bu seçkilərdə də çalışmalıyıq ki, hər bir dairədə, məntəqədə bu yolla gedək. İndi sız verilən bəyanatdan narahatsınız. Hərə öz münasibətini bildirə bilər, bu sizin öz işinizdir. Ancaq mən hesab edirəm ki, narahat olmağa əsas yoxdur.

Hazırda bizim ən böyük vəzifəmiz indiyədək görülən işə yaxşı yekun vurmaqdır. Siz bir neçə aydır ki, işləyirsiniz. Respublikamızın ictimaiyyəti işləyir. Bu seçki prosesinə nə qədər adam qoşulub və iştirak edir. Burada deyildi, yerlərdə nə qədər məntəqələr, dairələr yaradılıb, bu işə nə qədər adam cəlb olunub. Biz bu işə nə qədər vəsait sərf edirik. Lazımdır ki, bu öz nəticəsini versin. Ona görə də mənim sizdən xahişim ondan ibarətdir ki, indiyə qədər olan işlər geridə qaldı, çalışın bu gün, sabah noyabrın 12-dək işlər elə qurulsun ki, biz seçkilərin keçirilməsində maksimum demokratiyaya nail olaq. Mən demirəm ki, tam demokratiyaya nail olaq. Ola bilər, tam demokratiya olmasın, – mən bu reallıqdan danışıram, – amma maksimum demokratiyaya nail olmağa çalışmaq lazımdır. Ona görə yox ki, mən tam demokratiyanın olmasını istəmirəm. Mən bunu hamıdan çox istəyirəm. Nyu-Yorkda keçirdiyim görüşlərdə də bunu demişəm. Əgər Azərbaycandakı bu seçkilərdə

demokratiyanın tam şəkildə ifadə olunmasına çalışan adamlar varsa, onlardan ən birincisi mənəm. Çünki mən bu respublikanın, dövlətin başçısıyam, prezidentəm və demokratiya yolu ilə gedirəm. Özüm bu prinsiplərə sadiqəm. Bu prinsipləri öz xalqıma, millətimə, ölkəmə sirayət etdirmək istəyirəm. Ona görə də mən çalışıram ki, bu olsun. Ancaq biz buna nə qədər nail olacağıq, təminat verə bilmərəm. [469-470]

Sizdən xahişim ondan ibarətdir ki, seçkilərin maksimum demokratiya ilə keçməsinə çalışasınız. Ona görə də bu günlərdə müşahidəçilərin hər bir sözünə diqqətlə yanaşmaq, ciddi fikir vermək lazımdır. Bu sözlər, ola bilər ki, sizin xoşunuza gəlməyən formada, acı deyilsin. Siz bu sözlərin formasına yox, mənasına, məzmununa, əhəmiyyətinə fikir verin. Görün, doğrudan da bir səhv, nöqsan, qüsur varsa, onu tezliklə aradan götürmək lazımdır.

Mən əmin olduğumu bildirmək istəyirəm ki, siz indiyədək gördüyünüz işlərə, gərgin fəaliyyətinizə yaxşı yekun vurmağa çalışacaqsınız. Qarşıdakı günlərdə daha fəal olacaqsınız, sərbəstliyə, demokratiyaya daha da kömək edəcəksiniz. Çalışacaqsınız ki, seçkilərin nəticəsi yaxşı olsun və beynəlxalq müşahidəçilər bu nəticəni demokratik seçkilərin nəticəsi kimi təsdiq etsinlər.

Hesab edirəm ki, bunun üçün bizim imkanımız var. İndiyədək gördüyümüz işlər buna əsas verir. Birmandatlı dairələrdən 400-dək namizəd var. Deməli, orta hesabla hər bir yerə dörd namizəd var. 8 partiya var, 8 partiyanın hər biri 25 namizəd irəli sürüb. Partiya siyahılarından 200 namizəd, birmandatlı dairələrdən 400 namizəd var. Deməli, 125 deputat yerinə 600 namizəd var.

İndi seçkilərdə 8 partiya iştirak edir. Azərbaycanın tarixində nə vaxt olubdur ki, bır partiyadan artıq partiya seçkilərdə iştirak etsin? Bu günədək olan şeylərə kim nə deyir, desin. Bu, böyük nailiyyətdir. Bu bizim üçün yeni böyük bir mərhələdir. Ancaq bunu sona çatdırmaq, bu nailiyyəti doğrudan da tamamilə nailiyyət etmək üçün noyabrın 12-dək və xüsusən noyabrın 12-də görüləcək işlər çox mühümdür, çox əhəmiyyətlidir.

Güman edirəm ki, siz bunu edəcəksiniz. Yenə də deyirəm, mən sizin daxili işinizə qarışmıram. Komissiyanın sədri Cəfər Vəliyev başda olmaqla oturub fikirləşin ki, bu gün, sabah nə iş görəcəksiniz, noyabrın 12-də nə işlə məşğul olacaqsınız. Yerli icra hakimiyyəti orqanları göstəriş alıblar və yenə də göstəriş alacaqlar. Mən bu gün tapşırıram ki, seçkilərin demokratik, sərbəst şəraitdə keçirilməsi üçün dairə, məntəqə seçki komissiyalarına və Mərkəzi seçki komissiyasına lazımi kömək etsinlər. Onlar kömək etməlidirlər, şərait yaratmalıdırlar, amma seçkiləri Mərkəzi seçki komissiyası, dairə, məntəqə seçki komissiyaları həyata keçirməlidirlər. Məsuliyyət sizin üzərinizdədir. Mən bu yolda sizə uğurlar arzulayıram. Sağ olun. [470-471]

## AZƏRBAYCAN RESPUBLİKASININ YENİ KONSTİTUSİYA LAYİHƏSİNİ HAZIRLAYAN KOMİSSİYANIN İCLASINDA ÇIXIŞ

*Prezident sarayı*

*10 noyabr 1995-ci il*

Hörmətli xanımlar və cənablar!
Hörmətli komissiya üzvləri!

Bu gün biz Azərbaycan Respublikasının yeni konstitusiya layihəsinin hazırlanması ilə əlaqədar təşkil olunmuş komissiyanın referendum ərəfəsində son iclasını keçiririk. Komissiya altı aydan çoxdur ki, fəaliyyət göstərir. Altı ay müddətində onun səkkiz iclası olmuşdur. Komissiyanın yaratdığı işçi qrupu daha çox həm iclaslar keçirib, həm də işləyibdir. Ancaq bu iclaslararası vaxtda konstitusiyanın layihəsini bilavasitə hazırlayan şəxslər, onun üzərində işləyənlər və bizim hər birimiz, o cümlədən mən də bu altı ay müddətində yeni komissiyanın layihəsinin yaranması üçün çox vaxt sərf etmişik. Hesab edirəm ki, çəkilən zəhmətin, sərf olunan vaxtın hamısı öz bəhrəsini, nəticəsini verib. Biz addımbaaddım, günbəgün çalışıb müstəqil Azərbaycan Respublikasının Konstitusiyasının layihəsini hazırlayıb xalqa təqdim edə bilmişik.

Konstitusiya komissiyası üzvlərinin hər biri bu işdə fəal iştirak edibdir. Ancaq eyni zamanda mən bu gün qeyd etməliyəm ki, konstitusiya komissiyası tərəfindən yaradılmış işçi qrupu, bu layihənin hazırlanmasına cəlb olunmuş mütəxəssislər, hüquqşünaslar əməli surətdə çox iş görüblər. Burada, Prezident Aparatında bu məsələ ilə məşğul olan əməkdaşlarımız çox işləyiblər. Ali Sovetdə bu məsələ ilə məşğul olan əməkdaşlarımız çox işləyiblər. Bunların hamısının zəhməti nəticəsində biz, komissiya üzvləri iclaslarda müzakirəni ümumi sözlərlə yox, konkret layihələr, təkliflər əsasında aparmışıq. Ona görə də mən bu gün – artıq konstitusiyanın layihəsi xalqa təqdim olunandan sonra – ümidvaram ki, noyabrın 12-də o, referendumda qəbul olunacaqdır. Bu ərəfədə birinci növbədə konstitusiya komissiyasının üzvlərinə təşəkkürümü bildirirəm. İşçi qrupuna xüsusi təşəkkür etmək istəyirəm. Çünki yenə də deyirəm, onlar əməli işlə məşğul olublar, çox elmi tədqiqatlar, [471-472] axtarışlar aparıblar. Dünyada mövcud olan konstitusiyaların müddəaları ilə tanış olublar, əlimizdə olan layihəni onlarla müqayisə ediblər, başqa çox işlər görüblər.

İşçi qrupuna xüsusi təşəkkür edirəm, minnətdarlığımı bildirirəm. İşçi qrupumuzda bu məsələ ilə ən çox məşğul olan və xüsusən bu sənədləri mənə birbaşa, ardıcıl surətdə təqdim edən bizim hüquq şöbəsindəki şəxslər – həm burada, Prezident Aparatında, həm də Ali Sovetdə olan şəxslər daha çox iş görüblər. Prezident Aparatı hüquq şöbəsinin müdiri Şahin Əliyevlə, Ali Sovetin hüquq şöbəsinə rəhbərlik edən Səfa Mirzəyevlə mən daha çox əlaqədə olmuşam. Onların daha çox işini müşahidə etmişəm. Onlara xüsusi təşəkkür edirəm.

Ümumiyyətlə, bu gün hamımız mənəvi rahatlıq hissi keçirə bilərik. Çünki tarixi bir iş görülübdür. Tarixi bir sənəd yaradılıbdır. Bu gün biz ölkəmizin bütün ictimaiyyəti qarşısında, dünya ictimaiyyəti qarşısında deyə bilərik ki, Azərbaycan Respublikasının, xalqımızın tarixində ilk demokratik konstitusiya yaranmasında biz bilavasitə iştirak etmişik və bu layihənin yaranması bizim hamımızın birlikdə məhsuldar əməyimizin, fəaliyyətimizin nəticəsidir.

Komissiya öz işinə başlayarkən mən demişdim ki, bizim üzərimizə böyük məsuliyyət düşür. Biz gələcək nəsillərin qarşısında çox cavabdeh olacağıq, eyni zamanda üzərimizə böyük və şərəfli bir vəzifə düşür. Bu gün mən deyə bilərəm ki, komissiya üzvlərindən heç kəs narahat olmasın. Mən buna tam əminəm. Çünki üzərimizə düşən məsuliyyəti biz vicdanla, xalqımıza, vəzifəmizə sədaqətlə həyata keçirmişik və gördüyümüz işə, xalqa təqdim etdiyimiz layihəyə görə fəxr edə bilərik. Hesab edirəm ki, bütün gələcək nəsillərdə meydana çıxacaq sualların hamısına burada cavab var. Yəni biz tarixi bir sənədin yaradılmasının iştirakçılarıyıq və bununla fəxr edə bilərik.

Mən şəxsən bu sənədin hazırlanmasına böyük məsuliyyət hissi ilə yanaşmışam. Çünki mənim çoxillik həyat yolumda olan təcrübəm və keçmişdə, bəzi mərhələlərdə ağır sınaqlarda olduğum illərdə qarşımda duran çətinliklərin hamısı məni daha da məsuliyyətli olmaq üçün formalaşdırıbdır. Ona görə də komissiyanın sədri kimi şəxsən mən bu böyük tarixi sənədin hazırlanmasında öz şəxsi məsuliyyətimi daim dərk etmişəm, bu gün də dərk edirəm. Ona görə də bu sənədin hazırlanmasına xeyli vaxt sərf etmişəm. Haqqım var deyəm ki, çox zəhmət çəkmişəm. Hər bir kəlmənin, hər bir sözün mənasını [472-473] dəfələrlə araşdırmışam, onun bu gün üçün, gələcək üçün nə qədər əsaslı olmasını dəfələrlə təhlil etmişəm. Mən çox rahatlıq hissi ilə bu layihənin altından imza atıram və bu layihəyə görə tam cavabdeh olduğumu bu gün bəyan edirəm. Hesab edirəm ki, biz Azərbaycanın bu günü, gələcəyi üçün çox böyük bir sənəd – siyasi, hüquqi sənəd yaratmışıq.

İndi komissiyanın layihəsini təhlil etməyə ehtiyac yoxdur. Çünki burada, bu salonda olan şəxslərin hər biri bu konstitusiya layihəsini hazırlayanlardır, onun iştirakçılarıdır. Yenə də deyirəm, bu, hamımızın birgə yaradıcılığımızın nəticəsidir, zəhmətimizin məhsuludur.

Ancaq bir neçə məqama toxunmaq istəyirəm. Bizim konstitusiya layihəsinin ən böyük əhəmiyyəti ondan ibarətdir ki, xalqımızın, respublikamızın tarixində bu, ilk, tamamilə sərbəst, müstəqil şəkildə yaranmış konstitusiyadır. Ümumiyyətlə, deyə bilərəm ki, ilk konstitusiyadır. Keçən iclaslarımızda Azərbaycan Respublikasının konstitusiya tarixi haqqında danışıldı. Biz 1921-ci ildə, 1937-ci ildə və 1978-ci ildə qəbul olunmuş konstitusiyalar haqqında danışdıq. Bu konstitusiyalar Sovetlər İttifaqının tərkibində olan, sosialist quruluşuna mənsub olan respublikanın konstitusiyaları olmuş, amma eyni zamanda 70 il müddətində xalqımızın, Azərbaycan Respublikasının tarixi yol keçməsində, yaşamasında və gəlib bu günlərə çatmasında böyük rol oynamışdır. Biz tarixə daim hörmətlə yanaşmalıyıq, keçmişimizi qiymətləndirməliyik. Bu gün mən o konstitusiyanı yaradanlara və o konstitusiya əsasında on illər boyu Azərbaycanda görülmüş işlərə hörmət və ehtiramımı bildirirəm.

Ancaq hazırda yaranan konstitusiyanın layihəsi indiyə qədər olan bütün konstitusiyaların, qanunların hamısından tamamilə fərqlənir. Ona görə fərqlənir ki, bu, müstəqil Azərbaycan Respublikasının Konstitusiyasıdır. Bu, Birləşmiş Millətlər Təşkilatının üzvü olan, dünya birliyində bərabərhüquqlu yerini tutmuş Azərbaycan dövlətinin Konstitusiyasıdır. Fərqlənir ona görə ki, bu konstitusiya Azərbaycan xalqının iradəsini ifadə edərək, heç bir mərkəzdən idarə olunmadan, bizim, yəni konstitusiya komissiyasının və konstitusiya layihəsi hazırlanmasında bizimlə bərabər iştirak edən geniş miqyaslı vətəndaşlarımızın əməyinin nəticəsidir. Yəni bizim sərbəst, müstəqil fəaliyyətimizin nəticəsidir. Ona görə də bu konstitusiya layihəsi [473-474] əvvəlki bütün konstitusiyalardan fərqlənir və tarixi əhəmiyyət kəsb edir.

Biz dörd ildir ki, müstəqil dövlət kimi yaşayırıq. Dörd il dövlət müstəqilliyi çərçivəsində yaşayaraq indi nəhayət, biz müstəqil dövlətimizin ilk Konstitusiyasını qəbul edirik. Ona görə də bu layihə fərqlənir və tarixi bir sənəddir. Yenə də deyirəm, konstitusiya layihəsinin müddəaları haqqında danışmağa ehtiyac yoxdur, ancaq əsas məzmunu ondan ibarətdir ki, o, xalqın iradəsini ifadə edir, Azərbaycanın dövlət quruluşunun təsirlərini, hüquqi əsaslarını yaradır, Azərbaycanda dövləti idarəetmənin prinsiplərini əks etdirir, dövlət ilə xalq arasında olan münasibətləri əks etdirir və müstəqil Azərbaycan Respublikasında hüquqi demokratik, dünyəvi dövlətin qurulması üçün bütün hüquqi əsasları yaradır. Onun bütün maddələri xalqın iradəsini ifadə edir. Hakimiyyətin mənbəyi xalqdır – bu əsas anlayış burada bariz şəkildə öz əksini tapıbdır. İdarəetmədə, dövlətçilikdə hakimiyyətin bölgüsü tam demokratik prinsiplər əsasında öz əksini tapıbdır.

Konstitusiyamızda dünya konstitusiya təcrübəsindən çox istifadə olunubdur. Ancaq eyni zamanda bizim konstitusiyamız Azərbaycan Respublikasının tarixi ənənələrini, xüsusiyyətlərini də əks etdirir. Bunlarla yanaşı, ümumiyyətlə, Azərbaycan Respublikasının bu gününü, gələcəyini təmin etmək üçün özünəməxsus prinsipləri əks etdirir. Ona görə də öz məzmun və mənasına görə tam demokratik prinsipləri özündə əks etdirən bir konstitusiyadır. Amma eyni zamanda bu heç bir başqa dövlətin konstitusiyasına bənzəməyən bir konstitusiyadır. Bu bizim özümüzün konstitusiyamızdır, müstəqil Azərbaycan Respublikasının Konstitusiyasıdır.

Bir də qeyd edirəm ki, burada bütün demokratik prinsiplər öz əksini tapıbdır. Hakimiyyətə dair prinsiplər məlumdur. Konstitusiyanın maddələrinin 48-i insan, vətəndaş azadlıqlarına, hüquqlarına həsr olunmuşdur. Ümumi mətnin üçdə bir hissəsi məhz insan, vətəndaş hüquqlarına, azadlıqlarına həsr edilmişdir. Bu da onu sübut edir ki, bu konstitusiya Azərbaycan vətəndaşlarının azad, sərbəst yaşaması üçün bütün şəraitləri yaradan bir konstitusiyadır. Bu konstitusiyada Azərbaycanın həm dövlət quruculuğu, həm respublikamızın iqtisadiyyatının qurulmasının əsas prinsipləri, hakimiyyətin bölgüsü: qanunvericilik, icra hakimiyyəti, məhkəmə hakimiyyətinin səla[474-475]hiyyətləri və onların müstəqilliyi, qarşılıqlı fəaliyyəti öz əksini tapıbdır.

Konstitusiya layihəsi dərc olunandan sonra vətəndaşlardan, ayrı-ayrı təşkilatlardan konstitusiya komissiyasına üç mindən çox təklif daxil olmuşdur. Bu təkliflər işçi qrupu tərəfindən diqqətlə öyrənilmiş, baxılmış və onların bir çoxundan konstitusiya layihəsinin işlənməsində, son həddə çatdırılmasında istifadə olunmuşdur.

Bilirsiniz ki, bu konstitusiya layihəsinin hər bir maddəsini biz sizinlə çox diqqətlə müzakirə etmişik. Ancaq onun bir maddəsi xüsusi müzakirə olunubdur. Bu da Azərbaycanın dövlət dilinə aid olan maddədir. Onun da xüsusi müzakirə edilməsinə səbəb bir tərəfdən keçmiş zamanlarda bu barədə tam aydınlığın olmaması, ikinci tərəfdən 1992-ci ilin dekabrında Milli Məclis tərəfindən bu barədə qeyri-qanuni də olsa qəbul edilmiş qərarın mövcud olması, üçüncü tərəfdən xalqımızın, ziyalıların, alimlərin, yaradıcılıqla məşğul olanların bu məsələyə xüsusi münasibətidir.

Bildiyiniz kimi, bunları nəzərə alaraq həmin maddə demokratik şəkildə hərtərəfli müzakirə olunub. Birincisi onu qeyd etmək istəyirəm ki, konstitusiya komissiyasına daxil olmuş üç min təklifdən yalnız 23 təklifdə konstitusiyada dövlət dilinin türk dili və ya Azərbaycan türkcəsi adlandırılması təklif edilib. Ancaq buna baxmayaraq, mən konstitusiya komissiyasının sədri kimi bu məsələnin vacibliyini nəzərə alaraq, özüm bu müzakirələrin geniş aparılmasının təşəbbüskarı olmuşam. Bu heç bir reqlamentə yazılmamışdır və heç kəs də bunu mənə təklif etməmişdir. Mən bunu burada sizə deməliyəm.

Konstitusiya komissiyasının üzvlərindən də heç kəs mənə təklif etməmişdir ki, bu maddə xüsusi müzakirə olunsun. Ancaq yenə də deyirəm, bu maddənin çox mühüm əhəmiyyətini dərk edərək mən bu maddənin xüsusi müzakirə olunmasını təklif etdim və bunu da təşkil etdim.

Bildiyiniz kimi, oktyabrın 14-də konstitusiya komissiyasında bu məsələ müzakirə olundu. Ondan sonra oktyabrın 31-də bu maddə Elmlər Akademiyasında Azərbaycan alimlərinin, ziyalılarının, jurnalistlərin, yazıçıların, şairlərin və dil sahəsində bütün mütəxəssislərimizin iştirakı ilə geniş müzakirə olundu. Orada 27 adam çıxış etdi. Ondan sonra konstitusiya komissiyasının iclası bir daha məhz buna həsr olundu. Konstitusiya komissiyasının üzvlərindən əlavə ora bu işlə məşğul olan bir çox [475-476] yüksək səviyyəli mütəxəssislər, eyni zamanda bu işə xüsusi maraq göstərən şəxslər dəvət edildi. Orada da məsələ müzakirə olundu, 25-dən çox adam çıxış etdi. Bundan sonra layihənin son variantı konstitusiya komissiyasında yenidən müzakirə edilərkən bu məsələ barəsində bilavasitə çıxış edib öz fikirlərini demək imkanı olmamış komissiya üzvləri də çıxış etdilər və beləliklə, biz bu məsələni aşkarlıq, tam demokratiya şəraitində həyata keçirdik. Hesab edirəm ki, bütün bunların nəticəsində ən doğru, düzgün və ən əsaslı bir qərar qəbul etdik ki, Azərbaycanın dövlət dili Azərbaycan dilidir. Bu. Azərbaycan xalqı üçün, onun mənəviyyatı, dilinin inkişafı üçün çox əhəmiyyətli qərardır. O, Azərbaycanda bütün Azərbaycan xalqının tərkibini təşkil edən xalqların hamısının özləri üçün bir dili qəbul etməsi üçün çox əsaslı bir qərardır və hesab edirəm ki, həm keçmişimizə böyük hörmətdir, həm də gələcək nəsillər üçün böyük bir sərvətdir. Mən hesab edirəm ki, biz çox düzgün və əsaslı qərar qəbul etmişik.

Konstitusiya layihəsinin bir fəsli yenə də müəyyən bir maraq doğurmuşdur. Bu, Naxçıvan Muxtar Respublikasına aid olan fəsildir və ona aid olan maddələrdir. Bəziləri bu maddənin əhəmiyyətini dərk etmədən, bu işə səthi yanaşaraq, formal nöqteyi-nəzərdən münasibət göstərərək belə fikir söyləyirlər ki, Azərbaycan unitar dövlətdir, unitar dövlətin içərisində muxtar respublika bir dövlət kimi ola bilməz. Bəziləri belə bir fikir söyləyirlər ki, guya bu, gələcəkdə Azərbaycanın federallaşmasına gedən bir yol açır və sairə.

Bunlar tamam əsassızdır, çox cılız fikirlərdir. Yenə də deyirəm, nə hüquqi, nə siyasi biliyi, təcrübəsi olmayan adamlar tərəfindən irəli sürülən fikirlərdir və bəzən də sadəcə populist xarakter daşıyan fikirlərdir. Ancaq bunlara baxmayaraq, biz hər bir təklifə diqqətlə yanaşdığımız kimi, buna da xüsusi diqqətlə yanaşdıq. Mütəxəssislərlə dəfələrlə müzakirə etdik. Dünya praktikasına baxdıq. Unitar dövlətlərin və demokratiya sahəsində çox inkişaf etmiş Avropa dövlətlərinin tərkibində muxtar qurumların dövlət kimi olmasını bir daha oxuduq, öyrəndik. Bunu əvvəlcədən də bilirdik, amma bu fikirləri yenə də əsaslandırmaq və yaxud bu müddəaların nə qədər əsaslı olduğunu özümüz üçün müəyyən etmək məqsədi ilə bunların hamısını öyrəndik. Hesab edirəm ki, bu fəsil də tamamilə əsaslı yazılıbdır və Azərbaycanın ərazi bütövlüyünü, müstəqilliyini təmin edən bu maddə çox böyük tarixi əhəmiyyətə ma[476-477]likdir – həm bizim tarixi keçmişimizə görə, Azərbaycanın tərkibində bu muxtar respublikanın yarandığı zamandan indiyədək keçdiyimiz dövrdə rastlaşdığımız halları nəzərə alaraq, həm də gələcəyimiz üçün.

Bu konstitusiya layihəsinin ən əsas mahiyyəti ondan ibarətdir ki, Azərbaycan Respublikasının tam müstəqilliyini təmin edir, ölkəmizin ərazi bütövlüyünü təmin edir, Azərbaycan xalqının hüquqlarının toxunulmazlığını təmin edir, vətəndaşlarımızın hər birinin hüquqlarının qorunmasını təmin edir və Azərbaycan xalqının, respublikamızın bölünməzliyini, hakimiyyətin heç bir qüvvə tərəfindən mənimsənilə bilməzliyini təmin edir.

Bax, bütün bunlara görə bu konstitusiya layihəsi çox dəyərli tarixi bir sənəddir və güman edirəm ki, xalqımız da bunu belə qəbul edəcəkdir. Tam əminəm ki, noyabrın 12-də Azərbaycan Respublikasının vətəndaşları, seçiciləri – bizim dörd milyon 300 minə qədər seçicimiz var – seçki məntəqələrinə gələcəklər, referendumda iştirak edəcəklər və Azərbaycan Respublikasının yeni konstitusiyasına səs verəcəklər.

Eyni zamanda onu da qeyd etmək istəyirəm ki, indi bəzi müxalifət partiyaları – xalqı bu konstitusiyaya səs verməməyə çağıran partiyalar, siyasi qüvvələr Azərbaycanın konstitusiyasının yaranması üçün bir iş görmürlər. Bu konstitusiya komissiyası öz işinə başlayandan, bilirsiniz ki, komissiyanın bütün iclasları aşkar şəkildə keçibdir, televiziya ilə xalqa çatdırılıbdır, bütün bu iclaslarda gedən müzakirələr mətbuatda dərc olunubdur. Biz bütün təşkilatlara, elmi müəssisələrə, yaradıcılıq təşkilatlarına, alimlərə, ziyalılara, bütün birliklərə və o cümlədən Azərbaycanda fəaliyyət göstərən siyasi partiyalara müraciət etdik ki, bu, ümumxalq işidir. Sən hansı dünyagörüşə mənsubsan, hansı siyasi quruma mənsubsan – bunun fərqi yoxdur. Bu, Azərbaycan Respublikasının konstitusiyasıdır və hər kəs çalışmalıdır ki, onun yaranmasında iştirak etsin. Xüsusən özlərini siyasətçi adlandıran və siyasət sahəsində fəaliyyət göstərən qurumlar, partiyalar gərək bu işə daha da yaxından münasibət göstərsinlər. Ancaq mən bu gün bəyan etmək istəyirəm ki, işlədiyiniz altı ay müddətində heç bir siyasi partiyadan konstitusiya layihəsinə aid bir layihə təqdim olunmayıb. Heç bir siyasi partiyadan.

Əgər bu siyasi partiyalar doğrudan da öz siyasi fəaliyyətini Azərbaycan Respublikasının bu gününə, gələcəyinə həsr edir[477-478]lərsə, gərək onlar bu işlə məşğul olaydılar, öz layihələrini təqdim edəydilər, konstitusiya komissiyasına müraciət edəydilər, hətta istəsəydilər öz layihələrini təqdim edəndən sonra gəlib konstitusiya komissiyasında onların barəsində izahat verəydilər, onların Azərbaycan üçün daha gərəkli olduğunu sübut edəydilər. Bu altı ay müddətində bütün bunlar üçün şərait yaranmışdır. Ancaq heç bir siyasi partiya heç bir layihə hazırlamadı, heç bir layihə təqdim etmədi.

Onu da qeyd etməliyəm ki, biz dövlət işi ilə məşğuluq. Bizim üzərimizə böyük və ağır vəzifələr düşür. Biz dövlətə rəhbərlik edirik. Bu komissiyanın üzvlərinin, iştirakçılarının əksəriyyəti də hərəsi bir sahənin rəhbəridir, hərəsi bir sahəyə cavab verir, hərəsi dövlətin bir strukturuna rəhbərlik edir. Yəni bizim işimiz çoxdur. Buna

baxmayaraq biz bu işi bütün işlərin hamısından üstün tutaraq buna çox vaxt sərf etdik və bu layihəni hazırladıq. O siyasi partiyaların isə siyasi fəaliyyətlərindən savayı başqa bir işləri yoxdur. Siyasi fəaliyyətləri nədən ibarətdir? Qəzet çıxarmaq. Eyni zamanda, mən hesab edirəm ki, əgər normal siyasi fəaliyyət aparılarsa, onlar Azərbaycan Respublikasının bu günü, gələcəyi haqqında öz konsepsiyalarını, layihələrini, təkliflərini hazırlayıb dövlətə təqdim etməlidirlər. Bu dövləti istəyirsən, istəmirsən – bunun fərqi yoxdur. Bu dövlətin başçıları xoşuna gəlmirsə, bunun fərqi yoxdur. Əgər sənin ürəyin xalqın üçün, respublikan üçün, dövlətin gələcəyi üçün yanırsa, sən öz təklifini, layihəni verməlisən. Əgər hesab edirsən ki, sənin təklifin, layihən o birisindən üstündür – onu sübut etməyə çalışmalısan. Əgər bu siyasi partiyalar doğrudan da siyasi fəaliyyət göstərən təşkilat kimi bu məsələnin nə qədər böyük əhəmiyyət kəsb etdiyini dərk etmiş olsaydılar, bəlkə doğrudan da belə dəyərli bir layihə almaq mümkün olardı.

Ancaq mən deyirəm, heç bir partiya, heç bir siyasi qurum, – mən müxalifətdə olanları deyirəm, çünki başqaları dövlətlə bağlıdırlar, onların fikirləri dövlət orqanlarının fikirləri ilə üst-üstə gəlir, – müxalifətdə olanlar heç bir təklif verməyiblər, yəni layihələr təqdim etməyiblər. Doğrudur, bəzi qəzetlərdə bu layihənin bəzi müddəaları tənqid olunubdur. Bizim komissiya üzvləri o tənqidlərə də baxırlar. Əgər o tənqidlərdə dəyərli bir fikir söylənilsəydi, onlardan istifadə olunacaqdı. O tənqidlərdən irəli gələn bəzi fikirlərdən bəlkə də istifadə olunubdur. Mən bunu da istisna etmək istəmirəm. Ancaq iş bu [478-479] qəzetdə çıxan məqalələrdəki tənqidlərlə bitmir. Əgər müxalifət doğrudan da həqiqi müxalifətdirsə, bu müxalifət xalqa xidmət etmək istəyirsə, bu müxalifət Azərbaycanın dövlətçiliyinə xidmət etmək istəyirsə, bax, bu, məqam idi, meydan idi. İkinci dəfə belə bir imkan olmayacaq. Azərbaycanın uzunömürlü konstitusiyası yaranır, xalq onun referendumuna gedir. Siyasi partiyalar isə bundan kənardadırlar.

Bu gün səhər isə mən "Yeni Müsavat" qəzetində oxuyuram ki, Müsavat Partiyası xalqa müraciət edibdir: "Referenduma getməyin, bu konstitusiyaya səs verməyin". Bəs nəyə səs versinlər? Əgər başqa bir layihə təqdim etsəydiniz, onda deyərdiniz ki, "bu layihəni biz təqdim etmişik, bu layihə qəbul olunmayıb, bu layihəyə səs verin". Yoxsa ki, bu cür məsuliyyətsiz, Azərbaycan xalqına qarşı bu cür xəyanətkar mövqedə durmaq olarmı? Altı ay müddətində gəlib bir təklif verməyib, layihə verməyib, barmaq barmaq üstünə qoymayıbdır, amma bu gün qəzetdə müraciət edir ki, "səsverməyə getməyin və bu konstitusiyaya səs verməyin".

Mən niyə bunu belə həyəcanla, hiddətlə deyirəm? Ona görə ki, o Müsavat Partiyasının çağırışına kimsə gedəcək? Yox. Əgər Müsavat Partiyasının Azərbaycan Respublikasında bir nüfuzu olsaydı, əlli min imza yığa bilərdi. Əgər bir əlli min imza yığa bilmədisə, o, hansı nüfuzdan danışır? Ona görə də bu çağırış məni narahat etmir və belə çağırışlardan kim edir-etsin, – bu məni narahat etmir. Mən əminəm ki, xalq referenduma gələcək, konstitusiya layihəsinə səs verəcək. Amma kim də səs vermək istəmirsə, onu da dəvət edirəm, – gəlsin, yazsın, desin ki, bu layihəyə nə üçün səs vermir. Gəlsin yazsın, əsaslandırsın. Ona görə də mən bu sözlərimlə seçicilərə, vətəndaşlara heç bir təsir göstərmək istəmirəm. Kim istəyir gəlsin referendumda iştirak etsin, səs versin. Kim istəyir, gəlməsin, hər kəs sərbəstdir.

Ancaq xalqın fikrini bu cür pozmaq niyyətində olan, müxalifətdəki adamlara müraciət edirəm ki, Müsavat Partiyasının üzvləri, buyur gəl. Əgər altı ay müddətində sən gəlib bir söz deməmisənsə, seçki məntəqəsinə gəl. Mən bu gün Mərkəzi seçki komissiyasının sədri Cəfər Vəliyevdən xahiş edirəm, bütün məntəqələrə göstəriş versin ki, belə fikirləri yığsınlar, sonra da elan etsinlər; kim gəlib nə təklif veribdir? Ancaq sadəcə olaraq "getməyin səs verməyin" – bundan da böyük qanun pozuntusu ola bilməz. [479-480]

Yenə də deyirəm, mən əminəm ki, vətəndaşlarımız, seçicilərimiz noyabrın 12-də seçki məntəqələrinə gələcəklər, referendumda iştirak edəcəklər və bizim təqdim etdiyimiz konstitusiya layihəsi qəbul olunacaq və Azərbaycan xalqının həyatında yeni bir mərhələ açılacaqdır, müstəqil Azərbaycanın dövlət quruculuğu sahəsində böyük imkanlar yaranacaqdır və hər bir vətəndaşın sərbəst yaşaması, sərbəst fəaliyyət göstərməsi, azad, demokratik ölkədə yaşaması üçün, hüquqlarının qorunması üçün gözəl şərait yaranacaqdır. Bu konstitusiya bunların hamısına təminat verir.

Bilirsiniz ki, konstitusiya komissiyasının böyük xidmətlərindən biri də odur ki, biz konstitusiya layihəsini hazırlayarkən eyni zamanda, ondan əvvəl Azərbaycan Respublikasının parlamentinə, Milli Məclisə seçkilər keçirilməsi haqqında qanun layihəsini hazırladıq. O qanun layihəsi Milli Məclisdə müzakirə olundu, qəbul edildi və onun nəticəsində respublikamızda parlament seçkiləri başlanır. Bu da konstitusiya komissiyasının böyük xidmətidir. Ona görə böyük xidmətidir ki, konstitusiya hələ qəbul olunmamışdan biz konstitusiyanın tərkib hissəsi olan bir seçki qanununu hazırlaya bildik. Artıq bu gün bunu demək olar və buna tam əsas var ki, bu qanun layihəsi dünya ictimaiyyəti tərəfindən, dünyanın demokratik dairələri tərəfindən və vətəndaşlarımız tərəfindən demokratik bir parlament yaratmaq üçün demokratik prinsiplər əsasında yaranmış bir qanun kimi qəbul edildi. Bu da konstitusiya komissiyasının nailiyyətidir.

Noyabrın 12-də seçkilər olacaq. Konstitusiyanın qəbul edilməsi ilə yanaşı, müstəqil Azərbaycanda ilk dəfə demokratik prinsiplər əsasında parlament seçilməsi tarixi hadisəyə çevriləcək və xalqımızın, millətimizin, dövlətimizin tarixi nailiyyəti olacaqdır.

Yenə də deyirəm, indi biz seçkilərin son mərhələsindəyik. İndiyə qədər biz parlamentin tam demokratik prinsiplər əsasında qurulması üçün imkanlarımız daxilində bütün işləri görmüşük. Birincisi ondan ibarətdir ki,

bir daha qeyd edirəm, biz yaxşı bir qanun yaratdıq. İkincisi isə bundan ibarətdir ki, o qanunun həyata keçirilməsinə çalışdıq və hesab edirəm ki, buna nail olduq. Biz seçkiləri elan edən kimi bütün dünya ictimaiyyətinə, beynəlxalq təşkilatlara, demokratiya təsisatlarına, demokratiya sahəsində yüksək nailiyyətlər əldə etmiş dövlətlərə, [480-481] onların parlamentlərinə müraciət etdik ki, Azərbaycanda parlament seçkilərini böyük bir mərhələ sayırıq, böyük bir hadisə sayırıq və bu parlament seçkilərini tam demokratik prinsiplər əsasında keçirmək istəyirik. Buna nail olmaq üçün, dünya ictimaiyyətinin bunu dərk etməsi üçün biz beynəlxalq müşahidəçiləri buraya dəvət etmişik. Biz dəvət etmişik, özümüz dəvət etmişik.

Bu günədək Azərbaycana 214 nəfər müşahidəçi gəlmişdir. Hələ heç vaxt Azərbaycana müxtəlif ölkələrdən, müxtəlif parlamentlərdən, müxtəlif demokratiya təsisatlarından bu qədər çoxsaylı müşahidəçi gəlməyibdir. Biz bundan çox məmnunuq. Mən bunu dəfələrlə demişəm, Nyu-Yorkda keçirdiyim görüşlər zamanı da demişəm, buraya gələn müşahidəçilərin bəziləri ilə görüşlərimdə də demişəm: birinci növbədə biz özümüz maraqlıyıq ki, müşahidəçilər olsun. Çünki biz istəyirik ki, seçkilər demokratik şəraitdə keçsin. Biz bunu istəyirik, biz buna çalışırıq, biz buna nail olmaq istəyirik. Buna nə qədər nail olacağımızı seçkilərin nəticələri göstərəcəkdir. Mən hesab edirəm, indiyə qədər keçən mərhələlərdə biz buna əsasən nail ola bilmişik. Ancaq bu mərhələlər qüsursuz da deyildir, səhvsiz də deyildir, nöqsansız da deyildir. Mən bunu etiraf edirəm, bunsuz deyildir. Lakin bunlarla yanaşı, əgər buna ümumi nöqteyi-nəzərdən yanaşsaq, indiyədək keçirilən tədbirlərin böyük əksəriyyəti demokratiyanın tətbiq edildiyini göstərir. Son mərhələ isə seçkilərdir. Biz istəyirik ki, bu seçkilər demokratik olsun.

Birmandatlı dairələrdə 100 deputat yerinə 400 namizəd irəli sürülmüşdür. Yəni bir yerə dörd namizəd. Seçkilərdə səkkiz partiya iştirak edir. Onların hərəsindən 25 namizəd göstərilib. Bu isə 200 namizəd deməkdir. Beləliklə, 125 yerə 600 namizəd var. Şübhəsiz, biz istəyirik, şəxsən mən bir prezident kimi hamıdan çox istəyirəm ki, bu seçkilər ən ədalətli seçkilər olsun və xalq sərbəst səs verərək kimi istəyirsə, onu da seçsin. Bir prezident kimi mənim üçün fərqi yoxdur.

Mən prezidentəm. Parlamentin tərkibi mənim üçün çox böyük əhəmiyyətə malikdir. Dəfələrlə demişəm, bir dövlət başçısı kimi, Azərbaycan Respublikasında böyük zəhmət çəkmiş bir şəxs kimi mən istəyirəm ki, Azərbaycan Respublikası həm siyasi sahədə, həm dövlət quruculuğunda, həm iqtisadi sahədə, həm ictimai sahədə, bir sözlə, bütün sahələrdə demokratiya yolu ilə getsin. Buna da nail olmaq üçün mən istəyirəm ki, bi[481-482]zim demokratik parlamentimiz olsun və parlamentimizə səviyyəli adamlar, bilikli adamlar, səriştəli adamlar seçilsin. Xalqının dərdinə yanan adamlar, xalqının müqəddəratını gəlib parlamentdə həll edə bilən adamlar seçilsinlər. Parlamentimiz də bir güzgü kimi xalqımızın həm mədəni, həm elmi, həm ziyalı səviyyəsini, həm də yüksək siyasi fəaliyyət səviyyəsini əks etdirsin. Mən bunu istəyirəm. Orada konkret surətdə kimlərin olacağının mənim üçün fərqi yoxdur. Müxalifət nümayəndələrinin az olmasının, yaxud çox olmasının da mənim üçün bir narahatlığı yoxdur, – mən sizə açıq deyirəm, mən bunu ayrı-ayrı söhbətlərdə dəfələrlə demişəm, – heç bir narahatlığı yoxdur. Hər halda, burada oturanlar da bilir, yəqin ki, Azərbaycan vətəndaşlarının əksəriyyəti də bilir ki, mən üzərimə düşən vəzifəni aparmağa qadirəm və aparacağam.

İki il yarımdır ki, mən dövlətə başçılıq edirəm. Bu iki il yarımda bizdə normal parlament olmayıb. Bunu hamı da deyir. İki il yarımda biz nə qədər faciələrlə rastlaşmışıq. Amma bunlara baxmayaraq, biz bu dövləti idarə etmişik və edirik. İndi biz bu dövlətin konstitusiyasını yaratmışıq. Artıq biz parlament seçkilərinə gəlib çıxmışıq. Orada neçə nəfər müxalifət, neçə nəfər qeyri-müxalifət olacağının şəxsən mənim üçün fərqi yoxdur.

Buna görə də mən istəyirəm ki, xalq kimi lazım bilirsə, onu da seçsin, kimə istəyirsə, ona da səs versin. Amma o adamlara səs versin ki, xalqın müqəddəratı onlar üçün doğrudan da hər səs şeydən üstün olsun, xalqa ürəyi yansın, özünü xalqın həyatına həsr edə bilən adamlar olsun. Məhz belə adamlar olsun. Bir də, dediyim kimi, bilikli, səriştəli və peşəkar adamlar olsun.

Güman edirəm ki, xalqımız demokratiyanı, ola bilsin, hələ tam dərk etməyib. Bu isə təbiidir. Keçmişin qalıqlarından xalqın hələ uzaqlaşmaması da təbiidir. Lakin indiyədək gedən proseslər nəticəsində artıq xalqımızın gözü açılıbdır. Hesab edirəm ki, xalqımızın əksəriyyəti bu seçkilərdə kimə səs verəcəyi barədə öz qərarını artıq qəbul edibdir, yaxud bu günlərdə qəbul edəcək və kimi istəyirsə, ona da səs verəcəkdir.

Seçkiqabağı təbliğatla əlaqədar olaraq bir neçə fikrimi bildirmək istəyirəm. Əvvəla, hesab edirəm ki, seçkiqabağı dövr tam demokratik şəraitdə keçibdir. Namizədlərin qeydə alınması, digər məsələlər artıq məlumdur. Kim ki, dairələrdə qeydiyyatdan keçməmişdi, onların məsələsinə Mərkəzi seçki komissiyası baxdı. Mərkəzi seçki komissiyasının qərarı bəzilə[482-483]rini təmin etdi, bəzilərini etmədi. Onlar gedib Ali Məhkəməyə müraciət etdilər və məsələyə orada baxıldı. Yəni bütün ədalət prinsipləri gözlənilibdir. Mən hesab edirəm ki, burada elə bir söz olmayıb. Hər bir namizədin təbliğat aparmaq imkanları var. Mərkəzi seçki komissiyasında qərar qəbul olundu ki, hər bir namizəd televiziya vasitəsilə çıxış edə bilər, bunun üçün hər namizədə yeddi dəqiqə vaxt ayrılmışdır. Beləliklə, bütün namizədlər televiziya ilə çıxış etdilər. Hər bir namizəd istədiyi yerlərdə seçicilərlə görüş keçirə bilər və keçirdilər də, istədikləri sözləri də dedilər. Heç bir kəsə məhdudiyyət qoyulmadı, heç bir namizədin qarşısı alınmadı, heç bir namizədə qadağan qoyulmadı və hər bir namizəd istədiyi yerdə seçiciləri ilə görüşdü, istədiyi sözləri dedi, istədiyi təklifləri də irəli sürdü. Bu, böyük nailiyyətdir.

Nəhayət, səkkiz siyasi partiya barədə. Onlar üçün qərar qəbul olunmuşdu ki, hər partiyaya bir saat efir vaxtı ayrılsın. Partiyaların özləri demişdilər ki, iki dəfə – yarım saat – yarım saat çıxış edəcəklər. Kimin nə vaxt efirə çıxmasını müəyyənləşdirmək üçün özləri püşk atmışdılar. Bunlar da demokratik şəraitdə oldu. Hər partiya öz çıxışını özü hazırlamışdı, bəlkə özləri yazıb gətirmişdilər, bəlkə də televiziyada yazdırmışdılar, – mən bunları bilmirəm, hər halda, mənə verilən məlumatlardan bilirəm və qəti deyirəm ki, heç bir partiyanın çıxışında heç bir söz nə ixtisar edildi, nə də kəsildi. Hər kəs nə istəyir, – söz azadlığı, mətbuat azadlığı, informasiya orqanlarından istifadə etmək azadlığı bu qədər geniş olmamışdır. Bu şərait də yarandı və ondan hər kəs istifadə edir. Mən bunu çox müsbət hal hesab edirəm ki, hər bir namizəd və hər bir siyasi partiya öz istədiyini televiziya vasitəsilə bütün vətəndaşlara, bütün seçicilərə çatdıra bildi. Ona görə də hər bir seçici görür ki, bu siyasi partiya kimlərdən ibarətdir onların məqsədləri nədir o biri siyasi partiya kimlərdən ibarətdir, onların məqsədi nədir: hansı namizəd kimdir, nəçidir, nə fikri var, nə məqsədə xidmət etmək istəyir, hansı yolla gedir. Ona görə də seçicilər üçün çox böyük şərait yaranıbdır ki, onlar özləri üçün aydın etsinlər – hansı namizədə səs verəcəklər, hansı partiyaya səs verəcəklər. Onlar üçün tam sərbəstlik yaranmışdır.

Şübhəsiz ki, müxalifətdən olan namizədlərin və siyasi partiyaların tənqidlərinə, bəzən böhtançı sözlərinə cavab vermək fikrində deyiləm və bunu lüzumsuz hesab edirəm. Əvvəla, o [483-484] namizədlərin əksəriyyətinin çıxışlarına baxmağa sadəcə vaxtım olmayıb, amma səkkiz partiyanın çıxışlarının hamısına baxmışam. Səkkiz saat ekran qarşısında oturub diqqətlə baxmışam, dinləmişəm. Hər şeyin həddi var, çərçivəsi var, – etika da olmalıdır, əxlaqi normalar da olmalıdır. Əgər kim bunlara riayət etmirsə, o özü-özünə zərər gətirir. Buna şübhə yoxdur. Kim nə qədər cılız danışırsa, o özü-özünə zərər gətirir. İctimaiyyət bunu qəbul etmir və qəbul etməyəcək. Yenə də deyirəm, mən bunların heç birinə cavab vermək fikrində deyiləm. Ancaq siyasi müxalifətdə olan partiyalar bir neçə fikir söylədi və hesab etdilər ki, "iqtidar iqtidarsızdır, iqtidar bacarıqsızdır, hökumət yoxdur, iqtidar respublikanı idarə edə bilmir" və s. və i.a.

Bununla əlaqədar onların bəzi fikirləri barədə öz rəyimi bildirmək istəyirəm. İqtidara qarşı bu cür əsassız ittihamlar irəli sürən müxalifət partiyaları nə deyirlər? Əvvəla, onu deyirlər ki, bəli, birinci məsələ Azərbaycanı müharibədən qurtarmaq məsələsidir, Azərbaycanın ərazi bütövlüyünü təmin etmək məsələsidir, işğal olunmuş torpaqların geri qaytarılması məsələsidir, qaçqınların öz yerlərinə qaytarılması məsələsidir. Gəlin, açıq danışaq, yoxsa onlar yeni bir mövzu açıblar, yeni bir fikirmi söyləyiblər, yeni bir sözmü deyiblər? Yox, bu tamamilə məlum olan bir həqiqətdir. Mən iki il yarımdır buradayam, iki ildir ki, prezident vəzifəsindəyəm. Bu, həmişə – gecə də, gündüz də, – hər saat qarşımda duran vəzifədir. Mən bununla hər gün məşğulam. Biz bu sahədə nə iş görmüşük, xüsusən mən bir prezident kimi nə iş görmüşəm – bunu xalq bilir. Hansı yollarla gedirik, – xalq bunu da bilir. İndi boş-boşuna danışırlar ki, bu məsələləri həll etmək lazımdır. Ancaq məsələnin həlli yollarını bilməyən adam və nə etmək, nə vaxt etmək, necə etmək lazım olduğunu deyə bilməyən adam söyləyir ki, "iqtidar bunu etmir, onu etmir"

Bilirsinizmi, mənim belə adamlara sadəcə yazığım gəlir, zavallı insanlardır. Mən bu iki il yarımda həmin problemin hər hüceyrəsini öyrənmişəm. Ola bilər, bizim bu statistika neçə yüz görüş keçirdiyimi yazıb. Mən dünyanın ən böyük dövlətlərinin başçıları ilə görüşlərimi buna həsr etmişəm. Dünyanın bütün beynəlxalq təşkilatlarında görüşlər keçirmişəm, onların iclaslarında iştirak etmişəm. Birləşmiş Millətlər Təşkilatı, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı, İslam Konfransı Təşkilatı, EKO təşkilatı, bütün başqa təşkilatlar, – daha hara qalıb, – bir Allahdan savayı, elə instansiya yoxdur ki, bu [484-485] iki il yarım müddətində biz, yəni bu işlə məşğul bütün şəxslər onlarla əlaqəyə girməsin. Xüsusən mən bir prezident kimi bu işlərlə şəxsən məşğul olmuşam. Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının beş daimi üzvü var – Amerika Birləşmiş Ştatları, Rusiya, Fransa, İngiltərə və Çin. Mən bu beş ölkənin başçıları ilə də görüşlər keçirmişəm, danışıqlar aparmışam, müzakirələr aparmışam, yollar aramışam. Bir bunlar deyil ki!

Mən nə qədər dövlət başçıları ilə görüşmüşəm. Elə burada, bu salonun özündə nə qədər nümayəndə heyətləri qəbul edilib. Bu müddətdə Minsk qrupunun, tərkibi üç dəfə dəyişilib: bir dəfə, mən buraya təzə gələndə, İtaliyadan Mario Raffaelli, ondan sonra İsveçdən Yan Eliasson və nəhayət, Finlandiya və Rusiya nümayəndələri. Bu məsələ ATƏT-in Zirvə toplantısında ilk dəfə olaraq gündəliyə salınıbdır. Keçən il Budapeştdə bu məsələ haqqında qərar qəbul olunubdur. Özü də çox xüsusi əhəmiyyətli bir qərar.

Biz gördüyümüz işlərdən saatlarla danışa bilərik. Bəs bunun yolu nədir? Deyirlər ki, "biz bunun yolunu bilirik və deyəcəyik". Amma yeddi ildir demirsiniz. Deyin də. Mən isə bunun yolunu bilirəm və bu yolla da gedirəm. Bunu sülh yolu ilə həll etmək lazımdır və biz də sülh yolu ilə gedirik. Nailiyyətlərimiz də var. Biz artıq dünya ictimaiyyətinə sübut edə bilmişik ki, bizim işimiz haqq işidir, bizim işimiz ədalətli işdir. Həm də bu məsələni həll etmək üçün bizim çoxlu tərəfdarımız var.

İl yarımdır ki, atəş kəsilmişdir. Mən iki il yarımdır burada işləyirəm. İl yarımdır ki, xalq atəşkəs şəraitində yaşayır. Yeddi il müharibə getdi. Bəs bu adamlar nə əldə etdilər? Kimsə bəyan edir ki, "atəşkəs təslim olmaq deməkdir". Onlar nə haqla belə danışırlar? Niyə təslim olmaq deməkdir? Yeddi il gedən müharibədə nə uddunuz? Bunu deyən adamlardan soruşuram – siz nə uddunuz? Torpaqlar əldən getdi, ərazimizin 20 faizi işğal olundu, bir milyon adam qaçqın düşdü, bir elə qurbanlar getdi. Budur yeddi illik müharibənin nəticələri. Əgər

doğrudan da müharibə nəticəsində, – başqa şeylər demirəm, – heç olmasa torpaqlarımızı qoruyub saxlamış olsaydıq, deyərdim, bəli, müharibəni davam etdirək, bəlkə ondan sonra başqa işlər görək.

Ancaq bu atəşkəsi də əldə etmək asan məsələ deyildi. Nə üçün əvvəlki vaxtlarda atəşkəs əldə olunmurdu? Çünki Azərbaycanın gücü yox idi. Azərbaycanla hesablaşmırdılar. Bəli, [485-486] Azərbaycan Ordusu yaradıldıqdan sonra, – ordu 93-cü ilin noyabr ayından yaradıldı – Azərbaycan Ordusu hücumlara keçəndən sonra, Azərbaycan Ordusu özünü göstərəndən sonra biz atəşkəs haqqında danışıqlara getdik və atəşkəsi də təmin etdik. İndi deyirlər ki, "bəli, sülh yolu da lazımdır, ancaq ordu da lazımdır, müharibəyə hazırlaşmaq lazımdır". Bəs "ordu lazımdır" deyən adamlar niyə bu ordunu əvvəllər yaratmırdılar? Nə üçün yaratmırdılar ordunu? Haradaydı bu ordu? Bu ordu var idimi?

Bu günlərdə bizim hüquq-mühafizə orqanları, güc nazirləri çıxış edərək vəziyyətdən danışdılar. Azərbaycan nə vəziyyətdə idi, hansı vəziyyətdə idi? Azərbaycan hansı vəziyyətdən hansı vəziyyətə gəlib çıxdı? Azərbaycanda ordu olmayıb. Orduda olanların da hamısı oğrular, quldurlar, canilər, xəyanətkarlar, Azərbaycanın torpaqlarını öz şəxsi mənafeləri naminə satanlar olublar. Onların da hamısı ifşa edildi. İndiyədək onlardan bir adam da ifşa olunmamışdı. Müxalifətdə olanlar onların hamısı ilə əməkdaşlıq edirdi, qardaşlıq edirdi, dostluq edirdi, qol-qola gəzirdilər. Bunlar Azərbaycanı bu günə qoyan adamlardır.

Ona görə də hesab edirəm ki, bu məsələdə sübuta ehtiyac yoxdur. Demək istəyirəm ki, Azərbaycanın əsas probleminin həlli yollarını iqtidar bilir, Azərbaycanın prezidenti bilir. Biz sülh danışıqları aparırıq və bundan sonra da aparacağıq. Apardığımız danışıqlarda nəticələr də əldə edirik, irəliləyiş də var. Güman edirəm ki, biz bu yolla bundan sonra da gedəcəyik.

Mən Nyu-Yorkda olarkən beş gün ərzində həm Birləşmiş Millətlər Təşkilatının iclaslarında iştirak etmişəm, həm də gecə-gündüz, səhər-axşam nə qədər görüşlər keçirmişəm. Dünən sayıblar, 72 görüş keçirmişəm. Ən böyük dövlətlərin başçıları ilə görüşmüşəm. Amerika Birləşmiş Ştatlarının prezidenti ilə görüşümün əksər hissəsi bu mövzuya həsr olunub. Bu, mənim onunla ikinci görüşüm idi. Mən onunla keçən il də görüşdüm, bu il də. Azərbaycanın nə vaxt belə imkanı olmuşdur?! Azərbaycanın başçısı nə vaxt bu imkana malik olub ki, bir dövlət rəhbəri ilə otursun, bərabər hüquqla danışsın, məsləhətləşsin? Bir o deyil ki! Mən indiyədək Rusiyanın, Amerikanın, Fransanın, İngiltərənin, Almaniyanın, Çinin də başçıları ilə görüşüb söhbət etmişəm. Biz bu yolu bilirik. Yoxsa ki, indi durub deyirsiniz "bu məsələ əsas məsələdir, bunu həll etmək [486-487] lazımdır". Həll edə bilirdinizsə, indiyədək həll edəydiniz. Əgər həll edə bilməmisinzsə, onda mane olmayın.

Ordu var. Dünən Səfər Əbiyev televiziya ilə çıxış edərək bu barədə geniş məlumat verib. Hesab edirəm ki, mənim də bu barədə geniş danışmağıma ehtiyac yoxdur. Azərbaycanda həqiqi ordu olmayıb. Dörd il bundan öncə əmr verilib ki, Milli Ordu yaradılsın, amma yaradılmayıb. Ayrı-ayrı hissələr, ayrı-ayrı dəstələr, ayrı-ayrı bandalar, ayrı-ayrı batalyonlar öz şəxsi mənafeləri üçün ordunun silahlarından istifadə ediblər. Bu da ən nəhayət, 93-cü ilin iyun hadisələrinə, vətəndaş müharibəsinə və ondan sonrakı hadisələrə gətirib çıxardı. Bundan sonra biz nə qədər əziyyət çəkmişik ki, Azərbaycanı bu ünsürlərdən təmizləyək, bu cinayətkarlardan, bu canilərdən təmizləyək. Bunu xalq görür. Əgər bunu müxalifət görmürsə, yaxud da görürsə, – buna başqa rəng verirlər. Bir sözlə, Azərbaycanda ordu qurulub, ordu var və ordu bundan sonra da olacaq və özü də güclü bir ordu olacaq.

Ancaq mən bu gün bəyan edirəm ki, biz yenidən müharibəyə başlamaq istəmirik. Qəti fikrimi deyirəm, ordu qurulur ki, Azərbaycanın müdafiə qüdrəti möhkəmlənsin. Ordu qurulub ki, Azərbaycan müstəqil bir dövlət kimi daim özünü qoruya bilsin. Biz müharibəyə yenidən başlamaq istəmirik. Biz məsələni sülh yolu ilə həll etmək istəyirik və güman edirəm ki, həll edəcəyik. Bunu gələcək də göstərəcək. Əgər biz həll edə bilməsək, onda gəlib siz həll edərsiniz, buyurun. Amma biz həll edəcəyik.

İkinci problem barəsində çox danışırlar ki, bəli, respublikada sabitlik lazımdır, daha nə bilim nə lazımdır. Mən başa düşmürəm. Azərbaycanda bu indiki sabitlik 88-ci ildən sonrakı dövrdə olubmu? Olmayıb! Mən demirəm ki, bu gün hər şey yaxşıdır. Mən heç vaxt deməmişəm və deməyəcəyəm ki, bizim hüquq-mühafizə orqanları normal işləyir, hər işi yaxşı qurmuşuq. Xeyr. Ancaq bu iki il müddətində meydana çıxmış bu bandalar, bu dəstələr, bu cinayətkarlar, qruplar barədə daxili işlər naziri də, milli təhlükəsizlik naziri də, baş prokuror da geniş məlumat verdilər. Bunlar Azərbaycanı dağıdırlar. Onları aşkara çıxarmaq yalnız indi mümkün olubdur. İnsanlar rahat yaşaya bilirlər, insanlar küçəyə rahat çıxa bilirlər. Bəs bu, sabitlik deyilmi? Əlbəttə ki, sabitliyin həddi yoxdur. Vəziyyət bundan da sabit olmalıdır. Elə olmalıdır ki, bəzi ölkələr[487-488]dəki kimi, insanlar qapısını heç bağlamasın, açıq qoyub getsin, heç kəs də gəlib qapıdan içəri girməsin, bir insan o biri insana toxunmasın. Bu da lazımdır. Biz buna da nail olmalıyıq. Bu yolla da getməliyik. Ancaq gəlin müqayisə edin. Gəlin görək iki il bundan qabaq, üç il bundan qabaq, beş il bundan qabaq nə olub, indi necədir.

Bilirsinizmi, mən hesab edirəm ki, bu müddətdə bizim ən böyük nailiyyətimiz odur ki, Azərbaycanda geniş yayılmış cəzasızlıq şəraiti aradan götürülmüşdür, insanlar törətdikləri cinayətlərə görə cəza alırlar. Mən təəssüf edirəm ki, çox adam cəzalanır. Mən istəmirəm ki, bizim həbsxanalarda adamlar olsun. Fərarilik etmiş 600 adamı mən bağışladım. Ancaq kim günahkardır ki, keçən ilin oktyabrında burada dövlət çevrilişinə başladılar və buna görə də bir qism adam həlak oldu, bir qismi tutulub, – baş prokuror deyir ki, iki yüzə qədər adam buna görə tutulub, 260 adam həbs olunubdur, qalanları da axtarışdadır, buna görə kim günahkardır? Kimdir günahkar?

Həmin o Xüsusi Təyinatlı Polis Dəstəsi yarandığı gündən cinayətkar bir dəstə olub, keçmiş bütün iqtidarların dövründə burada səhərdən axşamadək cinayətlə məşğul olub, o Cavadov qardaşları hökm sürüblər. Hamı onların yanından qorxa-qorxa keçirdi. Bəziləri də onlara yaltaqlıq edirdilər. Rövşən Cavadov daxili işlər nazirinin müavini idi, amma daxili işlər nazirinə tabe olmurdu. Ancaq bizim bu müxalifətdə olan liderlərimiz Rövşən Cavadovla vaxtaşırı görüşür, danışır, söhbətlər aparırdılar. O Mahir Cavadovun törətdiyi cinayətlərin həddi-hüdudu yox idi. Amma belə adam 88-ci ildə də, 89-cu ildə də, 90-cı ildə də, 92-ci ildə də, 93-cü ildə də prokurorluqda işləyirdi, rayon prokuroru kimi dağıdırdı, rüşvət alırdı.

Mən bu mövzuya da keçəcəyəm. Danışanların çoxu deyir ki, rüşvətxorluq var. Bəli, var. Ancaq müxalifətdə olan bu adamlar həm iqtidarda olduğu vaxtda, həm də müxalifətdə olarkən rüşvətxorluğun qarşısını almaq üçün hansı addımı atıblar, nə ediblər? Heç bir şey! Əksinə, o Mahir Cavadov, Rövşən Cavadov müxalifətdə olan bu adamların hamısı ilə təmasda idilər, hamısı ilə görüşürdülər, hamısı ilə danışırdılar. Əgər müxalifətdə olan qüvvələr bizim dövlətçiliyimizi doğrudan da qoruyurdularsa, nə üçün oktyabr hadisələri zamanı siyasi partiyaların biri də bəyanat vermədi? Halbuki onda dövlət çevrilişi cəhdi oldu. 93-cü ilin iyun ayında o banda gəlib [488-489] burada vətəndaş müharibəsinə başlamışdı və ikinci dəfə də başlamaq istəmişdi, lakin biz xalqın gücü ilə onun qarşısını aldıq. Amma siyasi partiyaların biri də bu işə qarışmadı, biri də gəlmədi. Bəs siz nə istəyirdiniz? Siz istəyirdiniz ki, onlar gəlib yenidən buranı dağıtsınlar. Elə bilirsiniz ki, bundan sonra sizi rahat buraxacaqdılar.

Mart hadisələrini götürək. Açıq-aydın məlum idi, bütün dünya televiziyaları, radiostansiyaları xəbər verirdilər ki, Azərbaycanda artıq dövlət çevrilişi prosesi gedir, Azərbaycanın dövlət başçısına qarşı sui-qəsd olacaq, Azərbaycan dağıdılacaqdır, Azərbaycanda koalisiyalı dövlət yaranacaqdır. Bu müxalifətdə olan partiyaların, qüvvələrin hansı birisi bəyanat verdi? Bəziləri Rəsul Quliyevin, yoxsa kiminsə yanına gəlib deyirdilər ki, biz gedək vasitəçilik edək. Kiminlə vasitəçilik etməyə gəlmişdilər? Cinayətkarla? Dövləti dağıtmaq istəyən adamla mən vasitəçi vasitəsiylə danışığamı getməliydim? Yox, o vaxtlar keçibdir. Xalq etimad göstəribdir, prezident seçibdir. Prezident Azərbaycan Respublikasının dövlətçiliyinin təminatçısıdır. Ordan Türkiyənin səfiri mənə vasitəçilik etmək istəyirdi, burdan bu müxalifət partiyası vasitəçim olmaq istəyirdi. Nə vasitəçilik edəcəkdiniz? Yoxsa Rövşən Cavadova mən böyük bir vəzifə verməliydim ki, o getsin yenə də cinayətlər törətsin, getsin yenə də dağıtsın? Mahir Cavadov gedib sahibkarların həmkarlar ittifaqını yaratmışdı, dağıdırdı. Yenə də dağıtmalıydı? Buna vasitəçilik etmək istəyirdiniz?

Buna görə də gərək insanlarda az da olsa insaf olsun. 93-cü ilin iyun ayından indiyədək biz Azərbaycanı bu bəlalardan xilas etmişik, insanları bu cinayətkarlardan xilas etmişik, dövlətçiliyimizi qoruyub saxlamışıq, möhkəmləndirmişik, dövlətin hörmətini dünya miqyasında qaldırmışıq. Bunları görməmək olmaz. Yox, əgər görmək istəmirsənsə, görmə. Ancaq böhtan atmaq, yalan danışmaq yaramaz. 93-cü ildə müxalifətdə olan adamlar, əgər gücünüz var idisə, Surət Hüseynovun qabağına niyə çıxmadınız? Niyə məni Naxçıvandan çağırıb gətirdiniz? Nə üçün? Gücünüz var idisə, çıxaydınız Surət Hüseynovun bandasının qabağına. Çıxa bilmədiniz ki. Gəldi, sizi vurdu dağıtdı, siz də qaçdınız, pərən-pərən düşdünüz və o müddətdə çoxları gedib Gəncədə Surətə öz sədaqətini bildirdi, o cümlədən indi müxalifətdə olan partiyaların rəhbərləri, onların nümayəndələri. Axı, bunların hamısını televiziyada göstərdilər, [489-490] hamısı məlumdur. Sənədlər də var. Onunla əməkdaşlıq etmək istəyirdilər.

Dövləti əlinizdə saxlaya bilmədiniz. Vətəndaş müharibəsi başlandı. O Əlikram Hümbətov Azərbaycanın bir hissəsini dağıtmışdı. Sizə deməliyəm ki, mən onunla təkbaşına mübarizə aparırdım. Bir tərəfdən onu Surət Hüseynov qızışdırırdı, digər tərəfdən Rəhim Qazıyev gündə oraya gedib-gəlirdi, başqa tərəfdən də başqaları çalışırdı. Bəs müxalifətdə olan bu partiyalar harada idilər? Niyə gedib bir iş görmürdülər? Xəlvəti ayrı-ayrı gedənlər də onu qızışdırırdılar ki, sən Heydər Əliyevə təzyiq göstər. Nə var ki, gəlib öz məqsədlərinə nail olsunlar.

Ona görə də hesab edirəm ki, Azərbaycanda cinayətkarlığa qarşı mübarizəni bundan sonra gücləndirmək lazımdır, cinayətkarların qarşısını almaq lazımdır; terrorçuları, cinayətkarları, reketlə məşğul olanları, vətəndaşların hüquqlarına toxunanları tapmaq, cəzalandırmaq lazımdır. Lakin görülən işləri də qiymətləndirmək lazımdır və görülən işlərə qara yaxmaq lazım deyildir.

Bilirsinizmi, bu günlər böyük cinayətlərin üstü açılıbdır. Çox böyük cinayətlərin. Nəhayət, raket ilə təyyarəni vurmaq istəyən adamların hamısı tutulubdur, onu təşkil etmək istəyən adamların əksəriyyəti həbs olunubdur, əksəriyyəti tutulubdur. Beş il bundan əvvəl terror törədənlər tutulublar. Başqaları da tutulublar. Hesab edirəm ki, bundan sonra da cinayətkarlar aşkara çıxarılacaqdır. Bunların hamısı onu göstərir ki, hüquq-mühafizə orqanları son vaxtlar öz işlərini gücləndiriblər. Onların işlərində olan nöqsanları bu gün bir daha qeyd etməklə yanaşı, hüquq-mühafizə orqanlarının son aylarda gördüyü işləri yüksək qiymətləndirirəm və hesab edirəm ki, onlar tək dövləti yox, vətəndaşları da böyük-böyük cinayətlərdən xilas ediblər və çox böyük işlər görüblər.

Bu partiya başçılarının, yaxud nümayəndələrinin çıxışlarında iqtisadiyyatla əlaqədar məsələlərə də toxunulur. Deyirlər ki, iqtisadiyyat geriyə düşüb, iqtisadiyyatda vəziyyət ağırdır və s. və i.a. Burada yeni bir şey açılmır. Yəni Azərbaycan sosial-iqtisadi böhran içindədir. Bu məlumdur. Bu sosial-iqtisadi böhrandan çıxmaq

yolları araşdırılır və tədbirlər görülür. Ancaq müxalifətdə olan partiyaların hansının bu barədə hansı proqramı var? Hansının hansı konkret təklifi var? Yoxdur. Mən o çıxışlarda da bir şey görmədim. Ümumiyyətlə, istehsalın nə demək olduğunu bilməyən gənc adam – 25-30 yaşında, [490-491] yaxud 35 yaşında olan, burnuna istehsalın qoxusu da dəyməyən bir adam car çəkir ki, istehsal aşağı düşür, sənaye belə oldu, məhsul belə getdi. Mən tam qətiyyətlə deyirəm, müxalifətdəki siyasi partiyalardan heç biri, istehsaldan danışan, iqtisadiyyatdan danışan adamların heç biri ömürlərində nə istehsal görüb, nə də iqtisadiyyat. Heç birini görməyiblər. Bunları görməyən adamlar kitablarda oxuduqlarına əsasən müddəalar irəli sürə bilməzlər. Bir araşdırın görək, onları kim görüb? Görməyiblər. Belə təcrübəsiz adamlar heç vaxt nə iqtisadiyyatı qaldıra bilərlər, nə də istehsalı. İndi dərd burasındadır, vəziyyət gör nə yerə gəlib çıxıb ki, meydanda qışqırmaqdan başqa dünyada hələ bir şey görməyən bu gənclər gəlib bizə istehsaldan dərs demək istəyirlər.

Siz məni düz başa düşün, mən 26 il bundan öncə Azərbaycana rəhbərliyə başlamışam, Azərbaycanda olan istehsal fondlarının hamısını əzbərdən bilirəm. Zavodların, fabriklərin əksəriyyəti mənim Azərbaycana rəhbərlik etdiyim vaxtda tikilib. Azərbaycanda olduğum vaxt, ondan sonra Moskvada olduğum beş il ərzində əlim həmişə Azərbaycanın üstündə olub. Hansı istehsalın nə üçün, nədən ötrü, nə məqsəd üçün yarandığının hamısını bilirəm. Onların nə cür işlədilməsini də bilirəm. O illərdə hər il sənaye istehsalının artımı orta hesabla 9 faiz təşkil edirdi. Müxalifətdə olanlar, siz bilirsinizmi ki, bu 9 faiz haradan gəlir, haradan toplanıb? Axı, bilmirsiniz. Siz statistikadan götürürsünüz ki, tənəzzül olub, keçən ilə nisbətən 20 faiz aşağı düşüb. Bəli, belədir. Amma o artımlar nə cür, necə olurdu, – onu siz bilmirsiniz.

Kənd təsərrüfatı istehsalı ildə 7-8 faiz artırdı. O vaxt Azərbaycanda istehsalın artım sürəti Sovetlər İttifaqındakı bütün 15 respublikadan üstün idi. Bu məlumdur, statistika durur. İndi təsəvvür edin, bu işlərə rəhbərlik etmiş, bu işləri təşkil etmiş adam əgər bu gün respublikanın rəhbəridir, o vaxt o bunları tikib, yaradıb, qurub. Bəs indi necə ola bilər ki, bunların işlədilməsi üçün çalışmasın? Heç o zavodların yanından keçməmiş adamlar – əgər keçibsə də gedib fəhlələri ya tətilə, yaxud mitinqə çağırıb, bundan savayı başqa iş görməyib, – indi gəlib istehsaldan bizə dərs vermək istəyirlər.

Bilirsiniz, təvazökar olun, danışığınızı bilin. Sizin o danışıqlarınıza heç kim inanmır. Çünki sizin danışıqlarınız o qədər səriştəsizdir ki, heç nə danışdığınızı da bilmirsiniz. Mən bunu sizə açıq deyirəm.[491-492]

İstehsal nə cür inkişaf etməlidir – biz bunu bilirik və bu işlə məşğul oluruq. Demək, istəyirəm ki, indi istehsal keçən dövr kimi inkişaf edə bilməz. O vaxt tikilən zavodlar, fabriklər indi o cür işləyə bilməz. Əgər o zavodlar o vaxt şəxsən mənim təşəbbüsümlə tikilibsə və onların işləməsinə mən hər gün nəzarət etmişəmsə, – bunu mən sizə deyirəm, – o zavodlar indi o cür işləyə bilməz. Amma o zavodları işlətmək lazımdır. Nə cür işlətmək lazımdır, hansı yollarla işlətmək lazımdır – biz bunlarla məşğul oluruq.

Doğrudur, nazirliklər, şirkətlər, ayrı-ayrı şəxslər vəzifələrinə layiqli yanaşmırlar, imkanlarından, mövcud şəraitdə istehsalın gücündən istifadə etmirlər. Bunlar hamısı var, səhvlər var. Mən Nazirlər Kabinetinin may ayında keçirilən iclasında bu barədə geniş nitq söylədim. Nazirlərin, şirkət rəhbərlərinin, fabrik, zavod direktorlarının hər birinə konkret iş proqramı tutub təqdim etməyi təklif etdim, bunu onlardan tələb etdim. Onlardan biri bunu bacarır, biri bacarmır. Ümumi proseslər – keçmiş Sovetlər İttifaqının ərazisində olan bu proseslər bura da təsir edir. Bunu demək lazımdır ki, inteqrasiya əlaqələri pozulub. Keçid dövründəyik. Ancaq bununla yanaşı iqtisadiyyatımızda, maliyyə sistemimizdə böyük nailiyyətlər əldə olunub. Bir ildir ki, bizim manatın dəyəri sabitdir. İndi, əlbəttə, buna da cürbəcür izahat vermək olar. Ancaq sabitdir. İnflyasiyanın sürəti tamamilə aşağı düşübdür. Əgər beynəlxalq maliyyə mərkəzləri, beynəlxalq Valyuta Fondu, Ümumdünya Bankı, Avropa Bankı və Avropa İttifaqı artıq Azərbaycan ilə əməkdaşlıq edirsə, demək, onlar Azərbaycanda iqtisadiyyatın sərbəstləşdirilməsi prosesini və respublikamızın sərbəst bazar iqtisadiyyatı yolu ilə getmək prosesini qəbul ediblər və bizə kömək edirlər, kreditlər ayırırlar.

Bir şəhərin – Bakının su təchizatını təmin etmək üçün 84 milyon dollar məbləğində kredit ayrılıb. Yenikənd Su-Elektrik Stansiyasının tikilməsi üçün 54, yaxud 57 milyon dollar kredit ayrılıb. Bəzi bərpa işləri aparmaq üçün neft şirkətinə 20 milyon dollar kredit ayrılıb. Başqa layihələr üçün də kredit ayrılıb. Azərbaycanda maliyyə reabilitasiyasını təmin etmək və başqa işlər görmək üçün 400 milyon dollar kredit ayrılıb. Bunlar hamısı iqtisadiyyat sahəsində gördüyümüz işlərin nəticəsidir və bunlar var.

Bunlar bizi qane edirmi? Yox. Biz belə yaşaya bilərikmi? Yox. Qaçqınlar da var, hətta dilənçilər də var. Yetmişinci il[492-493]lərdə mən burada rəhbərlik edirdim, Bakıda bir dilənçi tapmaq mümkün idimi? Yox. Çörəyin qiyməti 20 qəpik, ətin qiyməti 2 manat 20 qəpik, yağın qiyməti 3 manat 20 qəpik idi. Mən gedirdim ət mağazalarına, qəssablarla dava edirdim ki, siz üçüncü növ əti niyə birinci növ yerinə satırsınız? Cəmi-cümlətanı 20-30 qəpik fərqi vardı. Bu idi vəziyyət.

O dövrdə biz yaşamışıq, o dövrdə də işləmişik. Ancaq indi tamam başqa bir sistemə keçmişik. Biz bu sistemlə getmək üçün, bazar iqtisadiyyatına keçmək üçün bu yolu keçməliyik və əlimizdən gələni də etmişik, edirik. Xüsusən Azərbaycanda demokratiyanın inkişafını nəzərə alaraq, iqtisadiyyatda demokratikləşməni nəzərə alaraq, respublikada siyasi-ictimai sabitliyi nəzərə alaraq dünyanın iri neft şirkətləri keçən il Azərbaycan ilə böyük bir müqavilə imzaladılar. Bu, məhz keçən ilin sentyabrında imzalandı, o vaxta qədər imzalana bilməzdi. Çünki buna şərait yox idi. Bu gün səhər biz yeni bir müqavilə imzaladıq. Yeni bir şirkət, yeni bir

konsorsium, "Qarabağ" neft yatağı. Üç dövlət – Rusiya, Amerika Birləşmiş Ştatları, artıq İtaliya da bizə qoşuldu və Azərbaycan Dövlət Neft Şirkəti. Böyük bir müqavilə imzalandı. İtaliya da buraya gəldi, oranın böyük neft şirkəti, ümumiyyətlə, böyük şirkəti "ACİP" buraya gəldi. Rusiyanın yanacaq və energetika naziri buraya gəlibdir. Amerikanın energetika nazirinin müavini gəlibdir, İtaliyanın sənaye naziri buraya gəlibdir, şirkətlərin başçıları gəliblər, başqa adamlar gəliblər. Azərbaycanda yeni müqavilə imzalandı. Bunlar hamısı, bəli, bu gün Azərbaycanda yaranmış şəraitin nəticəsidir. Bunun nəticəsində də Azərbaycan dünya birliyində tanınıbdır. Azərbaycanın daxili sabitliyinə inanaraq buraya sərmayə gəlibdir.

Keçən il imzalanmış müqavilə üzrə bu il 100 milyon dollar və gələn il 600 milyon dollar məbləğində vəsait xərclənəcəkdir. Bunlar hamısı Azərbaycanda iş yerləri açacaqdır. Bizim Azərbaycanın mütəxəssisləri, fəhlələri işləyəcəklər, pul qazanacaqlar və nəhayət, biz bunun bəhrəsini görəcəyik. Ancaq bunlar hələ işlərimizin başlanğıcıdır. Bu işlər davam edəcəkdir. Bundan başqa hansı yolu göstərirsiniz, – deyin. Başqa bir yol yoxdur! Başqa yol göstərə bilmirsiniz.

Ona görə də, yenə deyirəm, hər kəsin öz sözünü tam sərbəst deməyə ixtiyarı var və deyə də bilər. İndən sonra da buna şərait yaradılacaqdır. Ancaq dolğun, düzgün danışmaq lazımdır və insanları da düzgün istiqamətləndirmək lazımdır. [493-494] Yanlış fikirlər, yanlış danışıqlar və böhtan xarakterli danışıqlar bizim bəzi siyasi partiyalara heç vaxt hörmət qazandırmayıb və qazandırmayacaqdır.

Kim hansı partiyaya səs verəcək, hansı namizədə səs verəcək, – bu öz işidir. İndi, bilirsiniz, bəzi adamlar meydana çıxır ki, onlar öz məqsədlərinə nail olmaq üçün ən çirkin yollara gediblər. Mən yenə də deyirəm, bu gün bu barədə heç konkret danışmaq fikrində də deyiləm. Amma onu demək istəyirəm ki, o böhtançı danışıqlar – "tayfabazlıq, yerlibazlıq, rüşvətxorluq, filan-peşməkanlıq" – bunların hamısı boş danışıqlardır. Danışanların əksəriyyəti Azərbaycanda rüşvətxorluğun olmasından danışır. Bəs biz rüşvətxorluq haqqında danışmırıqmı? Amma biz tədbir görürük ki, rüşvətxorluq olmasın, siz isə danışırsınız.

Bilirsiniz, rüşvətxorluqla mübarizədə mənim böyük-böyük təcrübəm var. 1969-cu ildə Azərbaycana rəhbərliyə başlayarkən mən ilk addımlarımı rüşvətxorlara qarşı mübarizə ilə başladım və onlarca, yüzlərlə rüşvətxor vəzifəsindən məhrum oldu, azadlıqdan məhrum oldu, cəzalandılar. Ancaq sonra, xüsusən 1988-ci ildən sonra, ara qarışan zaman o rüşvətxorları, həbsxanadan çıxan rüşvətxorları, vəzifədən çıxan rüşvətxorları millət qəhrəmanı kimi televiziyaya çıxardılar, qəzetlərdə yazdılar, onları meydana çıxardılar. Onlar gəlib parlamentdə oturdular. Amma indi müxalifətdə olan adamlar onların haqqında bir söz demədilər ki, bunlar rüşvətxorlardır və indi gəliblər vəzifələrə, Heydər Əliyevi günahlandırırlar ki, "bunlar durğunluq dövrünün qurbanlarıdır, Heydər Əliyev dövrünün qurbanlarıdır". Nə qurbanlarıdır? Onlar qurban deyillər, rüşvətxorluğuna görə cəza almış adamlardır. Əgər o vaxt mən rüşvətxorluqla belə mübarizə aparmışamsa, bu gün ondan beş qat artıq mübarizə aparıram və aparacağam da.

Xalqı üçün, milləti üçün rüşvətxordan da xain düşmən yoxdur. Amma bu mübarizəni biz bir yerdə aparmalıyıq. Təəssüf ki, həmin bu rüşvətxorluqdan danışan adamların əksəriyyəti özləri ya şəxsən rüşvətxordur, yaxud da rüşvətxorlardan bəhrələnirlər. Mən bunu qəti deyirəm.

Bilirsiniz, danışıqla iş aşmaz. Rüşvətxorluq böyük bir bəladır, təkcə Azərbaycan üçün yox, dünya üçün böyük bir epidemiyadır. Narkomaniya kimi böyük bir bəladır. Biz bu bəla ilə mübarizə aparmalıyıq. Amma gəlib yalandan bir-birimizi günahlandırmaq ki, bu rüşvətxordur, o rüşvətxordur – belə şey[494-495]lərlə camaatı aldatmaq olmaz. Mən yenə də deyirəm, o siyasi partiyaların, müxalifətdə olan partiyaların əgər maddi vəziyyətlərini, maliyyə mənbələrini yoxlasanız, çoxu gedib rüşvətxorlara çıxacaqdır. Çünki göydən heç kəsə pul düşmür, dollar da heç kəsə düşmür. Hamısı gedib oraya çıxacaqdır.

Ona görə də bu barədə danışmaq üçün gərək insanın mənəvi haqqı olsun. Mənim mənəvi haqqım var rüşvətxor haqqında danışmağa, çünki rüşvətxorluqla mübarizə aparmağa dəvət edirəm. Amma o biri danışanların haqqı yoxdur. Kimin mənəvi haqqı var, o danışsın. Amma kimsə özü bu işə bulaşıbdır, gəlib başqasını günahkar etmək istəyir, – qoy düşünsün və fikirləşsin.

Bilirsiniz, mənim üzərimə böyük bir yük düşübdür. Mən bu vəzifəni bəziləri kimi gəlib mübarizə aparıb prezident olmaq arzusu ilə tutmamışam. İndi burada xəstəlik düşübdür, o deyir mən prezident olacağam, bu deyir mən prezident olacağam, Heydər Əliyevdən sonra kim prezident olacaqdır. Əşi, Heydər Əliyev hələ sağ-salamatdır. Kim prezident olacaqdır Heydər Əliyevdən sonra, nə təhər olacaqdır, – bir-biri ilə dava edirlər, bir-biri ilə mübarizə aparırlar.

Birincisi, bu, yaramaz bir şeydir. Heydər Əliyev ya dünyadan gedəndən sonra, ya onun vaxtı qurtarandan sonra xalq kimi istəyirsə, onu da seçəcəkdir. Bunu bilin. Ancaq onu demək istəyirəm ki, mən buraya özüm öz xoşumla gəlməmişəm, kiminləsə mübarizə aparıb, onu oraya itələyib, onu buraya itələyib bu vəzifəni tutmaq üçün gəlməmişəm. Mən bunun arzusunda olmamışam. Ancaq bir halda ki, məni tale buraya gətirib, xalqın iradəsi gətirib, mənim üzərimə bu böyük yük düşübdür, – mən bu məsuliyyəti, bu yükü həyatımın son dəqiqəsinə qədər aparacağam və bütün qüvvəmi, biliyimi buna sərf edəcəyəm. Heç kəs də bu işdə mənə mane ola bilməz. Kim isə doğrudan bizim dövlətimizin inkişafına kömək etmək istəyirsə, gəlsin əlini uzatsın, kömək etsin. Kömək etmək istəyən heç kimin əlini kənar etməyəcəyəm. Ancaq kimsə mən burada olduğum vaxt gəlib iddialarla nəyəsə nail olmaq istəyirsə, buna nail ola bilməyəcəkdir.

Mən hər bir şeyi qanunla edirəm, qanun mənim üçün alidir. İndiyə qədər həyatımda, çoxillik həyatımda qanunsuz bir iş görməmişəm, qanuna zidd bir iş görməmişəm, ədalətsiz bir iş görməmişəm. İndiyə qədər gördüyüm işlərin hamısına cavabdehəm. Səhvlərim də olubdur, adamların seçilməsində və [496-497] yerləşdirilməsində səhvlərim olubdur. Bu gün də səhvlər var və bu da təbii haldır. İki il yarımdır mən burada işləyirəm, nə qədər adam işdən azad olunubdur, yaxud təyin edilib azad olunubdur, nə qədər adam. Vaxtilə yaranmış şəraitdə Surət Hüseynovu gətirib baş nazir qoyduq. Baş nazirliyə yaramaz bir adam idi. Ancaq mən çalışırdım onu öyrədim, çalışırdım tərbiyələndirim, çalışırdım ki, bəlkə bu adamdan bir şey çıxsın. Ancaq cinayətkarlığından əl çəkə bilmədi və belə də oldu. Nəriman İmanovu milli təhlükəsizlik naziri qoymuşduq. Xəyanət elədi, indi məhkəmə qarşısında cavab verməlidir. Əli Ömərovu qoymuşduq baş prokuror. Yolundan çıxdı, pozuldu. İndi gedib orada-burada ağlayır ki, "qanmamışam, başa düşməmişəm, nə bilim, səhv eləmişəm, prezident məni bağışlasın, filan eləsin". Bundan sonra nəyi bağışlayacaq? Bundan böyük etimadmı ola bilərdi, səni baş prokuror qoydular! Nəinki, bacarmadı, hətta vəzifəsindən sui-istifadə etdi, cürbəcür pis yollara getdi.

Bir o deyil. Bəziləri buradan getdilər Türkiyəyə, Türkiyənin ən bahalı "Çırağan" otelində ən bahalı nömrədə yaşayırlar. Bəs camaat soruşmur ki, sən bu pulu haradan alırsan, bununla yaşayırsan? Axı, baş prokurorun məvacibi məlumdur. Mən iki dəfə Nyu-Yorka getmişəm. Baxmayaraq ki, mən dövlət başçısıyam, dövlətin pulu ilə gedirəm, – mənim öz pulum yoxdur. Öz pulumla heç bir yerə getmirəm, – Nyu-Yorkda ən sadə mehmanxanada yaşayıram ki, pulu çox çıxmasın. Amma o gedib "Çırağan" otelində guya gözünü müalicə edib bir ay yaşayırdı. Onda düşünmürdü ki, bunun gələcəyi nə olacaqdır? Bəs düşünmürdü ki, axı insanlar bilirlər bu pul ona haradan gəlib? İndi gəlib peşman olub.

Məmmədrəfi Məmmədovu gətirib müdafiə naziri qoyduq. Bacarmadı, pis yollara getdi, işdən çıxardıq. Abdullayevi müəyyən şəraiti nəzərə alaraq Kənd təsərrüfatı naziri qoyduq, – cinayət elədi, indi cavab verməlidir. Baş nazirin müavini var idi – Əsgər Məmmədov, Cənubda – Lənkəranda baş verən hadisələrlə bağlı neçə dəfə mən böyük müşavirələr keçirdim, durdular danışdılar. Bu adam bir dəfə normal danışmadı, bir dəfə prinsipial mövqedə durmadı. Ondan sonra mən onu baş nazirini müavini saxlayacaqdım? İşdən azad etdim. Əli Təhməzov vardı, az qalırdı Surət Hüseynovun dabanını yalasın. Neçə dəfə çağırdım, dedim, ağlın olsun, sən inşaatçısan. Özü də mütəxəssissən, işləyirsən, sərbəst işlə. Bu cür olmaz, orada hərəniz bir tərəfdən Surət Hüseynovun dabanını yalasanız burada iş getməz axı, iş getməyəcəkdir. Olmadı, çıxarıb atdıq. Belələrini mən nə qədər saya bilərəm.

Bu bizim səhvimizdirmi? Yox, bu, adi prosesdir. Ola bilər indi təyin olunanlardan bəziləri də sabah ya işi bacarmadılar, yaxud yolunu azdılar, ya da xəyanət elədilər, – heç kəs bağışlanmayacaqdır.

İndi durub başlayıblar ki, kadr siyasəti! Ümumiyyətlə, kadr siyasəti kommunist rejiminə aid olan bir şeydir. Bu, keçmişdə qalan şeydir. Bunlar özlərini demokrat adlandırırlar. Guya yeni bir dövlət qururlar və ortaya salıblar kadr siyasətini. Belə dünyəvi hüquqi dövlətdə nə kadr siyasəti? Kadr siyasəti Kommunist Partiyasının siyasəti idi. İndi kim yararlıdır, kim dəyərlidir – o da təyin olunur, kimliyindən asılı olmayaraq. Əgər bunu prezident təyin edirsə, bu, prezidentin səlahiyyətidir. Əgər mənə bu səlahiyyət verilibsə, mən də bundan istifadə edirəm.

Ona görə də mən qanunsuz iş görməmişəm və bundan sonra da görməyəcəyəm. Ola bilər, yeganə bir qanunsuz iş görmüşəm ki, Fatma Abdullazadəyə göstəriş verdim, Nemət Pənahovu imtahansız Dövlət Universitetinə qəbul etsinlər. Bu işi qanunsuz görmüşəm. Ancaq buna da heyfsilənmirəm. Düzdür, qanunsuz görmüşəm. Buna da heyfsilənmirəm. Çalışırdım ki, o adam da tərbiyələnsin, elm alsın. Ola bilər, elmlənəndən sonra cəmiyyət üçün dəyərli olsun. Əgər mənim bu qanunsuz qərarımın nəticəsindən istifadə edib universitetdə elm alsa, təhsil alsa, elə bu da mənim üçün yaxşı olacaqdır ki, qanunsuz qərarım yaxşı bir nəticə verib.

Biz qanunlara riayət etməliyik. Mən də riayət edirəm, hamı da riayət etməlidir.

Hansı partiyaya səs verəcəklər, hansı namizədə səs verəcəklər, – bu, seçicilərin özlərinin işidir. Burada danışanların, çıxış edənlərin bəziləri deyirdilər ki, Yeni Azərbaycan Partiyası. Bəli, Yeni Azərbaycan Partiyası vaxtilə mənim ətrafımda yaranan partiyadır. O vaxt ki, Naxçıvan blokadada idi, o vaxt ki, mən orada əzilirdim. Azərbaycanın bir çox dəyərli ziyalıları heç şeydən qorxmayaraq yığışdılar gəldilər oraya. Təklif etdilər ki, onları qəbul edim. Mən də qəbul etdim. 1992-ci ilin noyabrında Yeni Azərbaycan Partiyasını yaratdıq. Bu partiya dəyərli partiyadır. Mən bu partiyanı Azərbaycanın [497-498] həyatı üçün çox əhəmiyyətli bir partiya hesab edirəm. Hesab edirəm ki, bu partiyada ziyalılar, sağlam düşüncəli adamlar toplaşıblar və bundan sonra da toplaşacaqlar. Ancaq kim hansı partiyaya səs verəcək, – bu, onun öz işidir.

Beləliklə, mən hesab edirəm ki, bizim seçkilərimiz tam demokratik şəraitdə keçəcəkdir. Mən bizim icra orqanlarına göstəriş vermişəm və bu gün bunu bir daha təkrar edirəm: yerli icra orqanları, hüquq-mühafizə orqanları seçkilərin gedişinə qarışmamalıdırlar. Seçkiləri Mərkəzi seçki komissiyası və onun tabeliyində olan dairə seçki komissiyaları, məntəqə seçki komissiyaları aparır. Ancaq hüquq-mühafizə orqanları, yerli icra orqanları onlara kömək etməli, işlərinin yaxşı şəraitdə getməsini təmin etməlidirlər, respublikada ictimai asayişi, vətəndaşların təhlükəsizliyini təmin etməlidirlər. Bu günlərdə cinayət hallarının qarşısını almalıdırlar, heç bir cinayətin baş tutmasına yol verməməlidirlər.

Bu gün mən bütün vətəndaşlarımızı həmrəyliyə dəvət edirəm, birliyə dəvət edirəm. Mən hesab edirəm ki, bizim yeni konstitusiyamız – referendumda qəbul edəcəyimiz konstitusiyamız, bizim yeni seçkilərimiz Azərbaycanda demokratiyanın möhkəmlənməsi və inkişaf etməsi üçün, Azərbaycan dövlətçiliyinin inkişafı üçün yaxşı bir əsas yaradır. Bu, nailiyyətimizdir və çalışmalıyıq ki, 12 noyabr günü gələcəkdə Azərbaycan xalqının tarixinə böyük bir əlamətdar gün kimi daxil olsun, böyük bir bayram günü kimi daxil olsun. Mən buna əminəm və güman edirəm ki, bizim vətəndaşlarımız belə də edəcəklər.

Mənim deyəcəyim bu qədər. Komissiyanın üzvlərinə, işçi qrupunun üzvlərinə bir daha öz təşəkkürümü bildirirəm. Xalqa müraciət edirəm: demokratiya yolunda, ədalət yolunda, qanunçuluq yolunda hərə öz mövqeyini bildirsin. Azərbaycan dövlətçiliyinin qorunması, Azərbaycanın ərazi bütövlüyünün qorunması, müstəqilliyinin qorunması bu gün bizim qarşımızda duran əsas vəzifədir. Konstitusiya və seçkilər Azərbaycanın müstəqilliyini təmin etmək üçün yeni bir mərhələdir və biz bundan sonra bu yolla müvəffəqiyyətlə gedəcəyik.

Deyəcəyim bu qədər. Bir də müzakirəyə ehtiyac var? Yoxdur. Sağ olun. [498-499]

## "QARABAĞ" NEFT STRUKTURUNDA ARDNŞ İLƏ BİR QRUP XARİCİ NEFT ŞİRKƏTİ – "LUKOYL" (RUSİYA), ACİP (İTALİYA), "PENNZOYL KƏSPİƏN DEVELOPMENT KORPOREYŞN" (ABŞ), LUKACİP (RUSİYA-İTALİYA) ARASINDA BİRGƏ İŞ HAQQINDA SAZİŞİN TƏNTƏNƏLİ İMZALANMA MƏRASİMİNDƏ ÇIXIŞ

*"Gülüstan" Sarayı*

*10 noyabr 1995-ci il*

Hörmətli xanımlar və cənablar, hörmətli qonaqlar!

Bu gün Azərbaycanda, Bakıda, bu möhtəşəm "Gülüstan" sarayında yeni bir əlamətdar hadisə baş verir. Azərbaycan Respublikasının Xəzər dənizindəki sektorunda yerləşən neft yataqlarından birinin – "Qarabağ" neft yatağının bir neçə xarici ölkənin neft şirkətləri ilə müştərək istifadə olunması üçün müqavilənin imzalanması mərasiminə toplaşmışıq. Bu münasibətlə Azərbaycana qonaqlar gəlibdir. Xarici şırkətlərin mənsub olduğu ölkələrin yüksək səviyyəli hökumət nümayəndə heyətləri, xarici şirkətlərin nümayəndə heyətləri və digər qonaqlar bura toplaşıblar. Bu təntənəli mərasimdə hazırda Azərbaycanda fəaliyyət göstərən xarici şirkətlərin rəhbərləri, səfirlər də iştirak edirlər. Mən bu mərasimdə iştirak edən qonaqları və bura toplaşanların hamısını ürəkdən salamlayıram və deyirəm: Siz Azərbaycan Respublikasına xoş gəlmisiniz!

Bu müqaviləni hazırlayıb imzalanmağa təqdim edən şirkətlər Rusiyanın "LUKoyl", ABŞ-ın "Pennzoyl", İtaliyanın "ACİP" və Azərbaycan Dövlət Neft Şirkətidir. Bu müqavilənin imzalanması üçün təşkil olunmuş təntənəli mərasimdə iştirak etmək üçün respublikamıza gəlmiş Rusiya Federasiyası hökumətinin nümayəndə heyətini və nümayəndə heyətinin başçısı, Rusiyanın energetika naziri Yuri Şafraniki ürəkdən salamla[499-500]yıram.

Amerika Birləşmiş Ştatlarının hökumət nümayəndə heyətini və nümayəndə heyətinin başçısı, ABŞ-ın energetika nazirinin müavini Çarlz Körtisi ürəkdən salamlayıram.

İtaliyanın hökumət nümayəndə heyətini və nümayəndə heyətinin başçısı, İtaliyanın sənaye naziri Alberto Klonu ürəkdən salamlayıram.

Bu müqavilənin hazırlanmasında xüsusi fəaliyyət göstərmiş Rusiyanın "LUKoyl" şirkətini və onun prezidenti Vahid Ələkbərovu salamlayıram.

İtaliyanın "ACİP" şirkətini və onun prezidenti Qumleylo Moskatonu salamlayıram. Azərbaycanda bir neçə ildir ki, fəaliyyət göstərən və hazırda öz işinin nəticələrini nümayiş etdirən ABŞ-ın "Pennzoyl" şirkətinin prezidenti Tom Hamiltonu salamlayıram.

Sizin hamınızı, Azərbaycana gəlmiş bütün qonaqları bir daha salamlayıram və əmin olduğumu bildirmək istəyirəm ki, bugünkü mərasimimiz – çox tarixi əhəmiyyət kəsb edən bir müqavilənin imzalanması mərasimi müvəffəqiyyətlə başa çatacaqdır.

Bu gün burada görülən iş müstəqil Azərbaycan Respublikasında həyata keçırdiyimiz tədbirlərin davamıdır. Müstəqil Azərbaycan Respublikası öz təbii sərvətlərinin sahibidir və bu sərvətlərdən istədiyi kimi istifadə etmək imkanına malik olaraq, onlardan Azərbaycan xalqının iqtisadi inkişafı və xalqımızın rifahı naminə xarici ölkələrin şirkətləri ilə müştərək istifadə etməyi lazımlı yol hesab edir və bu yol ilə də gedir. Bu yol Azərbaycan Respublikasının iqtisadiyyatının dünyaya açıq olduğunu göstərir, eyni zamanda respublikamızın demokratiya, bazar iqtisadiyyatı yolu ilə getdiyini göstərir.

Müstəqil Azərbaycan Respublikası həyatının bütün sahələrində demokratiyanın inkişaf etdirilməsinə çalışır. Biz dövlət quruculuğunda, ölkənin ictimai-siyasi həyatında, həm də iqtisadi sahədə demokratiyanın inkişaf etdirilməsi istiqamətində fəaliyyət göstəririk. Biz bu prinsiplərə söykənərək respublikamızın iqtisadiyyatını dünya iqtisadiyyatı ilə daha sıx əlaqələndirməyə və müştərək işlər görməyə çalışırıq. Biz bunu Azərbaycan Respublikası iqtisadiyyatının inkişaf etdirilməsi üçün ən səmərəli yol hesab edirik.

Bu sahədə görülən işlər artıq öz nəticəsini verir. Bir il bundan öncə respublikamızda, Bakıda Azərbaycanın Xəzər dənizindəki sektorunda üç neft yatağının – "Azəri", "Çıraq" və "Gü[500-501]nəşli" yataqlarının dünyanın böyük neft şirkətləri ilə müştərək istifadə edilməsi üçün böyük müqavilə imzalanıbdır. Həmin müqaviləni imzalamış 11 şirkət dünyanın altı ölkəsinə mənsubdur. Bu, müqavilənin beynəlxalq xarakter daşımasının əyani sübutudur.

Məlumdur ki, bu müqavilənin imzalanması yolu asan olmamışdır. Biz çox böyük maneələrlə rastlaşmışdıq, çoxlu çətinliklərlə üzləşmişdik. Ancaq bütün bunlar bizim tutduğumuz yolla irəli getməyimizin qarşısını ala bilmədi. Biz bu maneələrin hamısının öhdəsindən gələrək nəhayət, keçən ilin sentyabrında indi

"Əsrin müqaviləsi" adlandırılan müqaviləni imzalamağa nail olduq. Bu müqavilənin imzalanmasından sonra keçən bir il Azərbaycan Respublikasının həyatında o qədər də asan bir mərhələ olmayıbdır. Biz böyük sınaqlardan keçdik. İşimizi pozmağa cəhd edən daxili və xarici qüvvələrin qarşısını ala bildik.

Bu bir il müddətində Azərbaycanın həyatında çox faciəli, qorxulu, təhlükəli hadisələr baş vermişdir. Biz dövlət çevrilişi cəhdləri ilə rastlaşdıq – onların qarşısı alındı, terror aktları ilə rastlaşdıq – onların qarşısı alındı, təxribat aktları ilə rastlaşdıq – onların qarşısı alındı, xaricdən bizim ölkəmizə təzyiq göstərən qüvvələrin güclü hərəkətləri ilə rastlaşdıq – onların qarşısı alındı. Bu gün Azərbaycan öz müstəqil siyasətini müvəffəqiyyətlə həyata keçirir.

Müqavilə imzalandıqdan sonra bunun həyata keçirilməsinə şübhə edənlər də vardı, ona bədbin əhval-ruhiyyə ilə yanaşanlar da vardı və bu müqavilənin yerinə yetirilməsinə birbaşa maneçilik edənlər də vardı. Ancaq bunlar da müqavilənin həyata keçirilməsinə mane ola bilmədilər. Mən bu gün məmnuniyyət hissi ilə deyə bilərəm ki, bu il oktyabrın 9-da konsorsiumun beynəlxalq əməliyyat komitəsinin iclasında aparılan müzakirə və qəbul edilmiş qərar sübut edir ki, ötən il bağladığımız müqavilə əməli surətdə həyata keçirilir və öz nəticələrini verir. Müqavilənin həyata keçirilməsi üçün bu il 100 milyon ABŞ dollarına qədər vəsaitdən istifadə edilib və gələn il üçün 600 milyon dollar həcmində büdcə təsdiq olunubdur. Müqavilədə nəzərdə tutulmuş iş qrafiki də vaxtında yerinə yetirilir. 1996-cı ilin sonunda layihəyə əsasən "Çıraq" neft yatağından ilkin neft hasil olunacaqdır. Bu neftin ixracı üçün neft kəmərlərinin çəkilib başa çatdırılması haqqında da qərarlar qəbul edilibdir. [501-502]

Konsorsium ilkin neftin ixracı üçün iki neft kəmərinin çəkilməsini lüzumlu hesab edibdir. Onlardan biri Rusiyanın ərazisindən Qara dənizə – Novorossiysk limanına, digəri isə Gürcüstan ərazi-sindən Qara dənizə – Supsa limanına çəkiləcəkdir. Qeyd etmək istəyirəm ki, bu qərar respublikamızda və digər ölkələrdə – Rusiyada, Gürcüstanda, Amerika Birləşmiş Ştatlarında, bu şirkətlərin mənsub olduğu Qərb ölkələrində çox bəyənilibdir və ən müvafiq qərar kimi yüksək qiymətləndirilibdir.

Ötən bir il müddətində görülən işlər və onların nəticələri əyani surətdə nümayiş etdirir ki, biz doğrudan da bu işləri görməyə qadirik və xarici ölkələrin neft şirkətləri ilə birlikdə, onları təmsil edən dövlətlərlə birlikdə biz Azərbaycanın təbii sərvətlərindən səmərəli istifadə edə bilərik. Şübhəsiz ki, bütün bunlar həm bu müqavilədə, konsorsiumda iştirak edən şirkətlərin, həm də onların mənsub olduğu ölkələrin respublikamızla, Azərbaycan Dövlət Neft Şirkəti ilə qarşılıqlı fayda prinsipləri əsasında qurulubdur. Bütün bunlar, nəhayət, bu gün yeni bir yatağın – "Qarabağ" neft yatağının müştərək istifadə olunması üçün imzalanacaq müqavilənin həyata keçirilməsinə əlverişli şərait yaradır. Qeyd etdiyim kimi, "Qarabağ" neft yatağının müştərək istifadə olunmasında Rusiyanın "LUKoyl", İtaliyanın "ACIP", Amerika Birləşmiş Ştatlarının "Pennzoyl" şirkətləri müştərək surətdə iştirak edirlər. Dünyanın bu böyük ölkələrinin tanınmış neft şirkətlərinin burada, Azərbaycanda müştərək iş görmək üçün bir araya gəlməsi, bir müqavilə ətrafında toplaşması iqtisadi əhəmiyyətdən əlavə çox böyük siyasi əhəmiyyət də daşıyır. Bu onu göstərir ki, Rusiya, Amerika Birləşmiş Ştatları, İtaliya və Azərbaycan doğrudan da iqtisadi sahədə səmərəli əməkdaşlıq edə bilərlər və bu gün bu sahədə böyük bir addım atırlar.

"Qarabağ" neft yatağı zəngin yataqdır. Qnun gözəl gələcəyi var. Müqavilənin əsas prinsipləri ondan ibarətdir ki, bu neft yatağından müştərək istifadə olunmasından müqavilədə iştirak edən şirkətlərin hamısı istənilən səviyyədə fayda götürəcəkdir.

Proqnozlara görə, "Qarabağ" neft yatağından 85 milyon tondan 150 milyon tona qədər neft hasil olunması gözlənilir. Bu müqavilənin iqtisadi səmərəliliyi 18 faizdir və hətta ondan da yüksəkdir.

Qeyd etdiyim kimi, hər bir şirkət bu müqavilədən fayda götürəcəkdir. Nəzərdə tutulmuş proqnozlar həyata keçərsə, mü[502-503]qavilədən əldə olunan daxili gəlirin təxminən 65 faizdən 80 faizə qədər hissəsi Azərbaycan Dövlət Neft Şirkətinə çatacaqdır.

Bu müqavilə "Qarabağ" neft yatağının 25 il müddətində işlənməsini nəzərdə tutur. Bu yataqdan ilkin neft 2003-cü ildə hasil edilməyə başlanacaqdır.

Beləliklə, bu müqavilə gələcəyə yönəldilibdir. Biz bu gün Azərbaycanın cari məsələlərini, respublikamızın ağır böhran vəziyyətindən çıxarılması məsələlərini həll edərkən üzümüzü irəliyə tuturuq, gələcəyə baxırıq, ölkəmizin gələcəyi haqqında düşünürük, Müstəqil Azərbaycanın gələcəkdə daha qüdrətli, böyük iqtisadi potensiala malik dövlət olması haqqında fikirləşirik. Eyni zamanda bu müqavilənin imzalanması və onun 25 il müddətində həyata keçirilməsi Azərbaycan Respublikasının, ölkəmizin iqtisadiyyatını Amerika Birləşmiş Ştatlarının, Rusiyanın, İtaliyanın iqtisadiyyatı ilə sıx bağlayır, bu böyük ölkələrlə Azərbaycan arasında olan əməkdaşlıq və dostluq əlaqələrinin inkişaf etdirilməsi üçün yaxşı zəmin yaradır.

Bu müqavilənin layihəsi bir neçə aydır ki, mütəxəssislər, alimlər və ekspertlər tərəfindən işlənib hazırlanır. Həmin məsələ mənim şəxsi nəzarətim altında olubdur. Bu ilin avqustunda mən təqdim olunan materiallar əsasında, nəhayət, bu müqavilənin imzalanması üçün sərəncam vermişəm. Mən çox məmnunam ki, görülən işlər artıq öz nəticəsini veribdir və bu gün biz bu müqavilənin imzalanması mərasiminə toplaşmışıq.

Hörmətli xanımlar və cənablar, mən sizin hamınızı bu əlamətdar hadisə münasibətilə təbrik edirəm. Bu müqavilənin uğurlu, xeyirli olmasına əmin olduğumu bildirmək istəyirəm. Müqaviləni imzalamaq üçün hazırlamış şəxsləri öz qələmlərini götürüb onu imzalamağa dəvət edirəm.

Diqqətinizə görə təşəkkür edirəm. [503-504]

## 28 SAYLI SƏBAİL SEÇKİ DAİRƏSİNİN 17 SAYLI SEÇKİ MƏNTƏQƏSİNDƏ SƏS VERDİKDƏN SONRA JURNALİSTLƏRLƏ GÖRÜŞDƏ BƏYANAT

*12 noyabr 1995-ci il*

Birincisi, mən sizi – Azərbaycanın böyük jurnalist ordusunu və respublikamıza gəlmiş bütün jurnalistləri təbrik edirəm. Azərbaycanın bu tarixi günündə fəaliyyətinizə görə sizə təşəkkür edirəm. Mən bilirəm ki, jurnalistlərin işi ağır və çətin işdir. Ona görə də sizə təşəkkürümü bildirirəm. İkincisi, onu bildirmək istəyirəm ki, bu gün xalqımızın, müstəqil Azərbaycan Respublikasının tarixində çox əlamətdar bir gündür və həqiqətən bayramdır. Çünki bu gün müstəqil Azərbaycan Respublikasının ilk konstitusiyası qəbul olunur və ümumxalq referendumu keçirilir.

Azərbaycan xalqı əsrlər boyu böyük mərhələlərdən keçib və nəhayət, öz dövlət müstəqilliyinə, milli azadlığına nail olub, ilk dəfədir ki, sərbəst, müstəqil surətdə, heç bir mərkəzdən, heç bir dairədən asılı olmayaraq, özü öz taleyinin sahibi olaraq öz konstitusiyasını yaradır. Həm dövlətinin təsisatlarını yaratmaq, həm vətəndaşlarının hüquqlarını, azadlıqlarını təmin etmək üçün, həm də müstəqil dövlətin dövlətçiliyinin qorunub saxlanması, möhkəmlənməsi, inkişaf etməsi üçün tarixi bir sənəd yaradır. Bu, böyük hadisədir. Ona görə mən bu gün böyük iftixar hissi keçirirəm ki, xalqımız, dövlətimiz, cəmiyyətimiz gəlib bu səviyyəyə çatıbdır. Mən çox məmnunam ki, bu konstitusiyanın layihəsinin hazırlanması üçün təşkil olunmuş komissiya çox çalışıb və mən də bu komissiyanın sədri kimi bu barədə əlimdən gələni etmişəm, öz xidmətlərimi göstərmişəm.

Bu gün eyni zamanda, müstəqil Azərbaycan Respublikasının parlamentinə – Milli Məclisinə ilk seçkilər keçirilir. Keçmişdə bizim konstitusiyamız da, parlamentimiz də olubdur. Bunların hamısına bu gün mən öz hörmət və ehtiramımı bildirirəm. Bu bizim tariximizin səhifələri, mərhələləridir və onların heç birisini gözdən salmaq, unutmaq lazım deyil. Tariximiz [504-505] bizim tariximizdir, bizimkidir. Ancaq bu gün biz yeni mərhələdəyik, müstəqil dövlətik. Yenə də deyirəm, Azərbaycan xalqı artıq özü öz taleyini həll etmək hüququna malik olubdur. Ona görə də Azərbaycanın yeni parlamentinin seçilməsi tarixi bir hadisədir. Müstəqil Azərbaycan özünün qanunvericilik orqanını, parlamentini seçir. Bu parlament seçkiləri tam demokratik prinsiplər əsasında keçirilir.

Mən hesab edirəm ki, biz konstitusiya layihəsini hazırlamamışdan əvvəl parlament seçkilərinin keçirilməsinə dair qanun hazırlayıb, vaxtında müzakirəyə verib, onun əsasında seçkilərin aparılması üçün addımlar atarkən çox düzgün iş gördük. Biz seçkilərin keçirilməsi üçün çox demokratik prinsiplərə söykənən bir qanun qəbul etdik və ondan sonra bu qanun əsasında seçkilərin hazırlanması ilə məşğul olduq. İndi nəhayət, bu seçkilər keçirilir.

Mən daim bu fikirləri söyləmişəm və bu gün də bu fikirlərlə yaşayıram ki, bu seçkilər demokratik prinsiplər əsasında olmalıdır, xalqın iradəsinin nəticəsi olmalıdır. Hər bir vətəndaş öz fikrini, rəyini, istəyini sərbəst bildirməlidir. Kimə səs vermək istəyir, – bu vətəndaşın öz hüququdur, vətəndaş bunu özü müəyyən etməlidir. Mən bir prezident, dövlət başçısı kimi, bax bu şəraitin yaranması üçün çalışmışam, əlimdən gələni etmişəm və arzu edirəm ki, mənim bu səylərim öz nəticəsini versin, bugünkü seçkilər tam demokratik prinsiplər əsasında keçsin. Buna nə qədər nail olacağıq, – bunu seçkilərin nəticəsi göstərəcəkdir. Mən heç bir şeyi ideallaşdırmaq istəmirəm. Dünyada ideal bir şeyə çatmaq çox çətindir. Ancaq biz bu seçkilərdə demokratiya yolunda, insan azadlığı, insanların sərbəstliyi yolunda böyük bir addım atmış olsaq, bu bizim tarixi nailiyyətimiz olacaqdır. Mən bu ümidlərlə, bu arzularla yaşayıram. Bu ümidlərlə, bu arzularla da buraya gəlmişəm və öz səsimi istədiyim adama vermişəm.

Buradakı jurnalistlərin arzusunu nəzərə alaraq, mən bəzi şeyləri rus dilində də demək istəyirəm. Mən bugünkü günü tarixi bir gün sayıram. Çünki Azərbaycan xalqının, Azərbaycan dövlətinin, Azərbaycan Respublikasının bütün tarixi ərzində ilk dəfə olaraq öz məsələlərimizi müstəqil, suveren şəkildə həll etmək imkanına malikik və bu zəmin əsasında yeni konstitusiyanın, – müstəqil, suveren Azərbaycanın Konstitusiyasının layihəsini hazırlaya bilmişik. Mənim fikrimcə, bu layihə demokratik prinsipləri əks etdirən sənəddir. Biz demokrati[505-506]ya, dövlətçilik istiqamətində, müstəqil dövlət qurmaq sahəsində böyük yol keçmiş ölkələrin konstitusiya yaratmaq, konstitusiya inkişafı təcrübəsindən istifadə etməyə çalışmışıq. Biz bütün bu təcrübədən istifadə etməyə çalışmışıq. Bir çox ölkələrin, o cümlədən Qərb ölkələrinin, MDB-yə daxil olan ölkələrin konstitusiyalarını çox diqqətlə öyrənmişik. Təbii ki, həm bu təcrübəni, həm də tarixi, milli adət və ənənələri əsas tutaraq, milli və tarixi keçmişimizə dərin hörmətimizi ifadə edərək öz konstitusiyamızın layihəsini hazırlamışıq.

Bu bizim, müstəqil Azərbaycanın Konstitusiyasıdır və belə hesab edirəm ki, dünya təcrübəsində olan bir çox şeyləri əks etdirsə də, bu konstitusiya heç bir başqa konstitusiyaya bənzəmir. Bu bizim konstitusiyamız, Azərbaycanın Konstitusiyasıdır və mən bunu çox mühüm, tarixi nailiyyət hesab edirəm. Bu konstitusiyanın

yaradılmasına öz töhfəmi verməyə imkanım olduğuna görə sevinir və özümü xoşbəxt sayıram. Ümidvaram ki, bu konstitusiya uzunömürlü olacaq və bir çox illər, onilliklər ərzində Azərbaycan Respublikasının, Azərbaycan xalqının demokratiya yolu ilə, hüquqi demokratik dövlət quruculuğu yolu ilə inamla irəliləyişini, inkişafını müəyyən edəcəkdir.

Parlament seçkilərinin keçirilməsi konstitusiyanın müddəalarının əməli surətdə reallaşdırılması deməkdir. Mühüm cəhət bundan ibarətdir ki, biz konstitusiya layihəsi ilə paralel olaraq seçkilər haqqında qanunun layihəsini hazırlaya və onu qəbul edə bildik. Parlament seçkiləri haqqında qanun konstitusiyanın bir hissəsidir, biz bunu vaxtında hazırlayıb, həyata keçirilməsinə başlaya bildik. Seçkiləri keçirmək üçün böyük hazırlıq işi görülmüşdür. Nəhayət, bu gün, noyabrın 12-də biz konstitusiya layihəsinə münasibətimizi bildirmək üçün referenduma gəlmişik və əminəm ki, xalqın böyük əksəriyyəti bu layihəni dəstəkləyəcək, konstitusiya bu gün qəbul olunacaqdır. Təbii ki, xalq həm də Azərbaycanın yeni parlamentində təmsil olunmaq hüququ qazanmaq üçün irəli sürülmüş namizədlərə öz münasibətini bildirəcəkdir.

Çalışmışıq, mümkün olan hər şeyi etmişik ki, seçkilərə hazırlıq işləri demokratiya prinsiplərinə tam uyğun gəlsin. Ürəkdən arzu edirik ki, seçkilər demokratik keçirilsin, bütün demokratik prinsiplərə əməl olunsun. Birmandatlı dairələrdə 100 yerə təqribən 400 namizədin olması, seçkilərdə 8 siyasi partiyanın iştirak etməsi və bunların hər birinin 25 namizəd, yəni bütövlükdə 200 namizəd irəli sürməsi, beləliklə də, indi ümumilikdə 600 nəfər namizədin səsə qoyulması faktının özü [506-507] Azərbaycandan ötrü, zənnimcə, böyük nailiyyətdir. Mən çox istəyirəm ki, hər bir vətəndaş, səs verən hər bir seçici həm konstitusiya layihəsinə, həm də müvafiq dairələrdə səsə qoyulmuş namizədlərə öz münasibətlərini sərbəst, müstəqil surətdə ifadə edə bilsin. Mən bunu ürəkdən arzulayıram.

Mən prezidentəm, müstəqil Azərbaycan dövlətinin, Azərbaycan Respublikasının prezidentiyəm, öz xalqımı demokratiya, azadlıq yolu ilə, bazar iqtisadiyyatı yolu ilə, sivilizasiyalı yolla inamla aparmaq istəyirəm. Bundan ötrü layiqli parlamentin, cəmiyyətimizin bütün çalarlarını əks etdirən, layiqli adamlardan ibarət parlamentin, respublikamızın qarşısında duran nəhəng vəzifələrin birlikdə həyata keçirilməsində bir prezident kimi mənə layiqli tərəfdar olacaq ali qanunverici orqanın olması çox mühümdür.

Ona görə mən ümidvaram, istəyirəm ki, bu gün Azərbaycanda demokratiya tam şəkildə özünü göstərsin. Buna nə dərəcədə nail ola biləcəyimiz seçicilərdən, seçkilərdə iştirak edənlərdən asılıdır. Mənə qaldıqda isə, mən öz işimi gördüm, səs verdim. Öz işimi həm o mənada gördüm ki, konstitusiya komissiyasının sədri kimi vəzifəmi yerinə yetirdim və komissiyanın bütün üzvləri ilə birlikdə konstitusiyamızın layihəsini hazırlayaraq xalqın müzakirəsinə verdik. Həm də konstitusiya komissiyasının sədri kimi seçkilər haqqında qanunun layihəsinin hazırlanması prosesinə rəhbərlik etmişəm və bu qanun parlament seçkiləri haqqında dünyanın bütün demokratik prinsiplərinə tamamilə cavab verir. Bizim Mərkəzi seçki komissiyası seçki kampaniyasının keçirilməsi üçün mümkün olan hər şeyi etmişdir. Bu baxımdan mən öz işimi görmüşəm.

Qarşıda isə mənim işlərim çoxdur. Ümidvaram ki, bugünkü gün respublikanın, xalqın, o cümlədən bir prezident kimi mənim qarşımda duran vəzifələrin müvəffəqiyyətlə yerinə yetirilməsi üçün böyük perspektivlər açır.

**Sual**: **Hörmətli prezident, konstitusiya layihəsində dövlət dilinin Azərbaycan dili yazılması hansı siyasi məqsəddən irəli gəlir?**

**Heydər Əliyev**: Bu, siyasi məqsəd deyil. Bu, Azərbaycan dilinin keçdiyi tarixi yolun əsasında olan bir şeydir. Bizim dilimiz Azərbaycan dilidir, biz azərbaycanlıyıq, respublikamız Azərbaycandır. Ancaq tarix, dilçilik elmi nöqteyi-nəzərindən Azərbaycan dili dünyada mövcud olan türk dilləri qrupuna daxildir. Ona görə də Azərbaycan dilinin mənşəyi türk dilləri kö[507-508]kündən gəlir. Amma dünyada türk dilləri qrupu çox böyükdür. Keçmiş Sovetlər İttifaqının ərazisində bu qrupa daxil olan 23 dilin hərəsinin müstəqil adı var, amma hamısı türk dilləri qrupuna mənsubdur. Bunlardan biri də Azərbaycan dilidir. Mənşəyimiz, kökümüz də, şübhəsiz ki, türk kökündən gəlibdir. Dilimiz isə Azərbaycan dilidir.

**Sual**: **Cənab prezident, müxalifətin seçkilərə münasibətini necə qiymətləndirirsiniz?**

**Heydər Əliyev**: Necə qiymətləndirə bilərəm? Müxalifət, yəqin ki, seçkilərdə, səsvermədə öz münasibətini bildirəcəkdir. Kim nə münasibət istəyir bildirsin, – hamı müstəqildir, sərbəstdir.

**Sual**: **Müxalifət qüvvələri hesab edirlər ki, seçkilər antidemokratik şəraitdə keçəcək...**

**Heydər Əliyev**: Bilirsiniz, hər kəs öz sözünü, öz fikrini deməkdə sərbəstdir. Ancaq o demək deyil ki, hər kəsin dediyi söz qanundur, – yaxud, necə deyərlər, mütləq həqiqətdi. Xeyr. O deyə bilər "antidemokratikdir", amma xalqın əksəriyyəti nə deyir? Əgər xalqın əksəriyyəti bununla razı deyilsə, demək, onun fikri düzgün deyil. Məsələn, mən srağagün konstitusiya komissiyasının iclasında da dedim. Srağagün səhər Müsavat Partiyasının qəzetini oxudum, orada yazırlar, xalqa müraciət edirlər ki, "siz konstitusiyanın ümumxalq referendumuna getməyin, səs verməyin". Bunun özü antidemokratik bir çağırışdır. Çünki əgər Müsavat Partiyası və onun qəzeti demokratik yolda durursa, o deməlidir ki, "sən get, amma istədiyin səsi ver". Ancaq o deyir ki, "sən seçkiyə getmə və bu konstitusiyaya səs vermə".

İkincisi, mən bunu iki gün əvvəl də demişəm, bu gün də demək istəyirəm: əgər Müsavat Partiyası bu konstitusiyanı Azərbaycan üçün münasib, demokratik hesab etmirsə, – konstitusiya komissiyası altı aydır

işləyir, bu altı ay müddətində özü hansı layihəni təqdim edibdir? Əgər o bundan fərqli, bundan demokratik, xalqımız üçün yararlı bir layihə təqdim etsəydi və o rədd edilsəydi, yaxud onun müəyyən maddələri qəbul olunmasaydı, onda bəlkə də belə bir çağırışa müəyyən qədər əsas ola bilərdi. Ancaq mən güman edirəm ki, bu cür çağırışlar həm onların özlərinin antidemokratik olduğunu göstərir, həm də, mən tam əminəm ki, bu xalq tərəfindən qəbul olunmayan bir şeydir.

**Sual**: **Hörmətli prezident, konstitusiya komissiyasını konstitusiya layihəsinin bir çox müddəalarında [508-509] respublika prezidentinə guya hədsiz səlahiyyətlər verməkdə ittiham edirlər. Bu məsələyə münasibətinizi bilmək istərdik.**

**Heydər Əliyev**: Bilirsiniz, bizi heç kəs ittiham edə bilməz. Konstitusiya komissiyasında prezidentə verilən səlahiyyətlər dünyanın inkişaf etmiş dövlətlərinin, böyük demokratiya yolu keçmiş dövlətlərin konstitusiyalarında əks olunanlardır. Bəlkə bəzilərində bundan da çoxdur. Mən sizə deyə bilərəm ki, məsələn, Müstəqil Dövlətlər Birliyinə daxil olan dövlətlərin – Rusiyanın, başqa dövlətlərin qəbul etdikləri konstitusiyalarda parlamenti buraxmaq barədə prezidentə səlahiyyət verilibdir. Ancaq Azərbaycan konstitusiyasında prezidentə bu səlahiyyət verilməyibdir. Prezident parlamenti buraxa bilməz. Bəs bu, demokratiya deyilmi? Bu onu göstərmirmi ki, prezidentə həddindən artıq səlahiyyət verilməyibdir?

**Sual**: **Hörmətli prezident, deyə bilərsinizmi ki, Siz kimə səs verdiniz?**

**Heydər Əliyev**: Çox istəyirsiniz ki, deyim? Mən gizlətmirəm. Ömər Eldarova səs vermişəm. Çünki o, böyük heykəltəraşdır, Azərbaycanın böyük simasıdır. Mən istərdim ki, Azərbaycan parlamentində belə dəyərli insanlar olsun. Onun yaratdığı heykəlləri, abidələri Azərbaycanın çox yerlərində görə bilərsiniz. 500 illiyini bu il qeyd edəcəyimiz Füzulinin də heykəlini o, böyük ustalıqla, böyük sevgi ilə yaradıbdır. 1938-ci ildə repressiya qurbanı olmuş Hüseyn Cavidin də heykəlini yaradıbdır, bir çox başqa heykəllər də yaradıbdır. Böyük alimdir, böyük sənətkardır, böyük heykəltəraşdır, mən ona səs vermişəm.

**Sual**: **Cənab prezident, yeni konstitusiya sizə Dağlıq Qarabağ problemini həll etmək imkanı verəcəkmi?**

**Heydər Əliyev**: Verəcək. Çünki yeni konstitusiyamız Azərbaycanda demokratik dövlətin yaranması üçün əsas olduğuna, demokratiya yolu ilə getdiyimizə görə güman edirəm, dünya ictimaiyyəti də və dünyanın demokratiya yolu ilə gedən dövlətləri də, beynəlxalq təşkilatlar da demokratik əsaslarla, tam müstəqil, heç bir dövlətdən asılı olmayan dövlətimizi qurduğumuza görə və onun üçün əsas yaratdığımıza görə, şübhəsiz, inanacaqlar ki, biz Dağlıq Qarabağda olan ermənilərin hüquqlarını heç vaxt pozmayacağıq, onlar Azərbaycanın vətəndaşları kimi respublikamızın tərkibində sərbəst yaşayacaqlar. Ancaq eyni zamanda, bu konstitusiya Azərbaycanın ərazi bütövlüyünün [509-510] tam təmin olunmasına əsas verən bir sənəddir. Azərbaycan ərazisinin bölünməzliyini dünyada bir daha təsdiq edən, Azərbaycanda hakimiyyətin hansı bir qrup tərəfindən olursa-olsun mənimsənilməsinin qarşısını alan bir sənəddir. Ona görə də bu bizim Qarabağ məsələsini, Ermənistanla Azərbaycan arasında olan münaqişə məsələsini də həll etməyə kömək edəcəkdir.

**Sual**: **Yeni seçkilərdən sonra Azərbaycanla Türkiyə arasındakı münasibətlərdə bir dəyişiklik olacaqdırmı?**

**Heydər Əliyev**: Biz Türkiyə ilə qardaşıq, dostluq əlaqələrini bundan sonra da davam etdirəcəyik. Mənim əziz dostum, qardaşım Süleyman Dəmirəl ilə iki gün bundan əvvəl telefonla danışmışam. Mən onu Azərbaycana dəvət etmişəm. Bu seçkilərdən, konstitusiya qəbul edildikdən sonra Süleyman Dəmirəlin Azərbaycana rəsmi səfəri gözlənilir. Biz aramızda olan dostluq və qardaşlıq əlaqələrini bu və başqa addımlarla daha da möhkəmləndirəcəyik.

**Müxbir**: **Cənab prezident, "Çeşmə"çiləri bağışladığınıza görə təşəkkürümüzü bildiririk.**

**Heydər Əliyev**: Siz bunu niyə belə yavaş deyirsiniz? Bir az bərk deyin, qoy hamı eşitsin. Bəli, gizli bir "Çeşmə" qəzeti var, onun rəhbərləri, onu yaradanlar altı nəfərdir, onlar həbs olunmuşlar, məhkəmə onlara cəza vermişdi. Onların valideynləri, ailə üzvləri də, bəzi jurnalistlər də mənə müraciət etmişdilər. Doğrudur, başım çox qarışıq idi, işim çox idi. Amma işimin çox olmağına baxmayaraq, dünən mən bu məsələni araşdırdım. Məhkəmənin hökmünə də baxdım, prokuroru da çağırdım, başqa adamlarla da söhbət etdim.

Birincisi, gördüm ki, onlar ədalətli cəzalandırılıblar. Çünki, bilirsiniz, gəlin öyrənək. Tənqid lazımdır. Müxalifət hakimiyyəti tənqid edə bilər və etməlidir. Müxalifət olmalıdır. Biz tənqidsiz yaşaya bilmərik. Müxalifət qəzetlərində, yaxud dövlət qəzetlərində, başqa jurnalistlərin tənqidi fikirlərini mən çox hörmətlə qarşılayıram. Çünki hər bir tənqidi fikirdə müəyyən bir nöqsanın aşkara çıxmasına və onun düzəldilməsinə şərait yaranırsa, bu bizə köməkdir.

Ancaq tənqidin həddini keçib böhtanla məşğul olmaq və təhqirə keçmək heç bir kəsə yaramaz. Həqiqətən, jurnalistlər də gərək çalışsınlar ki, özləri özlərini hörmətdən salmasınlar. Gərək jurnalistlər tərbiyəli, ziyalı jurnalistlər olsun, hər şeyin həddini həqiqətən bilənlər olsun. Cılızlıqla, yaxud böhtanla [510-511] hansısa bir sözün kəsərini artırmaq, yaxud hansı bir yalanla, təhqirlə dediyi sözün kəsərini artırmaq mümkün deyil. Bilin, inanın, mən dünya görmüş adamam, – bunlar əhəmiyyətsiz şeydir.

İndi bunlar gəncdirlər, yəqin hesab ediblər ki, bu cür təhqir, böhtan sözləri ilə nəyəsə nail ola bilərlər. Gedib düşüblər cəzaya və cəzaları da ədalətlidir. Mən dünən bunu araşdırdım, məhkəməni də, prokuroru da çağırdım.

Ancaq bunlara baxmayaraq, mən o gənclərin cavanlığını nəzərə alaraq onları bağışlamaq haqqında fərman verdim.

Məsələn, həmin adamlardan birinin atası Ağdamdan qaçqın düşmüş adamdır. Qaçqın vəziyyətində yaşayır. Mən baxıram, – o, sadə bir kişidir, insandır. Özü də mənə deyir ki, bilirsiniz, mənim oğlum həbs olunmamışdan on gün qabaq bir türk jurnalistinin sizin haqqınızda yazdığı kitabı gətirib qiymətli hədiyyə kimi ad günümdə mənə verdi. Bir türk jurnalisti mənim haqqımda türk dilində xırda bir kitab yazıb, deyir ki, oğlum mənim ad günümdə gətirib dedi ki, mən Heydər Əliyev haqqında olan bu kitabı sənə hədiyyə verirəm. Amma bilmirəm, sonra necə olub ki, o gedib bu yola düşüb.

Mən gördüm ki, onun atası nə qədər sadə, nə qədər təmiz ürəkli adamdır. Dünən o birisilərin də ailə üzvləri ilə görüşdüm, danışdım. Doğrudan da yaxşı insanlardır və mənim onlara da, həbsxanada olanlara da rəhmim gəldi. Onları əfv etdim. Güman edirəm ki, məhkəmə də düz edib, mən də düz eləmişəm.

**Sual**: **Cənab prezident, yeni parlamentdən nə gözləyirsiniz?**

**Heydər Əliyev**: Mən yeni parlamentdən güclü fəaliyyət, yeni qanunların qəbul olunmasını gözləyirəm. Azərbaycanda qanunvericilik işlərinin güclənməsini gözləyirəm.

**Sual**: **Konstitusiyada Naxçıvana muxtar dövlət statusu verilməsi nə ilə əlaqədardır? Belə bir müxalif fikir var ki, bu, Dağlıq Qarabağa analoji status vermək məqsədi güdür.**

**Heydər Əliyev**: Elmira xanım, iki gün bundan əvvəl mən konstitusiya komissiyasındakı çıxışımda bu barədə dedim, bir də deyirəm: bu fikirlər araqarışdırıcı fikirlərdir. Naxçıvanın muxtar statusu beynəlxalq müqavilələr əsasında 20-ci illərin əvvəlində verilibdir və buna tam əsas var. Dünyanın unitar dövlətlərinin çoxunun tərkibində muxtar qurumlar var. Onlardan biri də Azərbaycan dövlətidir, Azərbaycanın da içində [511-512] Naxçıvan Muxtar Respublikasıdır.

**Sual**: **Yəni bu, Dağlıq Qarabağa hər hansı bir status vermək məqsədi güdmür?**

**Heydər Əliyev**: Bilirsiniz, mən sizə açıq deyirəm. Nə cür fikirləşirsiniz ki, Dağlıq Qarabağa heç bir status verilə bilməz? Nə veriləcək – bu günün mövzusu deyil. Ancaq heç kəs – meydanda qışqıran ağılsız adamlar fikirləşməsin ki, "gəlin, Dağlıq Qarabağı da dağıdaq, bütün ermeniləri də qıraq". Bu yaramaz bir fikirdir. Elə bu cılız fikirlərin nəticəsində də Azərbaycan belə vəziyyətə düşdü.

Azərbaycan milliyyətindən, dinindən, dilindən, irqindən asılı olmayaraq Azərbaycanda yaşayan bütün insanların vətənidir. O cümlədən Dağlıq Qarabağda yaşayan ermənilərin də vətənidir. Dağlıq Qarabağda yaşayan ermənilər əgər bu təcavüzkar, separatçı hərəkətlərindən əl çəksələr və Ermənistan Respublikası bu hərbi təcavüzdən əl çəksə, bizim şərtlərimiz qəbul olunsa, Azərbaycanın tərkibində Dağlıq Qarabağ yaşayacaq və Dağlıq Qarabağa müvafiq status veriləcək, Ermənistanla Azərbaycan arasında normal əlaqələr yaranacaqdır.

Mən Avropadan gələn müşahidəçilər, o cümlədən Fransanın Milli Məclisi sədrinin müavini və başqaları ilə dünən danışırdım. Fransa Almaniya ilə neçə il müharibə elədi. Fransa Böyük Britaniya ilə neçə il müharibə elədi. İndi bir-biri ilə dost dövlətdirlər və bir ittifaqa daxildirlər. Bu tarix gözünüzün qabağındadır. Kim hesab edirsə ki, biz Ermənistanla əbədi düşmən olacağıq, yaxud əbədi olaraq dava edəcəyik, – bu, böyük səhvdir. Dünya tarixi bunu göstərir.

Rusiya ilə, yaxud Sovet İttifaqı ilə Almaniya arasında böyük müharibə oldu. 50 il keçəndən sonra Almaniyanın, Rusiyanın, Amerikanın, Fransanın başçıları Moskvada bir-biri ilə öpüşürdülər. Hitler faşist Almaniyası Fransanı dörd il işğal etdi. Fransa Milli Məclisi sədrinin müavini dünən mənimlə danışarkən dedi ki, faşist Almaniyası gəlib Fransanı işğal etdiyinə görə o da dörd il qaçqın vəziyyətində olubdur. Dedi ki, sizin qaçqınlardan fərqli olaraq mən çadırda yox, evdə yaşamışam. Bizimkilərin isə əksəriyyəti çadırlarda yaşayır. Amma indi Fransa ilə Almaniya bir-biri ilə dost ölkələrdir. Avropa İttifaqına birlikdə daxildirlər. Bu tarixi unutmaq lazım deyil və bu tarixdən kənara da çıxmaq lazım deyil. Ona görə də bu məsələlərə obyektiv, düzgün yanaşmaq lazımdır.

Sağ olun, sizin hamınıza dəyərli işlərinizdə uğurlar arzulayıram. [512-513]

## ÜÇ QİTƏ BEYNƏLXALQ KİNOFESTİVALININ TƏŞKİLATÇILARI VƏ İŞTİRAKÇILARINA

Əziz dostlar!

Sizi – Nant Beynəlxalq kinofestivalının təşkilatçı və iştirakçılarını Azərbaycan xalqı adından ürəkdən salamlayır və kino sənətinin gələcək inkişafı naminə hamınıza gərgin fəaliyyətinizdə uğurlar arzulayıram.

Kino sənətinin 100 illik yubileyi ərəfəsində Azərbaycan kinosuna retrospektiv baxışın məhz kinematoqrafiyanın vətəni sayılan Fransada keçirilməsini əlamətdar mədəni hadisə kimi qiymətləndirirəm. Azərbaycan və fransız xalqlarını bir-birinə bağlayan mədəni əlaqələr çox qədimdir. İnanıram ki, Azərbaycan və Fransa kinematoqrafçıları bu tarixi ənənələri bundan sonra da sədaqətlə yaşadacaq, kino sənətinə qədəm basan yeni nəslin bu ruhda tərbiyəsinə zəmin yaradacaqlar.

Əminəm ki, humanist ideallara xidmət edən, sülhsevər qüvvələri birləşdirən, Yer kürəsinin müxtəlif dinli, müxtəlif dilli, müxtəlif irqli övladlarının həmrəylik rəmzinə çevrilən Nant festivalı Azərbaycan və Fransanın mədəniyyət aləmi üçün böyük əhəmiyyət kəsb etməklə yanaşı, dünya xalqları arasında dostluq və əməkdaşlığın möhkəmlənməsində unudulmaz tarixi bir mərhələ olacaqdır.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*21 noyabr 1995-ci il* [513-514]

**Kitabın hazırlanmasında iştirak edənlər:**

**Tofiq Babayev, Qəzənfər Zalıyev, Müzəffər Maşayev, Arif Məmmədov, Kamil Muxtarov, Azər Fərzəliyev.**

**Rəssamı *Fuad Fərəcov***

**Redaktorları *Tofiq Babayev, Kamil Muxtarov***

**Texniki redaktoru *Zoya Nəcəfova***

**"Tayms" qarnitur. Formatı 60x90 1/16. Ofset kağızı № 1. Şərti çap vərəqi 32. Uçot nəşr vərəqi 32,5. Tirajı 5000. Sifariş 156. Müqavilə qiyməti ilə.**

**Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyi.**
**Azərbaycan Dövlət Nəşriyyatı. Bakı, – 370005, Hüsü Hacıyev küç. 4.**
**Yığılmışdır "Sərq-Qərb" mətbəəsində. Bakı, Aşıq Ələsgər küç. 17.**

**"Qismət" Nəşriyyat, Poliqrafiya və Ticarət LTD tərəfindən çap olunmuşdur.**